**NAĞDƏLİ ZAMANOV**

# AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA FƏLSƏFİ FİKİRLƏR

***Monoqrafiya XX əsr Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi Aşıq Şəmşirin 125 illik yubileyinə ithaf olunur.***

**“Elm və təhsil”**
**BAKI – 2018**

**AMEA Folklor İnstitutunun Elmi Şurasının
04 iyun 2018-ci il 3 saylı qərarı ilə çap olunur.**

**Elmi redaktoru: Muxtar Kazımoğlu-İmanov**
AMEA Folklor İnstitutunun direktoru, akademik

**Rəyçilər:**
**Məhərrəm Qasımlı**
Azərbaycan Aşıqlar Birliyinin sədri, Dövlət mükafatı laureatı, professor

**İlham Məmmədzadə**
AMEA Fəlsəfə İnstitutunun direktoru, professor

**İsmayıl Məmmədli**
AMEA Dilçilik İnstitutunun şöbə müdiri, professor

**Adil Cəmil**
Ç.Aytmatov adına Beynəlxalq Akademiyanın fəxri akademiki, f.ü.f.d. şair-publisist

**Redaktor: Füzuli Ramazanoğlu**
"Dünya" qəzetinin baş redaktoru, AJB-nin üzvü

**Nağdəli Zamanov. Aşıq Şəmşir yaradıcılığında fəlsəfi fikirlər. Bakı, "Elm və təhsil", 2018, 512 səh.**

Monoqrafiyada XX əsr Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi Aşıq Şəmşirin ümumfəlsəfi fikirləri, o cümlədən Azərbaycan etik və estetik dünyagörüşünün formalaşmasına xidmət edən insan fəlsəfəsi ilə bağlı fikirləri araşdırma predmetinə çevrilmişdir. Monoqrafiya Azərbaycan ədəbiyyatı və folkloru sahələrində fəaliyyət göstərən və təhsil alanlar üçün, eləcə də fəlsəfə, etika, estetika sahəsi ilə maraqlananlar üçün dəyərli vəsaitdir.

**ISBN 978-9952-8176-4-5**

**© N.Zamanov, 2018**

## MÜNDƏRİCAT

Ön söz......................................................................5
Müəllifdən ..............................................................12

### I FƏSİL
### Aşıq Şəmşir yaradıcılığında ümumfəlsəfi fikirlər

1.1. Aşıq Şəmşir yaradıcılığında dialektik qanunlar.......39
1.1.1. Ziddiyyət qanunu ...............................................39
1.1.2. İnkar qanunu.......................................................52
1.1.3. Kəmiyyət dəyişmələrinin keyfiyyətə
keçməsi qanunu ..........................................................68
1.2. Aşıq Şəmşir yaradıcılığında
dialektik kateqoriyalar..................................................76
1.2.1. Zaman və məkan ................................................78
1.2.2. Forma və məzmun..............................................104
1.2.3. Səbəb və nəticə..................................................112
1.3. Aşıq Şəmşir yaradıcılığında insan problemi ...........114
1.4. Aşıq Şəmşir yaradıcılığında cəmiyyət problemi......125
1.5. Aşıq Şəmşir yaradıcılığında elm ............................155
1.6. Aşıq Şəmşir yaradıcılığında ümumbəşərilik və
tarix fəlsəfəsi ............................................................163

### II FƏSİL
### Aşıq Şəmşir yaradıcılığında etika

2.1. Aşıq Şəmşir yaradıcılığında etik dəyərlər..............169
2.1.1. Ədalət .................................................................191
2.1.2. Mərdlik, kişilik ...................................................195
2.1.3. Cəsarət................................................................205
2.1.4. Səxavət, gözütoxluq ...........................................210
2.1.5. Halallıq ...............................................................212

2.1.6. Dostluq ............................................................................218
2.1.7. Zəhmət.........................................................................230
2.2. Aşıq Şəmşir yaradıcılığında dil etikası ..................238
2.3. Aşıq Şəmşir yaradıcılığında dini etika...................276
2.4. Aşıq Şəmşir yaradıcılığında tibbi etika..................317
2.5. Aşıq Şəmşir yaradıcılığında ekoloji etika ..............344
2.6. Aşıq Şəmşir yaradıcılığında ustad-şagird
münasibəti ......................................................................366
2.7. Aşıq Şəmşir yaradıcılığında aşıq sənəti etikası......384

**III FƏSİL**
**Aşıq Şəmşir yaradıcılığında estetika**

3.1. Aşıq Şəmşir yaradıcılığında
gözəllik və onun modifikasiyaları.................................416
3.2. Aşıq Şəmşir yaradıcılığında faciə ..........................448
3.3. Aşıq Şəmşir yaradıcılığında komizm.....................464
3.4. Aşıq Şəmşir yaradıcılığında
sözün estetik tutumu.....................................................481
**Ədəbiyyat**................................................................494

# ÖN SÖZ

Bugünkü Azərbaycan ədəbiyyatının inkişafında aşıq yaradıcılığının mühüm rol oynaması məlum bir həqiqətdir. Azərbaycan xalqının fəlsəfi dünyagörüşünün formalaşmasında aşıq poeziyasının rolundan danışmağa da ehtiyac duyulmur. Maraqlı olan Azərbaycan Tibb Universitetinin dosenti, tibb üzrə fəlsəfə doktoru, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun dissertantı Nağdəli Zamanovun ümumfəlsəfi anlayışları, etik və estetik kateqoriyaları XX əsrin görkəmli söz ustası Aşıq Şəmşirin sadə xalq dilindəki yaradıcılığı əsasında araşdırmasıdır.

Elmi-publisistik dillə qələmə alınan monoqrafiyanın geniş oxucu kütləsinin rəğbətinə səbəb olacağı bəri başdan məlum olur. Müəllif qədim yunan filosoflarından üzü bəri Əl-Qəzali və Mənsur Həllacadək, Nizami, Mövlana Cəlaləddin Rumi, Şəms Təbrizi, Ömər Xəyyam, Füzuli, Şəhriyar, Səməd Vurğundan, necə deyərlər, ədəbiyyatımızda bugünkü külüng vuranlara qədər istinadlar etmiş, fəlsəfi dünyagörüşümüzün fasiləsiz keçdiyi yolu Aşıq Şəmşir yaradıcılığı əsasında analiz edə bilmişdir.

Müasir dövrdə etika fənninin tədris proqramına uyğun olaraq dosent Zamanov kitabın "Etika" bölməsində bir sıra fəsillər – "Dil etikası", "Dini etika", "Tibbi etika", "Ekoloji etika", "Ustad-şagird münasibətləri", eləcə də ən maraqlı olanı "Aşıq sənətinin etikası" fəslini ayırd etmişdir.

Bəşəriyyətin üzləşdiyi ekoloji böhran dövrümüzdə ekoloji elementlər – su (bulaqlar, göllər, çaylar, dənizlər), hava, torpaq – onlara sevgi, onların qorunması yolunda vətəndaş məsuliyyəti baxımından "ekoloji etika" termini yerindəcə səslənir.

Tibbdə qocalmanın ana şərti, əsas şərti hesab olunan ateroskleroz (damarların kirəcləşməsi) prosesinin risk amillərindən biri də sudur ki, məhz Azərbaycan bulaqlarının suyu bu prosesi ləngidən, bu prosesin inkişafına tormozlayıcı təsir edən bir amildir:

Təmiz havan ərmağandı, sovqatdı,
Həmi səadətdi, barlı-baratdı,
Şirin bulaqların abi-həyatdı,
Şəmşir səndə niyə qocalı, dağlar?!

Nağdəli müəllimin ixtisasca həkim olması, Aşıq Şəmşir yaradıcılığında tibbi problemlərlə, tibb işçiləriylə bağlı çoxsaylı misraların səslənməsi, həmçinin tibbi problemlərin həmişə insanların diqqət mərkəzində olması "Tibbi etika" adlı yarımfəslin formalaşmasına gətirib çıxarıb. Tibb işçılərinin xəstələrlə münasibətini Aşıq Şəmşir dilində sadə, anlaqlı qoşma və gəraylılarla oxucuya şatdıra bilib:

Sağ olsun, elcanlı bir cavan oğlan,
İnsanlıqda kamil, sadə, mehriban.
Şəmşirin dərdinə elədi dərman,
Məhəbbəti mənə sarı göründü.

"Aşıq Şəmşir yaradıcılığında cəmiyyət" yarımfəslində namərd insanların cəmiyyətdə özünəlayiq olmayan vəzifə kürsülərinə oturmasını Ustad həmin cəmiyyət üçün bəla sayır:

Gözü görməz ayağının altını,
Namərd ucalanda nə pis olarmış.

Tərəqqidən tənəzzülə enəndə,
Birdən alçalanda nə pis olarmış.

Ölkənin, dövlətin idarəçiliyində kadrların rolu birmənalı və şəksizdir. El içində, cəmiyyət içində rəhbərliyə layiq olmağın hansı mənəvi dəyərlərə malik olması sənətkarın başqa bir qoşmasında aydın şəkildə göstərilir:

Sərraf olub işarədən söz qanan,
Məzmununu, mənasını düz qanan,
Kamil olub bir kəlmədən yüz qanan,
El içində başcıl olacaq bir gün.

"Etibarsız, bivəfa", "qurd balası", "ilan" xislətli şeytana uyan insanları vaxtında tanıyıb onlardan uzaq durmağı tövsiyə edir:

Etibarsız bivəfaya yar olma,
Qurdun balasının qaydına qalma,
İlana inanıb, qoynuna alma,
Bacarsa gözündən vuracaq sənin.

Xəstələrin əhvalının yaxşılaşması yolunda rolu mübahisəsiz sayılan söz "Demişlər" rədifli qoşmanın son bəndində bir həkim resepti, məlhəm kimi təqdim olunur:

Gəl, Şəmşirin taleyinə bax indi,
Mahirənin meyli mənə yaxındı,
Səhər tezdən bir məktubun oxundu,
Ağrı-acım tamam kəsdi, – demişlər.

Müəllif yazır: Ömrünün son illərində yolu xəstəxanalara düşən ustadın iti fəhmi tibb işçisinin əxlaq kodeksini bizə xatırladır. Tibb bacısı necə olmalıdır sualının cavabını "Olsun" qoşmasında bədii-poetik bir dildə çatdırır:

Tibb bacısı gərək olmasın dəli,
Özü yaxşı, xasiyyəti xoş olsun.
Xəlqi sevindirsin onun əməli,
Onda kamal olsun, əqli-huş olsun.

Müəllif haqlı olaraq ustad-şagird münasibətlərini etika bölməsində təqdim edir. Aşıq sənətinin inkişafında vaxtilə mühüm rol oynayan bu münasibətə aydınlıq gətirir, bu gün aşıq sənətinin qarşısında duran tələbləri Aşıq Şəmşir dilində izah edir:

Min döşü atlanan çıxsa meydana
Ələsgərin azarkeşi bil, mənəm.
Danışmıram hədər, üzrü-bəhanə,
Hörmətini pak saxlayan el, mənəm.

"Cəmiyyət fəlsəfəsi" fəslində fərdin cəmiyyətin inkişafında rolu, cəmiyyətin fərdin formalaşmasında xidməti Aşıq Şəmşirin zəngin ədəbi irsi ilə oxucunun diqqətinə çatdırılır. İrsi-genetik qanunları özündə ehtiva edən inkar qanununa görə kadrların işə seçilməsi, dövlətin mənafeyi naminə nəsil-nəcabətin nəzərə alınması baxımından müəllif ciddi şeirləri seçib oxucuya təqdim edə bilib.

Cəmiyyətin quruluş vahidi kimi ailəni götürən müəllif Aşıq Şəmşirin şeirlərində ailənin nizamını, strukturunu, onun etik tərəflərini açıb göstərir:

Səxavətli, dünyagörmüş adama,
Verilsə minnətli pay, geri düşər.
Mərd iyidin yarı, atalar demiş:
Olmasa özünə tay, geri düşər.

Etika bölməsində "Dil etikası"na xüsusi yer verilməsi, Aşıq Şəmşir yaradıcılığı timsalında nitq mədəniyyətimizin inkişafı ayrıca tədqiqat obyekti olmuşdur: "Hamımızın bir ana dili var! Azərbaycan dili! Kifayət edər ki, bu dil bizləri bir ananın övladları kimi birləşdirmək gücündə olan amilə çevrilsin" fikirlərini oxucularla bölüşə bilir:

Deyirlər: oğuldu hər ana doğmuş,
Məlum oldu səni nər ana doğmuş.
Bəlkə ikimizi bir ana doğmuş,
Öyrənmişik anamızdan dili hey".

Monoqrafiyanın üç hissədən ("Gözəllik, "Faciə", "Komizm") ibarət "Estetika" bölməsində, Azərbaycan estetik dünyagörüşünün inkişafında mühüm rol oynayan bu kateqoriyaların aşıq yaradıcılığında araşdırılması diqqətəlayiqdir. Aşıq Şəmşir şeirlərinin timsalında gözəllik və onun modifikasiyaları (füsunkarlıq, qrasiya), eləcə də eybəcərlik, antiestetik kateqoriyalar tədqiqat mövzusu olmuşdur. Bu sahədəki araşdırmalar klassiklərin estetik dünyagörüşləri ilə müqayisəli şəkildə öz həllini tapmışdır.

Müəllif haqlı olaraq qeyd edir ki, utilitar gözəllik elementləri Dədə Şəmşir yaradıcılığında çox da geniş yer almayıb. Əvəzində ülvi gözəlliyə, əlçatmaz, saf, bir sözlə qərəzsiz gözəlliyə həsr olunan şeirlər daha çoxdur. Bu bir

daha dədələşmək yolunu seçən şairlərimizin, aşıqlarımızın zaman-zaman var olacağından xəbər verir.

Müəllif Nizami Gəncəvidən, Molla Pənah Vaqifdən, Aşıq Alıdan, Aşıq Ələsgərdən qrasiyaya aid, füsunkarlığa dair nümunələr gətirir ki, bu da əsərin oxunaqlı olmasını təmin etməklə yanaşı, ədəbi irsimizin möhkəm dayaqlar üzərində bərqərar olmasından xəbər verir. XII əsr Nizami Gəncəvi şeiri ilə XIX əsr Aşıq Şəmşir şeiri arasında aparılan müqayisə, paralel oxucular üçün də maraqlı olardı:

Ox atmaq yerinə, kaman qaşları
Atırdı naz, qəmzə hədəfə sarı.
Qəmzəsi davaya hazırsa hər an,
Yüz sülh görünürdü hər baxışından.

“Yazaq” qoşmasının dördüncü bəndində Dədə gözəlliyin qrasiya adlı modifikasiyasına (duruşda, baxışda maral), estetik komponentlərə (estetik həzzə – xəstəhal olmaq) yer ayırır:

*Duruşda, baxışda* bir *maral* olsun,
Qoy onu görənlər *xəstəhal* olsun.
Gözdə sürmə, ağ üzündə xal olsun,
Ovçu salsa, belə izlərdən yazaq.

Qloballaşma, inteqrasiya kimi anlayışların geniş vüsət tapdığı dövrümüzdə etik dəyərlər üzərində qurulan milli mədəniyyətimizin qorunub saxlanması baxımından Nağdəli Zamanovun oxucularına çatdırmaq istədiyi və nail olduğu məqsəd də elə Aşıq Şəmşir yaradıcılığındakı etik dəyərlərin analizidir. Monoqrafiyanın etika bölməsində əxlaqi dəyər-

lər (ədalət, sədaqət, mərdlik, cəsarət, səxavət, dostluq) antietik, əxlaqa zidd dəyərlərlə (etibarsızlıq, namərdlik, qısqanclıq, qorxaqlıq, xəsislik, düşmənçilik, haramxorluq və s.) qarşılıqlı əlaqədə verilmişdir.

Müəllif monoqrafiyasında haqlı olaraq qeyd edir ki, elmi material məzmunca nə qədər zəngin, həcmcə nə qədər çox olarsa, araşdırmalar maraqlı, nəticələr isə dolğun və qaneedici olar. Doğrudan da Aşıq Şəmşir irsinin rəngarəngliyi, hərtərəfliliyi müəllifə bu missiyanı – Azərbaycan aşıq sənətində fəlsəfi baxışların tədqiqini həyata keçirməyə imkan verib.

Sonda Nağdəli Zamanov araya-ərsəyə gətirdiyi bu monoqrafiyada fəlsəfə ilə folklorun, aşıq yaradıcılığının sintezinə nail ola bilib. Düşünürəm ki, monoqrafiya həm etika, həm estetika, həm də ədəbiyyat sahəsində çalışanların stolüstü kitabı olacaq.

**Məhərrəm Qasımlı,**
*Dövlət mükafatı laureatı, professor*

## MÜƏLLİFDƏN

Dəyərli oxucu!

"Aşıq Şəmşir yaradıcılığında fəlsəfi fikirlər" monoqrafiyasını başa vurduqdan sonra sizlərlə bir söhbətə, sufilər demiş ən ali məqam olan söhbətə ehtiyac duydum. Söhbət məqamı ən səmimi məqamdır ki, bu söhbətə hörmətli yazıçımız Elçinin [38] aşıq yaradıcılığı ilə bağlı söylədiyi fikirlərlə başlamağı qərara aldım: "Aşıq sənəti əslində bir fərdin yaratdığı teatrdır. Aşıq – şairdir. Aşıq yazıçıdır (dastanlar yaradır). Aşıq – dramaturqdur (deyişmələr, dramatik dialoqlar). Aşıq bəstəkardır. ("Dilqəmdən tutmuş "Ruhani"yəcən, "Kərəmi"dən tutmuş "Keşişoğlu"nacan yüzlərlə havacatı kim yaradıb? Naməlum aşıq!). Aşıq – müğənnidir. Aşıq – bugünkü ifadə ilə desək bədii qiraət ustasıdır. Aşıq – instrumental ifaçıdır. Bütün bunların hamısı da bir nəfər, bir fərddir".

Ustadın şeirlərini ilk dəfə oxuyarkən sanki tədqiqat üçün material azlığı hiss edilir. İkinci dəfə oxuyarkən şeirlərdə ciddi material mövcudluğu üzə çıxır. Üçüncü dəfə də isə şeirin bütün bəndlərində analiz üçün material bolluğuna düşürsən.

Allaha məxsus söz dünyasında Aşıq Şəmşirin yeri haradadır sualına aşağıdakı kimi cavab vermək olar. Bəhmən Vətənoğlunun [27] "Söz Allahı" qoşmasında Nizami Gəncəvinin:

"Şeirdən ucalıq umma dünyada,
Çünki Nizamiylə qurtardı o da"

misrasının təsiri ilə yazılmış fikrini burada bir daha yada salmaq yerinə düşər:

Gerçək səndən böyük, səndən uca yox,
Allahım söylətmiş bu sözü sənə.
O vaxtdan səkkiz yüz əlli il keçir,
Hələ yenə yoxdur, yenə yox, yenə.

Oxucu Ustadın "Şəmşirin dilinə dil çata bilməz" misrasında isə özünəinamın, öz qüvvəsini qiymətləndirməyə ilahi bir çağırışın sehrinə düşür. Bir əsri keçən zaman kəsiyində sevimli ola bilmək dədələşməkdir, övliyalaşmaqdır:

İtməz, ruzigarda qaldı nişanam,
Ellərin dilinə düşən dastanam,
İstəkli olana şirinzəbanam,
Şəmşirin dilinə dil çata bilməz.

Şekspirşünas alim, şair-publisist Ənvər Rza [48] hələ zamanında "Fərhad olub" rədifli qoşmasında "tapdaq yolu getməyən, söz atını daşqırlara vurub" sənət zirvəsinə yüksələn Aşıq Şəmşirin qiymətini zərgər dəqiqliyi ilə verə bilib:

Qıy vuranda lal qayalar səksənər-
Fərhad olub, söz dağını çapıb o...
Söz atını vurub selə, daşqıra,
Tapdaq yoldan üz döndərib, sapıb o.

Filosof insanların, düşünən və düşündürə bilən insanların mühüm xüsusiyyətləri onların müşahidəçiliyindədir ki, Aşıq Şəmşir iti müşahidəçiliyə malik zəngin fəlsəfi dün-

yagörüşlü bir sənətkar olduğundan onun həyatın müxtəlif sahələrinə aid şəxsi, başqalarını təkrar etməyən mülahizələri maraqlıdır. Ustadın "Yoxdu" rədifli qoşması tibbi etikaya həsr olunmuş, gözəl bir üslubda yazılmış, düşündürücü və araşdırılmağa layiq şeir nümunəsidir. Qriplə bağlı müəllif yazısında çox yer ayrıldığını qeyd edən "Laçın yurdu" ədəbi-bədii publisistik jurnalın təsisçisi və baş redaktoru, şair-publisist –

Simlər intizarda, barmaqlar şirin,
Hələ heç kəs aça bilməyib sirrin.
Ruhu incik düşər Dədə Şəmşirin,
Ay Cəlal, o sazı ürəksiz çalma. –

misralarının müəllifi Arif Məmmədliylə [13] razılaşdım. Çalışdığım kafedra əməkdaşlarının da xəstəliklə bağlı Ustadın iti müşahidəçiliyinə heyranlığı yazının tam həcmdə verilməsinə səbəb oldu.

Öncə xəstəlik növü sayılan qrip şeytan nəfəsi hesab olunur:

Şeytan nəfəsidi həmin bu qrip,
Daha başqa oxşar nişanı yoxdu.
Neçə il Əyyubu qoyub intizar,
Özüdür ki, o yan, bu yanı yoxdu.

Şeirin sonrakı bəndində qripin yoluxucu olduğunu biləаrək onu insanlara yoluxduranlar qınağa çəkilir, xəstəliyin yoluxucu olması faktı diqqətə çatdırılır.

Eli salıb yaman it azarına,
Baxın körpələrin ahu-zarına,
Lənət gəzdirənə, cilovdarına,
Bunun ki, insafı, vicdanı yoxdu.

Maraqlı olan odur ki, qripin klinik şəkli, klinik mənzərəsi şeir dilində həkim oxucularını heyran qoya bilir, sonrakı bəndlərdə xəstəliyin etiologiyası (törədicilərin növü, sayı) epidemiologiyası (yayılmasını), infeksiyanın güclü virulentliyini, ağırlaşmaları (qanyaradıcı sistemə, eşitməyə, sinir sisteminə olan təsirlər) sərrastcasına təqdim edilir:

Sement-***beton*** olub bunun təməli,
Hər kimə əl çalır, qan qusur, bəli,
Kimini kar edir, kimini dəli,
Qurtarıb əlindən qaçanı yoxdu.

Ən düşündürücüsü odur ki, xəstəliyin cəmiyyətə vurduğu sosial itkilər, eləcə də bir sıra infeksiyalarla bəşəriyyətin mübarizə aparmasını ön plana çəkir, dinindən, dilindən asılı olmayaraq hamını tibbi profilaktikaya, tibbi etikaya əməl etməyə səsləyir. Ən dərin mətləb isə insan haqlarının qorunduğu Qurani-Kərimin konstitusiyalardan çox-çox qabaqlar yarandığını insanlara çatdırmaq idi:

Vurur el-obaya külli ziyanı,
Belə zülmə insan çətin dayanı,
Tanımır bizdəki konstitusiyanı,
Nə əlində köhnə "***Quran***"ı yoxdu.

Aşıq Şəmşir şeirləri onun ilahiyyatla, tarixlə, fəlsəfə ilə yaxından tanışlığının şahidi oluruq:

Deyirlər zülməti gəzib İsgəndər,
Qayıdıb çatmayıb mülkünə qədər.
Dirilik suyundan içsəydim əgər,
Xızr kimi cavan qalardım mən də [3,s.258].

Kəlbəcər ədəbi mühiti, bu mühitdən yararlanan saz-söz adamları Aşıq Şəmşir şeirlərində yeri gəldikcə xalqa tanıdılır:

Var hüsnündə nurdan niqab,
Şəmşir, yazıb bağla kitab,
Min suala verir cavab
Dilavarı Kəlbəcərin [3,s.337].

Ustad ağlın-kamalın satın alına bilinmədiyini, Allahdan verilən "halal baratı"n qədrini bilməyə, təkəbbürün yolverilməz olduğunu qələmə alır:

Şəmşir, bil qədrini halal baratın,
Yaraşığı Koroğlunun Qıratın.
Çətin almaq olar kamalı satın,
Ağılsız kəllələr çaş olsun gərək [1,s.158].

Aşıq Şəmşir yaradıcılığında insan fəlsəfəsinə qısa bir səyahətə də ehtiyac duydum. Həyat və ölüm məsələlərinə filosofların baxışları həmişə fərqli olmuşdur. Aşıq Şəmşir yaradıcılığında bu tip məsələlər islam fəlsəfəsi prizmasında həllini tapır:

Anadan olanda ağlayan insan,
Niyə ağlasınlar öləndə səni?
Dedilərmi yaranmışa ölüm var,
Xəbərdar etdilər gələndə səni?[1,s. 25]

Burada dialektikanın əksliklərin vəhdəti və ziddiyyəti qanunu öz əksini tapır. Ritorik sualla "niyə ağlasınlar"ın cavabı növbəti misrada verilir. Yer üzündəki həyatın müvəqqəti olması fəlsəfəsi ortaya qoyulur.

Aşıq Şəmşir yaradıcılığında estetik və etik fəlsəfə həmişə dialektik vəhdətdədir:

Bilirsən gözəlin gözəldi nəyi?
İnsanlğı, mərifəti gözəldi.
Doğru qəlbi, pak ürəyi, düz sözü,
Xoş sifəti, xasiyyəti gözəldi.

Dədə məclisə, auditoriyaya, oxucularına, yaxud dinləyicilərinə ritorik sualla müraciət edir. Gözəlliyin kriteriyalarını elə özü də açıqlayır. Elə bu açıqlamaları ilə "insanlıq", "mərifət", "doğru qəlb", "pak ürək", "düz söz", "xoş sifət", "xasiyyət" kimi etik-əxlaqi fəlsəfi terminlərlə – etik fəlsəfəmizin lüğətini zənginləşdirir. "Etik dəyərlərə söykənməyən estetik elementlər, hər birimizin özünəməxsus qiymət verdiyimiz estetik elementlər yarımçıqdır, çılpaqdır" fəlsəfəsini ortaya qoyur.

Başqa bir məqamda insanın qiyməti verilir:

Etibarsız kişi, ilqarsız arvad
Qiymətdə bir quru qayığa dəyməz

Xeyrə, şərə yaramayan bir insan
Bostana taxılan oyuğa dəyməz[1,s.44]

"Etibar", "ilqar" kimi etik-mənəvi dəyərlər bu gün də, sabah da öz qiymətini saxlayacaqdır, insanın qiyməti onun cəmiyyət üçün yararlılığında, faydalılığındadır,– prinsipi ortaya qoyulur.

Bu yararlılıq xalqın xeyir-şərinə yarınmaqdan ibarətdir. Estetik fəlsəfənin söykəndiyi qadın gözəlliyi, söz nəhənglərinin söz fırçası ilə əks olunub. Bu tablolar sonda etik elementlərlə harmoniya yaradır. Bu yerdə Dədə Ələsgərlə Dədə Şəmşir paraleli aparmaq oxucular üçün maraqlı olardı. Dədə Ələsgər [17] tablosu:

Nə uzun, nə gödək münasib gərək,
Ağzı-burnu nazik, dodaq kip gərək,
Əndam billur, bədən güldən saf gərək,
Baxtın vura bu nişanda qız ola.

Təkcə "dodaq kip gərək" ifadəsi gözəllərin sirr saxlamasına, boş və əbəs sözlər danışmamağına işarədir. "Bədən güldən saf gərək" ifadəsi isə sağlamlığın əsasında duran bədən gigiyenasının estetik və etik fəlsəfə ilə çulğalaşmasından xəbər verir. Dədə Şəmşir tablosu:

Mirvari dişindi, yaqut xalındı,
Sevgilim xoş olan sənin halındı,
Səhər oxşarındı, nur camalındı,
Sanıram qəmərdi üzün, a gözəl [1,s.127].

Öncə estetik elementlər “mirvari diş”, “yaqut xal” öndə olsa da sonrakı mərhələdə cismani gözəllik öz yerini necə deyərlər Allahın nuruna verir. Gözəl, gözəlin üzü – Allahın nuru olan, kiçik nur hesab edilən Ayla müqayisə olunur.

Estetik zövq aşıq yaradıcılığında şövq kimi başa düşülür. “Ruhun ətir alması”, “şövqün artması” ifadələri bu qəbildəndir:

Baxasan hər yana Kəkil meşədən,
***Ruhun ətir alar*** tər bənövşədən.
Sanki zivərlənib büllur şüşədən,
***Şövqün artar*** çəmən, gülə baxanda.

Aşıq Şəmşir yaradıcılığında Gözəllik Allah nuruna bələnməkdədir, Allah nurundan kənarda gözəllik axtarılmır. “Allah nurundan kənarda gözəllik yoxdur” fəlsəfəsi çox mühümdür. Başqa bir məqamda “Olsun” rədifli qoşmada Aşıq Şəmşir fəlsəfəsi ilə üzləşirik.

Gözəldə gərəkdir bir zərif ürək,
Söyləsin görənlər: ipəkdir, ipək.
Öz işində bir alıcı laçın tək,
Yerdə gəzən, göydə uçan quş olsun. [I,s.137]

Elə bu misralarda da Aşıq Şəmşir tablosu işə düşür: “Zərif ürək”, “ipək” kimi estetik elementlər qoçaqlıq, cəsarət, məğrurluq rəmzi olan “alıcı laçın” etik elementi ilə dialektik bir vəhdət təşkil edir.

Beləliklə, bu kiçik müqayisələrdə – “Aşıq Şəmşir yaradıcılığında insan fəlsəfəsi” gələcəkdə elmi tədqiqat işi kimi

öz həllini gözləyir və bunun həllinin Azərbaycan fəlsəfə tarixinə böyük töhfə olacağı bəri başdan aydındır.

Aşıq Şəmşir yaradıcılığında dini etika dini üslublu şeirlər əsasındqa tədqiq olunmuşdur. Dini səpkili yazıların Ustadın öz yaşadığı dövrdə çap üzü görməsi mümkünsüz idi. Bu səpkidə olan şeirlərin, əlyazmaların əksəriyyətinin başı üzərindən acı yellər əsdi, erməni vandalların törətdiyi Ağdaban faciəsində məhvə məruz qaldı. Çalışdıq ki, əldə qalan əsərlər əsasında Ustadın dini-fəlsəfi dünyagörüşünü ortaya qoya bilək. Bugünkü yaradılan münbit şəraitdə dini tolerantlıqdan danışmaq, bu problemlərin dərinliklərinə baş vurmaq heç də çətinlik törətmir. Kommunist ideologiyasının mövcud olduğu dövrdə, XX əsrin ortalarında və sonunda bunları söyləmək, qələmə almaq bir tərəfdən cəsarət tələb edirdisə, digər tərəfdən ümumbəşəri, ümumislami dəyərlərə sadiqliyin və uzaqgörənliyin bariz nümunəsiydi:

Dini etika çağımızda multikultural dəyərlərlə uzlaşır. Ustad üçün təkallahlılıq dinlərinin əsası Adəm peyğəmbərlə qoyulmuşdur. Adəmi “ata” adlandırır:

Ey Adəm peyğəmbər, sən oldun əzəl,
Dilimdə əzbərim, ay ata, mənim.
Qadiri zülcəlal, baqi ləm yəzəl,
Qoyma kəskin baxtım a yata, mənim.

Növbəti “Oğlum” rədifli qoşmada sonuncu peyğəmbəri – Məhəmmədi (s.ə.s) ata adlandıraraq çağımızda baş verən dini ayrı-seçkiliyə yox deyir, ümməti peyğəmbər yoluna dəvət edir:

Bir "Kün!" kəlmə dedin, ya Kərəm kanı,
Yeri-göyü, asimanı yaratdın.
Ərşi-gürsü Məhəmmədin eşqinə,
Bu gözəl şövkəti, şanı yaratdın.

Aşıq Şəmşir yaradıcılığında əksər təsadüflərdə bir bənd şeirin özündə belə həm ümumfəlsəfi, həm etik, həm də estetik duyğuların, fikirlərin sehrinə düşməyə bilmirsən:

Nər utanar göz vuranda mayadan,
Ağ dumana bürünürsən hayadan.
Qartal, kəklik qulaq asır qayadan,
Aşıqlar sazını çalanda dağlar.

Burada "dağlar" əsas, ana məkan kimi verilir, "ağ duman" ekoloji elementi özündə əks etdirir. Bu məkanda insan amili rolunu "aşıqlar" aparır. Oxucu "Həya" etik dəyərini "insanlaşmış dağlar" timsalında qavrayır, ovçu qartalla ov kəkliyin bir yerdə saza qulaq verməsi dostun da, düşmənin də sazın sehrinə düşüb bu dünyanı unutmasına, ilahi sevgiyə aparan yola qədəm basmasına işarədir. Təkcə bu qoşma bəndi ilə saz nədir, aşıq sənətinin dəyəri nədir suallarına lakonik cavab verilir.

"Oykos"-sığınacaq, ətraf mühit anlamında olan ekologiya Aşıq Şəmşir dilində ekoloji etika səviyyəsinə yüksəlir. Ekoloji etika dedikdə ətraf mühitə əxlaqi cəhətdən düzgün yanaşma başa düşülməlidir. Bu yanaşma hər şeydən əvvəl həmin ətraf mühitə sevgidən başlayır. Sığınacaq yerimiz olan ətraf mühit – hava, su mənbələri (bulaqlar, göllər, çaylar, dəniz), sututar dağlar, çəmənlər, meşələr, bir sözlə insanın salamat qalmasının, mövcudluğunun mühüm

şərti olan ekoloji ünsürlər Ustadın yaradıcılığında ilahi bir əzəmətlə yerindəcə işıqlandırılmışdır. Bu işıqlandırma Azərbaycan dilinin zənginliyi ilə, estetik bir deyimlə cəmiyyətə, vətəndaşlara ünvanlanır:

Loğmanlar anası olan İstisu
Səndə dostlar, mehribanlar görüşür.
Bizə qonaq gəlir eldən, obadan,
Tanış olur nə insanlar, görüşür.

Bu misralardan belə bir fikir, belə bir düşüncə hasil olur ki, təbiət hər bir fərdə təkcə yaşamaq üçün verilməmişdir, həm də insanlar arasında səmimi münasibətlər yaratmağa xidmət edir. Buradan təbiət "insanları bir-birinə sevdirir" müddəası hasil olur.

Estetikada faciə kateqoriyası dedikdə ümumbəşəri idealların məhvinin insan qəlbində paklanma (katarsis) yaratması, Mövlana Cəlaləddin Rumi həzrətləri demiş, buludlar ağlayanda yerdə, insanlar ağlayanda qəlblərdə güllərin açması deyiminə uyğun misralar Aşıq Şəmşir misralarında da özünə yer alır. Aşıq Şəmşir "Baxdım, ağladım" gəraylısında Səməd Vurğunun həyatdan getməsini estetik bir formada, faciə kateqoriyasında çatdıra bilir:

Vurğun gəzən yaylaqlara,
Çöllərə baxdım, ağladım.
Qayıtmadı bu dağlara,
Yollara baxdım, ağladım.

Bu günkü yüksək səviyyədə formalaşan Azərbaycan dili və Azərbaycan nitq mədəniyyəti üçün xalqımızın za-

man-zaman yetişdirdiyi qüdrəli sənətkarlara borcluyuq. Dil varisliyimiz Ustadın şeirlərində özünə yer alır. Azərbaycan şeirinin, Azərbaycan dilinin həmişə var olacağı inamını özümüzə qaytarır: "Sevindim" rədifli qoşmadakı kimi:

Silindi qəlbimdən qəmli hicranlar,
Sənətimə qiymət verir insanlar.
Gör nələr yaradır təzə cavanlar,
Söz bağının boldu barı, sevindim.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan hakimiyyətinə gəlişi hər şeydən öncə dilimizə olan sevgiynən başladı, səlis Azərbaycan dilində çıxışlar auditoriyalara ayaq açdı, əsarətdə qalan "baldan şirin" sözlər şairlərin dilində yeni nəfəs aldı. Elə 1971-ci ildəki "Güllər içində" qoşması da dil siyasətimizə ürəkdən şərik olmaq idi:

Baxirsan qurğuya, hər işi incə,
Elə bil ki, bahar açıb indicə.
*Öz ana dilimiz* baldan şirincə,
Şəkərdi, şərbətdi dillər içində.

Bu məqamda Şəhriyarın Azərbaycan dilinin saflığı uğrunda yazdığı misralar Aşıq Şəmşir misraları ilə həmahəng səslənir:

Türkün dilitək sevgili, istəkli dil olmaz,
Özgə dilə qatsan, bu əsil dil əsil olmaz.

Aşıq sənətinin inkişafında ustad-şagird münasibəti təsəvvüfdəki mürşid-mürid münasibətinin davamı kimidir.

Bu münasibətlərin sovet “saz dərnəkləri” vasitəsilə sarsıdıcı zərbələrə məruz qaldığı dövrlərdə belə Ustad şeir dilində öz mübarizəsini davam etdirə bilmişdir:

“Yerin, göyün, kainatın, səmavatın” bir Ustadından imdad istəyir, bu imdad Əli nökəri, Məhəmməd övladı tərəfindən istənilir. Məğrur aşıq yalvardığı yeri bizlərə tuşudur. Aşıq Şəmşir könüllər taxtının bənzərsiz sultanı, sonuncu dinin peyğəmbəri Məhəmmədin (s.ə.s) əhli beytini özünə mənəvi ustad hesab edir:

İlahi, xəstə Şəmşirə özün elə sən imdadı,
Sən rəhmkarsan Xudaya, hey çağırıram min bir adı.
Yerin, göyün, kainatın, səmavatın bir ustadı,
Əlinin nökəriyəm, mənəm Məhəmməd övladı,
Dərdimə dərman istərəm, yalvara-yalvara, bu gün.

Aşıq Şəmşir yaradıcılığında pessimist ovqata yer yoxdur. Ulu bir şəcərəyə söykənən aşıq, sənətkar babalarını külli Azərbaycana və onun hüdudlarından kənara tanıdır:

Şəmşir bu dövrandan olmadı küskün,
Ustadım Qurbandı-babası Miskin.
Qolum qüvvətlidi, qılıncım kəskin,
Siz də olun tiği-tiz mənim kimi [3,s.268].

Ağdabanlı Şair Qurban, Aşıq Ələsgər ustad kimi həmişə xatırlanır, onların yerlərinin cənnətlik olduğunu şeir dilində çatdırır:

Çəmənlərin müşkü-ənbər,
Cənnətin ətrinə bənzər.
Nə Qurban var, nə Ələsgər,
Baxır həsrət yola yaylaq [3,s.380]

Qrasiya gözəlliyin estetik zövqünü dəfələrlə artırır ki, bu Aşıq Şəmşir yaradıcılığında öz əksini uğurla tapır. Ülvilik, utilitarlıq, gözəllik məfhumları bir yerdə çulğalaşır. Qrasiyanı hərəkətdə olan gözəllik adlandırırlarsa, Aşıq Şəmşir şeirində gözəl hərəkətdə olarkən, iş görərkən qrasiya yaranır:

Mən istərəm gülə, göz-qaş oynada,
Qara xallar nöqtə kimi, boy nida.
Bulaq üstdə samavarı qaynada,
Ağ barmağa qızıl maşa yaraşır [3,s.126].

Bir məqamı da ayrıca qeyd etmək yerinə düşər ki, gözəlliklə bağlı filosofların, estetlərin müxtəlif fikirləri mövcuddur. Əgər Kanta görə gözəllik xalis formadırsa, bu Vaqifdə utilitarlığın (faydalılıq) üstün olduğu gözəllikdir. Nizami Gəncəvidə gözəllik etik dəyərlərlə birgədir, Füzulidə isə surət gözəlliyi arxa plana keçir:

Üzün gördükdə yüz min zahid həsəddən bütpərəst oldu,
Yüz min də brəhmən büt sındırar ey məhliqa gördüm.

Bir Dədə olaraq Aşıq Şəmşir yaradıcılığında da ehtirasa, qərəzə, tamaha səbəb ola biləcək gözəllik önə keçə bilmir. Aşıq Şəmşir poeziyasında da gözəllik islam əxlaqı

ilə yanaşıdır. "Özgəyə aid olan hər bir şeyə – canlı və ya cansıza – göz dikmək haramdır" müddəası həmişə öndədir:

Eşq atından düşən qalır piyada,
Şəmşiri unutma hərdən sal yada.
*Özgənin malısan, a mələkzada,* –
Əzəldən olaydın bizim, gözəl qız.

Bu yaradıcılığın araşdırılması heyrətlərlə müşayiət olundu ki, bu heyrətlər təlaşla, qorxu ilə yox, əvəzində içdə sevgi yaradan, əminlik yaradan, Ulu Tanrıya şükranlıqlar yaradan heyrətlər oldu. Düşüncələrimdə İstisu kimi şəfa bulaqlarını pirə bənzədir, söhbətlərimdə deyirdim ki, necə olur ki, övliyaların, Allah adamlarının dəfn olunduğu qəbirlərin üstünə gedir, həmin övliyaların ruhuna xitabən Allahdan istəklərimizi diləyir və həmin qəbirləri pir adlandırırıq. "Bəyənmədinmi" rədifli qoşmada Aşıq Şəmşirin Böyük Pirini kəşf edirik:

Sınaqlı ocaqdı – bilir mahallar,
Gəlir şəfa tapır, şillər, topallar.
Niyə səni sevindirmir bu hallar,
Belə **böyük piri** bəyənmədinmi?!

Elə Ustadın böyüklüyü də araşdırıcıda və oxucuda heyrət yaratmağındadır. Böyüklərimiz bu gün işğal altında olan diyarlardakı bulaqların suyunu Abi-kövsərə bənzətmişlər. Təəssüflər olsun ki, həmin bulaqların başında da spirtli içkilər özünə yer tapa bilmişdi. Dədənin uzaqgörənliklə söylədiyi aydın təfəkkürə söykənən ali fikirlərini "Səd heyf, heyf" qoşmasında tapır və bu uzaqgörənliyə

valeh olmaya bilmirsən. Qoşmanın bir bəndində spirtli içkilərin törətdiyi fitnə-fəsaddan söz açılır ki, kamal, ağıl sahiblərinin başını itirməsi, "qardaşın qardaşı tanımamasından dəhşətli nə ola bilər" müddəasını şeir dilində oxucuya çatdırır:

Hallanır, tanımır qardaş-qardaşı,
Atır badələrin döyül ataşı.
Kamal sahibləri itirir başı,
İsmət, məharətə səd heyf, heyf.

Dəyərli oxucum! Xəyalımdan keçirirəm ki, nə yaxşı olar ki işğaldan azad olandan sonra həmin cənnətmisallı torpaqları içkisiz diyarlar elan edək! Fərq etməz spirtli və ya spirtsiz içkilər. O diyarlara Allah-Təala sağlamlıq mənbəyi olan adi və mineral bulaq sularını ərmağan etmişdir. Bu da belə bir arzu! Allah qəbul etsin!

Azərbaycanımızı müstəqillik yoluna aparan şəxs – Ümummilli lider Heydər Əliyev haqqında Ustadın uzaqgörən fikirləri də oxucularımız üçün maraqlı olardı. Keçən əsrin sonlarında ulu öndərimiz Heydər Əliyevə Sovet dövlətinin, Sovet hökümətinin ən yüksək mükafatı olan Sosialist Əməyi Qəhrəmanının II Qızıl Ulduzu təqdim olunanda yazdığı şeirin bir parçası insanın cəmiyyətdə tutduğu mövqe (forma) ilə, onun daxili qabiliyyəti, təfəkkürü (məzmun) arasında dialektik vəhdətdən xəbər verir:

Azərbaycanımın igid oğluna,
Qızıl Ulduz qoşa-qoşa yaraşır.
Alqış kamalına, alqış ağlına,
Zərli tac kamallı başa yaraşır.

Hələ sovetlər dönəmində Azərbaycanın uğurlarına dastan qoşmaqla aşıqları ictimai-sosial hadisələrə münasibətdə ayıq-sayıq olmağa səsləyir:

Eşidirəm verilişlərdə: hər gün ucalır başım,
Azərbaycan təriflənir, gəl sevinək qardaşım.
Qocaman Aşıq Şəmşirəm, səksəni keçib yaşım,
Hələ yazıb-yaradıram növrəstə oğlan kimi

Hörmətli oxucu monoqrafiyanın yazılmasından öncə bir sıra mətbu orqanlarda, o cümlədən "Dünya" qəzetində işıq özü görən məqalələrimin ("Aşıq Şəmşir yaradıcılığında söz", "Aşıq Şəmşir yaradıcılığında etik və estetik dəyərlər" və s.) çapı və bu çap olunan yazılara verilən oxucu dəstəyi, eləcə də elmi ictimaiyyət tərəfindən, necə deyərlər, bu yazıların müsbət qiymətləndirilməsi sizlərə təqdim edə bildiyim monoqrafiyanın araya-ərsəyə gəlməsinə gətirib çıxartdı.

Şeirlərinə nikbin fəlsəfi çalarlar hopmuşdur ki, məhz bu nikbinliyin təsirinə düşən oxucuda həyat eşqi yenidən güclənir:

Şəmşir bir möhnətə olanda düçar,
Atalar demişdir: ağlama naçar,
Qapını bağlayan vaxt olar açar,
Çox darıxma, ay füqarə, – deyərlər [2,s.251].

Mən düşünürəm ki, bu monoqrafiya dialektik qanunların sadə, xalq dilində tələbələrə çatdırılması baxımından dərslik rolu oynayacaqdır.

Dilimizin inkişafına öz əsərləri ilə böyük, möhtəşəm töhfələr verən Aşıq Şəmşir səmimiyyətə, qətiyyətə söykənərək el-obaya yazdığını dilə gətirir. Elə-obaya həsr olunan yazılarsa əbədidir:

Aldım qələmimi əlimə, yazdım,
Qadağa vermədim dilimə, yazdım,
Çoxunu obama, elimə yazdım,
Sözdən qala çəkdim bu dağlar kimi.

Ümumbəşərilik, beynəlmiləllik ideyaları kamil sənətkarlara aiddir ki, bu dəyərlər Aşıq Şəmşir yaradıcılığında da xüsusi yer tutur. Ustad millilikdən ümumbəşəriliyə yüksələn sənətkarlardandır.

Biz demişik sülhə gəlin, dünyanın insanları,
Yer üzünün məzlumları, hər yanın insanları.
Yoldaş olun, qardaş olun – cahanın insanları,
Bir atanın oğlu kimi, bir ana doğan kimi [2,s.299].

Elə bu ümumbəşərilik ideyası Ustadın atası Ağdabanlı Şair Qurbanın [4] insanları düz yola çağıran "Yoxdu-yox" divanisində də öz yerini alır:

Kainatda ruzi boldu, hər gələn can dolanır,
Yaranmışın qismətini verir sübhan, dolanır!
Afrikada vəhşi pələng, sürü aslan dolanır,
Bir-birinə qənim deyil, onlar asan dolanır,
Öz nəslinə qənim olan başqa bir can yoxdu-yox!

Muğamatımızın və saz sənətimizin son illər yüksək pillələrə çıxmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rolu şəksizdir. Bu əsər də milli ədəbiyyatımızın inkişafında, eləcə də ədəbiyyatımızın dünya ədəbiyyatına qovuşmasında Mehriban xanımın məqsədyönlü siyasətinə xidmət edən bir əsərdir. Təsadüfi deyil ki, Ulu Şəhriyar [100] hələ zamanında yazırdı:

Ölkəyə bilək də, göz də gərəkdir,
Qılıncla bərabər söz də gərəkdir!
Kimin güclüdürsə şeiri-sənəti,
Onun əbədidir mədəniyyəti!

Bircə fikri inamla söyləyə, qətiyyətlə deyə bilərəm. Rahat uyuya bilərsən Ustad! Bu gün qədirbilən xalqın yadındasan, yaddaşındasan! Şöhrətinin sorağı torpağına qarışdığın Murovun, Kəlbəcərin sərhədlərini çoxdan aşıb. Azərbaycanımızın hüdudlarından çox uzaqlarda şeirlərin oxunur, dürr kimi işıq saçan misraların Təsəvvüf əhlini düşündürməkdədir:

Çatanda ömrünün sanı Şəmşirin,
Bir quşdu cəsəddə canı Şəmşirin,
Adı sağdı, özü hanı Şəmşirin,
Qohum, qardaş onda yada sala hey [3,s.253].

Aşıq Şəmşir yaradıcılığı ilə bağlı sizlərlə olan bu şirin söhbətimizin davamı kimi monoqrafiyanı ixtiyarınıza buraxır, gözünüz nurlu, canınız sağlam olsun arzusuyla sizlərdən ayrılır və bunları deməyi özümə borc bilirəm: “Dəyərli oxucu! Tənqidi fikirlərinizi, təkliflərinizi göndərərək müəl-

lifə kömək göstərməklə bu mühüm elmi-tədqiqat işinə qoşulmuş olarsınız. Bu işdə sizə uğurlar diləyirəm!"

Sonda monoqrafiyanın formalaşmasında istifadə etdiyim ədəbiyyatın müəllifləri olan, haqq dünyasına qovuşan övliyalarımızın, dəyərli alim, şair və yazıçılarımızın ruhları qarşısında baş əyir, qəbirləri nurla dolsun deyirəm. Bu gün bizlərlə çiyin-çiyinə çalışan AMEA Folklor İnstitutunun, AMEA Fəlsəfə İnstitutunun əməkdaşlarına, yazıçı-publisist, şair Qənbər Şəmşiroğlunun başçılıq etdiyi Aşıq Şəmşir Mədəniyyət Ocağı İctimai Birliyinə, Respublika Dövlət Mükafatı Laureatı, professor Məhərrəm Qasımlının rəhbərlik etdiyi Respublika Aşıqlar Birliyinə, "Dünya" qəzetinin redaktoru Füzuli Ramazanoğluna, xoş arzu və təkliflərini irəli sürən, monoqrafyanın oxucu-rəyçilərinə, – şair-publisistlərə – Yusif Hüseynə, Arif Məmmədliyə, Mütəllim Həsənova, Araz Yaquboğluna, "Elm və təhsil" nəşriyyatının əməkdaşlarına, bu işdə mənə mənəvi köməkliyini əsirgəmiyən hər bir Şəmşirsevərə, hər bir vətən övladına təşəkkür edirəm.

# I FƏSİL
# AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA ÜMUMFƏLSƏFİ FİKİRLƏR

“Fəlsəfə” sözü yunan mənşəli olub, “hikmətə” (sofiya) “məhəbbət” (fileo) deməkdir. Bəzi tarixi sənədlərə görə bu sözün yaranması Herodot, Heraklit və Pifaqorun adı ilə bağlıdır. Bu sözü ilk dəfə Pifaqor (e.ə. təqribən 580-500-cü illər) müdrikliyə və düzgün həyat tərzinə can atan insanlar barəsində işlətmişdir. Lakin bu sözün mənasını ilk dəfə Platon (e.ə. 428-348-ci illər) və Aristotel (e.ə. 384-322-ci illər) dərindən təhlil etmişlər [98].

Dünyagörüşü ictimai və fərdi şüurun mürəkkəb, sintetik və inteqral nə varsa yaratdığıdır, törəməsidir. ***Fəlsəfə*** şüurun dünyagörüşü formasıdır. Ümumiyyətlə, dünyagörüşü dünyaya baxışı ifadə edir. Daha dəqiq desək, ***dünyagörüşü*** dünya və dünyada insanın yeri haqqında təsəvvürlərə deyilir. Rus filosofu Vladimir Solovyov dünyagörüşünü «əqli pəncərə» adlandırmışdır. Onun müxtəlif komponentləri – bilik, əqidə, etiqad, əhvali– ruhiyyə, cəhdlər, ümidlər, mənəvi dəyərlər, normalar, ideyalar və s. vardır. Dünyagörüşün strukturunda dörd əsas komponenti ayırmaq olar.

**1. İdraki komponent** – gündəlik, peşə elmi və s. Ümumiləşdirilmiş biliklərə əsaslanır. Həmin komponent dünyanın universal və konkret elmi mənzərəsini, fərdi və ictimai idrakın ümumiləşdirilmiş və sistemləşdirilmiş nəticələrini, bu və ya digər insan birliklərinin, xalqların yaxud dövrlərin təfəkkür üslubunu təmsil edir.

**2. Dəyər – normativ komponenti** – özünə dəyərli idealları, əqidələri, etiqadları, normaları, direktiv əməlləri

və s. daxil edir. Dünyagörüşün əsas təyinatlarından biri təkcə insanın hansısa ümumiləşdirilmiş biliyə arxalanması deyil, həmçinin onun müəyyən ictimai nizamlayıcılarla fəaliyyət göstərməsidir. ***Dəyər*** – bu və ya digər predmetin xassəsi, insanların arzu və tələbatlarının ödənilməsidir. İnsanın dəyərlər sisteminə xeyir və şər, xoşbəxtlik və bədbəxtlik, həyatın məqsədi və mənası haqqındakı təsəvvürləri də daxil ola bilir. Məsələn, *həyat* – insanın başlıca dəyəridir;

İnsanın təhlükəsizliyi – böyük dəyərdir və s. İnsanın dünyaya və özünə münasibəti sayəsində müəyyən dəyərlər ierarxiyası formalaşır ki, onun da zirvəsində bu və ya digər ictimai ideallarda əks olunan mütləq dəyərlər durur. İnsanın digər insanlarla münasibəti, sabit, təkrar – təkrar qiymətləndirilməsi sosial, əxlaqi, dini, hüquqi və s. normalara çevrilir. Həmin normalar isə ayrı-ayrı fərdlərlə yanaşı, bütövlükdə cəmiyyətin gündəlik həyatını nizamlayır. Burada məcburi əmredici element üstünlük təşkil edir.

**3. Əxlaqi – iradi komponent** – bilik, dəyər və normaların praktiki olaraq reaallaşmasında mühüm rol oynayır. Deməli, burada emosional iradi mənimsəmə, ümumi baxışların şəxsi baxış, əqidə və inama çevrilməsi üçün vacib şərtdir. Bu, həmçinin müəyyən psixoloji qaydaların işlənilməsinə imkan verir. Həmin qaydaların formalaşması dünyagörüşü komponentini təşkil edən emosional – iradi formada həyata keçir.

**4. Praktiki komponent** – dünyagörüşün digər komponentləri içərisində özünə məxsus yer tutur. Dünyagörüşü – sadəcə olaraq biliyin, əqidənin, dəyərlərin, qaydaların ümumiləşdirilməsi deyil, konkret şəraitdə müəyyən davranış tipinə insanın real hazırlığıdır. Praktiki komponent

olmadan dünyagörüşü ifrat dərəcədə mücərrəd, qeyri – real xarakter daşıya bilərdi. Əgər hətta bu dünyagörüşü insanı həyatda fəal, əməli mövqe tutmağa deyil, seyrçi olmağa istiqamətləndirirsə də, bütün hallarda davranışın müəyyən tipini stimullaşdırır, proyektləşdirir. Yuxarıda deyilənlərə əsasən tərif versək, dünyagörüşü insanın dünyaya münasibətini müəyyənləşdirərək baxışların, dəyər, norma və qaydalarının məcmusu olub, onun davranışının istiqamətləndiricisi və tənzimləyicisi rolunda çıxış edir [8,s.26-28].

Ədəbiyyatı fəlsəfə ilə bağlayan odur ki, fəlsəfə kimi ədəbiyyat da gerçəkliyin mənəvi qavranılması üsuludur. Fəlsəfənin və bədii ədəbiyyatın qarşılıqlı təsiri və bir-birini qarşılıqlı zənginləşdirməsi bununla şərtlənir. Ədəbiyyatın axtarış sahəsi həmişə fəlsəfi məsələləri də əhatə etmişdir. Fəlsəfə çox vaxt ədəbiyyata müraciət edir, yazıçı şüurunun süzgəcindən keçmiş və ədəbiyyat qanunları üzrə təqdim olunmuş ədəbi faktlardan istifadə edir. Söz ustaları, mütəfəkkir yazıçılar da öz növbəsində həyatın ali mənası konsepsiyasını, mənəvi idealları fəlsəfədən əxz edirlər [98,s.31]. Aşıq yaradıcılığında da ədəbiyyatla fəlsəfə arasındakı vəhdət gözlənilir, Ustad aşıqlar heç də fəlsəfə elmini əxz edib sonralar şeir yazanlar yox, ilahi bir fəhmlə yaradanlardır. Sonralar filosoflar aşıq yaradıcılığında, necə deyərlər, bu fəlsəfəni "kəşf edirlər".

İndiyədək aşıq yaradıcılığı ilə fəlsəfə dünyagörüşü arasındakı əlaqəyə ciddi fikir verilməmişdir. Fəlsəfənin siyasiləşdirildiyi, partiyalılığa bölündüyü dövrlərdə bu belə də olmalıydı. Xalq dilinin dərin qatlarına enən aşıq yaradıcılığında fəlsəfi şüurun aşkarlanması mühüm elmi araşdırmalar tələb edir.

Akademik İsa Həbibbəyli öz məqaləsində bir daha aşıq-şair ayrıseçkiliyi salanlara Aşıq Şəmşir timsalında tutarlı cavab verir. Məqalədə eləcə də, aşıqların da şairlər kimi ictimai-siyasi təfəkkür adamları olmasını gündəmə gətirir: "Aşıq Şəmşirin bir çox şeirləri dövrünün yazılı ədəbiyyat poeziyası ilə səsləşir. Odur ki, Aşıq Şəmşirin bir çox qoşmasını, gəraylısını imzasını bilmədən götürüb oxusaq, həmin şeirlərin Osman Sarıvəllinin, İslam Səfərlinin, Hüseyn Arifin, yaxud hər hansı digər bir tanınmış şairin ola biləcəyini asanlıqla ehtimal etmək mümkündür. Yəni Aşıq Şəmşir şeiri o qədər mükəmməldir, yazılı poeziyaya o səviyyədə yaxındır ki, onun şeirlərini böyük ədəbiyyatın klassik nümunələri ilə yanaşı qoymaq mümkündür.

Bu da onu göstərir ki, Aşıq Şəmşir bədii istedadla yanaşı, həm də ictimai təfəkkürü olan görkəmli bir sənətkardır. Və bu cür qüdrətli sənətkarlar xalqın, müllətin yaddaşında və qəlbində əbədi yaşamaq haqqına malikdirlər" [59].

Fəlsəfədə insan, onun dünyada yeri, dünyanın inkişafında rolu məsələləri filosofları həmişə düşündürüb. Müdrikliyi sevmək kimi qiymətləndirilən fəlsəfəyə ulu öndərimiz Heydər Əliyev elə müdrikcəsinə də tərif verir: "Müdriklik təkcə insanların elmi, biliyi, təhsili ilə bağlı deyildir. Müdriklik insanın fitri istedadıdır. Müdriklik insanın həyatı dərk etməsi, gedən proseslərə düzgün qiymət verə bilməsi və ondan özü üçün lazımi faydalar götürməsidir" [57, IVc.]. Yer üzünün əşrəfi sayılan insana münasibət ağıllı, zəkalı bəşər oğlunu bu gün də düşündürməkdədir.

Artıq qeyd etdiyimiz kimi, Pifaqor filosof dedikdə yüksək müdrikliyə və düzgün həyat tərzinə malik olan və

öz biliyini daim təkmilləşdirən adamları nəzərdə tuturdu. Fəlsəfə də din kimi özünün yaranmasında mifologiyaya borcludur. Təsadüfi deyildir ki, mifologiyadan iki qol ayrılır. Onlardan biri dinə, ikincisi isə fəlsəfəyə aparır. Lakin dindən və mifologiyadan fərqli olaraq fəlsəfi fikir dünyanı anlamağın yeni, orijinal tipidir.

Bunun möhkəm özülü isə əql və məntiqi təhlil, ümumiləşdirmə, nəticə, sübutlar vasitəsilə dinin təbliğ etdiyi fantastik ruhu aradan qaldıraraq, onları xəyali yaradıcılıq sahəsinə sıxışdırmasıdır. Digər tərəfdən, xalqlar arasında mövcud olan miflər fəlsəfə tərəfindən tənqidi təhlil süzgəcindən keçirilmiş və əsl qiymətini ala bilmişdir [8,s.38].

Əksər vaxtlarda Ustadın şeirlərinə diqqətlə nəzər saldıqda bir qoşma bəndində bir neçə fəlsəfi kateqoriyanın harmonik şəkildə çulğalaşmasının şahidi oluruq:

Cənnətə bənzərdi bahar çiçəyi,
Yazdı, yaydı, ilimizin göyçəyi.
Payız xəzan qoyur qara birçəyi,
Zimistanda yağır qar, bilirsənmi?! [2,s.53]

Yuxarıdakı "Bilirsənmi?!" ritorik suallı qoşmada insan ömrü (zaman kateqoriyası) ilin fəsillərinə bənzədilir. İlk uşaqlıq illəri – bahar, gənclik və orta yaş – yaz, yay, ahıl yaş dövrü – payız, ömrün son illəri – qış kimi təqdim olunub. Forma və məzmunun dialektik vəhdəti Cənnət-bahar çiçəyi, ilin göyçəyi – yay, xəzan – payız, qar-zimistan. Eləcə də yaş artdıqca (kəmiyyər artdıqca) yeni keyfiyyətlər (xəzana dönmüş birçək, zimistanda qar) meydana çıxır.

Fəlsəfə elmi məzmuna malikdir, buna görə o, elmdir. Fəlsəfə fikrin aynca və xüsusidən ümumiyə, hadisədən mahiyyətə doğru hərəkətini nəzərdə tutur. Fəlsəfənin vəzifəsi, obrazlı şəkildə desək, ağacların sayına əsasən canlı meşəni, onun dolğun mənzərəsini gormək, bir-birini əvəz edən təlimlərdə ən səciyyəvi və davamlı cizgiləri, üstünlük təşkil edən meyilləri aşkar etməkdir.

Fəlsəfə elmdir, lakin o, bütünlüklə elmdən ibarət deyildir. İlk novbədə, dünyagörüşünün kateqorial refleksiyası olan fəlsəfə təkcə elmin deyil, bütovlukdə mədəniyyətin, bütün insani munasibətlər sisteminin, insanın quvvələrinin mahiyyətinin həmin munasibətlərdə təzahur etməsi baxımından, insanın dünyada tutduğu yeri dərk etmək mövqeyindən özünüdərk kimi çıxış edir. Əgər fəlsəfəyə bu cür yanaşsaq, o, ontoloji və qnoseoloji məzmunla bitmir. Fəlsəfədə əsas yeri aksiologiya tutur.

Fəlsəfə elmi-idrak fəaliyyətinin xüsusi növü olmaqla onun öz mövzusu, vasitələri, son məhsulları, subyektləri və digər struktur elementləri vardır. O, əsas etibarilə insana, onun daxili həyatına və ruhuna yönəlmişdir [98,s.17-18].

Bu gün də fəlsəfəni ateizmlə bağlamaq meyllərinə tutarlı cavab kimi İslam fəlsəfəsini misal çəkmək olar. Təsadüfi deyildir ki, Hegel dialektikası Mövlana Cəlaləddin Rumi fəlsəfəsindən qaynaqlanır. Mövlanadan gətirilən sitat dediklərimizə əyani misal ola bilər: “Hər meyvənin içi qabığından yaxşıdır. Sən də bu bədəni qabıq, o qəlbdə yer verdiyin dostu, sevgilini iç olaraq bil. İnsanda çox gözəl bir iç, bir cövhər vardır ki, o da Allahın insana üfürdüyü ruhdur. Əgər həqiqətən insansansa, insan olmaq istəyisənsənsə, Allahın sənə verdiyi o cövhəri sən də axtar! Onu tapmağa çalış!” [40].

Dini məsələlərə incəliklə, diqqətcilliklə yanaşan Aşıq Şəmşir öz məsuliyyətini də yaddan çıxarmır, sənət əhlini də ayıq olmağa çağırır. Bir nəfər aşıq Aşıq Hüseynin "İnsan ruhu yaranandan danışaq" şeirini yazıb Aşıq Şəmşirə göndərir. Aşıq Şəmşirin də "Danışaq" rədifli qoşmasında yuxarıdakı məsələlərə aydınlıq gətirilir:

Bu sızqa sulara qoşulub axma,
Topa qarşı hər boş tüfəngi çaxma,
Barmağın sığmayır, kəlləni taxma,
Qoy başımız çıxan sandan danışaq [2,s.290].

Bu qoşma bu gün də özünü filosof adlandırıb islami dəyərlərimizə gözucu baxanlara tutarlı cavabdır.

# 1.1. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA DİALEKTİK QANUNLAR

## 1.1.1. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA ZİDDİYYƏT QANUNU

Ziddiyyətlər özləri də dəyişilir, hərəkətdə olurlar. Onların qarşılıqlı təsiri həm özlərini, həm də ümumi sistemdə olan dəyişikliklərə təsir edən maddələr mübadiləsi, enerji və informasiya ilə əlaqədardır. Aparıcı ziddiyyətlərin kəmiyyətcə və keyfiyyətcə üstünlüyü sistemin hərəkət və inkişafına istiqamət verir. Bu üstünlük əvvəl gizli, potensial, sonra isə aktual olur. Ziddiyyətlərin intensivliyi, kəskinliyi və yetkiniliyi də dəyişir. Bu ziddiyyətlərin özünün inkişafının mərhələliyi problemi də kifayət qədər olmamışdır. Əslinə qalanda ziddiyyətlərin inkişafında aşağıdakı mərhələləri, yaxud vəziyyətləri ayırmaq lazımdır: 1. Harmoniya; 2. Disharmoniya və 3. Münaqişə. Hələ Heraklit qeyd edirdi ki, harmoniya ziddiyyətlərdən (əksliklərdən) ibarətdir. Aristotelə görə, «harmoniya, ümumiyyətlə ziddiyyətlərdən (əksliklərdən) yaranır». Yaxud da, «harmoniya müxtəlif fikirlərin razılığıdır». Disharmoniya ümumi strukturun laxlaması ilə bir tərəfin digər tərəfin hesabına inkişaf etməsi ilə əlaqədardır. Ziddiyyətlər, hər şeydən əvvəl, prosesdir. **Birincisi**, ziddiyyətlərin vəziyyəti ziddiyyətləri təşkil edəndir. Əslində, artıq qeyd edildiyi kimi, ziddiyyətlər dəyişməz qalmır. **İkincisi**, ziddiyyətlər aradan qaldırılır. Bunun üçün isə, əlavə hərəkət üçün maddələr, enerji və informasiya sərf olunur.

Müxtəlif ziddiyyətlər və onların müxtəlif təsnifatı mövcuddur. Onlardan əsası gerçəkliyi əhatə etməyə görə

bölgüdür. Aşağıdakı iki tip məlumdur: 1. Ümumdialektik, yəni maddi və mənəvi gerçəkliyi əhatə edən və 2. Spesifik–dialektik ziddiyyətlərdir ki, onlar da öz növbəsində iki tipə bölünür: a) maddi sistemlərin ziddiyyətləri (predmet ziddiyyətləri) və b) idrakın predmet ziddiyyətləri.

Ümumdialektik ziddiyyətlər də növlərə bölünür. Bunlar daxili və xarici ziddiyyətlər, antaqonist və qeyri-antaqonist ziddiyyətlər, konstruktiv və destruktiv ziddiyyətlər və s.-dən ibarətdir.

Daxili ziddiyyətlər müəyyən predmetin bir-birinə əks tərəflərinin qarşılıqlı təsiri, mübarizəsidir. Xarici ziddiyyətlər isə müəyyən predmetin onu əhatə edən mühitlə, bu mühitdəki predmetlərlə ziddiyyətli münasibətləridir. İnkişaf həm daxili, həm də xarici ziddiyyətlərlə müəyyən olunur. Antaqonist ziddiyyətlər sosial qüvvələr (sosial qruplar, siniflər) arasında olan ziddiyyətlərdir. Qeyri-antaqonist ziddiyyətlər fərdlərlə, sosial qruplar və ölkələr arasında olan ziddiyyətlərdir. Onların başlıca mənafeləri bir-birinə uyğun gəldiyindən aralarında olan ziddiyyətlər də qeyri-antaqonist olur. Əsas ziddiyyət inkişafda başlıca, aparıcı rol oynayır və bütün başqa ziddiyyətlərə təsir göstərir.

Dialektikanın nəzərdən keçirilən üç qanununun inkişafı üç müxtəlif tərəfdən xarakterizə edilir. *Dialektik ziddiyyətlər qanunu inkişafın mənbəyi, impulsudur*. Kəmiyyətin keyfiyyətə keçməsi qanunu yeni keyfiyyətlərin yaranması mexanizmidir; dialektik sintez qanunu mütərəqqi istiqamətlənmiş dəyişikliklərin xarakter və formasını ifadə edir. Birinci qanun inkişaf niyə baş verir sualına, ikinci qanun isə inkişaf necə baş verir sualına cavab verir.

Üçüncü qanun – irəliyə doğru inkişafın xarakteri necədir sualına cavab verir. Dialektikanın bu üç qanununun

qarşılıqlı təsiri nəticəsində dialektik keçid və əlaqələrin vahid sistemi yaranır. Həmin sistemin hər bir elementi öz xüsusi funksiyasını yerinə yetirir, bununla da məcmu hərəkəti ilə bütün gerçəkliyi əhatə edir.

Ümumiyyələ, inkişaf qanunları kompleksində mərkəzi yeri dialektik ziddiyyətlər qanunu tutur [8,s.332-333].

Belə demək mümkünsə dialektik qanunları filosoflar yaratmamış, kəşf etməmişlər. Böyük Yaradanın kainatı idarə etdiyi qanunları müşahidə edib nəticə çıxaran şəxsləri xalq sadəcə filosof, adlandırmışdır.

Aşıq Şəmşir əksliklərin ziddiyyəti qanununu – təkcə bu qanunu dilə gətirməklə, "tərəqqi-tənəzzül"ü ortaya qoymaqla insanları düz yola çağırır:

*Tənəzzül, tərəqqi* var bu dünyada,
Şahı Süleymanı bir salın yada.
"Dünən atlı – bu gün qalır piyada"
Bir misaldır, el-aşkara deyərlər [2,s.251].

Əksliklərin ziddiyyəti qanunu Aşıq Şəmşirin divanilərində də öz yerini tapır. Bu dialektik qanun həm təbiətə, həm cəmiyyətə, həm də ideyalara tətbiq olunur. "Bir tərəfdən" və əks "bir tərəfdən" olmaqla bu qanun "Hanı? – 2" divanisində oxuculara lətif şəkildə çatdırılır:

Bir tərəfdən boşalanda bir tərəfdən doldurur,
Bir tərəfdən lalə açır, bir tərəfdən soldurur.
Bir tərəfdən hey yaradır, bir tərəfdən öldürür,
Çərxi-dövran, sənin kimi könlü, gözü dar hanı? [2,s.16].

"A dünya" rədifli qoşmada dünyanın əksliklər üzərində qurulduğu, "dünyada mövcudluğun başlıca şərti-əksliklər üzərində qurulmaqdır" müddəasını gündəmə gətirir:

Bir günün şadlıqsa, bir günün vaydı,
Bir günün yas günün, bir günün toydu,
Qılıncın dəyməmiş kimləri qoydu,
Qalan varsa, qoyma apar, a dünya [2,s.147].

"Pul" divanisində hər bir maddənin, cismin, hadisənin iki tərəfinin, iki qütbünün olduğu fəlsəfəsini irəli sürür, bu divanidə pulun özünün ikili xüsusiyyət daşımasını bariz şəkildə göstərir:

Mollanı yoldan çıxarır, qazını mürtəd edir,
Sərxoşları xalq içində necə bihörmət edir,
El üçün yollar çəkir, millətə hörmət edir,
Əqli kamal olanlara bir şövkətdi, şandı pul! [ 2,s.45].

Həyatın, cəmiyyətin dialektik qanunlarla Allahın iradəsində olduğunu dərindən-dərinə dərk edən Ustad digər klassiklərdən fərqli olaraq "lalə ilə xar" bir yerdədir fəlsəfəsini əldə rəhbər tutub Füzuli babasına sığınaraq (Füzuliyə görə tikan gülü qönçə vaxtında yad təsirlərdən qoruyur, yəni gülün xar ilə bir yerdə olmasına təbii baxır) gərdişdən incimir:

Şəmşir, yaxşı iş görsən, incimə,
Bağ salan ellərdi, dərsən, incimə,
Ömrü bir gün bada versən, incimə,
Lalədən zövq alır xar, bilirsənmi?! [2,s.54].

Tərəqqi və tənəzzül cəmiyyətin inkişafının iki əks qütbüdür. Əksliklərin ziddiyyəti qanununa görə insanlara səbr, inam lazımdır ki, tənəzzülün əksi olan tərəqqi vaxtını görsünlər:

Bilirsənmi Şəmşir nə mənzildədi?!
Meylimin sazının simi zildədi.
Bir gün, on gün işin tənəzzüldədi,
Gələcək tərəqqi, bəxtim oyaqdı [2,s.79].

"Yaratdın" qoşmasının dördüncü bəndində əksliklərin vəhdəti və ziddiyyəti qanunu ilə Allahın dünyanı idarə etməsi ortaya qoyulur. Yəni bir tərəfdə "huri-pərilər", digər tərəfdə "şər-şeytan"ın mövcudluğu çox ali mətləblərdən xəbər verir:

Kainatı, mehri-mahi, fələyi,
Xəlq etdin, quruldu çərxin ələyi.
*Huri, pəri, qılmanları*, mələyi,
Yoldan azan *şər-şeytanı* yaratdın [2,s.156].

Yaradanın yer üzərindəki mövcud sənətləri də əksliklərdə yaratmasına heyranlığını bildirir:

Fəhləsiz olmazdı imarət-otaq,
Fəhlədi dünyanın abadı ancaq.
Viranə çöllərdə şöhrət varmı, bax,
Yaxşı sənət yaradanı yaratdın [2,s.157].

Aranla (Qarabağla – red.) dağın dialektik vəhdəti məntiqi ardıcıllıqla verilmiş tərəflərlə – ağ dumanlar, yağışlı buludlar, daşqın sellər – həyata keçirilir:

*Ağ dumanlar* çiynin üstən baxmasa,
*Yağışlı buludlar* şimşək çaxmasa,
Yaz köksündən *daşqın sellər* axmasa,
Yanar Qarabağın torpağı, dağlar [1,s.339].

Aşıq Şəmşir yaradıcılığında fəlsəfi fikirlər müdrikliyə söykənən xalqın yaratdığı, düzəlişinə ehtiyac duyulmayan mümkün olmayan atalar sözləri ilə dialektik qanunları auditoriyalara bəyan edir:

Nə vaxtdan bəridi məsəldir elə:
Fələyin sirrini bilən yox hələ.
*Biri hambal olur götürür şələ,*
Biri bol qazanır ruzini, nanı [1,s.120].

“Bax” rədifli müxəmməsdə bu qanun özünü bariz şəkildə göstərir. Aşıq bu müxəmməsdə xeyirlə şərin, baharla qışın təzadda olduğu qədər, həm də vəhdətdə olduğunu deyir. Dünyaya müraciətlə söylənilən bu ritorik suallı bənddə dünyanın dərkində insan təfəkkürünün acizliyini göstərir:

Bir tərəfdə toy-balaban, bir tərəfdə yas nədi?!
Bir yanda eyşi-işrət, bir yanda həras nədi?!
Həm yalançı, həm talançı – məqsədi-əsas nədi?!
Bir *tərəfdə* ilk bahardır, bir tərəfdə qışa bax [1,s.26].

Aşıq Şəmşir fəlsəfəsində dini dünyagörüşü əksliklərin vəhdəti və ziddiyyəti qanunu ilə birgə səslənir. "Getdimi, getdi" rədifli qoşmada dünyanın gəlimli-gedimli olmasını, bu gəlimli-gedimli dünyanı əks qütblü insanlarla vəhdətdə verir. Qəflətdə yatanları şeytani yuxudan ayıltmağa çalışır:

Özgələr malından maya tutanlar,
Halal mayasına haram qatanlar,
Yaxşı dostu mala-pula satanlar
Alçaqlar, nadanlar getdimi? Getdi! [1,s.61].

Növbəti misralarda dünyanın düzənini çiynində saxlayan elm adamlarının da, söz xiridarlarının da bu dünyada qalmayacağını ritorik sualladilə gətirir və özü də cavab verir:

Hesabsız şairlər, saysız ozanlar
Ömrünün bağına əsdi xəzanlar.
Milyon ağırlıqda kitab yazanlar
Aqillər, ürfanlar getdimi? Getdi! [1,s.62].

Ən sonda aşıq nikbin notlarla oxucusunu bu dünyanın şərə-şeytana qalmayacağı ovqatına gətirir:

Əzəl gündən aşiq oldum elə mən,
Bülbül kimi süsənə mən, gülə mən.
Şəmşirəm, elimə varam hələ mən,
O şərlər- şeytanlar getdimi? Getdi! [1,s.63].

Kimya elmində dialektikanın ziddiyyətlər qanununa tabe olan elektroneytrallıq qanunu var ki, bu qanun belə

səslənir: Nüvənin müsbət yükü ilə elektronların mənfi yükü bərabər olduqda atom elektroneytral olur. Yəni elektriki cəhətdən neytral olur. Kimyəvi reaksiyaların getməsi baxımından, çevrilmələr baxımından neytrallıq qəbul olunmur. Aşıq Şəmşir fəlsəfəsində də cəmiyyətin inkişafı mübarizədə mümkün olur. Elə buradan "tərəqqi və tənəzzül bərabər olduqda həyat inkişaf etməz, neytral atoma bənzər" müddəası ortaya çıxır:

Qovğalı olmasa igidin başı,
O gərəksiz başa dünya dar olsun.
*Tərəqqi, tənəzzül* gəzir yanaşı,
Çətindi uyuşub barabar olsun [3,s.211].

Əksliklərin vəhdəti və ziddiyyəti qanunu təbiət hadisələrinin təsvirində də öz əksini tapır:

Çəmənli, çiçəkli dağlar başında,
Yağışlı buluda, dumana bir bax.
Boğanaqlı külək at oynadanda
Yağmura, çovğuna, tufana bir bax.

Cəmiyyətdə pak və təmiz ada çatmağın yolu da ziddiyyətlərsiz keçmir. "Pak, təmiz" ada yetişməyin yolu "qəm"dən, "qocalıq"dan keçir:

Tez qocaldır qəm insanı,
Çağırma həkim, loğmanı.
Çatdırdı çərxin dövranı,
Bir pak, təmiz ada məni.

İnsan həyatının ziddiyyətlərini, əksliklərini ilin fəsillərinə bənzədərək məntiqi ardıcıllıqla düzmək Aşıq Şəmşir şeirlərinin mühüm xüsusiyyətlərindəndir:

İnsanın başında hər cür iş olur,
Yolu eniş olur, gah yoxuş olur.
Yay dolanır, payız keçir, qış olur,
Gah qurulur bahar taxtı, əzizim [1,s.147].

Bəli "pak, təmiz" ada yetişməyin yolu "qəm"dən, "qocalıq"dan keçir. "İki cismin bir canı var" ifadəsi gələcəkdə etibara söykənən ailə cütlüyünün yaranması istəyidir:

Şəmşiri gəz, ara-axtar,
Səndə olsa düz etibar.
İki cismin bir canı var,
Parasını demədim, bil.

Dialektikanın əksliklərin ziddiyyəti qanunu inkişafda tətbiq olunur. İnkişaf tərəqqi və tənəzzül kimi tərəflərin dialektik vəhdəti ilə xarakterizə olunur ki, bu da özünü "Bir cavan qıza" qoşmasında göstərir. Təkcə qoşmanın adı gənclərə müdrik, ağsaqqal öyüdü kimi ünvanlanır, səslənir:

Tərəqqi vaxtında sadə dolan gəz,
Düşsən el gözündən dala, çətindir.
Tərəqqidə tənəzzülü yada sal,
Düşən zaman haldan-hala çətindir [3,s.251].

"Nəyə gərəkdi" rədifli qoşmada mövcudluğun mühüm şərti olan əksliklərin vəhdət və ziddiyyəti qanunu çox sadə

xalq dilində çatdırılır. Ustadın daxili aləmini, böyüklüyünü göstərən bu qoşmada forma və məzmunun da dialektik vəhdəti səlis şəkildə verilmişdir:

> Bir yerdə ki, mərdin səsi gəlməyə,
> Gərəksiz qıyyalar nəyə gərəkdi.
> Sahibsiz gözəllər, mərdsiz köhlənlər,
> Nərsiz ağ mayalar nəyə gərəkdi [1,s.137].

Növbəti qoşma bəndində cəmiyyət (el) və məkan (yaylaq, oylaq) vəhdəti poetik bir dillə oxcuya ünvanlanır. Ölkə şairsiz, bağlar bülbülsüz, qayalar kəkliksiz təsəvvür olunmur:

> Bu elsiz yaylaqlar, elsiz oylaqlar,
> Qoyunsuz, quzusuz, çobansız dağlar,
> Şairsiz ölkələr, bülbülsüz bağlar
> Kəkliksiz qayalar nəyə gərəkdi [1,s.137].

Əgər Aşıq Şəmşir bu tayda "Şairsiz ölkələr nəyə gərəkdi" deyirsə Şəhriyar [100] o tayda :

> Anadan mehriban dayədir bəlkə,
> Günəşsiz səmadır şeirsiz ölkə! – deyir.

Şeirə, sənətə münasibətdə yaşadıqları məkandan asılı olmayaraq iki korifey sənətkarın təfəkkür eyniliyinin şahidi olur, "düşüncə insanlarının vətəni olmur" həqiqətinə gəlirik.

Qaydadı, qananı nadan incidir,
Xoryat dərd – əhlini yaman incidir
Tənə-dil çalışıb hər an incidir,
Dərdi-qəm sərrafı biləndə səni.

Əsil insan odur ki, libası və libas içindəki insan uyğun ola. Bu yerdə Mövlana Cəlaləddin Rumi həqiqətləri ilə Aşıq Şəmşir həqiqətləri yeddi əsrdən sonra qoşalaşır. Ağıl, zəka, təfəkkür sahibləri qoşalaşır:

Ellərinə yolum düşdü,
Dünya, səndə bu nə işdi?
Elə qəşəng bəzənmişdi,
Libasından özü göyçək.

Ustad sənətkar real gerçəkliyi qəbul etməyi hər birimizə öyrədir:

Hər insanın bir alacaq kamı var,
Çərxin gərdişində bil ki, hamı var.
İşin öz vədəsi, öz məqamı var,
Açmaz zimistanda lala, çətindir.

"Ənfəl" surəsi, 46-cı ayə: "İtaət eləyin Allaha və Rəsuluna. Bir-birinizlə çəkişməyin, yoxsa uduzarsınız, taqətdən düşərsiniz. Səbrli olun, səbrlilərin tərəfindədir Allah".

"Lalələr yazda açar, zimistanda açmaz" deyən Aşıq Şəmşir səbrə söykənməyə çağırır. Ziddiyyətlər vəhdətdə ola bilməyəndə əksliklərin vəhdət və ziddiyyət qanununda uyarlıq pozulur ki, bu da "yaraşmaz" ifadəsinə uyğun gəlir:

Qar, sarımsaq, soğan bala yaraşmaz,
Duz qənd ilə şirin ola – yaraşmaz,
Günü keçmiş cavan ala – yaraşmaz,
Belə sevda xətti-çala çətindi [2,s.289]

"Həyat reallığa söykənir", "həyatdakı etik və antietik dəyərlər vəhdətdədir" müddəaları ustadın hələ gənc yaşlarında (1919-cu il) gəldiyi qənaətlərdəndir. Ustad sənətkarlardan dərs alan, gələcəyə tuşlanmış ağıl və dərrakə sahibi olan Aşıq Şəmşir "özünü idarə" edə bilməyənlərin, nadanların "kişi yerində" əyləşdiyini "Gördüm" rədifli qoşmasında yerindəcə işlədir:

Hanı möhkəm təməl daşı yerində?
Tutan kimdi düzgün işi yerində?
Nadan əyləşibdi kişi yerində,
Eləmir özünü idarə, gördüm [2,s.385].

"Xəbis"lərin, "xain"lərin üzündən qaça bilməzsən fəlsəfəsini ortaya qoyur:

Şəmşir hər an istər mərdin payını,
Yaman gündə nakəs gözdən yayını.
Görmək istəmirdim xəbis, xayını,
Üzündən qaçırdım, dubarə gördüm [2,s.385].

Dialektikanın ziddiyyətlər qanununun dərki prosesində, eləcə də bu qanunların tədrisində filosoflar adətən təbiət elmlərindən sitatlar gətiriblər. Sovetlər dönəmində fəlsəfi elmlər partiyalılığa müncər edildiyindən folklora, aşıq yaradıcılığına müraciətlər yox idi. Bu gün "gözümüzün qorx-

duğu” fəlsəfi terminlərin, anlayışların izahında aşıq yaradıcılığına söykənərək misallar gətirilməsi üçün, xalqın asan dillə başa düşməsi üçün böyük imkanlar yaranmışdır. Fəlsəfi terminlərin, necə deyərlər, “ilk baxışda anlaşılması çətin görünən fəlsəfi terminlərin” xalqa folklor dilində çatdırılması baxımından monoqrafiya gərəkli ola bilər.

## 1.1.2. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA İNKAR QANUNU

Dialektik inkişafın daha bir aparıcı qanunu sayılan inkarın Aşıq Şəmşir dilində izahına keçməzdən öncə bu qanunun fəlsəfi tərəflərini açıqlamaq yerinə düşər. Hegel dialektikanı işləyib hazırlayarkən «inkar» anlayışından istifadə etmişdir. O, iqrar edirdi ki, mütləq ideyanın məntiqi inkişafında bir kateqoriya digərini «inkar edir», lakin eyni zamanda onda qiymətli nə varsa qoruyub saxlayır. Marksist fəlsəfədə inkar dedikdə, inkişaf prosesində köhnə keyfiyyətin qanunauyğun surətdə ondan nəşət edən yeni keyfiyyətlə əvəz olunması nəzərdə tutulur. Çox vaxt inkişaf prosesində köhnə keyfiyyətin yeni keyfiyyətlə bu cür əvəz olunması şeyin öz əksinə çevrilməsi xarakterində olur. Bu qanuna tərif versək deməliyik: onun fəaliyyəti inkar olunanla inkar edən arasında əlaqə, varislik yaradır, buna görə inkar heç də keçmişdə inkişafın bütövünü rədd edən quru, əbəs bir inkar kimi deyil, qabaqkı mərhələlərin bütün müsbət cəhətlərini özündə saxlayıb hifz edən, çıxış pillələrinin bəzi cəhətlərini yüksək əsas üzərində təkrar edən və ümumiyyətlə irəliləmə xarakterində, mütərəqqi xarakterdə olan bir inkişaf üçün şərtdir [8,s.326].

Sovetlər dönəmində irsi-genetik qanunları inkar edirdilər ki, bu da cəmiyyətin inkişafında düzgün fəlsəfi yanaşmaya, sosial yönümlü məsələlərin çözülməsinə öz maneçiliyini göstərirdi. Hələ o dövrdə Aşıq Şəmşir bu məsələlərin həllini şeir dilində oxucularına, daha doğrusu cəmiyyətə çatdırırdı. Əgər Hegelə görə mütləq ideyanın məntiqi inkişafında bir kateqoriya digərini «inkar edir», lakin eyni zamanda onda qiymətli (müsbət, mütərəqqi) nə varsa

qoruyub saxlayırsa, onda ortaya maraqlı bir sual çıxır ki, bəs (mənfi, reqressiv) dəyərlər necə olur?! Elə bu sualın sərrast cavabını Ustadın aşağıdakı misralarında tapırıq:

Haramdan doğulan, olacaq haram,
Ellərin içində şərmsar olar.
Xaindən, xəbisdən uzaqdı aram,
Düz çıxmaz əhdinə biilqar olar [3,s.254].

Məhz bu irsi-genetik qanunların pozula bilməməsini “çərxi-ruzgar”ın dolaşıq işi kimi qələmə verir, laçın yuvasında sar yumurtasının peyda olmasına təəccüb edir. Elə bu təəccüb inkar qanununun pozulmasının mümkünsüzlüyü kimi izah olunur:

Şəmşir, işinə bax çərxi-ruzgarın,
Nələr gördün, hara düşdü güzarın?!
Yuva laçınındı, yumurta sarın,
Sar balası, tərlan quşa dolaşma [3,s.254].

Hegel dialektikasında mütləq ideyanın məntiqi inkişafında bir kateqoriya digərini “inkar” edir, lakin eyni zamanda onda qiymətli nə varsa qoruyub saxlayır:

O kamallı babam belə demişdi:
“Bel bağla, arxa ol elə” demişdi
“Yaranmışa qurma tələ”- demişdi,
Tələ quran düşməlidir zindana.

Cəmiyyətin qurulmasında, formalaşmasında fərdlərin doğru-dürüst tanınması, fərdlərin soy-kökünə bələdliyin

rolu mühümdür. Elə bu baxımdan inkar qanunu, o qanunun cəmiyyətə tətbiqi müstəqillik yolunu uğurla davam etdirən ölkə quruculuğu üçün çox vacibdir:

Sönməz alovlara salar insanı,
***Xəbisdən***, iblisdən ***dost olmaz***, tanı!
Öpüb, qızılgülə büksən ilanı,
Çalmasa dayanmaz mar öz yerində.

Xalq dili onun qoşmalarında yüksək estetik zövqlə cilalanaraq ifadələrin poetik və ecazkar qüdrətə malik olduğunu təsdiq etmişdir. Həm Qurban, həm də varisi (həyatda və sənətdə) Şəmşir aşıq sənətinin, ənənəvi yaradıcı strukturun cəmiyyətdə oyatdığı xoş əhval-ruhiyyəni, harmonik emosiyanı, psixologizmi özünəməxsus ülgü ilə təqdim edə bilirlər [86].

"Yalan söz yaşamaz", "yalan ayaq tutar, amma yeriməz". "Əsil sənətkarların sözü Haqqa söykənər" prinsipindən çıxış edən Ustad özündən qabaqki sələflərinin yaradıcılığına elmi əsaslarla bələd olduğunu tez-tez təkrar edir:

Dövran milyon Nizamilər aparmış,
Koroğlu Nigarı gəzib taparmış.
Fərhad Şirin üçün qaya çaparmış,
Şair yalan sözü qoşardımı heç?! [2,s.384].

***

Oddan kül törəyər – atalar demiş,
Hər daşda qığılcım, nar ola bilməz.
Tərlan yumurtasın qarğa bəsləsə,
İtirməz əslini, sar ola bilməz [1,s.87].

Aşıq Şəmşir şeirlərində əsil-nəcabət kimi etik dəyərlər irsi-genetik qanunların hər zaman yaşamasını, hətta elmi-texniki tərəqqinin vüsətli inkişafı fonunda belə bu dəyərlərin öz qiymətini saxlamasını göstərir. Ustadın özünə dost adlandırdığı şair Hüseyn Kürdoğlu ilə bağlı misralar bundan xəbər verir:

Əhdi-ilqarından dostum Kürdoğlu
Bilirəm ki, o namərdə əyilməz.
Buludlar çalxanıb, qalxsa da tufan
Papağı şax durar sərdə, əyilməz [3,s. 130].

Etik dəyərlərin Şəmşir misraları ilə bəzənmiş "Hüseyn Kürdoğlu tablosu"nun əsasında əsil-kök dayanır:

Əsli dürüst olub ata-babadan,
Aldım sorağını eldən, obadan,
Qartal kimi yerə enməz havadan,
Göydə şax dayanar, yerdə əyilməz [3,s.130].

Alman filosofu Hegelə görə inkişafda mütərəqqi olanlar gələcək nəsillərə ötürülür ki, bu da özünün bariz nümunəsini aşağıdakı misralarda göstərir:

Mən şəfa dilədim baxtı kəskindən,
Azadam, çıxmışam keçən pis gündən.
Şairlik nurunu babam Miskindən,
Qurbandan yadigar üzə gətirdim [3,s.144].

“Şairlik nurunu babası Miskin Abdaldan alan” Aşıq Şəmşirin həmən nuru öz gələcək övladlarına ötürməsi Flora Xəlilzadə [51] tərəfindən aşağıdakı kimi qeyd olunur: “Qənbər Şəmşiroğlunu Qurban ocağının “ruh daşıyıcısı” adlandırırlar. Ağdabanlı Qurbanın nəvəsi, Aşıq Şəmşirin oğlu olan Qənbər Qurbanov ixtisasca müəllimdir. Bir qərinədən artıq Kəlbəcər və Gədəbəy rayonlarında müxtəlif məsul vəzifələrdə çalışıb. Uşaqlıq illərindən saza, sözə bağlı insan olub. Dədə Şəmşir ocağında böyüyən Qənbər Qurbanov bir-birindən gözəl şeirlərin, dastan, hekayə və povestlərin müəllifidir. Qırxa yaxın kitabı işıq üzü görüb. Son illərdə öz xatirələrini qələmə alır. Onun söykəndiyi mötəbər dayağın poetik əks-sədasını şeirlərində də duymaq olur:

Pədərim Şəmşirdi; madərim Güllü,
Babam şair Qurban, bir adı bəlli.
Tələbə Qənbərəm, Ağdaban elli,
Qoy tanısın bizi kim ki, bilmədi [91, 92].

Bir vaxtlar babası Şəmşir dağlara müqayisəsi tapılmayan şeirlər qoşardı. İndi bu ənənəni özünəməxsus şəkildə davam etdirən Cavid Qənbəroğlu [32] da dağların əzəmətinə biganə qala bilmir:

Qayalar açılmaz qıfılbənd kimi,
Hər daşında bir sirr yatır dağların.
Baxırsan ki, başı qarla örtülüb,
Duruşunda fikir yatır dağların.

Aşıq Şəmşirin XVI əsrdə yaşamış ulu babası Miskin Abdaldan başlayan aşıq-şairlik nəsil şəcərəsi XX əsrdə Ustadla sənətin fövqünə yüksəlir. Şah İsmayıl Xətai ilə Miskin Abdal yazılı poeziyanı və aşıq poeziyasını bir məcrada birləşdirdiyi kimi, Miskin Abdalın varisi Aşıq Şəmşir də XX əsrdə böyük şairimiz Səməd Vurğunla görüşüb deyişmişdir. İki poeziyanın təkrarən bir-birinə qovuşaraq tarixi missiyanı həyata keçirməsi burada öz əksini tapmışdır [152,s. 383].

Əl versə qocalıq, tərlana təklik,
Nakəsdən, xəbisdən umma köməklik.
Qarğa turac olmaz, sağsağan kəklik,
Otursun farağat, sar öz yerində [2,s.421].

Ustad sənətkar babasından aldığı nəsihətləri özündə saxlayır və bunu öz gələcək nəsillərinə ötürür. Həm təbiətdə, həm də cəmiyyətdə inkar qanunu varisliyi qoruyur, inkişafın spiralvari hərəkətini təmin edir:

Övlad getməlidir ata dalınca,
Cəsədində damla qanı qalınca.
Şəmşir inanmışdı öz kamalınca,
Şən ölkəmiz gərək nura boyana [3,s.64].

Dədə Şəmşirin "közündən od alan", lətif şeirlər müəllifi olan nəvəsi Cabir Ələsgəroğlunun [30] "Dədə" rədifli qoşması Miskin Abdaldan üzü bəri bu şeir-sənət ocağının İlahi varlığına bir sübutdur:

Daim əlimdədir Haqqın kitabı,
Ondan öyrənmişəm salam-savabı.
Fəhmi, fərasəti, dözümü, tabı,
Taqəti dizindən almışam, Dədə!

Cabirəm doğrudan dönən deyiləm,
Tanrının gözündən enən deyiləm,
Əbədi məşələm sönən deyiləm,
Odumu közündən almışam, Dədə!

Aşıq Şəmşir yaradıcılığında inkar qanunu varislikdə təkcə mütərəqqi və müsbət cəhətlərin saxlanmasını yox, eləcə də cəmiyyət üçün neqativ sayılan əlamətlərin də gələcək nəsillərə ötürülməsini ortaya qoyur:

Gədadan pay umma, səxası yoxdu,
Atası verməyib, özü də verməz.
Namərdin xeyrindən zərəri çoxdu,
Can versən, torpaqdan mizi də verməz.

Demək, Aşıq Şəmşir dialektik fəlsəfəsində təkcə müsbət cəhətlərin yox, həm də mənfi cəhətlərin irsən ötürülməsi inkar qanununa əsasən həyata keçirilir:

İlqarda, insafda kim olsa naşı,
Yaxşılıq etməyə gətirməz başı,
Nakəs bir dağ kimi yığsa qumaşı,
Möhtaca bir qırıq bezi də verməz.

“İnkar varisliyi qoruyur” prizmasından Aşıq Şəmşir poeziyasına nəzər yetirsək, onun atası Şair Qurbana həsr etdiyi şeirlərdə bunun bariz nümunəsini görərik:

Cəfa çəkdi gecə-gündüz yatmadı,
Elə dəydi xeyri, karı Qurbanın.
Halal mayasına haram qatmadı,
Doğru oldu düz ilqarı Qurbanın.

Əgər inkarın özündən qabaqkı mərhələlərin bütün müsbət cəhətlərini özündə saxlayıb hifz edən, çıxış pillələrinin bəzi cəhətlərini yüksək əsas üzərində təkrar edən və ümumiyyətlə irəliləmə xarakterində, mütərəqqi xarakterdə olan bir inkişaf üçün şərt olduğu məlumdursa, aşağıdakı bənd bunu təsdiqləyir:

Eşit bu kəlməmi, süxəndan ata,
Ey ağıl dəryası, ey ümman ata
Ruhuna olmuşam duaxan, ata,
Bu Şəmşirdi yadigarı Qurbanın.

***

Çinarlar, palıdlar tanınmazdılar?
Köklərində pöhrə, şiv olmasaydı.
Nəsiminin adı çəkilərdimi,
Şeirdən tikilmiş ev olmasaydı.

İnkar qanunu özünü Ustadın “Küsərəm mən” rədifli gəraylıda da göstərir:

Şəmşir mətləbdən aldı kam,
Halal maya olmaz haram.
Yanağında xətt olmuşam,
Bir yazılı əsərəm mən.

"Halaldan halal törər" fəlsəfəsi geci-tezi hər kəs öz kökünə qayıdacaq anlayışını ortaya qoyur.

İnkar qanunu yaradıcılıq prosesində də özünü göstərir. Ağdabanlı Qurbanın "Görünməz", Aşıq Şəmşirin "Görünmür" rədifli "məhəbbət lirikalı qoşmalar"ının [157] müqayisəsi özünü bariz şəkildə göstərir:

Ağdabanlı Qurbanda:

Hurilərin şahı, gözəllər xası,
Mələklər qılmanı hanı, görünməz.
Sallanıb ərkinən, nazınan gəzən,
Firəngin sultanı hanı, görünməz.

Aşıq Şəmşirdə:

Pərilər pərisi, hurilər xası,
Gözəllər sultanı hanı, görünmür.
Duruşu, baxışı dağlar qəlbimi,
Düzlərin ceyranı hanı, görünmür

Dialektik inkar irəliyə doğru inkişafda olan inkardır.

Şəmşir bu dövrandan olmadı küskün,
Ustadım Qurbandı – babası Miskin.
Qolum qüvvətlidi, qılıncım kəskin,
Siz də olun tiği-tiz mənim kimi.

Aşıq bu misralarda "küskün" deyil. Ata və babalarının yüksək bəşəri keyfiyyətlərini özündə saxladığı üçün, bu nəcib əməlləri özü tərəfindən davam etdirdiyi üçün taleyindən razıdır.

Dialektikada inkar əlaqə momentidir, müsbətin saxlanması ilə inkişaf momentidir. Həm təbiətdə, həm də cəmiyyətdə inkar varisliyi qorumaqla yanaşı, inkişafın spiralvari hərəkətini də müəyyənləşdirir:

Mən bir sızqayamsa, atamdı dərya,
Həmin o dəryanın adasıyam mən [1,s.131].

Bu gün müasir tibbdə genetik məsləhətxanaların fəaliyyət göstərdiyi, gələcəkdə özünü biruzə verə biləcək ciddi xəstəliklərin yolunu kəsməkdə xalqın qeydinə qaldığı bir dövrdən də çox-çox öncə Aşıq Şəmşir cismani xəstəliklərlə mübarizədən də qabağa gedərək gələcəkdə millət üçün, xalq üçün gərəkli övladların yetişməsinə xidmət edə biləcək inkar qanunundan, irsi-genetik qanundan şeir dilində söz açır:

Kamallılar huş üstünə huş qoyar,
Övladına bir xeyirli iş qoyar,
Zay süd əmən ata yurdun boş qoyar,
Hörmət bilməz, adı-sanı tanımaz [1,s.149].

Başqa bir məqamda inkar təvazökarlıqla səslənir. "Mən" rədifli qoşmanın növbəti misralarında özünün inkarı olan "qeyrətli oğul, qız" atası olmaqdan danışılır:

Necə ki, gecənin olur sabahı,
Mən də bu varlığa ümidəm dahı.
Atmışam möhnəti, çəkmirəm ahı,
Qeyrətli oğul, qız atasıyam mən [1,s.131].

Aşıq Şəmşir şeirində varislik qanunu dəqiqliklə, uzaqgörənliklə gözlənilir.

Aşıq Ələsgərdən, Şair Qurbandan,
Balaca Bəhməndən, Məmməd cavandan,
Şəmşir ayrı düşüb gör nə zamandan,
Amandı, siz verin sorağı, dağlar [1,s.339].

Aşıq Şəmşir kimdir sualının cavabı "Bəli" divanisində Aşıq Şəmşir tərəfindən verilir:

Miskin Abdal nəvəsiyəm, var sözümdə hər nizam,
Bu ocağın xilqətiyəm, cər qurulub hər əzam.
Yer üzünün torpağıyam, göy üzündə ulduzam,
Dağ küləyi güclüdürsə, mən də ondan qalmazam,
Əzəl gündən aşığıyam elin, mahalın, bəli [2,s.46].

Sovetlər dönəmində fəlsəfə elmini ideologiyaya tabe etdirdikləri üçün elm sahəsi birtərəfli, yarımçıq qalmışdır. Yarımçıq elm sözün həqiqi mənasında hədəfə yetməz, oxucusunu tapmaz, taparsa da anlaqlı olmaz. Elə aşağıdakı "Bilirsənmi" qoşması inkar qanununun tədrisində əyani vəsait rolunu oynaya bilər.

Qarğa yuvasında çalxasa, olmaz,
Tərlan yumurtası sar, bilirsənmi?!

Mərd igidə, mərd zənənə yaraşmaz
Sata namus, qeyrət, ar, bilirsənmi?! [2,s.53]

"Bu yerdə" rədifli qoşmada mürid-mürşid vəhdəti təzədən gündəmə gəlir. Təsəvvüf fəlsəfəsinin mürşidlik-ustadlıq dialektikası yada düşür:

Ələsgər su içib Daş bulağında,
Qardaşı Qurbanla Murov dağında.
Adı məclislərdə, el yığnağında
Oxuyurlar yana-yana, bu yerdə.

***

Hoppandaşın dumandımı, çəndimi?!
Nələr canlar gedib – yer həməndimi?!
Əhməd də, Bəhmən də nəticəndimi?!
Vurğun olub gülüstana, bu yerdə [2,s.55].

Aşıq Şəmşir Ağdabanlı Şair Qurbanı həm ata, həm də ustad kimi şeirlərində həmişə anır:

Əgər görsən qoca ustad atamı,
Onun tədbirinə el baxır, hamı,
Söylə, belə unutmazlar adamı,
Tuti kimi şirin dilə salam ver [2,s.97].

Ağdabanlı Şair Qurbanın Azərbaycan aşıq şeirində tutduğu mövqe hələ Növrəs İman [143] tərəfindən qələmə alınmışdır:

Qumru tək ləhcəli xoşdandı Qurban,
Türfə gözəllərdi dərdinə dərman,
Nə olsa dilində – hazırdı fərman,
Ləfzi, həm mənası düz gəlib gedib.

Dialektikanın inkar qanunu Ustadın dilində atalar sözləri kimi səslənir, daha doğrusu atalar sözləri şeir dilinə gətirilir. "Buxardan duman" rədifli qoşmada olduğu kimi:

Qoçaq oğul bada verməz, gətirər,
Zəhmətinin barı gəlib yetirər.
***Ot kök üstə zatın çətin itirər,***
Əzəldən bu işlər olub imtahan [2,s.109].

Aşıq Şəmşir fəlsəfəsinə bir nikbinlik xasdır. Bu nikbinliksə mövcud fəlsəfi qanunların inkarına əsaslanır:

Gündüzü qaranlıq olan ellərin
Yoxsul bağçasından Ay düşər bir gün.
Azadlıq yoluna göz dikənlərin
Baxtına bir halal pay düşər bir gün [2,s.117].

Dialektikanın inkar qanunu ilə bağlı Aşıq Şəmşir şeirləri bu gün cəmiyyətdə insanların öz qabiliyyəti, öz irsi-genetik xüsusiyyətlərini nəzərə almağı nəzərdə tutur, insanların cəmiyyətdə tutacağı mövqeyi qabaqcadan müəyyənləşdirir:

Şəmşirin dərdini mən deyim, sən yaz,
Belə nəsihəti olmamışdı az.
Sağsağan qarçıqay, ala qarğa qaz,
Haçan bir-birinə oxşayar indi?! [2,s.176].

Dialektikanın inkar qanunu Aşıq Şəmşir qoşmalarında tez-tez özünə yer alır. “Olmaz” rədifli qoşmada “nəvə babaya oxşayacaq” prinsipi rəhbər tutulur. Bu qanunun cəmiyyət üçün önəmli olması cəmiyyətin idarə olunmasında kadrların, rəhbər işçilərin düzgün seçilməsindədir. Nəzərə alsaq ki, fəlsəfi qanunlar ümumi xarakter daşıyır, o zaman irsi-genetik qanunların da cəmiyyətə tətbiq olunmasında qeyri-adi bir fikir yoxdur:

Sərvi sanma sən acizi, gəvəni,
Özünə oxşadar baba, nəvəni.
Dəryalarda ha yusan da şəvəni,
O ki, bir siyahdır, dönüb ağ olmaz [2,s.272].

İrsi-genetik qanunların şeir dili ilə təsviri Aşıq Şəmşirin davamçılarının da yaradıcılığında özünə yer alır. Göyçə aşıq mühitinin yetirməsi olan Sərraf Şiruyənin [161,s.80] şeirlərindəki kimi:

Qarğa yüz qıy vursun, yüz qarıldasın,
Tərlanın balası, tərlandı yenə.
Qocalan pələngə tülkü gülməsin,
Yerisə meydana – aslandı yenə.

Dialektikanın inkar qanunu ustad-şagird, oğul-ata münasibətlərini özündə ehtiva edir. “Sənin” rədifli gəraylıda Aşıq Şəmşir atası Ağdabanlı şair Qurbanı vəsf edir, onun sənəti qarşısında təvazökarlıq göstərir. Ümumiyyətlə, atalardan, – canlı ensiklopedik məlumat mənbəyi olan atalardan vaxtında öyrənməməyə heyfslənir:

Səd heyf ki, az öyrəndim,
Sənətini atam, sənin.
Bacarmadım, qüdrətinə,
Cəhd elədim çatam, sənin [2,s.461].

Həmin gəraylının üçüncü bəndində "yazılsa vardı beş kitab" deyərək Qurban irsinin itən əlyazmalarına, yaddaşlara köçürülməyən söz xəzinəmizə heyfsilənir:

Şeirin şirin, ətri gülab,
Oxuyanlar olur sirab.
Yazılsa vardı beş kitab,
Dürr sözlərin tamam sənin [2,s.461].

İnsanların xarici mühitin – fenotipin təsiri ilə tərbiyə oluna bilməsi kimi məntiqlə uzlaşmayan fikirlərin mövcudluğu Ustad şeirlərində öz yerini alır:

Gəl tapaq nəticə bu imtahandan,
Adətən seçilər yaxşı-yamandan.
***Kərvan*** ağacından, nə böyürtkandan,
Min il də gözləsən ***nar almaq*** olmaz [2,s.272].

Digər bir "Desəm olmaz" rədifli qoşmada "hər kəs öz genini daşıyır" müddəası yenidən gündəmə gəlir, "olmaz" inkarlıq ifadəsini işlətməklə qətiyyətlilik, prinsipiallıq nümayiş etdirilir:

Şəmşir də sözlərin saxlamazləngə,
Əsli aslan olan layiqdi cəngə.

Rubə tab gətirməz şirə, pələngə,
Dovşana hünərdə fil, desəm olmaz [2,s.273].

İrsi-genetik anlayışları özündə ehtiva edən dialektikanın inkar qanununun aşıq yaradıcılığında öyrənilməsi bu sahədə geniş material bolluğu üzə çıxardı. Aşıq Şəmşir timsalında inkar qanunu gələcəkdə bu sahədə geniş tədqiqatlar aparılmasını zəruri edir ki, bu qanunlara söykənərək dövlət quruculuğu yolunda, kadrların işə cəlb edilməsi yolunda mühüm işlər görülməsi gündəmə gəlir.

## 1.1.3. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA KƏMİYYƏT DƏYİŞMƏLƏRİNİN KEYFİYYƏTƏ KEÇMƏSİ QANUNU

Kəmiyyət və ya keyfiyyət cəhətlərinin birtərəfli olaraq qabarıq göstərilməsi metafiziki yanaşmanın əlamətidir. Metafizika kəmiyyətlə keyfiyyət arasında daxilən zəruri olan əlaqəni görmür. Dialektika isə əksinə, göstərir ki, şeylərin kəmiyyət və keyfiyyət müəyyənlikləri tamamilə zahiri və bir birinə qarşı laqeyd əksliklər deyildir, bunlar son dərəcə dialektik halındadırlar. Ən ümumi şəkildə bu əlaqə ondan ibarətdir ki, şeyin kəmiyyət dəyişmələri qanunauyğun surətdə şeyin keyfiyyətinin dəyişməsinə səbəb olur.

Kəmiyyət dəyişmələri az-çox dərəcədə əmələ gəlir və çox vaxt nəzərə az çarpır. Bunlar əvvəlcə şeyin keyfiyyət müəyyənliyini mühüm dərəcədə dəyişdirmir. Lakin sonralar yığışıb artır və nəticədə şeyin əsaslı surətdə keyfiyyətcə dəyişməsinə səbəb olur. Bu zaman "kəmiyyət keyfiyyətə keçir" – deyirlər.

Kəmiyyət dəyişmələrinin əsaslı keyfiyyət dəyişmələrinə keçməsi, həmçinin əksinə, keyfiyyət dəyişmələrinin əsaslı kəmiyyət dəyişmələrinə keçməsi inkişafın ümumi dialektik qanunudur. Bu qanun özünü təbiət, cəmiyyət və təfəkkürün bütün proseslərində – köhnənin yeni ilə əvəz edildiyi hər yerdə göstərir.

Kəmiyyət dəyişmələrinin yığılıb çoxalması halına şeylərin bir keyfiyyət halından başqa, yeni keyfiyyət halına keçməsi inkişafda *sıçrayışdır*. Sıçrayış şeyin kəmiyyət dəyişmələrinin tədriciliyində fasilə əmələ gəlməsidir, yeni keyfiyyət halına keçməsidir, inkişafda qəti dönüş və əsaslı dəyişiklik baş verməsi deməkdir.

Məsələn, insanın əmələ gəlməsi üzvi aləmin inkişafında sıçrayış, əsaslı dönüş olmuşdur [8]. Təkcə "insanın əmələ gəlməsi üzvi aləmin inkişafında sıçrayış, əsaslı dönüş olmuşdur" fikrində marksist-leninçi fəlsəfənin təsiri duyulur ki, məhz filosofları da xalqın gözündən salan bu sayıqlamalar oldu. Uzağa getməyək elə xalq arasında belə sayıqlamalara görə "filosofluq etmə", islamın bir din kimi düzgün izahında xurafata yol verən mollalara görə də "get mollalığını elə" deyimləri ortaya çıxdı. Və bu məqamlarda xalq axtardığı həqiqəti haqq aşıqlarında tapa bildi.

İstər təbiətdə, istərsə də cəmiyyətdə kəmiyyət dəyişmələrini ifadə etmək üçün təkamül anlayışından istifadə olunur. Təkamül anlayışı bəzən yalnız tədrici kəmiyyət dəyişmələri mənasında deyil, həmçinin daha geniş mənada: ümumiyyətlə həm kəmiyyət dəyişmələrini, həm də keyfiyyət dəyişmələrini əhatə edən inkişafı göstərməkdən ötrü işlədilir. Təkamül tədrici kəmiyyət dəyişikliyidirsə, keyfiyyət dəyişikliyi sıçrayışdır, inqilabdır. Təkamül ilə inqilab arasında daxilən zəruri əlaqə vardır.

Əgər kəmiyyət dəyişmələrinin keyfiyyətə keçməsi Aşıq Şəmşir poeziyasında qocalıq kimi araşdırılırsa və bu zaman cismani, fiziki cəhətdən baş verənləri görmək olur. Ən xoşa gələn, qəlbləri sevindirən, ürəyəyatımlı sayılan odur ki, xalqımızın müdrik oğullarında bu qanun öz ifadəsini belə tapır: Yaş artdıqca müdriklik çəkisi də ona uyğun yüksəlir. Bu yüksəlişin özü övliyalaşmaq, dədələşmək baxımından yeni bir keyfiyyət halıdır: "Bəli" gəraylısında olduğu kimi:

Şəmşir hələ cəmdi huşdan,
Geri qalmır taydan-tuşdan.
İnan, səni göydə quşdan
Güllü nənən sorur, bəli [2,s.473].

Mövcudluğun əsas şərti dialektik qanunların mövcudluğundadır. “Qocalıq” rədifli müxəmməsində kəmiyyət dəyişmələrinini yeni keyfiyyət halı yaratması çox əyani şəkildə görünür. Bu müxəmməsdə gənc yaşla (“on beş” yaşla) ahıl yaşın müqayisəsi insan orqanizmində gedən proseslərlə (keyfiyyət) yaş (kəmiyyət) arasındakı əlaqə yüksək ustalıqla tərənnüm edilmişdir:

Çatanda on beş yaşına təzə tərləmişdi bığım,
Duruşuma deyərdilər: alıcı tərlan, qocalıq [3,s.396].

Sonrakı misralarda yaşın artmasının müəyyən həddində yeni əlamətlərin peyda olması baş verir:

Axır bir gün yavaş-yavaş qara saqqal oldu dümağ,
Göz qaraldı, əsdi başım, sinəm üstə çəkildi dağ.
Cavanlıqdan yoxdu xəbər, hər tərəfə saldım soraq,
Ürəyim istəyən yerə tutmur dizim, getmir ayaq,
Hər bir dərdin əlacı var, yox sənə dərman, qocalıq [3,s.397].

Dahi Nizamiyə görə qocalıqla bağlı saçların ağarmasında heç bir düşkünlüyə yer yoxdur. Əksinə, qara saçların ağarması təfəkkür işığına aparan yoldur:

Bu qara, ağ saçların nəyi öyrədir sənə?
Gecədən yol gedirsən təfəkkür gündüzünə [137,s.114].

Aşıq Şəmşirə görə qocalıq, yəni “təfəkkür gündüzü”nə gedən yol insanlığa yetişməkdir, antietik dəyərlərdən qaçmaqdır, “özünü xalqa dost etməkdir”:

Şəmşir, sən yaxşılıq elə əl uzatma yamanlığa,
Zəmanənin övladısan, yeri, yetiş insanlığa,
Bədfikirə, nakişiyə, lənət oxu şeytanlığa,
Özünə xəlqi dost elə, nifrət elə düşmanlığa,
Meylini salma kənara vəfalı dostdan, qocalıq [3,s.398].

Yatma! ***Gənclik*** çağları sona yetdi, oyan, dur,
Səhər gündüzə döndü, qafil olma, amandır [137,s.115]..

Bütün qələm əhli olan şairlər yeri gəldikcə surət gözəlliyi ilə qürurlanan, təkəbbürlülük satan gözəlləri qınağa çəkmiş, onları necə deyərlər, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişilməsinə keçməsi qanunu ilə doğru yola, düz yola dəvət etmişlər.

Dahi Füzulidə [99]:

Üzün gördükdə yüz min zahid bütpərəst oldu,
Yüz min də brəhmən büt sındırar ey məhluqə, gördüm!

Əliağa Vahiddə [42]:

Öyünmə çox gözəlim, çox da gözlərin qarədir,
Təbiətin işidir gündə min gözəl yaradır.

Əgər Füzuli və Vahid qəzəl dilində gözəlləri təkəbbürə, lovğalığa uymamağa dəvət edirlərsə, bu, Aşıq Şəmşirdə qoşma dilində özünü biruzə verir:

Unudub dostunu yad olan zalım,
Bəs mən necə çəkim belə fərağı?!
Mürvətdirmi möhnətində qocalım,
Bir sənin dərdindən nəinsaf yağı? [1,s.305].

***

Şəmşirin sözlərin gəl eşit, barı,
Bir bax Süleymanın mülkünə sarı.
Sən kimi gözəllər çox olub qarı,
Əyilib çənəsi, əsir dodağı [1,s.305].

Təfəkkürlü insanlarımız elmi, mərifəti müxtəlif formalarda çatdırmağı öz qarşılarına bir missiya qoymuşlar. Və böyük Allah bu missiyanı yerinə yetirməli olan insanları kainatın hər tərəfinə-Məkkədən üzü Kəlbəcərədək, Mədinədən üzü Gəncəyədək, Ərəb dənizindən Amerikayadək dürr təkin səpələmişdir.

Fəlsəfənin bir predmet kimi tədrisində əsasən təbiət elementlərindən sitatlar, nümunələr gətirilir. Xalq dilində, yaddaqalan xalq dilində ədəbiyyatımızın ozan-aşıq qolu adlandırılan mühüm bölməsində dialektik qanunların auditoriyalara açıqlanmasında Aşıq Şəmşir şeirləri əvəzsiz material verir.

Orqanizmdə baş verən təbii-bioloji proses olan qocalıqla bağlı söylənilən fikirlər kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanununun izahına bariz nümunədir:

Ovun gəlib şikarından keşməyi,
Əllərin əsməyi, gözün çeşməyi,
Üzün qırışması, dişin düşməyi,
Bunların hikməti, qocalıqdandı [1,s.328].

Cəmiyyətin təkamül inkişafı qanunauyğun olaraq sıçrayışlı keyfiyyət dəyişmələri ilə, inqilablarla başa çatır. Keyfiyyətin inqilabi dəyişmələri yeni təkamül dəyişmələri dövrünün başlanğıcı olur. Sıçrayışlar materiyanın hərəkət formalarına görə fərqlənir. Eləcə də, zamana görə seçilən sıçrayışlar mövcuddur. Bundan əlavə sıçrayışların qlobal və lokal, zəruri və təsadüfi növləri vardır. Bütün bunlar isə özlüyündə kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanununun bu və ya digər cəhətini ifadə edən anlayışlardır [8,s.329-330].

Qocalıqla bağlı ustad aşıqların çoxsaylı şeirləri mövcuddur ki, Aşıq Alının [16] da "Qocalmışam" rədifli qoşması ilə aparılan paralel yerinə düşər:

Dəhanda dişlərim gəlib amana,
Qədd əyilib, belim dönüb kamana.
Dolanıb rüzigar, dönüb zamana,
Tərlan baxtım olub sar, qocalmışam.

Aşıq Şəmşir yaradıcılığında kəmiyyət dəyişmələrinin yeni keyfiyyət yaratması, bu dəyişikliklərin baş verməsi "zaman" kateqoriyası ilə sıx bağlıdır. Qocaları anlamamaq, qocalara gülmək kimi "özündən razılıq", "xudpəsəndlik", "yekəxanalıq" elementləri komizmin satirik növü ilə tənqid olunur. Sonda "Sən də qocalarsan – yaxşı ol agah" deməklə "zamana ehtiyac var" fəlsəfəsini ortaya qoyur:

Sən də qocalarsan – yaxşı ol agah,
Gülürsən Şəmşirə, edirsən günah.
Mənim tək o ***zaman*** çox çəkərsən ah,
Düşər ürəyinə xal, qocalıqda [2,s.320].

Həmin zaman gələnədək "Gedər bu gözəllik sənə də qalmaz"la həmahəng səsləşən, kəskin, tərbiyəverici bir üsulla qınağa çəkir:

Gəlirmi xoşuna – gülürsən mənə,
Qalmayacaq bu gözəllik, bil, sənə.
Tökülüb dişlərin, qırışar çənə,
Xəzan kimi əsər əl, qocalıqda [2,s.320].

Dil varisliyimizin qorunmasına, dilimizin möhkəm sütunlar üzərində bərqərar olmasına ən tutarlı cavab Şeyx Nizami və Aşıq Şəmşir müqayisəsi ola bilər:

Heyhat, çalır ***qocalıq*** cavanlıq baharını,
Bükür xəzan yelləri gülün qanadlarını [137,s.114].

Fələk solduracaq o gül üzünü,
Sən o zaman biləcəksən özünü.
Bir danışmaq istəyəndə sözünü,
Tay vurar ağzında dil, qocalıqda [2,s.320].

"Düşmüşəm" rədifli divanidə qocalığın zaman etibarilə ərsəyə gətirdiyi, qaçılmaz hesab olunan əlamətləri qələmə alınır. Elə bu sətirlər kəmiyyət dəyişmələrinin yeni key-

fiyyət halı yaratmasına gətirib çıxartması qanununa bariz misaldır:

Hey qaçardım: bilməz idim – dağ nədi, həm daş nədi,
Atılardım, sanmaz idim od nədi, ataş nədi,
Qarmı yağıb, dümağ olub: kirpik nədi, qaş nədi,
Qulpu sınıq bir pul kimi kəmərdənmi düşmüşəm?!

Bir yorğandı, bir də yastıq, bir döşəkdi məskənim,
Pəncərədən qar görünür, dözüb dayanmır canım.
Yada düşür ovlaqlarım – elə qaralır qanım,
Köhlən çapıb yoran canım, yəhərdənmi düşmüşəm?![2,s.42].

Beləliklə, Ustadın düşündürücü, təfəkkürü oyandıra biləcək şeirləri kəmiyyət dəyişiklikərinin keyfiyyətə keçməsi qanununa yeni baxışlar sistemi yaradır. Bu gün qlobalizasiya, multikulturalizm adı altında dəyişikliklərin baş verdiyi çağımızda sadə, anlaqlı xalq dilində gələcəkdə nə etməli olduğumuzu bizə göstərir.

## 1.2. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA DİALEKTİK KATEQORİYALAR

Aşıq yaradıcılığında dialektik kateqoriyaların təsvirinə keçməzdən öncə bu kateqoriyaların ümumfəlsəfi təriflərini yada salmaq pis olmazdı. Dialektik fəlsəfə elmi və əməli fəaliyyətin nailiyyətlərini ümumiləşdirərək, mahiyyət ilə təzahürün vəhdət təşkil etdiyini irəli sürür. Doğrudan da məzmun və formada olduğu kimi, mahiyyət ilə təzahür də qarşılıqlı əlaqədədir, qırılmazdır. Əslinə qalanda mahiyyət təzahür edir, təzahür mahiyyətlidir. Təzahür eyni mahiyyətdir, lakin bilavasitə gerçəkliklə meydana çıxması cəhətdən götürülmüşdür. Təzahür gerçəkliyin xarici, səth tərəfidir, şeylərin ayrı-ayrı xassələri, momentləri, cəhətləridir. Mahiyyət həmin təzahürlər, müxtəlif momentlər, tərəflərdir, lakin ən sabit, dərin, ümumi şəkildə götürülmüşdür. Bəzən mahiyyəti obrazlı şəkildə sürətli çayın nisbətən sakit, güclü, dərin axını ilə müqayisə edirlər [8,s.338].

Maraqlı cəhətlərdən biri budur ki, bir təzahürdə hökmən mahiyyət aşkara çıxır, lakin tam şəkildə deyil, onun müəyyən bir hissəciyi aşkara çıxır. Əslində təzahür mahiyyəti tamamilə əhatə etmir, onu yalnız hər hansı bir tərəfdən səciyyələndirir. Bununla yanaşı, xalis mahiyyət, yəni heç bir şeydən meydana çıxmayan mahiyyət də yoxdur. Hər bir mahiyyət özünü bir sıra təzahürlərdə büruzə verir [8,s.339].

Başqa bir qoşa dialektik kateqoriya sayəlan imkan və gerçəklik inkişafın iki tərəfi kimi, inkişafın çıxış momenti və nəticəsi kimi bir-birinə nisbi surətdə əksdir. İnkişaf isə hadisələr silsiləsi təşkil etdiyinə görə bu silsilənin hər bir halqası birinə nisbətən çıxış momenti və digərinə nisbətən nəticədir: həm imkandır, həm də gerçəklik. İmkan və gerçəklik bir-birinə keçsələr də onları qəti fərqləndirmək lazımdır.

İmkanlar eyni zamanda konkret olur. Konkret imkan maddi sistemin inkişafının müəyyən mərhələsində, müvafiq şəraitin olması sayəsində mövcud olan imkandır. Əgər bütün zəruri şərait olmazsa, hətta ən real imkan da əldən qaçırılır və bu imkan gerçəkliyə çevrilə bilmir. Məsələn, toxumda bitkiyə çevrilmək imkanı vardır, lakin bunun üçün ilin müəyyən bir vaxtında onu yumuşaldılmış nəm torpağa əkmək, müvafiq temperaturun olması və s. lazımdır. Bir çox toxumlar zəruri şərait olmadığına görə cücərmir.

İmkanlar içərisində elələri də vardır ki, onlar zəruri xarakter daşıyır və gec-tez reallaşır. İctimai həyatda imkanların gerçəkliyə çevrilməsi üçün insanların əməli fəaliyyəti olduqca zəruridir [8,s.343].

Zərurəti və təsadüfi düzgün başa düşmək üçün nəinki bunların arasındakı fərqləri, həmçinin bunların arasındakı əlaqəni də görə bilmək lazımdır. Zərurət və təsadüfün dialektikası bundan ibarətdir ki, təsadüf zərurətin təzahür formasıdır. Deməli, zəruri proses daxilində də təsadüflər olur. Bundan əlavə təsadüflər zəruri prosesin inkişafı gedişinə təsir göstərir, bunlar həmin prosesi ya surətləndirər, ya da yavaşıda bilər. Çox vaxt inkişafın gedişində təsadüflər zəruri prosesə o dərəcədə qarışır ki, özləri zərurətə çevrilir. Bu, o deməkdir ki, zərurət ilə təsadüf arasında heç də keçilməz bir uçurum yoxdur, inkişaf prosesində bunlar bir–birinə təsir göstərir, bir-birinə keçir.

Təsadüf ilə zərurət arasındakı əlaqədən belə bir nəticə çıxır ki, təsadüfi hadisələr də müəyyən qanunauyğunluqlara tabedir və həmin qanunauyğunluqlar öyrənilib dərk edilə bilər. Həm zərurət, həm də təsadüf səbəbiyyət əlaqələrində mühüm olduqlarından onları qarşı – qarşıya qoymaq düz deyildir [8,s.334].

## 1.2.1. ZAMAN VƏ MƏKAN

Fəlsəfi təlimlərdə materiyanın varlıq formalarından olan məkan və zamanın özünəməxsus yeri vardır. Məkan anlayışı şeylərin yanaşı mövcudluğunu və bir-birindən aralı olmasını, onların ölçüsünü, onların bir-birinə nisbətən yerləşməsini ifadə edir. Maddi proseslər nəinki məkanca müxtəlif yerlərdə, habelə biri digərindən tez və ya gec baş verir. Maddi proseslərin müəyyən ardıcıllıqla baş verməsi, proseslərin sürəklik etibarilə fərqlənməsi və bir-birindən fərqli fazalara və ya mərhələlərə malik olması,- bütün bunlar o faktı ifadə edir ki, cisimlər zaman daxilində mövcuddur. Beləliklə, zaman-hərəkətdə olan materiyanın mövcudluğunun real formasıdır. Bu gün hamının məkanın sonsuzluğunu qəbul etdiyi, müzakirə mövzusu olmadığı məlumdur. Qurani-Kərimin Əl bəqərə surəsinin 115-ci ayəsində: **"**Şərq də, Qərb də hər ikisi Allahın mülküdür. Bəs hər tərəfə üz tutsanız Allah oradadır. Allah mühitin hər yerini və hər şeyi biləndir" və həmin surənin 117-ci ayəsindəki**: "**O göyləri və yeri yaradandır və bir şeyin olmasına iradə edərsə "Var ol" deyər, o da var olar"-kəlmələri təsadüf deyildir. Ustad öz istinad yerlərini bizlərə məlum edir, bütün bunların hamısına qısa və dolğun cavab verir:

Hökmün nə böyükdü, ey çərxi-qüdrət,
Bir kimsə sirrini bilməmiş əlbət.
Şəmşir bahar görə bir də ya qismət,
Bu fərmanı bir mələyə tapşırdı [3,s.178].

**Məidə surəsi**, 40-cı ayə. Məgər bilmirsən ki, göylərin və yerin mülkü Allahındır.

Dağlar mövzusu bədii yaradıcılıqda öyrənilməyə layiq ayrıca bir mövzudur. Təsadüfi deyildir ki, dağların Qurani-Kərimdə adı çəkilir, Yerin mövcudluq şərti kimi dağların rolundan söhbət açılır. Aşığın “Dağlar” qoşmasında dağlar bəzənmiş gəlin kimi təqdim olunur:

Süsənli, sünbüllü, al-əlvan rəngli,
Çiyələkli, yaşıl meşə ətəkli,
Nərgiz kalağaylı, lalə gərdəkli,
Al bəzəkli, təzə gəlindi, dağlar [3,s.252].

Aşığın doğulub boya-başa çatdığı məkan Azərbaycanın bir parçası olan Kəlbəcərdir. O Kəlbəcər ki, onun qiymətini Ulu Öndər Heydər Əliyev vermişdir: “Böyük əraziyə malik olan Kəlbəcər Azərbaycanın gözəl və qiymətli guşələrindən biridir. ...Allah Kəlbəcərə hər cür nemətlər: gözəl təbiət, zəngin sərvətlər veribdir. Kəlbəcər məğrur dağları, gözəl meşələri, otlaqları, çəmənləri, obaları, bulaqları olan, vətənimizin təbiət gözəlliyini və zənginliyini əks etdirən bir parçasıdır. Kəlbəcərdə yaşayan insanlar da o gözəl təbiətin, məğrur qayaların, dağların təsiri altında daim cəsur olublar, qəhrəman və rəşadətli olublar. Eyni zamanda zəkalı olublar, elmə, biliyə, mədəniyyətə həmişə böyük maraq göstəriblər” [ 57].

O Kəlbəcər ki, onun torpağını, gözəllərini, pəhləvanlarını Dədə Ələsgər tərif etmişdir:

Ələsgər mərd gördü, bir dastan aşdı,
Tərlan qaynaqlıdı, aslan savaşdı,
İgidlərdə Naaaəbi hamıdan başdı,
Gözəllərdə Nənəpəri yaxşıdı [17].

Sonda Aşıq Şəmşir şeirlərində Kəlbəcərin vəsfi bu gün işğal dövründə Kəlbəcərdə doğulmayan Vətən övladları üçün bir yaddaş kitabıdır:

Kəlbəcərdi adın sənin – sahibi-dəftər bəyənib,
Səni yaradan təbiət demirəm hədər bəyənib,
Abi-həyat səndə imiş, gəlib İsgəndər bəyənib,
Torpağını, gözəlini Aşıq Ələsgər bəyənib,
İgidlərin təriflənib dastansayağı, Kəlbəcər [3,s.385].

Vaxtilə bəyənilməyən, burjua fəlsəfi cərəyanı kimi qiymətləndirilən, “insanın məkanın təsiri ilə formalaşması” fikrini Aşıq Şəmşir lətif kəlmələrlə ədəbiyyatımıza gətirir. Müalicəvi əhəmiyyətli dərman bitkilərindən tutmuş estetik zövq yaradan qartallaradək, “dürr xəzinəsi” şairlərdən tutmuş saf mənəviyyata söykənən, bu mənəviyyatı əldə əsas tutan gənc yazarlaradək hamısının formalaşmasında məkanın – Kəlbəcərin rolundan bəhs edir:

Sənin loğman əllərindi hər dərdə dərman yetirən,
Duyğulu qartal böyüdən, alıcı tərlan yetirən,
Kəlməsi dürr xəzinəsi, kamallı Qurban yetirən,
Piranəyə qədir qoyan, təzə növcavan yetirən,
Günbəgün pardaqlanır şeir ocağın, Kəlbəcər [3,s.385].

Aşıq dağlarsız, dağlar da aşıqsız gözəl ola bilmir. Ustad üçün bu gözəllik sənətin və dağların vəhdətindən ibarətdir:

Gədik varmı Şəmşir ondan aşmasın?
Çeşmə varmı hüsnünə söz qoşmasın?
Bu dağlardan sazım ayrı düşməsin,
Aşıq da dağlarla qoşa gözəldi [1,s.162].

Məkanı – dağları insanlaşdırmaq, etik dəyərlərlə onu bəzəmək Ustad aşıqlara xas olan bir xüsusiyyətdir. Hələ XIX əsrdə Dədə Ələsgər [17] deyirdi:

Ağ xalat bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib xətrinə dəyməz.
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Aşığın dilində dağların qiymətini arif, kamil, şair, dərdbilən insan bilər. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə 1971-ci ildə Kəlbəcərə səfər edəndə Ustad “Qayıtmaz” rədifli qoşmada insan-məkan, insan-dağ vəhdətini açıqlayır:

Ceyran bulağını görməyə gələn,
İnanmıram, yolu yarı qayıtmaz.
Arif, alim, kamil, şair, dərd bilən,
O gəzməmiş bu dağları, qayıtmaz [2,s.408].

Aşıq Şəmşir Allahın yaratdığı məkanı – Kəlbəcəri doğma balalarından ayırmır. “Öncə Vətəndir, öncə yaşamağımız üçün əmanət verilmiş məkandır sonra övladlarımızdır” – müddəasını irəli sürür. “Yadıma düşdü” rədifli qoşmasında olduğu kimi:

Qonurun, Keytinin, Məndilin dağı,
Al-yaşıl bəzəkli Taxta yaylağı.
İstisuyun dərdə dərman bulağı,
Üstünün yarpızı yadıma düşdü [2,s.337].

Ustad məkan sıralanmasından sonra növbəti misralarda Allahdan ona verilən övlad paylarını sadalayır:

Şəmşir, fərar etdi könlünün quşu,
Səbrsiz axtarır dostu, qardaşı.
Oğlum Ələsgərin ata çağrışı,
Şükufənin gözü yadıma düşdü [2,s.337].

***

Soyuqdan, istidən saxlanan canın,
Quru yerdi, axır bir gün məkanın.
Adəti, qaydası budur dünyanın,
Gah yazı çağırır, gah zimistanı [2,s.416].

Vətəni biz seçmirik. Vətən bizə verilir. Və bu Vətəni qorumaq anadan da, dədədən də mühümdür.

Şəmşir, bu vətəndi ana, həm dədə,
Başqa şəriklərdən qoxmazam nə də.
Çatanda ömürə verilən vədə,
Tuta bilən olmaz qoca dünyanı [2,s.416]

Azərbaycan aşıq şeirində “zamanında”, “vaxtında” sözlərinin sinonimi kimi “vədəsində” işlədilir. Zamana hörmət, vaxta sevgi düşünən bəşərin təfəkküründə mühüm yer tutur. Zamana hörmət etmədikcə zaman da öz qisasını alır.

Ayılanda isə gecikmiş oluruq. Axar çay kimi zamanı da dayandırmaq gücündə deyilik. O cümlədən Aşıq Şəmşir yaradıcılığında da vaxtın, zamanın qiyməti yerindəcə verilir.

Ustad "Zamanı əldən buraxarsan ha yüyürsən də çata bilməzsən" həqiqətini "Vədəsində" qoşmasında oxucularına çatdırır:

Ov keçdi bərədən, uyğuda yatdım,
Oyandım, xədəngi izinə atdım.
Ha yüyürdüm: nə yetişdim, nə çatdım,
Hər işin qaydına qal vədəsində [2,s.326].

Qoşmanın digər bəndində imkan olanda yaxşılıq etmək, kömək əlini uzatmaq şansını əldən verməməyə çağırır:

Qubarlandın əldə var olan vaxtı,
Bağçanız bəzənib bar olan vaxtı...
Qoynunda xəstəyə nar olan vaxtı–
Bir dənə qıymadın bol vədəsində [2,s.326].

Elə zamana, vaxta olan biganəliyi xalq şairi Zəlimxan Yaqub yerindəcə oxucusuna çatdırmaqla gələcəkdə bu biganəliyə son qoymağa səsləyir: "Hər görüşdə, hər söhbətdə Aşıq Şəmşirin şair və aşıq, ustad və ozan ömrünün yeni bir hikməti açılır, təzə bir çaları üzə çıxırdı. "Ustad görməyənin işi xam qaldı" deyiminin nə qədər ilahi bir gücə qadir olduğunu ustadı hər dəfə yenidən kəşf edəndə daha geniş anlamda başa düşürdüm. Heç bir kitabda oxumadığım, heç kəsdən eşitmədiyim Allah kəlamları, ustad deyimləri, dinimizin və dilimizin qüdrətiylə bağlı xoruz səsi eşitməyən

mətləblər vardı Dədə Şəmşirdə. Bizim biganəliyimizin ucbatından hamısını özü ilə apardı” [179,s.244-259].

Biganəlik burada imkanın qaçırılması kimi anlaşılır. İmkanın qaçırılması elə zamanın itirilməsidir. Əldən verdiyimiz, geri qayıtmayan zamanın qiymətini anlamaq zərurəti ortaya çıxır. Elə bu məqamda prof. A.Şükürovun imkan haqqındakı mülahizələrini [8] bölüşmək yerinə düşər: “İmkanlar müxtəlif olur. İki növ imkanı – abstrakt (formal) imkan ilə real imkanı bir-birilə qarışdırmaq olmaz. Müəyyən qanunauyğunluğun olması ancaq abstrakt, formal imkanı şərtləndirir ki, bu da həmin konkret tarixi şəraitdə hələ gerçəkliyə çevrilə bilməz, çünki onun gerçəkliyə çevrilməsi üçün ilkin şərait yoxdur, əməli fəaliyyətdə formal imkana arxalanmaq olmaz ki, guya hər şey mümkündür. Əməli fəaliyyətdə yalnız mövcud şəraitdən, mövcud olan və fəaliyyət göstərən qanunauyğunluqdan irəli gələn real imkana arxalanmaq lazımdır. Lakin obyektiv qanunauyğunluğun mövcud olması hələ heç də bu və ya başqa bir real imkanın meydana çıxması üçün kifayət deyildir. Həmin qanunauyğunluğun məhz müəyyən formada təzahürünə kömək edəcək şərait lazımdır” [8,s.342].

Son məkanımız, əzəlimiz və sonumuz olan, ana deyə müraciət etdiyimiz torpaqla bağlı Aşıq Şəmşirin yaradıcılığını Ömər Xəyyam fəlsəfəsindən yan keçərək izah etmək Ömər ruhunu incik salardı. Bu dahilərin torpaqla bağlı fikirlərinin müqayisəsini, paralelini möhtərəm oxucuların diqqətinə çatdırmaq yerinə düşər. “Torpaq” rədifli qoşmasındakı ümumfəlsəfi fikirlər bu qəbildəndir:

Əlacım olsaydı tapdamazdım heç,
Ayağım altında qalanda torpaq.
Sıxma ürəyimi, incitmə məni,
Məni sən altına alanda, torpaq.

***

Torpaq – ömrüm-günüm, torpaqdır canım,
Torpaqdır sirdaşım, hər yanım mənim.
Qucağında çürüyəcək bədənim,
Kəfənim saralıb solanda, torpaq [2,s.60].

Ömər Xəyyamın [48] son məkanımız olan torpaqla bağlı rübailərindən yan keçmək mümkün deyil. Həm də bu rübailərdən sonra oxucu heyranlığını təsəvvür etmək mümkündür:

Bu qoca dünyadan gedincə sən, mən,
Kərpiclə örtülər qəbrimiz həmən.
Başqa qəbirlərçün torpağımızdan,
Kərpic düzələcək, bunu düşün sən [48,s. 106].

***

Gündüzlər, gecələr bizdən qabaqdır,
Fələk dolanmışdır, dolanacaqdır.
Aman! Bu torpağa yavaş qədəm bas,
O bir yar gözüdür, sanma torpaqdır [48,s.206].

***

O tikan ki, tapdar onu hər naşı,
Bir sənəm saçıdır, bir canan qaşı.
Saray qübbəsində olan hər kərpic,
Bir vəzir barmağı, bir sultan başı [48,s.224].

Ustad üçün son məkan qara torpaqdır. Düşünəndə ki, insanın əzəli yaranışı torpaqla bağlıdır, onda bu məkanın – torpağın qiyməti məlum olar. Bəlkə elə buna görə insan torpağı bu qədər sevir. Torpaq uğrunda müharibələr də, torpağa sevgi də bu məqamda sanki məlum olur. Aşıq Şəmşirə görə dahiləri öz qoynunda saxlayan torpağın qiyməti heç bir ölçüyə gəlmir:

Xaqani, Nəvai, Nəsimi hanı?
Səndən kam aldımı, ay qara torpaq?!
Nizami, Füzuli, gövhərin kanı,
Oldular ilana pay, qara torpaq [2,s.265].

Torpaq haqqında çoxsaylı qoşmalarla yanaşı təcnislərdə də son məkanla bağlı dəyərli fikirlər verilir. Aşıq Şəmşir üçün torpaq həm əzəl, həm axır, həm ata, həm də anadır. “A zalım məni” təcnisində olduğu kimi:

Şəmşir, bədən üryan, a nəmdi torpaq,
Əslinə baratdı, ənamdı torpaq,
Öz halal atamdı, anamdı torpaq,
Bəsləmiş axırı, əzəli məni [2,s.459].

Məkan fəlsəfi anlayışı Aşıq Şəmşir poeziyasında əsasən torpaq anlamındadır. Torpaq ustad üçün gah ata-ana, gah əzəli, gah da son mənzil olur. Bioloji cəhətdən orqanizmlərin mövcudluq şərti torpaqla bağlıdır. “Cəm il duzunu” təcnisində ana torpaqdan aldığımız nemətin halallığını istəyir:

Bədxahları danışdıram, ha lal et,
Kamil sərraf, mətahını halal et.
Ana torpaq, nemətini halal et,
Yedim çörəyini, cəm il duzunu [2,s.493].

"Zamana ehtiyac var" deyimindən çıxış edən Ustad aşıq səbrə, dözümə çağırışı yada salır. "Allah dözümlüləri mükafatlandırır" prizmasından oxucusuna öyüd verir: "El gücündəyəm" qoşmasındakı kimi:

Hər şeyin məqama çatan vaxtı var,
Selin daşan vaxtı, yatan vaxtı var,
Ovçu ova güllə atan vaxtı var,
Hədəfə tez çatan ox ucundayam [2,s.80].

Dağlar Quranda təsviri verilən cənnətin, behiştin bu dünyada surəti olan bir məkandır ki, məhz bu məkanı tərk etmək Ustad üçün çətindir:

Şəmşirəm, qocaldım, yetmişi keçdim,
Qəvvas oldum, dəryalardan ləl seçdim.
Mənim gülüstanım, mənim behiştim
Ancaq dağdı, dağdan gedə bilmirəm [2,s.130].

Aşıq Şəmşir şeirlərində insanın öləndən sonra gübrəyə çevrilməsi ilə bağlı fikirlər səslənir. Gübrə nədir? Çürüyən bitkilər, heyvani qalıqlar və s.

Gübrə nədir? – bitikilərin inkişafı üçün vacib olan maddələrlə torpağı zənginləşdirən maddələrdir. İnsan qidasının əsasını təşkil edən hər nə varsa hamısının ilkin mənbəyi torpaqdır.

Cismin, orqanizmin qurulması torpaqdan alınan maddələr hesabınadır ki, sonda həmin maddələr torpağın özünə də qayıdır. Ruhu tərk olunmuş hər bir ölü insan torpaqda gübrədən başqa bir şey deyil. Bütün bunlar həm elmi, həm də helmi kamil olanlar üçün, normal düşüncə sahibləri üçün belədir. Sadəcə, irfan əhli, qələm əhli şairlər bunları poetikcəsinə təsvir edir.

Aşıq Ələsgərə [17] görə "gül əndamlar" sonda ilana, qarışqaya qismət olur:

Hayıf cavanların gül əndamına
Mara, mura qismət oldu dünyada [17].

Ömər Xəyyama [48,s.136] görə insanın cismi sonda çamıra-palçığa dönür:

Dünən bir bazarda gördüm kuzəgər,
Çamırı təpiklə yoğurub əzər.
Çamır kuzəgərə dedi: "Yaxşı bax,
Mən də sənin kimi deyildim məgər?"

Dədə Şəmşirdə isə torpağa qarışan cisimlər sonda bitkilər üçün gübrə rolunu oynayır:

Teymuri Ləng hanı, İsgəndər hanı,
Nadir, Bəhram tutmadılar dünyanı?!
Gübrə yaradıbsan fani insanı,
Dəhr üzündə gəştibanlar dağıldı [2,s.209].

***

Fərzəndə eyşindən almadı kamı,
Köç etdi Füzuli, getdi Nizami.
Qarışıb, torpaqda çürüyüb hamı,
Çox alimlər, gövhər-kanlar dağıldı [2,s.209].

Biz insanlar elmi kitablardan alırıq ki, bu kitablar da təbiətin müşahidəsi əsasında qələmə alınmışdır. Əgər təbiətdə heç bir canlı öz arealını tərk etmirsə, (Köçəri quşların sadəcə iki məkanı var. Onlar da bu məkanları dəyişmir) bəs insan niyə məkansız olsun. Laməkan olmaq bəndəyə aid olmayan bir ifadə. Deməк, insan üçün qəriblik anlayışı olub, var və olacaq. Demək bizə məkan verilib və bizlərə o məkanları qorumaq da əmr olunub.

Dolu döyməyən bağ solmaz, saralmaz,
Şəmşir, qəriblikdə etmə ərkinaz.
Qərib can verəndə can deyən olmaz,
Sığınmışam min bir Ada, qəriblik [2,s.214].

Mövlana Cəlaləddin Rumi [120] deyirdi ki, iki sufi şeyxindən söhbət əsnasında biri o birisindən soruşur: – Qəriblikdə özünü necə hiss edirsən? Digər şeyx: Allahın məkanında da qərib olmaq olarmı? – deyərək, birinci sual verən şeyxi utandırır. Elə buradaca məkan-qəriblik anlayışının ziddiyyətli olduğu anlaşılır, "qara torpaq hamımızın anasıdır" fikri də oradan qaynaqlanır:

Şəmşir, cahan meyxanadı,
Çoxlarına nişanadı.
Qara torpaq bir anadı,
Harda ölsən yadı yoxdu [2,s.505].

Zamana münasibətdə Aşıq Şəmşirin işlətdiyi anlamlar maraqlıdır:

Çöküb bədənimə nə yaman ağrı,
Bəlkə vaxt yetişib, vədəmi gəlir.
Döyünür saat tək vuran ürəyim,
Dərd əlindən zərbə-zədəmi gəlir [2,s.361].

Yuxarıdakı misradan belə məlum olur ki, Ustad "vaxt" dedikdə böyük uzaq zamanı, "vədə" dedikdə isə yaxın zaman kəsiyini nəzərdə tutur. Bu bir daha ustadın yaradıcılığında zamana münasibətdə dərin fəlsəfi məsələlərdən xəbər verir.

Torpaqla bağlı Aşıq Şəmşirin fikirləri obyektiv reallığa söykənən fikirlərdir. Ustad üçün son mənzildən qaçmaq niyyəti də yoxdur, ağır olan dostlardan ayrı düşməkdir, ağır olan ayrılıq acısıdır.

Səndə vəfa yoxdu, ölüm var – haqdı,
Şəmşirin mənzili qara torpaqdı.
Meylin bir gün məni yola salmaqdı-
Düşüm dost gözündən uzağa, gərdiş [1,s.321].

Məkan eləcə də Aşıq Şəmşir üçün doğulub boya-başa çatdığımız Azərbaycandır. Azərbaycan məkanı Ustad üçün anadır, atadır:

Şəmşir üçün sənsən ana,
Atasan mərdi-mərdana.
Məftunam *Azərbaycana,*
Meylim dönməz qeyri yana [3,s.323].

Və bu məkanın başkəndi – paytaxtı Bakı şəhəridir:

Vardır Daşkəsənin, Milin, Muğanın
Göy göl, Naftalanın – həkim loğmanın.
Bir də İstisuyun – dərdə dərmanın,
Gün-gündən ucalır ürəyin, *Bakı* [3,s.225].

Aşıq üçün bölünmüş vətən həsrəti həmişə öndədir, azərbaycançılıq ideyaları məkan anlayışı ilə birgədir. Əslən Təbrizdən olan məşhur müğənnimiz Rübabə Muradovaya müraciət bu qəbildəndir:

Qohum-qardaş, elim hanı
Olum vətənin qurbanı,
Çağır gəlsin Rübabəni
O da qərib, mən də qərib [1,s.332].

Məkan, həm də son məkan anlamında qara torpaq başa düşülür. "Olmalıdır" ifadəsi ilə son məkanın qaçılmaz olduğunu qətiyyətlə bəyan edirsə, "əcəl qoymaz bir göz qırpaq" la zaman-məkan vəhdətini anladır:

Payız olcaq düşür yarpaq,
Əcəl qoymaz bir göz qırpaq.
Bir gün sənə qara torpaq,
Olmalıdı məkan, canım [3,s.339].

Aşıq Şəmşir poeziyasında fəsillər məkanda baş verən proseslərin zaman ardıcıllığına əyani misaldır:

Dedi yol gözləsin nərgiz, bənövşə,
Qış dolana, bahar gəlib yetişə.
Ceyrana düz verdi, əliyə meşə,
Qartala, kəkliyə qaya tapşırdı [3,s.178].

Məkanın cansız elementləri – düz, meşə, qayalıq – və hər məkanın öz canlıları – ceyran, əlik, qartal, kəklik – arasındakı dialektik vəhdəti yüksək ustalıqla tərənnüm edilmişdir.

"Mərd ata-mərd oğul"– el misalıdı,
İgidin ürəyi öz mahalıdı.
Kişinin əzası qarışmalıdı
Ölən günü torpağına vətənin! [3,s.90].

Alman estetiki F.Şiller gözəlliyi və ülviliyi kəskin şəkildə qarşı-qarşıya qoyur. O, göstərir ki, gözəllikdən fərqli olaraq, ülvilik xoşagəlməz hisslər doğurur; məsələn, heybətli tufan və ildırımın çaxması xoşagəlməzdir və gözəl deyildir. Aşıq Şəmşir yaradıcılığında məkan gözəlliyin ülvilik kateqoriyası ilə vəhdətdədir. Əzəmətin, böyüklüyün mövcudluğu dağlardadır. Dağların timsalında sə ülvilik insanı ucaldan gözəllik kateqoriyası kimi çıxış edir:

Qüdrətdən binəli, səngər qalalı,
Sayılmaz qapılı, bacalı dağlar.
Səndəki qurğunu, cahi-cəlalı
Görən hər bir insan ucalı, dağlar [3,s.86].

Növbəti misralarda sənətkar ülvilikdən (səngərdən, qaladan) əsil gözəlliyə qayıdır:

Başın dumanlıdı, köksün meşəli,
Yaylağın laləli, gül bənövşəli,
İnsan bivəfadır, siz həmişəlik,
Borc olur insanın əcəli, dağlar [3,s.86].

Aşıq Şəmşir poeziyasında məkan və zaman özü belə vəhdətdə verilir:

Min səkkiz yüz doxsan üçdə anadan
Olmuşam, bu qədər yaşım var mənim.
Murov, Qoşqar, Kəpəz, Çilgəz, Dəlidağ,
Məskənim olubdu bu dağlar mənim [1,s.129].

Bu misralarda insanın doğum tarixi zamana işarədirsə, onun formalaşmasında mühüm rol oynayan məkan-məskən amili də (Murov, Qoşqar, Kəpəz, Çilgəz, Dəlidağ) aşığın yaradıcılığında bariz şəkildə verilmişdir. "Mənim" rədifli qoşmanın başqa bir bəndində yenə də "məkan" – yaylaq, "etik dəyərlər" – namus, qeyrət, ar, "cəmiyyət" – ellər kimi fəlsəfi vahidlər çulğalaşır:

Yaylaqda yayladım çobanlarınan,
Gün keçirdim namus, qeyrət, arınan.
Dolandım ellərdə etibarınan,
Dedilər adıma baxtavar mənim [1,s.129].

Aşıq Şəmşir üçün yaradıcılıq məkanı, cəmiyyətin için-də formalaşma məkanı Azərbaycanımızın dilbər guşəsi Kəlbəcərdir. İnsanın formalaşmasında böyüyüb başa çatdığı

məkanın rolu birmənalı şəkildə böyükdür ki, biz bunu aşığın qoşmalarında duyuruq:

Kəlbəcər yaylağı, çiçəkli dağlar,
Sizə ağ yağışlı dumanlar gəlir.
Eşidib səsini bütün el-oba,
İstisu üstünə nə canlar gəlir...[3,s.81].

Torpağa bağlılıq, məkanı sevmək Aşıq Şəmşirə ulular-dan ərməğandırsa, bu duyğu, bu hissiyyat ustadın davam-çılarında da öz silinməz izlərini qoyur. Sərraf Şiruyə [161,s.133] işğala məruz qalan məkanlarımızı – Kəlbəcəri, Göyçəni "Anam, a Kəlbəcər, anam a Göyçə" qoşmasında vəsf edir:

Göz yaşınız bir-birinə qarışıb,
Anam, a Kəlbəcər, anam, a Göyçə.
Gərəkdir alışıb siz yanan oda,
Yanam, a Kəlbəcər, yanam, a Göyçə
Anam, a Kəlbəcər, anam a Göyçə.

Xalq şairi Zəlimxan Yaqubun [179] "insan-məkan" dialektik vəhdəti ilə bağlı bu barədə söylədikləri dedik-lərimizə bariz nümunədir: " "Kəlbəcər" və "Şəmşir" sözləri mənim üçün suyla torpaq kimi, közlə ocaq kimi, sözlə dodaq kimi bir-birinə yaxın və doğma sözlərdir. Çünki Allah-təala Kəlbəcəri xəlq edəndən bu günə kimi Kəlbəcər heç bir aşığın, şairin, ziyalının dilində Aşıq Şəmşirin dilin-də olan qədər poetik yüksəkliyə, mənəvi ucalığa qalxıb, poeziyanın mənəvi sərvətinə çevrilməyib.

Qartal düşüncəli, şair xəyallı,
Tərlan yuva salan dağlar oğluyam.
Anam İstisudu, atam Dəlidağ,
Murov, Lülpar, Qonur, Qoşqar oğluyam”.

Aşıq Şəmşir şeirlərində məkan gah “məskən”, gah “ocaq”, gah “yurd-yuva”, gah da “ana yurd” ifadəsi ilə oxucusuna təqdim olunur:

Şeir ocağıdır Şamaxı, Şirvan,
Şairlər məskəni – eli Kəkliyin.
Tuti kimi nəcib şirin danışan,
Şəkərdən şirindi dili Kəkliyin [3,s.88].

Hamımızın ümumi məkanı qara torpaq, hamımızın ümumi məkanı üzərində yaşadığımız Yer kürəsidir, amma bu ümumiliyin içində doğmalarımızın uyuduğu və onun bizə Vətən olaraq verildiyi və qorunması tələb olunan xüsusi məkanlar da var. “Salamat qal” rədifli gəraylıda elə bu məkanlardan söhbət açılır:

Doğulduğum Dəmirçidam,
Sənə məndən külli salam.
İçdiyim su, yediyim tam,
Qoşabulaq, salamat qal! [2,s.509].

Məkan Aşıq Şəmşir üçün Ana yurddur. “Məkan atamızın atası, babamızın babası” anlamındadır. Bu “Ana yurd” Ağdabanlı şair Qurban şəcərəsinin ad-san qazandığı məkan kimi başa düşülür:

Babama babasan, atama ata,
Səndə ilham alıb çatıblar ada.
Qailəm verdiyin böyük barata,
Süd veribsən sən Qurbana, ana yurd [3,s.108].

***

Yasəmənli Göy qum, var, yadımdadı,
Şəmşirin o yerdə qoyulub adı.
Anam səndə çox telini daradı,
Sənsən mənə şirin ana, ana yurd [3,s.108].

Dağlar mövzusu Aşıq Şəmşirin mənsub olduğu soy-kökün nümayəndələrinin də yaradıcılığında mühüm yer tutur və bu ənənə bu gün də davam edir. Filoloq alimimiz Ələmdar Cabbarlı [43] bu barədə öz dəyərli fikirlərini bölüşür: “Ağdabanlı Qurbanın yaradıcılığında doğulduğu, boya-başa çatdığı dağların vəsfi xüsusi yer tutur. Onun əsərlərində vətənimizin əzəmətli, əsrarəngiz dağlarının yüksək sənətkarlıqla işlənmiş bədii obrazı yaradılmışdır. Dağ obrazı və dağlar mövzusu Azərbaycan ədəbiyyatı üçün xarakterikdir. Kökü Azərbaycanın zəngin folkloruna, dastanlarına gedib çıxan bu mövzu xüsusilə aşıq poeziyasında əhəmiyyətli yer tutur. Şair Qurban da poeziyamızın bu qədim və zəngin ənənəsinə sadiq qalmış, ulu babası Miskin Abdalın, ustadı Dədə Ələsgərin dəfələrlə üz tutduğu bu mövzuda yazmışdır. Bu mövzu Ağdabanlı Qurbanın poeziyasında özünəməxsus rənglərlə meydana çıxır. Şair Qurban da, bir çox sənətkarlar kimi, dağlara ilk növbədə yaradıcılığının ilham mənbəyi kimi yanaşmış, dağların şəfalı suyundan, gül havasından pərvəriş tapdığını bildirmişdir:

Əzəl xilqətimiz torpaqdan, sudan,
Sən bizə atasan, anasan, dağlar!
Pərvəriş verirsən mədhi-zəmində,
Gah da məhv edirsən, fənasan, dağlar.

Aşıq Şəmşir poeziyasında məkan anlayışı təkcə doğulub boya-başa çatdığı Kəlbəcərlə məhdudlaşmır. Bu məkan doğma Azərbaycanımızın hər bir guşəsinin vəsfində görünür:

Öpsəm torpağını dağılar dərdim,
Bəzəkli şəhrinə səcdə edərdim.
Səni görən deyər cənnəti gördüm,
Səni görmək bir murazdı, Naxçıvan [3,s.120].

Başqa bir misrada məkan fəsəfi kateqoriyası “elm”, “kamal” kimi etik dəyərlərlə vəhdətdə verilir. Məkandakı “Badamlı” cənnətdəki Kövsər bulağına bənzədilir. Elə o bulağın başındakılarsa arif, alim, kamil insanlardır:

Bulağın Kövsərdi, adı “Badamlı”,
Ürək sərinlədən ləzzətli, tamlı.
Arifli, alimli, kamil adamlı,
Qəlbim sənə cannisardı, Naxçıvan [3,s.120].

Məkan zamandan fərqli olaraq dəyişilməyə məruz qalan kateqoriyadır ki, insanın məkanı dəyişdirmək gücü və bu zaman məkana təsirin mənfi tərəflərinin olmaması vacibdir:

Səndən qeyri hikmət varmı dünyada
İnsanın qüdrəti insan əlləri.
Dağları yerindən sənsən oynadan,
Dünyanın hikməti insan əlləri [3,s.208].

İnsan rifahına yönələn məkan dəyişiklikləri aşıq tərəfindən bəyənilir, tərif obyektinə çevrilir:

Göy gölün üstündə qurulub şəhər,
Ellərin yaylağı cənnətə bənzər.
Şəmşir, bir Müğana, Milə sal nəzər.
Torpağı bəzədi insan əlləri [3,s.208].

Məkan öz qiymətini üzərində yaşayan canlıları ilə, Yer üzünün əşrəfi sayılan insanları ilə alır. Aşıq Şəmşirin doğulub boya-başa çatdığı məkanın – Kəlbəcərin dəyərini qədirbilən qələm əhli vermiş və verməkdədirlər: "Azərbaycanın daha qədim bir parçası kimi Kəlbəcərin də ta qədimdən bəri başbiləni, torpaq təəssübkeşi, örpək atıb qan barışdıranı, dəliqanlı cavanları, adı tarixdə qalan sənət adamları, şairi, görkəmli ziyalıları, alimləri olmuşdur. Cəmiyyətin yazılmamış adət-ənənə qanunlarına aşağıdan yuxarıya əməl etmək, böyüyə təzim, kiçiyə hörmət, Allaha ibadət bu camaatın əsas meyarı olub. Böyüyünü baş tacı, alimini peyğəmbər, bilik verənini – müəllimini dahi hesab ediblər həmişə. Məclisdə birinci böyük danışıb. Süfrədə ilk bismillahı ağsaqqal eləyib. O, tikə kəsəndən sonra kiçik süfrəyə əl uzadıb. Həmişə su kiçiyin, yol böyüyündür deyiblər. Adət qanun deyil, ancaq qanundan güclüdür – deyimini əsas götürüblər, hamını ona əməl etməyə çağırıblar.

Adət-ənənəsini möhkəm qoruyub saxlayıb bu camaat" [170].

Aşıq Şəmşir poeziyasında məkan insansız təsəvvür olunmur. İnsanın məkan üzərində estetik iz qoyması, məkana sevgisi, onun insan əlləri ilə cilalanması Şəmşir şeirinin başlıca cəhətlərindəndir:

Halal olsun sənə bu şövkət, bu ad,
Mirvari bəzəkli Şuşa şəhəri.
Uçurum qayada kamallı ustad
Gör yaradıb nə tamaşa şəhəri [3,s.257].

Əgər yuxarıdakı misralarda Şuşa qalasını inşa edən memardan söhbət gedirsə, bu gün texniki estetika dediyimiz kateqoriyadan danışılırsa, növbəti şeir bəndində məkan onun üzərində yaşamış və yaşayan insanlarla vəhdətdə verilir:

Vaqifin itməyən izini gördüm,
Şəmşirəm çox şirin sözünü gördüm,
Elə bil behiştin özünü gördüm,
Gül bəzəmiş başdan-başa şəhəri [3,s.257].

Aşıq Şəmşir yaradıcılığında məkan anlayışı torpaq anlayışı ilə qırılmaz əlaqədə olduğundan əvvəlcə dahi Nizaminin torpaqla bağlı fikirlərini dəyərli oxuculara təqdim etməyi lüzum bildik:

Qaytar buərşdən gələn Tanrı əmanətini,
Qaytar qara *torpağa* öz torpaq cəsədini [137,s.193].

Qaytar çərxin borcunu, bu *torpağı* tərk elə,
Torpaq hər nə veribsə, bir gün alır, dərk elə [137,s.193].

Məkanın sinonimi kimi torpaq Aşıq Şəmşir poeziyasında mühüm yer alır:

Xəlq olandan sən olmusan
Bizə ata, ana, torpaq.
Sən qüdrətdən yaranıbsan,
Çatdın ada, sana, torpaq [3,s.297].

Məkan, eləcə də Aşıq Şəmşir üçün "döşlərindən süd əmdiyi" ana qucaqlı Kəlbəcərdir:

Şəmşir üçün yandırdı şəm,
Qoymadı ki haldan düşəm...
Döşlərindən süd əmmişəm,
Ana qucaqlı Kəlbəcər [3,s.362].

Aşıq Şəmşir yaradıcılığında Azərbaycanın hər yeri doğmadır, bu məkanın hər guşəsi onun üçün əzizdir. Şeirlərdə bu məkanın guşələri tez-tez dəyişir, əvəzlənir. Gah başı qarlı dağlar olur, gah sarı sünbüllü çöllər olur, gah da küləkli Xəzər! Allahın bizi sinəsində yaratdığı, bizi bəslədiyi, bizdən qorunmasını tələb etdiyi məkanlar Ustadın yaradıcılığında öz vəsfini alır:

Elə qüvvə yoxdu kəsə,
Küləyini Xəzər, sənin.
Hər an gördüm əsə-əsə
Lələyini Xəzər, sənin [3,s.364].

Aşıq Şəmşir yaradıcılığında məkan estetikcəsinə təsvir olunur. Ana torpağın sinəsində zivər vuran Allahı yadımıza salmaqla məkanın yaradılışındakı (öncə məkan sonra ideyanın yaradılışı) materialist mübahisələrə son qoyur: Ekoloji yaruslar ardıcıllıqla – meşələr, meşəkollar, kollar, yaylaqlar və nəhayət zirvədəki qayalıqlar təsvir olunur:

Zərif yarpaqlı meşələr düzülüb dağ sinəsinə,
Bənövşə kollar köksünə, lalə yaylaq sinəsinə,
Xınalı şiş qayaların həvəslə bax sinəsinə,
Rəssam əli zivər vurub ana torpaq sinəsinə,
Eşidəndə bu sözləri artar marağın, Kəlbəcər [3,s.364].

Bu yerdə Kəlbəcər kimi cənnətmisallı torpaqlarımızın bənzərsiz Rəssamı Allah-Təalanın yaratdıqları qarşısında heyranlıq yada düşür. Mövlana Cəlaləddin Rumi həzrətinin öz dövründə məşhur rəssam Eynüddövləyə dediyi sözlər öz yerini tapır: “Ey Eynüddövlə! Sən də, yerdə və göydə olan hər şey də Onun – bənzərsiz bir Rəssamın əsərisiz. Sən həm hüdudsuz bir sənət əsəri, həm də canlı bir rəsm olduğun halda, səni yaradanı qoyub cansız və anlamsız bir rəsmə aşiq olmağın doğrudurmu? O xəbərsiz şəkillərdən nə əldə edə bilərsən, əlinə nə gələr?” [120].

Məkanın Allah tərəfindən yaradılmış gözəlliyi hələ Şeyx Nizami [141,s.15] tərəfindən İsgəndərnamədə aşağıdakı kimi təsvir olunmuşdur:

İstidən, soyuqdan, qurudan, yaşdan,
Yoğurub yaratdın gözəl bir cahan.
Nə gözəl naxışlar vurdun xilqətə,
Ağıllar heyrandır bu məharətə

Aşıq Şəmşir şeirlərinə “zamana ehtiyac var” fəlsəfəsi hakimdir. “Zaman ən böyük təbibdir” deyiminə, “hər şey öz zamanında gözəldir” fikrinə uyğun qoşmalar qəlblərə öz işığını saçır. “Vaxtı var” deməklə zamanı nə sürətləndirməyin, nə də geriyə qaytarmağın mümkünsüzlüyünü bəyan edir:

Şəmşir, hər söhbətin, sazın vaxtı var,
İşvənin, qəmzənin, nazın vaxtı var,
Hər fəslin, zamanın, yazın vaxtı var,
Bahar gülmü açar buz düşən yerdə [3,s.210].

Həyatı bütün reallıqları ilə, acılı-şirinli həqiqətləri ilə qəbul edən Ustad ömrün sonunu “xəzan” fəsli kimi bizlərə tuşudur:

Xəzan vurar, bülbül güldən ayrılar,
Şirin söhbət, şirin dildən ayrılar.
Şəmşir bir gün evdən, eldən ayrılar,
Yola salar çərxi-zamana, heyif [3,s.66].

İlin fəsillərinin dəyişməsinin zaman kateqoriyasının izahına ən gözəl sübutu kimi aşığın dürr misraları var. Bahar bayramı münasibətilə yazdığı “Mübarək olsun” qoşmasında “hər şeyin zamana ehtiyacı var”, “zaman hər şeyi öz yoluna qoyur” müddəası özünü doğruldur:

Nəbatat yuxudan oyanır indi,
Günəş tamaşaya dayanır indi,
Aləm al-yaşıla boyanır indi,
Fəslin sərəncamı mübarək olsun [3,s.116].

Aşıq Şəmşir yaradıcılığında məkan və zaman qoşa kateqoriyası insanla birgədir:

*Qış* düşür taxtından, küsür *zimistan*,
Baxıb məmnun olur, sevinir *insan*,
Bir sovqat göndərir yerə asiman,
Belə xoş məqamı mübarək olsun [3,s.116].

Zamanın geridönməzliyi, zamana qayıdışın mümkünsüzlüyü Aşıq Şəmşir poeziyasında lirik bir dillə ünvanına yönəlir:

Düşürmü yadına keçən zamanlar,
Sən ilə söhbətli, sazlı günlərim...
Gözlərindən gülüb, qaş oynatdığın,
Hanı o qəmzəli, nazlı günlərim [3,s.172].

Xatırlanmağa layiq olan zaman kateqoriyası "ləyaqət", "hörmət", "sədaqət", "söz-söhbət" kimi etik, əxlaqi dəyərlərlədir:

Əfsun ləyaqətin, əfsun hörmətin,
Sənin sədaqətin, sənin ülfətin,
Hanı məhəbbətin, sözün, söhbətin?
Gözəl, sənsiz heç olmazdı günlərim [3,s.172].

Zaman və məkan dialektik kateqoriyalarına Aşıq Şəmşir yaradıcılığı əsasında aparılan bu kiçik səyahət düşünürük ki, gələcəkdə fundamental tədqiqatlara girişdir. Belə ki, bu fəlsəfi kateqoriyaların dərkində aşıq poeziyasından yararlanmağın vaxtı çatmışdır.

## 1.2.2. FORMA VƏ MƏZMUN

Dialektik fəlsəfənin mühüm qoşa kateqoriyalarından olan forma və məzmun haqqında danışarkən qeyd etmək lazımdır ki, məzmun məlum predmeti və ya hadisəni təşkil edən elementlərin və proseslərin məcmusudur. Forma məzmunun strukturu, quruluşudur, həm də forma məzmuna nisbətən zahiri bir şey deyil, ona daxilən xasdır.

Ümumiyyətlə, məzmun yoxdur, yalnız formalaşmış, yəni müəyyən forması olan məzmun vardır. Eyniylə xalis məzmunsuz forma yoxdur. Forma daim məzmunludur, o müəyyən məzmun olmasını nəzərdə tutur və bu məzmunun strukturunu, quruluşunu təşkil edir, məzmun formaya nisbətən fəallığı ilə seçilir. Məzmun özünə xas ziddiyyətlərin mövcudluğu ucbatından daim hərəkətdə, inkişafda olur. Məzmunun dəyişməsindən asılı olaraq, forma da dəyişir.

Məzmun formanı müəyyən edir. Lakin bu o demək deyildir ki, forma passivdir və məzmuna təsir etmir. O, məzmuna fəal təsir göstərir, məzmunun inkişafına kömək edir və ya əngəl törədir. Öz məzmununa uyğun gələn yeni forma məzmunun inkişafına, irəliləməsinə kömək edir. Öz məzmununa uyğun gəlməyən köhnə forma isə məzmunun inkişafına əngəl törədir.

Forma ilə məzmunun qarşılıqlı təsirini şərh edərkən, nəzərə almaq lazımdır ki, mövcud şəraitdən asılı olaraq eyni bir məzmun müxtəlif formalarda inkişaf edə bilər.

Formaların müxtəlifliyi məzmunu möhkəmləndirir, zəngin və çoxcəhətli edir, ona ən müxtəlif şəraitdə inkişaf etmək imkanı verir. Lakin qeyd etmək lazımdır ki, məzmun ilə forma arasında müəyyən vaxtlarda kəskin ziddiyyətlər də meydana çıxır. Məzmuna nisbətən forma daha çox

sabitdir. Buna görə də forma məzmunun inkişafından daim geri qalır, köhnəlir və məzmunla ziddiyyətə girərək onunla toqquşur. Yeni məzmun ilə köhnə forma arasındakı ziddiyyət çox vaxt köhnə formanın atılması və onun yeni formanı əvəz etməsi ilə başa çatır. Bunun sayəsində məzmunun gələcək inkişafı üçün perspektivlər açılır. Məzmunun müxtəlif tipləri mövcuddur: vacib və vacib olmayanlar, zəruri və təsadüfi olanlar, maddi və «ideal» olanlar və s. Onlara uyğun müvafiq forma tipləri də mövcuddur.

Forma və məzmun anlayışları nisbidir. Məsələn, istehsal münasibətləri üstquruma nisbətdə məzmundur, cəmiyyətin məhsuldar qüvvələrinə nisbətdə isə formadır. Forma və məzmun nisbətinin traktovkasında dialektik mövqe aşağıdakı prinsiplərlə aydınlaşdırılır; 1. Məzmun və formanın ayrılmazlığı; 2. Əlaqələrin rəngarəngliyi; 3. Vəhdətin ziddiyyəti; 4. İnkişafın optimallığı – formanın məzmunu və yaxud əksinə, məzmunun formaya müvafiqliyi.

Əslinə qalanda elə bir maddi sistem yoxdur ki, orada məzmun və forma olmasın. Məzmun yoxsa forma da yoxdur. Yaxud da əksinə. Maraqlı cəhətlərdən biri də forma ilə məzmunun bir-birinə keçməsidir.

Bir hadisə, proses və s. üçün forma olan digəri üçün məzmun olur və yaxud da əksinə. Əslinə qalanda bu proses həmişə davam edir. Dialektika özü də bunu tələb edir [8,s.337-338].

Forma və məzmunun dialektik vəhdətindən söhbət düşdüyü məqamlar üçün Ustadın necə deyərlər hazır şeir qəlibləri mövcuddur. Aşıq üçün yaylaq və oylağın məzmunu el, dağın məzmunu sinəsindəki var-dövlət, ölkənin məzmunu onun sənət adamları, şairləri, bağın məzmunu bülbüllər, qayaların məzmunu isə kəkliklərdir. Oxucu

“məzmunsuz forma kimə və nəyə gərəkdi” düşündürücü ritorik sualın sehrinə düşür:

Bu elsiz yaylaqlar, elsiz oylaqlar,
Qoyunsuz, quzusuz, çobansız dağlar.
Şairsiz ölkələr, bülbülsüz bağlar,
Kəkliksiz qayalar nəyə gərəkdi [1,s.137].

Bizim qəbul etdiyimiz müsbət və ya mənfi məzmuna elə onun öz forması uyğun gəlir:

*Məkəs,* milçək *haram nəşi* arzular,
*Nakəs* olan *alçaq işi* arzular,
Zimistanın quşu qışı arzular,
*Bülbülün* xəyalı ***yaz*** tərəfinə [1,s.154].

Forma və məzmun dialektik kateqoriyalar cinaslı bayatılarla da oxuculara təqdim olunur. “Cəmiyyətdə hər bir fərd öz qabiliyyətinə uyğun yer tutmalıdır” prinsipi pozulanda cəmiyyətin ovqatı Aşıq Şəmşirin “tülək tərlan”ına uyğun gəlir:

Mən aşığam ov sara,
Maya gedər ovsara.
Tülək tərlan vərəmlər,
Əgər çatsa ov, sara [1,s.510].

Forma və məzmun kateqoriyalarının dialektik vəhdətindən söhbət düşdüyü məqamlar üçün Ustadın qoşmalarında çoxsaylı misallar tapmaq olur. “Axtarır” rədifli qoşmada gözəllərin xarici siması ilə (forma) onun ağlı,

zəkası (məzmun) arasında, sənətkarın özü (forma) və işi (məzmun) arasındakı dialektik vəhdəti gözəl, anlaqlı dildə verə bilir:

Doğru sözdür: beyni qandı cavanın,
Gözəlin *camalın*, *qaşın* axtarır.
Fikr eləmir: ya axmaqdı, ya dəli,
Deyir: cavan olsun – *yaşın* axtarır.

***

Dalınca çox düşmə hər arzuların,
Elə bir bağ sal ki, dərəsən barın.
Kamallı insanlar hər sənətkarın,
*Özünü* axtarmır, *işin* axtarır [2,s.283].

Aşıq Şəmşir poeziyasında insanın xarici geyimi, libası önəmli deyil. Mühüm olan, önəmli olan elə insanın özüdür.

Ellərinə yolum düşdü,
Dünya, səndə bu nə işdi...
Elə qəşəng bəzənmişdi
Libasından özü göyçək [3,s.329].

Dialektik fəlsəfənin mühüm qoşa kateqoriyalarından olan forma və məzmun haqqında danışarkən qeyd etmək lazımdır ki, məzmun predmeti və ya hadisəni təşkil edən elementlərin və proseslərin məcmusudur. Forma məzmunun strukturu, quruluşudur, həm də forma məzmuna nisbətən zahiri bir şey deyil, ona daxilən xasdır:

Soyuq külək zimistana layiqdir
Lalə, nərgiz boran, qara yaraşmaz.
Tutmaz yoldaşlığı qış ilə yazın,
Qışın fəsli novbahara yaraşmaz [3,s.189].

Eləcə də, insanın cəmiyyətdə tutduğu mövqe ilə, çatdığı vəzifə məqamı ilə onun ağlı, kamalı, təfəkkürü arasındakı vəhdət Aşıq Şəmşir yaradıcılığında poetik dillə ünvanına çatdırılır. Keçən əsrin sonlarında ulu öndərimiz Heydər Əliyevə Sovet dövlətinin, Sovet hökumətinin ən yüksək mükafatı olan Sosialist Əməyi Qəhrəmanının II Qızıl Ulduzu təqdim olunanda Ustadın yazdığı şeirin bir parçası insanın cəmiyyətdə tutduğu mövqe (forma) ilə, onun daxili qabiliyyəti, təfəkkürü (məzmun) arasında dialektik vəhdətə bariz misaldır:

Azərbaycanımın igid oğluna,
Qızıl Ulduz qoşa-qoşa yaraşır.
Alqış kamalına, alqış ağlına,
Zərli tac kamallı başa yaraşır.

Forma və məzmun kimi dialektik kateqoriyalar aşığın yaradıcılığında müxtəlif deyimlərlədir. Məsələn, Ustad "qayda" deyirsə formanı nəzərdə tutur:

Açan gülün qaydası var,
Qıvrım telin qaydası var,
Bizim elin qaydası var,
Oğlan sevib qız almazmı?! [1,s.386].

“Almazmı?!” rədifli gəraylıda “gül”, “tel”, “el” məzmundursa “qayda” həmin məzmunların formasıdır.

Ustadın “Etibarsız” rədifli qoşmasında forma və məzmun fəlsəfi kateqoriyası dialektikanın kəmiyyət dəyişikliklərinin keyfiyyətə keçməsi qanunu ilə müştərək səsləşir:

Şəmşiri sən saldın əzəldən dərdə,
Bir ünü göydədi, bir ünü yerdə.
Cavanlıq, gözəllik, görməzsən bir də,
Gedər adın-sanın, ay etibarsız.

Bu misralarda yaşın artması ilə bioloji cəhətdən gözəlliyin dəyişməsi qeyd olunursa, digər tərəfdən təkəbbür və lovğalığa səbəb olan, forma kimi çıxış edən gözəlliklə etibar, vəfa kimi məzmun daşıyıcıları arasındakı dialektik vəhdət verilir. Belə ziddiyyətlər Füzulidə incəliklə təqdim olunur. Füzuliyə görə [99] həm islam dininə, eləcə də bütpərəsti dininə etiqad edənləri dinindən döndərmək gücündə olan gözəlliyin daşıyıcısı olan “məxluqə”lər unutmasınlar ki, onlar yaradılmışlardır:

Üzün gördükdə yüz min zahid həsəddən bütpərəst oldu,
Yüz min də brəhmən büt sındırar ey məhliqa, gördüm

Əliağa Vahiddə [42] isə:

Öyünmə çox gözəlim, çox da gözlərin qaradır,
Təbiətin işidir, gündə min gözəl yaradır.

Bütün bunlar söz ustalarımızda "öncə əxlaqi dəyərlərdir, sonra gözəllikdir" fəlsəfəsinin mühüm yer aldığını göstərir..

Forma və məzmunun dialektik vəhdəti başqa bir "Arzula" rədifli qoşmada sözlə əlaqədar ortaya qoyulur. "Sözün qiyməti onun çoxluğunda yox, kəsərindədir" müddəasını yaradır:

Az olan iş üçün acığa gəlmə,
Mənasız danışıb, əfsanə gülmə.
Söylə kifayətlə *bir neçə kəlmə,*
Ancaq *məzmununda* kəsər arzula [2,s.284].

İçində" rədifli qoşmada forma və məzmun arasındakı dialektik vəhdətdən söhbət gedir

Şəmşirəm, *dərdəcər*, zibildi qonşum,
Yüz hörmət elədim, nə bildi qonşum?!
Nə xoş söz danışdı, nə güldü qonşum,
Yaşayıram bu *müxənnəs* içində [2,s.257].

Allahın min bir ada layiq olduğunu qoşma dilində çatdıran Ustad *cismani* ilə *ruhaninin, forma* və *məzmunun* dialektik vəhdətini təqdim edir:

Təkcə sən layiqsən bu min bir ada,
Şəkki var, – deyən laldı dünyada,
Ruhları ələstu qövlü-bəlada
Həm ***cismani***, həm ***ruhani*** yaratdın [2,s.156].

Bu məqamda Mövlana Cəlaləddin Ruminin [120] aşağıdakı fikirlərindən yan keçmək olmur: "Hər meyvənin içi qabığından yaxşıdır. Sən də bu bədəni qabıq, o qəlbdə yer verdiyin dostu, sevgilini iç olaraq bil. İnsanda çox gözəl bir iç, bir cövhər vardır ki, o da Allahın insana üfürdüyü ruhdur. Əgər həqiqətən insansansa, insan olmaq istəyirsənsə, Allahın sənə verdiyi o cövhəri sən də axtarmağa çalış!". Beləliklə, milli-mənəvi dəyərlərin hər bir xalqın mövcudluğunun ana məzmunu olduğunu nəzərə alaraq forma kimi qiymətləndirə biləcəyimiz elmi-texniki tərəqqinin geniş vüsət aldığı çağımızda bu kateqoriyaların harmonik vəhdətinə nail olmaq yolunda Aşıq Şəmşir yaradıcılığı əvəzsiz material verir.

## 1.2.3. SƏBƏB VƏ NƏTİCƏ

Səbəb və nəticə bir-biriylə bağlı anlayışlardır. Başqa bir hadisəni doğuran hadisə ona nisbətən bir səbəb kimi çıxış edir. Səbəbin təsirinin axırı nəticədir. Səbəbiyyət hadisələr arasında elə bir əlaqədir ki, hər dəfə biri olduqda, digəri də onun ardınca gəlir məsələn, suyun qızdırılması onun buxara çevrilməsinin səbəbidir, zira hər dəfə su qızdırıldıqda buxar əmələ gəlməsi prosesi başlanır. Səbəbiyyət ən ümumi, universal əlaqədir.

Səbəbiyyət münasibətlərinin birinci və əsas əlaməti iki hadisə arasında istehsal və yaxud yaranmanın mövcudluğudur. Səbəb yalnız zamanda nəticədən əvvəl deyildir o, həmçinin nəticəni doğurur. Ona görə də səbəb əlaqəsi substansional əlaqədir. Səbəbiyyət əlaqələrinin substansional xarakteri nisbilik nəzəriyyəsində inandırıcı təsdiqini tapmışdır. Bu nəzəriyyədən məlum olur ki, yalnız elə hadisələr səbəb əlaqələri ola bilər ki, səs sürəti ilə yayılan real fiziki siqnal – proses və s. ilə əlaqədar olsun [8,s.341].

Səbəb-nəticə vəhdəti Ustadın poetik ifadəli misralarında düşündürücü şəkildə verilir. “Məhəbbəti”, “sevgini” səbəb kimi göstərən Ustad pərvanənin odda yanmasını, Fərhadın Büsutunu çarpmasını və s. nəticə kimi qələmə verir:

Pərvanə sevməzdi şamı-çırağı,
Bülbül gül eşqində ***gəzməzdi bağı***.
Kərəm, Məcnun, Fərhad ***dəlməzdi dağı,***
*Məhəbbət*, nə *sevgi* yar olmasaydı [2,s.287].

Səbəb-nəticə kimi dialektik ünsürlər Aşıq Şəmşir qoşmalarında özünə yer alır. Ustad "hər bir nəticə müəyyən səbəblərə bağlıdır" müddəasını şeir dilində oxucuya çatdırır.

Gəlməsə baharın isti nəfəsi,
Olmazdı torpağın eşqi, həvəsi,
Buğanın ağzından çıxmazdı səsi,
Qorunca bitirən yaz olmasaydı.

***

Şəmşir ilə gəlin eli gəzək siz,
Şeirim incə, haşiyəsiz, düzəksiz.
Çaylar, göllər olardımı bəzəksiz
Sona, ördək, quba qaz olmasaydı?! [2,s.115].

Nəhayət, həyatın müxtəlif sahələrində üzləşdiyimiz nəticələr səbəblərin araşdırılmasını təkidlə tələb edir. Bu günkü taleyüklü məsələlərin həlli də səbəb amilinə xüsusi diqqət yetirilməsini zəruri edir.

## 1.3. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA İNSAN PROBLEMİ

Fəlsəfənin predmeti olan insan probleminin qlobal xarakter daşıması hazırda heç kimdə şübhə doğurmur. Bu mənada fəlsəfi refleksiya insanın özünü kosmosun mərkəzi hesab etməsini bir növ etiraf edir. Bütün ziddiyyətlərinə baxmayaraq, marksizmdə insan problemi mühüm yer tutur. İnsan cəmiyyətinə, ictimailəşmiş bəşəriyyətə yüksək qiymət verən K.Marks ayrıca bir fərd kimi də insanı dəyərləndirmişdir. O, Feyerbax haqqında tezislərində qeyd edirdi ki, əvvəlki materializmin, eləcə də Feyerbax materializminin də başlıca nöqsanı ondan ibarətdir ki, predmet, gerçəklik, hissiyyat yalnız obyekt formasında və ya seyr formasında deyil, həmçinin insanın hissi fəaliyyəti, təcrübəsi kimi götürülür, subyektiv şəkildə müəyyənləşdirilir.

Bununla belə, keçmiş SSRİ-nin təcrübəsi göstərdi ki, cəmiyyətdə, real həyatda insan öz əməli, hissi və idrakı fəaliyyəti ilə bir növ "unudulmuş", belə bir şəraitdə fəlsəfə əslində öz predmetindən süni şəkildə, zorakılıqla, inzibati–amirlik üsulları ilə "uzaqlaşdırılmışdır". İndi isə tarix hər şeyi öz yerinə qoymuşdur. İnsan yenidən öz mövqeyini əldə etmiş, fəlsəfə öz predmetini "tapmışdır" [8,s.71].

Lakin insan murəkkəb varlıqdır, onun təbiətinə muxtəlif mühüm xususiyyətlər xasdır. Ayrı-ayrı elmlər insan anlayışının həmin elmlər üçün əhəmiyyətli görunən bu və ya digər əlamətlərini öyrənir. Fəlsəfə isə başqa elmlərdən fərqli olaraq bu anlayışa dəyər xassəli mühakimələri aid edir. Y.Milnerrinin fikrincə, "insanın təbiəti" anlayışı onu səciyyələndirir ki, o, bəşəriyyətin bütün mənəvi həyatının

obyektiv mənbəyini, eyni zamanda, etik kateqoriyaların bütün sisteminin bünövrəsini təşkil edir [98,s.295].

Fikrimizi konkretləşdirsək deməliyik ki, fəlsəfə bütövlükdə dünya haqqında və deməli, tamın öz hissələrinə, o cümlədən onun episentri olan insana münasibəti (və qarşılıqlı münasibəti) haqqında təlimdir. Eyni zamanda həmin təlim böyük hərflərlə yazılan Elmin ayrılmaz hissəsidir.

Əlbəttə insanın dünyadakı bu cür mövqeyinin qeyd edilməsi bizim özümüzdən, razılığımızdan, yaxud da təbiətin hadisələrindən, bizim öz mükəmməlliyimiz haqqında sadəlövh təsəvvürlərimizdən asılı deyildir. Bu onunla əlaqədardır ki, ancaq filosofluq edir, ətrafdakıları və özümüzü dərk edir, daha dəqiq desək, varlığın və özümüzün oradakı yerini başa düşür və anlayırıq. Deməli, insan dünyanın təsəvvür edilən mərkəzində yerləşir və onun fikirləri, hissləri bütün tərəfləri şüalandırır, bu isə onun iradi hərəkətlərində öz təcəssümünü tapır. Bir sıra nəzəriyyələrin (buraya bəzi dini təlimlər də daxildir) insanın alçaldılması, təhqir edilməsi, onun rolunun heçə endirilməsi haqqında olan fikirləri əsl elmi fəlsəfə tərəfindən qəbul edilməzdir və qəbul edilmir də! [8,s.67].

Həmin tədqiqatçıların fikrincə, fəlsəfənin predmeti insandır, o, rəngarəngliyin və mədəniyyətin həm subyekti, həm də konsentrasiyasının təcəssümüdür. Fəlsəfədə mədəniyyət aləminin çoxaspektliyi insanın dünyaya münasibətinin çoxproblemliliyi kimi üzə çıxır. Deməli, insan mədəniyyətin subyekti olmaqla yanaşı, həm fəaliyyətin subyekti, sosiallığın subyekti və həm də idrakın subyektidir. Eləcə də ümumiyyətlə insan tarixi subyekt kimi çıxış edir. Fəlsəfi konsepsiyaların tarixi varisliyi fəlsəfənin predmetinin insanın taleyində cəmlənməsinə, onun fəaliyyət,

idrak, mədəniyyət və tarix subyekti kimi özünü təyinində, tarixi və məntiqi konkretləşməsində təzahür edir [8,s.70].

Fəlsəfənin öyrənmə obyekti kimi şüur, idraki proseslər Aşıq Şəmşir yaradıcılığında mühüm yer tutur:

*Yelbeyinlər* sirr saxlamaz,
Kəlləsində *söz* əylənməz.
Alışdırar, alovladar,
Kabab üstə köz əylənməz [2,s.500].

"Əylənməz" rədifli gəraylıda başında əqil, huş olmayanların üzündəki pərdəni götürməyi tövsiyə edir:

Saxlanc olmaz dən kəsərdə,
Görən gözdən asar pərdə.
*Əqli, huşu* yoxdu sərdə,
Külək vursa toz əylənməz [2,s.500].

"Öyüd saxlamayan başı boşlar" elə təfəkkürü zəif insanlardır ki, onlardan uzaq durmağı tövsiyə edir:

Şəmşir, gördün yaz da, qış da,
İdrak hanı fəramuşda?
Öyüd durmaz beyni boşda,
Sən desən də yüz, əylənməz [2,s.500].

Azərbaycan xalqının mütəfəkkir oğlu Nizami Gəncəvi Allah və insan vəhdətini elə dəqiqliklə təsvir edir ki, heyranlıqdan başqa oxucuya bir şey qala bilmir. Yer üzünün əşrəfi saydığımız insanın zənn edildiyindən də yüksək qiymətə malik olması məlum olur:

Heç xəbərin varmı ki, səsin yetişir hara?
Sənin zənn etdiyindən xeyli ucalıqlara.

***

Sən ey fələklər qədər uca, dəyərli insan!
Nazını çəkməkdədir bu yer, bu göy, kəhkaşan [138,s.125]

Sufi şairlər Rumi və Caminin əsərlərinə istinadlar bu cür konsepsiyaları əsaslandırır. Rumi belə hesab edirdi ki, məxluqlar arasında fərqlər onlarm zahiri gorkəmindən irəli gəlir. Ruh ideyası mənimsənildikdə ruhun birləşməsi ideyası da mənimsənilmiş olur. Cami isə belə hesab edir ki, insanın ruhu muxtəlif mərhələlərdən kecməklə kamilləşir, ilahi ruha daha çox yaxınlaşır, bununla da özünün orta səviyyəli gundəlik gercəkliyindən uzaqlaşır. Kamil insan mukəmməlliyn və bütövlüyün ən yuksək mənasında bəşəri "Mən" deməkdir. "Kamil insan" anlayışının iki aspekti vardır. Əvvələn, o, həm insanın, həm də kainatın ontoloji prototipidir. İkincisi, kamil insan təqlid edilmək üçün nümunə və ya yaradıcılığın məqsədidir. S.Nəsr sufi mutəfəkkirlərin konsepsiyalarını umumiləşdirərək bildirir ki, bəşər cəmiyyətinin vəhdətinə yalnız o halda nail olmaq mümkündür ki, insan öz daxilində mənəvi tarazlığı saxlamağa çalışsın, yəni Tanrının buyurduqlarına əməl etsin [98,s.300].

*İslamda insan problemi öz həllini aşağıdakı kimi tapır:* İslama görə Tanrı birdir – Kainatı və orada olan hər şeyi yaratmış Allah. Kainatda muşahidə edilən ciddi qayda və nizam Allahın iradəsinə və əmrinə tabedir.

Allahın yaratdığı təbii varlıqlar insanın müvəqqəti istifadəsinə verilmişdir və ona tabe edilmişdir. Lakin onlar

insana münasibətdə müstəqildir. Çünki yaranmışların hamısının sahibi Allahdır.

İnsan isə təbiətin nemətlərini öz Tanrısının bəxşişi, Onun mərhəmətinin əlaməti kimi qəbul etməli, onlara şükranlıqla yanaşmalı və bu yolla Allaha inamını göstərməlidir.

İnsan öz təbiətinə və vəzifəsinə görə Allahın quludur və Ona şərik qoşmadan Ona itaət etməlidir. Lakin eyni zamanda, insan başqa məxluqlar arasında seçilir – o, Yer üzündə Allahın bəndəsidir, ona zəka verilmişdir. Onun bilmədiklərini ona Allah öyrətmişdir.

İslam fəlsəfəsinin tədqiqatçısı Y.A.Frolova yazır: "Zəkalı məxluq olan insan bilir ki, həqiqət bütün varlığm vəhdəti, insanın dünya ilə, Allahla vəhdəti və bunun nəticəsi kimi insanın Allaha və Onun yaratdıqlarına: dünyaya və başqa insana sevgisi deməkdir.

Həyatda əsas məsələ bu bərəkətli dünyanın və ona layiq olan, Tanrının müəyyən etdiyi nisbətləri dəyişmək iddiasına düşməyən, buna görə də mənəviyyatlı olan bəşəriyyətin qarşılıqlı nisbətini saxlamaqdır. Buna görə də mənəviyyat, əxlaq ruhun ekstensiv inkişafına, kənardan – təbiət vasitəsilə Allaha, insanın daxili aləminə, onun dünya ilə əlaqəsinin açıqlanmasına, idraki, təbiəti dərk etmək qabiliyyətlərinin kor-koranə bərqərar olmasma, yəni xalis elmə deyil, insanın xalis mənəvi tələbatını məhdudlaşdıran, bu dünyanın faniliyini başa duşən həyata yönəlmişdir, çünki bundan başqa nə varsa hamısı cəfəngiyyat, təkəbbür və uydurmadı” [98,s.298-299].

Aşıq Şəmşir üçün də kamil insan var! Varlı, yoxsul ağıl etibarilə, “başı” olmaq etibarilə birdir. Bu məqamda –

kamillik məqamında "Birdi" gəraylısında olduğu kimi var-dövlət arxa plana keçir:

Halal nəsil adın danmaz,
Çətinlikdə daldalanmaz.
Kamil insan lovğalanmaz,
Yoxsul, varlı ***başda*** birdi [2,s.468].

Etik dəyərlərin ucuzlaşdığı çağımızda Aşıq Şəmşir poeziyasına ehtiyac göz qabağındadır. Ustadın yaradıcılığı ilə tanışlıq "elə həyat yaxşı ad uğrunda çalışmaqdır" müddəasını gündəmə gətirir

Adam var, ilandı, dalayır eli,
Adam var, sözünə deyəsən: bəli!
Şəmşir, tut həmişə yaxşı əməli,
Dünyada yaxşı ad qoymasan olmaz [1,s.93].

Antietik dəyərlər, insanlığa zidd antietik dəyərlər aşığın yaradıcılığında yeri gəldikcə öz ünvanını tapır, ***xəsisliyin*** cəmiyyət üçün bəla olduğunu xalq dilində, şeir dilində oxuculara çatdırılmaq Ustada nəsib olur:

*İlqarda**,** insafda* kim olsa naşı,
Yaxşılıq etməyə gətirməz başı.
Nakəs bir dağ kimi yığsa qumaşı,
*Möhtaca* bir qırıq bezi də verməz [1,s.138].

Xəsisliyin ictimai bəla olduğunu Molyer də, Mirzə Fətəli Axundov da qeyd edirlər. Lakin bu məşhur yazıçılardan da qabaq bu bəlanın təsviri müqəddəs kitabımızda,

Ali İmran surəsinin 180-ci ayəsində öz yerini tapmışdır: “Onlar ki, xəsislik etdilər və Allahın öz fəzilətindən onlara verdiyi maldan fəqirlərin hüququnu əda etməyənlər güman etməsinlər ki, bu xəsislik onların mənfəatinə olacaqdır, bəlkə onların zərərinədir. Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır”.

“Verməz” rədifli qoşmanın növbəti bəndində “xəbislər, quldurlar olub və olacaq” müddəasını əsas götürərək əsil insanların “namərdə möhtac” olmamasını dualayır:

Şəmşir, xəbislərin şərbəti acı,
Haramdı quldurun bacı-xəracı.
Kimsənə olmasın namərd möhtacı,
Sən şəkər istəsən duzu da verməz [1,s.138]

Aşığın təbirincə “özün insan sayan hər kəs” yol-iz (ədəb-ərkan), qaş-göz (işarədən anlamaq), kəlmə-söz (doğru danışmaq) məntiqinə əməl etməlidir:

Nə qaş, nə də göz bilirsən,
Nə yol, nə də iz bilirsən.
Nə düz kəlmə, söz bilirsən,
Özün insan sanırsanmı [3,s.295]

Yer üzünün əşrəfi sayılan insan Aşıq Şəmşir üçün həmişə qiymətlidir. Bu qiymətin necə ölçülməsi, hansı dəyərlərlə qiymətləndirilməsi Ustadın təbirincə aşağıdakı “Bənzər” rədifli qoşmada öz əksini tapır. Antietik dəyərlər daşıyıcısı olan insan “çürümüş samana” bənzədilir:

Nakəs məclisində anılan insan,
Adı sağlığında danılan insan.
Hər sözdə, kəlmədə, yanılan insan,
Mərəkdə çürümüş samana bənzər [2,s.52]

İnsan və məkan dialektik vəhdətində insanın məkan üzərindəki yüksək yerini nişan verir. Məkan orada doğulub boya-başa çatan dahilərlə şərəflənir. Məkan şərəf verdiyi qədər, o məkanda doğulan şanlı insanlar da həmin məkanı dünyaya tanıdır. "Nəfəsindəsən" rədifli qoşmada Şeyx Nizami vətəni Gəncənin adı heç də təsadüfən çəkilmir:

Aldım məktubunu bu aydın səhər,
Qəlbə həvəs gəldi, çəkildi qəhər,
Dahilər, dühalar dilində əzbər,
Nizaminin qədim Gəncəsindəsən [2,s.105].

Mövlana Cəlaləddin Rumi həzrətlərinin, sufilərin "qəbir evində yarın, yoldaşın, qohumun olmayacaq" fikirləri və xalqımızın bir-birinə yaxşı mənada "Allah Sənə yar olsun" xeyir-duası Aşıq Şəmşirin dilində rəvan bir şəkildə, gözəl poetik bir ruhda oxucu auditoriyasına yön alır. "İnsan" rədifli qoşmada insana qanadlı quş kimi uçub gedəcək ömrün qısalığını xatırladır, həm də by dünyada çox iş görməyə gücü yetən varlığı-insanı ayıq olmağa səsləyir:

Zaman alar səni yardan, yoldaşdan,
Oğuldan, qonşudan, qohum-qardaşdan,
Özün-öz qaydına qal əzəl başdan,
Ömür bir qanadlı quşdumu insan?! [2,s.106].

Aşıq Şəmşir üçün kamil bir insanın bəslədiyi sənət bağının qızılgülünün körpəsi həmişə olacaq. “Xalqın səsi olub və olacaq” inamını itirməməyi bu gün də anladır. Və ustadın ocağında, eləcə də Azərbaycan aşıq mühitində ərsəyə gələn gənc yazarlar buna əyani misaldır:

Şəmşirin qəlbinin budur həvəsi,
Gurlasın, ucalsın xalqımın səsi,
Əskik olmaz qızılgülün körpəsi,
Bu bağı bəsləmiş kamil bir insan [2,s.109].

Aşıq Şəmşir qoşmasında dağlar gah ata, gah ana, gah da “ulu dədəyə” çevrilir.

Gül şehinə islanmışam, nəmişəm,
Süfrəsində nanı-nəmək yemişəm.
Əziz ata, şirin ana demişəm,
Dağdan qeyri ulu dədə bilmirəm [2,s.130]

Başqa bir “Kimi” rədifli qoşmasında Ustad özünü dağların oğlu kimi qələmə verir. Dağların estetik gözəlliyi aşıqsiz deyil. Bu gözəllik sənətlə tamamlanır. Yer üzünün əşrəfi sayılan insanın olmadığı məkan nəyə və kimə gərəkdir.

Açanda yaylaqda çəmən, gül, nərgiz,
Məni unutmayın, yada salın siz.
Sonsuz görünməzmi dağlar Şəmşirsiz,
Oğlunu itirən analar kimi [2,s.131].

İnsan doğulduğu, boya-başa çatdığı məkanda güclüdür. Qürbət eldə ad qazanmaq, qərib bülbülün gül yarpağına qonması anlamındadır. Bu günlə səsləşən bir fikir gündəmə gəlir: Məkanı qoru, məkanı sev, qəribliyə alışma.

Qərib bülbül qonsa gül yarpağına,
Tikanlı güllərin dilər, ay lələ.
Mərd igidin qürbət eldə ad almaz,
Nadanlar loğmana gülər, ay lələ [2,s.228].

"Bəyənmir" rədifli qoşmasındakı kimi Ustad doğulub boya-başa çatdığı məkanı bəyənməyənləri sərt qınağa çəkir:

Atası, babası Kəlbəcərdədi,
Nəvə azıb, Kəlbəcəri bəyənmir.
Axı necə çəkim mən belə dərdi,
Obasını bu sərsəri bəyənmir [2,s.246].

Əl-Qəzalinin insanları ölümə münasibətdə qismlərə ayırması Aşıq Şəmşirin "İnsan" qoşmasında şeir dilində, sadə xalq deyimində müsəlmanlara, islama etiqad edən hümmətə yönəlir!

Qiyamətdə Məhəmmədin hümməti,
Biri əzab alar, biri rəhməti.
O dünyada çətin görər cənnəti,
Bu dünyada cənnət qoymayan insan [2,s.274].

"Görkəmli saz-söz ustadı həmişə klassik ənənəyə sadiq qalmışdır. Onu düşündürən insandır, insan amilidir. Ruhani xisləti, mənəvi gözəlliyin harmoniyasını, cəmiyyətin ritmik

zövq və ahəngini özünəxas ustalıqla tərənnüm etmişdir. Bəzən bədii boyalar, təsvir vasitələri klassisizmdən gəlsə də, təsvir edilən xarakterlər Şəmşirin öz ruhundan gəlir və özünəməxsusdur. Aşıq təbiət təsvirlərini yüksək ilham və şövqlə oxucuya çatdırır. Təbiət gözəlliyi ilə yanaşı, o, insan gözəlliyini, insanın daxili aləminin zənginliyini, əxlaqi keyfiyyətlərini, əsl insanın toplum içərisində davranış qaydalarını bədii vasitələrlə işıqlandırır" [86,s. 453].

Yarımfəsli yekunlaşdıraraq belə bir qənaətə gəlmək olar ki, "Aşıq Şəmşir yaradıcılığında insan problemi" ayrıca bir monoqrafik tədqiqatın mövzusudur. Və bu mövzu ümümazərbaycan problemlərindən kənar bir mövzu deyildir. Xüsusilə, çoxmədəniyyətli, "multikultural" dünyada bu problem günümüzün düşündürücü məsələlərindəndir.

## 1.4. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA CƏMİYYƏT PROBLEMİ

İnsan zahiri xüsusiyyətlərlə yanaşı, həm də məcmu halda insan obrazını formalaşdıran, “fərd”, “fərdiyyət”, “şəxsiyyət” anlayışlarında əks olunan daxili xüsusiyyətlərə də malikdir.

“Fərd” anlayışı sosial tamın, insan növünün ayrıca götürülmüş hər bir nümayəndəsini bildirir. Fərd ayrıca götürülmüş insanın real antropoloji və sosial xüsusiyyətiərindən asılı olmayaraq, insan deməkdir. Anadan olmuş uşaq fərddir, lakin o, hələ insan fərdiyyəti deyildir. Fərdin qabiliyyətləri nə qədər çox inkişaf etmişdirsə, bir o qədər də o, özünün sosial mahiyyətinin və ona müvafiq sosial tama qoşulmaq vasitəsinin necə olmasına görə cavabdehdir.

Fərd cəmiyyətdə özünün mövcudluğunun nisbi mustəqilliyini, sosiallığını əldə etdikcə fərdiyyətə çevrilir. Fərdiyyət insanı bu və ya digər spesifik keyfiyyətlərin daşıyıcısı kimi xarakterizə edir. Fərdiyyət bir insanı başqalarından fərqləndirən, onu fərdi ictimai varlığa cevirən xüsusi, spesifik, səciyyəvi varlıqdır. Bu anlayış həm təbii, həm də sosial keyfiyyətləri ehtiva edir.

“Fərdiyyət” və “şəxsiyyət” anlayışları yaxın və qarşılıqlı əlaqəli anlayışlardır. Onlar çox vaxt sinonimlər və eyni mənalı anlayışlar kimi işlədilir. Şəxsiyyətin ayrılmaz xarakteristikaları hesab edilən fərdiyyət və təkraredilməzlik ozlüyündə mövcud deyildir – elə belə fərdi və təkraredilməz şəxsiyyət yoxdur; şəxsiyyət yalnız fərd olduğu tamı nə qədər əks etdirirsə, o dərəcədə fərdi və təkraredilməzdir.

Şəxsiyyət səciyyəvi insan fərdiyyətidir. E.İlyenkovun haqlı olaraq qeyd etdiyi kimi, fərd insan həyatına, insan

fəaliyyətinə qədəm qoyduğu mədəniyyətin kənardan ona təlqin etdiyi normalar və etalonlar üzrə öz zahiri fəaliyyətini bir subyekt kimi müstəqil şəkildə həyata kecirməyə başlayanda şəxsiyyətə çevrilir.

***Şəxşiyyət*** azad olmaq tələbatını hiss edir və onun şəxsiyyət olması da azadlıqdan başlanır. Şəxsiyyət onu əhatə edən gerçəkliyin əvvəlcədən müəyyən edilmiş şəraitinə sadəcə uyğunlaşmır, həmin şəraitə fəal təsir gostərir, onu özünün məqsədlərinə uyğun olaraq dəyişdirir [98,s.290-291].

***Cəmiyyət*** anlayışına gəldikdə isə bu insanların məcmusudur və o, fərdlərin adətlər, normalar və dəyərlərlə tənzimlənən qabiliyyətlərinin, davaranışının, hərəkətlərinin, əlaqələrinin, münasibətlərinin toplumu kimi yaranır, başqa sözlə desək, cəmiyyət insanların ideyalarından, təsəvvürlərindən, dəyərlərindən və interpretasiyalarından asılı olmadan mövcud deyildir [98,s.317].

Qeyd etmək lazımdır ki, iradə azadlığı problemi insanın öz əməlləri müqabilində əxlaqi və hüquqi məsuliyyət problemi ilə sıx surətdə əlaqədardır. Əgər insan bu və ya digər hərəkətə güc ilə məcbur edilərsə, o zaman həmin hərəkətə görə o heç bir əxlaqi və hüquqi məsuliyyət daşımır. Bunu zorakılıq edənin ölümü və zədə alması faktı ilə də eyniləşdirmək olar.

Insanın azad hərəkəti öz aləmində həmişə cəmiyyət qarşısında cavabdeh olduğunu nəzərdə tutur.

Azadlıq və məsuliyyət bir bütöv, şüurlu insan fəaliyyətinin iki tərəfidir. Azadlıq məqsədəuyğun fəaliyyətin həyata keçməsi imkanıdır. Məsuliyyət obyektiv şəraitin diktə etdiyi hərəkətin dərk edilməsi deməkdir. Azadlıq məsuliyyət doğurur, məsuliyyət azadlığı istiqamətləndirir.

Elmi-fəlsəfi dünyagörüşünə görə həm azadlıq, həm də məsuliyyət obyektiv səbəbiyyət determinizmin hökm sürdüyü dünyada mümkündür. Məsuliyyət ictimai şüurun inkişafı, sosial münasibətlərin səviyyəsi ilə mövcud sosial institutlarla şərtlənir [8,s.336 ].

Ölkənin, dövlətin idarəçiliyində kadrların rolu birmənalı və şəksizdir. El içində, cəmiyyət içində rəhbərliyə layiq olmağın hansı mənəvi dəyərlərə malik olması Aşıq Şəmşir poeziyasında aydın şəkildə göstərilir:

Sərraf olub işarədən söz qanan,
Məzmununu, mənasını düz qanan,
Kamil olub bir kəlmədən yüz qanan,
El içində başçıl olacaq bir gün [1,s.234].

Hələ Sovetlər dönəmində Osman Sarıvəlli [146,s.69 ] Aşıq Şəmşirin cəmiyyətin işində aktiv iştirakını nəzərə çarpdırmaqla onun sənətkar olması ilə yanaşı ictimai-siyasi şəxs olmasını da oxucuların diqqətinə çatdırır: "Şəmşir aşıqlığı ilə yanaşı, cəmiyyətimizin, kommunizm quruculuğunun fəal bir üzvüdür. O, elin, obanın mədəni, təsərrüfat həyatında bilavasitə iştirak edir. Məhz buna görə də o, yaradan, quran adamlarımızın, elm, sənət adamlarımızın nailiyyətləri ilə həmişə fəxr edir, sevinir".

XX əsrin II yarısında Azərbaycan cəmiyyəti, onun inkişafı, bu inkişafı aparan dövlət və siyasi xadim haqqında Aşıq Şəmşirin şeirləri qədirbilən filoloqlarımızdan Səbinə İsayeva [158 ] tərəfindən kifayət qədər tədqiq olunmuşdur: "Aşıq Şəmşirin ictimai məzmunlu şeirlərinin bir neçəsi də ümumilli liderimiz Heydər Əliyevə həsr olunmuşdur. Bu şeirlər "Zərli tac kamallı başa yaraşır" adlı kitabda top-

lanaraq nəşr olunmuşdur. Aşıq Şəmşir öz dövründə baş verən hadisələrə də biganə qalmamış, yeri gəldikcə, onlara da şeirlərində münasibət bildirmişdir. Heydər Əliyevin keçmiş SSRİ dövründə apardığı uğurlu siyasətini, digər respublika rəhbərləri, eləcə də keçmiş ittifaq rəhbərləri arasında sanbalına, xüsusi çəkisinə görə seçilməsini Aşıq Şəmşir belə diqqətə çatdırır:

Şəmşir arif olsun, əhli-dil olsun,
Oxusun gül olsun, qoy bülbül olsun,
Hər an qabaqcıldı, qabaqcıl olsun,
Yaşasın rəhbəri Azərbaycanın.

Elə yuxarıdakı misralarla Ustad o dövr üçün Azərbaycan cəmiyyətinin, xalqının yetişdirdiyi şəxsiyyətlərin qiymətini sərrastcasına, ciddi bir səmimiyyətlə verə bilir. “Böyük şəxsiyyətlərin dəyərini xalqa onun böyük sənətkarları çatdıra bilər” müddəasından çıxış edərək tədqiqatçı S.İsayeva fikrinə davam edərək yazır: “Aşıq Şəmşirin bu silsilədən olan şeirləri arasında ölümündən bir ay əvvəl yazdığı “Yaraşır” adlı şeirinin üstündən sükutla keçmək olmaz. Dörd bəndlik şeirdə böyük öndər Heydər Əliyev Vətənin gözəllikləri ilə birlikdə vəsf olunur və bu gözəlliklərin meydana çıxmasında ümummilli liderin rolu xüsusi vurğulanır:

Qəhrəmanlar beşiyidi bu diyar,
Hələ belə olmayıbdı bəxtiyar.
Su içib səhralar hər yan verir bar,
Bürünübdü al qumaşa, yaraşır.

Başa çəkdi hünər bizi,
Alqışladı zəfər bizi,
Xoşbəxt etdi zəfər bizi
Bu illərdə, bu illərdə.

Aşıq "bu illərdə, bu illərdə" deməklə "hünərin bizi başa çəkdiyi, zəfərin bizi alqışladığı" XX əsrin Heydər Əliyev dövrünü nəzərdə tuturdu.

Dərin həyati müşahidələrin məntiqi nəticələri kimi səslənən bu əsərlərdə sənətkarın cəmiyyətdə baş verən hadisələrə fəal vətəndaş mövqeyi özünün göstərirdi. Şəmşir yaradıcılığının ilk dövrləri üçün xarakterik olan şeirləri, mübaliğəsiz olaraq, ictimai lirikanın gözəl nümunələri adlandırmaq olar" [158,s.105-107].

Qədim zamanlarda ozanlar, sonrakı dövrlərdə aşıqlar elin ən hörmətli ağsaqqalı, məsləhətçisi – el anası sayılmışlar. Onlar həmişə el içində yaşamış, öz dövrlərinin, mühitlərinin bilikli, məlumatlı, xeyirxah adamları, istedadlı, müdrik sənətkarları olmuşlar. El aşıqları həmişə camaatın xeyrində, şərində iştirak etdiklərindən onun dərdinə-azarına yaxşı bələd olmuşlar. Onlar köhnə dünyada hökm sürən ictimai haqsızlıqları öz gözləri ilə görmüşlər [147].

Orqanizmin ən kiçik quruluş vahidi hüceyrə olduğu kimi dövlətin də, cəmiyyətin də quruluş vahidi ailədir. Məşhur alman alimi, təbiətşünası Fridrix Engels "Ailənin və dövlətin mənşəyi" əsərində bu haqda ətraflı məlumat vermişdir. Tarixə nəzər saldıqda böyük imperiyalar daxili münaqişələr sayəsində çökmüş, möhtəşəm ailələr isə ailədaxili münaqişələr zəminində dağılmış, məhv olmuşdur.

Bu baxımdan Aşıq Şəmşir yaradıcılığında cəmiyyətin quruluş vahidi olan ailə önəmli yer tutur:

Dağ olsa əridər, külə döndərər,
Kişinin həmdəmi pis olan zaman.
Azar düz yolunu, tərsinə gedər,
Evində övladı nəs olan zaman [1,s.139]

***

Şəmşirin sözünü arif bəyəni,
Yol vuracaq ustadına söyəni.
Yarımasın atasını döyəni,
Taledən, qismətdən ömrü kəm olur [1,s.127]

Cəmiyyətin saflığı Ustadın yaradıcılığında mühüm yerlərdən birini tutur. "Alçaq-satqın"ların adlarını belə cəmiyyət dəftərindən silmək, pozmaq lazım gəldiyini hətta savaba çatmaqla eyniləşdirir:

Arif, duymalısan mətləb dərindən,
Şəmşir vəhşətlidi bic xətərindən.
O ***alçaq-satqının*** el dəftərindən
Adını pozmaq da savabdı, savab [1,s.314]

"Toxunma" rədifli qoşmada "cəmiyyət", "el" fəlsəfi anlamı bir daha gündəmə gəlir. Cəmiyyəti təmsil edən, cəmiyyətə arxalanan, əhli-dil tərəfdən sevilən sənətkara şeytani güclərin yetməzliyini anladır:

Bülbüləm, bağımda gül məni sevir,
Arif olan əhli-dil məni sevir,

Mən eli sevirən, el məni sevir,
Şəmşir kimi mehribana toxunma [2,s.316]

Namərd, nanəcib fərdlərin yüksək məqamlara irəliyə çəkilməsinin, onların cəmiyyətdə mühüm yer tutmasının nə dərəcədə təhlükəli olduğunu "Sənin" qoşmasında görürük. Qoşmadan hasil olan əsas fikir budur: antietik dəyərlərə malik şəxsləri dövlət idarəçiliyinə yaxın qoymamaq! Burada Mövlana Cəlaləddin Ruminin "namərd adama təhsil vermək quldurun əlinə qılınc verməyə bənzər" həqiqəti ilə üzləşirik:

Namərdi ucaltma, qoy qalsın alçaq,
Qəlbinin güşəsin qıracaq sənin.
Nakəsi ayağa qalxızsan ancaq,
Amansız boynunu vuracaq sənin [2,s.279]

Aşıq üçün firavan, rahat yaşamağın yolu insanın "ismətli" olmasından, "el"in hörmətini qazanmasından, ən nəhayət "ana zəhmətini" çəkməkdən keçir:

Şəmşir gözlər ismətini,
Qazanıb el hörmətini.
Çəksən ana zəhmətini,
Süd göləndə bil üzərsən [3,s.147].

Valideyn qarşısında övlad borcunun nədən ibarət olmasını bilmək istəyənlərə Aşıq Şəmşir yaradıcılığında səlis cavab verilir:

Eşit bu kəlməmi, süxəndan ata,
Ey ağıl dəryası, ey ümman ata.
Ruhuna olmuşam duaxan, ata,
Bu Şəmşirdi yadigarı Qurbanın [3,s.136].

Cəmiyyətin quruluş vahidi, cəmiyyətin özəyi olan ailənin düzgün və möhkəm təməl üzərində qurulması Aşıq Şəmşir şeirlərinin qayəsini təşkil edir. "Vəsf eləsin səni mahal" deməklə üzünü övladlarına tutur, onların timsalında bütün övladları xalq qarşısında məsuliyyətə səsləyir:

Sənə qismət olsun iqbal,
Vəsf eləsin səni mahal.
Səadətdən payını al,
Təbin bir dəniz olaydı [2,s.489].

Ömrün ixtiyar çağında insanın ən böyük sərvəti, onu razı sala biləcək, dünyadan umduğu ən böyük sərvət onun davamı sayılan, cəmiyyətə yadigar qoyub getdiyi övladlarıdır. Bu gün Azərbaycan dövlətçiliyinin qurulmasında fəal iştirak edən Aşıq Şəmşir şəcərəsi Ustadın uzaqgörənliklə dediyi fikirlərin təsdiqidir:

Hasil ola bu arzular,
Şəmşir, doğru, düzgün ilqar.
Qənbər tək igid oğlum var,
Nəvələrim yüz olaydı [2,s.489].

"Etibarsız, bivəfa", "qurd balası", "ilan" xislətli şeytana uyan insanları vaxtında tanıyıb onları cəmiyyətin idarəçiliyindən uzaqda saxlamağı tövsiyə edir:

*Etibarsız bivəfaya* yar olma,
*Qurdun balasının* qaydına qalma,
*İlana* inanıb, qoynuna alma,
Bacarsa gözündən vuracaq sənin [2,s.279].

Ailənin, cəmiyyətin, sonda dövlətin qurulmasında insan amilinin rolunu səliscəsinə anlayan Ustad kəsərli cümlələrlə insanları ayıq olmağa çağırır:

Bədəsili nə al, olma nə də yar,
Bivəfa xilqətdə düz olmaz ilqar.
Şəmşir, yalan kəsdən sən də ol kənar,
Şər deyib üzünə duracaq sənin [2,s. 279].

Ustadın "Qaralanıbdı" rədifli qoşmasında estetik kateqoriya olan komizmin köməyi ilə cəmiyyətdə fərdlərin öz yerində olmaması, cəmiyyətin, elin mütənasibliyinin pozulması aşığın ruhunu uncidir, canını "paralayır":

Səhərin xoruzu axşam banlayır,
Nadan gülür, dərdbilənlər anlayır,
Məni indi görün kimlər danlayır,
Canım el içində paralanıbdı?! [2,s.321].

Namərd insanların cəmiyyətdə özünəlayiq olmayan vəzifə kürsülərinə oturmasını isə həmin cəmiyyət üçün bəla sayır:

Gözü görməz ayağının altını,
Namərd ucalanda nə pis olarmış.

Tərəqqidən tənəzzülə enəndə,
Birdən alçalanda nə pis olarmış [2,s.322].

Ailə-dövlət dialektik vəhdəti Ustadın cəmiyyətlə bağlı yaradıcılığında mühüm şaxələrdən biridir. Əsgəri xidmətə yola saldığı oğluna (red. Rəşid Qurbanova) həsr etdiyi "Oğul" rədifli qoşmada da bu məsələlər işıqlanır:

Komandanın əməl elə sözünə,
Tərbiyədən təmiz ad al özünə.
Oxlar kimi sancıl düşmən gözünə,
Əyilmə, qüdrətli biləyim oğul.

***

Atanın, ananın səksən yaşı var,
Şəmşirin adı da sənlə ucalar.
Qəhrəmanlar yurdu, müqəddəs diyar,
İtirməz zəhmətim, əməyim oğul [2,s.390].

Cəmiyyətdəki ierarxiya mövcudluğu elə ailə ierarxiyasına söykənir. Hər bir ailə üzvünün yerinə yetirməli olduğu funksiya mövcuddur ki, bu zaman ana sevgisi, anaya məhəbbət öndədir:

Bir ana bağ saldı, bir ana dərdi,
Hər evdən açılan bir ana dərdi.
Yüz yaşım olsa da, qocalmaz idim,
Məni tez qocaltdı bir ana dərdi [2,s.523]

Cəmiyyəti narahat edən fərd lovğalığı, fərd təkəbbürü Aşıq Şəmşirin kəskin satirik qələminə tuş gəlir:

Biliyi az olar, fokusu artar,
Stolun başında betəşə qırtar.
Minnət elədikcə özünü dartar,
Coşub silkələnsə nə pis olarmış [2,s.392].

Cəmiyyətlərdəki uyğunsuzluqlar "Dünyanın" rədifli qoşmasında özünə yer alır. Bu gün "hər şeyi kadrlar həll edir" anlamına diqqət yetirsək bu fikirlərin, bu ideyaların hələ çox qabaqlar Aşıq Şəmşir tərəfindən qələmə alındığı məlum olur:

Çalağanlar uyub biri-birinə,
Boz sərçə dən tapmır dimdiklərinə.
Çəkib sağsağanı şahbaz yerinə,
Ona çatıb ixtiyarı dünyanın [2,s.433].

Cəmiyyətdəki bu anormal vəziyyətlər müəyyən məqamlarda satirik bir üslubda qələmə alınır:

Tülkü düm şüşəldib olur şir, aslan,
Nanəcib quldura nə yazım dastan.
Günü-gündən qəhr eləyir zimistan,
Çox bəd keçir ruzigarı dünyanın [2,s.434]

Hələ gənc yaşlarında, 1918-ci ildə Birinci Dünya Müharibəsi zamanı dünyanı qana çalxalayan imperialistləri, onların əlaltıları olan erməni-daşnakların törətdiyi faciələri qələmə alır və bu faciədən qurtuluş yollarını arayır. Cəmiyyətin üzləşdiyi ümumbəşəri bəlaya öz şəxsi münasibətini ürək yanğısı ilə şeir dilində izhar edir:

Min doqquz yüz on səkkizdə bu sözü,
Yazırdım, qan idi dünyanın üzü.
Güləydi ellərin yaş tökən gözü,
Olaydı bir səbəbkarı dünyanın [2,s.434].

“Dünyanın” şeirində çoxsaylı şahların, ağaların dünyaya yar ola bilməməsindən yazan Ustad rəhbərləri dünyanın yarı olmağa səsləyir, dünyanı dağıtmamağa çağırır:

Şəmşir, yaxşı-yaman oldu da getdi,
Lalə, gül açıldı, soldu da getdi.
Çox şahlar, ağalar gəldi də getdi,
Ola bilmədilər yarı dünyanın [2,s.434]

Bu məqamda görkəmli siyasi xadim Heydər Əliyevin dilində “dünyanın yarı yalnız böyük sənət adamlarıdır” fikri yer alır: “Mən dedim ki, Mirzə Fətəli Axundov 1837-ci ildə, Puşkin həlak olan kimi, böyük bir poema yazmışdır. Bu, nadir hadisədir. Puşkinin ölümünə həsr olunmuş əsərlər var. Amma, mən bildiyimə görə, onların içərisində ən görkəmli yer tutan Lermontovun Puşkinin ölümünə həsr etdiyi şeir və Mirzə Fətəli Axundovun — “Puşkinin ölümünə Şərq poemasıdır”.

Mirzə Fətəli Axundov onu özü rus dilinə tərcümə edib, o vaxtlar yayılıbdır və yüksək qiymətləndirilibdir. Bu poemanı oxuyanlar Mirzə Fətəli Axundovun Puşkinin yaradıcılığına nə qədər yüksək qiymət verməsini, güman edirəm ki, müşahidə ediblər. Çünki o qədər məzmunlu ifadələr işlədilibdir ki, oxuduqca insanı heyran edir. Orada çox

gözəl sözlər var. Ancaq mənim ən çox xoşuma gələn misraları bu gün burada oxumaq istəyirəm:

*Lomonosov gətirərkən*
*sənətə hüsnü düha,*
*Puşkinin nurlu xəyalı ora*
*qonmuş.*
*Əcəba*
*Şeirlər səltənəti Derjavinə*
*göylərdən*
*Kim imiş hökm alaraq*
*bir yeni hakim kəsilən.*
*Səddi-Çindən Tatarıstanə*
*qədər çar əli var,*
*Lakin ol şairin aləmdə*
*yanan məşəli var.*

Sağ olun" [57, XXXVIc.s.261]. Ümummilli liderin dilində "Çarın əli nə qədər böyük olsa da, şairin məşəli aləmləri bəzəyir" fikri Ustadın duyğuları ilə üst-üstə düşür. Elə buradaca Səməd Vurğunun dünyanı tək idarə etməyi ürəyindən keçirən Stalinə ünvanladığı, onu düz yola səslədiyi, qəflətdən ayılmağa çalışdığı bir şeir parçasını yada salmaq pis olmazdı:

Napalyon dedi ki, göy Allahındır,
Lakin Yer üzünün tanrısı mənəm.
Desək ki, kainat bir padşahındır,
Tarix utanmazmı gülüncdür desəm?!

Təkcə bu müqayisələrdə bir daha dünyaya münasibətdə, cəmiyyətin idarə edilməsində, cəmiyyətin sivil yolla idarəsində Azərbaycanın həm siyasi-fəlsəfi, həm də bədii-fəlsəfi təfəkkür adamlarının eyni dünyagörüşdən çıxış etməsinin şahidi oluruq.

Aşığın (fərdin) cəmiyyət (el) qarşısındakı missiyası "Bayram günləri" divanisində diqqətə çatdırılır, aşıq sənəti ilə məşğul olanlar üçün məhək daşı rolu oynayır. "El nəfinə" – cəmiyyətin xeyrinə yaxşı danışmağı tövsiyə edir:

Aşıq gərək xalqa tərif yaza bayram günləri,
Əlində saz, şirin avaz – gəzə bayram günləri.
El nəfinə yaxşı danış, eşidən əhsən desin,
Gülür yenə novbahartək üzə bayram günləri [2,s.17].

Ustad aşıq hələ sovetlər dönəmində Azərbaycanın uğurlarına dastan qoşurdu. Bu o dövrlər idi ki Heydər Əliyev Moskvada Siyasi Büronun tərkibindəydi və Azərbaycanı erməni şərindən, fitnə-fəsadından qoruyurdu. "Gəl sevinək qardaşım" deməklə xalqı lider ətrafında birliyə səsləyir:

Eşidirəm verilişlərdə: hər gün ucalır başım,
Azərbaycan təriflənir, gəl sevinək, qardaşım.
Qocaman Aşıq Şəmşirəm, səksəni keçib yaşım,
Hələ yazıb-yaradıram növrəstə oğlan kimi [2,s.20].

Aşıq Şəmşir cəmiyyətin ən böyük məktəb, təhsil müəssisəsi olduğunu dilə gətirir, "qəhrəman ellərdən dərs alanların adı tarixdən silinməzdir" fəlsəfəsini yaradır:

Möhürlə yazılıb xalqın qəlbinə,
Silinməz tarixdən adı Heydərin.
Qəhrəman ellərdən alıb dərsini,
Belə böyük var ustadı Heydərin.

"A bizim ellər" rədifli qoşmada üzünü "ellərə-cəmiyyətlərə" tutur, elin-cəmiyyətin idarəsini insanlıqdan uzaq "gədə"lərə tapşırmağın ağır fəsadlar törədəcəyini şeir dilində anladır:

Hər gədə özünə dönüb bir bəyə,
Kimin nə həddi var xətrinə dəyə.
Qurğu tədbiriniz pozulub niyə?
Bax, nələr olacaq, a bizim ellər [2,s.423].

"Ailənin, cəmiyyətin, dövlətin stabilliyi, möhkəmliyi, sabitliyi xalqın birliyindən keçir" müddəası ustadın şeir dilində "göy öküzlə boz öküz ayrı düşəndə bizi uçurum gözləyir", "düşmən əl çalacaq" deyimlərini gündəmə gətirir. Xalqı monolit birliyə, milli birliyə çağıraraq, düşmənin üzərimizdə sevinməsinə imkan verməməyi qarşımızda tələb kimi qoyur:

Şəmşirin sözünə bəd olmayın siz,
Uçuruma gedir saldığınız iz.
*Göy öküzdən ayrı düşür boz öküz,*
*Düşmən əl çalacaq,* a bizim ellər [2,s.423].

Anlayışlara fərdi yanaşma baxımından növbəti bənddə "şor"la "aş"ın fərqinə varmayanın cəmiyyətdə də yaxşı ilə

pisin fərqinə varmayacağını Ustad bizlərə "Birdi" gəraylısı ilə çatdırır:

Dost adını anmayana,
El halına yanmayana,
Baldan ləzzət qanmayana
Şor da birdi, aş da birdi [2,s.468].

Xalqı, milləti, ümməti ayrı salmaq məqsədi güdənlərə, bu gün də milli şüuru geridə qalanlara, "dağ adamı", "kənd adamı" kimi terminləri istehza ilə işlədənlərə tutarlı cavab son bənddə verilir. "Arif, kamil, aqil, şair" olanların dağa şükranlığı sonsuzdur.

Ovçu olub kahasında qalmayan,
Arif, kamil, aqil, şair olmayan,
Şəmşir kimi hər an yada salmayan
Qədrini nə bilər naşı, dağların [2,s.50].

"Cəmiyyətdən faydalanmışıq, cəmiyyətə də xidmət etməliyik" prinsipini əldə rəhbər tutan Aşıq Şəmşir sənətkarları naşükürlük etməməyə çağırır:

Şəmşirəm, çəməndən, güldən yazıram,
Neçə keçmiş uzun ildən yazıram,
Elin aşığıyam, eldən yazıram,
Kim bu gözəl dünyasını bəyənməz [2,s.364].

Aşıq Şəmşirin eldən güc alması, elin hörmətini qazanması onun yetirib elə-obaya tapşırdığı şagirdləri tərəfindən

nəzmə çəkilir. Bu məqamda Aşıq Qardaşxan Mehdiyevin [19] öz ustadına sədaqət dolu misraları yerinə düşür:

Qurban, Ələsgəri yola salandan,
Ələsgər, Qurbantək ucaldı Şəmşir.
Söz vermişdi şeirin allahlarına,
Eldən hörmətini tez aldı Şəmşir

"Var" qoşmasında Aşıq Şəmşirin "vətəndaş" məfhumuna öz baxışını qoyur, "el üçün özünü oda, atəşə atan" əsil vətəndaşlardan söz açır:

Zəhmət çəkən doğru, düzgün yol üçün,
Danışmağı azalt, verən dil üçün.
Şirin ömrün oba üçün, el üçün
Oda, atəşlərə atanlar da var [2,s.264]

Vətəndaşlıq borcundan danışan Ustadın diplomatiya ilə bağlı maraqlı fikirləri var ki, bunu Aşıq Şəmşir yaradıcılığında diplomatik fəlsəfə də adlandırmaq olar. "Danışan" rədifli qoşmada təcrübəyə söykənmədən qabaqcadan heç bir fikir söyləməməyi üstün tutur:

Təcrübə – ləl, göydə yoxdu, yerdə var,
Dərk eləsin kimin ağlı sərdə var,
Qarşımızda Araz da var, Kür də var,
Gərək bu çayları keçəm, danışam [2,s.268].

Aşıq Şəmşir üçün övladın missiyası ata yurdunu qorumaq, mənsub olduğu nəsil-kökün adını qorumaqdır! Bu gün təsərrüfatla məşğul olmaqdansa ata yurdunu tərk edən,

asan qazanc yoluna düşüb qürbətdə xoşbəxtlik axtaranlara tutarlı cavab verilir:

Mərd olsa, ata yurdunu
Boş qoyub köçməz hər oğul.
Karsız olub ad batıran,
El gözündən düşər, oğul [1,s.391].

Ustad "İnsanı cəmiyyət yüksəldir" prinsipi ilə hərəkət edərək sənətkar gücünün mənbəyinin el-oba olduğunu anladır:

Şəmşirəm, elimdən güc aldım daha,
Təmiz ad qazandım, ucaldım daha,
Ha yazdım, yaratdım, qocaldım daha,
Dizim tutmur, əl atıram çəliyə [2,s.254].

"Fərd cəmiyyətdən kənarda deyil", "fərd cəmiyyətin problemlərinin həllində iştirak edir" müddəaları Ustadın yaradıcılığında mərkəzi yer tutur:

Əgər özün cəmiyyətdə sanırsa,
Qayğı çəkib el halına yanırsa,
Mərifəti, məhəbbəti qanırsa –
Nədən belə etibarı az olur?! [2,s.73].

Aşıq Şəmşir fərd olaraq hər bir kəsi cəmiyyətin işinə kömək etməyə çağıraraq fərd-cəmiyyət dialektik vəhdətini yaradır:

Elin xeyr işinə, nəfinə yeri,
Dar gündə cərgədən qayıtma geri,

Demişəm anadan olandan bəri,
Beynamusa, müxənnəsə qoşulma [2,s.78]

Aşıq yorulmaq bilməyən təbi üçün elə-obaya söykənməyini, xalqın axar çaylar kimi sənətkarın saflaşmasına, "durulmasına" gətirib çıxartdığını dilə gətirir:

Şəmşir yar qaşına vurulmadımı,
Axıb çaylar kimi durulmadımı.
Ha yazdı, yaratdı yorulmadımı
Obadan ayrılmır, ***eldən*** yapışır! [3,s.264].

Aşıq Şəmşiri əhatə edən cəmiyyət onun şeirlərində el-oba kimi anlaşılır. "El-oba" – cəmiyyət oxşarlığı, sinonimi yaranır. "Aşıq öz cəmiyyətindən kənarda deyil" fəlsəfəsinə uyğun cəmiyyətin sevgisi ilə pərvazlanan aşıq elə öz elinin, öz cəmiyyətinin dərdini də mərdanə bir şəkildə çəkə bilir:

Sevirəm dostun ***mərdini***,
Xoşlamıram namərdini.
Çəkirəm ***elin*** dərdini,
Qəm ilə güləşim olur [3,s.316].

Aşıq Şəmşir üçün cəmiyyət və fərd fəlsəfəsinin vəhdəti şeirlərində mərkəzi yer tutur. Aşağıdakı gəraylı bəndində cəmiyyət kimi "el", fərd kimi "tək baş" poetik bir dillə ünvanına çatdırılmışdır:

Bülbül qonar gül başına,
Mən dolanım *el* başına.
Görüm olsun kül başına
Tək başını qoruyanın [3,s.342].

"Qocalıbsan" rədifli gəraylıda cəmiyyətin, elin dərdinə şərik olmaq, elə həmin cəmiyyətin, elin də içində ad qazanmaq fikri bir tərəfdən vəhdət və ziddiyyət qanununu, digər tərəfdən fərd və cəmiyyət vəhdətini əks etdirir:

Yaxşı-yaman nədi-qandın,
*El* ucundan oda yandın,
*El* içində ad qazandın,
Dövran sürdün, qocalıbsan [3,s.351].

Cəmiyyət fərdin qiymətini düzgün verir, fərdin fəaliyyətini qiymətləndirmədə cəmiyyət səhv etmir. Tək-tək fərdlər subyektivizmə yol verə bildiyi halda cəmiyyətdə bu mümkün olmur. Hərtərəfli kamillik zirvəsinə yetişənləri adını nə qoyuruqsa qoyaq, ya xalq, ya cəmiyyət, ya da el öz qucağında saxlar, öz isti qucağında əzizləyər:

Bağ salanlar dərər barı,
Şəmşir gözlər düz ilqarı.
Kamil olan sənətkarı
***El*** qucaqlar qucağında [3,s.368].

"Gərək" rədifli başqa bir qoşmada Aşıq Şəmşir vəzifədən sui-istifadə etməməyə, vaxtında xalqa xor baxmamağa, elin, mahalın hörmətini qazanmağa çağırır. Ustadın şeirləri bu gün də etimad göstərilib vəzifə kürsülərinə qoyulan, bu etimadı doğrultmayıb layiqli cəzalarını alanlara tutarlı öyüddür, cəmiyyət və fərd vəhdətinə layiqli misaldır:

Şəmşir, düz bax, *ellər* baxan vaxtında,
Nə deyib, bir kəsə toxan vaxtında,
Kişi vəzifədən çıxan vaxtında
Saxlaya hörmətin *el*, *mahal* gərək [1,s.95].

Xalqın yaddaşında özünə möhkəm yer tutan sənətkarların hamısı elin, xalqın, müasir fəlsəfi dildə cəmiyyət dediyimiz toplumun aşiqləridir, bu toplumu sevənlərdir:

*Ellər* aşiqiyəm, mən əzəl gündən,
*El* içində bu hörmətə yetişdim.
O qədər razıyam bu gözəl gündən,
*Xalqı* sevdim, məhəbbətə yetişdim [1,s.122].

Şəmşirəm, qəlbi pak olan adamın,
Kamınca kamala dolan adamın,
*Elin* qayğısına qalan adamın
Keşkə qılıncında kəsər olaydım [1,s.135].

Aşıq Şəmşir yaradıcılığında elə, obaya məhəbbət heç də təsadüfi bir şey deyil. Dialektikanın inkar qanunu burada da öz sözünü deyir, öz dönməzliyini göstərir. Bu məhəbbət aşığa soy-kökdən gəlir. “Mənə nişanə” rədifli qoşmada bu dialektik qanun açıqlanır:

Yüz qırx bir yaşında ölən babamdan
Bu söz yadigardı mənə nişana.
Onun nəsihəti çıxmaz yadımdan,
Gəzir xəyalımda-getsəm hayana.

Qoşmanın əsil məğzi "elə bel bağlamaq", "elə arxa olmaq"dır ki, bu da insan hüquqlarına hörmətə, hüquqi etikaya çağırışdır:

O kamallı babam belə demişdi:
Bel bağla, arxa ol ***elə***, demişdi.
Yaranmışa qurma tələ, demişdi,
Tələ quran düşməlidir zindana [1,s.136].

Aşığın qoşmalarında "el", "xalq", "cəmiyyət" əzəmət, vüqar, güc timsalı olan dağlara bərabər tutulur:

Söykən elə dağa alasan vüqar,
Şəmşir, belə qüdrət ***ellərində*** var [1,s.137].

"Əlimdən" rədifli qoşmada "cəmiyyətin inkişafı onun fərdlərinin qazanılmış bilik və təcrübəsinin gələcək nəsillərə ötürülməsi ilə səciyyələnir" fəlsəfəsinin şahidi oluruq:

Dədəmdən öyrəndim sözü, sənəti,
Şəmşirə əfsundur ***elin*** hörməti.
Baqidi qəlbimdə ***el*** məhəbbəti,
Bir kəsə dəymədi ziyan əlimdən [1,s.144].

Cəmiyyət-insanların məcmusudur və o fərdlərin adətlər, normalar və dəyərlərlə tənzimlənən qabiliyyətlərinin, davranışının, hərəkətlərinin, əlaqələrinin, münasibətlərinin toplumu kimi yaranır. Yaş etibarilə cəmiyyətin gələcəyi uşaqlar və gənclərlə şərtlənir ki, Aşıq Şəmşir şeirlərində Azərbaycanın gələcəyinin gənclərə söykənməsi optimist notlarla xalqa çatdırılır:

Azərbaycan gənclərində nə gördüm,
Gəzirlər çiçəklər, güllər içində.
Qəlbimdən silindi, qalmadı dərdim,
Şadam bu gün gənc nəsillər içində

Cəmiyyət müxtəlif fərdlərdən ibarətdir ki, bu zaman "fərdlərin hamısının bir-birinə oxşar olmasını arzulamaq özü səhv bir şeydir" fikrini Ustadın "İndi" rədifli qoşmasında görmək olar:

Şəmşirin dərdini mən deyim sən yaz,
Belə nəsihəti olmamışdı az.
Sağsağan, qarçıqay, ala qarğa, qaz,
Haçan bir-birinə oxşayar indi [1,s. 162].

Cəmiyyət eləcə də əksliklərdən ibarət olan fərdlərin məcmusudur kimi başa düşülür. Qurani-Kərimdə deyildiyi kimi "dünyanı rəngarəng, insanları müxtəlif irqlərdə, müxtəlif xasiyyətlərdə yaratdıq ki bezikməyəsiniz":

Adam var, sözündən alacaqsan həzz,
Adam var, qaşqabaq, danışmaz-dinməz.
Eləsi var, durğuzmasan yeriməz,
Adam var ki, buyrulmağı tanımaz [1,s.223].

Nobel Mükafatı Laureatı Ernest Heminquey əsərinin proloqunda belə bir sitat gətirir: "Kilsə zənginin ölüm xəbərini mən özüm üçün hesab edirəm. çünki mən də bəşəriyyətin bir hissəsiyəm".

Aşıq Şəmşir üçün də cəmiyyət bir ananın uşaqlarıdır. Hamı bir saleh atanın – Adəm peyğəmbərin balalarıdır:

Dolanaq ananın qucağı kimi,
Bir saleh atanın uşağı kimi,
Bizim azad elin torpağı kimi,
Hamının qəlbini gəl, sevindirək [1,s.162].

Aşıq Şəmşir Kəlbəcər el-obasından dünyaya millilikdən ümumbəşəriliyə yüksəlməyi bacaran sənətkardır. Silahlanmanın baş alıb getdiyi çağımızda çörəyə möhtac olan insanların bu gün də mövcudluğu Ustadın şeirlərinin təsir gücünün azalmadığını üzə çıxarır. Bütün bunlar İslam peyğəmbərinin qana, qırğına nifrətindən qaynaqlanır, Miskin Abdal şəcərəsinə mənsubluğun təzahürü kimi meydana gəlir. Onun üçün insanların rifahına yönələn bel, kürək neytron bombalarla müqayisə olunmur:

Neytron yerinə yonaq bir kürək,
Çobana, maldara olmazmı gərək?!
Cüt əkək, yer qazaq, qazanaq çörək,
Bostana su verək, bel sevindirək [1,s.162].

Dünya, cahan bir "qəsrə" bənzədilir, insan isə qonağa. Bunları düşünüb qələmə alan sənətkarın dünyaya bel bağlaması mümkün deyil. Burada yol anlamı Aşıq Şəmşir dilində İlahi yoldur:

Pis yoldan əl götür, ta bəsdi, sən doy,
Ətrafı bağlama, özünə yol qoy,
Tarixlə bəşərin hansı sürüb boy,
Cahan bir qəsrdi, insan qonaqdı [2,s.79].

Cəmiyyətin idarəçılıyində şəxsiyyətin rolunu inkar edən fəlsəfi cərəyanlardan fərqli olaraq Aşıq Şəmşir şəxsiyyətlərin dəyərini də Heydər Əliyevin timsalında cəmiyyətə lazımınca təqdim etməyin vacibliyini diqqətə çatdırır:

Yaşasın rəhbərlik edən insanı,
Təzə bahar edib Azərbaycanı.
Şəmşir, bu sərvətdə bir diyar hanı,
Gedən desin, fəzaları görəndə [1,s.355].

1977-ci ildə yazılmış "Görəndə" rədifli qoşmada pambıq yığan qızlar, əmək prosesi estetikcəsinə təsvir olunur. Pambıq tayalarını gümüş saçlı çiçəklərin anbarı adlandıraraq, behiştin yolunun halal zəhmətdən keçdiyini göstərir:

Qız-gəlini seçmək olmur mələkdən,
Anbar yığır gümüş saçlı çiçəkdən.
Kim şad olmaz, kim sevinməz ürəkdən,
Behişt olan bu çağları görəndə [1,s.354].

Ailədə ataya hörmət, ata qədrini bilmək, cəmiyyətin quruluş vahidi sayılan ailə haqqında Aşıq Şəmşir şeirləri həmişə təzədir, müasirdir:

Ölməz bir bahardı atamın adı,
Fəslindən açılan lalə saralmaz.
Qəbrini bürüyən güllər, çiçəklər,
Daha düşməz haldan-hala, saralmaz [2,s.85].

Aşıq Şəmşir Ağdabanlı şair Qurbana təkcə atası kimi yox, XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan şeirinin görkəmli nümayəndəsi kimi baxır. Atasını özünə ustad sanır. “Saralmaz” rədifli qoşmasındakı kimi:

Qurbanın xətrinə baş əyir dağlar,
Onun övladları qalmasın ağlar.
Böyük sənətkarın saldığı bağlar,
Yüz il sudan ayrı qala, saralmaz [2,s.85].

Cəmiyyətin idarəçiliyində Dədə Şəmşir mandat istəyir. “Vəzifə yaxşılıq etmək üçün mühüm vasitədir” prinsipini şeir dilində irəli sürür:

Şəmşirdə sədaqət əhli-hal üçün,
Çoxdur məhəbbətim pür-kamal üçün.
Yaxşılıq edərdim el, mahal üçün,
İstərdim əlimdə ***ixtiyar*** olsun [1,s.355].

Bütün dahilər kimi Aşıq Şəmşirin də övladlarına nəsihət tipli öyüdləri mövcuddur. Ustadın bu barədə fikirləri Əl-Qəzalinin “Oğluma nəsihət” ilə bir paralellik, bir oxşarlıq tapmaq mümkündür: “Oğul, sənin sözlərin və hərəkətin şəriətə uyğun olmalıdır, ona görə ki, bilik və əməl şəriətə uyğun deyilsə, onda bu, xətadır və sən bayılma anına, sufilərin məclislərinə heyran olmamalısan. Bu yolla getmək cihad və cismani arzularla mübarizə tələb edir, gərək nəfsin istəklərini boş uydurma şeylərlə deyil, tərbiyənin qılıncı ilə məhv edəsən” [40].

“İnsan vəzifədə tanınar, insan rəhbər təyin olunanda tanınar” prinsipi “İlqar gərək” qoşmasında sərrastcasına

verilib. Vəzifə atını minərkən çalışıb elə hörmət qazanasan ki, vəzifədən çıxanda el, mahal hörmətini saxlaya bilə:

Şəmşir, düz bax, ellər baxan vaxtında,
Nə dəyib, bir kəsə toxan vaxtında,
Kişi vəzifədən çıxan vaxtında,
Saxlaya hörmətin el, mahal gərək [2,s.95].

Ata-ana, valideynlər Ustad üçün qibləgahdır, Ustad üçün "işıqlı günəş, işıqlı aydır":

Şəmşirin qoy yaxşı söylənsin namı,
Rəhmət deməlidi onda el hamı.
Qibləgah bilirəm ata-anamı
İşıqlı günəşim, mahımdı mənim [1,s.325].

Cəmiyyət hissələrdən, qruplardan təşkil olunmuşdur ki, bu qruplardan biri şeirlərində tez-tez xatırlanan şairlər, ozanlardır. Aşıq Şəmşir şeirlərində özündən qabaqkı ustadları da, müasirləri də, gələcək istedadlı yazarlar da dəyərləndirilir ki, elə sənətkar böyüklüyü də bununla şərtlənir:

Bir gəl bax Şəmşirin çəkdiyi aha,
Söz ağır getməsin qadir Allaha,
Vurğunu çağırmaq çətindir daha,
Çatmaz ünüm o diyara, Zəlimxan! [2,s.112].

Dilimizin inkişafına öz əsərləri ilə möhtəşəm, əvəzolunmaz töhfələr verən Aşıq Şəmşir səmimiyyətə, qətiyyətə söykənərək el-obaya yazdığını dilə gətirir. Elə-obaya həsr olunan yazılarsa əbədidir:

Aldım qələmimi əlimə, yazdım,
Qadağa vermədim dilimə, yazdım,
Çoxunu obama, elimə yazdım,
Sözdən qala çəkdim bu dağlar kimi [2,s.131].

"Ailənin bütövlüyü, ailənin təməlinin möhkəm olması baxımından nikaha, ittifaqa daxil olanların bir-birinə tay olması vacibdir" prinsipini Ustad "Düşər" rədifli qoşmasında belə dilə gətirir:

Səxavətli, dünya görmüş adama,
Verilsə minnətli pay, geri düşər.
Mərd iyidin yarı, atalar demiş,
Olmasa özünə tay, geri düşər [2,s.153].

"El gücü, sel gücü" deyimini, elin gücü qarşısında duruş gətirməyin çətin olduğu anlamı "Demədimmi?!" gəraylısında lətif şəkildə verilir:

Şəmşirin var – bilin, gücü,
Yarğan salar selin gücü.
Yağı düşmən, elin gücü,
Daşın atar demədimmi? [1,s.379].

Eli, xalqı birliyə çağırır. "Birlik harda – dirilik orda" deyimini işlədir. Bu deyimlər, atalar sözü xalq fəlsəfəsindən qaynaqlanan sözlərdir ki, onları məqamında işlətmək Aşıq Şəmşirə nəsib olur:

Şəmşir söylər aşikarda,
Qoyma yoldaş qala darda.
Birlik harda – dirlik orda,
Əyişməyin nə xeyri var?! [1,s.385].

"Xalqdan böyük dayaq yoxdur" müddəası Aşıq Şəmşir yaradıcılığının ana xəttidir. Xalqa arxalanan "mərd qulu heç fil də yıxa bilməz" müddəası ilə cəmiyyətə arxalanmağı tələb kimi qarşıya qoyur:

Həqiqət axtaran gələcək yola,
Onunçün hər barat layiqdir ola.
El kömək duranda yoxsul, mərd qula,
Onu şir, kərgədan, *fil yıxa bilməz* [2,s.344].

Dövlətin quruluş vahidi olan ailənin formalaşması, ailə üzvlərinin hər birinin öz üzərinə düşən funksiyasını yerinə yetirməsi, digər ailələrə nümunə olması məsələləri tez-tez Aşıq Şəmşirin qoşmalarında özünə yer tapır:

Əgər oğlu, qızı törətsə fəsad,
Ağrımaz başını qoymaz salamat.
Həyalı kişinin, həyasız arvad
Eləyər əqlini zay, geri düşər [2,s.153].

Cəmiyyətin idarəçiliyində geniş və dərin düşüncə, insanlarla rəftarda gözəl xasiyyət rəhbər olmağa, "baş" getməyə layiqdir ki, bu da öz əksini "Gedə bilməz" rədifli qoşmada özünü göstərir:

Xarməhrədi pədər süxtə, çuğulbaz,
Şəmşir, səni cab-zəncilər anlamaz.
Düşüncəsi gödək, xasiyyətdən az,
Qalar öz yerində, *baş gedə bilməz* [2,s.178].

Aşıq Şəmşir özünü mənsub olduğu eldən, cəmiyyətdən ayırmamaq, onun qanunlarına, cəmiyyətin qərarlarına əməl etmək, cəmiyyətin arxasınca getmək və cəmiyyətdən, xalqdan geridə qalmamaq müddəasını irəli sürməklə fərdin cəmiyyətdəki rolunu önə çəkir. "Mən" rədifli qoşmada olduğu kimi:

Şəmşirəm, xoş əməllərə uyurdum,
Bir zaman buyruldum, bəzən buyurdum,
El yeridi, arxasınca yüyürdüm,
Qalmamışam xalq içindən geridə mən [2,s.207].

"Aşıq Şəmşir yaradıcılığında cəmiyyət" yarımfəslini yekunlaşdıraraq aşağıdakı fikirləri formalaşdırmaq mümkündür: "Cəmiyyət mövcud olduqca Aşıq Şəmşir poeziyasına da ehtiyac həmişə olacaq". Şəxsiyyətin formalaşması yolunda folklorun, aşıq yaradıcılığının müsbət rolu birmənalıdır. Müstəqilliyimizin möhkəmlənməsi yolunda cəmiyyətlə bağlı Aşıq Şəmşir şeirlərindəki ideyalar çağımızla səsləşən ideyalardır.

## 1.5. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA ELM, ELMİ-TEXNİKİ TƏRƏQQİ

***Elmi-texniki tərəqqi və bəşəri dəyərlər.*** Elmi-texniki tərəqqi əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin artırılmasma, Yer kurəsi əhalisinin əsas kütləsinin həyat səviyyəsinin yüksəldilməsinə geniş imkanlar yaradır. Sosial-iqtisadi proseslər surətlə inkişaf edir. Toplanmış biliklər potensialından, elm və texnikanın ən yeni nailiyyətlərindən, mütərəqqi texnologiyalardan və çevik kommunikasiya sistemlərindən istifadə edilməsi nəticəsində müasir dövrdə cəmiyyətin məhsuldar qüvvələrinin inkişafında əvvəllər bir necə minillik ərzində baş vermiş dəyişikliklərdən xeyli artıq dəyişikliklər baş verir [98,s.213].

Ərəb mütəfəkkiri Əl-Qəzali [40] elmin və əməllərin səadətə aparan yol olduğunu "Əməllərin nizamı" əsərində qeyd edirdi: "...Bil ki, elm və əməl məhz həmin yoldur. Daha sonra sən bilməlisən ki, hər bir yaradılmışın xoşbəxtliyi, rifahı və asudəliyi onun kamilliyə çatmasındadır. Ağıllı adamlar düşünürlər ki, elm əməldən daha yüksəkdə durur və əməl elmin davamıdır, elm müəyyən məqsədə çatana qədər əməli çəkib aparır və buna görə də Allah-Təala buyurur: "Pak söz Ona tərəf yüksələr və pak sözü də yaxşı əməl qaldırar". Öyrənilmə zamanı bilikdən xeyirxah söz yaranır, məhz həmin söz Allah dərgahına yüksəlir və öz yerini tutur. Əməl isə – onun xidmətçisi kimi – onu qaldırır və aparır. Bu, biliyin yüksək mövqeyinin göstəricisidir.

Elmi-texniki tərəqqi, elmin XX əsrdəki inkişafı dərin təfəkkür sahibi Aşıq Şəmşirin iti nəzərlərindən qaçmır, elmə vurğunluğu, elmin qüdrətini əks etdirən misraları öz dediyi kimi "ağ kağız üzərinə dürr" təkin səpilir:

Ağ kağız üzünə dürr səpir qələm,
Elmin gedişinə heyrandı aləm.
Bu qüdrəti unudan ki deyiləm,
Yaşayıram xoş əməllər içində.

Elm, elmin qiyməti, elmə hörmət ustadın şeirlərində mühüm yer alır. "Ola bilməz" rədifli qoşmada ustada hörmətə çağırış kimi səslənən inkar qanunu elmin üstünlüyü ilə birgə səslənir. "Elmdən böyük yar-yoldaş yoxdur" müddəasını dilə gətirir:

Ustad oğlu olsa ustad yaxşıdı,
Şəmşirəm, əyilməz polad yaxşıdı,
Yüz haram qazancdan savad yaxşıdı,
Onun kimi yoldaş, yar ola bilməz! [1,s.87].

Allah qulu Aşıq Şəmşir Allahı dərk etmək yolu tutan "ariflərə, alimlərə, düşüncə adamlarına" nökər olmağı özünə şərəf bilir:

Arifə, alimə, qədirbilənə,
Duyan adamlara nökər olaydım.
Nur saçaydım mərd insanlar çeşminə,
Qaşına, gözünə əxsər olaydım [1,s.133].

Elmdə bu gün plagiat – "oğurluq" kimi anlaşılan, aşkarlandığı təqdirdə qanunla cəzalandırılan məsələlərə qarşı aşıq öz münasibətini ciddi şəkildə bildirir, "elm halallıq sevir" müddəasını ortaya qoyur:

Hiylə ilə yaz min kitab,
Zərrə qədər olmaz savab.
Bir doğruya verməz cavab,
Yüz min fitnə-fel oğrusu [3,s.344].

Aşıq Şəmşir yaradıcılığında millətin, xalqın elmi-pedaqoji cəhətdən kamilləşməsi yolunda lətif şeirlər öz yerini alır. Mərifətə aparan yolda elmin, məktəbin rolu sadə xalq dilində çatdırılır:

Mərifətin bağçasından
Körpə balam, gül üzərsən.
Elə bağ sal saralmasın,
Bar gətirər, bol üzərsən [3,s.347].

Aşıq Şəmşir üçün dərkə, məntiqə söykənən Allah elmləri ilə məşğul olmaq şeir əzbərləmək, şeirləri sevmək, şeir həvəskarı olmaqdan üstündür:

Dərsini unutma barı,
Ayaq götür elmə sarı.
Olsan şeir həvəskarı,
Tez məktəbdən əl üzərsən [3,s.347].

Elmin ənginliklərinə doğru tərlan kimi qanad çalan, mərifətə yetişən insanın tutiləri mat qoyacağı, bülbüllərdən dil üzməsi bəri başdan məlum olur:

Tərlan kimi çalıb qanad,
Oxu, yetiş, mətləbə çat.
Tutiləri qoyarsan mat,
Bülbüllərdən dil üzərsən [3,s.347].

"Gərək" rədifli qoşmasında həyatda qazanılan elmi adlar, titullardan da üstün bir adın olduğunu anladır. O üstün ad elə "dünyada yaxşı ad qoymaqdır":

Qabil sənətkarın sayəsində gəz,
Zəhmətin həddindən alarsan əvəz.
Aşıq ol, alim ol, şair ol – qərəz,
Dünyada *yaxşı ad qoyasan* gərək [1,s.85].

"Elmə, təhsilə söykənən dövlət qüdrətlidir" müddəası Aşıq Şəmşir dilində tez-tez səslənir:

Eşit sözlərimi, saxla amanat,
Ömrünü sərf elə elmə, biliyə.
İstəsən ki, başın ola salamat,
Nə dəli al, nə də qız ver dəliyə [2,s.254].

Təhsilin insan şəxsiyyətinin formalaşmasında rolu birmənalı şəkildə filosoflar tərəfindən hər zaman verilmişdir. Hələ bizim eradan əvvəl qədim yunan filosofu Aristotelin etik kredosunda deyilir: "Gənclikdə və sonrakı dövrlərdə öyrəndiklərinizə diqqətlə yanaşın. Əxlaq məsələlərində tərbiyə və təhsilin vacib rol oynadığını bilin" [189]. Təsadüfi deyildir ki, Aristotel dolğun etik dəyərlərlə zəngin həyatı xoşbəxtlik kimi səciyyələndirirdi [189]. Sokrat əxlaqlı olmağı və yaxşı bir həyat sürməyi bilik sahibi olmaqla eyni tutmuşdur. Sokrata görə insanın qeyri-əxlaqi bir hərəkət etməsi bütövlükdə biliksizlikdən qaynaqlanır [189]. Təhsilin "ideal insan", "alicənab şəxs yetişdirməsi ideyası" hələ

qədim Çin filosofu Konfutsi (e.ə. 551–479) tərəfindən də irəli sürülmüşdür [5].

Son dövrlər cəmiyyətin və dövlətin inkişafı üçün bilik və təhsilin rolunu hamı anlayır. Bu gün təhsilə istehsalat üçün baş meydança kimi baxılır ki, təhsil biliklərin, innovasiyaların və texnologiyaların yayılması və ötürülməsində mühüm rol oynayır [194, 195].

Bu mühüm rol Ustadın sadə, xalq dilində, anlaşıqlı şəkildə qələmə aldığı misralarda özünü göstərir:

Az bilənə genəş, çoxu bilərsən,
Anlayarsan, varı-yoxu bilərsən,
Şəmşir kimi kitab oxu, bilərsən,
Çox yekə danışma, bax filanşüdə [1,s.266].

Nizami Gəncəvinin elm haqqındakı fikirlərini:

Qaç o sözlərdən ki, mənasız, boşdur,
İlahi elmlər öyrənmək xoşdur.
Elə namuslu ol, desin hər görən:
“Ağıllı oğluna, Nizami, əhsən” [138,s.343].

Xəlil Yusifli [73] aşağıdakı kimi qeyd edir: “Nizaminin yaşadığı dövr böyük elmi kəşflər, ağıl və idrak dövrü idi. Orta əsrlərin dini ehkamına, mövhumatına İntibah ağlıkamalı qarşı qoyurdu. Nizami də İntibahın ən böyük nümayəndələrindən biri kimi ağıl məsələsinə xüsusi diqqət yetirir, insanın özünü dərk etməsində onun rolunu, ağlın insana arxa olduğunu yazır. Ağıllı adamı mələk adlandırır, ağıllı insanda yerlə göyün birləşdiyi fikrini irəli sürür:

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.
Kim ki yetişmədi ağıldan bara,
Oxşar insansifət əjdahalara” [73].

Aşıq Şəmşir yaradıcılığında elm və mərifət anlayışları birgədir:

Bu nə qəmdir, bir qanmaza tuş oldum,
İşarə anlamır, söz qana bilmir.
Yoxdur insanlıqdan əsla xəbəri,
***Elm-mərifətdə*** iz qana bilmir [2,s.121].

Sözə qiymət, sözə qayğı, yalana nifrət, yalan sözə yer ayırmamaq, cəmiyyət üzvləri arasında yalan sözə yer qoymamaq Aşıq Şəmşir şeirlərinin başlıca qayələrindəndir:

Gəl yaxşı bağ salaq, gülü solmasın,
Şirəsinə məkəs-milçək dolmasın,
Tək bircə kəlmə də xilaf olmasın,
Aramızda yalan söz, əmim oğlu! [2,s.205].

Aşıq Şəmşir elmin qiymətini bilir. Aşıq Şəmşir alim, aqil, kamil insanın da qiymətini bilir. Ustadın həyat fəlsəfəsində alimlik də, elm də, kamillik də ilahidəndir. İlahidən olan alimliklə səylik (huşda, fəhmdə yanlışlıq) bir araya sığmır:

Alim, aqil, kamil olan insanın
Huşunda, fəhmində səyləmək olmaz.
Bu söz xəzinəsin verən var ona,
Onun baratını söyləmək olmaz [2,s.315].

Bu gün qabaqcıl, firavan həyat keçirən ölkə deyəndə, müasir texniki vasitələrə, hərbi qüdrətə malik olan ölkələr başa düşülür ki, o ölkələr də bunlara elmin gücü ilə nail olmuşlar.

Elm üçün özünü etməyən nökər,
Bütün ömrü boyu ahu-zar çəkər.
Ağlayar, gözündən qanlı yaş tökər,
O kəsdə fərasət – var ola bilməz [1,s.301]

Elmə söykənməyən, dərkə söykənməyən, Allah nurundan güc almayan insanı "Oğlum" rədifli qoşmasında olduğu kimi Aşıq Şəmşir qəbul etmir:

Gərək hər işini möhkəm tutasan,
Olar fərasəti – dərk edən insan.
İnsanlıq çətindi, alimlik asan,
Elmdən üstündü xasiyyət, oğlum! [2,s.440].

Elmə, təhsilə qiymət vermək Ustadın bütün yaradıcılığını müşayiət edir. Alimlərdən öyrənməyi tövsiyə edir ki, bu tövsiyə səmimiyyətlə söylənilən tələb səviyyəsinə yüksəlir:

"Alimə, arifə" qiymət verilməsini təkidlə tələb edir: Bu gün ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sənət adamlarına olan yüksək qayğısı Ustadın tələbinə cavab kimi səslənir:

Sən öyrən alimdən, yayın xəbisdən,
Gizlən bihörmətdən, kənar gəz pisdən.
Ləli dəryadan seç, qızılı misdən,
Alimə, arifə ver qiymət, oğlum! [2,s.441].

Aşıq Şəmşirin elmə, sənətə olan qayğısı bu gün real şəkildə Azərbaycan dövləti tərəfindən uğurla həyata keçirilir. Nizami Gəncəvinin “Yeddi gözəl”ində elmə olan münasibət aşağıdakı misralarda açıqlanır:

“O kəs ki ömrünü həsr etmiş elmə,
Baş əyməz heç zaman cəzri-əsəmə.
Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdir, hədər” [140,s.40].

Bu misraların dərin və ciddi müqayisəsinin mənası odur ki, yazılma tarixlərinin (XII və XX əsrlər) fərqli olmalarına baxmayaraq Azərbaycan xalqının geniş təfəkkür sahiblərinin elmə, biliyə, elm sahiblərinə göstərdikləri saygı, ehtiram dəyişməzdir.

## 1.6. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA ÜMUMBƏŞƏRİLİK VƏ TARİX FƏLSƏFƏSİ

Qədim yunanlar dünyanı mükəmməl Kosmos kimi qəbul edir, tarixin təkrarlanması konsepsiyasını irəli sürürdülər. Həmin konsepsiyaya görə, hadisələr sonsuz sayda təkrarlanır, yəni tarix əbədi və mənasız təkrarlanma prosesidir. Bu prosesdə bir hadisənin əhəmiyyəti başqa hadisənin əhəmiyyətindən heç də çox deyildir [98,s.321].

"Yer kürəsi hamımızındır" fəlsəfəsini Ustad ortaya qoyur. "Yeddi gözəl"in müəllifi Nizami də dünyanı, bəşəri ümumi qəbul edir. Söz yox ki, bugünkü millilikdən uzaq "kosmopolitlər"lə bu dahiləri bağlayan heç bir şey yoxdur:

Şəmşir, cahan meyxanadı,
Çoxlarına nişanadı.
Qara torpaq bir anadı,
Harda ölsən, yadı yoxdu [1,s.402].

Aşıq Şəmşir hələ İkinci Dünya Müharibəsi dövründə Hitlerə ünvanladığı "Yıxılacaqsan" rədifli qoşmada faşizmə qarşı, dinc əhaliyə zülm edənlərə qarşı şeir dilində öz ümumbəşəri hisslərini ifadə edir:

Zülmü xəlqlər üçün eyləmə şiddət,
Demirsən yazıqdı, bəşərdi millət.
Azad insanlara vermə əziyyət,
Tale dəftərindən çıxılacaqsan [2,s.297].

Növbəti misrada “bahar ayağına çökər zimistan” deməklə haqq yoluna dəvət edir. “Haqq yoluna gəlməyənlər öz layiqli cəzasına çatacaqlar” müddəasını irəli sürür:

Haqlıdı Şəmşirin yazdığı dastan,
Bahar ayağına çökər zimistan.
Qəlbin qəmdən çıxmaz, xəyalın yasdan,
İndi süngülərə taxılacaqsan [2,s.297].

Aşıq Şəmşir poeziyasında dünyada qalan sənət və sənətkarlardır. O öz fikrini tarixlə uzlaşdırır, tarix fəlsəfəsinə söykənərək ümumiləşdirmələr aparır. “Sələmxar, zülmkar padşahların adını tarix ya atmış, ya da pis mənada saxlamışdır” fikrini ortaya qoyur:

Hanı padışahlar – o sələmxarlar?!
Onlarda olarmış cəm ixtiyarlar.
Bizdən qabaq keçib çox zülmkarlar,
Tarix xəbər verir: yığıldı getdi [2,s.299].

Uzaqgörənliklə, gələcəyə tuşlanan nikbin bir ovqatla “Demərəm, o dərya soğuldu getdi” mənasında Nizami yurdundakı sənət baxçalarının, ümmanlı göllərin bu gün də mövcudluğunu anladır:

İndi Nizamidən ulus var, el var,
Saldığı bağlarda bənövşə, gül var.
Yerində, yurdunda ümmanlı göl var,
Demərəm, o dərya soğuldu getdi [2,s.299].

Tarix fəlsəfəsi təkcə ictimai-siyasi dövrlərin, hadisələrin xronologiyası və tarixi yox, həm də bədii ədəbiyyatımızın tarixidir ki, bunlar yeri gəldikcə Aşıq Şəmşir divanilərində də işıqlanır.

“Sən” rədifli divanidə Şeyx Şənan, Füzuli, Ziyadxan oğlu Kərəm kimi, Əsli kimi dastan qəhrəmanları və bu dastanları qələmə alan sənətkarlar nəzmə çəkilir, “tarix təkrarlanır” müddəasının həmişə var olduğunu bəyan edir:

Şeyx Sənan, həm Füzuli: “Yar!” – dedi, ovsandı hey,
Gəncəli xan oğlu Kərəm, Əsli üçün yandı hey.
Şəmşir əlbət bu dəhridən yəqin bir iş qandı hey,
Nə dərd olsa mən çəkərəm – nəzərinə alma sən[2,s.14].

Tarix fəlsəfəsinə görə tarix təkrarlanır. Aşıq Şəmşir yaradıcılığında da islam tariximiz, milli-ədəbi tariximiz təkrarlanır, yada salınır. Bu tarix gələcək nəsillərə ötürülür, əvvəlki tarix kitablarındasa bizlərə öyrədilən saxta tarixə aydınlıq gətirilir. “İnciməz” rədifli qoşmasında Azərbaycanın görkəmli tarixi şəxsiyyəti, Azərbaycan torpaqlarının bütövlüyü və qorunması yolunda ciddi xidmətlər göstərmiş Nadir şah Əfşarı təkcə oxucularına yox, elə tarixçilərə də tanıdır:

Sən boynuna aldınmı heç bir günah?!
Haqqa, ədalətə qoy olsun agah!
İsgəndər hökmündə olan Nadir şah
Göndərsən qul kimi hara, inciməz [1,s.296].

“Qırıb bir-birini ağılsız insan” ifadəsi Səməd Vurğunun “Qalib gələcəkmi cahanda insan” poetik deyimi ilə üst-üstə düşür:

Qandan təməl qurub əzəldən cahan,
Daş-torpaq boyanıb insan qanından.
Qırıb bir-birini ağılsız insan,
Şəmşir, huşun müəmmalı dağıldı [1,s.248].

Ümumbəşərilik, beynəlmiləllik ideyaları kamil sənətkarlara aiddir ki, bu dəyərlər Aşıq Şəmşir yaradıcılığında da xüsusi yer tutur. Ustad millilikdən ümumbəşəriliyə yüksələn sənətkarlardandır.

Biz demişik sülhə gəlin, dünyanın insanları,
Yer üzünün məzlumları, hər yanın insanları.
Yoldaş olun, qardaş olun – cahanın insanları,
Bir atanın oğlu kimi, bir ana doğan kimi [2,s.299].

Ümumbəşərilik ideyası Ustadın atası Ağdabanlı Şair Qurbanın insanları düz yola çağıran “Yoxdu-yox” divanisində dəqiqliklə verilmişdir:

Kainatda ruzi boldu, hər gələn can dolanır,
Yaranmışın qismətini verir sübhan, dolanır!
Afrikada vəhşi pələng, sürü aslan dolanır,
Bir-birinə qənim deyil, onlar asan dolanır,
Öz nəslinə qənim olan başqa bir can yoxdu-yox![4]

Aşıq Şəmşir müllilikdən – ümumbəşəriliyə, doğulduğu Murov dağının təəssübünü çəkməkdən Dünyanın təəssü-

bünü çəkməyə yüksələn sənətkarlardandır. Təsadüfi deyildir ki, YUNESKO tipli beynəlxalq təşkilatlar məhz belə tarixi şəxsiyyətlərin yübileylərini qeyd edir. Belə bəşəri ideyalar Azərbaycan xalqının dahi oğullarına xasdır. “Bacasından” rədifli qoşmadakı kimi:

Çəkilə dünyadan qaranlıq duman,
Gün düşə, hamının Ay, bacasından.
Qəlbi azad, yaşayışı firavan,
İşıq sala bahar, yay bacasından [2,s.197].

Günahsız bəşərin millətindən, dinindən asılı olmayaraq məhv olması, qırılması ustadı əndişələndirir. XX əsrin 70-ci illərində Yaxın Şərqdə baş verən münaqişələrə ümumbəşəri prizmadan yanaşan Aşıq Şəmşirin aşağıdakı misraları bu gün də – XXI əsrin əvvəlində də öz dəyərindədir:

Nə üçün qırılır günahsız insan,
Bu zülmü götürməz Yer, Göy, Asiman.
Yazıq ərəblərin su yerinə qan
Axır qapısından, çay, bacasından [2,s.197].

Aşıq Şəmşirin arzusu o məzlum ellərin xoş günə çatmasıdır ki, məhz o vaxt ustadın dərdi, azarı yox olacaqdı.

Şəmşir arzusuna çataydı barı,
Qalmazdı canında dərdi, azarı,
O məzlum ellərin yaxın dostları
Bir gəlib verəydi hay, bacasından [2,s.197].

Aşıq Şəmşir yaradıcılığından eləcə də tarix fəlsəfəsi yan keçmir. Tarixə düşən hökmdarlar bir-birini əvəz edir, tarixsə yerində bu hadisələri təkrar edir. Məhz tarix fəlsəfəsi Aşıq Şəmşir dilində faktlara söykənərək ibrət dərsi vermək yolunda mühüm amildir. "Hanı?" rədifli qoşmada tarixi şəxsiyyətləri sadalamaqla Nizami kimi nəsihətamiz bir fəlsəfə yaradır:

Hər işdə mahirsən, əziz bərabər,
Məhəbbət milyonca altuna dəyər.
Bahram Gur, Nadir şah, səddi İsgəndər,
Sultan Süleymanlar hökmüdar, hanı? [2,s.186].

Beləliklə, bu yarımfəsildə ümumbəşərilik və tarix fəlsəfəsi baxımından gəldiyimiz qənaətlər bir daha Azərbaycan aşıq sənətinin dərindən öyrənilməsinə bu gün də, sabah da ciddi ehtiyac olduğunu sübut edir.

# II FƏSİL
# AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA ETİKA

Aşıq yaradıcılığında etik problemlərə toxunulsa da bu geniş tədqiqat mövzusu olmamışdır: "Müşahidələr aşıq şeirində mənəvi dəyərlərin dörd ümumi tipinin (etnik-milli, dini, təsəvvüfi-irfani, dünyəvi) mövcudluğunu aşkarlayır, gözəl insan, gözəl cəmiyyət və gözəl vətən idealının çeşidli təcəssüm formalarının mövcudluğunu ortaya çıxarır. Məlum olur ki, aşıq poeziyasında bədii təcəssüm tapan estetik düşüncələr, əxlaqi hikmət bu günün mənəvi tələbləri baxımından da mənalı səslənir, insanlara sağlam bədii zövq, nəciblik, xeyirxahlıq, əxlaq bütövlüyü, vətən və millət sevgisi, vətəndaşlıq məsuliyyəti aşılayan təsirli vasitə kimi əhəmiyyət daşıyır" [9,s. 393].

## 2.1. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA ETİK DƏYƏRLƏR

Öncə etikanın fəlsəfə ilə əlaqəsinə, etik dəyərlərə fəlsəfi qanunların nə dərəcədə şamil olduğunu müəyyənləşdirək. Etika – əxlaq, əməl edilməli mənəvi qanun, həqiqi insaniyyətin prinsipləri, həyatın ali, ideal dəyərləri haqqında elmdir. Etika aşağıdakı mühüm suallara cavab verməlidir: insanın mövcudluğunun mənası nədən ibarətdir?! İnsan təbiətinin gercəkləşməsi nədən ibarət olmalıdır? Digər sosial elmlərlə yanaşı, etika da həyatın insan qarşısında qoyduğu çoxlu problemlərin həllinə kömək etməli, yeni əxlaqi münasibətlərin formalaşmasına, insanın tərbiyə edilməsi işinə öz töhfəsini verməlidir.

Etika əxlaq şüurunun və əxlaqi munasibətlərin təbiətini oyrənməklə əxlaq normalarının və əxlaqi dəyərlərin səciyyəvi xüsusiyyətlərini, insanın davranışında başqa norma və qiymətlərlə müqayisədə onların tətbiq edilməsinin xüsusi üsullarını, insanın hərəkətlərinə görə cavabdehlik və məsuliyyətin xüsusi şərtlərini, insanın tərbiyəsində əxlaqın xüsusi rolunu aydınlaşdırır [98,s.301].

Əxlaqi hadisələrin təhlilində aksioloji və sosioloji yanaşmalar mühüm rol oynayır. Aksioloji yanaşma əxlaqın səciyyəviliyinin aşkar edilməsi, onda ideoloji məqamların dəqiq müəyyənləşdirilməsi, funksional elementlərin açıqlanması, normativ müddəaların izah edilməsi, etik şüur ilə sosial praktika arasında əlaqələndirici halqa kimi normativ etikanın xüsusiyyətinin başa düşülməsi üçün böyük əhəmiyyət kəsb edir. Sosioloji yanaşmanın rolu onunla izah edilir ki, ictimai hadisə olan əxlaq bütövlukdə ictimai sistemdən kənarda mövcud ola bilməz.

Cəmiyyətin strukturunun və onun inkişaf qanunauyğunluqlarının tədqiqi əxlaq hadisələrinin düzgün başa düşülməsi üçün zəmin yaradır [98,s.303].

Aşıq Şəmşir yaradıcılığındakı antietik dəyərlər haqqında hələ zamanında Osman Sarıvəlli [47,s.96 ] öz müşahidələrini elmi şəkildə əsaslandırmışdır: “Xalqı düzlüyə, saflığa, təmizliyə, mərdliyə, namuslu və əxlaqlı olmağa, vətən və xalq qeyrəti çəkməyə, əməyə, tərəqqiyə çağırmaq Şəmşir şeirlərinin başlıca məziyyətlərindəndir. “Mən haqq aşiqiyəm” deyən Şəmşir həyatda hələ də şeytan, xəbis, xain, cahil adamların kökünün kəsilmədiyinə təəssüf edir. Belələrini görəndə “gözləri ağrıyır”, “nəfəsləri zəhər qoxuyan”, “haramdan əkilib haram doğulan”, “fitnə-fəsadı

özünə peşə seçən", "xalqa daim quyu qazan", "daqqa-daqqa el içində özünü çəkən"lərdən Şəmşir qəzəblə danışır".

Mənəvi saflığın qiymətini "Halal baxışına haram qatmasın" deyə bildirir:

Aldanmasın, nə uyquda yatmasın,
Halal baxışına haram qatmasın.
Əlində saxlasın, yerə atmasın,
Namusu, qeyrəti, arı gözlərin [2,s.435].

Osman Əfəndiyev Sovetlər dönəmində çap etdirdiyi "Aşıq poeziyasının estetik problemləri" monoqrafiyasında yazırdı: " Aşıq Şəmşir insanın mənəvi gözəlliyini tərənnüm edən sənətkarlardan biridir. "Nə lazım" rədifli şeirində Aşıq Şəmşir insanın halal həyat yolunu, təvazökar yaşayış tərzini yüksək qiymətləndirir, bunu hərisliyə, var-dövlətlə öyünməyə qarşı qoyur. Ustad aşıq insanda mənəm-mənəmliyi, lovğlığı, özünü başqalarından üstün tutmaq meyllərini qoşmalarında kəskin tənqid edir" [144].

Mənəvi dəyərlərin böhran keçirdiyi çağımızda Ustadın öyüdlərinə olan ehtiyac gün-gündən artır. Arif adamların, alim adamların – öyüd götürən adamların kimlərlə oturub – durmağı polad məntiqə söykənən "Oldu" qoşmasında aydınca verilir:

Şəmşirəm, bu sözü yadigar dedim,
Alimi, arifi xəbərdar edim.
Binamusla bir süfrədə bal yedim,
Aqibəti: ağzım zəhrimar oldu [1,s.153].

"Səninlə yüksəltdim adı, sanımı" deyən Ustad fərdin inkişafında, sənət zirvələrinə doğru yüksəlişində ailə namusunun ciddi rola malik olduğunu gündəmə gətirir:

Səninlə yüksəltdim adı, sanımı,
Yolunda sərf etdim xanimanımı.
Şəmşirəm, sevgilim, alır canımı,
Hər baxanda mənə sarı gözlərin [2,s.435].

Etibar, ilqar, sədaqət kimi etik dəyərlər Ustadın dilindən düşmür. "Düşərmi?!" qoşmasında o "ilqar şərabı" ifadəsini işlədir. Əksər Şərq klassikləri, islam şairləri üçün şərabın haram bilindiyi dövrlərdə Allaha doğru gedən yolda "eşq şərabı" anlayışı çox işlədilirsə, Aşıq Şəmşir etibar mənasında "ilqar şərabı" ifadəsini dilə gətirir:

Şəmşir doğru yoldan qafil olmamış,
İlqar şərabını eyləmişəm nuş.
Şeytan təbirinə yetirməyən guş,
Qəzaya uğrayıb felə düşərmi?! [2,s.407].

Aşıq Şəmşir məhəbbət lirikasında qədirbilən oxucularına ən nəcib insani hissləri – vəfa, ilqar, etibar, sədaqət, ağıl-kamal aşılayır. Əhdə, vəfaya dönük olanlara qarşı Aşıq Şəmşir olduqca sərtdir, amansızdır. Belələrini Dədə Şəmşir "Ay etibarsız" damğası ilə poetik məqamda möhürləyir [61].

Etik lüğətimizin zənginləşməsində aşıq yaradıcılığının rolu böyükdür ki, bu baxımdan "etibar", "halal süd əmmək", "pak sənətkar", "düzgün xilqət" və onlarla digər ifadələr əxlaqı dəyərlərə işarədir:

Gəzdim Qarabağı can deyə, deyə,
Gün keçirdib yetişmişəm indiyə.
Ziyanım dəyməyib heç bir kimsəyə,
Hamı bilir ***etibara*** düz məni [2,s.413]

Ən antietik dəyər hesab olunan “yalan” müqəddəs kitabımızda həmişə pislənilmişdir: Yunis surəsi, 17-ci ayədə: “Allaha qarşı yalan, iftira düzəldən, ya da Onun ayətlərini təkzib edəndən daha zalım kimdir? Əlbəttə, zülmkarlar heç vaxt nicat tapıb pəhrizkar olmayacaqlar ”, eləcə də Yunis surəsi, 60-cı ayədə olduğu kimi: “Allaha iftira yaxanlar qiyamət günü barəsində nə fikirləşirlər? Əlbəttə, Allahın bəndələrinə olan fəzl və ehsanı çoxdur. Amma insanların çoxu şükr etmirlər”. Ustadın da şeirlərinin məzmunu bu ayələrə uyğundur:

Xilqətim düzgündü, müqəddəs varam,
***Halal süd*** əmmişəm, deyiləm haram.
Elin aşığıyam, ***pak sənətkaram***,
Çox çəkiblər imtahana yüz məni [2,s.413].

Belə yüksək əxlaqi dəyərlərə malik sənətkar bu dəyərlərin Qarabağ torpağında araya-ərsəyə gəlməsini dilə gətirərək “məkan və əxlaq” fəlsəfəsi yaradır.

Təkəbbürlülük Allah tərəfindən sevilməyən bir antietik əxlaqi dəyərdir ki, bu Əraf surəsinin 13-cü ayəsində aydın şəkildə insanlara çatdırılır: “Allah şeytana buyurdu: Bu məqamdan aşağı en. Orada sənə təkəbbürlük göstərmək yaramaz, oradan çıx ki, sən alçalanların zümrəsindənsən”

Antietik dəyərlər də etik dəyərlər qədər ustadın şeirlərində yer alır. Məhz bu antietik dəyərlərin öyrənilməsi sonda etik dəyərlərimizə sahib çıxmağa gətirir: "Xain, xəbis", "namərd", "hərcayı", "qəlbi təng", "nanəcib" antietik əlamətlərin qarşısına "halal", "mərd", "səxalı" kimi etik dəyərləri qoyur:

Halaldan doğulan itirməz çörək,
*Xaində, xəbisdə* kəc olar ürək.
Mərdlərin yolunda öləsən gərək,
*Namərdin* yolunda sinə gərincə [2,s.415].

***

*Hərcayının* sək sifətin görmə keç,
Qəlbi təngə əsla salam vermə, keç.
*Nanəcibin* alçasını dərmə, keç,
Səxalının iç zəhrini şirincə [2,s.415].

Təkcə bu şeirlərdə antietik dəyərlərə nifrət özünü addımbaşı qabarıq şəkildə göstərir. Belə ki, "mərdin yolunda ölmək", "səxalı insanın əlindən zəhər alıb içmək" antietik dəyərlərlə müqayisədə çox asandır.

Klassik ustadnamələrdə tez-tez rast gəldiyimiz mərd – namərd, xeyir – şər, dost-düşmən və s. bu kimi obrazlar Şəmşirin ustadnamələrində yeni səciyyə daşıyır. Burada müasir ictimai həyatın təsiri, yeni həyat tərzinin ayrı-ayrı təzahürləri özünü aydın göstərir. Bu ustadnamələrdə müasirlik hər hansı şəkildə olursa-olsun, insanın simasında, onun təbiət və xasiyyətində öz ifadəsini tapır. Aşığın ustadnamələrinin demək olar ki, hamısı müasir insana aiddir. O, göstərir ki, ağıllı insan öz rəftar və davranışında ağılsızlıq

etməməli, nalayiq iş görməməlidir. Çünki, o, kamal sahibidir. Mərifət, ədəb insanın nəxşidir. İnsanın müsbət keyfiyyətlərindən biri yaxşılığı bacarmaqdır. Bu cür adamlar haqqında yamanlıq etmək olmaz. Belə adamlar az olur, onları seçib tapmaq da çətindir. Çünki yaxşı adamlar haqqında xain, xəbis, iblis təbiətlilər söz gəzdirib, onları hörmətdən salmağa çalışır. Buna görə də aşıq belələrindən özünü qorumaq üçün sirr açmamağı məsləhət görür:

Xainin qəlbinə yüz şeytan dolub,
Saldığı bağçalar saralıb, solub.
Daş da sirr saxlamır, biilqar olub,
Saxlamır qəlbində söz, insan oğlu.

Professor Qara Namazov [87] Aşıq Şəmşir poeziyasındakı etik dəyərləri araşdırmağa müvəffəq olmuşdur: “Aşıq Şəmşir namərd, nakişi, kəmhünər, qatil adamların alçaq təbiətini açıb göstərir və qeyd edir ki, onların çörəyi olsa da, ürəyi yoxdur, pulu var, səxası, süfrəsi yoxdur, onlar yoxsula əl tutmazlar. Belə adamları aşıq şanında bal tapılmayan “məkəs-milçəyə” bənzədir. Onlar milçək kimi həmişə səs-küy salar, hünərdən, səxavətdən, var-dövlətdən, şan-şöhrətdən danışarlar:

Həmişə kəmhünər sellənər, daşar,
Döyüşə girməmiş, qaynayar, coşar.
Yerdə iş bacarmaz, göydən danışar,
Ona gəzmək heç düz yerdə yaraşmaz.

Aşıq Şəmşirin insan təbiətindəki mənfi sifətləri bütün genişliyi və incəliyi ilə açıb göstərməsi, ifşa etməsi təsadüfi

deyildi. Çünki insanlar arasına nifaq salan, xeyirxah adamların arzu və əməllərinə mane olan dargöz, xəbis təbiətlilər eyni zamanda xalqın, cəmiyyətin inkişafına mane olurlar. Aşığın nəsihətnamələrində vətən, el, xalq məfhumları qürurla səslənir. O, əsl insanlığı vətənpərvərlikdə, xalqa xidmətdə, elin dərdinə şərik olmaqda görür. Aşığa görə "Yoxsula əl uzadıb, nəzarət eyləmək", elə, xalqa xidmət etmək deməkdir. Aşıq Şəmşir bu münasibətlə "Arzula" rədifli nəsihətnaməsində deyir:

Sən xalqın işinə, elin nəfinə,
Həmişə bir xeyir xəbər arzula.
Piyadanı atlı, yoxsulu varlı,
Qanadsızı quştək gəzər arzula.

***

İnsan ol, insana bəslə məhəbbət,
Şəmşir bu barata uymuşdur əlbət.
Çalış həqiqətə, olma bədniyyət,
Nə yalan, nə böhtan, nə şər arzula!

Mühüm bir əxlaqi dəyər *səmimiyyət***,** *təvazökarlıqdır* ki, o da Aşıq Şəmşir yaradıcılığının mühüm tərəflərindəndir. "Günahım" rədifli qoşmada gözəllərə etdiyi tərifi də "günah" sayır:

Nə haram, nə rüşvət, nə mal yemişəm,
Halaldan qazanmaq olubdu peşəm.
Bir çox gözəllərə tərif demişəm,
Bağışlar ustadım söz günahını.

Bir kəsi yalandan tutmadım dilə,
Gün keçdi, yaşadım bir canan ilə.
Bəşəri aldadıb, atmadım selə,
Götürmədim gəlin, qız günahını [2,s.381].

Qoşmanın sonuncu bəndində Mövlana Cəlaləddin Ruminin "Ümid" hekayəti [120] ilə Aşıq Şəmşirin "Sahibi-səxavət əfv edər ancaq, Asi bəndələrin yüz günahını" ifadələrinin uyğunluğu diqqəti çəkir, övliyaların hamısının eyni təfəkkürə söykəndiyi məlum olur: "Günahkar bir adamı mühafiz mələklər önündən və arxasından meydana çəkib, onu cəza yerinə sürükləyirdilər. O şəxs onu tutub sürükləyənlərə fikir vermədən göz yaşlarını payız yağışı kimi tökərək üzünü geriyə çevirdi. Sanki nəyəsə ümid edirdi. Birdən Allahdan mələklərə əmr gəldi: – Ona deyin ki: "Ey fəzilətsiz insan! Qəbahətlərindən qara dəftərini görmədinmi? Daha nəyi gözləyirsən? Boş yerə dayanma!". O şəxs bu xəbərdarlığa belə cavab verdi: – Ey Rəbbim! Bilirsən ki, buyurduğundan yüz, minqat pisəm. Lakin indi yaxşı və pis işlərimi, iman və küfrümü bir yana qoydum. Mən bütün günahlarıma baxmayaraq lütf və mərhəmətinə böyük bir ümid bağladım. Öz əməllərimə deyil, mərhəmətinə sığınıram. Mənə şərəf libası olaraq varlıq verdin. Buna görə də sənə güvənirəm.

Bir bəndə beləcə həddini bilib, günahlarını etiraf edincə, İlahi məğfirət dadına yetişdi. Rəhman və Rəhim olan buyurdu ki: – Ey mələklər! Onu mənim hüzuruma gətirin: çünki onun qəlb gözü ümid və niyazdadır. Mən də onun günahlarını ***əfv edib***, onu buraxım. Xətalarını silim. Lütfümdən xoş bir atəş yandırım və bu atəşin ən kiçik qığılcımı günahı da, qüsuru da yandırsın" [120].

Şəmşiri yüksəldib sənətkar ocaq,
Ona ümid olan çəkərmi fəraq.
Sahibi-səxavət əfv edər ancaq,
Asi bəndələrin yüz günahını [2,s.381].

Aşıq Şəmşir yaradıcılığında etik dəyərlər estetik dəyərlərlə vəhdət halında verilir. "Həya-ismət"siz gözəllik, "ilqar-iman"sız igidlik xalq tərəfindən qəbul olunmur. "Ağır səng olmaq" kişilər üçün məqbul sayılan "əzəmət" estetik dəyərinə uyğun gəlir:

Gözəllərdə həya-ismət, igiddə ilqar-iman,
Qəlbi təmiz, lütfü halal başcıl olar hər zaman.
Satqın, alçaq, quşqunu boş, gəl olma düşük tuman,
El içində ağır səng ol, oyuncaq nərd olma sən [2,s.22].

Aşıq Şəmşir timsalında aşığın etik kredosunu Aristotel və Kantın etik kredoları ilə müqayisəli şəkildə bu yarımfəsildə yerləşdirməyi məqbul saydıq. Elə buradaca Ustadın əxlaqla bağlı bir misrasını verir və etik kredoları təqdim edirik:

Təmiz ad insana şövkət, şan alı,
Bu qaragöz hər baxdıqca can alı
Ağlımı apardı teli xınalı,
Qoca könül növcavana yaraşmır [3,s.142-143].

### *Aristotelin etik kredosu*

– Yadda saxlayın ki, insanın təyinatı həyatda və öz hərəkətlərində ləyaqətli olmaqdır!;

– Düzgün hərəkət etmək üçün özünüzdə əxlaqi dəyərləri hazırlayın;

– Ehtirası nəzarətə alaraq onun nə çoxluğuna, nə də azlığına imkan verməyin;

– Həzz və əzablarda ölçünü gözləyin;

– Gənclik və yaşlı dövrdə öyrəndiklərinizə diqqətli olun. Əxlaq məsələlərində tərbiyə və təhsilin vacib rol oynadığını bilin;

– Etik qayda-qanunlar xeyirxah işlərə zəmin yaradır ki, xeyirxah işlər üçün özünüzdə vərdişlər yaradın;

– O şəxslərdən nümunə götürün ki, onları ləyaqətli adlandırırar;

– Xoşbəxtliyə, dolğun əxlaqi həyata can atın;

– Yadda saxlayın ki, əxlaqi təkmilləşdirmə yolunda insan üçün hədd yoxdur;

– Etikanı öyrənin, hərəkətlərinizdə onun müddəalarına əsaslanın; [14]

### *Kantın etik kredosu*

– Əxlaqi varlıq olan insan öz hissi aləmi üzərində əxlaqla yüksəlir;

– Əxlaqi varlıq kimi insan təbiətdən ayrıdır, azadlıq qanunlarına uyğun yaşamalıdır;

– Azad olmaq dərkdə təcrübədən asılı olmayan mütləq əxlaq qanununa əməl etməkdir. Bu qanun dərki olan hər bir insana məlumdur. Belə ki, yalanın ləyaqətsiz olması hamıya məlumdur;

– Mütləq əxlaqi qanununa görə öz iradəsini məcbur edən xeyirxah iradə sahibi hesab olunur;

– İnsanlıq borcuna zidd olaraq nə özünə, nə də başqalarına məqsədə çatmaq vasitəsi kimi baxmayın. Əxlaq qanunlarına uyğun, insanlıq borcuna uyğun hərəkət edin;

– Elə yaşayın ki, sizin həzzləriniz, xoşbəxtlik və sevgiləriniz əxlaqi qanunlara əməl etməklə müşayiət olunsun;

– Özünə münasibətdə əxlaqi öhdəliklərə əməl edərək təmiz, vicdanlı, səmimi, ləyaqətli olun, yalana, acgözlüyə, xəsisliyə, yaltaqlığa qarşı çıxın;

– Başqalarına münasibətdə öhdəliklərinizi yerinə yetirərək insana nifrətə, lovğalığa, qeybətə, insanlıq borcuna və sevgiyə qarşı yönələn kinayəyə qarşı çıxın;

– Öz əxlaqi keyfiyyətlərinizi təkmilləşdirin, əxlaqi dəyərlərinizi inkişaf etdirin, düzgün davranışı öyrənin, mənəvi müəllimlərinizdən nümunə götürün;

– Yadınızdan çıxarmayın ki, insan həyatında əxlaqdan yüksək zirvə yoxdur. Əxlaqi həyat özünənəzarət tələb edir.[190]

Çinli tarlasını etmə tarü-mar,
Sənin də tarlanı bir gün sel basar.
Qüvvətli olsan da, qəlbi yumşaq ol,
Şahlıqdan yaxşıdır Tanrı qoyan yol

Alman filosofu Kantın [190] lovğalıqla bağlı söylədikləri fikirlər (Başqalarına münasibətdə öhdəliklərinizi yerinə yetirərək insana nifrətə, lovğalığa, qeybətə, insanlıq borcuna və sevgiyə qarşı yönələn kinayəyə qarşı çıxın) Qurani-Kərimdəki "Təkəbbürlüləri Allah sevməz" müddəasından qaynaqlanır ki, bu da öz əksini Nizamidə [141,s.283]:

Çinli tarlasını etmə tarü-mar,
Sənin də tarlanı bir gün sel basar.
Qüvvətli olsan da, qəlbi yumşaq ol,
Şahlıqdan yaxşıdır Tanrı qoyan yol

Və Aşıq Şəmşirin lovğalığı, yekəxanalığı, elmsizliyi, savadsızlığı qamçılamasında tapır:

Alimin yanında göstər adamlıq,
Arif məclisində eyləmə xamlıq.
Görürsən qüvvətin yox bir tutamlıq,
Gəl danışma yekəxana, nə lazım [3,s.169].

"Bir-birinizə əl tutun" fikrini əldə rəhbər tutaraq yazır:

Telin qızıl olsa, birçəyin gümüş,
Yoxsula əl uzat, mərd ilə görüş,
Enər nərdivanın birdən, başa düş,
Hədyan demə ona-buna, nə lazım [3,s.207]

Xalqımızın etik şüurunda əsrlərlə formalaşıb bu günümüzə yetışən əxlaqi dəyərlər aşığın dilində öz yerini alır. Ustad etik fəlsəfəmizin lüğətinə "gözütoxluq" kimi dəyərlər gətirir:

İnan meylim yoxdu özgə bağında,
Öz bağçamın boldu barı, bəsimdi.
Qailəm qəlbimin qoca çağında,
Alması, heyvası, narı bəsimdi [3,s.220].

Aristotelin etik kredosundakı aşağıdakı fikirlər: (ehtirası nəzarətə alaraq onun nə çoxluğuna, nə də azlığına imkan verməyin; Həzz və əzablarda ölçünü gözləyin;) Aşıq Şəmşirin “Var evimdə gözəl qarı” ifadəsinə tən gəlir:

Gövhər sərrafıyam bez axtarmıram,
Hər alçaq baxışlı göz axtarmıram.
Sənin kimi gəlin, qız axtarmıram,
Var evimdə gözəl qarı bəsimdi [3,s.220].

Aşıq Şəmşir lətif gəraylıları ilə insanın bu dünyaya gəlişindəki missiyasını oxuculara çatdırır, ilahi eşq odunda yanmağın fəzilətindən söhbət açır:

A dərdbilməz, eşq oduna
Heç alışıb yanırsanmı.
Söylə görüm bu dünyadan
Sən də bir şey qanırsanmı?! [3,s.295].

Aşıq Şəmşir qoşmalarında “bütün əksliklər vəhdət yaratmır” müddəası özünə yer alır:

Qar, sarımsaq, soğan bala yaraşmaz,
Duz qənd ilə şirin ola-yaraşmaz.
Günü keçmiş cavan ala yaraşmaz,
Belə sevda xətti-çala çətindi [1,s.89].

Aşıq Şəmşir yaradıcılığında etik dəyərlər təkcə qoşma və gəraylılarda deyil, eləcə də təcnislərdə özünü göstərir. “Ay ala-sarı” rədifli təcnisində xalq deyimi “İt yala hürər”i

yala sarı-yala tərəf kimi təqdim edərək mənəviyyatımızın bərpasına çağırır.

Ay nanəcib, nə irəngə düşmüsən?
Olubsan bəzəkli, ay ala-sarı...
Alçaq adam ucalanda sığışmaz,
Çəkər öz-özünü a, yala sarı [1,s.431].

"Nadanlıq" antietik dəyərin əsas xüsusiyyəti söz anlamamaqdadır:

Səp quşun birinə dən,
Birinə danış, birinə dan.
Yüz qanan əldən gedər,
Söz qanınca bir nadan [1,s.508].

İnsan mənəviyyatına aid olan etik dəyərlərdən biri də vətənpərvərlikdir ki, bu da Aşıq Şəmşir şeirlərində tez-tez öz yerini alır:

Sadə danış, coşma belə nər kimi,
Xam olma dünyadan bixəbər kimi.
Vətənin yolunda bir əsgər kimi,
Heç çıxdınmı bərkdən-boşdan danışaq
[1,s.329].

Yaşanılan bir ömrü mərdcəsinə yaşamağın, insana verilən ömrü elə insan kimi də yaşamağın yolunu göstərir:

Şəmşir gərək mərd ocağın qalasın,
Hər kəs çəkər oz dilinin bəlasın,
Qoy səni şir yesin, şir parçalasın,
Tülkü kölgəsində yatana kimi [1,s.316].

“Elin sevimli sənətkarı” məqaləsində Məmməd Aslan [106] Aşıq Şəmşir timsalında insanlığa xas olan etik dəyərlərə – “insana məhəbbət”, “həqiqət” – əhəmiyyət verilməsini önə çəkir, eləcə də “yalan, böhtan, şər” kimi antietik hallar bir söz sərrafı kimi araşdırılır:

İnsan ol, insana bəslə *məhəbbət,*
Şəmşir bu barata uymuşdur əlbət.
*Həqiqətə* çalış, olma bədniyyət,
Nə *yalan*, nə *böhtan*, nə *şər* arzula.

“Həqiqətə yetməyin yolu ağır olur” həqiqətini Aşıq aşağıdakı misralarda dilə gətirir:

Getdi, o qaranlıq dumanlar keçdi,
Dünyanı qərq edən tufanlar keçdi.
Şəmşir, nə dövranlar, zamanlar keçdi,
İndi doğru həqiqətə yetişdim [1,s.313].

“Qazan!” rədifli gəraylının təkcə bir bəndində “Sarsağa bax, kamala yet” gizlənmiş fikir, mətləb oxucunu sufi şairi, filosofu *Mənsur Həllacın* sirli dünyasına aparır. Həllac təsadüfən demirdi ki, iblisin etdiklərini mən etmədim və iblisi mənə göstərməklə Allahım məni düz yola hidayətləndirdi:

Namərdi gör, sən mərdlik et,
Sarsağa bax, kamala yet.
Yaxşıların dalınca get,
Təmiz fikir, xəyal qazan [1,s.365].

Dostluqla bağlı, yaxşılıqla bağlı, namusla bağlı məsələlərdə – mənəviyyat məsələlərində Aşıq Şəmşir fikirləri yerinə düşür:

Yol vermə dostunu pula satmağa,
Namusu əlindən yerə atmağa.
Yamanlığı tutsan nə var tutmağa,
Yaxşılıq çətindi, başar, – deyəllər [2,s.331].

Rəzillik mərdliyin əksi kimi çıxış edən etik dəyərlərdən sayılır. Bədii ədəbiyyatda belə dəyərlər yaratmaq ustad sənətkarlara xasdır:

Qoruq olmaz xasiyyətə, adətə,
Zənanədi, tez aldanar şöhrətə.
Yüz qram arağa, bir kabab ətə,
Dostunun sirrini satanlar da var [2,s.264].

Ustad "Üzünə" gəraylısında "qeybət" kimi antietik dəyərin cəmiyyət üçün nə dərəcədə zərərli olduğu anladır, xəbisləri açıq-aşkar iki əliylə şapalaqlayır:

Bir kimsədən etmə qeybət,
De nöqsanı ağ, üzünə.
Lənət olsun xəbislərin,
Sol gözünə, sağ üzünə [1,s.367].

Həyatda hansı antietik dəyərlərə malik insanların arxasına düşməməyi nəsihət edir, mənəviyyatımızın düzgün qurulmasına xidmət edən qoşmalar yaradır. “A dünya” qoşmasında olduğu kimi:

Şəmşir getməz hərzə səsin dalınca,
Nanəcibin, müxənnəsin dalınca.
Mən sürünsəm filankəsin dalınca,
Başımda qiyamət qopar, ay dünya [2,s.147].

Ustadın bəzən bir qoşma bəndində kişilik, dostluq, səxavət kimi etik-əxlaqi dəyərlər harmonik şəkildə çulğalaşır.

*Kişi* olan adam özünü öyməz,
Yaxşı *dost* olanı hər alçaq əyməz,
*Səxasız* xəzinə quruşa dəyməz,
Etmirəm dövlətə, vara etibar [2,s.104].

Aşıq Şəmşir üçün yaxşı adam olmağa din, iman mane olmur. Müxənnəsin – lütfü haram, qəlbi xain olanların “nə imanı”, nə də “dini” olur. “Var” rədifli qoşmada olduğu kimi:

Səndən dosta deyir, dostdan da sənə,
Utanmaz, üzünə irişər yenə,
Bilmirəm ki, qulluq edir nə dinə,
Müxənnəsin nə *imanı*, *dini* var [2,s.108].

Mənəvi tərbiyəyə ciddi önəm verən sənətkar “cahan”da, yer üzündə yaşayacaq dəyərləri – mərifət, sədaqət,

sənət, səxavət, hörmət – bircə-bircə sadalayaraq bu dəyərlərdən kənarda "özgə kar" axtarmır:

Şəmşir, aradığın bu sözdü əlbət,
*Mərifət, sədaqət,* ölməzdi sənət.
Yaşayar cahanda *səxavət, hörmət,*
Bundan qeyri daha *özgə kar* hanı? [2,s.186].

Aşıq Şəmşir yaradıcılığında antietik və antiestetik dəyərlərin birgə ortaya çıxdığı məqamlar üçün şeirlər mövcuddur ki, "Bəyənmir" rədifli qoşma bu qəbildəndir. Qoşmada xudpəsənd adamlarda mövcud olan, cəmiyyətin ziddinə gedən xüsusiyyətlər satirik bir qələmlə qamçılanır. Öncə bu nadanlıq Haqqla bağlı mərifətsizlikdən qaynaqlanır:

Atəşimi Araz axsa, keçirtməz,
Tülkü şiri, eşşək atı bəyənmir.
Nadan həqiqətdən la kəlmə bilmir,
Haqq göndərən salavatı bəyənmir [ 2,s.204].

Haqqla bağlı mərifəti olmayan xudpəsəndlərin estetik siması qələmə alınır. Gözəlliyin əksi kimi eybəcərlik estetik kateqoriyası şeir dilində işə düşür:

Burnu çərə, dodaq çərmək, qabandiş,
Çox gəlir əlindən yaramaz hər iş.
Görən eşidirmi yetirən gərdiş,
Bu eybəcər, hazaratı bəyənmir [2,s.204].

Ustad belə eybəcərliyə malik olanları bağışlaya bilir, hətta “yüz adam”a belə lağ edənlərə dözür. Amma bütün “eli”, “camaatı” bəyənməməyi o bağışlamır:

Atbuğlunun böyüyünə oxşardı,
Nadandı, qanmazdı, həm dilazardı.
*Yüzünə lağ etsə*, yenə nə vardı,
Bütün *eli*, *camaatı* bəyənmir [2,s.204].

Müqəddəs möminləri lotuların tanımaması məqamında təsəvvüfdə bəyənilən qəzəb, cəsarət etik kateqoriyası işə düşür. Belə lotular aşığın sərt, sərrast təpkisinə tuş gəlir:

Eşidənlər, bilmə məni günahkar,
Şəmşir ha əlindən çəkir dad-hazar.
Tanımır, murdardı – nə qeyrət, nə ar,
Müqəddəs mömünü lotu bəyənmir [2,s.204].

Daha bir antietik dəyər sayılan “yalan”, “fitnə” Aşıq Şəmşir yaradıcılığında ciddi qınağa çəkilir.

Doğrudan günahdır *yalan* danışmaq,
Danışana xeyri varmı yalanın,
Arasına yaxşı dostun, qardaşın
Görün başı sığışarmı yalanın [1,s.351].

“Yalan” antietik dəyərinin fəlsəfə tarixində yeri də çox qədimdir. Bu dəyər dini kitablarda da öz əksini tapır. Əsrlərdir ki, insanlar bu antietik dəyərdən xəbərdar edilir.

Həvvanı cənnətdən qovdular onda,
Üryan bədən qaldı çöl-biyabanda.
Məhəmmədə xəbər çatıb "Quran"da,
Ziyanı var, aşikarmı yalanın?! [1,s.351].

Mənəviyyat məsələlərinə, ailə-uşaq məsələlərinə çox həssas olan aşıq aşağıfdakı bənddə Allaha şükranlığını bir daha dilə gətirir ki, bu da övliyalıqdan irəli gəlir:

Şəmşirəm, istərəm bir beyt yazım,
Qənbərdən utanır həyalı üzüm
Ay qoca maralım, qoy yatsın quzum,
Allah verib hər murazım ikidi [1,s.360].

Etibar, vəfa kimi etik dəyərlər təkcə qoşma, gəraylı, təcnislərdə yox, Ustadın yığcam cinaslı bayatılrında da səlis şəkildə verilir:

Mən aşıq yaxşı yara,
Sağalar yaxşı yara.
Şəmşirin canı qurban,
Vəfalı, yaxşı yara[1,s.508].

Zülm edənlər, Fironluq edənlər, elə-obaya xeyir verməyənlər, işi-gücü elin malını yemək olanlar da Aşıq Şəmşirin od püskürən misralarına tuş gəlir:

Şəmşir, səf yazmayıb, bu sözü yazan,
Zülmlə bağ salma – olacaq xəzan.
O qədər şişəcək – olacaq qazan,
Zalım, el malını yeyəndə başın [2,s.397].

Bu gün milli mentalitet anlayışı tez-tez işlənir ki, bu da xalqın mənəviyyatının əsasında duran etik dəyərlər kompleksi kimi başa düşülür. Məhz bu milli etik dəyərlər islami dəyərləri də özünə birləşdirərək Azərbaycan mentalitetini yaradır. Elə Ustadın yuxarıdakı dəyərlər haqqındakı poetik dillə söylədiyi fikirləri tədqiq olunmağa layiqdir.

## 2.1.1. ƏDALƏT

Etik dəyərlər sırasında bu günkü ovqata uyğun ən mühümü ədalətdir ki, o da Aşıq Şəmşir yaradıcılığının nüvəsini təşkil edir. Bu dəyəri çalışdıq ki, Qurani-Kərimin ayələri və dahi Azərbaycan şairi Nizaminin ədalətlə bağlı şeirləri ilə müqayisədə təqdim edə bilək. Nisa surəsinin 135-ci ayəsində deyilir: “Ey iman əhli! Ədaləti qoruyan olun və Allah üçün şəhadət verin, hərçənd öz zərərinizə ya ata və ananızın və qohumlarınızın zərərinə olsun. Hər kəs üçün şəhadət verin, istər fəqir olsun ya dövlətli, siz şəhadət və hökmdə gərək heç kəsdən tərəfdarlıq etməyəsiniz, haqdan kənara çıxmayın ki, Allah onların hüquqlarının riayətinə daha üstündür. Və siz hökmdə və şəhadətdə nəfsin istəklərinə itaət etməyin ki, ədalət qorunsun. Əgər dilinizi əyib büzsəniz və ya boyun qaçırasınız hər nə edəsiniz Allah ondan agahdır”.

Hələ öz dövründə – XII əsrdə dahi Nizami Şərəfnamə poemasında [141,s.70] ədalətlə, insafla bağlı yazırdı:

Zülm ilə tutmaq olmaz bu cahanı, bu mülkü,
Mülkü ələ gətirmək yalnız ***insafla*** mümkün!

Ədalətlə bağlı Məidə surəsinin 42-ci ayəsində deyilir: “Onlar yalana qulaq asanlar və haram yeyənlərdir. Əgər yanına gəlsələr, aralarında hökm et və ya onlardan üz çevir. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Çünki, Allah ədalətlə hökm edənləri sevər!”.

Aşıq Şəmşir özü ədalət mücəssəməsidir. Bu ədalət həyatın müxtəlif tərəflərində özünü göstərir. Sözünü xəlvət deməyən Ustad, “cibində pulu çox olanları”, “qolu qüv-

vətli”ləri yoxsulu, yazığı incitməməyə çağırır. “Yaxşıdı” rədifli qoşmasında ədaləti gözləməyi tələb edir:

Şəmşirə kəramət, var hələ hörmət,
Hələ bir sözünü deməyib xəlvət.
Cibində pul görsən, qolunda qüvvət,
Yazığı, yoxsulu vurma, yaxşıdı [2,s.406].

Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poemasında “ədalət” etik dəyərinə aid şeir parçalarını təqdim edərək bu dəyərin Aşıq Şəmşir dilində necə səslənməsini fikirlərə çatdırmaq niyyətinə düşdük:

*Ədalət* müjdəsilə cahanı şad eylə sən,
İşlər gör ki, iş olsun, yurdu abad eylə sən! [137,s.98]

***

*Ədalət* təşnəsidir, inan bu gözəl diyar,
Ədl ilə iş görənlər əbədi özül tapar [137,s.98].

***

Boğdu cövrü, cəfanı, car çəkdi *ədaləti,*
Axır nəfəsinədək qorudu səadəti [137,s.101]

Xalqla ədalətli rəftar etməyənlərin sonda ədələtin tələsi ilə rastlaşacağı qoşma dilində ünvanına çatdırılır:

İnsafla dinləyin şeir yazanı,
Zəlil gördüm xalqa quyu qazanı.
Fitnə, böhtan yayıb yoldan azanı
Bir gün *ədalətin tələsi* tutar [1,s.201].

Öz şəxsi həyatında, ailə həyatında belə ədaləti qorumaq Ustadın həyat kredosudur. “Tərlanın yuvasına sarı buraxmamaqla” ən böyük ədaləti göstərə bilir:

Sinəm üstdə dərdi-hicran döyüşür,
Bədənim titrəyir, əlim üyüşür.
Mənim də tərlanım yadıma düşür,
*Yuva qura bilməz sar ürəyimdə* [3,s.204].

Başqa bir qoşma bəndində aşıq ədaləti etibarlılıqla birgə təqdim edə bilir:

Sən demə Şəmşirə dəli, görəndə,
Soruş əhvalını, bəli, görəndə.
Göz yumuram yad gözəli görəndə,
Sənə məhəbbətim var ürəyimdə [3,s.204).

Nizaminin ədalətlə əlaqədar bir neçə seçmə misralarını yerləşdirib onu Aşıq Şəmşir təfəkküründən süzülüb gələn fikirlərlə tutuşdurmaq qərarına gəldik:

Heç kəs gizlənə bilməz, bu göy qübbə altında,
Hər kəs öz mərdliyilə çatır şöhrətə, ada [137,s.107]

***

Cahanın qəddarlığı onsuz da bəsdir bizə,
Yalnız haqqı qoruyan şahlar nəfəsdir bizə [137,s.110]

***

Adil olsa şah əgər, hamı ona baş əyər,
Bəslər məhəbbətini bütün canlar, könüllər [137,s.111]

Daha bir etik dəyər – insaf haqqında Azərbaycan poeziyasında çox yazılıb. O cümlədən Aşıq Şəmşir yaradıcılığında antietik dəyər ölçüsünə, sinonimi "nəinsaf" olana çox yer ayrılır:

Güvənmə özünə, geymisən alı,
Şahiddir qarnında yoxsulun malı,
Səndən edəcəklər bir gün sualı,
Acgöz yediyini qusar, nəinsaf [2,s.107].

Bu yerdə Ənam surəsi, 152-ci ayədə oxuyur və heyranlığımızı gizlətmirik: "Yetimin malına xeyirxah məqsəd istisna olmaqla həddi-büluğa çatana qədər yaxın düşməyin. Ölçü və çəkidə düz olun. Söz söylədiyiniz zaman qohumunuz olsa belə ədalətli olun. Allahın əhdinə vəfa edin. Budur Allahın sizə sifarişi, bəlkə düşünüb öyüd-nəsihət qəbul edəsiniz".

Aşıq Şəmşir yaradıcılığında ədalət etik dəyəri mühüm yer tutur. "Bir zaman var" qoşmasında "Haqq-divanından, ədalət divanından söhbət açılır:"

Fəxrlənib "mənəm", – demə bu çağlar,
Sənin də gözlərin qalacaq ağlar.
Elin sinəsinə çəkdiyin dağlar,
Çəkilər sinənə, Haqq-divanı var [2,s.310].

Ümumiyyətlə, düzəni pozulmuş dünyamızda "ədalət" etik dəyərinin aşıq yaradıcılığında araşdırılmasına olan ehtiyac göz qabağındadır.

## 2.1.2. MƏRDLİK, KİŞİLİK

Mərdlik bir etik kateqoriya kimi aşıq yaradıcılığında xüsusi çəkiyə malikdir. Mərdlik kateqoriyası adı altında ləyaqət, cəsarət, səxavət, nəciblik kimi dəyərlərin birgəliyi başa düşülür. Müəyyən məqamlarda Aşıq Şəmşir poeziyasında mərdlik mərd atanın oğlu olmaqdan duyulan qürurdan, mərd insanlara "nökər" olmaq böyüklüyündən ibarətdir:

Ovçu gərək xədəngini mərd ata,
Şəmşir, səni halal əkib mərd ata
Görsəydim ki, süvar olub mərd ata,
Qapısında nökər olardım mən də [3,s.258].

Həya kimi etik dəyər Aşıq Şəmşir şeirlərində birgə səslənir. Həya dərsini həyasızlardan alan Aşıq Şəmşir şeirlərini oxuyarkən Mənsur Həllacın iblisin halına acımağı, mərifəti, elmi, həyanı iblisin etdiklərinin əksini edərək bu mərtəbəyə çatması yada düşür:

Xalq üçün səbəbli – sayalı oldum,
Halal paylı, halal mayalı oldum.
Həyasız görəndə həyalı oldum,
Qoy görməsin, çəkdim üzə pərdə mən [2,s.207].

"Həya" etik kateqoriyasına aşıq poeziyasında tez-tez müraciət olunur ki, Aşıq Şəmşir üçün həyadan məhrum olanlar – "qocanı, cavanı, alimi, arifi" saymayanlar fikrimizcə ətlə dırnaq arasındakı tikana bənzər və bu tıkan diyardan kənar olmalıdır:

Şəmşirdən utanmır, həyanı saymır,
Qocanı düşünmür, cavanı saymır.
Alimi, arifi, qananı saymır,
Sevməz inan, bizim diyar həyasız [1,s.16].

"Səxasızın şərbətinin tamı olmaz" müddəası aşağıdakı kimi üzə çıxır:

Dahi bildim həm anamı, atamı,
Yaman gündə məni əldən atamı?
Meyl eləmə, içmə, olmaz; dedim ki,
Səxasızın şərbətinin a tamı [2,s.523].

Bu misralar Nizaminin aşağıdakı misraları ilə həmahəng səsləşir:

Nə həddindən artıq paylar malını,
Nə də xəsisliklə pozar halını [141,s.65].

Mərdlik etik kateqoriyası, etik dəyəri Aşıq Şəmşir dilində bayatılarda da öz əksini tapır. Bayatı dilində əxlaqi dəyərlər xalqa çatdırılır:

Mən aşıq, mərd analar,
Mərd oğul, mərd analar.
Mərd açar süfrəsini,
Meydanda mərdanalar [2,s.512].

Növbəti bayatıda isə "yüz namərd" bir mərdə qurban verilir:

Qiymətin versə dağa,
Nur yağar, versə də Ağa.
*Yüz namərdi* bir mərdin
Yolunda ver sadağa [2,s.512].

Bir mərdə yüz namərdin qurban getməsi növbəti bayatıda açıqlanır. "Bir mərd min evi saxlar"la bu açıqlama öz yerini alır. Bir mərd min evi saxlarsa, ona yüz namərdin qurban getməsi təbii görünür:

Sirr sözü dil saxlayar,
Bülbülü gül saxlayar.
Mərdimazar ev yıxar,
***Bir mərd min ev saxlayar*** [2,s.516].

Mühüm bir etik kateqoriya kimi mərdlik, onun xarakterik xüsusiyyətləri Aşıq Şəmşir poeziyasında incələnir:

İqbalı çağıran daməndə qalmaz,
Müşküldən qurtarar bəli dostunu.
Mərd olanın səxavəti az olmaz,
Qoymaz büdrəməyə əli, dostunu [1,s.69].

Mərdlik etik kateqoriyası Aşıq Şəmşir yaradıcılığında nakəslik, namərdliklə üz-üzə qoyulur, "səxavəti mərdə göstərəsən", Quran-Kərimdə deyildiyi kimi "malınızı beyinsizlərə, dindən çıxmışlara sərf etməyin" müddəasını gündəmə gətirir:

Şəmşir, can çürütmə dərdin yolunda,
Nə nakəsin, nə namərdin yolunda.
Nəyin var verəsən mərdin yolunda,
Xəzinən olsa da qıyasan gərək [1,s.85].

Aşıq Şəmşirin cinaslı rübailərində mərdlik, bu dünyada yaxşı ad qoymaq kimi etik dəyərlər birgə səslənir:

Yaxşı səngər çəkdir, yaxşı da qala,
Mərdin ocağını yaxşı da qala
El sözüdü: yaman, sənə nə qaldı?
Qoy adın cahanda yaxşıda qala [1,s.515].

Aşıq Şəmşir üçün kişiliyin bir mühüm əlaməti kimi "top-tüfənglə atışmaq"dır ki, bu da aşıq-ozan-varsaq sənətinin döyüşçülüklə, Şah İsmayıl Xətai dövründəki şairliklə bağlı ideyalardan biridir:

Kişi gərək hər bir işə qatışa,
Yeri gəlsə top-tüfənglə atışa.
Gövhər sözüm buraxılmır satışa,
Analı arıda quru şan olmaz [2,s.328].

Mərdlik etik anlayışı o qədər geniş anlayış həddinə gəlir ki, orada Ustadın fikrincə bir neçə parametr düz olmalıdır. Buraya etibar, doğru söz, düz ilqar, namus, qeyrət, ar aid edilir ki, hər bir dəyərin də öz anlamı var:

Lazım budur: *etibarın* düz ola,
*Doğru sözün, düz ilqarın* düz ola.
*Namusun, qeyrətin*, arın düz ola,
*Səxavətli* bir mərd igid oğlu tək [2,s.319].

Eləcə də hadisələri qabaqlamamaq, qabaqcadan öyünməmək, lovğalıq etməmək, "cücəni payızda sayarlar" prinsipinə əsaslanaraq fikir bildirir:

Kişi odu, nə öyünə-dəm vura,
Qeyrət zəngi ürəyində cəm vura.
Vaxtı gəlsə kim bilir ki, kim vura,
Demirəm: qüvvətli qoçam, danışam[2,s.268].

"Mərdlik səxavət etik dəyəri ilə birgədir" müddəası Ustad aşığın qoşmalarında tez-tez təsadüf edir.

Dar gündə əl tutmaq Əlidən qalıb,
Səxalı mərd Şahsüvara deyərlər.
Açıq olar mərd igidin süfrəsi,
Kişi gələr xeyrə, şərə deyərlər [2,s.251].

Mərdlik, mərd kimi etik dəyərlər və onların əksi olan namərdlik, namərd kimi antietik dəyərlər Aşıq Şəmşir yaradıcılığında müxtəlif şeir formalarında öz əksini tapır. "Mərdin misi namərdin qızılından üstündür" fikri cinaslı bayatıda da özünə yer alır:

Mən aşiq, qızıl alma,
Bağında qızıl alma.
*Mərddən* mis al, xeyir gör,
*Namərddən* qızıl alma [2,s.8].

Əxlaqı bir dəyər kimi mərdlik Ustada görə dar gündə köməyə çatmaqdır:

Şəmşir ilqar üçün keçib canından,
Bəzən hayalanıb adı-sanından.
Dar günündə namərd qaçar yanından,
Mərd igid əlində tay götürərmiş [2,s.69].

Mərdliyə məxsus mühüm elementlərindən biri də səxavətdir ki, bu öz əksini "Tikə də bilməz" təcnisində tapır. "Mərdin əleyhinə olan etik dəyər nakəslikdir" müddəası burada parlaqcasına verilmişdir:

Şəmşir, sənə mənzil olsun min acı,
Bir şirinə qatıb içmə min acı.
Mərd olanlar doyuzdurar min acı,
Yüz nakəs verməyə tikə də bilməz [1,s.475].

Bütün etik dəyərlərin əksi olduğu kimi səxavət etik dəyərin də əksi olan xəsislik haqqında da Ustadın fikirləri mövcuddur. Cəmiyyət üçün xəsisliyin necə böyük bəla olduğunu şeir dilində, sadə və anlaşıqlı bir tərzdə oxuculara çatdıra bilmək Aşıq Şəmşir dühasına xas olan məziyyətdir:

İlqarda, insafda kim olsa naşı,
Yaxşılıq etməyə gətirməz başı.
Nakəs bir dağ kimi yığsa qumaşı,
Möhtaca bir qırıq bezi də verməz.

***

Şəmşir, xəbislərin şərbəti acı,
Haramdı quldurun bacı-xəracı.
Kimsənə olmasın namərd möhtacı,
Sən şəkər istəsən duzu da verməz [1,s.138].

"Səxavətə söykənməyən var-dövlətin ehsanı olmaz" müddəasını ortaya qoyan Ustad "gec-tez səxavətsiz varın əldə qalmayacağı" qənaətini oxucusuna çatdırır:

Nə qədər olsanız dünyada harın,
Olarmı ehsanı səxasız varın?
Xəzinə sahibi mülkədarların
Qapısında dana qaldımı? Yox-yox! [1,.s.142].

Azərbaycan etik fəlsəfəsinin lüğətində bir mühüm kateqoriya da mövcuddur – kişilik kateqoriyası. Bu kateqoriyaya xas olan əlamətlər ədəbiyyatımızda, klassik şeirimizdə yeri gəldikcə öz əksini tapmışdır. Aşıq Şəmşir yaradıcılığında da bu mövzunun kifayət qədər yer alması bizi araşdırmalara sövq etdi. "Gərək" rədifli qoşmada bu kateqoriyaların tərkib hissəsi kimi sədaqət, düz ilqar göstərilir:

Min fikirdən sənə zərrə nəf olmaz,
Kişidə sədaqət, düz ilqar gərək [1,s.95].

Başqa bir "Qaydadı" rədifli qoşmada kişiliyin bəzi qaydalarına toxunur, şeytana xas olan xüsusiyyətlərə lənət oxuyur, "kişilik bütöv sözdədir" müddəasını dilə gətirir:

Şəmşir çoxdan deyib ilana lənət,
Şeytan kimi ara vurana lənət,
Fırıldağa lənət, yalana lənət,
*Kişi bütün olar sözdə, qaydadı* [1,s.121].

"İlqar gərək" qoşmasında sədaqət, düz ilqar, kişilik dəyərləri bir aradadır:

Min fikirdən sənə zərrə nəf olmaz,
Kişidə *sədaqət, düz ilqar* gərək.
Bəxtin kəskin ola, sözün işləyə,
İnsanda bir tale, bir iqbal gərək [2,s.95].

Kişilik etik dəyərinin izahı Aşıq Şəmşir dilində "Müşkülün fikrini çəkməkdir":

Yaxşılıq bir evdi, lazımdı tikmək,
Xatiri, hörməti olarmı tökmək?!
*Gərəkdi müşkülün fikrini çəkmək*
Kişiliyin əzəl budu nişanı [1,s.66]

Mərdlik mücəssəməsi olan Aşıq Şəmşir öz müasirləri tərəfindən vəsf olunur. Aşıq Hüseyn Saraclının [18] "Dədə Şəmşir" gəraylısında olduğu kimi:

Söz sinəndə coşa, görüm,
Öz sazınla qoşa görüm.
Səni yüz il yaşa görüm,
Mərdsən mərdə, Dədə Şəmşir!

"Keçər" rədifli gəraylıda mərdlik anlayışı yenidən gündəmə gəlir. Namərdlik antietik dəyərin açıqlanmasını verərək, namərdliyin ən böyük xüsusiyyəti "dar gündə gözünü yummaqdır" fikrini ortaya qoyur:

Mərdanələr varsa harda
Olsun əli xeyir-karda.
Namərd səni görsə darda,
Gözlərini yumar, keçər [2,s.445].

Dava günü yandan ötməyən sədaqət nümunəsi göstərir:

Şəmşir səndən ötməz yandan,
Sədaqətli mehribandan.
Dava günü inan, candan,
Qəlbi sənə yanar keçər [2,s.445].

"Mərdlik səxavətlə bir yerdədir" anlamını və "yıxılana balta çalmazlar" atalar sözünü poetik bir dildə oxucusuna çatdırmaq Ustada xas sənətkarlıq nümunəsidir:

Yeri gəlsə söz verəsən sözsüzə,
Əlin açıq ola çörəyə, duza.
Bir oğul ki, *yıxılanı durğuza*,
Belə mərdə qadir olan yar olsun [1,s.356].

Mərdlik etik dəyəri özündə səxavəti, ölkəsinin firavan yaşamaq istəyini ehtiva edir:

Mərddə səxa gördüm, igiddə hünər,
Mərdlər ölkəsini firavan istər.
Mərifət düşünər sahibi-dəftər,
Alimlər, ariflər, sizə aşiqəm [1,s.297].

“Mərdin ocağı ilahidən yanar” poetik deyimini gündəmə gətirən aşıq “bu ocağın yanmasının ilahidən olduğundan yarımçıq yana bilməz” qənaətinə gəlir:

Şəmşir, tutduğu səf hamı işə yanar,
Zərrə qığılcımdan ha meşə yanar.
Mərdlərin ocağı həmişə yanar,
Sənə kim deyər ki, qala yarımçıq [1,s.476].

Aşıq Şəmşirin bir qoşma bəndində bir neçə etik dəyərin, bir neçə fəlsəfi kateqoriyanın birgə səslənməsinin şahidi oluruq. Ustad Bakıda müalicə alarkən Tibb İnstitutunun gənc müəllimi (Hal-hazırda ATU-nun dosenti – Red.) Malik Şükürova həsr etdiyi “Malikin” qoşmasında “mərdlik”, “comərdlik” kimi etik dəyərləri dialektikcəsinə irsi-genetik qanunla harmoniyada verir. “Övladı mərd olar comərd atanın” ifadəsi ilə irsi-genetik qanunların həmişə var olacağı inamını gənc nəslə çatdırır:

Övladı mərd olar comərd atanın,
O cümlədən, var qüdrəti Malikin.
Tərlan olmalıdı tərlan balası,
Aşikardır məharəti Malikin [1,s.271].

Haqq divanı, ədalət məhkəməsi anlayışları ustadın şeirlərində eyni anlamdadır. “Ədalətə söykənən dünyəvi dövlətin sabitliyi daimidir” fikrini poetik bir dillə ünvanlayır:

Allah buyuranı qanunda buyur,
Kimsənin qəlbində olmasın qürur.
Şəmşir, ədalətdə həqiqət budur,
Daim yaşar Haqq divanı tanıyan [1,s.274].

## 2.1.3. CƏSARƏT

Aşıq yaradıcılığında yuxarıda haqqında danışdığımız etik dəyərlər cəsarət etik dəyəri olmadan yarımçıq sayılar. Bu baxımdan "cəsarət" etik dəyəri haqqında qədim yunan filosoflarından üzü bəri deyilənlərə qısa bir səyahət pis olmazdı. Mühüm bir etik kateqoriya hesab olunan cəsarət haqqında Aristotel deyirdi: "Belə ki, cəsarətli, sözün əsl mənasında, görünür, o adamdır ki, o, ən gözəl ölümü və insanı ölümlə hədələyən hər bir şeyi qorxu bilmədən qarşılayır. Daha sonra cəsarət müəyyən fəaliyyəti seçib, o şeyin qarşısında duruş gətirir ki, o, çox gözəl şeydir, yaxud ona görə ki, bunun əksinə hərəkət etmək rüsvayçılıqdır" [14,s.81] Cəsarət qoçaqlığa və qorxuya təsir edən şeylərlə də əlaqədardır, ancaq o, nə bu, nə də o biri ilə eyni dərəcədə əlaqədar deyil, lakin ən çox qorxu ilə bağlıdır. Doğrudan da, kim təhlükələr zamanı soyuqqanlı olub, özünü necə lazımdır elə aparırsa, o, daha cəsarətlidir, nəinki şəraitlə bağlı ürəklənib, cəsarətli olan adam. Deyildiyi kimi cəsarətli adamlara əzab-əziyyətə mərdliklə dözdüklərinə görə hörmət edirlər. Bax buna görə cəsarət əzab-əziyyətlə əlaqədardır və belə adam haqqına olaraq təriflənir; doğrudan da, əzab-zəiyyətə davam gətirmək, özünü həzdən saxlamaqdan daha çətindir [14,s.88].

"Cəsarət" etik kateqoriyasının Aşıq Şəmşir dilində bəzi cəhətləri açıqlanır. Belə ki, cəsurluğa xas olan cəhətlərə aşığın dilində aşağıdakılar aid edilə bilir: cəsur sirr açmaz, hədələrdən geri qaçmaz, cəfadan və işdən çəkinməz.

Cəsur açmaz, saxlar sirri,
Hədələrdən qaçmaz geri.
Qoçaq adam düşsə yeri
Ona cəfa – iş də birdi [2,s.469].

Aristotelin Nikomax etikasında qəzəbi cəsarətə aid edirlər, çünki o adamları da cəsarətli hesab edirlər ki, onlar sanki yaralı heyvan kimi qəzəb içində özlərini təhlükəyə atırlar, belə ki, cəsarətlilər də qəzəbli olurlar, doğrudan da, qəzəb insanı təhlükəyə daha çox təhrik edir. Homer də buradan çıxış edərək – "qəzəb ona güc verdi", "bu ona güc verib, onu coşdurdu", "qanı qaynadı" ifadələrini işlədir, zira bütün bu əlamətlər, görünür ki, ehtirası, qəzəbi və coşqunluğu göstərir [14].

Qarşıya dağ gəlsə, bacar aşasan,
Yer var ki, susasan, yer var *coşasan.*
Şəmşir, sən nə qədər ömür yaşasan,
Daha pis günlərdən söz düşə bilməz [1,s.115].

Başqa bir məqamda cəsarət təmkinliliklə birgə verilir. "Təmkinə söykənməyən cəsarət yarımçıqdır" fikrini qabardır:

Qarşıya dağ gəlsə, bacar aşasan,
***Yer var ki, susasan***, yer var coşasan.
Şəmşir, sən nə qədər ömür yaşasan,
Daha pis günlərdən söz düşə bilməz [3,s.185].

Aşıq Şəmşir üçün kişiliyin mühüm şərti kimi cəsarət etik kateqoriyası götürülür ki, cəsarətsiz kişi “bivec qadına” belə dəymir:

Adam bar ki, böhtan yardır adına
Cəsarətdə dəyməz bivec qadına [3,s.263].

Aristoteldə [14,s.86-87] qəzəbi etik kateqoriya hesab olunan cəsarətə aid edirlər, çünki o adamları da cəsarətli hesab edirlər ki, onlar sanki yaralı heyvan kimi qəzəb içində özlərini təhlükəyə atırlar. Belə ki, cəsarətlilər də qəzəbli olurlar, doğrudan da, qəzəb insanı təhlükəyə daha çox təhrik edir.

Qəzəb, təbii olaraq, insanların qəlbini ağrıdır, intiqam isə onlara zövq verir, lakin hər kim bu niyyətlə davaya başlayırsa, o, cəsarətli yox, davakardır (makhimas) amma o, ona görə belə etmir ki, bu çox gözəl şeydir, həm də ona görə yox ki, bunu ağıl hökm edir, bu ancaq qəzəbdən doğan bir şeydir, bununla belə, onda, hər halda cəsarətə yaxın nə isə var.

“Var acığın” rədifli qoşmada qəzəb acıq adı ilə pislənilir. “Acıqlı başda ağıl olmaz” Azərbaycan xalq deyimi Aşıq Şəmşir dilində aşağıdakı kimi səslənir:

Kəllənə qan vurur, olursan dəli,
Adam yoldan çıxır, azır əməli,
Haqqa, ədalətə demirsən bəli,
Nə Allahdan xəbəri var *acığın* [2,s.352].

“Var acığın” qoşması tibbi etika üçün yerində işlədilmiş bir sənət nümunəsidir. “Xəstəliklərin əksəriyyətinin

kökündə sinir-psixik gərginlik dayanır” müddəası Ustadın qoşmasında öz dəqiq ifadəsini tapır:

Əsəbləri pozur, gözü qaraldır,
Cana artıq zərəri var acığın.
Ömrün kərpicini sökür, uçurdur,
Yaman kəskin düsəri var acığın [2,s.352]

Qəzəb anında insan orqanizmində baş verən hallar ardıcıl şəkildə sadalanır – kəlləyə qan vurması, başağrısı, dəli olmaq, ürək döyünməsi, qanda dəyişikliklərin baş verməsi, dişlərin qıcanması kimi fiziki-cismani şikayətlərlə yanaşı ruhi-psixik əlamətlər də ortaya çıxır (yoldan çıxmaq, əməli azmaq). Elə buradaca cəsarət etik dəyərinin müasir etikanın bir növü olan tibbi etika ilə harmoniyasının şahidi oluruq:

Qanın zəhər olur, döyünür ürək,
Fəlakət oduna düşəsən gərək,
Əlinə bir qazanc çatırmı görək,
Xeyri yoxdu, çox şəri var acığın.

***

Acıqda hövsələ yoxdur bir anlıq,
Başa ağrı verir, gözə qaranlıq.
Bürüyür qəlbini çirkin qaranlıq,
İndi burda nə yeri var acığın [2,s.352].

Qəzəb, acıq ustadın şeirlərində pislənilir. Qəzəb anında “lənət şeytana” deyib səbrə, təmkinə söykənməyin vacibliyini ortaya qoyur:

Lənət de adına – lənət şeytanın,
Ölüb-öldürməyə coşmasın qanın,
Ağlını başından alır insanın,
Gör nə yaman hünəri var acığın [2,s.354].

Acığın, qəzəbin hər şeyə mane olduğunu sonda nəsihətamiz bir şəkildə oxuculara ünvanlayır:

Götür nəsihəti Şəmşir babadan,
Mən də dərs almışam böyük butadan.
Özünü salamat saxla xatadan,
Qılıncı var, xəncəri var acığın [2,s.354].

İnsanın mənəvi cəhətdən təkmilləşməsi, kamilləşməsi yolunda Ustadın divanilərinin xüsusi rolu var. "Kölgəsi" rədifli divanidə lovğalıq, təkəbbür, tərifə uymaq kimi əxlaqa zidd dəyərlərdən söhbət açılır, sonda ürəkli olmaq və qorxaqlığa qarşı çıxmaqdan söhbət açır:

Özünü heç *tərif etmə*, qoy öysün ellər səni,
*Sayıq dolan*, aldatmasın hərcayı dillər səni,
Keçmə namərd körpüsündən – aparsa sellər səni,
Sığınma aciz dovşana, axtar aslan kölgəsi [2,s.12].

Ümumiyyətlə, etik kateqoriya olan "cəsarət" folklorumuzda milli-mənəvi dəyərlərimizin əsasında duran bir kateqoriya kimi gələcəkdə daha dərindən tədqiqat tələb edir.

## 2.1.4. SƏXAVƏT, GÖZÜTOXLUQ

"Cəsarət", "ədalət", "mərdlik" etik kateqoriyaları Aşıq Şəmşir dilindəki "səxavət", "gözütoxluq" kimi dəyərlərdən uzaq deyil. Bu baxımdan etik fəlsəfəmizin lüğət tərkibində daha bir söz də var: Gözütoxluq! Bu hər birimizin dilində olan bir söz! Yəni nəfsimizlə mübarizə! Bəs şeir dilində, bəs Aşıq Şəmşir dilində bu söz necə səslənir?!

Susama dünyanın zər köynəyinə,
Baş əymədin sultanına, bəyinə.
Gül olma cahanın bir qəpiyinə,
Çox görüb dövləti, varı gözlərin [2,s.435].

Əgər Dədə Şəmşir XX əsrdə nəfslə mübarizədə sərrast misralar seçirsə, XII əsrdə Nizami misralarının sehrinə düşüb övliyalıqdakı söz varisliyinə heyranlığımızı gizlədə bilmirik:

Boş sevdadan əl üzmək-böyüklük əlaməti,
Nəfsi ram edə bilmək-peyğəmbərlik qüdrəti [137,s.128].

***

Qorxuram ki, uyasan *nəfs* adlanan idbara,
Rəngini sənə verən üzüqara kaftara [137,s.135].

Gözü, könlü tox olanlar Aşıq Şəmşir şeirində tərif obyektinə çevrilirlər və onların tərifində, necə deyərlər sözə qənaət olunmur:

Şəmşir kimi gözün, könlün tox olsun,
Qaşın qələm, müjganların ox olsun.
Sənin vəsfin qoy hamıdan çox olsun,
Qızım, mən qıymıram az tərif sənə [2,s.366].

Şair Məmməd Aslan "Yüz ilin başıdı..." məqaləsində [108, 109] Aşıq Şəmşiri "gözü tox, ilhamı ovxarlı" Ustad kimi qələmə alır: "Əsil istək əllisindən sonra ayaq tutub yeriməlidir. Əllisi deyəndə elə bilmə əllisini sevib-sadalayıb əlli birincidən yapışmağı deyirəm, – bu çovdar işdir, – mən yaşı nəzərdə tuturam... Halal olsun Güllü nənənə, elə oturdu-durdu, xilqətin ona barat verdiyi gözəlliyi qızlığından gəlinliyinə elə qoruyub saxladı, gözüm tox qaldı, ilhamım ovxarlı:

Bir qoca yarım var, min qıza dəyər,
Nə gəlinə, nə də qıza aşiqəm".

## 2.1.5. HALALLIQ

Aşıq Şəmşir irsinin araşdırılması "halallıq" etik dəyərinin onun yaradıcılığında üstün yer tutduğunu göstərir. Başqasının halal qazancına göz dikmək, dövlət əmlakına əl uzatmaq kimi antietik dəyərlər özlüyündə etikanın öyrənmə obyektidir. Bu baxımdan Dədə Şəmşirin öyüdlərinin rolu mühümdür:

Özgənin malıdı söküb yediyin,
Şəmşirə bəs nədi yalan dediyin,
Var hələ qabaqda sual gədiyin,
Bağlanar yolların, iz yıxar səni [3,s.169].

Bu gün korrupsiyaya qarşı, xalqın sərvətini talayanlara qarşı ölkə Prezidenti İlham Əliyevin mübarizəsi hələ XX əsrin 70-ci illərində Aşıq Şəmşir tərəfindən ustalıqla qələmə alınmışdır. "Başın" rədifli qoşmada canavar xislətli, yalnız özünü düşünən, xalqının xeyir-şərinə yaramayan adamlar yerinə oturdulur:

Qurd olub, el malın alma dişinə,
Bir gün olar mat qalarsan işinə,
Gah dizinə, gah döyərsən döşünə,
Boynunu kəc yana əyəndə başın [2,s.397]

Bulaqların, çeşmələrin suyunu şərbətə bənzədir, bu şərbət suları ana südü ilə müqayisə edib halallıq istəyir bir qoşmada:

Tale mətahımı halal eyləsin,
Təbiət nakəsi halal eyləsin.
Cavanlıqda su içdiyim çeşmələr,
Şərbət sularını halal eyləsin [2,s.524].

Halallıq etik dəyəri ən çox övladlarına müraciətdə, şagirdlərinə müraciətdə səslənir:

Ocaqdan kül götür, yurddan sayanı,
Zəlil gördüm haram yeyib-doyanı,
Çağır haqqı, halal qazan mayanı,
Etmə bir quruşa xəyanət, oğlum! [2,s.440].

Movlana Cəlaləddin Ruminin "İçində Allah sevgisi olmayanlara, imanı naqis olanlara elm vermək quldurun əlinə qılınc verməyə bənzər" ifadəsi Aşıq Şəmşir dilində "Haramdan doğulan yekəlsə pisdir" anlamındadır:

Şəmşir sirr sözünü sizə andırar,
Həqiqət danışar, düz inandırar,
Halaldan törəyən el dolandırar,
Haramdan doğulan yüksəlsə pisdir [2,s.427].

Müftəxorluq kimi antietik dəyərlər xüsusilə din adamları arasında təsadüf edərsə, bu zaman onlar aşığın sərt qınağına tuş gəlir, hansı dinə mənsub olmasından asılı olmayaraq eyni tərzdə qamçılanır:

Əyilməz zəhmətə, nə də əməyə,
Hazırdılar ancaq müftə yeməyə.
Əbədilik cəhənnəmi görməyə,
Mən deyirəm: keşiş, qazı yaxşıdı [1,s.145].

“Mənim” rədifli gəraylıda Aşıq Şəmşir “əmək”, “halallıq”, “duz-çörək” kimi etik dəyərləri bir araya gətirir:

Eşqim elin həvəsidi,
Bu da Şəmşirin bəsidi.
Halal əmək bəhrəsidi,
Bu çörəyim, duzum mənim [2,s.477].

“Halallıqla bağlı dahilərin fikirləri eyni bir qəlibdən dir” müddəası ilə bağlı Nizaminin misraları Aşıq Şəmşir misraları ilə həmahəng səsləşir:

Çörək qazanıram mən, götürmə babalımı,
Min harama dəyişməm birgünlük *halalımı* [137,s.118]

Halal zəhmətlə dolanmaq, öz əl-qələmi ilə var qazanmaq, elin alqışını almaq Ustadın həyat kredosudur. Elə Ustad uzunömürlülüyü də bununla bağlıdır:

Tapanda özünə münasib yarı,
Şəmşir tək baxmaya fitnəyə sarı.
Qələm əl-hökmülə qazana varı,
Eldən alqış ala, bəxtəvər ola [2,s.388]

Başqasının əməyini mənimsəyənlər, özgə qazancını yeyənlər “Nə pis olarmış” rədifli qoşmada satirik dillə tənqid atəşinə tutulur, qınağa çəkilir:

Yetənə hərcayi deməyə nə var,
Sahib olmaq hazır əməyə nə var.

Özgə qazancını yeməyə nə var,
Bir gün ləkələnsə nə pis olarmış [2,s.392].

Halallıq Aşıq Şəmşirin həyat kredosudur. Aşığa görə "öz yerində halal aşı" başqalarının haram naz-nemətindən yaxşıdır:

Qusmalıdı o zülmkar-
Pul qazana şallağınan.
Döyüb, alıb el malını,
Hər kim yekə qarın ola [1,s.525].

***

Naşı təbib, gəl əl vurma yarama,
Meylim üçün qəmli hicran arama.
Halal nemətimi qatma harama,
Öz yerimdə halal aşla durmuşam [1,s.280].

Halallıqla, halal yolla, əməklə var qazanmaq onun həyat kredosudur, həyat amalıdır:

Cana gəldim, yoruldum söz deməkdən,
Əlimi üzmərəm eldən, köməkdən,
İstə mətləbini halal əməkdən,
Şəmşir, bu baratı yaxşı tanı, var [2,s.310].

Tamahkarlıq, nəfsə tabe olmaq, nəfslə mübarizə apara bilməməyin hansı sonluqlara gətirib çıxarması "Olarsan" rədifli qoşmada yerli-yerində işlənir:

Tamahın əmr edər səni pis yola,
Aldanıb sahibi-üsyan olarsan.
Xalq içində qoyma üzün xar ola,
Düşüb el gözündən yaman olarsan [2,s.311].

İslam dininin ümmətə öyrətdiyi, ümmətdən tələb etdiyi də səbrdir, dözümdür, halallıqdır. "Olarsan" rədifli qoşmada Aşıq Şəmşir dözümlülüyə çağırır, səbrli olarsansa bir gün "mətahına – halal əməyinə qiymət verən olacaq" müddəasını irəli sürür:

Şəmşir kimi sən də doğru, düz dolan,
Görmüşəm tarixdə enən, ucalan.
Bir gün mətahını olacaq alan,
Mahallar dilində dastan olarsan [2,s.311].

Bu məqamda İslam peyğmbəri Həzrəti Məhəmmədlə bağlı bir hədis yada düşür: "Bazarda öz halal südünü sata bilməyən bir müsəlman üzünü peyğəmbərə tutur və deyir: Ya Peyğəmbər, başqaları satdığı südə su qatır və onların südü yaxşı da alınır. Amma mən bunu etmirəm, südüm də alınmır. Peyğəmbərimiz ona: Səbr elə, darıxma deyir. Sonralar həmin şəxs Peyğəmbərlə görüşəndə Peyğəmbər Həzrətləri soruşur: İşlərin necədir? Həmin şəxs deyir ki, mən artıq bazara da getmirəm. Bir alıcı tapıldı, hər səhər inəyi sağıb südü ona aparır və südün pulunu da alıb evimə qayıdıram. Bu məqamda Peyğəmbərimiz həmin müsəlmana deyir ki, o vaxtlar mən sənə deyə bilməzdim ki, sənin halal südünü alacaq halal adam hələ bazara gəlməyib".

Ustad üçün əsas məsələ bu cismani dünyada neçə il yaşamaq yox, dünyada ləkəsiz ad qoymaqdan ibarətdir.

Şəmşir yaranıbdı ürəyi təmiz,
Yoxsula əl atdım, göstərmədim diz.
Gəzdiyim ellərdə halal saldım iz,
Səndə ləkəsiz ad qoymuşam, dünya [2,s.168].

## 2.1.6. DOSTLUQ

Aşıq Şəmşirin yaradıcılığında etik dəyər kimi dostluğun araşdırılmasına keçməzdən öncə bu dəyərin antik fəlsəfədə yeri, eləcə də dini kitablarda bu kateqoriyaya münasibəti nəzərdən keçirmək pis olmazdı. Aristotel [14] fəlsəfəsinə görə hər şey dost üçündür. Mükəmməl dostluq isə yaxşı adamlar və məziyyətlərinə görə bir-birinə oxşar adamlar arasında olur, zira özlüyündə yaxşı olan bu adamlar nə qədər xeyirxahdırlarsa, bir-birinə sözün həqiqi mənasında bir o qədər də fayda arzulayırlar. Xeyri dostlarından ötrü istəyənlərsə, daha yaxşı dostlardır. Aristotel fikirlərinin təsdiqi özünü Aşıq Şəmşir yaradıcılığında tapır:

Mərdlər qıymaz: tapa xata dostunu,
Cəhd elər kamına çata dostunu,
Nanəcib unudar ata dostunu,
Xilqəti hiylədir, şeytandımı gör [1,s.55].

Yaradıcılığında "dostluq" etik kateqoriyasının araşdırıldığı Aşıq Şəmşirin özünün bu etik dəyərə münasibəti tədqiqatçılar tərəfindən dönə-dönə yazıya alınıb: "Aşıq Şəmşir dostluqda vəfa, etibar, sədaqət rəmzidir desək səhv etmərik. Onun bir çox şeirlərində dostları, görüşdüyü insanlarla səmimi münasibəti öz əksini tapıb. Aşıq Şəmşir dostluq etməyi bacaran böyük şəxsiyyət olub" [56]

Dostluqla bağlı Qurani-Kərimimizdəki bir qisim surə və ayələrin Ustadın şeiriyyətində yer alması maraqlı olardı: *Nisa surəsi***.** 144-cü ayə: Ey iman əhli! Məbadə kafirləri *dost* tutub möminləri tərk edəsiniz. Məgər Allaha öz əleyhinizə açıq bir dəlilmi vermək istəyirsiniz?

*Yunus surəsi*, 62-ci ayə. “Bilin ki, Allahın dostları üçün heç bir qorxu yoxdur və qəmgin olmazlar” Dədə Şəmşir üçün Yer üzərindəki bəndə dostların tərənnümü öz yerində. Ən böyük dostsa şəriki olmayan Allahdır:

Çağırdığım kimsə laşərik təkdi,
Natəvan qullara o, təhər çəkdi.
Bir tale, birdə ki, qeyrət köməkdi,
Şəmşir kimi ixtiyarsız olan [1,s.59].

“Görəndə” rədifli qoşmada insanın müəyyən bir prinsipə, müəyyən bir amala xidmət etməsini önə çəkir. Prinsipsiz insanları “dost-düşməni tanımayan küçə itinə” bənzətməklə güclü satiradan istifadə edir. Çətin gündə dost qapısından ayağını kəsməyən etibar simvollu insanları da oxucusuna tanıdır:

Biqeyrət tanımaz qohumla yadı,
Aləmdə, ölkədə ucalmaz adı.
Küçə iti quyruq bular – qaydadı,
Düşmən də görəndə, dost da görəndə.

***

Nanəciblər tökər qaşın, qabağın,
Hörmətini alçaq tutar qonağın.
İgid kəsməz qapısından ayağın,
Dostunu yoxsul da, pis də görəndə [2,s.430].

Dostluq etik dəyəri ilə bağlı Ustadın qoşmaları ilə yanaşı təcnislərində də dəyərli fəlsəfi fikirlər özünə yer alır. Dost sözü Aşıq Şəmşir təcnislərində də oxucuların qəlbinə

yol tapır, "həqiqi dostlar arasında düşmənçilik mümkün deyildir" müddəasını təcnis dilində oxucuya çatdırır. "Yaxa gec" təcnisində olduğu kimi:

Novbaharda yerə yağış dost yağı,
Şəmşir, inan, olmaz dosta, dost yağı,
Kaş olaydım ətirlənmiş dost yağı,
Yarım məni yanağına yaxa gec [1,s.476].

Aşıq Şəmşir üçün vəfalı dostlar ara vuranlara əhəmiyyət verməməli, dostluğa qarşı uzanan əlləri vaxtında uzaqlaşdıra bilməlidir. Məhz belə dostluqlar davamlı, əbədi olar:

Vəfalı dost çətin dönər,
Yüz aranı pozan olsa.
Arzum budu, özü düşsün
Bizə quyu qazan olsa [1,s.400].

Dostluq haqqında fəlsəfi fikirlərini dilə gətirməklə yanaşı, dostluq məsələlərində sənətkar özü şəxsi nümunə göstərir. Səməd Vurğunla bağlı yazdığı "Bir də gəl" rədifli qoşmada olduğu kimi:

Dağın gül-laləsi:-Səməd, gəl,-deyir,
Coşğun şəlaləsi:-Səməd, gəl,-deyir,
Şəmşirin naməsi:-Səməd, gəl, -deyir,
Bizi salma intizara, bir də gəl [22].

Dostluq etik kateqoriyası Azərbaycan aşıq şeirində tez-tez müraciət olunan bir etik kateqoriyadır ki, Nizami Gən-

cəvi şeirlərindəki dostluq münasibətləri bu gün də dövlətlərarası diplomatiyada istifadəyə yararlı nümunələrdir:

Bir dost ki, dost ilə hey nifaq eylər,
O, demək, düşmənlə ittifaq eylər [140,s.42].

Aşıq Ələsgər poeziyasında isə "dostluğa xain baxan gözün kor olması" labüddür:

Aldanma dövlətə, uyma dünyaya,
Kəsb eylə özünə halaldan maya.
Zinakar, haramxor yetişməz baya,
Dosta xain baxan kor olacaqdı [17,s.203].

İnkar qanununa uyğun olaraq dostluğu kimlərlə qurmaq məsələlərində Aşıq Şəmşirin özünəməxsus qiymətli fikirləri mövcuddur. Aşıq Şəmşir yaradıcılığında dostluq üçün yaxşı adam axtarılır. Halal süd əmmiş yaxşı adam dedikdə verilən əhdə, deyilən sözə düz olan adam anlaşılır ki, o belə adamların sorağında Məcnundur – Allah eşqinin dəlisidir:

Hanı o halal süd əmən,
Sorağında Məcnunam mən.
Axtardığım odu həmən,
Əhdinə taraz görünür [3,s.360].

Ustad "zatı qırıqlardan dost olmaz" deyimini gündəmə gətirir:

Zatı qırıq keçir üzdən,
Uzaqlaşır xeyli bizdən,

Yaman gündə itir gözdən,
Qışda qaçır, yaz görünür [3,s.360].

Dostluğu haqq yolu kimi qiymətləndirən aşıq dosluğun ciddi etik dəyər olduğunu anladır. Bu ciddilik dost yolunun Haqq yoluna bərabər tutulmasındadı:

Dostun yolu haqq yoludu,
Bu yolları azanlar var,
İlqar verib qol çəkənlər,
Gün keçməmiş pozanlar var [3,s.300].

Dostluq etik kateqoriyasının tərkib elementləri *(namus, qeyrət, ar, ilqar, etibar)* Aşıq Şəmşir yaradıcılığında bircə-bircə sadalanır:

Bağban oldum, bağ becərdim dərmək üçün bar gərək,
Vəfalı dost arasında *namus, qeyrət, ar* gərək.
Sədaqətdə, məhəbbətdə doğru, düz *ilqar* gərək,
Sən də düz ol etibara *etibarlı* can kimi [1,s.36].

Başqa bir məqamda aşıq sözlə dostluq etik ünsürləri arasında əlaqəni, dostluqla yalanın bir araya sığmadığını təsvir edir:

Söz qızıldı, qədir bilən insana,
Xilaf desən, yaxşı dosta yaraşmaz.
Doğru sözün, axır çıxdı yalana,
Belə sifət sənə usta, yaraşmaz [1,s.56].

“Dostluq var-dövlətdən qiymətlidir” müddəası başqa bir “Ötməmiş hələ” qoşmasında ustalıqla verilmişdir. Bu gün də biz insanlara “ən böyük kapital pul yox, yollarında pullar xərclənən əsil dostlardır” həqiqətini bir daha yada salır:

Çoxlu ev tikincə, çoxlu dost qazan,
Nə vaxtı-vədəsi ötməmiş hələ.
Çıxacaq qarşına xoş əməllərin,
Dünyada yaxşılıq itməmiş hələ [1,s.58].

Sözü ilə əməli düz gələn Ustad həqiqi mənada çoxlu etibarlı dost qazanmışdır ki, elə buna bir nümunə kimi Hüseyn Kürdoğlunun [69] “Ağdabanda qonağam” rədifli qoşmasını göstərə bilərik:

Qismətimdə nə xoş günlər var imiş,
Sazlı-sözlü bir məkanda qonağam.
Dədə Şəmşir telli sazı dindirir,
Sənət yurdu Ağdabanda qonağam.

***

Ulu Şəmşir ucaldıqca ucalsın,
Koroğlutək şairlərdən bac alsın,
Qocalsa da, dağlar kimi qocalsın,
Deməsin ki, bu cahanda qonağam.

Ustad [22] “Şəmşirin naləsi- Səməd, gəl, – deyir” qoşmasında dost itkisini ağırlığını, dərinliyini vurğulayır:

Gözlədik, gəlmədin bizim mahala,
Sənə qıymaz idik, gəldin zavala.
Şəmşiri firqətin salıb nə hala,
Belə dağ çəkərmi qardaşa qardaş?

Başqa bir məqamda Ustad "dostu unutmağın cəzası ilahidəndir" fikrini ortaya qoyur:

Dost deyib dostunu unudanların,
Azar əqli-huşu, çaş düşər-düşər [1,s.65].

Etik dəyərlərin içində estetiklik axtarmaq və onu seir dilində oxusulara təqdim etmək Aşıq Şəmşir poeziyasına xasdır:

Namərd olan dostluq edər var gündə,
İgid olan dada yetər hər gündə,
Şəmşir, sən də mərdi çağır dar gündə,
Sığınasan mərd insana, gözəldi [1,s.82].

Aşıq Şəmşir yaradıcılığında dostluq, sədaqət ayrılmaz dəyərlərdir:

Zəhmət nə gözəldi dostun yolunda,
O da sənin kimi mötəbər ola.
Sədaqəti başa düşə dərindən,
Eşqdən, istəkdən baxəbər ola [3,s.89].

Dost yolunda çətinliklərə sinə gərmək lazımdır. Dostun qulluğunda can-başla durmaq lazımdır. "Göz-qaşınan" gəraylısında olduğu kimi:

Alim-arif qanar mətləb,
Bir işarə göz-qaşınan.
*İncimə*, dur yaxşı dostun
Qulluğunda can-başınan [2,s.507].

Bu məqamda Dədə Ələsgərin [17]:

Ya dost olma, ya zəhmətdən incimə,
Dost yolunda boran-qar olacaqdır.

– misralarının həmahəngliyi gündəmə gəlir. Elə həmin gəraylıda Ustadın “namərdlərlə, xain yoldaşlarla” dostluqdan qaçmağı, gen durmağı məsləhət bilən misraları işə düşür:

Saxlama şeytan hörmətin,
İtər bir gün əziyyətin.
Dolanmaq çətindi, çətin,
Namərdnən, xain yoldaşnan [2,s.507]

Dədənin dostluqla bağlı lətif kəlmələri onun ardıcılları tərəfindən daim təkrarlanır, yeniləşir. Sərraf Şiruyədə [161] olduğu kimi:

İgidin igidlik tacı dəyişməz,
Yüz calaq vursan da acı dəyişməz,
Çölü dəyişsə də, içi dəyişməz,
Başından tez elə ***paxıl dostunu***.

Aşıq Şəmşir "Kamil insanlar dostdan hər xırda bir şeyə görə inciməz, dostu itirmək, dostu unutmaq kamil şəxsə yaraşmaz" müddəasını ortaya qoyur:

Şəmşir səndən, inan, küsmür, Süleyman,
*Dostunu unutmaz kamil bir insan.*
Sel aparıb çaylaq olub Ağdaban,
Hələlik bağlıdı yolu sandığın [3,s.218].

Dostluqda etibarsız olanların iç üzü açılanda, necə deyərlər, paxırı açılanda aşağıdakı misralar yerini alır:

Sənsən bu dünyanın alçaq-qolayı,
Yaman gündə dostdan qaçan dolayı.
Sürtülüb, qəlbinin gedib qalayı,
Qatıq düşən misin paxırı kimi [1,s.143].

Ustad üçün qəlbi boşaldan "yersiz", şit zarafatlar, qəlbi incidə biləcək sözlər dostluğun qayçısıdır. Hərcayı danışığın başa bəla gətirdiyini şeir dilində oxucuya çatdırır:

Dostun arasında yersiz zarafat,
Sədaqəti, məhəbbəti puç eylər.
Yaxşı danış, başın olsun salamat,
Hərcayılıq bir dərdini üç eylər [1,s.222].

Elə bu məqamda yenə də Mövlan Cəlaləddin Ruminin dostluq münasibətinə aid, dostuğa mane ola biləcək şeylər haqqındakı fikirləri yada düşür: "Dostlarla danışarkən çox diqqətli və ehtiyatlı davranılmalıdır. Çünki söz var kəskin qılınc kimidir: dostluğu kəsər, öldürər, qəlbdə müalicəsi

mümkün olmayan yaralar açar, qəlb bağçasındakı yaşıllıqları, sevgi çiçəklərini qış mövsümü kimi öldürər. Söz də var yaz mövsümü kimidir: hər tərəfi bəzəyər, gözəlləşdirər” [120].

Dostluq eyni sənət sahibləri arasında olarsa onun cəmiyyətə faydası böyük olar ki, belə dostluqlar cəmiyyətin harmonik inkişafına kömək edər. “De gəlsin” qoşmasında Ustadın görüşünə çağırdığı insanlar həm şagirdlər, həm də sənət həmkarları, sənət dostlarıdır:

Sözlərimi mətləb qanana yetir,
Aman versə, çərxi-zamana yetir.
Seyidlər şairi Bəhmana yetir,
Sözündən qabaqca özü, de gəlsin!

***

Əyyub, Yaqub adlı bu iki qardaş,
Bunlar dost yolunda qoyandılar baş.
Belə insanlardan min olaydı kaş,
Şəmşiri görməyə yüzü, de gəlsin! [2,s.208].

Aşıq Şəmşir üçün ən etibarlı, vəsfini tərif etməyə sözün gücünün çata bilmədiyi dost – Allahdır. “Ayrılıram” rədifli gəraylısında bu çox gözəl şəkildə geniş oxucu auditoriyasına çatdırılır:

Şəmşir, oyan dostu səsdə,
Durdun doğru məram üstə.
Yaradandan mətləb istə,
Demə, tezdən ayrılıram [1,s.375].

Mövlana cəlaləddin Rumiyə görə elə həqiqi dost Allahdır ki, insan öz mən"ini Allah eşqində, Allahla dostluqda itirməlidir: "Mövlana həqiqi dostluğu belə anladır:

− Kor bir şəxs dostunun qapısını döyür.

Dostu "kimdir" deyə soruşanda "mən" deyə cavab verir. Dostu "Get! Hələ vaxtı deyil. Çünki mənim süfrəmdə xam insana yer yoxdur. Xam insanı ayrılıq atəşindən savayı nə bişirib nifaqdan qurtara bilər?"deyir.

O kədərlənərək oradan uzaqlaşır. Düz bir il dostunun ayrılıq atəşi ilə yanıb-yaxılır.

Sonra yenə gəlir. Dostunun evinin ətrafında gəzməyə başlayır. Qorxa-qorxa, ağzından ədəbdən kənar bir söz çıxmasın deyə qapını hörmətlə döyür.

Dostu "Kimdir?"deyəndə isə "Könlümü alan sevgili sənsən, sən!" deyir.

Dostu isə cavabında belə deyir:

− Madam ki indi sən mənsən, onda gəl! Çünki bu evdə iki "mən"ə yer yoxdur" [120].

Aristotelə görə dostluq cavanlarla qocalar arasında bir-birinəköməklə, utilitar maraqla bağlıdırsa, belə dostluq axıradək etibarlı sayılmır:

Qızlar baba deyir, gəlinlər əmi,
Mən çəkə bilmərəm bu qədər qəmi,
Kim olar mənimlə könül həmdəmi,
Qalmamış canımda hal, yazıq canım [1,s.304].

Ustad aşığın fikrincə dost olmaq üçün yoxsul, yaxud zəngin axtarılmır. Qonşuluqda olan yoxsul dost uzaqdakı zəngindən sənin adını daha da çox ucaldar.

Ustad aşığın "Bir gün" rədifli qoşmasında dostluq münasibətlərinin qurulması yolunda yoxsulluq və ya zənginlik fərqi yoxdur. Əksinə, yaxınlıqdakı yoxsul dostu qoyub "dağdan-arandan" zəngin dost axtarışına çıxmaq lazım deyildir. Elə burada Aristotelin "dostluqda utilitarlığa – fayda güdməyə yol verilmir" müddəasının XX əsrdə özünün təsdiqini tapmasını görürük:

Varsa qonşuluqda yoxsul bir çoban,
Ucaldar adını – fəxr elə onnan.
Gedib dost arama dağdan, arandan,
O çoban qaydına qalacaq bir gün [1,s.233].

Yarımfəslə yekun vuraraq düşünmək olar ki, Aşıq Şəmşir yaradıcılığı əsasında gələcəkdə "dostluq" etik dəyərinin folklorumuzda ciddi və geniş araşdırılmasına ehtiyac göz qabağındadır.

## 2.1.7. ZƏHMƏT

“Əmək prosesi nəticəsində meymunun əli insanın əlinə çevrilmişdir” kimi təhqiramiz ifadələrin hökm sürdüyü dönəmlərdə əməyin sinonimi kimi səslənən “zəhmət” xalqın Aşıq Şəmşir təkin milli-dini təəssübkeş övladlarının dilində öz həqiqi mənasını aldı. Bu gün elmi-texniki tərəqinin geniş vüsət aldığı bir dövrdə “iqtisadi etika” özünə yer alır. Down A, Sen A. K və başqaları [206, 214, 215] əməyə, əmək prosesinə əxlaqi cəhətdən yanaşmağı mühüm hesab edirlər. Elə əməklə bağlı filosofların bəzi fikirlərini oxuculara çatdırmaq maraqlı olardı: “İnsan cəmiyyətdə yaşayır, burada hər hansı bir işi görəndə şüurlu motivləri və məqsədləri rəhbər tutur, yəni, insanın təbiətə münasibəti fəal, dəyişdırici münasibətdir. Bu munasibət əmək alətlərinin tətbiq edilməsi ilə və daxilən insanın spesifik inikas forması – şüur ilə bağlıdır. Əmək məqsədəuyğun fəaliyyət olmaqla şüurlu xarakter daşıyır.

Hegel əməyi insan fəaliyyətinin əşyalaşması ilə təbiətin əşyasızlaşması proseslərinin vəhdəti kimi izah edirdi. Marksa görə, əmək ilk novbədə elə prosesdir ki, orada insan öz fəaliyyəti sayəsində əşyaların bir-biri ilə və təbiətlə mubadiləsinə vasitəçilik edir, bu mubadiləni tənzimləyir və ona nəzarət edir.

Beləliklə, əmək insanın mahiyyətidir – insan məhz əməyin sayəsində insandır. Əmək insanın spesifik yaradıcı quvvəsi, insanı bəşəriyyətə cevirən quvvədir. İctimai sərvət insan əməyi ilə yaranır” [98,s.331-332].

Mövlana Cəlaləddin Rumi həzrətləri “buludlar ağlayanda yerdə güllər açar” deyirsə Aşıq Şəmşir “zəhmət təri gül bitirər” fəlsəfi müddəasını irəli sürür, “zəhmətin

qiymətini Allah verər” prinsipini əsas tutur, “Allah səbrliləri, dözümlüləri sevir” Quran ayəsinə söykənir:

Şəmşir, işin yönü bəri düşəndə,  
Gül bitər zəhmətin təri düşəndə.  
Xof etmə kimsədən geri düşəndə,  
Çağır mərd olanı car öz yerində [2,s.421].

Hələ əski Sovetlər dönəmində marksist-leninçi nəzəriyyələrin hökm sürdüyü dövrdə də “əmək insanı ucaldar” adlı bir yaxşı deyim vardı. Elə o dövrdə də əmək çəkməyib, səfa çəkənləri Aşıq Şəmşir sosialist dövlətin qanunları ilə yox, İslam dininin ali dini kitabı Qurani-Kərimlə düz yola, əmək yoluna dəvət edirdi:

Yaydan görməlisən qışa ehtiyat,  
Belə söz “Quran”da, ayələrdə var.  
Niyə gəzim koyxaların köyşənin,  
İnsanlarda abır-həyalar da var.

***

Əfsanə bir işdi hazırdan yemək,  
Hər an yemək olmaz, çəkməsən əmək.  
Hanı, dar günümdə eləmir kömək,  
Əlçatmaz dağlarda qayalar da var [2,s.418].

Aşıq Şəmşir yaradıcılığında əmək, əmək prosesi, faydalı əmək, əməksevərlik kimi anlayışlar etik fəlsəfəmizin lüğətini zənginləşdirir. İstisu kurortuna çox çətinliklə çəkilən yollar və bu kurortdan xalqın rifahı üçün istifadəyə

yönələn misralarda "cəfa çəkməsən səfa görməzsən" deyimi yer alır:

Sıldırım dağlardan, sərt qayalardan
Xalq üçün çəkilən yollara əhsən.
Kam alarıq dərman olan sulardan
Gözəl əhvallara, hallara əhsən [3,s.222].

İnsanın əmək prosesində məkanı gözəllik baxımından dəyişdirməsi, bu gözəlliyin seyrindən doğan estetik zövq Aşıq Şəmşir poeziyasında kifayət qədər təsvir olunur:

Gördüm bu zamanın gözəl çağını,
Çiçəkli dağlarda inək sağını,
Aran çöllərinin ağ pambığını,
Görüb sevin, et tamaşa, bax indi [3,s.238].

Aşıq Şəmşir qoşmalarında əmək prosesindən doğan zövq yüksək ustalıqla qələmə alınır:

Böyük atalardan öyüd götürən,
Xalq üçün baharlı çiçək gətirən,
Xam torpağı yarıb çörək bitirən,
Kotanın ağzında əkər olaydım.

Aşıq Şəmşir yaradıcılığında əmək digər etik dəyərlərlə birgədir. İnsanın formalaşmasında materialistlərin iddia etdiyi kimi yalnız əmək kifayət edə bilməz. Bu formalaşma elmlə, bu formalaşma kitabladır. Ən dərin mənaların duyulduğu kitab isə səmavi kitabımız Qurani-Kərimdir:

Əməyə, sənətə, elmə uymayan,
Övladına təməl daşı qoymayan,
Kitab oxumayan, məna duymayan,
Ağlasın, gözləri yaş olsun gərək [1,s.157].

Bu gün müasir etikanın mühüm bölmələrindən biri sayılan iqtisadi etikanın əsasında dayanan anlayışların izahı üçün Ustadın hazır ifadələri mövcuddur. Əmtəənin dəyər ölçüsü kimi qiymətləndirilən pul haqqında Aşıq Şəmşirin "Puldumu? Puldu!" rədifli qoşmasının tədqiqi bu dəyər ölçüsünün özündə ziddiyyətli fəlsəfi çalarlar daşıdığının fərqinə varmış olarıq. Qoşmada pulun gücünün fantastikliyi önə çəkilir, "Pul ilə tikilib bəlkə asiman" – kinayəsi ilə bu magik güc diqqətə çatdırılır:

Pul kimi qüvvətli yoxdu pəhləvan,
Pul ilə tikilib bəlkə asiman.
Bütün yer üzündə varlıq yaradan,
Bu dünyanı quran puldumu? – puldu! [2,s.399].

Qoşmanın digər bəndində pula xas olan ziddiyyət, ikililik gah abad, gah viran qoymaq ziddiyyəti açıqlanır:

Ev tikib aləmi eyləyən abad,
Zəngin şəhərləri pul qoyur bərbad.
Atom bombasını etdirən icad,
Mahalı yandıran puldumu? – puldu! [2,s.399].

Pul əkslikləri özündə əks etdirən bir dəyər ölçüsüdür. "Pulda cənnət də var. Cəhənnəm də var" ifadəsi buna bariz nümunədir:

Pulda cənnət də var, cəhənnəm də var,
Hərdən günahsızı edir günahkar.
Bəzən günahkara olan köməkdar,
Ölümdən qurtaran puldumu? – Puldu! [2,s.399].

Pul haqqında Ustadın özünəməxsus ideyası da üzə çıxır. Aşıq Şəmşir pulu iblis və tamaha yoldaş hesab edir:

Uç yoldaşdı: tamah, iblis, bir də pul,
Arif sözlərimi eyləsin qəbul.
Nökəri şah edən, şahı qoyan qul,
Taxtından saldıran puldumu? – Puldu! [2,s.399].

Pul haqqında yazılan "Puldumu? Puldu!" qoşmasında pul ağıllı insanlar əlində, sivil demokratik dövlətlərdə insanların, cəmiyyətin rifahına xidmət edən vasitədir. Ustadın qoşmasından hasil olan müdrik fikir odur ki, pul xoş niyyətlərə sərf edilsə dünya cənnətə dönər:

Odu körpü tikən, odu yol çəkən,
Odu çörək verən, odu tər tökən.
Odu evlər quran, dağıdan, sökən,
Şəmşir söz qurtaran: puldumu? – Puldu![2,s.399].

Sovetlər dönəmində yalnız əməkçi insanlardan yazmaq tələb olunurdu. Nizami Gəncəvi həm dövrünün sənət adamlarına, həm o dövrün dövlət və saray adamlarına, həm də zəhmət adamlarına əsərlər ithaf edir, necə deyərlər gah Makedoniyalı İsgəndərdən, gah da kərpickəsən kişidən yazırdı. Söz yox ki, yazılarını Allaha, sonuncu dinin

peyğəmbəri Məhəmmədə ithafla başlardı. Bu Azərbaycan ədəbi sənətinin başlıca xüsusiyyətlərini özündə əks etdirən əsil sənətkarlıq ideyasıdır. Aşıq Şəmşir dilində xəstəxanada çörək paylamaq peşəsində olan qıza həsr olunan şeir əmək, əmək adamlarına olan hörmətdən xəbər verir:

Çörəkçi qız, demə küsmüşəm səndən,
Yaz dedin, yazaram tez tərif sənə.
Doğrusunu yazsam incimə məndən,
Şəninə yaraşan düz tərif sənə [2,s.366]

Sadə əmək adamları üçün də cəsurluğa, qocaqlığa ehtiyac duyulmasını önə çəkir:

Vəzifən məlumdur: çörək paylamaq,
Çox cəsur, qoçaqsan, üzün olsun ağ.
Bu dərddən qurtarıb olsam canı sağ,
O zaman yazaram yüz tərif sənə [2,s.366].

Əmək adamının tərənnümü, zəhmətə qiymət, xariqüladələr yaradan insan əlləri Ustad sənətkarın yaradıcılığında mühüm yer tutur:

Verim cavabını gəl, əhval soran,
Mənəm deyib şairlikdən dəm vuran.
Dağlara yol çəkib qayalar yaran,
Fədakar əlləri bəyənmədinmi [2,s.372].

“Əmək insanı ucaldar” devizi hər bir zamanda, hər bir ictimai-siyasi quruluşda özünü doğruldan devizdir. Tənbəllik müxtəxorluğa, cinayətə aparan yolun başlanğıcıdır

ki, ustad satirik bir qələmlə “lodur”luğu, tənbəlliyi “Lodur” rədifli müxəmməsində tənqid edir:

Deyirəm xəbərdar ol, işindən avara lodur,
Tənbələ yoxdu məkan, əgər getsə hara, lodur!
Bax arıya, qarışqaya sən də işə yara, lodur!
Dovşan yatır il uzunu çatıb hansı vara, lodur!
Söyüd, yulğun, çinar, vələs yetişmədi vara, lodur! [1,s.520].

Arı və qarışqaların sosial həyat tərzləri bu gün də sosial institutların axıracan öyrənə bilmədikləri problemdir. Əmək və vəzifə bölgüsü, insanı düşündürəcək səviyyədə sosial bölgü, ədalət Ustadın yaradıcılığında şirin bir xalq dilində oxucusuna çatdırılır. Tənbəlləri, “lodurları” eldən ayrı düşməməyə çağırır:

Yer yaran, dağ qoparan qəhrəmanlar əlləridi**,**
Əllərimiz əlbir olub zəhmətindən dağ əridi.
Zəhmət insana dərmandı, iş bədənin cövhəridi,
Bu azadlıq, bu səadət mərd ellərin hünəridi,
Di gəl qoşul bu yarışa, et dərdinə çara, lodur! [1,s.521].

Halallıq və əmək arasındakı dialektik vəhdəti aşağıdakı misralarda görürük:

Yeyəsən, yedirəsən,
Qazanasan ***halal*** malı.
Təmiz ***əmək*** bəhrəsinin
İnsana yoxdur zavalı [1,s.525].

Sinonimi "əmək" sayılan "zəhmət" etik kateqoriyası *halallıqla* dərin, daxili dialektik əlaqədədir ki, bu kateqoriyanın klassiklərin əsərlərində öyrənilməsi hər zaman aktual olmuşdur. "Zəhmət" etik kateqoriyası bu gün müstəqillik yolunda, gənc dövlətin qurulmasında xüsusi əhəmiyyət kəsb edir.

## 2.2. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA DİL ETİKASI

Bu yarımfəsildə Aşıq Şəmşirin yaradıcılığı əsasında dilə sevgi, dilimizə məsuliyyətlə yanaşma, dilə münasibətdə əxlaqi məsələlər, dillə bağlı üslublar, dil varisliyi, dilimizə qarşı biganəliyin qamçılanması, təfəkkür-dil əlaqələri və s. araşdırma mövzusu olmuşdur.

Əvvəlcə dilə tərif verməyə və "Dil *nə* deməkdir" sualına cavab tapmağa çalışaq. Mütəxəssislər dilə muxtəlif cür tərif verirlər. "Fəlsəfə lüğəti"ndə dilin ən ümumiləşdirilmiş tərifi belə ifadə edilmişdir: "Dil – insanın fəaliyyət prosesində idrak və kommunikasiya (ünsiyyət) funksiyalarını yerinə yetirən istənilən fiziki təbiətli işarələr sistemidir".

Dilin əsasını, onun spesifikasının mahiyyətini qrammatik quruluşu və əsaş luğət fondu təşkil edir. Sözlər, cümlələr və onlardan təşkil edilmiş mətnlər dilin struktur vahidləridir. Bu gün dünyada 2500-dən çox muxtəlif təbii dil və çoxsaylı süni dillər, məsələn, proqramlaşdırma dilləri və ya 1887-ci ildə varşavalı həkim Lüdviq Zamenqof tərəfindən yaradılnuş esperanto dili mövcuddur.

Dil həmişə filosofları maraqlandırmışdır. Demokrit, Platon, Aristotel, Hegel və bir sıra digər filosoflar, xüsusən təfəkkür problemi ilə əlaqədar dili öz mülahizə obyektləri sırasına daxil etmişlər. Fəlsəfənin dilə güclü marağı zəmanəmizdə də davam edir. Bəs bu maraq nədən irəli gəlir?

Müasir fəlsəfənin dilə marağının artması ən azı iki mühüm amillə izah edilir. Əvvələn, dilin təbiəti barədə uzun muddət davam etmiş intensiv debatların gedişində insanlar kommunikasiyada, idrakda, mədəniyyətin təşəkkülündə və inkişafında dilin müstəsna rolunu daha dəqiq dərk etməyə

başlamışlar. Məsələyə bu cür yanaşdıqda dil ünsiyyət və dünyanın dərk edilməsi vasitəsi, həqiqətən insana xas olan nadir qabiliyyət kimi tədqiqat obyektidir. Dilin təhlili problemlərinin, ilk novbədə, dünyanın dərki problemlərindən təcrid edilə bilməyən dil kimi başa düşmək problemlərinin şərhi o deməkdır ki, dil fəlsəfəsi idrak fəlsəfəsinin üzvi hissəsi hesab olunur.

İkincisi, vaxtın kəskin məhdud olduğu şəraitdə insanın sonlu sayda dil vahidləri və qaydaları toplusu əsasında sonsuz sayda cümlələri necə qura bildiyini anlamaq cəhdi güclənməkdədir. Məsələyə bu cür yanaşdıqda dil daxili mənəvi fəaliyyətlə sıx bağlı olan yaradıcı proses hesab edilir. Bu mənada dillər təkcə artıq dərk olunmuş gercəkliyi ifadə etmək vasitəsi deyil, həm də bundan daha çox, əvvəllər məlum olmayanların dərki vasitəsidir. Bu ona görə baş verir ki, dil artıq qərarlaşmış elementlərlə yanaşı, elə üsullardan ibarətdir ki, onların köməyi ilə idrakın yollarını və formalarını göstərən mənəvi fəaliyyət davam edir. Nisbilik nəzəriyyəsi və kvant fizikası yaradılarkən qərarlaşmış təsəvvürləri tamamilə alt-üst etmiş yeni biliklər özünün dil ilə daha tam *ifadə olunmasını tələb* edirdi. Bu, dil ilə insanın idrak fəaliyyəti arasında münasibətlərə dair mühakimələrin düzgünlüyünü yəqin etməyə imkan verir.

Bəs dil ilə təfəkkür arasında əlaqə nədən ibarətdir?

Dil təfəkkürün inkişafında və fəaliyyətində mühüm rol oynayır. Lakin qarşılıqlı munasibətlər problemində dil və təfəkkur iki ayrıca və avtonom, hər birinin hüdudları kifayət qədər dəqiq müəyyən edilmiş anlayışlar kimi çıxış edir. Onlar bir-biri ilə sıx bağlıdır, qarşılıqlı təsirdədir və hətta ola bilsin ki, biri digərini şərtləndirir. Buna baxmayaraq, hər biri ayrıca anlayış kimi qalır. Dil təfəkkürün

sonrakı sintezinə heç də həmişə daxil olmayan, lakin müəyyən forma kimi təfəkkürü onun gələcək hərəkət yollarını istiqamətləndirən və müəyyənləşdirən bilikləri təsbit edir.

Dilin təhlilində əsas diqqət sözlərə deyil, həqiqi biliyin yeganə daşıyıcısı olan cümləyə yönəldilir. Bu halda əsas məqam cümlənin həqiqilik şərtlərini bilmək, yəni onun həqiqi mənasını dərk etmək qabiliyyəti ulə bu qrammatik kateqoriyanın gercək istifadə praktikası arasında əlaqənin açıqlanmasıdır. Təbii dil üçün məna nəzəriyyəsi dilin daşıyıcısına sonsuz sayda mənalı cümləri başa duşmək və onları konstruksiya etmək imkanı verən prinsipləri və strukturları aşkar etməlidir [98,s.219-220].

Aşıq yaradıcılığının cəmiyyətdəki böyük nüfuzedici rolunu Həsən bəy Zərdabi hələ zamanında çox düzgün qiymətləndirirdi: “Bir baxın bizim aşıqlar toylarda oxuyanda qulaq asanlara. Bu zaman bu qulaq asanlar elə hala gəlirlər ki, istilahi-türk, ətini kəssən də xəbəri olmaz. Elə ki, sonra toy qurtardı, aşıqlar evinə getdi, beş-on gün uşaqlar gecə-gündüz küçələrdə gəzəndə aşıqdan eşitdiyi qafiyələri oxuya-oxuya gəzirlər və bir-birinin qələtini düzəldirlər” [180].

Akademik Mirzə İbrahimov isə yazırdı: “Aşıq poeziyası xalqa daha yaxın olduğuna görə, orta əsrlərdə yazılı ədəbiyyata məhz demokratik, realist meylləri gücləndirmək ruhunda təsir etmişdir. Daha doğrusu, xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında bir keçid, möhkəm bir körpü olmuşdur [74].

Öncədən qeyd etdiyimiz kimi, Dirili Qurbani və Tufarqanlı Abbasla aşıq poeziyasında başlayan ədəbi yüksəliş ölkənin ayrı-ayrı bölgələrində öz davamçılarını da yetirirdi. Bu intibahın kökü isə əsasən böyük dövlət **x**adimi Şah

İsmayıl Xətainin qurduğu Səfəvilər dövləti ilə və onun xalqın dünyabaxışında yaratdığı milli oyanışla bağlıydı. Belə ki, xarici işğallardan sonra, nəhayət, müstəqil Azərbaycan dövlətinin yaranması, xalqın həyatında uzunmüddətli əmin-amanlığın bərqərar olması, yadelli basqınların səngiməsi, həm də adi danışıq və ədəbi dildə əsrlər boyu hökmranlıq etmiş ərəb-fars dillərinin "işğal"ından sonra ana dilinin rəsmi dövlət dili səviyyəsinə qaldırılması gələcək böyük bir ədəbi oyanışın inkişafına təkan verdi. Tarixən daha çox saraylarda təmərküzləşən klassik poeziya ilə paralel olaraq xalq arasında yaşayan aşıq yaradıcılığı da bu oyanışla özünün yeni intibah mərhələsinə qədəm qoydu. Şah İsmayıl Xətainin özünün də incə ruhlu bir şair olması, klassik üslubla yanaşı xalq şeiri ruhunda da əsərlər yazması, dövrünün Dirili Qurbani, Miskin Abdal kimi nəhəng söz adamlarını da sarayına gətirməsi ozan-aşıq şeirinin çiçəklənməsinə ciddi təsir göstərdi. Ağdabanlı Qurbanın da elə nəsil-şəcərə baxımından Miskin Abdal ocağına bağlı olması bu istedadın onda təsadüfi deyil, irsən gəlmə bir nemət olduğunu göstərdi [115].

Ustad sənətkar bir tərəfdən dilin qrammatik səviyyəsində omonimləşmə potensialından məharətlə istifadə etməklə, digər tərəfdən isə ayrı-ayrı sözlərin morfoloji dəyişməsi əsasında mükəmməl cinas sistemi yaratmağa nail olmuşdur. Xüsusi qeyd olunmalı cəhət ondan ibarətdir ki, poetexnoloji proses olaraq yaradılan cinas qafiyə sistemi şeirdə ifadə olunan hissi-emosional ovqatı – sevən aşığın psixoloji ovqatını nəinki zədələmir, əksinə məzmunun poetik baxımdan daha mükəmməl çatdırılmasına xidmət edir [46].

Dil – təfəkkür, dil – həqiqət anlayşıları dilçi – filosoflar tərəfindən son vaxtlar araşdırma mövzusuna çevrilmiş-

dir. Dilin etik tərəfləri Айер А. Д, Головин В. Н, Голуб И. Б, Gottschalk N, Stevenson C. [182, 186, 187, 207, 217] və başqalarının tədqiqat obyektidir. Sözə qiymət vermək, sözün qədrini bilmək, sözlə ciddi davranmaq, söz qarşısında məsuliyyət sözə ciddi etik dəyər kimi baxmaq, Aşıq Şəmşir şeirlərinin ana xəttidir. "Dünyada nişana qalmalı" olan söz qarşısında bundan böyük məsuliyyət təsəvvür etmək çətindir!

Çəmənli, çiçəkli bu bəzirxana,
Nə şaha qalmayıb, nə də sultana,
Söz dünyada qalmalıdır nişana,
Oxuyan olacaq xəbərdar kimi [2,s.131].

O sənətkarlar Dədələşmək zirvəsinə yüksəlirlər ki, onlar xalqın öz ana dilində yazıb-yaradırlar. Xalqsa onun dilində yaradanı həmişə qaldırmış və bu gün də qaldırmaqdadır. Şair-publisist Yusif Hüseynin [173] "Dilində" gəraylısı elə buna bariz nümunədir:

Aşıq Şəmşir dövran açdı,
Obasında, öz elində.
Dədə Şəmşir Dədələşdi,
Doğma xalqının dilində.

*Dilin fenomenoloji anlamı***.** Dilin, dünyanın və insanın özünün qavranılması və başa düşülməsi, insan qabiliyyətlərinin öyrənilməsi sahəsində intensiv tədqiqatlar aparılır. Bu halda fenomenoloqlar şüurun işinin təhlilinə xüsusi əhəmiyyət verirlər.

Fenomenologiyanın tanınmış numayəndələri Qusserl, Haydeqqer, Brentano, Riker və başqalarının əsərlərində dil müvafiq mənanın ifadəçisi kimi nəzərdən keçirilir. Belə bir konsepsiya irəli sürülür ki, dil intensiallıqdan – şüurun dünyadakı mövcud və ya ehtimal edilən obyektlərə və vəziyyətlərə istiqamətlənməsindən yaranmışdır. Mütəxəssislər fenomenoloqların bu məsələyə dair mövqelərini belə şərh edirlər: fikirlərin, biliklərin, arzuların və digər keyfiyyətlərin intensial vəziyyətləri vasitəsilə özümüzü dünya ilə müqayisə etmək qabiliyyətimiz bioloji və məntiqi baxımdan verbal qabiliyyətimizdən – dildən istifadə qabiliyyətindən daha əsaslıdır. Bu baxımdan dil fəaliyyətinin hər hansı kifayət qədər dolğun nəzəriyyəsi insan zəkası ilə dünya arasındakı nisbətin izahını tələb etdiyinə görə, dil fəlsəfəsi şüur fəlsəfəsinin bir qolu hesab edilir [98,s. 222].

Məmməd Aslan hələ XX əsrin 70-ci illərində "El aşığı – elin yaraşığı" məqaləsində Aşıq Şəmşir dilinin incəliklərinə baş vurur, bu dilin özünəməxsus tərzdə oxuculara estetik zövq verməsini açıqlayır: "Elin öz qəlbindən, dilindən süzülənlər Aşıq Şəmşirin söz dünyasında "əriyib, bişib, bərkiyib" yeni keyfiyyətlərlə üzə çıxır. Ona görə də şeirləri bir dəfə eşidilməklə yaddaqalma üzüyolalağı tapır.

Mən dedim: – dərdindən mənəm üzülən,
Sən dedin: – sinəmə sözdür düzülən.
Ləblərindən qətrə-qərtə süzülən,
Mən dedim – şəkərdi, sən dedin – baldı.

Burada kəlmələrin seçilməsində zərgər dəqiqliyi, sözlərin yerləşdirilməsində, nizamlı düzülüşündə bal arısının səliqəsi var. Dərindən fikir verdikdə görürük ki, aşıq elin

deyiliş tərzinə həssas bir “daraq çəkib”, onu gözəgörünməz bir əllə “sığallayıb”. Bu, ustalığın nəticəsində iki nəfərin söhbəti dadlı şeir şəklinə düşüb.

Geniş nəfəs tutumuna, bədii siqlətə, səsə və rəng çalarlarına malik bu şeirlər XIX əsrdə Azərbaycan dilinini hansı mövqedə durduğunu göstərir:

Sinəndir ağ büllur şüşə,
Bəzənib qızıl-gümüşə,
Açılıb nərgiz, bənövşə,
Qızılgül yarpaq üstündən.

***

Zənəxdanda qoşa xal var,
Camalında cah-calal var!
Ləblərində beçə bal var
Süzülüb qaymaq üstündən.

Şair Qurbanın bu misralarında sanki bir rəssam ustalığı var. O, sözlə gözəlin portretini elə çəkir ki, şeiri oxuyan peşəkar bir rəssam çox asanlıqla həmin gözəlin aydın obrazını yarada bilər. Qoşmalarda mənaca bir-birinə doğma sözlərin, səslərin yaxınlığı qəribə bir harmoniya yaradır. “Sən” şeirinin bir bəndinə fikir verin:

Füqarə mən, biçarə mən, yazıq mən,
Bimürvət sən, sitəmkar sən, zalım sən.
Nə müddətdi dildarına həsrətəm,
Səbəb nədi, soruşmadın halım sən?.

Ana dilimizin hələ XIX əsrdə, XX əsrin əvvəllərindəki imkanlarını böyük sənətkarlıqla üzə çıxaran şair sözümüzün məna yükünün nə qədər uca, nə qədər dərin olduğunu nümayiş etdirir:

Tərlandı baxışın, gözün can alan,
Di çək caynağına, di darə məni.
Hərdən şölələnir o gül camalın,
Tel deyər şanəyə: Di darə məni.

Sözlərin düzgünlüyünə, ahənginə, gözəlliyinə fikir verin. İnsan bu dildə danışdığı üçün qürur hissi keçirir.

Ağdabanlı şair Qurban haqqında deyilən "söz xiridarı" ifadəsi çox yerində işlənmiş dəqiq ifadədir. Həqiqətən də o, sözə çox həssaslıqla yanaşır. Misralarında bir-birini vuran bircə sözə rast gəlməzsən. Sözlər, səslər bir-birinə muncuq düzümü qədər yaxındır. Yəni sözlərin qonşuluğunda simsar, qohum olmayan bircə söz belə yoxdur. Aşıq şeirinin bütün janrlarında meydan sulayan ustad sənətkar təkcə qəlibi, ölçünü əsas götürmür. Belə olsaydı, onun şeirləri cansız, nəfəssiz, heysiz, hərəkətsiz bir şey olardı. Amma bu şeirlər qanadlı, ürəkli, diri şeirlərdir. Müəlliflərin Aşıq Şəmşirin atası Ağdabanlı Şair Qurbanın Azərbaycan dilinin inkişafından bəhs etmələri [78,s.428; 106; 107;] dil varisliyimizə mühüm töhfədir.

Ağdabanlı şair Qurban, Aşıq Ələsgər Ustadın söz xəzinəsi, dolu anbarıdır. Onların həyatdan köçməsini "cəvahirin, ləlin, qaşın" itirilməsi ilə eyniləşdirir.

Eləcə də "İtibdi" rədifli qoşmada Azərbaycan şerinin növlərini – divani, müxəmməs, təcnis, dodaqdəyməz, diltərpətməz – sadlalamaqla ədəbiyyatımıza öz töhfəsini verir.

Hanı söz xəzinəm, dolu anbarım,
Divani, müxəmməs, təcnis xiridarım?!
Dodaqdəyməz, diltərpətməz mirvarim,
Cəvahirim, ləlim, qaşım itibdi [2,s.141].

Ulu Öndər Heydər Əliyevin Azərbaycan hakimiyyətinə gəlişi hər şeydən öncə onun dilimizə olan sevgisiynən başladı, səlis Azərbaycan dilində çıxışları auditoriyalara ayaq açdı, əsarətdə qalan "baldan şirin" sözlər şairlərin dilində yeni nəfəs aldı. Elə 1971-ci ildəki "Güllər içində" qoşması da Ustadın dil siyasətimizə ürəkdən şərik olmağı idi:

Baxirsan qurğuya, hər işi incə,
Elə bil ki, bahar açıb indicə.
*Öz ana dilimiz* baldan şirincə,
Şəkərdi, şərbətdi dillər içində [3,s.114].

Bu məqamda Şəhriyarın [100] Azərbaycan dilinin saflığı uğrunda yazdığı misralar Aşıq Şəmşir misraları ilə həmahəngliyin şahidi oluruq:

Türkün dili tək sevgili, istəkli dil olmaz,
Özgə dilə qatsan, bu əsil dil əsil olmaz.
Öz şeirini farsa, ərəbə qatmasa şair,
Şeiri eşidənlər, oxuyanlar kəsil olmaz.

Əhli-hal yanında az danış, az gül,
Bir kəlmən dəryadan olmasa dərin

İgidlər içində ər kimi dolan,
Namus tacın olsun, olmasa ərin [1,s.482].

Hamımızın bir ana dili var! Azərbaycan dili! Kifayət edər ki, bu dil bizləri bir ananın övladları kimi birləşdirmək gücündə olan amilə çevrilsin. Dil etikasının bir mühüm xüsusiyyəti kimi dilin soydaşları birləşdirmək gücüdür. Ustadın aşağıdakı misralarından hasil olan həqiqət budur:

Deyirlər oğuldu hər ana doğmuş,
Məlum oldu səni nər ana doğmuş.
Bəlkə ikimizi bir ana doğmuş,
Öyrənmişik anamızdan dili hey [3,s.101].

Dil etikasının mühüm əlamətlərindən biri də söz sənətkarlarının sözə bələdliyi, sözü "izindən tanıması", gerçəkliyə öz münasibətini bildirməsindən ibarətdir:

Aşıq olan sözü yazsın özündən,
Şair olmaz satın alma sözündən.
Şəmşir şeir tanıyanda izindən
Dava nə lazımdı, xoşdan danışaq [1,s.329].

Ustadların xalqa çatdırılması antroponimik sıralanmalarla həyata keçirilir ki, bu zaman Aşıq Şəmşir yunan filosofu Platonu da, Kənan oğullarından Yaqub peyğəmbəri də, Yusif peyğəmbəri də, XIX-XX əsrlərin görkəmli saz-söz ustalarını – Aşıq Alı, Aşıq Ələsgər, Ağdabanlı şair Qurbanı da özünə ustad hesab edir:

Ustadım Qurbandı, Ələsgər, Alı,

Qismətim beçənin ağ-appaq balı.
Əflatun kamallı, Yusif həyalı
İlk madərim, nurlu gözüm ikidi [1,s.360].

Azərbaycan dilinin saflığı uğrunda yaradıcı sənətkarlarımız həmişə mübarizə aparmışlar. Təkcə Aşıq Şəmşirin "Şeir" rədifli gəraylısı dilimizə münasibətdə, şeirimizə münasibətdə ağsaqqal mövqeyindən çıxış edir:

Mənalı söz bir qızıldı,
Şeir sayılmaz hər şeir.
Şeir var ki, şəkər kimi,
Dilə düşüb gəzər şeir [3,s.325].

Həmin gəraylının digər bir bəndində şairliyin etik kredosundan yazır:

Kömür ipək boyaqlamaz,
Sözü arif ayaqlamaz.
Şair olan sayaqlamaz,
Yazmaz hədyan, hədər şeir [3,s.325].

Sualıma gəl cavab ver, mədəni insan kimi,
Sözlərindən ləl süzülsün mirvari, mərcan kimi.
Müştərisi varsa əgər al-qumaşdı mətahım,
Bahalı yaqut satıram simu-zərəfşan kimi [1,s.36].

"Söz Aşıq Şəmşir poeziyasında gövhərdir" fəlsəfəsinin şahidi olur, sözə qiymət verən söz adamlarının sırasında aşığın da payını görürük:

Urvatsız eləmə bu qoca vaxtı,
Sərrafa gövhəri satan mənəm, mən [1,s.64].

“Qılınc yarası sağalar, söz yarası sağalmaz” xalq məsəli Aşıq Şəmşir dilində estetik bir formada meydana gəlir:

Qılınc yarasını qurtaran Loğman,
Məzəmmət dərdinə tapmadı dərman [1,s.71]

Bəzən də Şəmşir yaradıcılığında dialektikanın inkar qanunu dil etikası ilə çulğalaşır. İnsanların qəlbini didən sözlərin sahibi kimi nadan insanların bu xüsusiyyətinin irsi olduğunu oxucu anlayır:

Elə atdı, güllə kimi toxundu,
Bu gün bir nadanın sözü qəlbimə.
Cəsədim şam oldu-alışdı, yandı,
Saldı qara bir əl közü qəlbimə [1,s.71].

Yaşayıb-yaratdığı məkanın məhz sözə bağlı insanları Ustadın yaradıcılığında özünəməxsus yer alır. Xalqına faydalı olan insanlar, fərdlər heç bir təmənnasız vəsf olunur, həmin şəxslər xalqa Aşıq Şəmşirin lətif kəlmələri ilə tanıdılır. XX əsrin 60-70-ci illərində Kəlbəcər maarif sistemində çalışan “Qara Bəhmən” adı ilə tanınan qabaqcıl təhsil işçisinə – Bəhmən Cəfərova, Respublikanın əməkdar müəlliminə “Bəhmanın” rədifli qoşmanın həsr olunması elə bu gün də dilə verilən qiymətdir.

Səbadan ***ləhcəsi*** səhmimə gəldi,
Onun təranəsi necə gözəldi.

***Sözü*** dürdanədi, ***kəlməsi*** ləldi,
Yaddaşında tayı hanı, Bəhmanın?! [2,s.396].

Osman Sarıvəlli [46, 47] Aşıq Şəmşir timsalında müxəmməsin strukturunu, formalarını, dinləyicilərə çatdırılması məsələlərini tədqiq etmişdir: "Sual olunur: müxəmməslərə bu əlavə bəndlər, bu cığalar nə üçündür? Nəzərə almaq lazımdır ki, divani və müxəmməs şəklində yazılmış şeirləri eyni adlarda olan "Divani" və "Müxəmməs" havalarından ayrı götürmək, ayrı təsəvvür etmək çətindir. Bu saz havaları nəzərə alınmadıqda, bu şeir formaları da, bir növ, anlaşılmaz olur. Hətta bunlar bəzi oxuculara mənasız görünür. Yeri gəlmişkən demək lazımdır ki, cığaların müxəmməslərə əlavə edilməsi, görünür, yalnız son dövrlərə aid məsələdir. Həm də müxəmməs şəklində olan şeirlərin "Müxəmməs" havasının üstündə ifa edilməsi ilə çox əlaqədardır. Yeddi bəndlik, hər misrası da onaltı hecadan ibarət şeiri aşıq ifa etdikdə çox yorucu olur. Xüsusən iki aşıq hər biri ayrı bir müxəmməslə çıxış edib deyişsələr, bu, daha dözülməz olar. Belə bir vəziyyətdə cığalar ifaçıların köməyinə gəlir. Musiqi ("Müxəmməs" havası) əlavə xallarla yeri gəldikcə öz ahəngini dəyişir, havanı yeknəsəq olmaqdan qurtarır. Beləliklə, götürülmüş böyük bir mövzu, geniş bir məzmun dinləyiciləri yormadan ifa olunur. Lakin əlavə edilmiş bəndlər – cığalar öz ruhu etibarilə müxəmməsin məna, məzmununa yaxın olmalı, onu tamamlamalıdır".

Fikrimizi izah üçün Aşıq Şəmşirin 1926-cı ildə yazdığı "Məni sən" rədifli cığalı müxəmməsinin yalnız bir bəndini burada nümayiş etdiririk:

İnsaf et, sevgili yar, salmısan haldan məni sən.

Məcnuntək zay elədin əql-kamaldan məni sən,
Gözlərin min can alır, saxla zavaldan məni sən.
Gəl qurtar, bu mən ölüm, bu qeylü-qaldan məni sən.
Qovlayıb salma kənar eldən, mahaldan məni sən.

Tazə cavan,
Qaşı kaman,
Şirinzəban,
Öldüm aman
Halım yaman.

Bir şux cavansan pərim!
Gözəl-göyçək dilbərim!
Uzun boylu ərərim!
Ətrim, müşkü-ənbərim!
Dildə şirin əzbərim!

Cisimdə bir can kimi,
Ağılda ümman kimi,
Tutiyi-imran kimi,
Hüsndə qılman kimi,
Çöllərdə ceyran kimi,

Ovçunam, salma uzaq, gözəl, qəzaldan məni sən!

Aşıq Şəmşir yaradıcılığında dilimizin zənginləşməsinə kömək edən çoxsaylı ifadələr mövcuddur. Bu gün “irsi-genetik qanunlar” dediyimiz ifadələrdən daha yüksək məna daşıyan “əcdad”in dilimizdə yer alması, bərpası dilimizin qorunmasına layiqli töhfədir:

Aradım, *əcdadı* alçaq nəsildi

Necə deyim, canavara əsildi.
Qara bağrım tikə-tikə kəsildi,
Paraladı, səpdi duzu qəlbimə [3,s.71].

Aşıq Şəmşir poeziyasında "söz dinləmək üçün yox, dərk etmək üçündür" müddəası ortaya qoyulur:

Qaydadı: bürc olur qala başında,
Şəmşir, namərdin od qala başında!
Oxuya şeirimi, qala başında,
Sözün, şeirin xiridarı gərəkdi [3,s.73]

Ustad öz timsalında ardıcıllarını söz qarşısında məsuliyyətə səsləyir. Aşıq üçün sözü elə işlətmək lazımdır ki, deyilən sözə el-oba gülməsin:

Qanqal desəm reyhana, gül gülər,
Damcı özün Araz saysa sel gülər,
Sağsağana laçın desəm el gülər,
Hədər yerə bu bəzəkdən nə yazım?! [3,s.98]

Aşıq Şəmşir poeziyasında dil etikası özündə sözə qiyməti ehtiva edir. Tərifə layiq olmayanları tərifləməklə sözün qiymətdən düşməsi təhlükəsindən xəbər verir:

Şəmşirə edirsən hökmü əmrdən,
Batır qulaqlarım səsdən-hənirdən.
Yazaram poladdan, daşdan, dəmirdən,
Tozarandan, göbələkdən nə yazım [3,s.98].

Qalan sözdür! Ulu Şəhriyarın “Bizdən də bir söz qalacaq dünyada!” kövrək ifadəsi Ustadın aşağıdakı misraları ilə həmahəng səslənir:

Şəmşir, sözlərinin bir hökmü vardı,
İnsan gedərgidi, söz yadigardı.
Sənətin qapısı bağlı qalardı,
Nizamidən bizə dəb olmasaydı.

Aşıq Şəmşir dilində “Nizamidən bizə dəb olmasaydı” ifadəsi Ustadın bir daha kökə sadiqliyini, daha doğrusu dil varisliyimizə sadiqliyini gələcək nəsillərə çatdırır. Nizaminin “Xosrov və Şirin” poemasında [138,s.184] sözə qiymət, sözün ecazkar gücünün poetik təsviri dilimizin möhkəm dayaqlar üzərində bərqərar olmasından xəbər verir:

O şirin dillidən bunu deyim mən,
Yatardı balıqlar, quşlar *səsindən*.
Dodağının *sözü* bir abi-həyat,
Onun qarşısında qul olur nabat.
Qulağına çatsa onun bir *sözü*,
Tez huşdan gedərdi Əflatun özü

Aşıq Şəmşir şeirlərində məkan və zamanla bağlı məntiqi ardıcıllıq həmişə gözlənilir. “Ana” rədifli 9 bənddən ibarət irihəcmli qoşmada doğum anından ixtiyar çağınadək olan dövr elmi məntiqə söykənən bir ardıcıllıqla izah olunur:

Doqquz ay, doqquz gün, doqquz saatda
Bətnində çəkmisən zəhmətim, ana.

Verirdin ruzimi məxvi-xəlvətdə,
Sənə olmamışdı minnətim, ana [1,s.310].

***

Axşam-sabah oxşayırdın boynumu,
Ana gözü balasından doyurmu?!
Arzu etdin, bir görmədin toyumu,
Oldu ayrılığın qismətim, ana [1,s.311].

***

Südün halal eylə sən öz balana,
Şəmşirin oduna olan pərvana.
Bilir bu dövranım, bilir zamana, –
Var sənin ruhuna rəhmətim ana [1,s.311].

Sözün formalaşması, onun ümumişlək şəklə düşməsində cəmiyyətin rolu əsasdır. Sözü xalq yaşadır, xalqın dilinə yatmayan sözün, ifadənin ömrü gödək olur:

Car olub ellərdə söylənməyən söz
Dəhana yayılıb, dilə düşərmi?!
Tutulan bir işə yetirməsən göz
Arası uzanıb belə düşərmi?! [1,s.236].

Vaxtilə xalqın içindən çıxan söz adamlarının işlətdiyi məsəllər yazıya alınmadığından xalq məsəllərinə, atalar sözlərinə çevrilmişdir. “Tısbağa qınından çıxdı qınını bəyənmədi” atalar sözünə uyğun Aşıq Şəmşir başqa məzmunda “sar cücəsi yuvasını bəyənməz” ifadəsini işlədir:

Təmiz saxlar binasını qaranquş,

Sar cücəsi yuvasını bəyənməz.
Diqqət ilə sözlərimə yetir huş,
Sarsaq adam obasını bəyənməz [2,s.364].

"Yazıram" rədifli qoşmada Ustadın bir kitabını oxuyub özünü qanmaz yerinə qoyan birisinə Aşıq Şəmşir kəskin kinayəli cavab verməklə, aşıq-döyüşçü xəttinə sadiqlik nümayiş etdirir:

Şəmşirin sözündə tapıbsan nə şək,
Kül görəndə ağna, baxaq gülüşək.
Ədəbsiz anqıran a qotur eşşək,
Anlasan sözümü filan yazıram [2,s.370].

Dil etikası dedikdə yazarların özlərindən qabaqkı söz ustalarının irsinə olan müsbət münasibətləri başa düşülür. Söz də, söhbət də məqamında Aşıq Şəmşir dilində zərə çevrilir. "Vurğun" rədifli gəraylıda Səməd Vurğunun sözünü qiymətləndirən Aşıq Şəmşirin dilində söz də, söhbət də zərə çevrilir:

Zərdi sözün, hər söhbətin,
İstəyin, adın, hörmətin.
Qəlbimizdə məhəbbətin,
Dağlardan da çoxdu, Vurğun! [2,s.474].

Sənətdə, şeirdə varisliyi öndə saxlayır. Səməd Vurğunun [160]:

Sizin güldüyünüz çoban torpağı,
Nizamilər, Füzulilər yetirmiş
Azəri yurdunun oğluyam mən də,

Az-az uydururam yeri gələndə.

Misralarına uyğun, həmən ovqatda Səməd Vurğuna ünvanladığı bəndlər də bu qəbildəndir:

Sözün, şeirin sənətkarı,
Sənsiz qoydun bu dağları,
"Nizaminin yadigarı", -
Bu ad sənə haqdı, Vurğun! [2,s.474].

Əsil sənətkar üçün ömür təyin olunmur, bu ömür əbədidir. Bu ömür sənətkarın mənsub olduğu xalqın ömrüdür. yaddaşına hopmuş sənət inciləri ilədir. Səməd Vurğunun:

Bir məsəl qalmışdır ata-babadan,
Uçarda turacdır, qaçarda ceyran

Misraları Aşıq Şəmşir dilində aşağıdakı kimi səslənir:

Ceyranı tapşırdın elə,
Turac vəsfi düşdü dilə,
Kim yaşasa yüz min ilə
Deməz: – Yaddan çıxdı Vurğun! [2,s.475].

Dil etikasının bir mühüm əlaməti də dil və təfəkkür dialektik vəhdətinə əməl olunmasıdır. Bu baxımdan əsərlərdə zaman ardıcıllığına, məkan ardıcıllığına riayət etmək, elə məntiqi ardıcıllıq anlamındadır və bu məntiqi ardıcıllıq Aşıq Şəmşir poeziyasına da daxilən xasdır:

Toylarda çaldığım sədəfli sazım,

Ellərə yadigar qaldı avazım.
Məzar zimistandır, açılmaz yazım,
Boranı kəsməyən qış altındayam [1,s.201].

Suyun sakral gücü, dağların əzəməti, dağların torpağında səcdə qılmaq, sonra sakral güc sayılan suyun mənbəyi bulaqlarla salamlaşmaq kimi məntiqi ardıcıllıq şeirlərdə özünə yer alır:

Daxil olub torpağına səcdə qıl,
Bəlkə məni səndən soruşdu dağlar.
Suyu şərbət bulaqlara salam ver,
Nə zaman ki, sənlə görüşdü dağlar [1,s.238].

Dil etikasının daha bir mühüm tərkib hissəsi sayılan dil varisliyi "Sevindim" rədifli qoşmadakı kimi Ustadın şeirlərində özünə yer alır, gələcəyin gəncliyə məxsus olmasını, Azərbaycan şeirinin, Azərbaycan dilinin həmişə var olacağı inamını özümüzə qaytarır:

Silindi qəlbimdən qəmli hicranlar,
Sənətimə qiymət verir insanlar.
Gör nələr yaradır təzə cavanlar,
Söz bağının *boldu barı*, sevindim [2,s.98].

Osman Sarıvəllinin"Aşiq ürəkli şair, şair ürəkli Aşiq Şəmşir" məqaləsində aşıq yaradıcılığında divanilərin yeri araşdırılır: "Divanilər adətən ustadnamələr deməyə, müdrik sözlər söyləməyə, ədəb-ərkan dərsi verməyə daha müsait və daha münasibdir. Təsadüfi deyildir ki, Şəmşirin yuxarıda

qeyd etdiyimiz divanilərinin demək olar ki, hamısı ustadnamə tərzində şeirlərdir.

Yaxşı dosta yalan satma etibar əldən gedər,
Həm məhəbbət, həm sədaqət, həm ilqar əldən gedər.
Öz payınla kifayətlən özgələrdən kəs gözün,
Tamah səni bəndə salar, xeyir-kar əldən gedər.

Şeirə qiymət verərkən biz çox zaman təfərrüata, təfsilata varmadan, ümumiyyətlə mənalıdır, şirindir, gözəldir; yaxud da, bunun əksinə, zəifdir, pisdir də i.a. deyirik. Lakin şeirdə hansı ünsürlərin çatmazlığı üzündən dolğun bir məzmun öz bədii ifadəsini tapmamışdır, yaxud gözəl bir şeiri hansı ünsürlər, hansı bədii vasitələr gözəl etmişdir? Bu təfərrüat üzərində dayanmırıq" [146].

İnsan və dil anlayışlarına münasibət həmişə dahilərin dilində öz yerini alıb. Bu baxımdan Aşıq Şəmşir şəxsiyyətinə bələd olmağın yolu Mövlana Cəlaləddin Ruminin dillə əlaqəli fikirlərindən keçir desək heç yanılmarıq: "İnsanı ən qısa yolla tanıdan və keyfiyyətini göstərən dildir. Dil qazanın qapağına bənzər. Elə ki tərpənib açıldı, içində nə yemək varsa görərsən. "İnsan dilinin altında gizlənmişdir". Bu dil ruh qapısının pərdəsidir. Külək pərdəni qaldıranda evin içərisi bizə görünər. Dil adlanan ət parçasından çaylar kimi hikmət selləri axar. Könlü və sözü bir olmayan insanın yüz dili olsa belə, o, yenə dilsiz sayılar". Dilimizdə atalar sözlərinin sönməz "köhnə ocaq"dan üzü bəri, əsrlərlə xalqın yaddaşında qorunub bu günümüzə çatdığını anladır. Eləcə də, Azərbaycan dilində nəsihətamiz atalar sözlərinin "qucaq-qucaq" çox olduğunu diqqətə çatdırır. Yeri gəldikcə

atalar sözlərini yeni bir poetik deyimlə xalqa çatdırır. “Etibar” qoşmasında olduğu kimi:

Eşit ataları, köhnə ocaqdı,
Nəsihət sözləri qucaq-qucaqdı,
Deyə bilmərəm ki, çalmayacaqdı,
Şəmşir, etmə xain mara etibar [2,s.104].

Sözdən söz düşdüyü məqamda Nizaminin sözlə bağlı fikirlərini dəyərli oxuculara çatdırmaq yerinə düşər:

*Sözdən* bir səs, bir nəfəs gəlməmiş... inan mənə
Can girmədi palçıqdan xəlq olunmuş bədənə [137,s.57]

*Söz* -canımızdır. Eşqin lüğətinə baxsana!
Biz *sözük*, gövdəmizsə yalnız xarabaxana! [137,s.58].

Bu sonsuz aləmdə ki, həm təzədir, həm köhnə,
Tükü qırx yerdən bölən ***sözdən*** kəskin nə var, nə? [137,s.58]

Düşüncənin əvvəli, rəqəmin, sayın sonu,
Təkcə ***sözdür***, təkcə söz, yadında saxla bunu [137,s.58]

***Sözdür*** bərbad aləmin abad qalan guşəsi,
Bu fələk sürəsinin ən dadı azuqəsi! [137,s.59]

Mədən ***söz*** və qızılı təklif edib sərrafa,
Sərraf tərəzisində söz qızıldan çox baha! [137,s.59]

Təzə ***söz***, köhnə altun... hansı hakim kəsilir?
Söz hara, qızıl hara? Bunu söz doğan bilir [137,s.59].

Öz qüvvəsilə gedər ***söz*** qasidi... töyşüməz,
Söz qaldıran dağları qaldıra bilməz heç kəs [137,s.59].

Sözdən xəbərsiz qalır könüldən xəbərsizlər,
Sözün yozumu sözdən daha şux, daha dilbər [137,s.59].

Nə qədər ki cahan var, sözün coşsun qoy səsi,
Qoy sözlə təzələnsin Nizaminin nəfəsi [137,s.59].

Şəriət elmindədir şairin şair gücü,
Söz de ki, kəmərindən nur alsın Cövza bürcü [137,s.63]

Ürəyinin şəklidir Nizaminin sözləri,
Mənim halal sehrimlə daim canlı, dipdiri [137,s.64].

Sözümüzlə bağlı ustadların dediyi dəyərli fikirlər bu gün də yaranmaqdadır. Şükürlər olsun ki, söz yurdumuz, söz xəzinəmiz boş deyil. Elə müasirimiz Yusif Hüseynin [173] sözümüzə verdiyi qiymət bu sıradandır:

Yusif, çox əllərdən sərvət də getdi,
Sərvətlə bərabər hörmət də getdi.
Sultanlar yıxıldı, şöhrət də getdi,
Söz yenə könüllər sultanı oldu.

Dil etikası nitq mədəniyyəti ilə birgə öyrənilmə obyektidir. Azərbaycan nitq mədəniyyətinin inkişafı, bu sahədə çatışmazlıqların mövcudluğunu hələ zamanında ulu Öndər Heydər Əliyev [57], akademik Ağamusa Axundov [35] öz çıxışlarında qeyd etmişlər. Bu sahədə dilçi alimlərin də

apardığı elmi-tədqiqat işləri [63; 64; 71; 95; 96; 126; 127; 134; 135; 174; 175; 176] təqdirəlayiqdir.

Dil zənginliyi olmayan yerdə dil etikası kasıb və yarımçıq sayılar. Aşıq Şəmşir yaradıcılığında dil etikasını onun mühüm tərkib hissəsi olan dil zənginliyi olmadan təsəvvür etmək şətindir. Osman Sarıvəllinin [46,s.89] Aşıq Şəmşir dili ilə bağlı fikirləri bu qəbildəndir: "Bədii, obrazlı dil şeirin ayrılmaz hissəsidir. Zəif və kobud dillə yaxşı şeir yazmaq mümkün deyildir. Yaxşı şeir zəngin dildən bacarıqla istifadə edilməsinin məhsuludur. Ümumiyyətlə, aşıq şeirinin, eləcə də Aşıq Şəmşirin şeir dili çox sadə, təbii, bədii və şirindir. Onun lüğət tərkibini canlı xalq dili, folklorumuzdan, klassik aşıq şeirindən, qismən də yazılı ədəbiyyatımızdan gələn sözlər təşkil edir. Şəmşirin şeirlərində klassik aşıq şeirinin, qəhrəmanlıq və aşiqanə dastanlarımızın, xüsusən "Əsli və Kərəm", "Koroğlu" dastanlarının, Tufarqanlı Abbas, Xəstə Qasım, Miskin Abdal şeirlərinin, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Qurban yaradıcılığının, eləcə də şairlərimizdən Molla Pənah Vaqif, daha sonralar isə xalq şairi Səməd Vurğunun əsərlərinin xeyirxah təsiri duyulur".

Dilin zənginliyindən ustalıqla istifadə edərək təzə poetik düşüncələrlə xalqın qəlbinə girmək, xalqın özünün yaratdığı dili elə xalqın özünə də sevdirə bilmək hər sənətkara nəsib olmur. M.Təhmasibin [116,s.112] Aşıq Şəmşirlə əlaqədar dediyi fikirlər buna bariz misaldır: "Şəmşir zəngin şifahi ədəbiyyat xəzinəsindən, dastanlarımızdan, yazılı ədəbiyyatımızdan çox təsirlənmiş, yaradıcı şəkildə bacarıqla istifadə etmiş aşıqlarımızdandır. O, hətta böyük Füzulinin:

İldə bir qurban kəsərlər xəlqi-aləm eyd üçün,

Dəmbədəm, saətbəsaət mən sənin qurbanınam,

– beytindən istifadə edərək "Olarmı" qoşmasını belə qurtarmışdır:

Şəmşir kəsər quzu sənə qurbanı,
O qamətə, gözəl cana qurbanı,
İldə bir yol olur Mina qurbanı,
Mən gündə qurbanın olum, olarmı?

Məlum olduğu üzrə, Füzuli bu beyti bir xalq bayatısından ilhamlanaraq yazmışdı. Şəmşir isə onu alıb aşıq ədəbiyyatına qaytarmışdır".

Ədəbi mətnlərdə istifadə olunan "təcnis oxucuya bədii zövq verməkdən əlavə, onu həm də dayanmağa, sözlərin məna incəliklərinə yenidən nəzər salmağa az işlənən bir çox termin və ifadələri də yada salmağa vadar edir" [12].

Təcnisin bu estetik potensialini yaxşı anlayan klassik şairlər onun müxtəlif növ və formalarından öz yaradıcılıqlarında geniş istifadə etmişlər. Əsasən klassik Şərq poetikasında bunları "təcnisi-tam", "təcnisi-naqis", "təcnisi-zaid", (yəni "əlavəli təcnis"),"təcnisi-mütərrəf" (yəni "yarım cinas"), (təcnisi mürəkkəb)", təkrarlanan (təcnisi-mükərrər), işarəli (təcnisi-bil-işarət), tərs (təcnisi əks və ya təcnisi-qəlb), törəmə-təcnis – "təcnisi-iştiqaq" və s. kimi təsnifatını aparmışlar (araslı h)

Nəbati də, demək olar ki, bu poetik fiqurların hamısından istifadə etmişdir. Bütün bu nümunələr Nəbatinin poetik mətnin istər semantikasında, istərsə də səs təşkilində təcnisin rolunu yaxşı anladığını və ondan uğurla bəhrələndiyini göstərməkdədir.

Lakin fikrimizcə, deyilənlər Nəbatinin öz yaradıcılığında bir poetik fiqur olaraq, təcnisə verdiyi önəmi göstərmək baxımından yetərlidir. Müşahidələr göstərir ki, Nəbati təcnisin qeyd olunan növlərindən tam (yaxud mütləq) təcnisə daha çox diqqət yetirmiş, bununla da ən yüksək bədii effektə, ana dilinin semantik imkanlarından maksimum istifadəyə can atmışdır.

Görünür elə bu da, şairin iılhamını aşıq poeziyasının çətin, lakin poetik baxımdan qiymətli bir şəkildə- təcnis janrında sınamasına təkan vermişdir. Bu mənada həmin iki məfhum arasında kəskin sərhədin mövcud olduğunu düşünmək olmazdı. Təsadüfü deyil ki, folklor şünas Elxan Məmmədli yazır: “Təcnis və ya cinas şeir janrı, şeir şəkli deyildir. O, şeirin qafiyə quruluşunu tamamlayan, ona forma və məzmun əlvanlığı gətirən, beyt və bəndləri incə çalarlarla zənginləşdirən poetik bir komponentdir” [113].

Bu fikir göstərilən iki kateqoriya (təcnis poetik fiqur və janr kimi) arasında əlaqəni aşkarlamaq baxımından maraq doğursa da, başqa bir folklorşünasın – professor Mürsəl Həkimovun aşağıdakı mülahizələri ilə də razılaşmamaq mümükün deyil: “Təcnisin ilk dövrlərdə qoşmanın bir növü kimi meydana çıxdığı şübhəsizdir. Lakin əsrlərdən bəri böyük birtə kamül dövrü keçmiş olan təcnisə, indi qoşmanın bir növü kimi baxmaq düzgün olmaz. Bizcə, təcnis artıq sazla əlaqədə müstəqil şeir janrı kimi formalaşmış və özünün yeni növlərini yaratmışdır. Təcnis də qoşma kimi açıq poeziyasında köklü, şaxəli, qollu-budaqlıŞ çoxşəkilli görünür. Təcnisin cığalı, dodaqdəyməz, diltərpənməz, nəfəs çəkmə (gedər-gəlməz), müləmmə (çoxdilli), müstəzad (ayaqlı təcnis) və başqa növləri vardır” [60, 61, 62].

Daha sonra tanınmış folklorşünas, prof. Sədnik Paşa Pirsultan yazır. “Aşıq Dirili Qurbani dövründə qoşmanın bir növü kimi meydana çıxan təcnis dörd əsrlik inkişafı boyu təkamül yolu keçərək, şeirimizdə müstəqil janra çevrilmişdir” [159]

Folklorşünas P.Əfəndiyev isə məsələnin ən mühüm amilini – sənətkarın fərdi istedad və bədii məharətini ön plana çəkir: “Məlumdur ki, təcnis formaca eyni, məzmunca müxtəlif olan cinas rədif və qafiyələrlə yaranır. Burada az sözlə dərin məna, geniş fikirlər ifadə olunur. Təcnis yaratmaq sənətkardan böyük istedad, bacarıq tələb edir. Məhz buna görə də belə çətin janrda hər aşıq müvəffəq ola bilməmişdir. Yalnız görkəmli improvizatorlarŞ geniş dünyagörüşünə, zəngin söz ehtiyatına, yüksək sənətkarlıq bacarığına malik sənətkarlar təcnisin gözəl nümunələrini yaratmışlar ” [41].

Dil etikasının mühüm bir tərəfi, əsas şərti dilin qorunmasının vacibliyidir. Bu baxımdan Aşıq Şəmşirin Azərbaycan dilinin müdafiəsinə yönələn şeirlərinin tədqiqata cəlbi məqsədəuyğun və uğurlu oldu. Yuxarıda təcnis haqqında görkəmli folklorşünasların fikirləri geniş yer aldığa halda, təcnis haqqında Aşıq Şəmşirin fikirləri özünəməxsusluq təşkil edir. Bu özünəməxsusluq təcnislə bağlı fikirlərin şeir dilində, xalqa yaxın bir dildə xüsusi bir ekspressivliklə xalqa çatdırılmasındadır. Aşıq Şəmşirin 1959-cu ildə qələmə aldığı “Təcnis” qoşması 9 bənddən ibarətdir ki, elə bəndin 9 olması Ustadın bu şeiri güclü emosional gərginlik altında, dilin qorunmasında sevgisinin, qətiyyətinin ortaya qoyduğunu və dilimizə biganələrə qarşı kəskin satira ilə yazdığı məlum olur. Şeirin birinci bəndində usta-

dın "şair dostu"nun Aşıq Ələsgərin "narın üz" təcnisini başa düşmədiyini dilə gətirir:

Niyə gözdən düşüb gəlmirsən xoşa,
Aşıqlar yanında bahalı təcnis?
Şair dostum dedi məni sal başa,
Nədi bu narın üz – cığalı təcnis? [2,s.139].

Qoşmanın ikinci bəndində Ustad sənətkar təcnisi əlində çıraq tutan arifə, beli zər toqqalı gözələ, başı papaqlı igidə bənzədir. Estetik bir deyimlə təcnisin gözəlliyini vəsf edir. Şeir forması olan təcnisi insanlaşdırmaq Aşıq Şəmşirin böyük sənətkarlığından xəbər verir:

Ozanlar dilində haqlısan, haqlı,
Mənası ziyalı, əli çıraqlı.
Belə zər toqqalı, başı papaqlı
Yaraqlı, yasaqlı, çuxalı təcnis [2,s.139].

Qoşmanın üçüncü bəndində "şair dostu" tərəfindən dodaqdəyməz, diltərpənməz təcnislərin şahmar ilana bənzədilib məhv olunması tələb olunanda aşıq öz halını belə təsvir edir:

Nədi dodaqdəyməz, bu dil tərpənməz?
Şair deyir: bundan məntiq düzəlməz.
Bir şahmar ilandı, baş-gözünü əz,
Necə qəbul edim bu halı, təcnis?! [2,s.139].

Bu yerdə Mikayıl Müşfiqin [118]

Oxuma tar, oxuma tar,
Səni sevmir proletar

– misralarının estetik tutumu yada düşür. Proletar mədəniyyəti adı altında milli mədəniyyətimizə qarşı çıxanlara, bu mədəniyyətin kökünü qazımağa çalışanlara tutarlı cavab kimi həmahəngliyin sehrinə düşürük.

Növbəti mərhələdə təcnisin qiymətini elə həmən "şair dostlara" anladır:

Səndə duyğu dərin, işarə dərin,
Sənsən saf eliyən sözün cövhərin.
Gövhər sərvətisən istəyənlərin
Ləli cəvahirat yaxalı təcnis [2,s.139].

Ustadın söz qalasının kərpicləri təcnisdir. O sökülərsə sənətkarın ürəyi "yuxa"lar, tabı qalmaz.

Mən səndən dursam da bir addım kənar
Cəsədim od olar, alışar, yanar.
Səndən qala çəkib qurmuşam divar
Sökülsən ürəyim yuxalı təcnis [2,s.139].

Qoşmanın altıncı bəndində ustada hörmət, mürşidə sayğı hissi baş qaldırır! Komizmin satira üslubunda oxucu estetik zövq alır:

Görürsənmi oğrun baxan gözəli,
Ələsgərdən qalıb sözün əzəli.
Bir nəfər danışdı, dedi məzəli

Qovulsun anal-balalı, təcnis[2,s.140].

Aşıq poeziyasında lap qədimdən Azərbaycan dilinin zənginliyini dünya dilçilərinə sübut etmək gücündə olan təcnislərin həmişə hörmətli olduğunu bəyan edir, təcnisin müdafiəsinə qalxır.

Əzəldən olmayıb təcnisi atan,
Gözdən salıb ucuz qiymətə satan.
Bülbül nəğməsitək ürəyə yatan,
Oxunanda şirin havalı təcnis [2,s.240].

"Təcnis" qoşmasının son bəndində – möhürbəndində təcnisə tərif verir. Müasir Azərbaycan ədəbiyyatındakı tərifə uyğun olaraq şeir dilində tərif verir.

"Təcnisin sığalı onun məzmununda ortaya çıxır" dil fəlsəfəsini "şair dostlara" – dilimizə biganə olanlara, dilimizin zənginliyinə bələd olmayanlara, bələd olmamaq eyib deyildir, sadəcə zəhmətə qatlaşmaq istəməyən tənbəllərə bir folklorşünas alim kimi izah edir:

Şəmşirəm, qəlbimin eşqi həvəsdi,
Bu bir həqiqətdi, demə əbəsdi.
Hərçəndi ***müxtəlif*** heca bir səsdi,
Məzmunda götürər sığalı təcnis [2,s.240].

Aşıq şeirinin ən çətin formalarından biri "aşıq poeziyasının zirvəsi" hesab olunan təcnisdir. Təcnis yaratmaq sənətkardan böyük məharət tələb edir və onun sənətkarlıq qüdrətini nümayiş etdirir. Təcnis yaradıcılığını araşdıran folklorşünas E.Məmmədli haqlı olaraq yazır: "Əsl təcnisləri

– bədii siqləti, məna və məndəricəsi, estetik emosional təsiri, fəlsəfi yükü, məntiqi axarı qabarıq nəzərə çarpan sənət incilərini ancaq fitri istedada sahib olan kamil sənətkarlar yarada bilər" [58,s. 199].

"Gəraylı təcnis", "Xətəngi təcnis", "Ayaqlı təcnis", "Cığalı təcnis", "Nəfəsçəkmə təcnis", "Dodaqdəyməz təcnis", "Zəncirləmə təcnis", "Öyüdləmə cığalı təcnis", "Əvvəl-axır hərf üstə təcnis". Burada məzmunla formanın bir-birini izləməyini gözləmək lazımdır [58,s. 200].

Prof. R.Hüseynov sənətkarın yaradıcılığının bu xüsusiyyəti haqqında yazır: "Aşıq Şəmşir Azərbaycan şeirlərindəki çox vacib bir qanadın, aşıq şeirinin ən üst qanadlarından birinin – təcnisin mahir yaradıcısı və bilicisi olub". Öz növbəsində tədqiqatçı A.Cəmil [6] də qeyd edir ki, Aşıq Şəmşir Azərbaycan türkcəsinin zəngin leksikonundan gen-bol istifadə etməyi bacaran sənətkar olmuşdur. ...Aşıq poeziyasında sənətkarlığın zirvəsi sayılan təcnis Dədə Şəmşirin yaradıcılığında da özünəməxsus yer almışdır. Aşığın yaradıcılığında təcnisin "qara təcnis", "gəraylı təcnis", "bayatı təcnis" kimi formalarına təsadüf olunur.

Aşıq Şəmşir poeziyası zəngin bədii dil xüsusiyyətlərinə malikdir. Onun yaradıcılığında ana dilimizin poetik imkanları bütün gözəlliyi ilə öz təcəssümünü tapmışdır. Bu da öz növbəsində Şəmşirin yaradıcılığının məcazlar sisteminə, poetik sözun bədii imkanlarından istifadə üsullarına diqqət yetirmək zərurətini ortaya qoyur. "Aşıq Şəmşirin Azərbaycan xalqına və millətimizə ən böyük xidmətlərindən biri onun dilimizə xidməti olmuşdur. Azərbaycan türkcəsinə xidməti olmuşdur. O, yaradıcılığı ilə Azərbaycan türkcəsini zənginləşdirdi". Bildiyimiz kimi, dilin bədii təsvir və ifadə

vasitələrindən yerli-yerində istifadə sənətkarlardan böyük məharət tələb edir. Poetik sözün bədii imkanlarılndan istifadə sənətkarın fərdi istedadını gerçəkləşdirir. “Məcazlar qüvvətli, ən təsirli bədii ifadə vasitəsidir. Burada sözlər özünün həqiqi mənasında deyil, başqa-başqa məna çalarlarında işlədilir ki, bu da aşıqdan xüsusi istedad tələb edir” [58,s. 212-213].

Aşıq Şəmşir burada klassik ədəbiyyatdan gələn ənənəvi məcazlardan bəhrələnmiş, bununla yanaşı, onlara fərdi poetik duyumunun gücü ilə yeni nəfəs vermişdir. Aşıq burada ənənə ilə yanaşı, fərdi istedadını üzvi poetik qovuşmada təqdim etmiş, beləliklə zəbanı şəkərə, dəhanı əsələ (bala), ağızı qəndə, zülfü kəməndə bənzətməklə özünəməxsus, təzə-tər bənzətmələr yaratmağa nail olmuşdur.

Aşıq poeziyasında ən çox işlənən təsvir vasitələrindən biri təşbehlərdir. “Şeirin başlıca linqvistik və məntiqi əsasında məcazi sözlərin xüsusi çəkisini artıran onun dolğunluğu və bitkinliyidir. Bu baxımdan təşbehlər şeirdə daha geniş bədii vəzifə daşıyır”. “Təşbehdən məqsəd fikri daha da canlandırmaq və qüvvətləndirməkdir” [58,s.214].

Məcazlar sistemində özünəməxsus yer tutan metonimiyalar aşıq poeziyasında da müraciət olunan təsvir vasitələrindəndir. Bu bir həqiqətdir ki, “...metonimiya klassik aşıq poeziyasının dilində metaforalara nisbətən çox məhdud şəkildə işlənir və növ müxtəlifliyi baxımından da onun kimi zəngin deyil. Aşıq Şəmşir yaradıcılığında da ara-sıra rast gəlinən təsvir vasitələrindən biri metonimiyadır:

Köz kimi qızarıb dağlarda lalə,  
Çağırır nərgizli yaylaqlar səni,  
Taxtadüz haçandır göz dikib yola,  
İstisu üstündə qonaqlar səni.

***

Gülür Ağstafa, Qazax, Qarabağ,
Qoşqarın başında yanır min çıraq

– misraları da məkana görə metonimiyaya nümunə ola bilər. Göründüyü kimi, aşıq şeirin emosionallağını, poetizmini artırmaq üçün metonimiyalardan uğurla istifadə etmişdir.

Aşıq Şəmşir yaradıcılığı üçün xarakterik olan bədii təsvir vasitələrindən biri də mübaliğədir. Sənətkar fikrin, ideyanın daha qüvvətli və təsirli alınması üçün mübaliğələrdən istifadə etmiş və bu zaman mübaliğənin (bədii şişirtmənin) sərhədlərini yüksək ustalıqla gözləyərək bədii ideyanın daha dolğun təcəssümünə, bədii reallığın yüksək estetizminə nail olmuşdur [58,s. 220].

Sözə qiymət, söz sənətinə hörmət sonda Azərbaycan dilinə sayğıya gətirib çıxarır ki, elə bu özlüyündə dil etikasına töhfədir. Aşıq Şəmşir yaradıcılığı boyu ustad-şagird, mürşid-mürid prinsipinə, ierarxiyasına sadiqdir. Qoşmalarında keçmişimizi gələcəyimizə təmtəraqla təqdim etməklə inkar qanununun təməl prinsiplərini qoruyur:

Lağlağıdan uzaş, demə hədyanı,
Qoşulma qanmaza, əzmə qananı,
Dərin düşün, yadına sal Qurbanı,
Mərdə tərif, bülbülləri gülə yaz [1,s.243]

Qələm, qələmlə təsvir olunan vəziyyət heç vaxt qocalmır. Qələmin təsviri, qələmin gücü həmişə təzədir, növcavandır. “A yazdımı gör” təcnisindəki kimi:

Şəmşir istər, qeydimə bir qal, əmim,
Nun nahanım sat ismində qala mim,
Mən qocaldım, növcavandı qələmim,
Nəğməsini nəcib a yazdımı gör? [1,s.484].

“Lala dağları” təcnisində Aşıq ilahi bir özünəinamla, ilahi bir özünütəsdiqlə özünü o dağların “dilavar”ı adlandırır:

Bu meydanda kimdi igid, kimdi nər?!
Yoxsul üçün qıyan olar kim dinar?!
Şəmşir, sənsiz kim danışar, kim dinər?!
Tapşırıb gedirsən lala, dağları [1,s.488]

Sözün qiymətini bilmək, ariflər yanında sözün mənasını bilmək kimi fikirlər “Sözümü” qoşmasında olduğu kimi:

Şəmşir sözlərini dedi, qurtardı,
Ariflər yanında mənası vardı,
Şairlər qəlbində açıq bazardı,
Dedim qədirbilənlərə sözümü [2,s.76].

Aşıq Şəmşir yaradıcılığında xalqdan gələn deyimlər, məsəllər, atalar sözləri, bayatılar, cinaslı tapmacalar özünəməxsus yer tutaraq dilimizin zənginliyini ortaya qoyur:

Şəmşirəm, bilirəm dürr qiymətini,
Cavan qiymətini, pir qiymətini,
Zərgər olan bilər zər qiymətini,
Verin qədir bilənlərə sözümü [3,s.46].

Aşıq Şəmşir istifadə etdiyi atalar sözlərində bəzən şeirin daxili ahəngini və ritmini qorumaq üçün söz sırasını dəyişsə də lakin bu dəyişiklik atalar sözünün mənasına heç bir xələl gətirməmiş, yeni poetik deyimlər yaratmışdır:

“Göz baxsa tanıyar yediyi aşı,
Quru alışanda yandırar yaşı” [3,s.66].

Bu nümunədə “quru oduna yaşlar yanar, alışar daşlar yanar” atalar sözünü müəllif dəyişdirmiş, şeirin daxili strukturuna uyğunlaşdırmışdır [24].

“Sirrini dostuna demə, çünki dostunun da dostu var” atalar sözünü isə Aşıq Şəmşir “Aşıq” adlı divanisində belə ifadə etmişdir:

Dost sirrini dosta demə, saxla möhkəm sirr budu,
İnsanlara lazım olan namus, qeyrət bir budu

Ədəbiyyat, folklor dilsiz təsəvvür olunmur ki, bu baxımdan dil etikasının inkişafı dilin zənginliyinin xalqa elmi şəkildə çatdırılmasından asılıdır. Məhz buna görə də Aşıq Şəmşirin yaradıcılığında Azərbaycan dilinin dərin qatlarının araşdırılıb üzə çıxarılması bu gün də vacibdir. Ədəbiyyatşünas alim İlham Məmmədlinin [82] araşdırdığı o zənginliyin müəyyən məqamlarını monoqrafiyada yerləşdimək maraqlı oldu: “Aşıq Şəmşirin şeirlərinin dilini diqqətlə araşdırmaqla belə bir həqiqəti qəbul edirik ki, ustadın ölçüyəgəlməz dərəcədə zəngin leksikonu vardır. Onun əsərlərində bədii söz yüksək dərəcədə ali məqsədlərə xidmət edir, ana dilimizin ifadə imkanlarını bütün genişliyi ilə açıb

göstərir, ədəbi dilimizi məna incəlikləri ilə dolğunlaşdırır, yeni-yeni çalarlar, cümlə quruluşları, intonasiya rəngarəngliyi yaradıb bədii üslubun ixtiyarına, dövriyyəsinə verir. El aşığının dilində işlənmiş aşağıdakı xalq deyimlərinin, frazeoloji birləşmələrdən bir silsilə vermək yerinə düşərdi: Könlü açılmaq, cida düşmək, eyni açılmaq, qəlbi dağa dönmək, üzü gülmək, köçüb getmək, (dünyasını dəyişmək), ayrı düşmək, soraq vermək, xətrini əziz tutmaq, şam başına dolanmaq, dəngəsər eləmək, rəhmi gəlmək, üzü ağ eləmək, buludtək dolmaq, kam almaq, xətrinə dəymək, könül həmdəmim, söz bazarı, bel bağlamaq, can vermək, tələ qurmaq, dilinə qadağa vermək, çəhlim salmaq, beli doğanaq olmaq, qürrə atmaq, qəlbi doluxmaq və s. Bu cür frazeoloji birləşmələr yüzlərlədir. Biz burada göstərdiklərimizlə kifayətləndik... Bir cəhəti də deyək ki, belə ifadələrdən eləsi var ki, Azərbaycan dilinin izahlı lüğətinə düşməyib. Məsələn: Kimdənsə sidqi sınmaq:

Səbəb nədir axır məndən
Gözəl sidqin sınıb sənin?

Bu ifadə "üzü dönmək, incimək" anlamını verir.
Daha bir nümunə: beli doğanaq olmaq:

Saqqal ki ağardı, gəzmə cavanlıq,
Qocalıqda bu iş, lələ, çətindi.
Qədd əyilir, belin olur doğanaq.
Ümid olma o düzələ, çətindi.

Xalqın mental düşüncəsinə gedən yol frazeologizmlərin köməyi ilədir ki, İ.Məmmədli [82] Aşıq Şəmşir yaradıcı-

lığında bunlara aydınlıq gətirir. Təkcə yuxarıdakı bu gün "arxaik" sayılan "beli doğanaq olmaq" frazeologizmi mənanın şüurlara dəqiq çatdırılmasına xidmət edir.

Aşıq Qurbaninin poetik irsinin araşdırıcısı Q. Kazımov [82] doğru olaraq qeyd edir: "Milli ədəbi dilimizin inkişaf yolunun tədqiqi prosesində biz daim başqa bir yanlış yolu rəhbər tutmuşuq – el sənətini, el ədəbiyyatını, xalqın öz dilində danışan, ədəbi dilin əsl səviyyəsini, təbii mənzərəsini əks etdirən ədəbiyyatı dördüncü, beşinci plana keçirmiş, savadlı təbəqə üçün, bəlkə də, qəsdən ağır və zəhmli dildə, arxaik formaları qoruya-qoruya yazan klassik sənət ustalarının dilini ədəbi dilin inkişafı üçün əsas meyar kimi götürmüşük. Bu fikirlər mövzunun daha həssaslıqla elmi təhlilə cəlb edilməsini tələb edir. Aşıq Şəmşirin leksikası göstərir ki, bir sıra sözlər yeni semantika ilə təqdim edilir. Aşıq Şəmşirin şeirlərində Azərbaycan dilinin leksik imkanları öz əksini tapmışdır. "Bilməz" şeirindəki misralara nəzər salaq:

İstəkli olana şirin zəbanam
Şəmşirin dilinə dil çata bilməz

Bu nümunədə metonimiya aydın nəzərə çarpır. Şəmşirin dili Azərbaycan dilidir. Bu dilin qüdrətinə, əzəmətinə dil çata bilməz. Sözə dəyər verən, sözü yüksək qiymətləndirən, sözdən istifadə edərkən xüsusi məharət göstərən aşıq sözü qızıla bənzədir:

Söz qızıldı qədirbilən insana,
Xilaf desən yaxşı dosta yaraşmaz.

Və yaxud:

Hədər söz insanı doğrayar, kəsər,
Hər nə söhbətin var, elə müxtəsər.

Və yaxud:

Ayrı salmaq bu fələkdən peşədir,
İnan, söz qanana söz əndişədir.

Ana dilimizin leksik imkanlarından məharətlə istifadə edən sənətkarın şeirlərindən qruplaşdıraraq qeydə aldığımız dil faktlarını bölgü üzrə təqdim etdik [133].

Düşünürük ki, gələcəkdə Aşıq Şəmşir timsalında folklor sahəsində yaradıcı ustad aşıqların dil-üslub xüsusiyyətlərinin daha da dərindən tədqiqi Azərbaycan dilinin inkişafına öz töhfələrini verəcəkdir.

## 2.3. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA DİNİ ETİKA

Fəlsəfə din zəminində yaranmışdır. Aristotel Allahı əbədiyaşar bir varlıq, bütün hərəkətin qeyri-maddi forması və hərəkətsiz mənbəyi kimi təsəvvür edirdi. O deyirdi: "Əbədi, hərəkətsiz və hissi şeylərdən təcrid olunmuş bir varlıq mövcuddur... Allah canlı, əbədi, ən yaxşı varlıqdır". Quran da Allahı təxminən eyni şəkildə səciyyələndirir: "Allah təkdir, daim canlı, hər yerdə mövcud olan, Ondan qeyri ilahi varlıq yoxdur" [98,s.14].

*Din* – dünyagörüşün spesifik forması olub, dünyanın qavranılmasında onun ikiyə bölünməsini irəli sürür. Axirət dünyası və təbii dünyaya bölünən dünya din tərəfindən fövqəltəbii qüvvələrin fəaliyyət məhsulu kimi təqdim olunur. Doğrudan da gerçəkliyin insan beynində qeyri– adi inikası, yer qüvvələrinin səma qüvvələri şəkli almış inikası hesab edilən din min illərdir ki, elə bu şəkildə də başa düşülür. Süni (nəzəri, bədii, yaxud başqa) dünyanın real, həyati dünyadan fərqləndirilməsi – onun insanlar tərəfindən ruhi mənimsənilməsinin başlıca cizgisidir. Məsələn, biz tez-tez eşidirik: «elmi nəzəriyyələr aləmi», «nağıllar aləmi», «musiqi dünyası» və s. Dinin spesifikası onun «ikinci dünyanı» kəşf etməsinin xüsusi xarakteri və məzmunu ilə bağlıdır. Dində başlıca cəhətlər etiqad və ayinçilikdir. *Etiqad* dinin daxili çəhəti, *ayinçilik* onun xarici, praktik, özününümayiş və özünütəbliğ cəhətidir. Etiqad, əqidə – dini şüurun mövcudluq üsulu, insanın daxili vəziyyətini səciyyələndirən xüsusi əhvali-ruhiyyə, həyəcan və s.-dir. Dini təsəvvürlər cəmiyyətin tarixi inkişafının məhsuludur. Bəşər cəmiyyəti müxtəlif insanlardan ibarət olduğu kimi,

həmin insanlar da müxtəlif əqidəyə, etiqada xidmət edirlər. Dünya dinləri – islam, xristianlıq və buddizm hər birisi bir milyarddan çox tərəfdarı olan dinlərdir.

Dini dünyagörüşün təbiəti olduqca mürəkkəb olub, diqqətlə öyrənilməsini tələb edir. Əlbəttə, yetmiş ildə SSRİ adlanan ölkədə ateizm dövlət ideologiyası səviyyəsinə yüksəldiyindən dini ideologiya səthi öyrənilir, ona birtərəfli qiymət verilirdi. Müasir islam öz ardıcıllarının sayına əsasən xiristianlıqdan sonra dünyada ikinci yeri tutur. Təxmini hesablamalara görə, islam dininə etiqad edənlərin sayı bir milyardı ötmüşdür. Asiya və Afrikanın 28 ölkəsində islam rəsmi dövlət dini kimi tanınır. Bəzi ölkələrdə isə islam hətta dövlətlərin rəsmi adlarına da əlavə olunmuşdur. Məsələn, İran İslam Respublikası, Pakistan İslam Respublikası, Mavritaniya İslam Respublikası və s.

Bütün bunlar bir daha sübut edir ki, islam tarixən formalaşan və indi də mövcudluğunu saxlayan ideoloji sistem kimi fəaliyyət göstərir. Bu faktın dərk edilməsi tarixi hadisə kimi islama qiymət verərkən birtərəfliyə və subyektivliyə aparıb çıxara bilər. Sosializm cəmiyyətində dinə münasibətin biz hamımız şahidi olmuşuq. Uzun müddət dərk edilmirdi (dərk edilsə də qətiyyən etiraf edilmirdi) ki, din mənəvi mədəniyyətin tərkib hissəsi, özünün sosial təbiəti, funksiyası olan ideologiya formasıdır. Yetkin dinlərdə Allah ideyası bütün yerdə qalan fövqəltəbii qüvvələri üstələyir. Allah hər şeyə qadir, adil və xilaskardır. Allah əxlaq qoruyucusu, ədalət və yüksək mənəviyyat mücəssəməsidir. Bu o deməkdir ki, dini ideyalara Allahın göstərişləri kimi riayət edilməsi, zəruri prinsiplər ümumbəşəri mənəvi sərvətlərin inkişafı və zənginləşməsi yolunda başlıca amilə çevrilir.

Ümumiyyətlə, din olduqca mürəkkəb və ictimai– tarixi hadisə olub və yüksək mahiyyətə malikdir. Dinin ən mühüm və tarixi missiyası insanlar arasında vəhdətlik, vahidlik əqidəsinin yaradılmasında, ümumbəşəri əxlaqi normalarının formalaşmasında böyük rola malik olmasındadır. Lakin dini dünyagörüşdə fanatizmin, başqa dinlərdən olanlara qarşı düşmənçilik hissinin (bax: xristian–müsəlman qarşıdurması) və s. ünsürlərin yer tutduğunu da müşahidə edə bilərik.

Din özünün zəngin ayin və mərasimləri vasitəsilə məhəbbət, xeyirxahlıq, səbir, əzablara sinə gəlmək, nəciblik, vicdan, borc, ədalət və s. müsbət keyfiyyətlərin təbliğinə və müdafiəsinə xeyli kömək edir. O, insan mənəviyyatının daim zənginləşməsi qayğısına qalır. Bundan əlavə, mədəniyyətin ideal cəhətləri ilə əlaqədar olduğundan onu çox vaxt rasional – nəzəri formada şərh etmək çətin olur [8,s.34-36].

Dinlə bağlı ulu öndərin fikirləri bu yarımfəsildə öz əksini tapmışdır. Heydər Əliyevin dini üslublu çıxışlarında auditoriyalar religioz sistemlərin etik nüvəsi ilə tanış olur. Mühüm etik kateqoriya olan mənəviyyatın inkişafında dinin – islam dininin xüsusi rolu auditoriyalara sadə, anlaşıqlıqlı bir dildə çatdırılır: "İslam dini əsrlər boyu bizim ***mənəviyyatımızın*** əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün ***məşəldir***. Biz bu yolla gedirik və gedəcəyik" [ IIc.s.144].

Ali İmran surəsinin 19-cu ayəsində deyilir: "Allah yanında bəyənilmiş din İslamdır. Kitab əhli o dinin haqq olduğunu bildikdən sonra aralarındakı paxıllıq ucundan

ixtilafa başladılar. Hər kəs Allahın ayətlərinə kafir olsa qorxsun ki, Allahın hesabı tez yetişəcəkdir”.

Din ilə fəlsəfənin yaxınlığı onunla ifadə olunur ki, onların hər ikisi adamların şüuruna və davranışına, əxlaqına təsir edən dünyagörüşün ictimai tarixi formalarıdır. Lakin onların bir-birindən fərqi olduqca böyükdür. Min illər boyu filosofların çox cüzi hissəsi dindar adamlar olmuşlar. Çünki fikrin inkişafı üçün mühüm olan və səciyyəvi hesab edilən cəhət azadfikirlilikdir. Təbiidir ki, bütün zəmanələrdə azad düşünə bilmək, ancaq yüksək təhsil görmüş, intellektual cəhətdən son dərəcə inkişaf etmiş ruhən güclü adamlara xas olmuşdur. Təsadüfi deyildir ki, dindən fərqi olaraq fəlsəfə dünyagörüşün intellektual aspektini ön plana çəkmiş, dünyanı və insanı dərk etməyi bilik və əql mənafeyindən həll etməyə cəhd etmişdir. Elə buna görə də qədim yunanlar fəlsəfəni «hikmətsevərlik», «müdriklik» elmi kimi təqdim və təbliğ etmişlər. Böyük Nizami yazırdı:

Qüvvət bilikdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz [8,s.37].

Elə bu məqamda filosofların öz-özlərini inkar etmələrinin şahidi oluruq. Əgər bir tərəfdən fəlsəfəni dindən ayırıb, sanki din elmlə bağlı deyil deyirlərsə, digər tərəfdən Şeyx Nizamidən sitat gətirirlər. O Nizamidən ki, bütün poemalarını Allaha, sonuncu dinin peyğəmbərinə minacatla başlayır, yeri gəldikcə yunan alimlərinin əsərlərinə də müraciət edir. Bu 70 illik sovet dövrünün qalıqlarının hələ də yaşamasını göstərir.

Aşıq Şəmşir yaradıcılığında dini etikanın formalaşmasında təbii ki, atası Ağdabanlı Qurbanın təsiri həmişə

duyulmaqdadır. Professor Məhərrəm Qasımlı [101;102; 104] bütün bunlara aydınlıq gətirir, dini etika fəslinin yazılmasına elmi istiqamət verir: “Xalq müdrikliyinin yüzilliklərin dərinliyindən gələn mənəvi gücünü ancaq böyük istedad sahibi əsil sənətkar mizan-tərəzisi ilə çatdıra bilər. Müqəddəs Qurani-Kərimin dərin qatlarına, klassik Şərq ədəbiyyatına və ozan-aşıq mədəniyyətinə dərindən bələd olan Ağdabanlı Qurban poetik irsinin hər bir örnəyində, özəlliklə də divani, müxəmməs, təcnis və ustadnamələrində bu mizan-tərəzi Dədə Qorqud öyüdlərindəki kimi dahiyanə bir ölçü-biçi içərisindədir:

Qurban, qəm eyləmə, Kərəm kanı var,
Adil zalım olmaz, Haqq divanı var.
Endirən-qaldıran nərdivanı var,
Enən ağlayarmış, qalxan gülərmiş”.

İslamda tarixin başa düşülməsinin dəyər meyarlarına vurğu güçlüdür: burada hökm surən təsəvvürə görə cəmiyyət zaman etibarilə irəlilədikcə öz mənbəyindən, Məhəmməd peyğəmbərin və mömin xəlifələrin dövrü olan "qızıl əsr"dən uzaqlaşır. Lakin bu, ümidsizlik doğurmur – dəyərlər sahəsində insanın özünün mənəvi tərəqqisinə nail olmaq üçün cəmiyyət keçmiş ideala – “islamın qızıl əsri” idealına istıqamətlənməlidir [98,s.325].

İslamın qızıl əsrinə doğru istiqamətdə aşıq yaradıcılığının rolu burada özünü açıqca bildirir. Aşıq Şəmşir yaradıcılığının araşdırılması bu yolda mühüm əhəmiyyət kəsb edə bilir. Dini etika çağımızda multikultural dəyərlərlə uzlaşır. Ustad üçün təkallahlılıq dinlərinin əsası Adəm peyğəmbərlə qoyulmuşdur. “Mənim” rədifli qoşmada Adə-

mi “ata” adlandırır, sonrakı bənddə sonuncu dinin – İslamın peyğəmbəri Məhəmməddən söz açır:

Ey Adəm peyğəmbər, sən oldun əzəl
Dilimdə əzbərim, ay ata, mənim.
Qadiri zülcəlal, baqi ləm yəzəl,
Qoyma kəskin baxtım a yata, mənim [1,s.441].

İsalmda şeirə münasibət, şairlərə münasibət həmişə müsbət olmuşdur. *Təsadüfi deyildir ki Həzrəti Məhəmməd peyğəmbər* öz əbasını dövrünün şairinə bağışlamışdır. Aşıq Şəmşir İslam şairidir. İslam şairləri kimdir? Elə bu ritorik sualı belə də cavablandırmaq olar ki, İslam şairləri İslam dinini öz ana dilində, öz xalqının başa düşüb anladığı dildə xalqına, millətinə seir dilində çatdıran söz ustalarıdır. Ulu Şəhriyarın [100] “Şeir və hikmət” poemasında Qurani-Kərim ilahi bir şeir kimi təqdim olunur, Quran səsi eşdilməyən bu dünya “kədər-qəm”, cənnətsə “cəhənnəm” kimi təsvir olunur:

Şeirsiz bu dünya kədər-qəm kimi,
Şeirsiz cənnət də cəhənnəm kimi.

Ərəbcə nazil olmuş, elə bu dildə də islam ümmətinə çatdırılmış Qurani-Kərimin ayələri Azərbaycan dilində Aşıq Şəmşirin müxəmməslərində sadə, rəvan, axıcı, ürəyəyatımlı, yaddaqalan misralarla bəşəriyyətə yönəlir:

Həm mürüvət, həm səxavət, ey mehriban səndə var,
Rəhm, insaf, dada yetmək, kömək hər an səndə var.
Şəmşir sənin zəlil bəndən, dərdə dərman səndə var,
Gəlmişəm böyük qapına, dərmana Pərvərdigar![1,s.15].

Aşıq Şəmşirin dini motivli şeirləri ilk dəfə 1996-cı ildə çapdan çıxan "Öyüdlər" kitabında işıq üzü görmüşdür. Buraya aşığın "Bağışla, Allah", "Qurbanıyam mən", "Amandı", "Aşiqəm", "İlahi", "Əli" və s. kimi qoşmaları, "Sən Heydər mənə", "Sən ağa", "Ay dada yetir", "Ya sına məni", "Ay ağam hey bir" və s. təcnisləri, "Ya Əli", "Pərvərdigar", "Mən", "Gəl", "Gərək", "Əli" kimi müxəmməs və divaniləri daxil edilmişdir [158].

Aşıq Şəmşir poeziyasında Allahın vəsfinə həsr olunmuş şeirlər çoxluq təşkil edir. Qeyd etmək lazımdır ki, sovet dövründə yaşamasına baxmayaraq, Şəmşir heç vaxt ateist olmamış, Allahı, onun varlığını inkar etməmişdir. Sənətkarın Allaha olan böyük sevgisi, ilahi eşqi onun yaradıcılığında bu və ya digər şəkildə həmişə ifadə olunmuşdur. Belə şeirlərin bir qismində Allah tərif olunmuşsa, digər qismində təsəvvüfi ideyalar öz təcəssümünü tapmışdır. O, öz şeirlərində Allaha mövcud poetik ənənədən irəli gəlməklə daha çox Yaradan, Rəbb, sübhan, Rəhman, Pərvərdigar adları ilə üz tutmuş, daim Onun böyüklüyünü və ucalığını tərənnüm etmişdir [158].

Aşıq Şəmşir Həzrət Əliyə (ə) o qədər dərin məhəbbət bəsləmişdir ki, hətta axirət dünyasına sonuncu səfərində, məzar sorğu-sualında ustadının Əli (ə) olmasını arzulamışdır.

Şəmşir, qoy bələdçin bir alim olsun,
Mən ondan dərsimi bir alım, olsun.
Məzarda ustadım bir Əlim olsun,
Asan sual versin, bir sin içində.

İslamın aşıq sənətində yeri və mövqeyi həmişə uca və möhtəşəm olaraq sənətin poetikasını zənginləşdirmişdir. İslamiyyətə keçiddən bu günə kimi bütün sənət daşıyıcıları müqəddəs mövzuya toxunmuş, bir növ sənətdə belə öz itaətkarlıqlarını göstərmişlər [86]. Bayatlı Abbas "Bismillah" şeirində yazır:

Qaşına yazılmış sətri-bismillah
Cəbimin sereyi Nəsru-minallah,
Üzün görən deyər əlhəmdu-lillah
Adı kafir isə imana gəlir.

İslam fəlsəfəsinə söykənən Ustad dinin özünün belə dialektik qanunlardan qaça bilməməsi fəlsəfəsini ortaya qoyur. Əsil qəlbində Allah sevgisi daşıyan dindarlarla yanaşı münafiqlərin də mövcudluğu diqqətə çatdırılır, ikiüzlü münafiqlər lənətə tuş gəlir. Münafiqun surəsinin 3-cü ayəsində bu barədə deyilir: "Dildə iman gətirib sonra ürəkdə kafir olduqları üçün Allah da zülmət və qəzəb möhürünü onların ürəklərinə vurmuşdur ki, imanın həqiqətlərindən heç nə dərk etməsinlər".

Bu sözdən bir misal götürsün hərə,
Lənət gəlsin belə zalım bəşərə.
Qoy yaddan çıxmasın, yazdım dəftərə,
Neçə kafər müsəlmanı görmüşəm [1,s.212].

Münafiqlər barəsində Aşıq Ələsgər "Diliylə zəbanı üzbəüz ola" deməklə onların iç üzünü sadə dildə ümmətə çatdırır:

Mən istərəm alim, mömin yüz ola,
Meyli haqqa doğru, yolu düz ola
Diliylə zəbanı üzbəüz ola,
Ələsgər yolunda can qurban edər [17,s.165].

Bəşəriyyətin dinlərarası, dillərarası, məzhəblərarası kin-küdurətlə üzləşdiyi çağımızda ümumbəşəri dəyərləri özündə ehtiva edən dinlərə müraciət təsadüfi deyil. Aşıq Şəmşirin "Pərvərdigar" müxəmməsi bu gün də qana, terrora, harama yox deməyə çağırır. Bu müxəmməsdəki fikirlər Əl Bəqərə surəsinin, 172-ci ayəsi ilə **(**Ey iman əhli! Sizə nəsib etdiyimiz halal və pakizə ruzilərdən yeyin və Allahın şükrünü əmələ gətirin və yalnız Ona həmd edin. Əgər Allaha xalis ibadət edənlərsinizsə!) həmahəng səslənir:

Ürəklər kinlə doludur, cisimlərdə qan haram,
Tanımır yaradanı, olubdu nadan haram.
Süfrəsi napak açılır, nazi-namək, nan haram,
Özün yetir bu neməti halala, Pərvərdigar! [1,s.14]

Bəşəriyyətin halallığa aparan yolunun Pərvərdigardan keçdiyi müxəmməsdə aydın verilir.

Ərəstudan "Bəli!" – dedim, qadiri-sübhana mən,
Qane oldum nübuvvətə, yola mən, ərkana mən.
Aləmləri xəlq eliyən dost bildim bir Allahı,
Sidqi-dildən sığınmışam bu bir Kərəm kana mən.

***

Şəmşirəm, halalıma haram maya qatmadım,
Bir bəşərə tələ qurub hiylə-kəmənd atmadım,

Bir ziyarət arzuladım, təmannaya çatmadım,
Getdim həsrət intizarlı ey çərxi-zamana, mən [1,s.23].

Yuxarıdakı müxəmməsin iki bəndində olan ilahi misralar Ənam surəsinin ayələrini özündə əks etdirir: "Ənam surəsi, 2-ci ayə. "O, həmin kəsdir ki, sizi gildən yaratdı, sonra O bir müddət təyin etdi. Və müəyyən və məlum olan əcəl Onun yanındadır. Yenə qüdrətli ayətlərinə şəkk edəcəksinizmi?

Ənam surəsi, 73-cü ayə. "Göyləri və yeri haqq olaraq yaradan Odur. O hər bir şeyə ol dedikdə yubanmadan o var olar. Onun sözü haqdır ".

Burada aşıq əhli-beyt sevgisini yüksək bir təvazökarlıqla dilə gətirir. Şair-publisist Qənbər Şəmşiroğlu atasının imam Rzanı Məşhəddə ziyarət etmək arzusunun Sovetlər dönəmində mümkün olmadığından danışır:

Əli ibni əbu Talib
Mənim ustadım olub.
Şəmşirəm, dar günümdə
Kömək, imdadım olub.
Əfsun bilik sahibiyəm,
Azca savadım olub.
Yetişmişəm təmənnaya,
Şahsuvarın eşqinə [1,s.32].

Kərbəla faciəsi ilə bağlı klassiklərimizlə yanaşı Aşıq Şəmşir yaradıcılığında da İslamı təriqətsiz görmək istəyi, multikultural dəyərlər dediyimiz əxlaqi dəyərlərə çağırışlar mövcuddur: Akademik Möhsün Nağısoylu "Füzulinin Hədüqətüs-süəda (Xoşbəxtlər bağçası)" əsərində bu məsə-

lələrə aydınlıq gətirir, İslamda təriqətlərarası ziddiyyətlərin qəbuledilməzliyini gündəmə gətirir: “Türk ədəbiyyatında da məqtəl (imam Hüseynin Kərbalada şəhid olması) mövzusunda bir sıra əsərlərin yazılması göstərir ki, Kərbala müsibəti təkcə şiələr üçün yox, eyni zamanda sünnilər üçün də faciəli bir hadisə kimi dərk edilmiş və bu faciənin qəhrəmanı imam Hüseynə (Ə) olan sevgi və məhəbbət müxtəlif məzhəblərə etiqad edən bütün müsəlmanlar arasında olduqca güclü olmuşdur. Onu da qeyd edək ki, Osmanlı padşahı Sultan Süleyman Qanuni 941-942 /1534-35-ci ildə həzrət imam Hüseynin (Ə) Kərbaladakı “türbəsini ziyarət etmiş və su kanalını təmir etdirmiş, qumlarla örtülü olan sahələri bağça halına gətirmişdir”. Akademikin bu multikultural ideyaları Ustadın aşağıdakı ritorik sualla – “Niyə qırır bir-birini peyğəmbərin övladı?!” – bəzədilmiş misralarında özünə yer alır:

Ac-susuz çölə düşüb insanlar ot otladı,
Körpələr süngə taxılır, yox olub hər imdadı,
Niyə qırır bir-birini peyğəmbərin övladı?!
Qadir Allah, bu millətin artıb çox cəfası, gəl! [1,s.33]

Bu yerdə Əhli-beyt sevgisini öz şeirlərində yaşadan söz ustalarının yaradıcılığına baxış keçirməmək olmur. XX əsrin əvvəli görkəmli saz-söz ustadı Növrəs İmanın əhli-beyt aşiqliyindən söhbət açmaq yerinə düşər: “Növrəs İmanın ilham çeşməsi elə bir ruhani-ilahi potensiyadan qaynaqlanır ki, məhz bir neçə yüz illik aşıq poeziyasının Miskin Abdal, Qurbani, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər kimi övliya nümayəndələri, haqq aşıqları da bu mənbədən qidalanmış, öz ilhamlarını oradan almışlar [46].

"Növrəs İman səmimi bir Əli asiqidir. Onun nəzərində Həzrət Əli insan kamilliyinin kuliminasiya məqamıdır. Ən ali mənəvi dəyərlər, ən müqəddəs sifətlər, ən əxlaqi keyfiyyətlər onun timsalında birləşir. Aşıq bu ilahi şəxsiyyətə qovuşmağın həsrəti ilə alışıb yanır" [46].

Fiziki qəhrəmanlıq ona görə bu qədər sevgi və rəğbət doğurur ki, o haqq və ədalət uğrunda sərf olunur.

Bir yaralı qulam, düşmənəm çölə,
Bülbül kimi həsrət olmuşam gülə,
İman deyər, işim dönüb müşgülə
Rəhim eylə mən cavana, gəl yetiş [143].

Fiziki qüdrət mənəvi-ruhani anlam olmadan heç bir əhəmiyyət daşımır. Həzrət Əli fiziki qüdrətlə mənəvi kamilliyi özündə birləşdirən şəxsiyyətdir. Növrəs İman poeziyasında Həzrət Əli obrazının əsas xarakterik xüsusiyyətlərindən biri onun xilaskarlıq missiyası ilə bağlıdır. Aşığa görə Həzrət Əli öz zamanında cəmiyyətdə mənəvi harmoniyanın təminatçısı olduğu kimi, bütün zamanlarda insanların yardımına yetən, müşkülləri həll edən sakral bir varlıqdır. Həzrət Əli şəxsiyyətinin sakrallaşdırılması məhz onun xilaskarlıq missiyasında daha qabarıq üzə çıxır. Şairə görə (komizm) nalayiq insanların timsalında özünü göstərən mənəvi eybəcərliklərin kökündə cahillik və qəflət dayanır. İctimai eybəcərliyin bu kontekstdə dəyərləndirilməsi aşığın dini-irfani dəyərlərə bağlılığından, onun poetik təfəkküründə bu dünyagörüşün hakim mövqeyindən irəli gəlir [46].

"Onun fəlsəfi və poetik dünyagörüşünün dini və təsəvvüfi-fəlsəfi mövzular istiqamətləndirirdi. Bu mövzu istiqamətindən düşən işığın fonunda aşıq bütün varlığı ilə dini-

ruhani dəyərlərə dərindən bağlı, islami yaşamın həm mənəvi, həm praktiki yönlərinə tamamilə sadiq, imanlı bir mömin, sevgili bir Əli aşiqi, kamil bir şəxsiyyət, vergili bir haqq aşığı olaraq gözlərimiz önündə canlanır” [46].

Sufi təriqətli bir aşıq kimi dünyanın faniliyi, dünya malından ötrü Allahın verdiyi canın incidilməsini qəbul etmir:

Müki-Süleymanın ilxısı hanı?
Dörd əlli tutmuşuq niyə dünyanı?
Çox görmüşəm qızıl anbar yığanı,
Onlardan qalmadı nişan, əzizim [1,s.70].

Ustadın yuxarıdakı fikirləri öz əksini Ali-İmran surəsi 14-cü ayədə dəqiq bir şəkildə tapır: “Nəfsin istəklərinə məhəbbət, qadınlar və uşaqlara sevgi, yığın-yığın yığılmış qızıl və gümüş, cins atlar ilə heyvanlar və əkinlər insanların gözündə gözəl göstərilmişdir. Bunların hamısı dünya həyatında keçici zövqdür və yaxşı aqibət Allah yanındadır”.

Aşıq ədəbiyyatı təsəvvüflə birbaşa bağlıdır ki, “Aşıq” ərəb dilindəki “aşiq” sözündən olub təsəvvüfdə Allaha aşiqliyi ifadə edir. Bu baxımdan təsəvvüf aşıqlığın-aşıqliyin mahiyyətini təşkil edir [33].

Aşıq ədəbiyyatında “dini motivlər” konsepti nə sırf islam dini, nə də sırf Tanrıçılıq dini görüşləri olmayıb, bunların xəlitəsindən meydana çıxan təsəvvüfi-ürfani ideologiyadır. Bu ideologiya dünyagörüşü mahiyyətinə görə-fəlsəfə, məzmununa görə din, təzahür formasına və ifadə üsullarına görə – ədəbiyyatdır [50].

Aşıq Şəmşir heç bir mədrəsədə, təriqət mürşidi yanında təhsil və təlim görməsə də, ənənədən gələn bir bağlılıqla İslam dininə içdən gələn bir sevgi ilə bağlanmışdır [50].

Aşıq ədəbiyyatında dini motivlər əsasən, ürfan və təsəvvüf üzərində qurulmuşdur. Azərbaycanda bu məsələ təxminən 100 ilə yaxın bir dövrdə rus və Sovet imperiyalarının apardığı daxili ideoloji təxribat nəticəsində böyük sənətkarların əsərlərindəki dini-ürfani mövzular xurafat hesab olunmuşdur [50].

Dünyanın faniliyi ilə bağlı poetik deyimli qoşmalar Aşıq Şəmşirdən öncə də qələmə alınıb. Nizaminin "Sirlər xəzinəsi" poemasında bu barədə kifayət qədər incilər mövcuddur:

Burda neyləyəcəksən, dolaşma veyil-veyil,
Bir tələdir bu *dünya*, güvənməli yer deyil [138,s.150].

Aşıq Alının [16] "İçəcək" rədifli qoşması da bu qəbildəndir:

Qoca dünya çoxun yola salıbdı,
Köçən köçüb, köçməyənlər köçəcək.
Qafil içmə, bu gün əcəl şərabın,
İçən içib, içməyənlər içəcək

Cənnət Aşıq Şəmşir üçün bir sıra etik dəyərlərin toplandığı yerdir. "Səxavət", "məhəbbət", "rəhm, mürüvvət" kimi əxlaqi kateqoriyaları özündə cəmləyən cənnətin kənardan seyri belə onu qane edir:

Səxavət, məhəbbət, rəhmi-mürüvvət,
Sizin tək dünyaya yayalar məni.
Deyirlər o qədər gözəldi cənnət,
Kənardan baxmağa qoyalar məni [3,s.190].

Ölümün labüdlüyü fəlsəfəsini qəbul edən aşıq buna ən bariz nümunə kimi ilk peyğəmbəri – Adəm peyğəmbəri misal göstərir:

Ölməmiş olsaydı babamız Adəm,
Ömrümə bir kağız alardım mən də.
Qırx il xilqətimə yağmasaydı qəm
Özümə min yuva salardım mən də [3,s.258].

Yuxarıdakı fəlsəfəni əldə rəhbər tutan ustad ölümün uzaqda olmadığını, insana verilən bu ömrü hədər yerə sərf etməməyi, Nizami demiş "Durma ey Nizami iş zamanıdır, Fələk etibarsız dünya fanidir" misralarını başqa bir biçimdə oxucuya yönəldir:

Yarpaq ki, saraldı, yetişib vaxtı,
Şəmşir, çox da demə ölüm uzaqdı.
Tarac oldu neçə şahların taxtı,
Hanı yer üzünün xanı, xaqanı? [1,s.120].

Aşıq Şəmşir İslam övliyaları kimi ölümə gülə bilir, bizləri də bu gülüşə qoşmağa nail olur:

Tənəzzül atını çapar, onda gül,
Ağacdan yarpağı qopar, onda gül,
Gələndə ağladın, aparanda gül,
Qanlı yaş tökməyin nə mənası var [1,s.140].

Aşıq Şəmşirin fani dünyaya bel bağlamamaq ideyalarını dahi Nizaminin misralarında tapır, Azərbaycan xalqının filosof övladlarının dünyaya baxışlarında eyni düşüncə tərzlərini görür və mənəvi rahatlıq tapırıq:

Bu gün şah eylər səni, aləm keçər əlinə,
Sabah döndərər səni bir çömləkçi gilinə [138,s.103]

"Cənnət", "behişt" kimi dini anlayışlar estetikcəsinə vəhdət halında verilmişdir. Aşıq Şəmşir yuxarıdakı anlayışları ədəbiyyata, şeirə gətirməklə islamdakı ölümsüzlük fəlsəfəsinin nəhəng təbliğatçısına çevrilir:

Cənnətdən alıbsan hüsnü, camalı,
Behiştdən gəlibsən teli xınalı,
Bircə bu dərdindən olmadım halı,
Boynunu bükürsən yana, bənövşə [3,s.249].

Aşıq Şəmşirin dünyanın faniliyindən bəhs edən şeirləri nə qədərsə, dünyada iz qoymaq yazıları da bir o qədərdir. Cəmiyyətdə, necə deyərlər xalq dilində "el"də halal iz qoymaq hər kəsə nəsib olmur:

Şəmşir yaranıbdı ürəyi təmiz,
Yoxsula əl atdım göstərmədim diz.
Gəzdiyim ellərdə halal saldım iz,
Səndə ləkəsiz ad qoymuşam dünya [1,s.151].

Yoxsula əl atmaq, kömək göstərmək məqamı Qurani-Kərimin aşağıdakı Əl-Bəqərə surəsinin 177-ci ayəsinə

uyğundur: "Yaxşılıq onda deyil ki, üzünüzü Şərqə ya Qərbə tərəf çevirəsiniz, yaxşı iş görən o şəxsdir ki, Allaha, qiyamətə, səmavi mələklərə, səmavi kitaba və peyğəmbərlərə iman gətirmişdir. Allaha məhəbbəti yolunda malını qohumlarına, yetimlərə, fəqirlərə, müsafirlərə, dilənçilərə və qulların azad olunması yolunda sərf edər, namaz qılar və zəkatı sahiblərinə çatdırar. Və hər kəslə əhd etsə vaxtında öz əhdinə vəfa edər, dar ayaqda, çətinlikdə və cihad zamanı səbr edənlərdir. O kəslər ki, bu sifətlərə sahibdir, onlardır doğru danışanlar və müttəqilər də onlardırlar".

"Tutur" rədifli qoşma bəxtə-taleyə söykənməkdən gedir. "Ruh düşkünlüyünə qapılmaq olmaz", "Ulu Yaradana tapın" fəlsəfəsini irəli sürür:

Şəmşir, gəl qəlbini daha saxla şən,
Şoran torpaqlarda ucalmaz kövşən.
Baxtının kotanı hoşa ilişən,
Ağrı ayağından, başından tutur [2,s.428].

Oğlum rədifli qoşmanın bir bəndində İslamda tolerantlıq prinsipini sadə xalq dilində, lakin kəsərli bir ifadə ilə şagirdlərinə anladır:

Bir ata oğluyuq, nə sünni-şiə?
Məhəmməd ümməti ayrılsın niyə?
Bir kimsə olmayıb "islamıq" deyə,
Düşüb ortalığa ədavət, oğlum! [2,s.441].

İmran surəsinin 84-cü ayəsində deyilir: "Ya Peyğəmbər de: Biz aləmin Pərvərdigarına və şəriətə və o kitaba ki bizim özümüzə nazil olub. İbrahimə və İsmailə və İshaqa

və Yəquba və övladlarına nazil olan, Musaya və İsaya və Allah tərəfindən başqa peyğəmbərlərə gələnlərin hamısına iman və Allah peyğəmbərlərinin heç birinin arasında fərq qoymuruq, çünki biz Allahın əmrinə təslimik!"

Aşıq Şəmşir islam ümmətini bir araya gəlməyə səsləyir. Bir olan Allaha aşiq olan Ustadın fikirləri əsil islam övliyalarının fikirləri ilə üst-üstə düşür. Elə bu misraların müəllifi olan Aşıq Şəmşirin də övliyalar arasında olmağına heç şübhə yeri qalmır.

Şəmşirəm, bir haqqa aşiqəm, əmin,
Əlində qoymasın bizi dərd-qəmin.
Məhəmməd ümməti – bütün aləmin
Gəl edək qəbrini ziyarət, oğlum! [2,s.442].

Dini etika həmin dinin tarixinə bələdliyi, bilavasitə tələb edir:

Bu Mövlanı sevən aşıq,
Mən danışım, sən qulaq as.
O qüdrəti, o vüsəti
Gəl and içim: çəkməz həras.
Xəlili dardan qurtarıb,
Xaliq özü verib əsas.
Tufan günündə Nuha da
Adəmi eyləyib xilas,
Eyləyib nicatı Əli [1,s.529].

Əhli-beyt sevgisi, peyğəmbər şəcərəsinə olan sevgi Aşıq Şəmşir yaradıcılığından yan keçmir:

Adını zikr edirəm
Dilimdə hər an Ağa, mən.
Günahkar nökərinəm,
Ya şahi-Mərdan Ağa mən.
Salsan nəzərindən məni
Eylərəm fəğan Ağa mən.
Həsəninə, Hüseyninə
Olaydım qurban, Ağa, mən.
Şəmşirdə ancaq olan
Arzu, təmannadı, Əli [1,s.476]

Qurani-Kərimin Əli İmran surəsinin 185-ci ayəsindəki səslənən fikirlər: "Hər nəfs ölüm şərbətini dadacaqdır. Və həqiqətdə qiyamət gününə siz hamınız öz əməllərinizin muzduna yetişəcəksiniz" – uyğun olaraq klassiklərdən üzü bəri islam şairləri, mütəfəkkirlərinin əsərlərində öz əksini tapır.

Dünyanın faniliyini, ölümün labüdlüyünü və qaçılmaz olduğunu söyləyən Nizami Gəncəvidə [140,s.192]:

Ölüm bir bəladır, çarə edilməz,
Onun çarəsini tapmayıb heç kəs.
Ancaq bir şərbətdir bu ölüm gərək,
Qoca da, cavan da – hamımız içək!

Oxucu həm Nizamidə, həm də Aşıq Şəmşirdə misraların məzmun və forma etibarilə yaxınlığının və uyğunluğunun sehrinə düşür:

Şəmşirsiz olmayın qəlbi pərişan,
Bu çərxi-dövranda belədi fərman.
Köç edirəm qoca, sonsuz dünyadan,
Ömrümün sonunu güdürəm daha [1,s.346].

Səməd Vurğunun "Bir qonağam bu dünyada" misraları ilə həmahəng səslənən "Dünyanın qonağı" qoşmasında insan bir çırağa bənzədilir. Təvazökarlıqla birgə kövrək notlar üzərində qurulmuş bir sənət əsəri yaradılır:

Dəhri-işarətinə sən oldun aşiq,
Qəlbini şöhrətə etdin sarmaşıq.
Bir zaman ay kimi salardın işıq,
Tez yanıb, tez sönən çırağısanmış [1,s.362].

***

Gör yadına nələr saldın, a Şəmşir,
Dərin xəyallara daldın, a Şəmşir...
Sualına cavab aldın, a Şəmşir,
Dünyanın köçəri qonağısanmış [1,s.362].

Tövbə insanı, özünü Allah qulu hesab edən şairin aşağıdakı misraları:

Bu külli-aləmin vahid Allahı,
Müqəssər Şəmşirin sən ol pənahı.
Cavanlıqda çox etmişəm günahı,
İndi olub zəlil qoca, yalvarım [1,s.341].

– Təsəvvüf şairi Aşıq Şəmşir Füzulinin "cisim ilə yaşayan can günahlar içindədir deyə Canana-Allaha qovuşa

bilmir", Aşıq Ələsgərin "günahkar mənəm" deyərək təkəbbürdən uzaq, şeytandan uzaq kamil bir həyat sürməsinə uyğundur. "Aşiqəm" qoşmasında həmən fikirlərin eyniliyinin təkrarını görürük:

Şəmşirəm, nəçiyəm, nə qüdrətim var,
Üzü qara günahkaram, günahkar.
Səxalı, mürvətli, ya Pərvərdigar,
Sən bağışla, Şah Mərdana aşiqəm! [1,.s.286].

Başqa bir məqamda Füzulinin [99] "Allaha qovuşmaq dərdi" ni artırmağa xahişi:

Var bir dərdim ki, çox dərmandan artıqdır mənə,
Qoy məni dərdimlə dərman eyləmə var ey həkim!

Aşıq Şəmşirin "İlahi dərd insanı pak, təmiz ada çatdırır" fəlsəfəsi ilə üzləşirik:

Tez qocaldır qəm insanı,
Çağırma həkim, loğmanı,
Çatdırdı çərxin dövranı
Bir pak, təmiz ada məni [3,s.305].

Sovetlər dönəmində insanları güc tətbiq etməklə öz dini, milli inanclarından təcrid etmişdilər ki, bu da öz bariz nümunəsini Ustadın şeirlərində tapır. İslamın bir din kimi, bir əxlaq fəlsəfəsi kimi formalaşmasında güclü təkan olan "Kərbəla faciəsi" – İmam Hüseyn faciəsi islam şairlərinin yaradıcılığında əsas yer tutur. Aşıq Şəmşirin də bu sahədə ciddi tədqiq olunmağa ehtiyac duyulan, təsəvvüf nöqteyi-

nəzərdən araşdırılması lazım bilinən, Əhli-beyt sevgisi hopmuş çoxsaylı şeirləri var:

Ahım bülənd olub ərşi-əlaya,
Qəlbim məngənədə, keçib araya.
Güzarım düşəydi o Kərbəlaya-
Müntəzirəm qanlı torpağa, neynim?!

***

Şəmşir ha səsləyir yazı yazanı,
Müdam ruhum cövlan edir havanı.
Ziyarət etməyə imam Rzanı
Yol verilmir gedə qonağa, neynim?! [1,s.290].

Mövlana Cəlaləddin Rumi həzrətləri ölümü "düyün", axirət dünyasına köç adlandırır. Maraqlıdır ki, "ayrılıq" anlayışına isə "ölüm"dən fərqli baxılır. Və bu "ayrılıq" Aşıq Şəmşir poeziyasında layiqli yerini alır:

Bir günün görüşü min ilə dəyər,
Dərdi-qəmdi, qiyamətdi ayrılıq.
Cismimə od salar, qəlbimə kədər,
Bir dəhşətdi, kəsalətdi ayrılıq.

***

Yaradır xilqəti – puç edir fələk,
Axırın ölümdü, olsan da mələk,
"Əlvida!" – deyəndə olmur görüşmək,
Ancaq bundan ibarətdi ayrılıq [1,s.294].

Əl-Qəzaliyə [40] görə də comərd adamlar ölümü sevgi ilə qarşılayır.

Şəmşir, Həqqə umud, hələ ki, sağam,
Ana torpaq, bir gün sənə qonağam.
Qohum gəlib, bəs nə edim, naçağam,
Şəfa bulum tək Allahın eşqinə [1,s.241].

Aşıq Şəmşirin "Yoxdu" rədifli qoşmasının təhlili sənətkarın yaradıcılığında sufizm elementlərini göstərsə də, ümumislami dəyərlərin ana prinsipləri yerində qalır. "Qəbir evində yarın yanında olmayacaq" deyən sufilər təkin çıxış edərək, sonda Allahdan başqa ümid yeri olmaması fikri özünə yer alır:

Qəbirdə üstünə tökülür torpaq,
Bir şəmsiz, çıraqsız, bir veran otaq.
Görünməz kimsənə, yalqızsan, ha bax,
Qohum-qardaş, dost-müsahib, yar yoxdu [1,s.231].

Dini etiqadlı sənətkar sığındığı Yeri, çağırdığı Adı, ümid elədiyi Varlığı yaxşı tanıyır:

Ancaq sığınmışam pak olan ada,
Şəmşir, gəl sən çağır onu imdada.
Hakimlər hakimi, özün sal yada,
Daha səndən qeyri ümid var yoxdu [1,s.231].

Aşıq Şəmşir dili dualı sənətkardır ki, gözəllərə ünvanlanan bu dualarda dini əxlaq mühüm yer tutur. Ustadın dilində bütün peyğəmbərlərə sayğı gözlənilir:

Göydən İsa üçün bir nemət gəldi,
Bu tale iqbalın necə gözəldi.
Sənin əməlin də həmən əməldi,
Aləmə yayılsın sorağın sənin [2,s.378].

“Sənin” rədifli qoşmada bir tərəfdən İbrahim peyğəmbərin xanımı, İsmayıl peyğəmbərin anası Həcər anamız üçün Allahın bəxş etdiyi “Zəm-zəm” çeşməsi yada salınırsa, digər tərəfdən “ağ zərif əllərə zərlə oynamaq” dua edilir:

Xəyalın şadiman, qəlbin oynasın,
Kuyində Həcər tək çeşmə qaynasın.
Ağ zərif əllərin zərlə oynasın,
Zidalərlə dolsun qucağın sənin [2,s.378].

Aşıq Şəmşir yaradıcılığında dünyanın faniliyi ilə əlaqədar yazılarda özünəməxsus bir nikbinlik də mövcuddur. Bu nikbinlik dünyada yaxşı ad qoymaq, yaxşı söz nişana qoymaqdır:

Eldən ilham aldım, rütbəyə çatdım,
Şeir kəməndimi dağlara atdım,
Cəfa çəkdim, nələr yazdım, yaratdım,
Məndən qalan sözdü nişana, desin [2,s.229].

Makedoniyalı İsgəndərə qalmayan dünyadan beşəlli yapışmağın əbəs olduğunu poetik bir dildə anladır:

Boşalıb, dolursan indiyə qədər,
Adətin belədi sənin sərbəsər.

Zülmətdən bac-xərac aldı İsgəndər,
Öləndə əlində var apardımı?! [1,s.248].

Ustad bütpərəstliyə, Allaha şərik qoşmağa qarşı səma dinlərinin mövcudluğunu, təkallahlılığa etiqadı gündəmə gətirir:

Gəlib bu dünyaya saysız padişah,
Hər kimsə bir şeyə deyirmiş Allah.
Yaradıcı kimdi, olanda agah,
Münkürlərin qalmaqalı dağıldı [1,s.248].

Aşıq Şəmşir üçün bu dünyanın məzmunu Allahın sevib-seçdiyi nəbilər, imamlardır. Dünyanın dəyəri mələklərin səcdə etdiyi İmam Hüseyn kimi insanlarla ölçülür:

Şəmşirəm, acizə bir insan-əhləm,
Dərdə dərman varmı – yarama məlhəm?!
Müxtəsər, gedibdi zəndindən zəhləm,
*Hüseyni* taxtından salan dünyadan [1,s.264].

Allah tərəfindən verilən fitri istedad, Allah elminə bələdlik hər yazara qismət olmur. Böyük bir təvazökarlıqla Aşıq Şəmşir “Nişan mənə” divanisində bunlara aydınlıq gətirir:

Ey həqiqət, özün verdin bu sirri nişan mənə,
Elminə eylədin bələd, sən dedin əyan mənə.
Bu hökmdən baş açmadı bütün insi-məxluqat
Əqli huşum, ustad gözüm göstərdi əsan mənə [2,s.22].

Bu fani dünyada zamanla davranma, zamanın qiymətini bilmək kimi Nizaminin:

Durma ey Nizami iş zamanıdır,
Fələk etibarsız, dünya fanidir!

– misralarına uyğun Aşıq Şəmşir də "yazda görmədiyin işi qar alar, gecikərsən" deyir, zamanla düzgün rəftarı anladır:

Bir planı çəkmək üçün öz işini sazda gör!
Şəmşir, qüvvə sərf eylə sən, işini tarazda gör!
Görəcəyin hər tədbiri qışa qoyma, yazda gör!
Qəfil işlək yollarını alar qar, əldən gedər [2,s.27].

Aşıq Şəmşirin dini səpkidə yazdığı, dini etikamızı zənginləşdirən şeirləri onun dinu elmlərə dərindən bələdliyindən xəbər verir. Bu bir daha Ustadın qələmi əlinə aldığı hər bir məqamda ciddi məsuliyyət sahibi olduğunu sübut edir. Şeirləri ilə "Verən" rədifli divanidəki kimi "məsuliyyətli yazı əbədi qalar" müddəasını yaradır:

Cəbrayılı xilas etdin sən intizardan, Xuda!
Adəmi azad eylədin qəmdən, azardan, Xuda!
Yunusu mahdan qurtardın, insanı dardan Xuda!
İbrahimə nar içində baqi gülüstan verən [2,s.35].

Səbir timsalı kimi tanınan Əyyub peyğəmbərin imtahandan şərəflə çıxmasına işarə edərək yazır:

İmtahanda sevdi-seçdi Əyyubu Pərvərdigar,
Lənət iblisin isminə, Əyyuba saldı azar,

Əmr olundu Cəbrayıla – cənnətdən gətirdi nar,
Qadir olan, özün oldun Əyyuba dərman verən [2,s.35].

Dünyanın faniliyi, müvəqqəti olması Aşıq Şəmşirədək Azərbaycan ədəbiyyatında geniş şəkildə işıqlandırılmışdır. Bu Ömər Xəyyamda köhnə dünyadırsa:

Yaşasan üç yüz il, beş yüz il, min il,
Bu köhnə dünyadan gedəcəksən bil.
İstər dilənçi ol, istərsə şah ol,
Məzarda qiymət bir, iki cür deyil [148].

Şəhriyarda "qəbirlərin daşını yiyən" dünyadır:

İgidlərin başın yiyən,
Qocalar bozbaşın yiyən,
Qəbirlərin daşın yiyən,
Özü yenə qalan dünya [100].

"Dünyamsan" rədifli qoşmasında Aşıq Şəmşirin ideya və fikirlərinin yuxarıdakı azman söz sənətkarlarının fikir və ideyaları ilə uyğunluğu bir daha islami dəyərlərə münasibətdə Aşıq Şəmşirin dədələşmək haqqını təsdiq edir:

Səndən giley etdim, incimə barı,
Səndə görən varmı doğru ilqarı?!
Yaranmış xilqətə verdiyin varı,
Aldadıb, əlindən alan dünyasan.

***

Sənə qonaq gələn qalmadı, getdi,
Çoxları kamını almadı, getdi,
Şəmşir də sazını çalmadı, getdi,
Söylə görüm, kimə qalan dünyasan? [2,s.62].

Bəxtə, taleyə inanmaq, taleyə, Allah qədərinə boyun əymək Ustadın yaradıcılığında mühüm yer alır. Maraqlı hal odur ki, özünü “ateist” hesab edənlər də, bəxt deməsə də “şans”dan danışır. Bütpərəstliyin vətəni Hindistanda da, Çində də taledən qaçan yoxdur. “Baxtım” rədifli qoşma ilə yaxından tanışlıq Ustadın “hər şey Allahın əlindədir” müddəasına sadiqliyinin bir daha şahidi oluruq. Yanmış, qaralmış kösövü göy yarpaqlı ağaca çevirib bitirən Allahdan verilənləri baxt adlandırır:

Bir az bundan qabaq, deyil uzaqdan –
Uçub asmanlara yetirən baxtım.
Göyərdib kösövüm göy yarpaqlardan
Mətləb-muradımı bitirən baxtım [2,s.412].

“Baxtın sayəsində” dedikdə Allahın sayəsində başa düşülür. Aşıq Şəmşir eldə, obada qazandığı məhəbbət üçün, hörmət üçün Allahına şükürlər edən sənətkarlardandır:

Sayəndə eylədi el mənə hörmət,
Qazandım obada, eldə məhəbbət.
Dəryadan çəkirdi ləl, cəvahirat,
Dəstindən mirvari götürən baxtım [2,s. 412].

Haram gəzməyən pak sənətkarların baxtı yeyin olur ki, elə bu baxt üçün də Yaradanına minnətdarlıq edir:

Halal baratlıyam, pak sənətkaram,
Tütyədi qismətim, gəzmədim haram,
Şəmşirəm, mən sənə çox minnətdaram,
Məni bu yaşlara çatdıran baxtım [2,s.412].

Ustadın "Yoxdu" rədifli gəraylısındakı dərya təkin dərin mənalı, qəmli ürəklərə bahar mehi kimi əsən fikirləri ölümlə, itki ilə əlaqədar insanlara verilən bir təskinlikdir:

Bu dünya bal şərbətidi,
Yüz il içsən dadı yoxdu.
Beş gün qonaq hörmətidi,
Bir saxlancı, zadı yoxdu [2,s.505].

Ustadın bu gəraylıdakı fikirləri "ölüm müzakirə məsələsi ola bilməz" fəlsəfəsini yaradır.

Ağıl ki, var bilmək üçün,
Vaxtın azdı gülmək üçün.
Yaranıbsan ölmək üçün,
Ağlamağın adı yoxdu [2,s.505].

Bu məqamda Yunus İmrənin dünya ilə bağlı fikirlərinin yada salınması yerinə düşər: "İlahi eşqin şərbətini Tanrısına qovuşmaq vasitəsi hesab edən və bu badə xoşbəxtliyindən məst olub ayılmamağı arzulayan Yunus İmrə cahilliyin cəzasını, kamilliyin səfasını öz müasirlərinə kəlmə-kəlmə öyrədirdi" [7]:

Kişi, haqqı bilmək gərək,
Haq xəbərin almaq gərək,
Burda ikən ölmək gərək,
Varıb orda ölməz ola.

"Dünya malı dünyada qalacaq" prinsipinə uyğun olaraq Ustadın Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində İsgəndərin dünyanı tərk etməsi səhnəsinə uyğun olaraq dini motivli şeirləri oxucu auditoriyasını heyran qoyur:

Fələklə kim başa vardı?
Qəbrə nə pul, mal apardı.
Ömür puçdu, ahı-zardı,
Ağları çox, şadı yoxdu [2,s.505].

Həzrəti Adəm peyğəmbərin cənnətdən qovulmasında şeytanın pisliyini poetik bir dildə qələmə alır:

Şəmşir, bu dünyanın varmı həmdəmi?!
Bəzən ləzzəti var, bəzən də qəmi.
Cənnətdən qovdurub həzrət Adəmi,
Lənətdən verilib şeytanın payı [2,s.70].

Ədalətli olmaq, haqq-ədalətə çağırış, yetimin malını yeməmək kimi qınaqlar Aşıq Şəmşir poeziyasında dini eti-kaya mühüm töhfədir. yer alır. Qurani-Kərimdə "yetimlərin malını yemək olmaz" ifadəsi böyük ozanın dilində öz qiymətini belə alır:

Aləm özü üçün kəsbikardadı,
Ağdabanlı Şəmşir intizardadı.
Bilsəniz ki, yetim-yesir hardadı,
Tez tapar bir zaval, hazır udanlar [2,s.88].

***

Bədirli ay xub yaraşır sinə, bax,
Təbin daşqın – alovlanar sinə, bax.
De Məhəmməd, yasin oxu, sinə bax,
Çoxdu məhəbbətim, ayə, ta mənim [1,s.441].

“Bu gün” müxəmməsində Ustad tərəfindən Qurani-Kərimin nə dərəcədə dəqiq öyrənilməsi məlum olur. Yaradılışın mükəmməlliyi qarşısında Aşıq Şəmşir heyranlığının şahidi oluruq:

Huri, pəri, qılman-mələk, inni-cinni bəşər – nə var,
İnsanatı, heyvanatı sən yaratdın, Pərvərdigar.
Bunlar üçün nanı-nəmək, saysız barat elədin car.
Özün yaxşı bilirsən ki, cümləsinə qoydun qərar.
Laldı o kəs, şükr eləmir qoyduğun qərara, bu gün [2,s.531].

“Yerin, göyün, kainatın, səmavatın” bir Ustadından imdad istəyir, bu imdad Əli nökəri, Məhəmməd övladı tərəfindən istənilir. Məğrur aşıq yalvardığı yeri bizlərə nişan verir:

İlahi, xəstə Şəmşirə özün elə sən imdadı,
Sən rəhmkarsan Xudaya, hey çağırıram min bir adı.
Yerin, göyün, kainatın, səmavatın bir ustadı,
Əlinin nökəriyəm, mənəm Məhəmməd övladı,
Dərdimə dərman istərəm, yalvara-yalvara, bu gün [2,s.532].

Aşıq Şəmşir öz səbri ilə, dözümü ilə, təmkini ilə Allaha sığınan el sənətkarı, xalq şairidir. Gərdişin uyğunsuz işləri, zamanın amansızlıqları, maddiyyat çətinlikləri onun nikbinliyini, sabahkı günə inamını, gələcəyə tuşlanan xoş arzularını əngəlləyə bilmir:

Şəmşir, qoy silinsin qəlbin qaradan,
Nanəciblər çıxmalıdı aradan,
Çox darıxma, gələr puldan, paradan,
Sənin də üzünün bir xoş günü var [2,s.108].

"Yaratdın" rədifli qoşmada şeir dilində, səlis Azərbaycan dilində dünyanın yaradılışını oxucu kütləsinə hələ 1919-cu ildə çatdırır. 26 yaşlı bir gənc şairin 10 bənddən ibarət bu qoşmanı yaratması onun bir daha İslam dünyasının böyük sənətkarlarından – Ağdabanlı şair Qurbandan, Aşıq Ələsgərdən dərs almasının məntiqi nəticəsi kimi səslənir. Qoşmanın birinci bəndində kainatın (yer-göy, asiman) sonuncu peyğəmbər Məhəmmədin eşqinə yaradılmasından söhbət gedir:

Bir "Kün!" kəlmə dedin, ya Kərəm kanı,
Yeri-göyü, asimanı yaratdın.
Ərşi-gürsü Məhəmmədin eşqinə,
Bu gözəl şövkəti, şanı yaratdın [2,s.156].

Yuxarıdakı misraların Əl Bəqərə surəsi 34-cü ayəsindən qaynaqlandığını görürük: – (O zaman ki, mələklərə dedik: Adəmə səcdə edin, İblisdən başqa hamısı səcdə etdi. O lovğalanaraq imtina etdi və kafirlərdən oldu).

Aşıq Şəmşirin şeirlərinə nikbin fəlsəfi çalarlar hopmuşdur ki, məhz bu nikbinliyin təsirinə düşən oxucuda həyat eşqi yenidən güclənir:

Şəmşir bir möhnətə olanda düçar,
Atalar demişdir: ağlama naçar,
Qapını bağlayan vaxt olar açar,
Çox darıxma, ay füqarə, – deyərlər [2,s.251].

İslam insan ağlını bir işə görə məsuliyyət daşımağın şərtlərindən biri sayır. Bununla birgə, onun həqiqətlərə çatmaqla bağlı yetərli olmadığını da qəbul edir.

Aşıq Şəmşir də bu məqamda Allahın sirlərinə "əl aparmağın" çətin iş olduğunu, təbii ki, materialist filosofların gücündə olmadığını qeyd edir.

Əlif əlfə min-min adam keçmişdi,
Hansının dövranı başa yetişdi?!
Buna əl aparmaq çox çətin işdi,
Bilinməz hesabı-sanı, yaratdın [2,s.157].

Taleyə boyun əymək, qisməti qəbul etmək övliyalara xas olan bir məziyyətdir ki, bu tip qoşmalara da Ustadın yaradıcılığında tez-tez rast gəlmək mümkündür: "Çətindir" rədifli qoşmada bu səpkidə misralar çoxdur:

Arif sözlərimdən mətləb biləcək,
Dərdbilməzlər hədər sanıb, güləcək.
Verən varsa – sənə bir pay gələcək,
Verməyəndə yüz qovala, çətindir [1,s.288].

Aşıq Şəmşir üzü Dədə Qorquddan bu yana bəxtə, taleyə inanan sənətkardır. "Gələndə bir tük ilə gələr, gedəndə zəncirlə də saxlamaq olmaz" fəlsəfəsinə sadiqdir:

Şəmşir, sən itirmə Haqqı-sayını,
İstə öz baxtından halal payını.
Gələndə sındırmaq olmaz muyunu,
Gedəndə zəncirlə əyləmək olmaz [2,s.315].

"Aşıq Şəmşir yaradıcılığında dini etika" fəsli üzərində işləyərkən Qurani-Kərimin surə və ayələrinə, eləcə də islam şairi Şeyx Nizamiyə tez-tez istinad etməyimiz təsadüfi deyil.

Dünyaya güvənmə, bu sərt nakişi
Heç vəfa eyləməz, düzəltməz işi.
Hər nə vermişdirsə əvvəl insana
Geri alar bir-bir alçaq zamana.

***

Sənə yüz dəfəyə can versə, bir gün
Bir dəfə də alar, aparar bütün [138,s.338].

Bir Allah hədsizdir, bilməzlər onu,
Yoxdur varlığının əvvəli, sonu [138,s.327].

Əraf surəsi, 34-cü ayə. "Hər bir ümmətin müəyyən əcəl vaxtı vardır. Gəlib çatdıqda bir an belə tələsdirə və yubandıra bilməzlər" ifadəsi Aşıq Şəmşirdə belə səslənir:

Yarpaq ki, saraldı, yetişib vaxtı,
Şəmşir, çox da demə ölüm uzaqdı.

Tarac oldu neçə şahların taxtı,
Hanı yer üzünün xanı, xaqanı? [1,s.120].

Dünya malına vurulmamaq fəlsəfəsi Ustadın yaradıcılığında mühüm yer alır:

Tanıdığım adam var ki, gözündə
Dünyanın özündən malı şirindi.
İnsana lazımdı ilqar, etibar,
Cahanın yaşılı, alı şirindi [1,s.123].

Aşıq Şəmşir ümməti reallıqdan uzaqlaşdıran məsələlərdən yox, müasir həyatdan danışmağa çağırır. Kamilləşmək yolunu tutan pak insandan danışmağa üstünlük verilir ki, dərindən düşünəndə söhbət ruhun kamilliyindən və paklığından gedir:

Gəl deyək danışaq bu şən həyatdan,
Makina, maşından, qurğu-büsatdan.
Təzə texnikadan, *kamil* ustaddan,
Memar olan *pak insandan* danışaq [2,s.290].

1974-cü ildə qələmə aldığı qoşmanın son misralarında o illərdə hakimiyyət piramidasının başında dayanan Heydər Əliyevdən – qəhrəmandan danışır:

Söhbət aç el-oba sevən o kəsdən,
O, vətəni sevir, onu da Vətən,
Bağla əlaqəni Şəmşir ilə sən,
Ölkəmizdə qəhrəmandan danışaq [2,s.291].

Aşıq-döyüşçü xətti Aşıq Şəmşir şeirlərində qəzəb, coşma, kəsərli söz şəklində özünü göstərir. Bu bir daha aşıq-ozan-döyüşçü anlamını aşıq yaradıcılığına gətirir.

Şəmşir, mərd qəlbini salma həvəsdən,
Xof etmə hədədən, hər quru səsdən,
Alınar qisasın xain-xəbisdən
O yana, bu yana vurnuxma, canım [2,s.293].

İslam dinində "Allah səbirliləri sevər" ayəsi Aşıq Şəmşir dilində "Dedim" qoşmasında "gözlə sabahı" kimi yerindəcə səslənir:

Meyl etmədim nanəcibin aşına,
Sirrini satmadım bir yoldaşına,
Gördüm hər kim qanın alıb başına,
Mən ona cavabı mehriban dedim.

***

Şəmşir mətləbinə yetişib dahı,
İncidib bir qəlbi etməz günahı.
Bu günə nə var ki, *gözlə sabahı,*
Cahil olanlara anla, qan dedim [2,s.296].

Aşıq Şəmşir şeirlərinin mühüm bir gücü onun həmişə müasirliklə uzlaşmasındadır. Bu da ondan irəli gəlir ki, təfəkkürə söykənən təsəvvüf şairinin sözləri həmişə təzə-tər olmalıdır. Ustada görə cənnəti tapmaq üçün sadəcə oruc tutmaqla, dini ayinləri sözsüz yerinə yetirməklə iş bitmir.

Tamam bir ay oruc tutdum, ac durdum,
Behiştliyəm – deyə özümü yordum.
Dodağım qurudu, qanımı sordum,
Dünyada ağılsız olan dəlidir [2,s.329].

“Dəlidir” rədifli qoşmada cənnəti axtaranlara yolun nədən keçdiyini bir-bir anladır:

Cənnət axtarınca, yoxsula pul ver,
Dəhri mürüvətə qəlbində yol ver,
Əlilə, yetimə qanad ver, qol ver,
El malını əldən alan dəlidir [2,s.329].

Ustadın “Əlilə, yetimə qanad ver, qol ver” poetik ifadəsi Nisa surəsinin 10-cu ayəsinə uyğun olur: “Yetimlərin malını zülm və sitəm üzündən yeyənlər ancaq od yeyərlər, tezliklə alovlu odda yanarlar”.

Qurani-Kərimdə yetimlərin, füqaraların malını yeməyin nə kimi cəzası olacağı dəqiqliklə təsvir olunmuşdur ki, bu da ustadın aşağıdakı bəndində öz əksini tapır:

Qazı, ölüm varsa sən də yada sal,
Cadu yazma, bir gün olar dilin lal.
Fuqara malını bilirsən halal,
Mollalar danışır yalan, dəlidir [2,s.329].

Saz çalıb xalqın dərdlərini car edən, saz çalmaqla insanları həqiqətin dərkinə çağıranlar günahkar sayılırlar. Amma elə bu yerdə Mövlana Cəlaləddin Rumi Həzrətlərinin “insanı uca, müqəddəs və gözəl duyğulara aparan hər musiqi halaldır” fikri yada düşür. Həmçinin Məhəm-

məd Füzulinin “Rindü-Zahid” əsərində meyxanədə günü məsciddə keçən “zahid – münafiq ata”, lakin qəlbi Allaha bağlı olan, günü meyxanədə keçən “rind – oğul” mükaliməsi yada düşməyə bilmir:

Deyir: günahkarsan, çalırsan sazı,
Şəmşir, belə sözə kim olar razı?!
Məst olub mollalar qılır namazı,
Faydasız namazı qılan dəlidir [2,s.329].

Aşıq Şəmşir yaradıcılığına nikbin fəlsəfi ruh hakimdir. “Naşükür deyiləm, dözürəm dərdə, Səbrli yaratdın ey Xuda məni” misrası ustadın nikbinliyini təsdiq edir. “Bir gün” rədifli qoşmada “azadlıq yoluna göz dikən”lərin bir gün bəxtlərinə halal pay düşəcəyini bəri başdan açıqlayır:

Gündüzü qaranlıq olan ellərin,
Yoxsul bağçasından ay düşər bir gün.
Azadlıq yoluna göz dikənlərin,
Baxtına bir halal pay düşər bir gün [2,s.359].

“Bəli” rədifli gəraylıda müzakirə mövzusu olmayan, lakin hər an da “yaddan çıxarılmayan” axirətdə veriləcək hesabat baxımından hər an bizi müşayiət edən “ölüm” fəlsəfi anlayışına bütün dahilər kimi Aşıq Şəmşirin də baxışı şeir dilində verilir:

Könlüm oldu viranətək,
Solmalıdı açan çiçək.
Qəlbə yara vuran fələk
Kefi çəksə vurur, bəli [2,s.473].

Həyat yoldaşına ünvanladığı "Ağlama" rədifli gəraylıda həyat və ölüm dialektik vəhdətindən söhbət açılır: "Ölüm haqdı" fikri yenidən gündəmə gəlir. Aşıq Alının "ölüm haqdı çıxmaq olmaz əmrdən" ifadəsi Aşıq Şəmşir dilində belə səslənir:

Ölüm haqdı yaranmışa,
Mən ölürəm, sən ağlama.
Övladın var qoşa-qoşa,
Sən bu iman, din ağlama [2,s.480].

Dinə, imana and verən Ustad sonda Allaha sığınmağı məsləhət bilir:

Yaradanı salsan yada,
Yetişər dada, fəryada.
Sığın böyük bir Mərd ada,
Dur bu səmtə yön, ağlama [2,s.480].

Əsil övliyalar, əsil Allah adamları, əsil sənətkarlar ölümü dözümlə, səbrlə, təmkinlə qarşılar. Ölüm ayağında belə, köç ərəfəsində belə təskinlik verir, səbrə səsləyir, ondan narahat olmamağa dəvət edir:

Çaşma gülüm, karıxma heç,
Şəmşirdən nə qoruxma heç,
Səbrin olsun, darıxma heç,
Qəlbin sıxar kin, ağlama [2,s.480].

Bu ayrılıq insanlaşan dağlarla Ustadın vida mərasimində səslənir. : “Baxıram mən” gəraylısnda olduğu kimi sanki ayrılıq çağında dağlarla vidalaşır:

Daha sizə qoşa dağlar,
Yanım üstə baxıram mən.
Bax gözümdə yaşa, dağlar,
Sel-sel olub axıram mən [2,s.488].

Qurani-Kərimdə deyildiyi kimi “dünyanı müxtəliflikdə yaratdım ki, bezməyəsiniz” müddəasına uyğun olaraq “sənətkarlar da müxtəlif yaradılmışdır” fəlsəfəsi “Sənsiz” rədifli gəraylıda öz yerini tapır:

Şəmşir, hicrin deyilmiş az,
Qələm götür, şərhinə yaz.
Hər yetəndən Vurğun olmaz,
Ötdü uzaq baxtı sənsiz [2,s.508].

Təcnislərdə də dini etika məsələləri qabardılır:

Dar günümdü, yetiş dada, ay Ağa,
Bərəkətli, nurlu yağış a yağa.
Deyillər, əl tutmaq Əlidən qalıb,
Sən də əl at, durğuz məni ayağa [2,s.522].

Klassiklərin əsərlərində eşq şərabı, İlahi eşqə aparan şərab və ya mey kimi anlaşılır.

Vermə o meydən ki, din etmiş haram,
Bir mey ver ki, ondan din olmuş tamam [142,s.58].

Bu gün dini tolerantlıqdan danışılan çağımızda "Aşıq Şəmşir yaradıcılığında dini etika" yarımfəslinin nə dərəcədə aktual olduğu sayıq oxucuya bəlli olar.

## 2.4. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA TİBBİ ETİKA

Etikanın mühüm bir növü sayılan *tibbi etika* deontologiya adı ilə həkim-xəstə münasibətlərini özündə ehtiva edən əxlaqi dəyərlər kompleksidir. Ustad iti müşahidəçiliklə bu etik dəyərləri qiymətləndirə, tibbin bugünkü problemlərini görə və bu məsələlərə öz münasibətini açıqlaya bilmişdir. Bu fəsil üzərində işləyərkən həkimlərin əxlaq kodeksi kimi qəbul edilmiş "Həkim andı"nı, onun hissələrini verməyi və Aşıq Şəmşirin tibblə bağlı şeirləri ilə müqayisələr, paralellər aparmağı lazım bildik:

*Həkim andı*

*Ömrüm boyu yüksək həkim adını uca tutacaq, bu peşənin paklığını qoruyacağam. İşə başlayan andan bütün qüvvəmi, bilik və bacarığımı insanların sağlamlığının qorunmasına həsr edəcəyəm.*

*Peşəm üzrə vicdanla çalışacaq, tibbi yardım göstərməyi özümə borc hesab edərək, bu işə həmişə hazır olacaq, xəstələrə və peşəmlə bağlı təmasda olduğum adamlara yüksək qayğı və diqqətlə yanaşacaq, həkim etikasına həyatım boyu əməl edəcək, həkim sirlərini qoruyacağam.*

*Aldığım biliklərlə kifayətlənməyəcək, ixtisasıma daha dərindən yiylənmək üçün daim oxuyub öyrənəcək, bilik və peçə səriştəliyimi dönmədən artıracağam. Həmkarlarımdan öz köməyimi əsirgəməyəcəyəm.*

*Xalqımınvə dövlətimin qarşısındakı məsuliyyət hissimi unutmayacaq, böyük Allahın, Müqəddəs Kitabların həkimdən tələb etdiyi şəfqət və mərhəmətini insanlardan əsirgəməyəcəyəm.*

*Bu anda bütün ömrüm boyu sadiq qalacağıma söz verirəm.*

Bu gün tibbi etikada cavabı axtarılan mühüm suallardan biri belədir: tibb bacısı, həkim, tibb işçisi necə olmalıdır? Ömrünün son illərində yolu xəstəxanalara düşən Ustad öz iti fəhmi ilə tibb işçisinin əxlaq kodeksini bizlərə – tibb işçılərinəə “Olsun” qoşmasında yuxarıdakı sualın cavabını bədii-poetik bir dildə çatdırır:

Tibb bacısı gərək olmasın dəli,
Özü yaxşı, *xasiyyəti* xoş olsun.
Xəlqi sevindirsin onun əməli,
Onda kamal olsun, *əqli-huş* olsun [1,s.393].

“Təvazökarlıq”, “mülayimlik” kimi etik dəyərlər aşığın dilində ipəyə, qoçaqlıq, zirəklik kimi dəyərlərsə alıcı laçına bənzədilir:

Belə xasiyyətdən mən ölüm əl çək,
Qoy görənlər desin ipəksən, *ipək*.
Öz işində bir *alıcı laçın* tək,
Yerdə gəzən, göydə uçan *quş* olsun [1,s.393].

Hər bir insanın sağlamlığı təkcə onun öz sağlamlığı kimi başa düşülə bilməz. “Bir insan bir dünyadır” müddəası ilə çıxış edən Ustad bu yolda “kərəmli”, “canlar dardan qurtaran” həkimlərin adını hörmətlə çəkir:

Nə *canlar qurtarır* hər gündə dardan,
Qoymur ayrı düşə yarını-yardan,
Haqq da razı qalsın belə ilqardan,
*Kərəmli* olanlar, salamat qalın! [2,s.437].

Millətin hamısına bir nəzərlə baxan, xəstələr arasında ayrı-seçkilik salmayan, ehtiram və sədaqət mücəssəməsi olan tibb işçiləri xüsusilə vəsf olunur:

Əhsən bu qurğuya, belə həsrətə,
İncə ehtirama, bu sədaqətə.
Bir nəzərlə baxan bütün millətə
Seçki qoymayanlar, salamat qalın! [2,s.437]

Tibb sahəsində yüksək təşəkkül tapan təhsilin, biliyin mühüm etik dəyər olduğu məlum olur. Bu sahədə ciddi, səhih biliklərə malik olmağın mühümlüyünü "bilikli loğmanlar" deməklə önə çəkir:

Deməliyəm söhbətə can, sözə can,
Əziz döstlar, hər an olsun sizə can!
Əlillərə verirsiniz təzə can,
*Bilikli loğmanlar*, salamat qalın! [2,s.437].

Tibb sahəsində çalışanlar üçün "ehtiram", "sədaqət", "kərəmli olmaq" kimi etik dəyərlərlə yanaşı bu sahədə "cəsarət", "cəsurluq" kimi dəyərlərə malik olmaq çox zəruridir. Təsadüfi deyildir ki məşhur rus təbibi Botkin deyirdi: "Qorxaq həkim ən təhlükəli həkimdir".

Sizdə *sədaqət* də, məhəbbət də var,
Yetişir yerinə tamam arzular.
Çox ***cəsur*** çalışır qızlar, oğlanlar,
İgid qəhrəmanlar, salamat qalın! [2,s.438].

Allahdan verilən ömrün keşiyində duran, əməkləri qiymətləndirilməyə layiq tibb işçilərinə Aşıq Şəmşir yüz əlli il ömür arzulayır:

Cahi-cəlalınız yetişsin başa,
Şəmşir dilin daha açıb alqışa.
Ömür sürün, çatın yüz əlli yaşa,
Səbəbkar oğlanlar, salamat qalın [2,s.438].

Ustadın tibbi profilaktikaya – xəstəliklərdən qorunmağa yönələn xeyli sayda şeirləri mövcuddur ki, bu baxımdan spirtli içkilərin insan mənəviyyatına olan mənfi, pozucu təsiri, Aşıq Şəmşirin "Səd heyf, heyf" qoşmasında aydın şəkildə verilmişdir:

Niyə belə olub gözəl Kəlbəcər?!
Bu şana, şöhrətə səd heyf, heyf.
Vəfalı dostlarda çoxalıb kədər,
Eşqə, məhəbbətə səd heyf, heyf [2,s.419].

Spirtli içkilərə aludə olmaq estetik hisslərin korşalmasına səbəb olur ki, bunun şahidi olan Ustad aşıq təranəsinin qiymətdən düşdüyünü nəzərə alır:

Çox içməyin cana ziyanı çoxdu,
Bədənə xəncərdi, ürəyə oxdu.
Aşıq təranəsin eşidən yoxdu,
Bu incə sənətə səd heyf, heyf [2,s.419].

Spirtli içkilərlə bağlı ilk fikir Əl-bəqərə surəsinin 219-cu ayəsindədir: “Ey Peyğəmbər! Səndən içkinin və qumarın hökmlərindən soruşurlar. De: Bu iki işdə böyük günah və həm də mənfəətlər var. Ancaq onun günahının ziyanı, mənfəətlərindən iki qat artıqdır”.

Buna bais olan arax, çaxırdı,
Piyanların gözü süzüb axırdı.
Demirəm ki, qəlbi misdi, paxırdı,
Sadaqət hörmətə səd heyf, heyf [2,s.419].

Qoşmanın növbəti misralarında adı Qurani-Kərimdə çəkilən müalicəvi qida hesab olunan balı – “Əl bəqərə surəsi, 168-ci ayə: Ey insanlar! Yer üzündə halal və pak olan ruzilərdən yeyin və Şeytanın vəsvəsələrinə itaət etməyin. Həqiqətən Şeytan sizin üçün aşkar bir düşməndir” – arağın əvəz etməsinə heyfslənir:

Hanı Kəlbəcərin o təm-tərağı,
Quzu kəsib, yola salan qonağı.
Bal yerinə işlədirlər arağı,
Kəsilən nemətə səd heyf, heyf [2,s.419].

Müqəddəs kitabımızda da, şeirimizin zirvəsi Şeyx Nizamidə də, dədələşmək hüququnu almış Dədə Şəmşirdə də spirtli içkilərə münüsibətin eyniliyini görən oxucu Allaha məxsus olan sözün sehrinə düşür. Aşağıdakı bənddə Nizami Gəncəvi [140] şeirində şərabın, spirtli içkilərin ağıl-kamala münasibəti açıqlanır:

Hamı: – Sərxoş olmuş, – dedi Bəhrama,
Dini meyə satıb, şəmşiri cama.
Əyyaş həriflərlə olmuş həmməslək,
İçdiyi şərabdır, məhsulu külək.

XX əsrin 70-ci illərində spirtli içkilərin satışı artıq SSRİ-nin periferik bölgələrində də davam edirdi. Spirtli içkilərin həddindən çox qəbulu sonda şəxsiyyətin enməsinə, psixik cəhətdən deqradasiyasına gətirib çıxarır ki, Ustad məhz spirtli içkilərin qəbulu ilə əlaqədar ismətin tökülməsinə heyfslənir:

Tərifi var idi adı-sanında,
Biri olmamışdı Haqq divanında.
Cavanlar utanmır böyük yanında,
Tökülən ismətə səd heyf, heyf [2,s.419].

Söhbət məqamından, məclisdən uzaq düşməyin, sazın, sözün, səsin qiymətdən düşməyi faciədir ki, bu faciəyə də səbəb spirtli içkilərdir:

Eşidənlər ləzzət almır söhbətdən,
Məclisin işrəti düşür ləzzətdən.
Saz da, söz də, səs də yenir qiymətdən,
Təmkinli adətə səd heyf, heyf [2,s.420].

Qoşmanın başqa bir bəndində spirtli içkilərin törətdiyi fitnə-fəsaddan söz açılır, kamal, ağıl sahiblərinin başını itirməsi, "qardaşın qardaşı tanımamasından dəhşətli nə ola bilər" müddəası şeir dilində oxucuya çatdırılır:

Hallanır, *tanımır* qardaş-qardaşı,
Atır badələrin döyüş ataşı.
*Kamal* sahibləri itirir başı,
İsmət, məharətə səd heyf, heyf [2,s.420].

Aşıq Şəmşirin spirtli içkilərə münasibəti, bu barədə qələmə aldığı şeirlər siyasi lider Heydər Əliyevin fikirləri ilə həmahəng səsləşir: “Mən bu gün bir daha bəyan edirəm: Azərbaycanda belə hallara son qoyulmalıdır. Mən Azərbaycanda spirtli içkiləri qadağan etmirəm. Ancaq üzümü öz soydaşlarıma tutub, sadəcə demək istəyirəm ki, gəlin bizim milli, dini, mənəvi ənənələrimizi – ulu babalarımızdan əsrlərdən əsrlərə bizə qalmış ənənələrimizi ***pozmayaq***. Gəlin onlara ***sadiq olaq***, arağa bu meylin artmasına nəinki imkan verməyək, hətta onun qarşısını alaq. Bu, mənim ümumi fikrimdir. Amma konkret istehsalla əlaqədar onu demək istəyirəm ki, Azərbaycanda spirt, araq, yaxud da ki, spirtli içkilər əhaliyə nə qədər lazımdır, o qədər istehsal olunmalıdır. Başqa istehsalın qarşısı alınmalıdır. Mən bizim Nazirlər Kabinetinə, müvafiq nazirliklərə, komitələrə bu haqda göstəriş vermişəm. Bu gün bir daha bunu təkrar edirəm – bunların qarşısı alınmalıdır” [57, XIV c,s. 34-35].

Ustadın əksər şeirlərində Kəlbəcər timsalında Azərbaycan cənnətmisallı məkan kimi tanıdılır. Kəlbəcərin bulaqları abi-həyata, abi-kövsərə bənzədilir, İstisu kurortu loğman kimi, böyük pir kimi xalqa istinad verilir. Belə bir cənnət diyara spirtli içkilərin ayaq açmasını “Səd heyf, heyf” deyərək fəryad edir:

Şəmşir, bir bax bu cəlallı Kəlbəcər,
Sarı yağlı, beçə ballı Kəlbəcər.

Kəskin sözlü, ağsaqqallı Kəlbəcər,
Düşüb nə halətə – səd heyf, heyf [2,s.420].

İnsan orqanizmində baş verən dəyişiklikləri özündə ehtiva edən şeirlər xüsusi maraq doğurur. Komik tərzdə yazılaraq dialektikanın kəmiyyət dəyişikliyinin keyfiyyətə keçməsi qanununu ehtiva edən "Dönmüşəm" rədifli qoşmada müəyyən faiz insanlarda qocalıq psixozunun əlamətlərini təsvir edir.

Dinib, danışanı salıram oda,
Baxıram sığışmır ismətə, ada,
Acı dil tökürəm yazıq arvada,
Nədəndirsə bir ilana dönmüşəm [2,s.387].

Qocalıqla bağlı orqanizmdə baş verən anatomo-fizioloji dəyişiklikləri yerindəcə təsvir edir:

Hirslənirəm, əlim, ayağım əsər,
Öz meylim özümdən oysanıb küsər.
*Xətt ağarıb, diş tökülüb*, müxtəsər,
Topu sınıq dəyirmana dönmüşəm [2,s.387].

Dədənin yuxarıdakı misraları dahi Nizaminin [138] fikirləri ilə həmahəng səsləşir:

Bədən sağlam olsa, saf olar söz də,
Süst adam süst olar bədəndə, sözdə.

Həyat eşqi, yaşamaq eşqi, Allahın verdiyi ömürə hörmət edərək yaxşılıqlar üçün, yazıb-yaratmaq üçün yaşamaq

eşqi Dədə Şəmşirin yaradıcılığını tərk etmir. Ömürə müraciətlə yazdığı "Səndən" rədifli gəraylıdakı kimi:

Sən yamanca bivəfasan,
Kim yarımış ömür, səndən?!
Baldan şirinsən insana,
Düşdüm ayrı demir səndən [2,s.388].

"Ömür şirindir" deyimi Aşıq Şəmşir dilində yüz yaşda belə ömürdən əl çəkməmək kimi anlaşılır:

Yükün olur məzar daşı,
Ağladır dostu, qardaşı.
Kimin olsa yüz il yaşı,
Ayrılmaq istəmir səndən.

***

Şəmşir doymur yaşamaqdan,
Salma dövran, məni taxtdan.
Ayrılmazdım bulaqlardan,
Olmayınca əmir səndən [2,s.386].

Qocalığı qəbul edən, qəbul etməklə yanaşı hətta qocalığa gülməyi bacaran müdrik şair Allahın eşq pərvanəsinə, Mövlana Cəlaləddin Rumi demiş, Allah eşqində özünü unudan "eşq dəlisinə" çevrilə bilir. Və elə buradaca qocalığa gedən yolda iki istiqaməti aydınca görə bilirik: müdriklik və qocalıq psixozları. Allahın sevdiyi, seçib bəyəndiyi Dədələr üçün müdriklik yolu açıq olur:

Şəmşir nöqsanını düz deməlidi,
Mənim sözüm sualçıya bəllidi.
Siz deməyin, şeir yazan dəlidi,
Vuran, tutan qəhrəmana dönmüşəm [2,s.387].

Xalqın sağlamlığının keşiyində duran tibb işçilərinin vəsfi estetik bir duyumla həyata keçirilir. “Ziniyət” rədifli gəraylı ilə tanış olan tibb işçisinin tibbi etikanı pozacağı ehtimalı sanki yox olur:

Xəstə şəfasıdı təbib əllərin,
Bülbülü mat edir şirin dillərin.
Pərilər əliylə siyah tellərin
Nə göyçək verilib sığala, Zinyət [3,s.102].

Yuxarıdakı bənddə gözəlliyin qrasiya modifikasiyası (bülbülə bənzətmə), dil etikası (şirin dillər), gigiyenik tələblər (sığallı tellər) vəhdət halında təqdim olunur.

Ustad aşığın fəlsəfəsində tibbi etika (Loğman kamallı), estetika (həmi gözəlsən) və ümumi etik dəyərlərlə (şücaət, təmkin, ariflik) birgədir, vəhdətdədir:

Sən həmi *gözəlsən*, həmi *kamallı*,
Dərin *düşüncəli*, *arif* camallı.
Yusif *şücaətli*, Loğman kamallı,
Əhsən bu *təmkinə*, cəlala, Zinyət [3,s.102].

Xəstəxanada olan Aşıq Şəmşirin – böyük söz adamının iti nəzərlərindən heç nə qaçmır, bu gün də səhiyyə sahəsinin işçilərini səfərbər edir. İnsanın daşıdığı ümumbəşəri funksiyanı, missiyanı, qısaca desək Yaradan qarşısında

insanlıq borcunu yada salır. Eləcə də xəstələrin sağalması yolunda, həyata qayıdış yolunda onlara baş çəkməyin, onların ziyarətinin nə dərəcədə vacibliyini poeziya dili ilə, qoşma dili ilə göstərir:

Gələydi Qənbərim yanında Məmməd,
Şəmşirin halını bilərlər əlbət.
İnsandan insana gərəkdi mədəd,
Təbiblərdir kömək olan xəstəyə [3,s.111].

Dost Aşıq Şəmşir üçün kimdir? Dost xəstəxanada müalicə alan Aşıq Şəmşir üçün təbibdir, həkimdir, loğmandır. Şair Əli Qurban Dastançıya ünvanladığı “Gəldimi? – Gəldi!” rədifli qoşmasındakı kimi:

Mənə təbib oldu dostun ayağı,
Dərdimin dərmanı gəldimi? – Gəldi!
Bu xəstə canımın pərişan çağı,
Həkimi, loğmanı gəldimi? – Gəldi! [2,s.149].

Xəstələrin şəfa tapması yolunda nitq necə olmalıdır sualına Ustadın çoxsaylı cavablarından biri də aşağıdakı bənddə verilir:

Gələndə cismimdə təzələndi qan,
Kəlmələri mərcan, simuzər, əfşan.
Alim nüma bu xoş nişan danışan,
Mərifət ümmanı gəldimi? – Gəldi! [2,s.149].

Bu bənddən göründüyü kimi “mərcan, simuzər, əfşan kəlmələri sonda mərifətlə nəticələnən xoş danışıq yarat-

malıdır" prinsipinə əməl olunur. Ustad bu məqamda xəstələrə baş çəkən insanların "qanı təzələyən" mərifət əhli olması tələbini irəli sürür.

Aşıq Şəmşir tibb işçılərini xalqın sağlamlığı keşiyində təmannasız durmağa çağırır, "dünyada yalnız yaxşılıq qalacaq" fikrini gündəmə gətirir:

Taleyin, iqbalın sənə yar olsun,
Bu təbib əllərin daim var olsun,
Qoy yazım dünyada yadigar olsun,
Vəsfinizi şirin sözə gətirdim [3,s.144].

Aşıq Şəmşirin həkimlərlə münasibəti həmişə ılıq olmuşdur. "Aşıq Şəmşir yaddaşlarda" kitabında Ustadın pofessor Gürşad Hüseynova saz bağışlaması, onu vəsf etməsi haqqındakı qoşma [36] da bu qəbildəndir:

Şəmşir xəstəlikdən çəkir cəfanı
Görsəm nə olardı zövqü-səfanı.
Mən həmin həkimdən alım şəfanı
Eyləsin dərdimə çarə el oğlu.

Mənəvi varlıq sayılan insanın ucalığı onun "əhli-səxavət" olmasındadır:

Həkim dostum, mənim arzum, bil, budur,
Ucalda dağ kimi səadət səni.
İşlərin nizamda tapacaqdı sur,
Yüksəldəcək əhli-səxavət səni [3,s.159].

Kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliyinə keçmə qanunu, bioetika ilə birgə səslənir:

Qocalıq qış fəsli boranlı qardı,
İnsanın ömrünə qorxusu vardı.
Elə ki saqqalım, saçım ağardı,
Bildim ki, yetişən vaxtdı, qocaldım [3,s.160].

Ustadın yaratdığı ən böyük fəlsəfi fikir budur ki, bioloji hal sayılan qocalıq və ölümlə, çarəsi olmayan işlərlə məşğul olmaqdansa vətənə, el-obaya qulluq daha vacibdir:

Şəmşirəm dil verdi nəğmə dilimə,
Qulluq etdim vətənimə, elimə,
Axtarıram – qocalığa, ölümə,
Neynəyim ki, çara yoxdu, qocaldım [3,s.161].

Tibbi etika ilə məkan fəlsəfi anlayışı “Bir səhər mehi” rədifli qoşmada vəhdət halında verilmişdir. Dağları insanlaşdıran ustad bu bənddə Murovu, Dəlidağı “ağ xalata bürünmüş həkimlərə”, tibb işçilərinə bənzədir:

Nə bəhsə düşübdü Murov, Dəlidağ,
Bürünüb xalata geyiniblər ağ.
Şəfalı, dərmanlı həkimlər sayaq,
Bədəndən ağrını tez kəsər mehi [3,s.182].

Təsadüfi deyildir ki, əzəmət, vüqar, etibar simvolu sayılan dağlar, uzaq ənginliklərin seyr oluna bilməsi, eləcə də o dağların qoynunda salınan kurortlar insanların dep-

ressiya, ruh düşgünlüyü, apatiya deyilən sinir-psixik pozuntulardan qorunması baxımından vacib şərtlərdəndir:

Qoşqar, Kəpəz, Çilgəz, Qonur bir cahan
Keytinin, Məndilin fəsli-gülüstan.
Pay istəsək İstisudan – o dostdan,
Eyləyər xəstəni təzə tər mehi [3,s.182].

Aşıq yaradıcılığında tez-tez təsadüf etdiyimiz: "Gözəllər sağaldır", "Allahın yaratdığı gözəllər sağaldır"-ifadələri mövcuddur. Haqlı bir sual ortaya çıxır: – Axı gözəllər necə sağalda bilir ki?! Düşünsək ki, insan anatomo-fizioloji varlıqdır, yəni müəyyən bir anatomik quruluşu özündə əks etdirir, müəyyən inkişaf mərhələlərini keçən sağlamlıq dərəcələrinə malikdir. Və düşünsək ki, bu anatomo-fizioloji varlıq günün birində ictimai-sosial varlığa çevrilir, bir sosial fərd kimi cəmiyyətdə öz yerini tutur, ictimai qınağı qəbul edir və s. Eləcə də Yer üzünün əşrəfi sayılan insanı ruhi, psixik fərd kimi səciyyələndirsək və "gözəllik Allah nurundandır" fəlsəfəsindən çıxış etsək, onda gözəlliyin xəstələri necə sağaltmasının sirri məlum olar. Belə "sağaltmağ"a aşıq poeziyasına baş vuran sənətkarların hər birində təsadüf etmək mümkündür. Dədə Ələsgərdə [17] bu sağalma sübh namazı vaxtı Allahın nurunun təcalla edildiyi Ay vasitəsilə həyata keçirilirsə:

Səhər çağı ***mah*** camalın görəndə,
Xəstə könlüm gəldi saza Müşgünaz!

Aşıq Şəmşir yaradıcılığında bu sağalma Allah ruhunun mövcud olduğu qəlbin aynası sayılan göz vasitəsilə həyata keçirilir:

İstəklisən, mehribanım,
Olan təbibi-loğmanım,
Sağalarmı xəstə canım?!
Etməsə çara ***gözlərin*** [3,s.321].

Başqa bir gəraylı bəndində Allah ruhu gözəlin camalında təcalla edir. Əgər bir halda "xəstə can" şəfa tapırsa, digər halda "batqın nitq" açılır:

Vəfalısan olma atqın,
Nur camalın olmaz tutqun.
Sənsiz oldum nitqi *batqın*,
Bil, *açıldı* sən gələndə [3,s.320].

Azərbaycan kurortlarının müalicəvi əhəmiyyəti, şəfaverici xüsusiyyətləri Ustadın şeirlərində başqa bir poetik çalarda məkan və tibbi etikanın vəhdətində verilir:

Çoxdan bəri elə dayaq
Sənsən olan, a Mərdəkan.
Təbib olub loğmanlara,
Cığır salan, a Mərdəkan [3,s.370].

Bu gün gerantologiyada (gerontos – qoca, loqos – elm anlayışındadır, hərfi mənada uzunömürlülük haqqında elm deməkdir) sağlam uzunömürlülük, müdrikcəsinə qocalıq həllini gözləyən ciddi problemlərdəndir. Burada da "düz-

gün mənəvi yaşanılan ömür müdrikliklə başa vurulacaq” müddəası özünü doğruldur:

Şəmşir, etmə fikir, xəyal
Mətləbini *halaldan* al.
Qocalsan da, əqli-kamal
Azalmayıb, var başında [3,s.376].

Aşıq Şəmşir şeirlərində müasir təbabətin nailiyyətləri diqqətə çatdırılır, tibblə məşğul olan alimlərə sanki elmi istiqamət verilir. “Bax” rədifli müxəmməsdə Ustad tibbi etikanın ana problemlərindən söhbət açır:

Elmimizin hünərindən, qüvvətdən, qüdrətdən deyim,
Kəndliyə, şəhərliyə olunan hörmətdən deyim,
Şəmşirəm, indi sizə elmi-təbabətdən deyim,
Azar-bezar uzaq düşüb bütün camaatdan, deyim,
İnsana təzə can verən alimin dərmanına bax [3,s.393].

Aşıq Şəmşir yaradıcılığında sağlamlığın qiyməti, onun əvəzsiz nemət olması sərrastcasına verilir, lakin ölümün də “qaçılmaz olduğu müddəası” təqdim olunur:

Şəmşir, nə şirindi ömrün əzəli,
Bir can sağlığıdı dünya gözəli.
Yel əsər tökülər payız xəzəli,
Mən də o saralmış yarpağam bir gün [1,s.190].

Ağır xəstəliklər qarşısında, müvəqqətidən əbədiyə köç hesab edilən ölüm qarşısında Aşıq Şəmşir Allaha sığınaraq dözümlü, səbrli olmağın yolunu göstərir:

Həkim sənsən, təbib sənsən – mərd Ağa,
Şəmşir üçün haraya çat, bir də Ağa.
Salıb məni nə günlərə dərd, Ağa,
Bir xaliqə gəlir gümanım mənim [1,s.360].

Tarixən Loğman deyə anılan həkimlər sağalmaq timsalıdır ki, bu timsal həkimlərə, tibb işçilərinə yönəlir:

Şəmşir, sözün yayılıbdı cahana
Ruh veribdi ariflərə, qanana.
Gecə-gündüz üz tuturam Loğmana,
Yaralıyam, məlhəm eylə ürəkdən [1,s.361].

Müalicəsini başa çatdırıb xəstəxananı tərk edən Aşıq Şəmşir "Salamat qalın" rədifli qoşmasında tibb işçilərinin əxlaq kodeksini şeir dilində səhiyyə işçilərinə çatdırır: "İnsanın ömrünü uzadan təmiz vicdanlı" tibb işçilərinə minnətdarlıq bildirilir:

Dərin minnətdaram cümlənizə mən,
Əziz mehribanlar, salamat qalın!
İnsanın ömrünü uzadan həmən,
Ey təmiz vicdanlar, salamat qalın! [2,s.437]

Ustad aşığın ömrünün son illərində xəstəliklə bağlı, tibb işçiləri ilə bağlı xeyli sayda qələmə aldığı şeirləri var ki, bu şeirlərdə tibbi etikanı pozanlar satirik bir şəkildə onun iti qələminə tuş gəlir:

Bir utanmaz sordu məndən knişka,
Üstümə hayqırdı kəlləsi qaşqa.
Xəstəliyim anlamadı bu çoşqa,
Xəyalımın ahu-zarı göründü [1,s.345].

“Göründü” rədifli bu qoşmada eləcə də tibbi deontologiyaya doğru-dürüst əməl edən həkimlər tərif obyektinə çevrilir, tibb işçiləri üçün nümunəvi həkim obrazı yaranır:

Sağ olsun, el canlı bir cavan oğlan,
İnsanlıqda kamil, sadə, mehriban,
Şəmşirin dərdinə elədi dərman,
Məhəbbəti mənə sarı göründü [1,s.345].

Aşıq Şəmşirin yaradıcılığında tibbi etika dini etika ilə vəhdətdə verilir. Belə ki, müalicəvi İstisu aşığın nəzərində böyük pirdir. Əlillər, xəstələr bu pirdən nicat alır. Adətən övliyaların, İslam dinini yayanların, bu dinin təbliği yolunda şəhid olanların dəfn olunduğu yerləri müsəlmanlar pir adlandıraraq oradakı övliya ruhları ilə öz istəklərinin həyata keçirilməsi üçün Allaha müraciət edirlər. Müəyyən məqamlarda duaların qəbul olunduğu bu pirlərlə müqayisədə demək olar ki, bütün xəstələrin şəfa tapdığı İstisu Aşıq Şəmşir üçün Böyük Pirdir.

Sınaqlı ocaqdı – bilir mahallar,
Gəlir şəfa tapır, şillər, topallar.
Niyə səni sevindirmir bu hallar,
Belə Böyük Piri bəyənmədinmi?! [2,s.371].

Bu Böyük Pirə və İstisu timsalında pirlərimizə göstərdiyimiz etinasızlığa cavab olaraq hələ Sovetlər dönəmində yazdığı "Səd heyf, heyf" qoşmasında spirtli içkilərin cənnətmisallı Kəlbəcərə də ayaq açmasından danışır:

Niyə belə olub gözəl Kəlbəcər?!
Bu şana, şöhrətə səd heyf, heyf.
Vəfalı dostlarda çoxalıb kədər,
Eşqə, məhəbətə səd heyf, heyf.

***

Buna bais olan arax, çaxırdı,
Piyanların gözü süzüb axırdı,
Demirəm ki, qəlbi misdi, paxırdı,
Sədaqət hörmətə səd heyf, heyf [2,s.419]

Ustadın yuxarıdakı misraları Qurani- Kərimdə Məidə surəsi, 91-ci ayədə yazılanlar Ustadın yuxarıdakı misralarında öz əksini tapır: "Şeytanın qəsdi var ki, şərab və qumar vasitəsilə sizin aranızda düşmənçilik və kin yarada və sizi Allahın zikrindən və namazdan uzaqlaşdıra. Məgər siz ondan əl götürərsiniz?"

Dirilik suyu içən Xızır peyğəmbər yada salınır. Suyun ilahi gücə malik olması dilə gətirilir:

Sal müşkül guşəni yada, dağdadı,
Istədiyim təmənna da dağdadı.
Külək su rəhbəri – o da dağdadı,
Xızır peyğəmbəri bəyənmədinmi [2,s.371].

Ekoloji amillər, təbiət amilləri, bir sözlə sığındığımız dağ, ovlaq, bulaq, çay kimi amillər Aşıq Şəmşir yaradıcılığında həmişəki təkin insanlaşır və bu insan -təbiət amilləri poetik bir üslubda oxucuya yönəlir:

Nalə çəkib etmə fəryad,
O dağları görəndə sən.
Nə kövrəlib tökmə qan yaş,
Bulaqları görəndə sən.

Ağlama, yanır ürəyim,
Dərmanım yoxdu, neyləyim?!
Köks ötürmə, mən gəzdiyim
Ovlaqları görəndə sən [2,s.449].

Ustadın dilində “Torpaqdan aldığını torpağa da qaytarmalısan” müddəasına uyğun poetik deyimlər işə düşərək oxucunu əfsunlayır:

Anasan, övladın daraşır sənə,
Döşündən süd əmir, sarmaşır sənə,
Axır kübrə olur, qarışır sənə,
Edirsən özünə tay, qara torpaq [2,s.265].

Tibbdə qocalıq psixozu deyilən xəstəlik Ustadın “Nə pis olarmış” rədifli qoşmasında dəqiq təsvir olunmuşdur. Amma bu xəstəlik müdrik sənətkarlara aid olmayan bir xəstəlikdir:

İnciyirsiz siz qocanın nəyindən,
Qəm canından çıxmır, dərd ürəyindən.

Gah çayından küsər, gah çörəyindən,
Əqli azalanda nə pis olarmış [2,s.322].

El üçün, cəmiyyət üçün "oda yanıb" qocalmaq, el içində ad qazanıb qocalmaq hər sənətkara nəsib olmur:

Yaxşı-yaman nədi qandın,
El ucundan oda yandın.
El içində ad qazandın,
Dövran sürdün, qocalıbsan [2,s.498].

Yaşadığı ölkədə spirtli içkilərdən istifadəyə baxmayaraq öz dininə sadiqlik bir daha Ustadın Dədə adına, övliyalaşmağa haqqı olduğuna sübutdur:

Mən ovduq içirəm, içmirəm konyak,
Arağa, çaxıra vurmadım dodaq.
Qalıb bizdə toxunulmaz o qonaq,
Aşıq yuxusunu qatdı, göndərdim [2,s.236].

Filosof insanların, düşünən və düşündürə bilən insanların mühüm xüsusiyyətləri onların müşahidəçiliyindədir. Aşıq Şəmşir iti müşahidəçiliyə malik zəngin fəlsəfi dünyagörüşlü bir sənətkar olduğundan onun həyatın müxtəlif sahələrinə aid şəxsi, başqalarını təkrar etməyən mülahizələri maraqlıdır. Ustadın "Yoxdu" rədifli qoşması tibbi etikaya həsr olunmuş, gözəl bir üslubda yazılmış, düşündürücü və araşdırılmağa layiq şeir nümunəsidir.

Qoşmada öncə xəstəlik kimi qrip şeytan nəfəsi hesab olunur:

Şeytan nəfəsidi həmin bu qrip,
Daha başqa oxşar nişanı yoxdu.
Neçə il Əyyubu qoyub intizar,
Özüdür ki, o yan, bu yanı yoxdur [2,s.113]

Şeirin sonrakı bəndində qripin yoluxucu olduğunu bilərək onu insanlara yoluxduranlar qınağa çəkilir, xəstəliyin yoluxucu olması faktı diqqətə çatdırılır.

Eli salıb yaman it azarına,
Baxın körpələrin ahu-zarına.
Lənət gəzdirənə, çilovdarına,
Bunun ki, insafı, vicdanı yoxdu [2,s.113].

Maraqlı olan odur ki, qripin klinik şəkli, klinik mənzərəsi şeir dilində həkim oxucularını, xüsusən də tibb işçilərini heyran qoya bilir:

Bir ola xəstənin gərək ağrısı,
Bilən olmur nədir görək, ağrısı,
Əzələ sancısı, ürək ağrısı –
Dəqiqə dincəlmək imkanı yoxdu [2,s.113].

Aşıq sonrakı bəndlərdə xəstəliyin etiologiyasını (törədicilərin növü, sayı) epidemiologiyasını (yayılmasını), infeksiyanın güclü virulentliyini, ağırlaşmalarını (qanyaradıcı sistemə, eşitməyə, sinir sisteminə olan təsirlər) sərrastcasına təqdim edir:

Otuz beş növ idi bir-birdən ötə,
Payızda müsəlləh olur millətə.

Baxmır yalvarmağa, baxmır hörmətə,
Mürvəti, ilqarı, imanı yoxdu [2,s.113].

***

Sement-beton olub bunun təməli,
Hər kimə əl çalır, qan qusur, bəli.
Kimini kar edir, kimini dəli,
Qurtarıb əlindən qaçanı yoxdu [2,s.114].

Ən maraqlısı odur ki, xəstəliyin cəmiyyətə vurduğu sosial itkilər, eləcə də bir sıra infeksiyalarla bəşəriyyətin mübarizə aparmasını ön plana çəkir, dinindən, dilindən asılı olmayaraq hamını tibbi profilaktikaya, tibbi etikaya əməl etməyə səsləyir:

Vuru el-obaya külli ziyanı,
Belə zülmə insan çətin dayanı.
Tanımır bizdəki konstitusiyanı,
Nə əlində köhnə "***Quran***"ı yoxdu.

Təkcə bu bənddə fürsəti fövtə verməyən aşıq dinimizin, kitabımızın sovetlər dönəmində qadağan olunduğunu dilə gətirir:

Bundan şəfalanmaq olubdu çətin,
Töhübdü gör necə xəlqin hörmətin.
A Şəmşir, öskürək bəşəriyyətin
Pis edib halını, pünhanı yoxdu [2,s.114].

Uzunömürlülük, qocalıq kimi məsələlərin çözülməsində Aşıq Şəmşirin "Qocalıq" rədifli qoşması auditoriya-

ların istifadəsinə verilə bilər. Bu auditoriya əgər bir tərəfdən tibb işçilərinin auditoriyasıdırsa, digər tərəfdən də kəmiyyət dəyişikliklərinin keyfiyyətə keçməsi qanunu ilə məşğul olan filosofların auditoriyasıdır:

Ağzımı boş qoydu, dişimi çəkdi,
Ağladıb, gözümün yaşını tökdü.
Dizlərimi tutub, belimi bükdü,
Süysünümə çomax vurdu qocalıq [2,s.187].

Sağlamlıq haqqında ustadın şeirləri tibbi profilaktikada istifadə üçün çox dəyərlidir. Sağlamlığın “ömür üçün bahar” olmasını estetik bir dillə kütlələrə çatdırmaq şair işidir, Aşıq Şəmşir işidir:

İbadətdi, ziyarətdi görüşmək,
Yoxsulluq, ayrılıq nəsdi, – demişlər.
Can sağlığı ömür üçün bahardı,
Qocalıq, xəstəlik pisdi, – demişlər [2,s.211].

Xəstələrin əhvalının yaxşılaşması yolunda rolu mübahisəsiz sayılan söz aşağıdakı “Demişlər” rədifli qoşmanın son bəndində öz qiymətini alır:

Gəl, Şəmşirin taleyinə bax indi,
Mahirənin meyli mənə yaxındı.
Səhər tezdən bir məktubun oxundu,
Ağrı-acım tamam kəsdi, – demişlər [2,s.211].

“Mənnən” rədifli qoşmada aşıq qrip infeksiyasına şeirlə müraciət edir. Bu infeksiyanın yayılma sürətini, əlamət-

lərini deməklə yanaşı, xəstə olarkən belə səbrə, təmkinə söykənərək xəstəliklə mübarizə aparmağın sanki yollarını öyrədir.

Tutur öskürəyim, vermir bir aman,
Ölümə, qripə tapılmır dərman.
Kimi yaxır, əl götürmür bu şeytan,
Durubdu tutaşa-tutaşa mənnən.

Yoluxucu xəstəlik “qrip” və tüfeyli söz “daqavor”un – hər ikisini mənfi anlamda işlətməklə dilimizin müdafiəsi yolunda Aşıq Şəmşir öz mücadiləsini ortaya qoyur:

Şəmşirəm, çəkirəm yüz cəfa, feyli,
Ellər səndən gileylidi-gileyli.
Ruhumu cəsəddən almaqdı meyli,
Fikri var, *daqavor* bağlaşa mənnən [2,s.213].

Yuxarıdakı bəndlərdə xəstəliyi şeytana oxşadan Ustad “daqavor” – müqavilə rus sözünü işlətməklə dilimizə tüfeyli sözlərin daxil olmaması yolunda müdaxilə edir.

Aşıq Şəmşir yaradıcılığı ilə yaxından tanışlıq depressiyaya, ruh düşkünlüyünə qapılan insanlarda nikbinlik yaratmaq, optimist əhvali-ruhiyyə aşılamaq baxımından çox vacibdir:

Yetişsə səhminə Şəmşirin səsi
Sənə duaçıdır kəskin nəfəsi.
Qəzanın qədəri yıxmayan kəsi,
Yıxarımı yığılsa yüz insan oğlu?! [2,s.318].

Düşünmək olar ki, psixoterapiya kurslarında bu tip yazılardan istifadə yerinə düşər. “Ağır xəstəliklər qarşısında, müvəqqətidən əbədiyə köç hesab edilən ölüm qarşısında həkimlərin çarəsiz qaldığı anlarda köməyimizə çatan poeziyadır, Aşıq Şəmşir qoşmalarıdır” fikri gündəmə gəlir. Aşığın 1977-ci ildə Mərdəkanda müalicə aldığı dövrdə yazdığı “Ey Xuda məni” rədifli qoşması bu baxımdan araşdırılma mövzusu ola bilir. Xəstələri dözümə, dəyanətə, səbrə, təmkinə səsləyən inci misralar işə düşür:

Naşükür deyiləm, dözürəm dərdə,
Səbrli yaratdın ey Xuda məni.
Sığınmışam səxavətli **bu** mərdə,
O, saymaz əfsanə, bihuda məni [2,s.358].

“Xəstə – qohumlar”, “xəstə – dostlar, xüsusən də sənətkar xəstə olanda “xəstə – el, oba” münasibətləri dərindəndərinə üzə çıxır:

Ovçu kimi gözüm gözləyir yolu,
Kövrək gölməçəsi yaş ilə dolu.
Ətrim duymuş olar Hüseyn Kürdoğlu,
Yəqin ki, görübdü yuxuda məni [2,s.358].

“Ey Xuda məni” qoşmasının son bəndində Mərdəkan təbibi Cəmilə xanımın timsalında xəstələrə qayğını önə çəkir, o timsalda tibbi etikanın – deontologiyanın ana prinsiplərinə toxunur:

Şəmşir, əldən gedir qocaman canım,
Bu ağır möhnətə necə dayanım?!
Mərdəkan təbibi Cəmilə xanım,
İstər ki, sağaldıb oxuda məni [2,s.358].

Beləliklə, “Aşıq Şəmşir yaradıcılığında tibbi etika” fəsli səhiyyə sahəsində insana obyekt kimi baxılmasını yox, ilahi varlıq kimi baxılmasını tələb edir. Bu fəsil bir daha Aşıq Şəmşir yaradıcılığında tibblə bağlı, səhiyyə ilə bağlı, bir sözlə sağlamlıq amili ilə bağlı dərin fikirlərin mövcudluğunu üzə çıxarır. Tədqiqatlar Aşıq Şəmşir timsalında gələcəkdə bu sahədə ədəbiyyatşünaslarımızla həkimlərimizin birgə səylərinin ortaya qoyulmasını zəruri edir.

## 2.5. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA EKOLOJİ ETİKA

Bu yarımfəsli ölkə prezidenti İlham Əliyevin ekoloji problemlərə münasibətini göstərən sözləri ilə başlamaq yerinə düşər: "İnsanın sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su – bütün bunlara biz çox böyük diqqət göstərməliyik" [110; 111].

BMT-nin XXI əsr üçün nüfuzlu beynəlxalq təşkilatlar, eləcə də dünya ölkələrinin rəhbərləri və hökumətləri qarşısında qoyduğu müasir tələblər aşağıdakı kimidir: "Təmiz torpaq – təmiz su – təmiz hava – ekoloji cəhətdən saf yeyinti məhsulları – ekoloji sanitariya və gigiyena tələblərini ödəyən ətraf mühit, məişət və yaşayış şəraiti–güclü iqtisadiyyat, əhalinin maddi rifahı və sağlamlığının yaxşılaşdırılması və təmin olunması = Davamlı İnsan İnkişafı".

Bundan əlavə, insanın yaşadığı mühitlə qarşılıqlı fəaliyyətinə nəzarət edilməməsi nəticəsində qlobal ekoloji tarazlıq pozulur. Texnogen və təbii fəlakətlər daha böyük iqtisadi itkilərə səbəb olur. Elmi-texniki tərəqqinin nəhəng nailiyyətlərinin şərtləndirdiyi sosial dəyişikliklər nəticəsində bir-birinə zidd meyillər muşahidə olunur. Bir tərəfdən elmi-texniki tərəqqi ideyaları muxtəlif sosial utopiyalarla qovuşaraq nikbin umidlər doğurur, digər tərəfdən müasir sənaye cəmiyyətinin tərəqqi, mədəniyyət və digər dəyərlərinin yaratdığı ümidsizlik mövzusu kütləvi hal alır, ictimai fikri, sözün hərfi mənasında gərginləşdirir.

Lakin elmi-texniki tərəqqi nəticəsində yaranmış böhranlı vəziyyətin əsas xüsusiyyəti onunla bağlıdır ki, tərəqqinin əxlaq meyarları maddi meyarlarla əvəz olunur. Sənaye cəhətdən inkişaf etmiş olkələrdə ümumi milli

məhsulun istehlak miqyası və adambaşına gəlir göstəriciləri getdikcə daha çox hallarda tərəqqinin başlıca meyarına çevrilir. Filosofların çoxu yekdilliklə qeyd edir ki, bu gün reallıq elmi-texniki tərəqqinin miqyası ilə müəyyən olunur. Lakin "tərəqqi" anlayışı yalnız texnika sahəsində öz əvvəlki mənasını saxlayır. Texnikanm inkişafına aludəçilik və bəşəri dəyərlərə münasibətdə etinasızlıq cəmiyyətin mənəvi dayaqlarının sarsılmasına, həyat keyfiyyətinin pisləşməsinə, insanların öz vəziyyətindən narazı olmasına, birgəyaşayış normalarının eroziyasına gətirib çıxarır. Bütün bunlar tərəqqiyə, bəşəriyyətin problemlərini texniki, təbii-elmi və iqtisadi vasitələrin köməyi ilə həll etməyin mümkün olmasına inamın əsaslarını sarsıdır [98,s.214].

Əgər biosferanın müasir komponentləri yaranmış ekoloji vəziyyətdə salamat qalmaq mexanizmindən istifadə edə bilirsə, insan ətraf mühitin çirklənməsinin ən güclü mənfi təsirinə məruz qalır, insan orqanizminin bioloji mexanizmləri bu çirklənmənin qarşısında davam gətirə bilmir. Deməli, təbiətin qorunması kimi qlobal problemdə əsas mühafizə obyekti bioloji növ kimi insan olmalıdır [98,s. 314].

Bəşəriyyətin salamat qalmasının təmin edilməsi üçün elmi-texniki inqilab genişlənərək mənəvi-ekoloji inqilaba cevrilməlidir. Bu inqilabın vəzifəsi elmin ekolojiləşdirilməsi ilə yanaşı, bütün insanlarda ekoloji *şüur*, təbii ehtiyatların qorunub saxlanması üçün şəxsi *məsuliyyət*, təbiətlə *ağıllı* və optimal qarşılıqlı təsirin zəruri olmasına inam hissi ***tərbiyə*** etməkdən ibarət olacaqdır [98,s.315].

Professor Qulu Xəlilov [94] “El sənətkarı” məqaləsində ekoloji element kimi dağların Aşıq Şəmşir yaradıcılığındakı yerini təyin etməyə çalışır və buna da çox

gözəl nail olur. Dağlar mövzusunun Ustadın yaradıcılığında mühüm yer almasını da izah edə bilir: "Bütün bunları oxuduqca istər-istəməz belə bir sual doğur: Aşığa bu tükənməz ilham, həvəs, güc, cavanlıq haradan gəlir? Onu qocalmağa qoymayan, həmişə şən, gümrah saxlayan, səsinə, sazına, sözünə şaqraqlıq verən hansı qüvvədir?

Əgər bu suala bircə sözlə cavab versək, deyərdik: Dağlar! Dağlari tərənnüm aşıq ədəbiyyatı üçün çox doğma və əziz olmuşdur. Aşıq Ələsgər kimi ustad bir aşıq qüdrətdən yapılmış qalalı dağları misilsiz bir sənətkarlıqla vəsf etmişdir. Lakin bizə elə gəlir ki, heç bir aşığın yaradıcılığında dağların tərənnümünə Aşıq Şəmşirin əsərlərindəki qədər geniş yer verilməmişdir. Şəmşir yaradıcılığında dağlar yalnız soyuq bulaqlar, seyrangahlar, qoyun-quzu sürüləri bəslənən gözəllik diyarı deyil, vətən, ana-ata kimi geniş bir məna kəsb edir. O dağlara onlarla qoşma həsr etmişdir və hər dəfə müraciət edəndə də onun yeni cəhətlərini üzə çıxarmışdır.

Aşığa görə insan da torpağa bağlılıqda, etibarda, sədaqətdə, möhkəmlikdə, məğrurluqda, çiyin-çiyinə söykənməkdə, hər cür tufana, qara sinə gərməkdə, məhz dağlar kimi olmalıdır".

Təsadüfi deyildir ki, M.Təhmasib [116] dağların müalicə ocaqlarına çevrilməsindən söhbət açır, dağların estetik zövq mənbəyi olmasından danışır: "Şəmşirin dağlara münasibəti, dağlarla həsbi-halı isə tamamilə başqa cürdür. O özünü Qonurun, Qoşqarın, Kəpəzin oğlu adlandırır, "Adın bir şeirimdə olmasa sənin, olarmı sözümün marağı, dağlar" deyir, onları ürəyinə dirək bilir, dağ görəndə ürəyinin dağa dönməsindən danışır, bu gün isə dağın sinəsini öz övladına açdığından, əsrlərdən bəri gizlədib saxladığı sərvətlərini

vətənə verməsindən, müalicə ocaqlarına çevrilməsindən söhbət açır, nəhayətdə də zəmanənin yeni adət-ənənəsi ilə onu yarışa çağırır":

Şəmşir çətin doyar sizdən,
Vəfalı dost keçməz üzdən,
Mən şeirdən, sən nərgizdən
Gəl bağlayaq yarış, dağlar!

Cəsarətlə demək olar ki, bizim aşıq-şairlərimizin heç biri Şəmşir qədər dağlara şeir həsr etməmişdir. Bu əsərlər, bir tərəfdən, yenə də inqilabdan qabaq həmin mövzuda yazılmışlarla müqayisə şəhətdən maraqlıdır, ikinci tərəfdən, bunların özündə də, başqa şəkildə deyilsə, aşığın dağlara münasibətində də aydın bir inkişaf görünməkdədir.

Qədim dastanlarımızda, xüsusilə "Kitabi-Dədə Qorqud boylarında, yaxud "Koroğlu" boylarında dağlara vətəni düşməndən qoruyan səngərli, qalalı mərd dayaq kimi baxılırdı.

Bu fəsli araşdırmazdan öncə insan-təbiət, insanın və təbiətin harmoniyası problemləri, insanın salamat qalması problemlərinin qısaca da olsa çözülməsinə ehtiyac duyulur.

Həyatın əzəlində, mövcudluğunda suyun xüsusi əhəmiyyəti həm dini, həm də elmi qaynaqlardadı. Sonuncu Allah elçisi, sevimli islam peyğəmbəri Məhəmməd əleyhissəlam öz ümmətini Kövsər hovuzunun başında gözləyir. Baba-nənələrmiz bizlərə bulaqlarımızın abi-kövsər olduğunu anlatdılar. Və bu gün dünyanın əsas problemlərindən olan içməli su problemi Allahın biz bəndələrə bəxş etdiyi bulaqlar, çaylar, göllər Ustad sənətkarlarımızın dilindən

düşməyib. Bu gün təbiətin qorunması kimi qlobal problemdə əsas mühafizə obyekti kimi insan dayanır.

İnsan nəyi qoruyur?! Təbii ki, sevdiyini.

Aşıq Şəmşir yaradıcılığında təbiət nə dərəcədə sevilərmiş?! İstisuyun "ab-havası" onun dərdinə dərmandır. Göllərdən ayrı düşəndə qəlbi yuxalır. Deməк ekoloji şüurun formalaşmasında bu gün də, yaradıcı insanlara ehtiyac duyulmaqdadır. Bu gün də Aşıq Şəmşir poeziyası ekoloji ehtiyatlara sevgi baxımından, ekoloji ehtiyatları gələcək nəsillərə ötürmək baxımından yüksək dəyərə malikdir.

Qayaları qartal, laçın yuvası,
Xoşdu İstisuyun abi-havası.
Şəmşirin dərdinin olur dəvası,
Sizdən ayrı qəlbim yuxalı göllər.

Aşıq Şəmşir yaradıcılığında hava və su ekoloji elementlərinin adı birgə çəkilir. Allahın biz bəndələrə həm ərməğanı, sovqatı, həm də səadətimiz və barlı-baratımız olan təmiz hava "abi-həyat" olan bularlaqla birgədir.

İnsan və təbiətin qarşılıqlı münasibətləri problemlərinin işlənməsi alman klassik fəlsəfəsində yeni səviyyəyə yüksəlmişdir. İnsan həyatının ətraf aləmlə sıx əlaqəsi öz əksini alman maarifçiliyinin ən görkəmli nümayəndəsi Herderin (1744–1803) yaradıcılığında tapmışdır. «Bəşəriyyətin tarixi fəlsəfəsinə dair ideyalar» adlı əsərində Herder, Monteskye, Didro, Lessinq və digər maarifçilərin təsiri altında olduğunu hiss etdirmişdir. Onun üçün dünya vahid, daim, fasiləsiz inkişaf edən bütöv bir orqanizmdir. Herder cəmiyyətin tarixini təbiətin tarixi ilə əlaqələndirir. Onun fikirləri Russonun (1712–1778) ideyalarına qəti şəkildə zidd gəlir.

Russoya görə, bəşəriyyətin tarixi yanılmalar, səhvlər tarixidir və təbiətlə barışmaz zidiyyətdədir [8,s.362].

Alman klassik idealizminin ən görkəmli nümayəndələrindən biri olan İohan Fixte (1762–1814) "Insanın təyinatı" adlı əsərində qeyd edirdi ki, "təbiət bütün hissələri öz aralarında əlaqəli olan bir tamı, bütövü təmsil edir". Onun fikrincə, insan isə təbiətin bütün qüvvələrinin xüsusi təzahürü və onların birləşməsinin göstəricisidir. Bu cür insan özünə və təbiətə təqdim etdiyi bir həyatı yaşayır və düşünür ki, nə vaxtsa ona təbiət qüvvələri üzərində hökmranlıq etmək qismət olacaqdır. Fixte belə hesab edirdi ki, insan onu yaradanların iradəsindən asılı olmayaraq, təkcə özünün mövcudluğu faktı ilə, öz növbəsində, təbiətə təsir göstərər və onda yeni fəaliyyət prinsipi rolunda çıxış edə bilər.

Lakin Fixte paradoksal və pessimist bir nəticə çıxarır: "Təbiət deyil, azadlığın özü insan həyatında dəhşətli surətdə pozğunluq yaradır; insanın ən qəti düşməni insanın özüdür" [8,s.363].

Ekoloji poblemlər qlobal problemlər sistemində sülh və müharibə problemlərindən sonra birinci sırada durur. Mühüm qlobal problemlərdən biri kimi, ekoloji problemlər, hər şeydən əvvəl, bütöv bəşəriyyətin mənafeyini ifadə edir. İkincisi, ekoloji problemlər özünü sivilizasiyanın inkişafının obyektiv amili kimi göstərir; onların kəskinləşməsi tərəqqini ləngidir və bəşəri mədəniyyəti məhv olmaq təhlükəsi ilə hədələyir. Üçüncüsü, onların adekvat təhlili inteqrativ yanaşmanı, yəni təbii, texniki və ictimai elm nümayəndələrinin birgə fəaliyyətini tələb edir. Dördüncüsü, onların düzgün həlli bütün dünya dövlətlərinin iştirakı ilə geniş beynəlxalq əməkdaşlıq sayəsində mümkündür.

Müasir qlobalistikada ekoloji problemlərin yeri və rolu müəyyənləşdirilərkən qarşıya aşağıdakı konkret vəzifələr çıxır:

1) Müasir dövrün qlobal problemlərinin xüsusiyyətlərinin meydana gəlməsi səbəblərini və bu problemlər sistemində ekoloji problemlərin yerini aşkar etmək;

2) Cəmiyyət və təbiətin qarşılıqlı münasibətlərinin optimallaşdırılması, ekoloji problemlərin ideoloji aspektini açmaq;

3) Sosial ekologiyanın mühüm konsepsiyalarının nəzəri-metodoloji, sosial-siyasi və aksioloji dünyagörüşü əsaslarını açmaq;

4) Ekoloji problemlərin təhlilinə ümumbəşəri yanaşmanın üstünlüyünü göstərmək.

Müasir ekoloji situasiyanı və qlobal problemlərin xarakterini düzgün anlamaq üçün, hər şeydən əvvəl, cəmiyyətin tarixində cəmiyyətlə təbiətin qarşılıqlı təsirinin əsas meyllərini izləmək, ikincisi, ictimai fikir tarixində bu problemlərə münasibət baxımından nəzəri şüurun əsas inkişaf mərhələlərini nəzərdən keçirmək.

Bəşəriyyətin böyük mütəfəkkirləri təbiətdən istifadənin və təbiəti anlamanın tipləri arasındakı sıx əlaqəni göstərmiş və izah etmişlər [8,s.365-366].

Elmi-texniki inqilab cəmiyyətlə təbiət arasındakı əlaqəni tam çılpaqlığı ilə üzə çıxarır. Cəmiyyətin təbiətə müsbət, yaxud mənfi təsirinə o müvafiq olaraq “təşəkkür”, yaxud “intiqam” prinsipi ilə cavab verir. Ekoloji böhran–təbiətin ona nadan, yırtıcı münasibətinə qarşı intiqamıdır.

Müasir şəxsiyyətin ekoloji mədəniyyəti normativ ekoloji bilik, mənəvi ekoloji əqidə və fəal ekoloji davranış adlı

üç böyük prinsipə əsaslanmalıdır. Bütün bu deyilənlər geniş tədqiq olunmalıdır.

Müasir şəraitdə demoqrafik və urbanist proseslərin ekoloji aspekti maraqlıdır. Daha dəqiq desək, əhalinin artımının və şəhərlərin böyüməsinin ətraf mühitə təsiri və əksinə, böhranlı ekoloji situasiyanın demoqrafik və urbanist proseslərə təsiri böyükdür. Bununla yanaşı, müasir sosial ekoloji konsepsiyaların ətraflı təhlili vacibdir. Müasir ekoloji konsepsiyaların konstruktiv təhlilini verməkdən ötrü bir tərəfdən, onları siniflərə, qruplara bölmək, digər tərəfdən isə onların ümumi cəhətlərini aşkara çıxarmaq lazımdır.

Müasir ekoloji konsepsiyaların təsnifatını müxtəlif əsaslarla vermək olar. Bizə elə gəlir ki, aşağıdakı 4 əsas xətt qruplaşdırmada başlıca rol oynaya bilər.

1) Ekoloji situasiyanın təsviri və qiyməti– “diaqnoz”;

2) Ekoloji böhranın meydana gəlməsi şəraitinin səbəblərinin və mənbəyinin izahı;

3) Ekoloji problemlərin həll edilməsinin vasitə, metod və yollarının göstərilməsi;

4) Ekoloji situasiyanın inkişafı prespektivlərinin və meyllərinin müəyyən edilməsi (“ekoloji proqnoz”) [8,s.368-369].

Tibbdə qocalmanın ana şərti, əsas şərti hesab olunan ateroskleroz (damarların kirəcləşməsi) prosesinin risk amillərindən biri də sudur ki, məhz Azərbaycan bulaqlarının suyu bu prosesi ləngidən, bu prosesin inkişafına tormozlayıcı təsir edən bir amildir:

Təmiz havan ərmağandı, sovqatdı,
Həmi səadətdi, barlı-baratdı.

Şirin bulaqların abi-həyatdı,
Şəmşir səndə niyə qocalı dağlar.

Həyatın əsas ekoloji atributları sayılan hava və su Aşıq Şəmşir yaradıcılığında qoşa tərənnüm edilir. "Təmiz axar sular", eləcə də "təmiz havalar" ən böyük müalicə vasitəsidir" düşüncəsi ortaya qoyulur:

Mənim söz qılıncım səndən sov alar,
Adınla fəxr edir bizim obalar,
Təmiz axar sular, təmiz havalar,
Xəstələr üstünə dərmana gəlir.

Ustada görə təbiətin bir parçası olan insan xəstələnirsə, elə təbiətin özündə də sağalır və elə bu sağalma vasitələrini kənarda axtarmaq lazım gəlmir. Bunlar elə təbiətin özündədir:

Loğmanlar anası olan İstisu
Səndə dostlar, mehribanlar görüşür,
Bizə qonaq gəlir eldən, obadan,
Tanış olur nə insanlar, görüşür.

Bu misralardan belə bir fikir, belə bir düşüncə hasil olur ki, təbiət insanlara təkcə yaşamağa yox, həm də insanlar arasında səmimi münasibətlər yaratmağa xidmət edir. Buradan təbiət "insanları bir-birinə sevdirir" fikri qabardılır.

Ekoloji fəlsəfənin lüğətində "dərya", "bulaq" kimi anlayışlar Aşıq Şəmşir poeziyasında sözün gücünü artıran, təfəkkürün cilalanmasına xidmət edən anlayışlara çevrilir:

Bir mahir sərrafsan, göz ustadısan,
Fəhmin, fərasətin öz ustadısan,
Qabil sənətkarsan, söz ustadısan,
Dəryasan, arzular min bulaq səni.

Burada "Səni" rədifli qoşmada Azərbaycanın böyük şairi Səməd Vurğun dəryaya, söz adamları isə bulaqlara bənzədilir.

"Salam ver" rədifli qoşmada Aşıq Şəmşir "Çöplü gölə" salam göndərir, Soyuq Daşbulağı unutmamağı, ona da salam verməyi təvəqqe edir. Bu qoşmada, eləcə də digər şeirlərdə bulaqlara, göllərə insana yanaşılan kimi yanaşılır. Necə deyərlər, "təbiətin ağıllı və optimal qarşılıqlı təsirin zəruri olmasına inam hissi tərbiyə eləmək" mühüm şərtə çevrilir.

Salam veridiyimiz, "barı unutmadığımız" bulaqlar, göllər təbii ki, qorunmaq obyektinə çevrilir. "Nəsillər biz bəndələrin yaşamasının təminatı kimi bu ekoloji elementləri qorumağa borcludur" fəlsəfəsi ortaya qoyulur:

Ağdaban adlanan o gözəl oba
Cənnətə bənzəyir əhsən, mərhəba,
Alxanın yurdina kim çıxsa ova,
Ona de ki, Çöplü gölə salam ver.

***

Bax Kəkil meşədən Buzluğa sarı,
Soyuq Daşbulağı unutma barı.
Mən əvəzdən sən görəndə dağları,
Çəmənə salam ver, çölə salam ver.

Aşıq Şəmşir poeziyasında bulaqlara qovuşmaq arzusu öndədir:

Nə ola, o yerə güzarın düşə,
Şəmşir əlin bulaqlara yetişə.
Qərənfil, ərğaban, nərgiz, bənövşə,
Al-yaşıl bəzəyir qonça dağları.

İnsanla təbiətin harmoniyası məsələsi ekoloji harmoniya problemidir ki, həyatın bütün muxtəlif təzahürlərinin hifz olunması, bəşər övladının qorunub saxlanması və tərəqqisi naminə bu harmoniyanın zəruriliyini dərk etmək vacibdir. Tamahkar maraqların doğurduğu muharibələr, bəşəriyyətin başının üstünü almış nüvə təhdidi və ekoloji təhlükə təbiətə, bəşəriyyətə zidd hallardır. Müasir şəraitdə insanın və təbiətin harmoniyası onların elə anlamını nəzərdə tutur ki, orada həyatın özünün dəyəri bərqərar olsun. Bu cür harmoniya üçün həm zahiri, həm də daxili azadlıq, qəlbin azadlığı lazımdır. Buna isə ruhun müəyyən daxili əməyi sayəsində nail olmaq mümkündür.

Yalnız qəlb bu cür azad olduqda Yer üzündə həyatın qorunub saxlanmasına kömək etmək kimi qlobal məqsədin mənasını başa duşmək olar. İnsan haqqında elm olan fəlsəfə “insan – təbiət – cəmiyyət” sisteminin öyrənilməsinə sanballı töhfə verməyə, ekologiya ilə bağlı bir sıra məsələlərin ən yaxşı həllərini təklif etməyə, təbiətə münasibətdə mənəvi məsuliyyətin tərəfdarı olanların hamısını ruhlandıran əxlaqi tələblərə və ideallara hörmətli münasibət formalaşdırmağa qabildir [98,s.313].

Ustad aşıqların yaradıcılığında "əlin yar əlinə yetişə" ifadəsini Aşıq Şəmşir "əlin bulaqlara yetişə" deməklə bulaqları bir yar təkin sevməyə səsləyir. Həyatın əsasını təşkil edən, içməli suların mənbəyi olan bulaqları insanlara sevdirə, həmin sututar dağları, çəmənlikləri qorumağa çağıra bilir.

Başqa bir məqamda "insan və bulaq bir-birinə qonaqdır" fikri ilə bulaqlara olan sevgi qabardılır:

Qəlbim fərəhlənir qanad çalmağa,
Ellər gəlir səndən mətləb almağa.
Çəmənzar köksündə qonaq qalmağa,
Ceyran bulağına mehmanlar gəlir.

Hər şeyi öz adı ilə çağırmaqla, ilkin anlayışlara tay qoşmamaqla Aşıq Şəmşir xarakteri burada ciddi şəkildə gözlənilir. Bulaqlar aşığın poeziyasında təbiətin digər ünsürləri ilə vəhdətdə verilir:

Buz bulaqlı göy çəmənli talada,
Baş işrətli, tamaşalı hala da.
Çəmən də, çiçək də, gül də, lala da,
Ətir versin bu dağlarda qal, sənə.

Su mənbəyi olan çaylar, ümmanlar Ustadın poeziyasında təbiətin digər ünsürləri – heyvanlarla (kəklik, laçın, qartal, sonalar), bitkilərlə (söyüd) vəhdətdə verilir:

Kəklik nəğmə deyib süzür laçını,
Baxanda qorxudur qartal ovçunu.
Darayır çaylarda, söyüd saçını,
Sonalar çalxanan ümmana bir bax.

"Ongöz bulaq" rədifli qoşma ilə sanki bulaqlar haqqındakı fikirlər cəmləşir, bitkin bulaq obrazı yaradır. Ongöz bulaq "ana südü"nə bərabər tutulur. Ongöz bulaq "vədə verən" gözələ öxşadılır:

Səndən ayrıldığım, ey ana südüm,
Olub otuz səkkiz il, Ongöz bulaq.
Bir görüş gününü vədə ver güdüm,
Özün de aşığa gəl, Ongöz bulaq [3,s.155].

Bulaqlar Aşıq Şəmşir yaradıcılığında incəsənət əsəri təkin oxuculara təqdim olunur. Bulaq gerçəkliyi obrazlı şəkildə dərk olunur:

Laləli, nərgizli, şehli biçənək,
Sərilib hər yana, gül, çəmən, çiçək.
Süsən balıncına olur söykənmək,
Bürüyür hüsnünü gül, Ongöz bulaq [3,s.155].

Ekoloji problemlərin yaranmasının üç böyük günahkarına (cəmiyyət, elmi-texniki inqilab, insan) müvafiq olaraq, onların həllinin üç yolunu göstərmək olar: 1) sosial; 2) elmi-texniki və 3) mənəvi pedaqoji siyasət yollarıdır. Birinci yol, cəmiyyətlə təbiətin harmonik inkişafının kompleks – ekoloji proqramlarının yaradılmasını nəzərdə tutan sosial-iqtisadi siyasətin həyata keçirilməsini tələb edir. İkinci yol, konkret ekoloji problemlərin elmi-texniki həllinin tapılmasını irəli sürür. Üçüncü yol, şəxsiyyətin ekoloji mədəniyyətinin, ekoloji şüurunun və ekoloji davranışının formalaşmasını nəzərdə tutur. Deməli, üçüncü

yol ekoloji tərbiyə məsələlərinə xüsusi fikir verməyi tələb edir. Beləliklə, ekoloji siyasət, ekoloji iqtisadiyyat və ekoloji etika – bir-birilə qarşılıqlı əlaqədə olub bütövlükdə ekoloji mədəniyyəti, ekoloji sivilizasiyanı təşkil edir.

Əgər yuxarıdakı misrada bulaqlar gül-çiçək əhatəsində rəsm əsəri kimi verilirsə növbəti bənddə bulaqlar məkanlar əhatəsinə düşür:

Ağdaş, Quzey damı, Moruq, Çarğatlı,
Qara daşın döşü qum Qarağatlı.
Varmı sənin kimi kövsər baratlı,
Dastanda bəxtiyar ol, Ongöz bulaq [3,s.156].

Aşıq Şəmşir şeirlərində ekoloji elementlərdən biri kimi küləyin-yelin rolu ayrıca bir mövzudur. Külək aşığın dilində gah acı yellər kimi, gah da qəlbinin dərinliklərində yuxa salan fikirlərinin xəbər aparan daşıyıcısı, göyərçini kimi öz əksini tapır:

Zalım ağrı-azar çöküb canıma,
Əhvalımı yetir canana, yellər!
Söylə təbibimə gəlsin yanıma,
Dərdimi yetirsin dərmana, yellər! [2,s.389].

"Yellər" qoşmasının son bəndində səhər yeli, insanları yuxudan, düşkünlükdən xilas edən, həyata səsləyən səhər yeli, səhər mehi əsas yer alır:

Səhər yeli, oyat onu yuxudan,
Qoyma olsun qəlbinə söz toxudan.
Şəmşir olub göz yaşını axıdan,
Qəsəm et, cananım inana, yellər [2,s.389].

Ekoloji elementlər ayrıca bir fərd üçün nəzərdə tutula bilməz. Məhz buna görə də təbiətin qorunması ümumi işdir. Bulaqların "ləzzətini el aldığı üçün ellikcə də bulaqlar qorunmalıdır" fəlsəfəsi ortaya qoyulur.

Hanı elə karvan keçməmiş səndən,
Olmaz durna gözü seçməmiş səndən.
Bir yolçu qalmadı içməmiş səndən,
Çəkir ləzzətini el, Ongöz bulaq [3,s.157].

Son misrada bulaqdan ayrılmağın, sudan ayrılmağın çətinliyi dilə gətirilir!

"Su, bulaq elə həyatın özü. Elə həyatdan ayrılmaq çətin!" fikri oxucuya çatdırılır:

Şəmşirə çətindi səndən ayrılmaq,
Mən sənə illərlə olmuşam qonaq.
Yayda buz suyundan donur dil, dodaq,
Dəyəndə göynəyir əl, Ongöz bulaq [3,s.157].

Aşıq Şəmşirin təsvir və tərənnüm etdiyi dağlar, yaylaqlar, göllər əslində doğma vətənimizin bütün yamacıyalıdır, bütün Azərbaycanıdır. Aşığa görə, insan da torpağa bağlılıqda, etibarda, sədaqətdə, möhkəmlikdə, məğrurluqda, çiyin-çiyinə söykənməkdə, hər cür tufana-qara sinə gərməkdə məhz dağlar kimi olmalıdır [94]. İnsanın vətəndaşlığı, ləyaqəti də ən çox öz torpağına, xalqına bağlılığında üzə çıxır. Aşıq Şəmşir bir çox təzə, təravətli, canlı epitet və təşbehlərlə, obrazlarla göstərir ki, dünyada mövcud olan "on gözəlliy"in hamısı Azərbaycanda vardır.

Buna görə də onun hər guşəsi bizim üçün əzizdir, doğmadır. Həqiqi insanın gücü, qüdrəti də bundadır:

Bu misal mahalda, eldə əyandı:
Tülkü öz yerində şirdi, aslandı,
Qarğa – vətənində tülək tərlandı,
İgid qürbət eldə bel bükər, ağlar.

Aşıq Şəmşir yaradıcılığında təsvir olunan bulaqlar, çaylar, göllər hamısı Kəlbəcər ərazisində yerləşdiyi üçün məkan olaraq Kəlbəcərə istinad edilir. “Kəlbəcərin” rədifli gəraylıda şəlalələr, bulaqlar – şərbət piyalələri ürəyəyatımlı, xalq dilində yoğrulmuş ifadələrlə öz əksini tapır:

Bənövşəsi, dağ laləsi,
Südə bənzər şəlaləsi
Sanki şərbət piyaləsi,
Bulaqları Kəlbəcərin [3,s.336].

Fransa alimi və yazıçısı Antuan de Sent Ekzyuperi demişdir: “Su, sənin nə tamın, nə rəngin, nə də iyin vardır, lakin sən çox ləzzətlisən, səni təsvir etmək mümkün deyildir. Sən nəinki həyat üçün lazımsan, sən özün həyatsan” [109; 110].

Müalicəvi əhəmiyyətə malik olan “İstisu” loğmana, həkimə bənzədilir:

Qız qatarı yollar boyu,
Əskik olmaz ellər toyu.
Loğman kimi İstisuyu,
Can mədarı Kəlbəcərin [3,s.336].

Kəlbəcər təkcə suyu ilə yox, həm də təmiz havası ilə məşhurdur ki, hava-su vəhdəti ayrılmaz bir vəhdətdir:

Hava təmiz, yeri cənnət,
Yaranandan bəri cənnət.
Gülü abi-təri cənnət,
Çəmənzarı Kəlbəcərin [3,s.336].

Dədə Şəmşirin yaradıcılığına diqqət yetirəndə onun təbiət vurğunu, aşıq-şair olduğu aydın görünür. Ustadın poetik duyumunda lirik "mən", onun sabitqədəm məhəbbəti nə qədər həzin-həlimdirsə, başı buludlardan çalmalanan, bütün canlılara şəfa məskəni olan dağlar, keyvənd yaylaqlar, lilparlı buz bulaqlar, yaşılbaş sonalar çığırışan göllər, qartallar məskəni sıldırım sal qayalar, örüşlərdə sıralanan alaçıqlar, qoyun-quzu sürüləri, mal-qara naxırları, at ilxılarının bər-bəzəyi, göy çəmənlər olduqca duyumlu, oxucu-dinləyicisini düşündürücü tərzdə nəzmə çəkilmişdir [60; 61;].

Məkan, məkanda yerləşən elementlər Ustadın iti nəzərindən qaçmır, hələ o dövrlərdə alimlərin – İstisuyun vulkanik mənşəli süxurlardan isti şəkildə torpağın səthinə çıxan mineral su kimi qiymətləndirən alimlərin – cılız, saxta fikirlərinin əksinə gedərək şəfaverici xüsusiyyəti dəfələrlə isbat olunan, dünya ilə bərabər yaranmış ilahi, sakral gücə malik su kimi dəyərləndirilir:

İstisu da dünya ilə yaranıb,
Milyon ildən bəri, bəyənmədinmi?!
Neçə dəfə təbibliyi aranıb,
Bu dərman cövhəri, bəyənmədinmi?! [2,s.371]

**Haşiyə**: Bu su əsrlərlə yüksək temperatur həddinə necə qızdırılır. Heç vaxt soyumur?! Bəs tərkibindəki ionların (kationların – $K^+$, $Ma^+$ $Mg^{++}$ və anionların $HCO_3$, Cl) sabit nisbəti?! Yox, bu izah elmin gücü xaricindədir. Bu, elə Aşıq Şəmşir demiş dünyanın yaradılışı ilə eyni bir hadisə, eyni bir haldır. İslam dininə görə abi-kövsər Cənnətdəki su hovuzudur. Qiyamət günü əhli-cənnət o bulağın başına toplaşacaq. Ustada görə İstisu elə həmin "abu-həyatdan car olub":

Behiştdən car olub bu abi-həyat,
Bu pirə baş əyib bütün kainat.
Sağaldar xəstəni, edər salamat,
Sən abi-kövsəri bəyənmədinmi?! [2,s.371].

Ustad məkanı, Azərbaycan məkanını yaxşı tanıyır ki, bu tanımağı da gələcək nəsillərə şeir dilində çatdırır. Belə ki, Tər-tər çayı Kəlbəcər bulaqlarını özündə birləşdirərək Qarabağı su ilə təmin edir. Qarabağ rayonlarının qoyun, mal sürüləri isə bütün yaz-yay ayları Kəlbəcər yaylaqlarında bəslənirdi. Bu məkandakı bulaqlarsa "şəhd-şəkərə" bənzədilir:

Bu sulardan məhsul alır Qarabağ,
Beş ay dövlətini saxlayır yaylaq.
Loğmandan qalıbdı o dərman bulaq,
Bəs şəhd-şəkəri bəyənmədinmi?! [2,s.371].

"Məlumdur ki, dağ mövzusu bir sıra aşıqlarımızın yaradıcılığında mühüm yer tutur. Aşıq Alı, Aşıq Ələsgər,

Aşıq Şəmşir və başqaları bu mövzuda klassik nümunələr yaratmışdılar" [132].

Təbii ki, Şəmşir yaradıcılığının bu cəhətləri qoynunda doğulub boya-başa çatdığı Kəlbəcərin əsrarəngiz gözəllikləri ilə sıx bağlıdır. Kəlbəcər ömür uzadan qüdrətli dağların, yaşıl köynəkli meşələrin, öz mənbələrini dağların sinəsindən alan qıjıltılı çayların, min bir gülün, çiçəyin vətənidir. Ustad sənətkar öz qoşma və gəraylılarında doğma yurdunun zirvələri göylərə dirək olan ulu dağlarını, güllü-çiçəkli yaylaqlarını, yaşıl ormanlarını, ceyranlı-cüyürlü çöllərini dönə-dönə vəsf etmişdir [158].

Dağa inam, ona sığınma, ondan kömək diləmə o qədər qüvvətli olmuşdur ki, dağ Azərbaycan folklor düşüncəsinin ən fəal və həmişəyaşar obrazına çevrilmişdir. Möhtəşəm sənət abidələrimiz olan "Dədə Qorqud" kitabında və "Koroğlu" eposunda da dağlar vətəni yağılardan qorumaq üçün alınmaz qala, igidlik, mərdlik dayağı kimi təsvir edilmişdir. Aşıq yaradıcılığında dağlar təbii gözəlliyi ilə yanaşı, həm də Koroğlunun, Qaçaq Kərəmin, Qaçaq Nəbinin oylağı, onların arxası, köməyi, düşmənə qarşı mübarizədə istinadgahı kimi tərənnüm olunmuşdur [158].

Dağlar mövzusu Ustad tərəfindən qədirbilənliklə qələmə alınır. Dağların özündə qiymətli sərvətlər daşımasını dilə gətirir. Elə "dağ-mədən sənayesi" ifadəsinin də alimlər təsadüfən işlətməməsi "A dağlar" rədifli qoşmasında öz yerini tapır:

Var adına şeir, dastan edənlər,
Çoxdur, yadigarın qoyub gedənlər.
Bütün islah tamlar, sərvət mədənlər,
Qızıldır torpağın, daşın, a dağlar [2,s.340].

Allaha məxsus məkanlar və yer üzünün əşrəfi sayılan insanlar arasında mövcud olan dialektik əlaqə Aşıq Şəmşir şeirində estetik bir dillə oxucuya çatdırılır. “Dağların” rədifli qoşmada öncə dağların insandan – anadan fərqliliyini göstərir:

Ana doğmayıb ki, söyləyə xəbər,
Hesaba gəlməyir yaşı dağların.
Heç qəzasız olmaq iyidin səri,
Dumanlı, boranlı, başı dağların [2,s.50].

Növbəti məntiqi ardıcıllıqda dağlar – bir kök üstdə “yanaşı” mövcud olan dağlar biz insanlara nümunə gətirilir:

Yetik olmamışdır kimsə sirrinə,
Xəyalı dolanlar düşər dərdinə,
Yoxdu paxıllığı biri-birinə,
Bir kök üstə bu yanaşı dağların [2,s.50].

Dədə Ələsgərdə insanları “bir-birindən aralı tutmayan” dağlar, Dədə Şəmşir dilində “üzərində gəzdirdikləri insanları bir-birindən ayırmayan” dağlardır:

Dağda Qoç Koroğlu, Fərhad da gəzmiş,
Yornuq yabılar da, Qırat da gəzmiş,
Yaxşı da, yaman da xoryat da gəzmiş,
Əzəldən belədi, işi dağların [2,s.50].

“Dağlar” insanlaşır. “İndi dağlar” rədifli qoşmasının ikinci bəndində dağlar təzə gəlinə bənzədilir:

Süsənin, sünbülün al-əlvan rəngli,
Çiyələkli, yaşıl meşə ətəkli,
Nərgiz kəlağayılı, lalə gərdəkli,
Al bəzəkli, təzə gəlindi dağlar [2,s.57].

Həmin qoşmanın son bəndlərində dağlar ustad aşığın ustadı, mürşidi səbiyyəsinə yüksəlir. Estetik zövqün formalaşmasında təbiət ünsürlərinin ciddi rolu bir daha üzə çıxır.

Qüdrətdən verilib sənə yaraşıq,
İstəyin qəlbimə olub sarmaşıq,
Şəmşiri əzəldən sən etdin aşıq,
Unutma, yadına sal indi, dağlar [2,s.58].

Məkanı insanlaşdırıb onunla danışmaq, məkana salam vermək, məkandan salam ummaq, məkandan küsmək və s. kimi ruhi söhbətlər Azərbaycan aşıq sənətində təzə bir şey deyil. “Salam ver” rədifli qoşmada yuxarıdakı fikirlərin təsdiqini tapırıq:

Ağdaban adlanan o gözəl oba,
Köhnə məhəbbətdi çəkdiyim dava,
Alxanın yurduna kim çıxsa ova,
Tapşır, onnan Çöplügölə salam ver.

Bax Kəkil meşədən Buzluğa sarı,
Soyuq Daşbulağı unutma, barı.
Mən əvəzdən sən görəndə dağları,
Çəmənə salam ver, çölə salam ver [2,s.97].

Ustadın qoşmalarında təbiət fəlsəfəsi gözəllik və onun modifikasiyaları, təbii ki, bunların yanında da Yer üzünün əşrəfi hesab olunan insan harmonik şəkildə verilir:

Buludlar qaralıb, qurublar alay,
Külək qayalara salıb hay-haray.
Dolayıb sərinə qardan kəlağay,
Niyə tezdən yol veribdi qışa, dağ [2,s.134].

***

Övladınam, meylim dönmür hərçəndi,
Dünyanın dəryazı ömür biçəndi.
Şəmşir, karvan çəkib bir gün köçəndi,
Yaşa yaylaq, yaşa bulaq, yaşa dağ [2,s.135].

Yarımfəsildə məqsədimiz ekoloji böhran yaşanılan müasir dövrümüzdə Aşıq Şəmşir yaradıcılığı əsasında bu böhrandan çıxmağın düzgün yolunun insnlarda ekoloji elementlərə sevgi hissi ilə mümkünlüyünü aşılamaqdır.

## 2.6. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA USTAD-ŞAGİRD MÜNASİBƏTLƏRİ

Ustad-şagird münasibətləri özlüyündə ciddi etik dəyərlərdən sayılır. Tarix boyu ustad-şagird münasibətlərinə həssaslıqla yanaşılmış, bu münasibətlər, necə deyərlər, ilahiləşdirilmişdir. Yunan təbib və filosofu Hippokratın həkim andında deyilir: "Müəllimimin övladlarına çətinlik anlarında maddi və mənəvi köməyimi əsirgəməyəcəyəm". "Ustadına bərəkallah!", "Ustadına əhsən!" kimi ifadələr ustad-şagird münasibətlərinin qədim tarixə malik olmasından xəbər verir.

Müasir dövrdə ustad-şagird ənənələrinin qorunması yolunda folklorşünas alim Füzuli Bayatın [52; 53; 54] fikirləri ilə tanış olmaq yerinə düşər: "Aşıqlıq sənətini, saz mədəniyyətini nəsildən-nəslə ötürən və bir çox qaydaları, kriteriyaları, prinsipləri olan bu mədəniyyət növünü formalaşdıran ən önəmli ünsürlərdən biri usta-şagird əlaqəsidir. Aşıqlıq sənətində əsaslı yeri olan usta-şagird münasibəti keçmişdən bugünədək gəlib keçmiş ustad aşıqların sənətinin, bilgisinin, təcrübəsinin sonrakı nəsillərə ötürülməsini təmin edən körpüdür. Məhz usta-şagird ənənəsi nəticəsində müxtəlif aşıq mühitləri, məktəbləri və qolları yaranmışdır ki, bu da sənətin çeşidliyini saxlamışdır. Aşıqlıq sənətində önəmli olan əsas cəhət aşığın ustadı ilə anıldığı kimi, ustad aşığın da yetişdirdiyi şagirdləri ilə xatırlanmasıdır. Aşıqlıq sənətinə başlamanın bacarıq və istəkdən sonra şagird olmaq üçün haradan başlaması, nələrə diqqət etməsi lazım olduğunu bilməsidir. Hər şeydən öncə şagird onu aşıqlıq sənətinə hazırlaya biləcək ustad bir aşıq seçməklə işə başlamış olur. Təbii ki, bu seçim ya şagirdin

özü tərəfindən, ya da onun atası, qardaşı və ya hər hansı bir qohumu tərəfindən edilir. Hər məclis ritualdır, şagird isə bu ritualdan keçmiş, profan dünyanın insanından qutsal aləmin varlığına çevrilmiş sənətkardır. Aşıqlıq ritualından keçən şagirdə ustad xalq arasında özünü necə aparmağı, ədəb-ərkanı, böyük-kiçik yeri bilməyi, namuslu olmağı, məclis keçirəcəyi bölgənin adət-ənənəsini öyrənməyi də öyrədir. Hər halda aşıqlığın ədəb-ərkan konsepsiyasını Aşıq Ələsgər [17] qədər dəqiq tərif edən ikinci bir sənətkar tapmaq mümkün deyildir:

Aşıq olub diyar-diyar gəzənin
Əvvəl başda pür kamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

***

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra.
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Ancaq bu gün sürətlə inkişaf edən texnologiya, kompyuter, kütləvi informasiya vasitələri usta-şagird münasibətinə də təsir göstərmiş, bu köklü ənənəni zəiflətmişdir. Usta-şagird ənənəsinin zəifləməsinin, qismən də unudulmasının səbəblərindən biri kommunist rejiminin aşıqlara da təbliğat aparatının bir parçası kimi baxması, digəri də müstəqillikdən sonra saz çalmağı, oxumağı öyrədən musiqi məktəblərinin, kurslarının açılmasıdır” [52; 53; 54].

Şagirdin qarşısında tələblər qoyulduğu kimi ustadın da yerinə yetirməli olduğu vəzifələri vardır. O, şagirdə bildiklərinin hamısını öyrətməli, onu kamil sənətkar kimi yetişdirməli, şagirdlə yaxşı rəftar etməli, ona ölənə qədər atalıq qayğısı göstərməlidir. Aşıqlıq sənətində az da olsa bəzi aşıqların bir deyil, bir neçə ustadının olması bir tərəfdən müasir dövrdə şagirdlərinnisbətən sərbəstliyi ilə bağlıdırsa, digər tərəfdən ustadın özünün şagirdin tələblərini yerinə yetirə bilməməsidir [52].

Professor Sədnik Paşayev [159], prof. İlham Məmmədli [114; 115] ustad-şagird məsələlərinə "Qurban bulağı" timsalında aydınlıq gətirirlər. XIX əsrdə vətənin ucqarlarında – Kəlbəcər dağlarında aşıq məclislərinin yaradılması insana bir möcüzə kimi görünür. Həm də "Qurban bulağı" məclisinin ən diqqətçəkən cəhəti o idi ki, təkcə aşıq yaradıcılığını öyrənməklə və inkişaf etdirməklə məşğul deyildi [159]. Qurban bulağı – Ağdabanlı şair Qurbanın məktəbi Kəlbəcər ədəbi mühitinin formalaşmasında mühüm amil olmuşdur [114].

Akademik Muxtar İmanoğlunun [121] da bu məsələlərə öz baxışı var: "Güclü səs, coşqun təb, iti yaddaş, saza-sözə sonsuz həvəs – İlahinin verdiyi bu nemətlərlə atası yanında şagirdliyə başlayan Şəmşirin ustaddan öyrəndiklərini bircə sözlə ifadə etsək, bu məqamda "ənənə" sözünü işlətməliyik". Digər tədqiqatçılar da [84] yeri gəldikcə bu barədə öz fikirlərini qeyd etmişlər: "Aşıq Ələsgər, Ağdabanlı Qurban kimi saz-söz nəhənglərindən ustad dərsi alan Dədə Şəmşir özü sonralar ustad olmuş, sağlığında Dədəlik titulu qazanaraq 50-dən çox şəyirdə aşıqlıq sənətinin sirrini öyrətmiş, öz növbəsində onlardan el-obada şan-şöhrət tapanlar olmuşdu"

Ustad – şagird münasibətləri Azərbaycan aşıq sənətinin bel sütunudur, desək yanılmarıq.

XX əsrin əvvəlləri aşıq yaradıcılığımızın görkəmli nümayəndələrinən Növrəs İmanın [143] "Gəlib-gedib" rədifli qoşmasında isə Aşıq Şəmşirin şəcərəsi poetik bir üslubda xalqa tanıdılır. Bu qoşma həm də Növrəs İmanın öz ustadlarına olan dərin duyğularından, ehtiramdan, ustada sədaqət ruhu aşılayan əxlaqi keyfiyyətdən xəbər verir:

Qumru tək ləhcəli xoşdandı Qurban,
Türfə gözəllərdi dərdinə dərman,
Nə olsa dilində hazırdı fərman,
Ləfzi, həm mənası düz gəlib-gedib.

Növrəs İmanın Miskin Abdal, Vaqif müqayisəsi bir daha islamın təməl prinsiplərinə sadiqliyi, utilitar gözəlliyə aludə olmamağı, təqvaya malik olmağı önə çəkir:

Yaxşı bəyənmişəm Misgin Abdalı,
Cəm imis başında huşu, kamalı,
Vaqif qarışdırıb çox qilü-qalı,
Sözlərində gəlin, qız gəlib gedib.

Prof. Qəzənfər Paşayev [93] də ustad-şagird münasibətlərinə aydınlıq gətirir: "Adını çəkdiyimiz kitablarda və saysız-hesabsız məqalələrdə Aşıq Şəmşirin həyatı, mühiti və poetik irsi tədqiqat süzgəcindən keçirildiyindən burada ancaq bir-iki məsələdən söz açmaqla kifayətlənəcəyəm. Şəmşir 1920-ci ildə yediillik məktəbi bitirmişdi. Bu, o zaman üçün nəinki əyalətlərdə, hətta mərkəzlərdə belə hər adama qismət olmurdu. Şəmşir aşıqlığı atası, şairlik təbi

olan elmli, bilikli Ağdabanlı Qurbandan öyrənmişdir. Klassik aşıq poeziyasını mükəmməl bilirdi, sinədəftər idi. Bu münasibətlə bir şeirində yazırdı:

Şəmşirəm, Qurbanın nişanəsiyəm,
Böyük aşıqların dəftəriyəm mən".

Aşıq sənətinin yaşadılması və sonrakı nəsillərə ötürülməsi ustad-şəyird əlaqəsi ilə gerçəkləşir. Aşıqlığın ortaya çıxdığı tarixdən bu günə qədər ustad-şəyird münasibəti baxımından çox şey dəyişsə də, dəyişməz qalan aşıqlıq sənətinin musiqi, avaz və şeir üçlüyündə bir başqasına öyrədilməsi və gələcək nəsillərə ötürülməsidir.

Adım Ələsgərdi, mərdi mərdana,
On iki şəyirdim işlər hər yana [17]

XX yüzilliyin əvvəllərində hələ də ustad-şəyird ənənəsi qorunmaqda, ustad aşıga xidmət göstərmək mərifət yayılmaqda idi. Belə ki, Göyçə aşıq mühitinin görkəmli saz ustası Aşıq Növrəs İman ustadlığın önəmi haqqında belə yazırdı.

Mərifət lazımdır əzəl binadan,
Öyüt, nəsyət gərək ata-babadan.
Yüz il cəhd etsən də qalarsan nadan.
Xidmətin olmasa kaml ustada.

Məmmədhüseyn Təhmasib [167; 168; 169] isə yazır: "Bu xüsusi bir məktəb, xüsusi bir müəllimdir ki, özünə görə proqramı, qanun qaydaları vardır. Əsrlərin sınağından

keçmiş bu təlim üsulu indi də şagird yetişdirmək işində tətbiq edilməlidir. Bu təlimin düzgünlüyü, həyatiliyi sayəsindədir ki, hər bir yerdə yazıya alınmamış saysız-hesabsız şeirlər, bayatılar, yüzlərcə böyük və kiçik həcimli dastanlar zəmanəmizə qədər yaşayıb gəlmişdir".

Tacir Qurbanova [166] görə Ağbaba aşıq mühitində ustad-şagird münasibətləri 3 yolla formalaşmışdır:

1) İrsən (atadan oğula keçməklə)
2) Ustad- şagird ənənəsi
3) Haqq aşiqliyi ilə (butavermə)

Professor Sədnik Paşa Pirsultanlı yazır ki, hansı yaradıcı el sənətkarı şəyird saxlamışsa da, onun irsi geniş yayılmış, mahal-mahal gəzmiş, zehnlərə həkk olunmuş, nəsildən nəslə keçib, yaşamışdır".

Aşıq Şəmşirin sənətkar böyüklüyü bir də onunla şərtlənir ki, o, öz doğma atasına belə bəsirət gözü ilə baxa, onun qiymətini obyektiv verə və bizləri də öz doğmalarımıza münasibətdə obyektiv olmağa səsləyə bilir:

Oxumuşdun ərəb, farsı,
Kəlamının qalıb yarısı.
Gürşad təbin gəzib Marsı,
Fikrin tutam, tutam sənin [2,c s.461].

Əqidə yolunda mala, pula susamayan şagirdlər Ustadın "Səni" rədifli gəraylısında qələmə alınır:

Bəllidi sənin ustadın,
Şəmşir unudarmı adın?!
Mala, pula susamadın,
Küsdürməsin sözüm səni [2,s.485].

“Təvazökarlıq” etik dəyəri əsil sənətkarlara xasdır ki, “Sənin” rədifli gəraylıda Ustad atası şair Qurbanı Aşıq Ələsgərdən ayırmır və onların yanında “naşı” olduğunu dilə gətirməklə gənc aşıqlara, yazarlara nümunə göstərir:

Ələsgərin sirdaşısan,
Ustalıqda yanımlısan.
Şəmşir, hələ sən naşısan,
Güzəşt olan xitam sənin [2,s.462].

Aşıq Şəmşir yaradıcılığında ustad-şagird dialektik vəhdəti Füzuli Bayat, Qəzənfər Paşayevin əsərləri ilə yanaşı, Azərbaycanın xalq şairi Zəlimxan Yaqubun [179] da yaradıcılığından yan keçmir. Şair Dədə Şəmşir timsalında ustadlara münasibətdə biganəliyi tənqid edir: “Hər görüşdə, hər söhbətdə Aşıq Şəmşirin şair və aşıq, ustad və ozan ömrünün yeni bir hikməti açılır, təzə bir çaları üzə çıxırdı. “Ustad görməyənin işi xam qaldı” deyiminin nə qədər ilahi bir gücə qadir olduğunu ustadı hər dəfə yenidən kəşf edəndə daha geniş anlamda başa düşürdüm. Heç bir kitabda oxumadığım, heç kəsdən eşitmədiyim Allah kəlamları, ustad deyimləri, dinimizin və dilimizin qüdrətiylə bağlı xoruz səsi eşitməyən mətləblər vardı Dədə Şəmşirdə. Bizim biganəliyimizin ucbatından hamısını özü ilə apardı” [179].

Osman Əfəndiyev [144] hələ 1983-cü ildə sənətdə həmkarlıq prinsiplərini, etik münasibətləri Aşıq Şəmşir – Səməd Vurğun dostluğunda açıqlayır: “Aşıq Şəmşirin məşhur “Səni” rədifli qoşmasında da Səməd Vurğunun sənətini, şəxsiyyətini ehtiramla tərənnüm etməsi, şairin xalq arzularını, xalq idealını ifadə etməsini bu qoşmada

mənalandırması diqqəti cəlb edir. Aşıq Şəmşir Səməd Vurğunun timsalında böyük elin böyük nəğməkarını görür, onun sənət amalını, eyni zamanda özünün amalı hesab edir:

Əzəldən başına cəm olub kamal,
Sevir oğul kimi səni el, mahal.
Azad ölkəmizdə hər zaman ucal,
İstəyir könlümüzbu sayaq səni

Şagirdinə ünvanladığı "Oğlum" rədifli qoşmada Aşıq Şəmşir naşükürlük etməməyi, tənəzzüldən qorxmamağı, "qənaət insanın gözəlliyidir" prinsipini əldə rəhbər tutmağı tövsiyə edir:

Qorxma ***tənəzzüldən***, tərəqqidən qorx,
Nəyin varsa, istəyinə demə yox.
Haqqın vergisinə şükr elə sən çox,
Nə tapsan etginən ***qənaət***, oğlum! [2,s.439].

Əslən Kəlbəcərli şair-publisist Yusif Hüseyn [173] Aşıq Şəmşir böyüklüyünün qaynaqlarına toxunur, Ustad yanında göz açıb təlim-tərbiyə almağın elə ustadlığa gedən yol olduğunu poetikcəsinə təqdim edə bilir:

"İlk ustadı öz atası,
İlk məktəbi bu ev oldu.
"Ustad" oğlu şəyird olmaz, –
Atalardan qalan yoldu".

Ustad-şagird, mürşüd-mürid məsələlərində ilkin olaraq doğru-düzgün həyat tərzi önə çəkilir:

Mənim ustadımı salsan yadına,
Uzaqdan diləsən çatar dadına.
Əyri-oğru deməsinlər adına,
Olma el içində xəcalət, oğlum! [2,s.439].

"Ola" rədifli qoşmada Aşıq Şəmşir keçmişlə (dərs aldığı ustadlar) gələcəyi (özünə oxşayan cəsur övladlar) birləşdirə, onlar arasında mövcud olan varisliyi yarada, bu varisliyi oxucularına çatdıra bilir:

Dahi bilə dərs aldığı ustadı,
Ucalar dünyada tər-təmiz adı.
Özünə oxşaya cəsur övladı,
Oğlu da, qızı da hünərvər ola [2,s.388].

Aşıq Şəmşir xoşbəxtliyi onunla bağlıdır ki, onun Ustadı öz atası Ağdabanlı şair Qurbandır. Şagirdi də oğlu nasir, publisist, şair Qənbər Şəmşiroğludur. Xoşbəxtlik odur ki, ilkin mənbələr dəyişikliksiz olaraq xalqa çatdırılır. Qənbər Şəmşiroğlu "Alışar məzarım, yanar məzarım..." məqaləsində yazır: "Atam deyərdi ki, ay bala, *kamillik* şahlıqdır. *Kamil* sənətkar o şəxsdir ki, yalnız öz sənətinin *ustadı* olmaqla qalmır, həm də adamlara xeyir verməyi bacarır. Keçmiş *ustadlarını* bir an da olsun unutmazdı. Sözünün əvvəli də Ələsgər əmi idi, axırı da. Atam təkcə aşıq sənəti ilə məhdudlaşıb qalmırdı. Hansı sahədə olmasından asılı olmayaraq əsl sənətkarın xiridarıydı. Müasirləri olan Bülbülün, Xanın vurğunu idi. Atam üçün dostluq müqəddəs nemət idi. Bizimlə söhbətlərində həmişə möhtərəm *dost-*

*larından* danışar, *dostluq* haqqında ibrətamiz hekayələr söyləyərdi. Ustadları yaddan çıxarmaq olmaz deyirdi”.

Nökəriyəm bu hörmətin,
Böyük adın, məhəbbətin.
Yadımızdan çıxar çətin:
Nə Ələsgər, nə də Qurban [1,s.411].

Ustadlarını yaddan çıxarmayan böyük sənətkar özü də yaddaşlardadır. Tibb elmləri doktoru, professor Zərraf Təhməzoğlu [181] elə Aşıq Şəmşir üslubunda da ustad-şagird münasibətlərinə yeniyetmə yaşında aydınlıq gətirir:

Ulu dağsan, bir təpəyəm,
Ətəyinə baş söykəyəm,
Tut əlimdən mən körpəyəm,
Təbimsə az, Dədə Şəmşir!

Mürşidə sadiqlik, ustada hörmət aşıq sənətində mühüm bir yoldur. Göyçə aşıq ocağının azman sənətkarı olan Aşıq Ələsgər irsinə hörməti, o hörməti pak saxlayan eli-obanı təmsil edən elə Aşıq Şəmşir özüdür:

Min döşü atlanan çıxsa meydana,
Ələsgərin azarkeşi bil, mənəm.
Danışmıram hədər, üzrü-bəhanə,
Hörmətini pak saxlayan el mənəm [2,s.383].

Aşıq Ələsgəri özünə pir hesab edir, özünü Ələsgərin solaxay əli hesab edir:

Sənətimin zanəsinə dər salan,
Cəfa çəkib qətrə-qətrə tər salan.
Qulluq edib, öz pirindən dərs alan,
O saz çalan bir solaxay əl mənəm [2,s.383].

Az-az sənətkarlar qismətidir ki, atası ona ustad olmuş olsun. Ağdabanlı şair Qurban Aşıq Şəmşirin atası, Miskin Abdalınsa nəvəsidir.

Şəmşirəm, ustadım Qurbandı əsas,
İstəyən ellərə dua-iltimas.
Beş qatar yazmışdı dildönməz cinas,
Çox şadam ki, bilən belə yol, mənəm [2,s.383].

Gözəl nitq, şüur, idrak, ustad-şagird münasibəti kimi etik dəyərlər "Adını" müxəmməsində rəvan bir dildə verilmişdir: Mirzə Ələkbər Sabirə həcv deyən birinə tutarlı cavab bir daha şeirin, poeziyanın, əsasən də Azərbaycan şeirinin bölünməzliyi ideyasını ortaya qoyur. Mirzə Ələkbər Sabir üslubu və aşıq yaradıcılığı ilk baxışda fərqli görünən bu baxışların eyniliyinə Ustad aydınlıq gətirir:

Sabirə həcv demə,
Əsli kamal sahibidi.
Kəskin huşun, fərasətin,
Cahi-cəlal sahibidi.

"Çoxsaylı şagirdləri olanlara, şairlərin ustadlarına, çevik təfəkkür sahiblərinə həcv demək olmaz" həqiqətini poeziyadakı naşılara ünvanlayır:

Kəlmələri mirvaridi,
Çox yaşıl-al sahibidi.
Şairlərin ustadıdı,
Elmi-mahal sahibidi.
Neçə min şagirdi var,
Vəsf edir hər an adını [2,s.528].

Başqa bir "Ola" rədifli qoşmada Aşıq Şəmşir dialektik inkar qanunu ilə idarə olunan ustad-şagird münasibətinə aydınlıq gətirir:

Dahi bilə dərs aldığı ustadı,
Ucalar dünyada tərtəmiz adı.
Özünə oxşaya cəsur övladı,
Oğlu da, qızı da hünərvər ola [3,s.89].

"Ustadların yolunu tutan özü də ustad olacaq", "ustad yolunu tutanı el də bəyənər" fəlsəfəsi Aşıq Şəmşir yaradıcılığında gənc aşıqlara ünvanlanır:

*Cavan aşıq, bizim ellər bəyəndi,*
Sidq ürəklə o tutduğun yolu hey [3,s.101].

Qiymət verdin Ələsgərə, Qurbana,
Tufarqan Abbası gətirdin cana.
Şeirini bənzətdin baği-gülşana,
Sanki açdı ilk baharın gülü hey [3,s.101].

Aşıq Şəmşir poeziyasında ustada sonsuz məhəbbət, öz dövrünün sənətkarlarına olan məhəbbətdən seçilmir. Onun

Səməd Vurğunla bağlı qələmə aldığı şeirlər dostluğa, sənətə ülvi məhəbbətdən xəbər verir:

Şəmşirin işrəti sənsiz hədərdi,
Sənsizlik hər dərddən daha betərdi.
Sən mənə vermisən dağ boyda dərdi,
Qəmli kirpiklərim qana toxundu [3,s.131].

***

Böyük tacidarım, kamil sənətkar,
Sənsən mənim pak ustadım, Ələsgər.
Yadımdan çıxarsa yazdığın əşar
Qopar o gün qiyamətim, Ələsgər [3,s.155].

Aşıq Ələsgərlə bağlı yazılan sənət inciləri Aşıq Şəmşirin ustad-şagird münasibətlərinə nə qədər əhəmiyyət verməsini göstərir. Təkcə bu misralar Dədə Şəmşir şəxsiyyətinin böyüklüyünü bir daha təsdiqləyir:

Ürəyimdə istək, dahı sən oldun,
Sənətimin qibləgahı sən oldun.
İdrakımın mehri, mahı sən oldun,
Fikrim, zikrim, bar-baratım, Ələsgər [3,s.155].

Ustada hörməti gələcək övladlarına, nəsillərə bir vəsiyyət kimi, bir nəsihət kimi çatdırır:

Şəmşirdən söyləmək, səndən eşitmək,
Ustadın yolunu biləsən gərək.
Ad qazan ellərdə sən də mənim tək,
Səni ucaldacaq bu sənət, oğlum [3,s.163].

Ədəbiyyatımızda belə bir rəvayət mövcuddur ki, bir gün Caminin bacısı oğlu deyir ki, dayı mən Nizamiyə nəzirə yazmaq fikrinə düşmüşəm, bu işə sən necə baxırsan? Bu dəmdə Cami aşağıdakı bəndi bədahətən söyləyir:

Şeir aləminin olubdur üç peyğəmbəri,
Firdovsi, Sədi, bir də Ənvəri

bu məqamda "dayı bəs Nizaminin adını çəkmədiniz, axı" deyən bacıoğlu təəccübünü gizlətmir. Cami isə: Bacıoğlu mən şeir aləminin peyğəmbərlərindən söz açdım, Nizami isə şeirimizin Allahıdır" cavabını verir. Nizami sənətinə qiymət zaman-zaman onun ləyaqətli övladları, qədirbilən şagirdləri tərəfindən verilib və bu gün də verilməkdədir. Bu məqamda Aşıq Şəmşir də öz övladlıq borcunu lətif misraları ilə ödəməyə çalışır:

Şəmşir, sözlərinin bir hökmü vardı,
İnsan gedərgidi, söz yadigardı.
*Sənətin* qapısı bağlı qalardı,
*Nizamidən* bizə dəb olmasaydı [3,s.214].

Ustadlara hörmət fəlsəfənin inkar qanunu ilə birgə səslənir. Ustadlar Şəmşir poeziyasında ucaboylu, qədd-qamətli, uzunömürlü saf çinarlara, palıdlara, bugünkü nəsillərsə həmin çinarların, həmin palıdların pöhrəsinə, şivinə bənzədilir. Bir daha kökə bağlılığı ortaya qoyur:

Çinarlar, palıdlar tanınmazdılar,
Köklərində pöhrə, şiv olmasaydı.

Nəsiminin adı çəkilərdimi,
Şeirdən tikilmiş ev olmasaydı [3,s.214].

"Ustadına kəm baxmaq" kimi antietik dəyər hər zaman sənətkarların diqqət mərkəzində olmuşdur:

Xəbis ha qazansa, az deyər çoxa,
Xəznəsi olsa da hesabdı yoxa,
Bir şagird ki, ustadına kəm baxa,
Malı da, pulu da zəhrimar olar [3,s.254].

Ustada qarşı unutqanlıq sərt qınağa çəkilir. Puldan yapışmamaq tövsiyə olunur:

Şagird var ustadı salmır yadına,
İlqarı unudub, puldan yapışır [3,s.263].

"Əsil sənətkar şagirdlərinin həyatda və sənətdə qoyduqları izlərlə tanınar" prinsipini əldə əsas tutan Aşıq Şəmşir babası Misgin Abdalın Dağıstandan – Dərbənddən üzü Kiçik Qafqaza – Kəlbəcərə doğru iz salmasından danışır:

Əsir Dağıstanın yeli Qoşqara,
Yolum çox düşübdü, bəli, Qoşqara,
Kəpəzə, Murova, Dəli Qoşqara,
Salar şagirdlərim iz mənim kimi [3,s.268].

Aşıq Şəmşir yaradıcılığında pessimist ovqata yer yoxdur. Ulu bir şəcərəyə söykənən aşıq sənətkar babalarını külli Azərbaycana və onun hüdudlarından kənara tanıtmaqla dialektikanın irsi-genetik qanunu kimi bəlli olan

inkar qanununun həmişə mövcudluğunu diqqətə çatdırır, şüurlara yönəldir:

Şəmşir bu dövrandan olmadı küskün,
Ustadım Qurbandı-babası Miskin.
Qolum qüvvətlidi, qılıncım kəskin,
Siz də olun tiği-tiz mənim kimi [3,s.268].

Ağdabanlı Şair Qurban, Aşıq Ələsgər ustad kimi həmişə xatırlanır, onların yerlərinin cənnətlik olduğunu şeir dilində çatdırır:

Çəmənlərin müşkü-ənbər,
Cənnətin ətrinə bənzər.
Nə Qurban var, nə Ələsgər
Baxır həsrət yola yaylaq [3,s.380].

Ustadlar Aşıq Şəmşir üçün cismən həyatda olmasalar da belə, mənəvi güc, qüdrət baxımından həmişə onun yanındadırlar:

Axtarırsan insanı sən,
Ələsgəri, Qurbanı sən.
Sən ki, dağlar tərlanısan,
Dur qanad çal baxa-baxa [1,s.412].

Başqa bir qoşma bəndlərində müasirləri yada düşür. Ustad öz ustadları və şagirdləri ilə keçmişimizlə bu günümüz arasında varislik yaradır. Əgər insanlar ağır durumda cismani övladlarını arayırsa, Aşıq Şəmşir özünə mənəvi övlad hesab etdiyi şagirdlərini– Bəhmən Vətənoğlunu,

Məmməd Aslanı, Şamil Dəlidağı, Həbib Əhmədovu, Əyyub Cabbarovu arayır:

Canım xəstə, gör nə müddət,
Sadıq dərdim bilmir əlbət.
Gəl, a Bəhmən, gəl, a Məmməd,
Soruş əhval, baxa-baxa [1,s.411].

Həzrət peyğəmbərimiz Məhəmmədin əmisi oğlu, xəlifə Əli ibn Əbu-Talibi şairlər ordusunun başçısı kimi, ən böyük Ustad kimi xalqa tanıdır:

Şamil məni gəzər, bəli,
Həbib, Əyyub bilsə gəli.
Talıbın övladı Əli,
Yadına sal, baxa-baxa [1,s.412].

"Baxa-baxa" gəraylısının növbəti bəndində isə Ustad mürşidindən müridinə – şagirdi Əlqəməyə qayıdır:

Görsə məni bu çətində,
Qanı donar, həsrətin də.
Əlqəmənin cəsətində
Yanar tonqal, baxa-baxa [1,s.413].

Ustad, mürşid, müəllim anlayışları Aşıq Şəmşir şeirlərində yer almaqla yanaşı, eləcə də şagirdlərə də, müridlərə də yer ayrılır. 1969-cu ildə Bakıda müalicə olunan sənətkar gənc sənət dostlarına, tələbələrini – Bəhmən Vətənoğlunu, Eyyubu, Dəllər Kərəmi, Rüstəmi, Bəhrəmi, Qarabağlı Səfəri, Şair Vəli Gəncəlini, Müzamili, Cəmili,

Əli Qurban Dastançını – "Yetir" rədifli qoşmada xalqa tanıdır, "Yurd yeri boş deyil" fəlsəfi müddəasını şeir dilində ünvanlayır:

Səslə Kəlbəcəri başdan-ayağa,
Bilsin Bəhmən, Eyyub-gəlsin sorağa.
Səcdə qılam Qurban adlı bulağa,
O yurda dilxunam, dilsuzam, yetir [2,s.202].

Ustadlara hörmət, keçmişi yada salmaq, keçmişimizi gələcəyimizə, dünənimizi sabahımıza tuşlamaq aşığın yaradıcılığı boyu ana xətt kimi keçir:

*Qurbanla Ələsgər yandıran şama*
Yoxsa olub sən pərvanə, gəlibsən.
Bu arzu-diləkdə çatarsan kama,
Doğru yola mərd-mərdanə gəlibsən.

***

*Tanış ol ustadın əsli-soyundan,*
Yol çəkilib yeddi dağlı boyundan.
Qurban bulağının içib suyundan,
Bəlkə elə bu dərmana gəlibsən [1,s.270].

Bu fəsildəki araşdırmalar ustad-şagird münasibətlərinin gələcəkdə də dərindən-dərinə tədqiqini zəruri edir. Bu münasibətlərin öyrənilməsinin subordinasiya baxımından həyatın digər sahələrinə də tətbiqinin şübhə doğurmayacağı bəri başdan məlum olur.

## 2.7. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA AŞIQ SƏNƏTİ ETİKASI

Aşıq kimdir, onun cəmiyyətdə tutduğu yer haradadır, aşıqlıq qarşısında cəmiyyət hansı tələbləri qoyur tipli suallara folklorşünas alimlərimizin fikirləri ilə aydınlıq gətirmək yerinə düşər. Aşıqlıq haqqında, bu ülvi sənətin bugünki problemlərinə dərindən bələd olan bir alim kimi akademik Muxtar İmanoğlu öz səmimi duyğularını dilə gətirir: "Yəni biz, folklorşünaslıq elmində səlahiyyət sahibi olan şəxslər bu gün aşığı sanki bir müğənni və çalğıçı sifətində görür və bu sənətkarı o cür qiymətləndiririk. Unuduruq ki, aşıq, hər şeydən qabaq məclis aparan, dastan söyləyən bir ifaçıdır; aşığın qoşduğu qoşma, gəraylı, təcnis, divani və s. janrlı şeirlər məhz bu ifaçılığın tərkib hissəsi kimi götürülməli və araşdırılmalıdır".

Həmin anda möcüzəli aşıq sənəti, böyük ustad aşıqlar barədə düşündüm və qəribə bir mənzərə ilə üzləşdim: aşıq musiqi ifaçısıdır, aşıq müğənnidir, aşıq xanəndədir, aşıq bəstəkardır, aşıq aktyordur, aşıq rəqqasdır, aşıq bədii qiraət ustasıdır, aşıq şairdir, aşıq alimdir, aşıq dastançıdır, aşıq məzhəkəçidir, aşıq pedaqoqdur [121]. Təsadüfi deyildir ki, aşıq sənətini dərindən bilən dahi Üzeyir bəy [75] yazırdı: "Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, yazıçının da, bəstəkarın da, xanəndənin də, rəqqasın da istənilən qədər götürəcəyi pay vardır".

Aşığın dilində işlənən "şərab" kəlməsi Qurani-Kərimdəki cənnət şərabları mənasındadır. Allah eşqində məst olmaq mənasındadır. Spirtli işçkilərdən istifadə edib Allaha məxsus ürfan kəlmələrə etinasız yanaşanlar onsuz da qınaqdadırlar:

Çox içməyin cana ziyanı çoxdu,
Bədənə xəncərdi, ürəyə oxdu.
Aşıq tərənəsin eşidən yoxdu,
Bu incə sənətə səd heyf, heyf [2,s.419].

Aşıq Şəmşirin yaşayıb yaratdığı Kəlbcər rayonu XX əsrin 30-cu illərində sosial-iqtisadi sahədə periferik rayon kimi diqqətdən kənarda qalsa da, xalqın imperiyaya qarşı daxili müqaviməti elə aşıq yaradıcılığına sevgi ilə özünü biruzə verirdi. Ötən əsrin 30-cu illərinin ikinci yarısından milli düşüncədə aşığın deformasiya prosesi başladı. Onun bütün yaradıcılıq intellekti milli mənin təhrifinə istiqamətləndirildi. Aşıq sənətinə milli düşüncədə yad meyllər, ölçülər, qəliblər daxil edildi, onun baxış və təsir trayektoriyası təhrif olundu. Məqsəd aşıq yaradıcılığının formal zahiri əlamətlərini saxlamaqla, onun məzmununu qondarma sosialist həyatının təbliğinə istiqamətləndirmək idi. Aşıq ifaçılıq institutu öz soy kökündən sızıb gələn türkçülük, islamçılıq, bərabərlik və azadlıq dəyərlərini kütlələrin şüuruna ötürmək, milli Məni formalaşdırmaq imkanlarını dayandırdı, sosialist həyatının bir sıra gözə dəyən ilkin nailiyyətlərinin tərənnümü mövqeyinə keçdi. Lakin milli məni, milli düşüncəni inkar eləmədi, özünü soy kökünə, əcdad düşüncəsinə qarşı qoymadı, tarixən əldə edilmiş nailiyyətlərdən, ənənələrdən uzaqlaşmadı, sadəcə olaraq repertuarını sovet dövrünün tələblərinə uyğunlaşdırmalı oldu [25].

Aşıq Şəmşirin şeirlərini tərtib və redaktə etmiş şair Osman Sarıvəlli yazır: "Aşıq Şəmşir istedadlı şair olmaqla bərabər, məlumatlı və saz sənətinin bütün sirlərinə vaqif,

mahir bir aşıqdır". Onun şeirlərində klassik aşıq irsinin güclü təsiri də özünü göstərir [77].

Aşıq yaradıcılığının, o cümlədən Aşıq Şəmşir irsinin görkəmli tədqiqatçılarından Məmmədhüseyn Təhmasib, Həsən bəy Zərdabi və Ruhulla Axundovun sitatları əsasında aşığın rolunu bir daha tədqiqatçılara xatırladır və bu sahədə görüləcək işlərimizi yada salır: "Görkəmli maarifpərvər Həsən bəy Zərdabi hələ inqilabdan qabaq məqalələrinin birində yazırdı: "Əkinçi" qəzeti çıxanda o vaxtın şairlərindən yazıb təvəqqe eləmişdim ki, bülbülü, gülü tərif və bir-birlərini həcv etməkdən əl çəkib elm təhsil etməyin nəflərindən və biz müsəlmanlara olan zülmlərin barəsində şeir yazıb onları bizim aşıqlara xoş *zövq* ilə oxumağı öyrətsinlər ki, aşıqlar onları toylarda oxuyub əhalini oyatmağa səbəb olsunlar". Ondan xeyli sonra, Azərbaycanın birinci aşıqlar qurultayında isə Ruhulla Axundov demişdi: "Aşıqlar böyük təbliğatçıdırlar". Bu iki görkəmli şəxsiyyətin dediyi sözlərdə böyük bir həqiqət vardır. O da bundan ibarətdir ki, aşıq hər zaman öz səsi, sazı, sözü ilə ürəklərdə yaşayan, geniş xalq kütlələrinə təsir etməyi bacaran sənətkar olmuşdur. Bu, ən uzaq keçmişdə də belə imiş, indi də belədir" [167; 168;].

Aşıq necə olmalıdır sualına cavab axtaranlara, aşıq sənətinin sirlərinə bələd olmaq istəyənlərə satirik bir tərzdə "Aşıq" qoşmasında cavab verir. Ustad Aşığın təfəkkürlə bağlı düşüncəyə, estetikliyin əsasında dayanan duyğuya malik olmasının vacibliyi diqqətə çatdırılır. Aşıq öz üzərində çalışmalı, sızqa suya yox dərin çaylara bənzəməlidir.

Fəhmin varmı düşüncəyə, duyğuya,
Ayıl bala, uyma belə uyğuya.

Sən misalsan bir aftafa yuyquya,
Sızqa sudan çətin olur çay, aşıq [1,s.374].

“Sözdən özün üçün pay götür” ifadəsinin sinonimi “tənqiddən nəticə çıxar”maqdır ki, bununla Ustad hər bir sənətkara öz gücünü hesablaya bilməsini tövsiyə edir:

Şəmşir kimi bir nəhəngə əl atma,
Sən rubəhsən, şir, pələngə əl atma.
Gücün çatmaz, ağır daşa əl atma,
Götür sözdən özün üçün pay, aşıq [1,s.374].

Aşığın cəmiyyətdə tutduğu yer, aşıq etikası cinaslı bayatılarla təqdim olunur. Aşığın cəmiyyətdə, “el” arasında tutduğu mövqe onun həyası ilədir:

Aşıq havalı gəzər,
Dərsin hey alı, gəzər.
Üzündə ismət olan,
Eldə həyalı gəzər [1,s.511].

Aşıq Şəmşirə görə aşıq sənəti o qədər ülvidir ki, bu sənət mərd insanların məclisində özünə yer tapa bilər. Cəmiyyətdə haramlıqla ad qazanan insanlardan uzaq durmağı məsləhət bilir:

İndi ki, saz alıb düşübsən elə
Mərdin məclisində oxu, çal, aşıq.
Qismətini ancaq halaldan istə –
Sən gözü tox, igidyana ol, aşıq [1,s.308].

İmprovizə və ifaçılıq, eləcə də yaradıcılıq imkanlarına, mənəvi-əxlaqi, estetik dəyərlərin ifa qüdrətinə və aşıq sənəti irsini mənimsəmə səviyyəsinə görə aşıqları aşağıdakı qruplara ayırmaq olar: Birinci qrupa daxil olanlar ustad sənətkarlardır. Onlar geniş yaradıcılıq və ifaçılıq imkanlarına malikdirlər. Aşıq sənətinin sirlərinə dərindən bələd olub, bədahətən söz deyən, saz havalarını məharətlə ifa edən, aşıq və dastan repertuarlarını dərindən mənimsəyən, şəyird yetşıdirən sənətkarlardır [25].

Elə birinci qrupa aid olaraq aşıqlığı zərif sənət adlandıran Aşıq Şəmşir cəmiyyətdə hörmət qazanmağın yolunun üzdə həyanın, ismətin paklığından keçməsi ilə əlaqələndirir:

Səni şən yaşadar zərif sənətin,
Pak olsun üzündə həya, ismətin.
Gələcək günlərin olmasın çətin,
Ucaltsın adını bu hörmət, oğlum! [2,s.441].

Qüsursuz yaşanılan ömrü ilə şagirdlərinə örnək olan Ustad bu yaşam tərzini öz şagirdlərinə də, sənət müridlərinə də öyrədir:

Ədavət çəkmədim bir insanınan,
Durdum mərd yolunda başı-canınan,
Dolandım elləri adı-sanınan,
Bir deyən olmadı, “et qələt”, – oğlum![2,s.441].

Aşıqlara müraciətində Aşıq Şəmşir milli-dini dəyərlərə sadiq olmağı, cəmiyyət-el fəlsəfəsi ilə mənəvi dəyərlərin sintezini yaratmağa səsləyir:

Qız-gəlin görəndə oynatma göz-qaş,
Namərd süfrəsində yemə yağlı aş.
Şəmşirin sözünü fəhm edəsən kaş,
Qoy saxlasın hörmətini el, aşıq [1,s.308].

Təvazökarlıq, sadəlik ustadların yaraşığıdır. Özünü "damcı daman bulaq" adlandıran Aşıq Şəmşir "əsərim təbimdir" deməklə "hər şey Allahdandır" fəlsəfəsinə sadiqliyini göstərir:

Nə ümmanam, nə dənizəm, nə dağam,
Qurbandan yadigar barlı bir bağam.
Özdüyümdə damcı daman bulağam,
Əsərim-təbimdir coş edən məni [1,s.278].

Şair hər şeydən – işrətdən, nazdan, biilqardan, yaramazdan əl götürə bilir. Sonda qocalıq çağında sazdan əl götürsə də, sözdən əl götürməyin mümkünsüzlüyünü dilə gətirir:

Canım, bu işrətdən, nazdan əl götür,
Biilqardan, yaramazdan əl götür.
A Şəmşir, sözdən yox, sazdan əl götür,
Bəsdi, arasını kəs qocalıqda [1,s.333].

Aşıq Şəmşir üçün mühüm olan "əqli-kamal"dır. Ustad üçün bu dünyada kam almağın yolu elə "əqli-kamaldan" keçir:

Şəmşir üçün vacib əqli-kamaldı,
Kamallılar bu dünyadan kam aldı.
Şox aşıqlar mətləbini kəm aldı,
Barı, sən bəxtindən yarı, sən yarı [1,s.433].

Aşıq Şəmşir üçün aşıq, ozan sənəti alimliyə bərabər tutulur, bu sənətə qədəm qoyanları yaxşılıqdan yazmağa səsləyir:

Ağıllı, kamallı olmasa ozan
Alim ola bilməz hər şeir yazan.
Özün üçün bir ləkəsiz ad qazan,
Yamanı at, yaxşılığı hələ, yaz [1,s.243].

Aşıqlıq sənətini, ümumiyyətlə hər sənəti kamil bilməyi nəsihət edən Ustadın fikirləri Nizami Gəncəvinin: "Kamil bir palançı olsa da insan, Yaxşıdır yarımçıq papaqçılıqdan" – ifadələri ilə üst-üstə düşür, dil varisliyimizin yaşamasını göstərir:

Yaşadacaq xoş adəti,
Səadətin səltənəti.
Hər peşəni, hər sənəti,
Kamil bacaran yaxşıdı [2,s.495].

"Aşıq sənəti başqa sahələrlə müqayisədə sənətkarlıq baxımından xüsusi tarixi missiya daşıyan bir sənətdir" [33]

Aşıq sənətinin tamamilə yeni prizmadan həm regional, həm də lokal kontekstdə tədqiqi folklorşünaslıq elmi qarşısında duran ən vacib məsələlərdən biridir. Aşıq mühitlərinin və məktəblərinin küll halında, ayrı-ayrı sənətkarların

yaradıcılığının isə fərdi şəkildə tədqiqi bütövlükdə Azərbaycan mədəni sisteminin mükəmməl öyrənilməsi üçün birinci dərəcəli əhəmiyyətə malikdir [79].

"Çünki hər bir aşıq mühiti vahid aşıq yaradıcılığının bir hissəsi olsa da, onların cəmi bu sənəti tamlaşdırır, zənginliyini və möhtəşəmliyini artırır" [132].

Aşıq üçün babaların malik olduğunu özündə tapmaq, dostlarla ucalmaq, sənət yollarında saç ağartmaq, mənsub olduğu şəcərənin genetik xüsusiyyətlərini qorumaq – bütün bunlara nail olan sənətkarın xalqı üçün kim olması sualına yer qalmır:

Şəmşir, dostla ucalıbsan,
Babalardan güc alıbsan.
Saç ağardıb, qocalıbsan,
Bəs indi haran yaxşıdı?! [2,s.495].

Aşıq sənəti etikasını dini etikasız təsəvvür etmək mümkün deyil. Dini etikaya xidmət edən bu səpkili şeirlər özünəməxsus janrlarla dinləyicilərinə yol tapır. İlhamə Qəsəbova [76] qeyd edir ki, Qazax aşıqlarının dini məzmunlu şeirlərinin çoxu divani üstündə yazılmışdır. Divani sanki aşığın elmi və dini, sənət yanğısı haqqında hesabatı, estetik dünyasının güzgüsüdür.

Cəsarət etik dəyəri aşıq yaradıcılığının mühüm tərkib hissəsidir ki, monoqrafiyanın bir neçə hissəsində qeyd etdiyimiz kimi aşıq-döyüşçü xətti özünü qətiyyətə söykənən nikbinlik kimi biruzə verir. "Nikbinlik mübarizə ilə vəhdətdədir" müddəasını ortaya qoyur:

Yağıların qəddi bükülməlidir,
Canavarın dişi tökülməlidir.
Qan tökənin qanı tökülməlidir,
Yıxılar taxtından, zay düşər bir gün [2,s.359].

Aşıq-qəhrəman obrazı Ustadın “İndi” gəraylısında özünü daha da bariz bir şəkildə göstərir:

Bu yol qalıb Koroğludan,
Bizik ona addım adan.
Şəmşir, kam al, bu dünyadan,
Açar bahar, yazın indi [2,s.496].

Təkcə “Vurğunun” rədifli qoşmasının analizi Aşıq Şəmşirin sözə, nitqə, şairliyə, şair cəsarətinə, ümumbəşəriliyə, gələcəyə tuşlanan şair yazılarına, şairin mənsub olduğu etik dəyərlərə nə dərəcədə sadiqliyini göstərir. Azərbaycan poeziyasını yüksəklərə ucaldan Səməd Vurğunun xarakterini açmaqla Ustad sənətkar Aşıq Şəmşir özünün Azərbaycan poeziyasına olan sevgisini ortaya qoyur, aşıq sənəti etikasına öz əvəzsiz töhfəsini verir. “Söz sənətkarı”, “mirvari təkin ardıcıl və gözəl düzülmüş nitq”, “şeir xəzinəsi” ifadələri ilə nitq necə olmalıdır sualına Səməd Vurğunun Azərbaycan nitq mədəniyyətinin inkişafındakı əvəzsiz rolunu göstərir:

Dərya fərasətli ***söz sənətkarı***,
Cəvahir kəlməli nitqi mirvari.
Şeir xəzinəsi, ləl hökmdarı,
Çöx böyükdü səadəti Vurğunun [2,s.349].

Ustadın fikrincə Səməd Vurğun kimi sənətkarlar alimlərin, ariflərin, əhli-dillərin istəyidir, "vəfalı dostların canıdır, ürəyidir", Yusif peyğəmbərin atası Yaqub peyğəmbərə göndərdiyi köynəkdən aldığı sevincdir:

Alim, arif, əhli-dillər istəyi,
Vəfalı dostların canı ürəyi.
Yaquba hədiyyə Yusif köynəyi,
Var hər gözdə şücaəti Vurğunun [2,s.349].

Qoşmanın beşinci bəndində əsil sənətkar hansı etik dəyərlərin daşıyıcısı olmalıdır sualına cavablar verir. Mərdlik, cəsarət kimi etik kateqoriyaları özündə daşıyan sənətkarların xalqın qəlbində daim yaşayacağı inamını bəyan edir:

Mərd oldu, ad aldı özün öymədi,
Hamıya əl atdı, qəlbə dəymədi.
Alçağa, satqına boyun əymədi,
Cəsur oldu cəsarəti Vurğunun [2,s.349].

"Şair olmaq, incəsənət xadimi olmaq milliliklə məhdudlaşa bilməz" müddəasını əldə rəhbər tutan Aşıq Şəmşir ümumbəşəriliyə, beynəlmiləlliyə aparan yolu Səməd Vurğun timsalında bir daha göstərir:

Dünya xalqlarının yandı halına,
Bu müdrik şairin bax kamalına.
Azadlıq dilədi ayaqyalına,
İnsanpərəst nəzarəti Vurğunun [2,s.350].

Əsil söz sənətkarının bu dünyada gələcək nəsillərə ərmağanı həmişəyaşar söz bağçasıdır, misralarıdır:

Solmaz, həmişəlik elə bağ əkdi,
Onun hər misrası bir gələcəkdi.
Qara zəncinin də dərdini çəkdi,
Dövlətindən var baratı Vurğunun [2,s.350].

Aşıq Şəmşirə görə bu dünyada şairin, yazıçının, alimin adının qalmasında Allahla bağlı “sadə qəlb, ilahi misraların mirvari kimi sapa düzüldüyü pak sənət”dir:

Adı cahan kimi qaldı əbədi,
Şəmşir ona az ha tərif demədi.
Bəs onu bu qədər sevdirən nədi? –
Sadə qəlbi, pak sənəti Vurğunun! [2,s.350].

Aşıq – döyüşçü xəttinə sadiq olan Aşıq Şəmşir sənətinin toxunulmazlığını, bu sənətdə ad-san qazanmışların müdafiəsini təşkil edə bilir:

İgid gərək güvənməsin kəndinə,
Öyünməsin fitnəsinə, fəndinə.
Keçərsən qıfılbənd söz kəməndinə,
El içində ada, sana toxunma [2,s.316].

Aşıq sənəti haqqında folklorşünas alimlərimizin fikirləri ilə yanaşı görkəmli incəsənət xadimlərinin də münasibətləri maraqlıdır. Bu baxımdan ölməz sənətkarımız Bülbülün [28] də aşıq sənəti ilə bağlı mülahizələri yerinə düşər. Onun “məclis qızışdırmaq”, “dinləyiciləri həyacanlandır-

maq" – fikirləri aşıq – döyüşçü xəttindən xəbər verir: "Aşıq el anasıdır", "Aşıq gördüyünü çağırar", "Bu aşıq haqq açığıdır". Bu sözlər öz-özünə deyil, uzun illərin təcrübəsi əsasında əmələ gəlmiş müdrik xalqımızın aqillərinin bədii zövqünün məhsuludur. Evlərdə, məclislərdə çalıb – oxumaq xanəndələrə, məclis *qızışdırmaq*, dinləyiciləri *həyəcanlandırmaq* aşıqlara məxsusdur".

Aşıq sənətinə olan hücumlar komizm estetik kateqoriyanın satirik üsulu ilə həyata keçirilir:

Ağlın azıb, itiribsən sərini,
Gələndə meydana tökmə tərini.
Anla qüvvətini, bil hünərini,
Kəl ilə güləşmə, dana, toxunma [2,s.316].

Mənəvi yüksəliş maddidən tamamən imtina şəklində deyil, onların arasındakı əlaqəni təmin etmək, tarazlığı və çərçivələri müəyyənləşdirməklə başlanır. Bunları müəyyənləşdirən əsas mənəvi faktorlar "pür kamal" və "mərifət elmi"dir. Belə olduğu halda "ədəb-ərkan" praktikasında problem yaşanmır. Amma şeirin daxili dramatizmi, "yaxşı-yaman", daha çox "nəfs-mərifət" kateqoriyaları ilə ifadə olunan dual sistemdəki binar oppozisiyaların, ziddiyətlərin hesabına təmin edilir.

Aşıq poeziyasında zahiri və mənəvi gözəlliyin elementləri üzvi şəkildə bir-birinə qarışaraq yeni keyfiyyət yaradır, predmet və hadisədə bir tama çevrilir. Onlar həm bir-birini tamamlayır, həm də bir-birini açır. Beləliklə, tamın elementləri gözəl insan idealını ifadə edən vasitə kimi meydana çıxır. Bu da estetik idealın təzahüründən doğan bir qanunauyğunluq kimi özünü göstərir.

Aşıq sənətkar subyektidir. Onun fəlsəfəsi sənətdəki fəlsəfədir və ya başqa deyilişlə, reprezentativ fəlsəfədir. Aşığın vəzifəsi cəmiyyətin istehsal etdiyi profan dəyərləri sakrallaşdırmaqdır. Bu yolla aşıq cəmiyyətdə mənəvi harmoniyanı təmin etməyə xidmət edir. Bu mənada aşıq xaosla kosmos arasında mediatordur, neqativ sosial-mənəvi elementləri sənətin fəlsəfəsinin verdiyi imkanlarla estetik ekosistemdən keçirir və mənəvi tarazlıq yaratmaqla sosial sferada yeni kosmosun qurulmasına yardım edir [9].

Güclü səs, coşqun təb, iti yaddaş, saza-sözə sonsuz həvəs – İlahinin verdiyi bu nemətlərlə atası yanında şagirdliyə başlayan Şəmşirin ustaddan öyrəndiklərini bircə sözlə ifadə etsək, bu məqamda “ənənə” sözünü işlətməliyik [125].

Aşıqlıq sənətinin qədim tarixə malik olmasını hələ Aşıq Şəmşir “Aşıqlıq” qoşmasında vermişdir. Qoşmada aşıq sənətinin genezisinə, kökünə ekskurs edilir, bu sənətin qədim dövrlərə mənsubluğu xalqa şeir dilində çatdırılır. Bu məqamda Aşıq Şəmşir ideyaları öz əksini etnoqraf-tarixçi akademik Teymur Bünyadovun [29], prof. Mahmud Allahmanlının [97] əsərlərində tapır: “Bir məsələ aydındır ki, aşıq sənətinin özülünü, bünövrəsini ibtidai icma quruluşunun inkişaf etmiş mərhələsində araşdırıb axtarmaq lazımdır”.

Aşıq var ki, hər nə desən varıdı,
Aşıq var ki, xalqın sənətkarıdı.
Aşıq var, kamalda ləl, mirvarıdı,
Doludu xaralı, söz dağarcığı [1,s.104].

Başqa bir məqamda ozan sənətinin saflığı uğrunda sənətkar mücadiləyə qalxır. Xudpəsəndlik, təkəbbür və lovğalıq kimi antietik dəyərlərin aşıqlıq sənəti ilə bir araya sığmadığını oxucuya yönəldir:

Aşıq var ki, bir damcıdı, çay olmaz,
Usta var ki, haramxordu, bay olmaz.
Aşıq var ki, bir torbaya tay olmaz,
Ay Şəmşir, boşalar tez dağarcığı [1,s. 104].

Pul güdən aşıqdan kənaram, kənar,
Şəmşirə lazımdı düz söz, etibar.
Xeyrə-şərə gərək olmaya idbar,
Ümidəm bəxtimə, süngüsar olar [1,s.105].

Aşıq necə olmalıdır, aşıq kimə deyirlər, aşığın hazırlıq səviyyəsi nə yerdədir kimi suallar öz əksini Aşıq Şəmşir yaradıcılığında tapır:

Səksən yaşa çatmış hanı bir aşıq
Deyirmi özündən söz mənim kimi.
Sualçıya cavab versə adaşıq,
Hazırmı suala tez mənim kimi [3,s.268].

Aşığın qarşısındakı missiyalar Aşıq Şəmşir şeirlərində öz əksini tapır. Aşıq sənətində ədəbiyyatın, musiqinin, rəqsin, natiqliyin vəhdətinin "aşığın işi" olduğunu yeri gəldikcə oxucusuna çatdırır:

Yazmaq, pozmaq, mahnı demək
Mənim ancaq işim olur.

Söz qəlbimdə boğanaq tək,
Birdən eşim-eşim olur [3,s.316].

Aşığın cəmiyyətdə tutduğu yer, cəmiyyətə xidmət etmək kimi məsələlər nəzmə çəkilərək oxuculara çatdırılır:

Pozulmayıb hələ xidmət,
Bülbüldən var gülə xidmət.
Vətənində elə xidmət,
Çox eliyən ozanlar var [3,s.300].

Aşıq Şəmşir yaradıcılığında əlinə saz alan aşıq “ boyu uca, hüsnü qəşəng” dağlara bərabər tutulur, bir daha bu sənətin yüksəkliyi xalqa çatdırılır:

Boyu uca, hüsnü qəşəng,
Mənə söz ver, söz al, dağlar.
Aşıq kimi gəl deyişək,
Sən də ələ saz al, dağlar [3,s.353].

– Əxlaqi varlıq olan insan öz hissi aləmi üzərində əxlaqla yüksəlir;

– Əxlaqi varlıq kimi insan təbiətdən ayrıdır, azadlıq qanunlarına uyğun yaşamalıdır;

– Azad olmaq dərkdə təcrübədən asılı olmayan mütləq əxlaq qanununa əməl etməkdir. Bu qanun dərki olan hər bir adama məlumdur. Belə ki, yalanın ləyaqətsiz olması hamıya məlumdur;

Aşığın etik kredosu Aşıq Şəmşirin yaradıcılığında islam əxlaqına söykənən özünəməxsus kredodur. Aşıq

Şəmşirə görə aşıqlıq sənətinin sirlərinə islami dəyərlərsiz (təriqət, mərifət) vaqif olmaq olmaz.

"Düzgün hərəkət etmək üçün özünüzdə əxlaqi dəyərləri hazırlayın" tələbini Aristotel irəli sürürsə Aşıq Şəmşir həmin dəyərləri (dost sirrini saxlamaq, namus, qeyrət, əhdə vəfa, düz yol-ərkan) poetik bir dildə insanlara çatdırır

Dost sirrini dosta demə, saxla möhkəm sirr budu,
İnsanlara lazım olan namus, qeyrət bir budu.
Əhdə-vəfa, düz yol-ərkan qiblə budu, pir budu,
Yeri gəlsə geri qalma namusdan, ardan, aşıq [3,s.406].

Bülbül kimi xoşnişan ol, xoş ətri güldən qazan,
Təriqəti, mərifəti, bir əhli-dildən qazan.
Ustaddan kamil dərsin al, hörməti eldən qazan,
Ayrılıb düşmə kənara doğru ilqardan, aşıq [3,s.406].

"Ustaddan kamil dərsin al" deməklə Kantın "düzgün davranışı öyrənin, mənəvi müəllimlərinizdən nümunə götürün" etik kredosu ilə həmahəngliyi müşahidə edirik.

Hayalan qızdan, gəlindən, qəlbini pak saxla sən,
Təmiz ada sahibkar ol, halal ürək saxla sən.
Nəfsini haram yolda etmə həlak, saxla sən,
Haram maya acı olur, bil, zəhrimardan, aşıq [3,s.406].

"Eşidənlər tərifiləsin səni kənardan" ifadəsi ilə Aşıq Şəmşir aşıqlarımıza lovğalıq, təkəbbür kimi antietik dəyərlərdən uzaq durmağı tövsiyə edir:

Yar-yoldaşa xain çıxma, gəzdiyin oymağı sev,
Zəhmət ilə bağça bəslə bağbanı ol-bağı sev
Qoy aran, dağ səni sevsin, sən aranı, dağı sev,
Eşidənlər tərifiləsin səni kənardan, aşıq.

Ustad "halal əmək", "ariflər yanında olmaq", "cəfakeşlik", "diksinib xof etməmək" etik dəyərləri aşıqlardan tələb edir:

*Arif*, alim məclisində yaxşı, yaman seçmışəm
*Halal əmək* bəhrəsindən, şirin badə içmişəm
Xalqım üçün *cəfa çəkib* daşqın çaylar keçmışəm,
*Diksinib xof etməmişəm* borandan, qardan, aşıq [3,s.407].

"Aşıq adını uca dağlardan da uca tutmaq" poetik ifadəsinə bir Dədə kimi Aşıq Şəmşir yaradıcılığında tez-tez təsadüf olunur:

Ürəyində xof gəzdirən vəfalı dostdan olar
Xəbis, xain, paxılların yazı zimistan olar.
Şəmşirin nəsihəti, dillərdə dastan olar,
Aşıq-adın uca tutar, uca dağlardan, aşıq [3,s.407].

Dədə Qorqud sənəti üçün, aşıq sənəti üçün mühüm olan haqqı nahaqqın ayağına verməmək, ədaləti pozmamaq, Sabir demiş "düzü düz, əyrini əyri" göstərməkdir:

Nər izində qalan yağış suyuna,
Olarsan ümmana tay, demədim mən.
Gecə işıldayan göy böcəklərə,
Ulduz demədim mən, ay demədim mən [1,s.152].

Türklüyün, Türk ədəbiyyatının ana qolu olan aşıq-ozan sənətinin müdafiəsiz qaldığı illərdə aşıqlar özü bu müdafiəni kəskin şəkildə, rəqiblər üçün amansız şəkildə həyata keçirə bilmişdilər. Bu baxımdan Aşıq Şəmşirin bir sıra şeirləri "Bax" rədifli qoşmadakı kimi xüsusilə diqqət çəkir:

Qusar, yağ götürməz kəlbin qursağı,
Yemi qara qanqal, qoyunqulağı.
Sənətkara de qoşmasın lağlağı,
Özündə yüz eyib olana bir bax.

***

Şəmşirlə alverin varmı, a bala?!
Boş yerə hürmə gəl, a sarsaq tula.
Əcəlinmi yetib, çıxıbsan yola,
Başı əziləsi ilana bir bax [1,s.166].

Bir çıxışımda aşıq-şair anlayışlarına aydınlıq gətirmək baxımından dediyim kimi: Aşıq Şəmşir böyük İslam şairidir, böyük Azərbaycan şairidir, dünyanın böyük şairidir. Bu gün də "Oxuma tar" deyənlərə, aşığı şairdən ayırmağa cəhd edənlərə təsadüf edilir. Bu gün də milli şüurunun inkişaf etmədiyi "kosmopolit"lərə təsadüf edilir. Həmin "özünü itirənlərə" Aşıq Şəmşirin şeirlərində hazır cavablar mövcuddur:

Aşıqları lağa qoyub gülmə sən,
Çaqqalsan, meşədə ula, danışma.
Dilinə qadağa ver bundan belə,
Küçə iti, düşmə dala, danışma [1,s.163].

Şükürlər olsun ki, bu gün milli özünüdərkdə sazımız da, tarımız da öz layiq olduğu yeri ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü, ictimai fədakarlığı, milli təəssübkeşliyi sayəsində ala bilib.

Aşıq sənətinin etik dəyər göstəriciləri prof. Qara Namazovun aşağıdakı fikirlərində öz əksini tapır: “Aşıq Şəmşir xalq arasında, məclisdə arif adamların yanında davranış qaydalarına, elin adət-ənənəsindən gələn əxlaqi normalara düzgün riayət edilməsini məsləhət görür:

Ariflər yanında saxla özünü,
Qaş oynadıb, dolandırma gözünü.
Fikir eylə, sonra danış sözünü,
Qabaqdakın adam sayasan gərək.

Aşıq böyük hörmət və nüfuz sahibi olmaq üçün, yaxşılığı bacarıb, yaxşı ad qoymaq naminə sənətkardan dərs almağı, ağıl, kamal sahibi olan adamların yanında olmağı nəsihət edir:

Gəzsən, sənətkarın sayəsində gəz,
Böyük zəhmətinə alarsan əvəz,
Aşıq ol, alim ol, şair ol, qərəz,
Dünyada yaxşı ad qoyasan gərək.

Aşıq Şəmşir deyir ki, ağıl sahibi olan adamların yaşından, mövqeyindən asılı olmayaraq, hörmətini saxlamaq lazımdır. Onların ağzından çıxan qiymətli sözü bütün aləmə yaymaq gərəkdir. Yerində deyilmiş qiymətli söz böyük tə-

sir qüvvəsinə malik olur. Ona görə də o, çox oxumağı, ağıllı, qiymətli, kamil söz öyrənməyi vacib bilir” [87].

Ustadın “Aşıqlıq” qoşması aşıqlıq sənətinin yaranma tarixindən söhbət açır, bütün sənət növləri kimi bu sənətin də yaranma tarixini insanların estetik zövqünün formalaşması tarixi ilə eyniləşdirir:

Dünya sənətinin cəmi yaxşıdı,
Layiqdi pak ada, sana aşıqlıq.
Eramızdan qabaq ustad əlindən
Qalıb bizə bir nişana aşıqlıq [2,s.133].

İdris Səmədov [75] Üzeyir Hacıbəyovun çox sevdiyi aşıq sənətindən bəhs edərək yazmışdır: “Aşıq sənəti... xalqa, kütlələrə daha yaxındır, xalqın həyəcan və arzularını, xalq musiqisinin başqa növlərinə nisbətən daha parlaq əks etdirir... Aşıq sənəti xalqın öz yaradıcılığıdır”.

Azərbaycanda aşıq poeziyasına yeni nəfəs gətirən, onu inkişa etdirən Qurbani, Abbas Tüfarqanlı, Sarı Aşıq, Aşıq Valeh, Aşıq Ələsgər, Aşıq Alı və başqalarının əsərləri bu gün də xalq arasında yaşamaqdadır.

Aşıqlıq sənətinə yiyələnmək yolunda şagirdinə məsləhət verir, “həya” deyilən sinonimi mərifət kimi səslənən “həya” deyilən etik dəyəri aşılayır, “həyasızlardan uzaq durmağı” məsləhət bilir:

Kəm baxma yediyin çörəyə, duza,
Doğru ol doğruya, sadiq ola düzə.
*Həyasız* gəlinə, *həyasız* qıza
Bəsləmə qəlbində məhəbbət, oğlum! [2,s.440].

Ustad bu sənətin qiymətini şagirdlərinə, oxucularına, dinləyicilərinə və bu günsə aşıqlıq tarixini öyrənənlərə, tədqiqatçılara yönəldir:

Sevib bu sənəti Loğman, Ərəstun,
Nəsimi, Xaqani oldu ciyərxun.
Məcnunun hicranı olubdu əfsun,
Salıb onu biyabana aşıqlıq [2,s.133].

Aşıqlıq sənətinin inkişaf tarixinə bələd olmaq bu sənətin qiymətləndirilməsi üçün vacibdir:

Üç yüz on üç nəfər aşıq ağladı,
Yüz altmış nəfəri dastan bağladı.
Xəstə Qasım, Abbas sinə dağladı,
O vaxt olub bir əfsanə aşıqlıq [2,s.133].

"Qala yarımçıq" təcnisində aşığın "barısı, səddi, hasarı" sözdən və şeirdən ibarətdir. Bu barının Pərvərdigar tərəfdən yarımçıq qalmamasını arzulayır.

Bir barı çəkmişəm sözdən, şeirdən,
Köməkdar ol, qoyma qala yarımçıq.
Görüm deyərsənmi başa çatmasın,
Qıyarsanmı belə qala yarımçıq [2,s.476].

Haqqın qorunmasında – həm cəmiyyətin, həm də öz haqqının qorunmasında Aşıq Şəmşir misraları od kimi püskürür, təsəvvüfdə deyildiyi kimi bəyənilən qəzəb rəqiblərə yönəlir. Aşığa bağlama göndərən bir müğənniyə yazdığı "Danış" rədifli qoşmada dini dəyərlərə sahib bir Ozan kimi çıxış edir:

Xaliq "Kün!" buyurdu, xəlq oldu dünya,
Qələm hansı adı yazandan danış.
Ya bir Allah, ya Məhəmməd, ya Əli,
Bu adları bilən ozandan danış [2,s.218].

Ululardan qalma bu irfani sənətə dolaşanlar ustadın sərt qınağına tuş gəlir:

Aşığa dolaşma, qalar dilin tənk,
Çox da bilsən, azca danışmaq gərək.
Şairlik kəndinə gəlməsin hənək,
Kotanın xam gəzir, xozandan danış [2,s.218].

Sonda filosoflara məxsus bir tərzdə hirsini boğa, nəsihətə keçə bilir. "Kişi olan hər bir fərd, hər bir insan el ilə, cəmiyyətlə birgə nəfəs alar" müddəasını gündəmə gətirir:

Şəmşir sənə hələ dəymir yad eldə,
Kişi olan alar yaxşı ad eldə.
Sən də axtar, ləzzətini dad, eldə,
Ayrandan, qatıqdan, qazandan danış [2,s.218].

Təsəvvüfə söykənən Ustad bu fani dünyada nə qazandığın mal-dövlətin:

O qayıtmaz köçü sən də yada sal,
Çəkmə çox əfsanə, nə qoyxa, nə qal,
Kimlərə qalacaq qazandığın mal,
İnanma qazanıb, yeyib gedərsən [2,s.220].

Nə ilahidən verilən fiziki güc və fiziki sağlamlığın:

Solacaq bağında açılan çiçək,
Bu artıq tamahdan bəsdi, sən əl çək.
Demə qüvvətliyəm, qoçuyam, mən tək,
Uca qamətini əyib gedərsən [2,s.220].

Nə zəngin arxa və qohum-qardaşın:

Hanı, çoxlarının zəngin arxası,
Di bax, görünürmü Süleyman tacı?!
Əzəli bal dünya, axırı acı,
Binahar, əl-üzün yuyub gedərsən [2,s.221].

Nə də bu fani dünyada özünə dost bildiyin sevgili yar-yoldaşın sənə kömək edə bilməyəcəyi həqiqətini ortaya qoyur. Əsil dostun harada olduğunu sufi dilində anladır:

Şəmşir, ölüm xabı ağrıdar başın,
Əlac edə bilməz qohum-qardaşın.
Sənlə getməz əziz sevgi yoldaşın,
Cahanda intizar qoyub gedərsən [2,s.221].

Ömrün qocalıq deyilən dövrünü Aşıq Şəmşir qəbul edir, qəbul etmək bir tərəfə, hətta ona gülə də bilir:

Tamaşada qoy göstərsin güzgülər,
Şəmşirə kim gülsə əgər, düz gülər.
Nə din-danış: gəlin gülər, qız gülər,
Vaxtın keçib, xəttin olub çal, aşıq [2,s.224].

Bir ozan kimi ömrünü başa vuran Aşıq Şəmşir üçün həyatda narahat olduğu məqam "qalaysız qazan" olmaqdır:

Şəmşir vardı ozan kimi,
Nə tez soldum xəzan kimi?!
Bir qalaysız qazan kimi
Deməsinlər: paxıram mən [2,s.488]

Aşıq poeziyasında estetik duyğunun qaynağı insan, onun təbiətə və insanlara münasibətidir. İnsanın dünyada yeri, insanlıq vəzifəsi aşıq poeziyasında, sənətin başqa sahələrində olduğu kimi, mərkəzi yer tutur. Həm təbiət, həm insan estetik gözəllik baxımından aşıq şeirində özünəməxsus şəkildə mənalandırılır. Əlbəttə, aşıq poeziyası gerçək aləmə daha yaxından təmas etdiyi üçün ilk növbədə təbiətin, insanın xarici gözəlliyi şeirə-sözə gətirilir. Xarici gözəllik ahəngdar biçilmiş, insan qamətinin, təbiətinin, rənginin, ahənginin, müsiqisinin gözəlliyi kimi təqdim edilir. Ancaq xarici gözəlliyin tərənnümü başqa sənət sahələrində olduğu kimi, aşıq sənətində də məzmun gözəlliyinin açılmasına körpüdür. Elə məzmun gözəlliyinin özü insan varlığına tətbiq edildikdə mənəvi gözəlliklərin, yüksək əxlaqi keyfiyyətlərin məcmusu kimi özünü göstərir.

Aşıq şeirində dünyanın müvəqqətliyini ifadə edən vasitələr onun daimiliyinə və əbədiliyinə xidmət edir [9].

Beləliklə, gələcəkdə folklorşünas alimlərimizlə filosoflarımızın birgə səyləri sayəsində aşıq sənətinin özündə ehtiva etdiyi etik dəyərlərin öyrənilməsi düşünürük ki, Azərbaycan fəlsəfi fikrinə böyük xidmət olardı.

# III FƏSİL
# AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA ESTETİKA

Fəlsəfi elm, gözəllik fəlsəfəsi olan estetika insanın dünyanı estetik baxımdan öyrənilməsinin qanunauyğunluqlarını, gözəllik qanunları üzrə yaradıcılığın mahiyyətini və formalarını öyrənməklə məşğuldur.

Aşıq Şəmşir yaradıcılığında, ümumiyyətlə aşıq yaradıcılığında estetik məsələlərin çözülməsindən öncə dünya estetlərinin, filosoflarının mülahizələri ilə dəyərli oxucularımızı tanış etmək maraqlı olardı.

İnsan eybəcər və rəzil olanı deyil, qəşəng, gözəl və ülvi olanı estetik hesab edir. Dünyanın estetik baxımdan öyrənilməsinin ən mühüm üsullarından biri incəsənətdir. İncəsənətdə insan şeylərə öz təbiəti mövqeyindən yanaşır və onları bu mövqedən qiymətləndirir. Lakin insanın təbiəti də məhz onun hər hansı şeyin mahiyyətini bərpa etmək, hər hansı predmetdə ona müvafiq meyarı görmək imkanında üzə çıxır. Deməli, incəsənətin mahiyyəti dünyanı gözəllik işığında görmək, onun əsas funksiyası isə estetik funksiya olacaqdır. İncəsənətin isə ən mühüm növü bədii ədəbiyyatdır ki, bizim monoqrafiya məhz aşıq ədəbiyyatı üzərində qurulmuşdur.

Filosoflar gözəlliyi tarix boyu muxtəlif şəkildə başa düşmüş və izah etmişlər. Gözəllik haqqında təsəvvürlərimizin əsasını təşkil edən fikir deyil, müəyyən daxili hissdir. Mühakiməyə əsaslanan bilik gözəlliyin dərk edilməsində hisslərin ifadəsini əvəz edə bilməz. Əxlaqi və estetik hisslər bir-biri ilə sıx bağlıdır, çünki yaxşılıq və gözəllik arasında dərin daxili vəhdət vardır [98,s.304].

İncəsənət öz təbiətinə görə əks edən – ifadə edəndir. Elmlə müqayisədə incəsənətin digər xüsusiyyətləri də vardır. İncəsənət gerçəkliyin obrazlı mənimsənilməsidir, burada "fərdilik", "təkcə" üstünlük təşkil edir. Təbiətşünaslıq inikasın anlayış formasıdır. Orada biliyin müxtəlif səviyyələrinin ümumiləşdirilməsi (o cümlədən qanun kimi) mühüm yer tutur. İncəsənət də ümumini əks etdirir. Lakin bu ümumi (tipik) konkret, canlı obrazlarda təqdim olunur [8,s.82].

XIX əsrin ikinci yarısında yaşamış rus filosofu N.Y.Qrot 1880-ci ildə çap etdirdiyi "Fəlsəfə incəsənətin bir şöbəsidir" adlı məqaləsində qeyd edirdi ki, poetik və fəlsəfi əsərlər müəyyən dövrlərdə müəyyən adamları təmin edir, digərlərini təmin etmir. Belə çıxır ki, fəlsəfə də incəsənət kimi zövqün işidir. Elmdə isə zövqdən danışmaq gülməli çıxardı. Burada da bu və ya digər dövrdə bu və ya digər fəlsəfi sistemin ön mövqeyə çıxmasını qeyd edə bilərik. Eyni sözü incəsənətin də bu və ya digər növü haqqında da deyə bilərik. Lakin elə dövrlər və elə adamlar da olmuşdur ki, ümumi ideyalara yiyələnmiş və varislik prinsipini inkişaf etdirmişlər. Fəlsəfi sistemlər sənətkarların bütün yaradıcılıqları kimi həmişə böyük şəxsiyyətlərin naliyyəti olub, öz yaradıcılarının adı ilə də yaşayırlar. Bu isə həmin fəlsəfənin sabit və incəsənət əsərlərinin subyektiv xarakterini sübut edir. Əksər elmi kəşflər çox vaxt bir neçə alimin adı ilə bağlıdır. Lakin biz "Leybnitsin monadologiyası", "Kantın transendental idealizmi", "Şekspirin Hamleti", "Motsartın rekviyemi", "Rafaelin madonnası" və s. dedikdə buradakı subyektivizmi heç kim inkar edə bilməz [8,s.84].

Qeyd etmək lazımdır ki, fəlsəfə tarixinin, keçmiş filosofların mühüm əsərlərinin öyrənilməsi müasir fəlsəfi idrak üçün vacib şərtdir. Elmdə prinsipcə yeni problemlərə daxil olub, onları tezliklə həll etmək olar, fəlsəfədə keçmiş filosofları öyrənmədən keçinmək mümkün deyildir.

Rembrandtın, Bethovenin və digər böyük sənətkarların, keçmiş dövrlərin görkəmli filosoflarının yaratdıqları həmişə bizimlədir, onlar həmişə müasirdir. Fəlsəfi biliyin məzmununa və fəlsəfi idrakın yaradıcılığı prosesinə incəsənət üçün spesifik olan komponentlərin daxil edilməsini bir sıra xətlərlə izləmək olar. Buraya fəlsəfi biliyin mühüm hissəsini təşkil edən estetik təsəvvürlərdən ("Estetika" bölməsi) başlayaraq, "dünyanın mənzərə"sində mühüm yer tutan varlıq fəlsəfəsinə qədər hər nə varsa aid etmək olar. Yeri gəlmişkən "dünyanın mənzərəsi"nin ("mənzərə" sözü incəsənət sahəsinə aid deyilmi?") yaradılması filosoflarda gözəllik hissi, dünyaya bağlılıq meyillərini doğurur. "Dünya mənzərəsi" anlayışı əslində təbii-elmi olub, özünə dünyanın strukturluğunu, sistemliliyini daxil etsə də, bəzən də təbii elmlərin hüdudlarından kənarda qalır. Əgər filosof dünyanı bütöv, tam halında əhatə etmək, təhlil etmək cəhdində bulunursa, o şübhəsiz, dünyanın konturlarını cızarkən oraya nəinki sosiumu, həmçinin problematik dünyanı, kosmik ağılı və s. o cümlədən insan fantaziyası ilə sərhəddə olan hipotetik məsələləri daxil etməlidir. Ümumi fəlsəfi «dünya mənzərəsi» özündə bəşəriliyi, dünyaya emosional münasibəti, bəşəriyyətin və ayrı-ayrı fərdlərin taleyi baxımından qiymətini də əks etdirməlidir.

Fəlsəfə və incəsənətin bir-birilə qohumluğu onların bir-birinə daxil olub birləşməsinə qədər bu faktlarla da sübut olunur ki, çox vaxt fəlsəfi əsərlər bədii-ədəbi əsərlər forma-

sında özünü göstərmişdir (məsələn, Platon, F.Nitşe, A.Kamyuda olduğu kimi). Bəzi görkəmli şair və yazıçılar (Nizami, Nəsimi, Füzuli, M.F.Axundov, F.M.Dostoyevski, L.N.Tolstoy, Səməd Vurğun, Ç.Aytmatov, O.Süleymanov, F.Kafka, Höte, H.Hesse, Markes və b.) filosof və mütəfəkkirlər sırasına düşmüşlər. Bütün bunlar belə bir sualı meydana çıxarır. «Fəlsəfə incəsənət hesab oluna bilərmi?»

Ümumiyyətlə, bizim fikrimizcə, fəlsəfə incəsənətlə qohum olduğu kimi, elmə də o dərəcədə yaxındır. Ona görə də onları bir-birinə qarşı qoymaq düzgün olmazdı [8,s.84-85].

Aşıq Şəmşir poeziyasının tədqiqi estetikanın özünəməxsus "tablolar" şəklində olmasını təsdiqləyir. Bu "estetik tablolar" xalqın estetik zövqünə uyğun olaraq təbiətlə, ekoloji ünsürlərlə vəhdət halında təqdim olunur. "Ürəklər" gəraylısında Aşıq Şəmşir antonimlərin köməyilə öz estetik tablosunu yaradır:

Bir ürək ki, *ilqarsızdı,*
Məhəbbətdən o, *barsızdı.*
*Çiçəksizdi, baharsızdı,*
Qışa dönən *buz* ürəklər [2,s.506].

Dədə üçün dağlar əzizlərini itirən insanlara xitabən söylənilən şeirlərdə istinada çevrilir. "Görübsənmi?" rədifli qoşmada ailəsi cavan yaşda vəfat etmiş gəncə təsəlli verir, o nəhəng dağları insanlaşdırır.

Şəmşir, bir ölümdü yaman, amansız,
Elə qış keçərmi qarsız, dumansız.
Daşı tərpənməmiş, köksü yarğansız,
Ətəyi uçmamış dağ görübsənmi? [2,s.380].

Aşıq Şəmşir yaradıcılığında sözün estetikası xüsusən təbiətin vəsfində baş verir. Aşıq–təbiət dialektik vəhdəti etik-estetik vəhdətə gətirib çıxarır:

Yazda çiçəklənən meyvəli bağlar,
Desən Şəmşir hanı, vəfalı dağlar?
Moruqlu quzeylər, səfalı dağlar,
Unutmaz səs verən qayalar məni [1,s.76].

Aşıq Şəmşir şeirlərində estetik harmoniyalara tez-tez təsadüf olunur:

Göz vuranda nər utanar mayadan,
Ağ dumana bürünürsən hayadan.
Qartal, kəklik qulaq asır qayadan
Aşıqlar sazını çalanda, dağlar [3,s.247].

Yuxarıdakı səhnədə, məhz Aşıq Şəmşir tərəfindən yaradılmış səhnədə dağlar bir ev kimi, bir məskən kimi, bir ev sahibi kimi təqdim olunur, estetik harmoniyanın bütün elementləri kompleks şəkildə yerinə yetirilir. Burada həm heyvanlar (nər, maya), həm quşlar (qartal, kəklik), həm meteoroloji amillər (ağ duman), həm də insan amilləri (aşıqlar) vəhdətdə verilmişdir. Düşündürücü səhnə odur ki, sazın sehrindən insanlaşan dağlar belə həyalanırlar, ovçu qartalla ov kəklik aşıq sazının təsirindədir. Ovçu ovlamaq ehtirasını, kəklik ovlanmaq qorxusunu sazın sədalarında unudur, real həyatdan uzaqlaşaraq ülvi bir dünyaya səyahət edirlər:

Bala çağıranda meşədə əlik,
Qoca Şəmşir dinlər əlində çəlik,
Qoşulub qartala qayada kəklik,
Səsləşəndə – anam yadıma düşdü [1,s.327].

Dağlar mövzusu insan – təbiət əlaqəsinə mühüm töhfədir. Dağlar Aşıq Şəmşir üçün bir tərəfdən onu kamala çatdıran məkandırsa, digər tərəfdən məntiqi ardıcıllıqla sadalanan estetik bir zövq mənbəyidir. Gözəllik Pifaqora görə ölçülərin harmoniyasıdır ki, bu Aşıq Şəmşirdə məntiqi ardıcıllığa söykənən təbiət təsviridir. Ətəyi çaylardan su içən, ayağı göy meşə olan, nəhayət başı dumana söykənən dağların estetikcəsinə təqdim olunması dağlar mövzusuna gözəl bir nümunə ola biləcək Aşıq Şəmşir tablosu yaradır:

Mənim atam, anam, gözəl vətənim,
Məni sən yetirdin, kamala, dağlar.
Qucağında cana gəlib bədənim,
Eşqində çatmışam bu hala, dağlar.

***

Al-yaşıl geyirsən el gəzən zaman,
Ayağın göy meşə, dik başın duman,
Çatır muradına səndən pay uman,
Şəmşirəm, yetmişəm vüsala, dağlar [1,s.320].

Aşıq poeziyasında “şövqə gəlmək”, “eşqlənmək” və s. ruh yüksəkliyi yaradan estetik həzzə uyğun olan ifadələrdir. Mənası dərin sözlərin nəzmə çəkilməsi, belə şeirlərin oxunması Ustadın sanki anadan təzə olmasına işarədir.

Yuxulu bir təbi oyatdım xabdan,
Gördüm səhər ulduzunu dan təzə.
Şerini oxudum murada çatdım,
Elə bil olmuşam anadan təzə [2,s.183].

Gözəl şeir ustadın dilində aşağıda təsviri verilən bir estetik tablodur:

Deyirdim bax belə sözü, nəzmə çək,
Dağlar laləsitək surəti göyçək.
Növbahar ətirli çəmən, gül, çiçək,
Qəlbimdə açıldı ərqaban təzə [2,s.183].

Yuxarıdakı təsvirdən sonra "eşqlənmə" mərhələsi başlayır. Estetik həzzə çatan aşıq necə deyərlər sazı əlinə götürür, hər şey yenidən təzələnir. "Təzə" rədifli qoşmanın üçüncü bəndində olduğu kimi:

Qış qəhrini gəlir əldən yaz ala,
Eşqlənib aşıq ələ saz ala,
Bəlkə bu möhnətim, dərdim azala,
Həvəslənə bədən təzə, can təzə [2,s.183].

Və bu eşqlənən aşığın təbii ki, özünəməxsus geyimi olur ki, bu da həmin eşqlənməni tamamlayır:

Bülbülün qızılgülü,
Bağbanların bağı olur.
Aşığın sədəfli sazı,
Çərkəzi papğı olur [1,s.541].

İncəsənət fəlsəfə ilə də əlaqədardır. Fəlsəfə və bədiiliyin sintezi, bir tərəfdən, bir çox bədii əsərlərin fəlsəfi məzmun daşıması, digər tərəfdən, bəzi fəlsəfi əsərlərin bədii əsər şəklində yazılması ilə əlaqədardır. Sənətkar öz əsərində həyatın ən müxtəlif tərəflərini əks etdirirkən bunların mənası və inkişaf yolları haqqında da düşünür. Gerçəkliyin qanunauyğunluqları barədəki təsəvvürlərini obrazlı şəkildə həyata keçirənsənətkar istər istəməz fəlsəfi nəticələrə gəlib çıxır. Personajların dili ilə fəlsəfi fikirlər səslənir. Bəzən hətta rənglər və ya musiqi də dünyəvilik, möhtəşəmlik, əzəmət, sonsuzluq, məhəbbət və s. ifadə edərək dərin fəlsəfi ideyaları tərənnüm edir. Sırf fəlsəfi əsərlərə gəlincə isə, onların gözəl fikir ifadə etməsi artıq estetikliklə qovuşmaqdır. Əvvəllər həm tarixi (məsələn, Herodotun, Fukididin əsərləri) həm də fəlsəfi əsərlər, adətən, bədii nəsr və ya şeir formasında yazılırdı. Fəlsəfə ilə bədiiliyin sintezinin ən yüksək forması Platonun yaradıcılığında öz əksini tapır. Onun fəlsəfi dialoqları bədii forma ilə dərin düşüncənin sintezidir. Antik filosofların fikrincə, fəlsəfi-poetik təcəssüm ən böyük ümumiləşdirici qüvvəyə malikdir və yalnız ümumiləşdirici fikir əqli təzələyən əxlaqi təmizləyən gözəllik yarada bilər. Belə əsərlər daha çox bədii əsəri xatırladır. Platonun, Didronun, M.F.Axundovun və digər filosofların fəlsəfi əsərləri bu qəbildəndir.

Beləliklə, Aşıq Şəmşir yaradıcılığı əsasında estetik kateqoriyaların öyrənilməsi Azərbaycan estetik dünyagörüşünün inkişafı yolunda geniş perspektivlər aça bilər.

## 3.1. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA GÖZƏLLİK VƏ ONUN MODFİKASİYALARI

### GÖZƏLLİK

Gözəllik haqqında qədim yunan filosoflarından tutmuş müasir estetlərə qədər müxtəlif fikirlərin mövcudluğu yeni bir şey deyildir. Alman filosofu Kanta görə gözəllik xalis forma anlayışıdır. Bu, əşyanın zahirini, görkəmini seyr etməkdən doğan valehlik hissidir. Burada məqsəd, məna, xeyir, fayda axtarmaq lazım deyildir. Beləliklə, Kant fəlsəfənin əsas məsələlərində olduğu kimi, estetikada, xüsusilə gözəllik probleminin şərhində də aqnostik mövqe tutur, məzmunla formanı qarşı-qarşıya qoyur. O, gözəlliyi xalis formaya aid edir [159, 160]. Aşıq şeiri xalq fəlsəfəsinin ən nikbin şəkildə ifadə olunduğu yaradıcılıq nümunəsidir. Aşıq yaradıcılığı da digər fəlsəfi-estetik fəaliyyət sahələri kimi özündə dünyanın zəngin bədii mənzərəsini ehtiva etməkdədir. Burada şüurun gerçəkliyə münasibəti estetik kateqoriyalara uyğun bir şəkildə reallaşır və öz ifadəsini yaradıcılıq aktında tapır. Aşıq gerçəkliyi gözəllik kateqoriyaları ilə vəsf edir, onu mənalandırır və insanların mənəvi dünyası ilə əlaqələndirir. Aşıq yaradıcılığında reallıqla abstraktın, maddi ilə mənəvinin, sakralla profanın, keçmişlə müasirliyin əlaqə və münasibətləri rəngarəngdir. Bu müxtəlifliyin öyrənilməsi aşıq sənətinin estetik mahiyyətini aydınlaşdırmağa və dərk etməyə imkan verir. Aşıq yaradıcılığında maddi və mənəvi müxtəlif binar oppozisiyalar şəklində ifadə olunur: nəfs və mərifət, gözəllik və eybəcərlik, ədəb və ədəbsizlik, əxlaq və antiəxlaq və s. Eyni zamanda, bu binar oppozisiyalar təsəvvüfdən real təsəvvürə

doğru dəyişir, müqəddəslik mənası daşıyan dəyərlər öz nominal dəyərini itirmədən sakral sferadan çıxır və müasirləşir [9].

Platona görə gözəllik – hansısa ayrıca götürülmüş predmetin gözəlliyi, yaxud gözəl predmet deyil, bu predmet və hadisələrin bütöv bir qisminə aid olan, onların hamısını əhatə edən ən ümumi bir cəhətdir [197].

Platona görə ruhlar cisimlərdən, ideyalar isə ruhlardan daha kamildir. Ona görə də, estetika yalnız cisimlərlə məhdudlaşmağı özünə rəva görə bilməzdi. Çünki ruhların və ideyaların gözəlliyi cisimlərin gözəlliyindən daha üstündür [65]. Elə buna görə də Aşıq Şəmşir fəlsəfəsində cismani gözəllik sonda ruhi, ideya gözəlliyinə yüksəlir:

Müjdə olsun sizin elə, mahala,
O yerdə çatıbsan sən bu cəlala.
Qaşların qələmdi, yanağın lala
Gözlərin yaranıb piyala, Zinyət [3,s.102].

Antik estetikanın əsas terminlərindən olan kalokaqatiya (yunanca “kalos” – gözəl, “aqathos” – yaxşı, mənəvi cəhətdən kamil) fərdin gözəlliyinin əsas şərtini onun xarici və daxili cəhətlərinin vəhdətində görürdü [164].

Əsil el sənətkarlarının dilində estetik gözəllik əxlaqi dəyərlərdən ayrı təsəvvür olunmur və bu gözəllik əxlaqi dəyərlərlə dərin bir vəhdətdədir.

Aşıq Ələsgər qoşmalarına “başqasına aid olana, məxsus olana göz dikmək haramdır” Qurani-Kərim müddəası hakimdir:

Ələsgərəm hər elmdən halıyam
Gözəl sən təbibsən, mən yaralıyam.
Dedi nişanlıyam *özgə malıyam*
Sındı qol-qanadım yanıma düşdü [17].

Aşıq Şəmşir poeziyasında da gözəllik islam əxlaqı ilə yanaşıdır. "Özgəyə aid olan hər bir şeyə-canlı və ya cansıza – göz dikmək haramdır" müddəası həmişə öndədir:

Eşq atından düşən qalır piyada,
Şəmşiri unutma hərdən sal yada.
*Özgənin malısan*, a mələkzada, –
Əzəldən olaydın bizim, gözəl qız [3,s.51].

Aşıq Şəmşir yaradıcılığında gözəlliyə münasibətdə utilitar marağa az təsadüf olunur. Bu utilitar marağı həyata keçirmək üçün "hiylə"yə, "fitnə"yə, "yalan"a əl atılmır:

Laləyanaq, gəl başına dolanım,
Sənə olmaz *hiylə, fitnə, yalanım*.
Pərvanə tək atəşinə qalanım,
Görünsün külümdə gözüm, gözəl qız [3,s.51].

Aşıq Şəmşir yaradıcılığında gözəllik təkcə zahiriliklə bitmir, gözəllik həm də etik dəyərləri özündə ehtiva edir. Ritorik sualla – "Bilirsən gözəlin gözəldi nəyi?" – oxucusunu səfərbər edir. Sonra gözəlliyin dəyər ölçülərini bir-bir sadalayır:

Bilirsən gözəlin gözəldi nəyi?
İnsanlığı, *mərifəti* gözəldi.
*Doğru qəlbi, pak ürəyi, düz sözü,*
Xoş sifəti, xasiyyəti gözəldi [3,s.198].

Kantın "gözəllik xalis formadır" müddəasına uyğun olaraq bu məqamda Nizami yaradıcılığında gözəllik kateqoriyasının əsrarəngiz təsvirini vermək, misraları yada salmaq pis olmazdı:

Gümüş bir qılıncdır burnu, sanasan
Bölmüş bir almanı düz ortasından.
Yüz ipək örtüyü yırtmış ay üzü,
Ayda olan ləkə yoxudur, düzü [138,s.65].

Üzü Nizamidən bəri Azərbaycan şeirində füsunkar gözəllik həmişə qrasiya ilə müşayiət olunur:

Əfsanəyə bənzər o çöl, o çəmən,
Bəzənib nar döşlü şux sənəmlərdən.
Qamətləri sanki sərvdir qıvraq,
*Yeriş-duruşları qırqovul sayaq* [138,s.65].

Antietik dəyərlərin estetik zövq yaratması da araşdırma mövzusu ola bilir. Bu cür zövqyaratma nümunəsi kimi Nizami [138] və Səməd Vurğun şeirləri diqqətəlayiqdir:

Ox atmaq yerinə, kaman qaşları
Atırdı naz, qəmzə hədəfə sarı.
Qəmzəsi davaya hazırsa hər an,
Yüz sülh görünürdü hər baxışından [138,s.136].

*Zalım cəllad* olub durub qəsdimdə,
Qələm qaş altından piyalə gözlər [160]

O pəri cilvəli, zərli, ipəkli,
O gümüş gərdənli, o *daş ürəkli* [138,s.181].

Bədii ədəbiyyatda antietik dəyərlərin estetik zövq yaratmasına aşıq şeirində daha çox təsadüf olunur. "Nainsaf, bimürvət, zalım" anlayışlarını gözəllərə aid etmək, gözəllər tərifindən də sevilmək ziddiyyətini yaratmaq Ustad sənətkarlara aid olan, xalqın yüksək söz anlamına malik olmasından irəli gəlir. Bir başqa xalqların ədəbiyyatında bu cür antietik kateqoriyalarla estetik zövq yaratmaq təbii ki, az təsadüf olunur:

*Nainsaf, bimürvət, zalım gözəlim,*
Sənsən mənim sevgim, axır-əzəlim.
Qulluğunda bəs nə qədər nəzəlim,
Di bax, gör Şəmşirin bir tabı varmı?! [2,s.335].

Məşhur rus esteti Yuri Borev [172] yazır: "Gözəllik obyektivdir, çünki o, bu və ya digər fərdin qavrayışından yox, predmetin insanlıq üçün real dəyərliliyindən asılıdır. Bu estetik xassə ictimai xarakter daşıyır. Çünki o, maddi və mənəvi həyatla şərtlənir, bu proses isə bizi əhatə edən bütün dünyanı adamların fəaliyyət sahəsinə daxil edir və hər bir predmetlə bəşəriyyət arasında müəyyən münüsibət yaradır. Deməli, gözəllik-hadisənin ən geniş müsbət ictimai-mənəvi əhəmiyyəti, bəşəriyyət üçün onun pozitiv dəyəridir".

İnsan gözəlliyini təbiət gözəliyi ilə müqayisə etmək, nitqi tuti ləhcələrilə tutuşdurmaq, qrasiyalı gözəlliyi əxlaqi keyfiyyətləri ilə yanaşı canlı lövhə yaratmaq Aşıq Şəmşir şəxsiyyətinə xasdır. Nəvəsinə həsr etdiyi "Qızına" müxəmməsində olduğu kimi:

Cənnət bağında saçılan,
Sanki qızılgüldü, balam.
Ətir edir bənövşə kimi,
Süsəndi, sünbüldü balam.
*Tutiləri heyran edir,*
Elə şirindildi balam.
Duruşu, boy-büsatı,
Gör, necə gözəldi balam.
Doğrudan zatəkliyi
Dönüb peyğəmbər qızına [2,s.533].

Sələfləri kimi qrasiyalı gözəllik Aşıq Şəmşir şeirlərində də öz yerini alır. Molla Pənah Vaqifdə [119] qrasiya "qeyri-əlamət" kimi anlaşılırsa:

Hər yetən gözələ gözəl demərəm,
Gözəldə bir *qeyri əlamət* olur [43].

Bu qeyri-əlamət Aşıq Ələsgər [17] dilində "işvə-naz" hesab edilir:

Hər yetən gözələ gözəl demərəm
Gözəldə gərəkdi *işvə-naz* ola.

Gözəlliklə bağlı Vaqifdəki qeyri-əlamət, Aşıq Ələsgərdə işvə-naz, elə Nizamidəki [138,s.231] Keyxosrovu məğlub edən nazdır:

Lakin o gözəldə elə *naz* vardı,
Keyxosrov da gəlsə məğlub olardı.

Aşıq Şəmşirdə isə bu qeyri-əlamət "oğrun gülmək"dir, həm də "naz" deyilən qrasiya müəyyən həddə olmalıdır (hərdən elər naz). Ustad "qrasiyanın çoxluğu şitliyə, məzmunun pozulmasına gətirər" fəlsəfəsini ortaya qoyur:

Qələm-dəftər alıb ələ,
Yaza dərdim, düşə dilə.
Baxa oğrun gülə-gülə,
Hərdən elər naz, nə yaxşı [2,s.470].

Şəmşir, əgər belə demək mümkünsə, gözələ Vaqif gözü ilə baxır. O da özünü "məhəbbət yorğunu" adlandırır; o da hər yetən gözələ gözəl demək istəmir. Onun fikrincə, gözəllik- namus, ismət, əxlaq saflığı ilə əkiz olmalıdır ki, bu da ağılla, kamalla bağlıdır. Buna görə də o, gözələ verdiyi nəsihəti belə bir tövsiyə ilə ümumiləşdirir:

Səndə ki, var hüsn-camal,
Onu daim saxla halal.
Azalmasa ağıl, kamal,
Ucalacaq başın sənin.

"Pərvanə tək atəşə qalanmaq" ifadəsi sufi mütəfəkkirlərinin dilində həmişə səslənmişdir. Atəşə qalanmaq cismin

və ismin itirməklə Haqqa qovuşmaq anlamındadır ki, Aşıq Şəmşir poeziyasında da bu ifadənin öz yeri var:

Şair sən görəndə de qələm qaşa,
Hər gizli sirrimi o düşər başa.
Pərvanələr təki yanan ataşa,
Görən varmı bu dünyada mənim tək [3,s.138].

Avropada İntibah dövründə qrasiya estetikanın müstəqil kateqoriyası kimi təşəkkül tapır. Qrasiyanın mahiyyəti haqqındakı fikirlər çox müxtəlifdir. Bir qisim estetiklərə görə qrasiya mənəvi gözəlliyin, qəlbin gözəlliyinin, xeyirxahlığın zahiri əlamətlərdə hərəkətinin ifadəsidir. Başqa bir qismi isə qrasiyanı yalnız qadınlara məxsus bir keyfiyyət kimi qiymətləndirirlər. Digər estetiklər isə qrasyanı zərifliklə eyniləşdirib onu bütün təbiət gözəlliklərinə, yəni həm canlı, həm də cansız aləmin gözəlliklərinə aid edirlər.

Qrasiya ingilis alimi Con Lokkun analizində insanın bütün əməllərində və hərəkətlərində biruzə verən daxili gözəllikdir. Alman estetiki Fridrix Şiller yazırdı: “Məhz gözəl qəlbdə hissiyyat və ağıl, vəzifə və meyllər harmonik şəkildə birləşirlər və qrasiya isə onun təzahür edən ifadəsidir”.

Aşıq Şəmşir poeziyasında gəzəllik qərəzsizdir, orada tamaha, ehtirasa, özü demiş “xain xəyal”a yer yoxdur. Qrasiyalı gözəllikdən yazır ustad aşıq:

Əmrini yerinə yetirdi Şəmşir,
Zatı pak, təmizəm pir oğluyam, pir.
Şəninə layiqdi dediyim şeir,
Düşən olmaz xain xəyala, Zinyət [3,s.102].

Növbəti misralarda əsil esteik zövqdən danışır:

Bir təhrin tərlandı, bir təhrin laçın,
Telinə yaraşır zərdən araqçın.
Dağların kəkliyi ağca göyərçin,
Bənzəyir oxşarın marala, Zinyət [3,s.102].

Qrasiya Aşıq Şəmşir şeirlərində gözəllik timsalı sayılan canlılarla müqayisədə verilir. Əxlaqi dəyərlər (Yüz min gözəl olsa gəlməz eynimə) qrasiyalı gözəlliklə birgə təqdim olunur:

Yüz min gözəl olsa gəlməz eynimə,
A şirin söhbətim, sözüm gözəl qız.
Maral baxışına mail olmuşam,
Doymur gözlərindən gözüm, gözəl qız [3,s.51].

Aşıq Şəmşir üçün estetik zövqün zirvəsi hesab olunan katarsis özünəməxsus xalq dilində səslənir:

Ey can alan, sənə deyim dərdimi,
Oxu bir tərəfdən, yaz bir tərəfdən.
Qiyqacı baxışın alır taqətim,
Qəmzə bir tərəfdən, naz bir tərəfdən [3,s.57].

"Taqətin alınması" estetik zövqdən xəbər verir ki, bu da "qıyqacı baxış", "naz", "qəmzə" kimi qrasiya elementləri ilə müşayiət olunur.

Aşıq Şəmşir şeirində qrasiya həm də gözəlin danışığındadır. Melodik nitq, şirin danışıq hərəkətdə olan gözəlliyə səbəb olur:

Mənimlə yad olma sən indən belə,
Bülbül sənə müştaq, sən də bülbülə;
Bir danış, heyranam, yar, şirin dilə.
Seyraqub dinməsin tez bir tərəfdən [3,s.57].

Qrasiya klassik estetikadakı şərhə görə həmişə “gözəlliyin hərəkəti, yaxud hərəkətin gözəlliyi” kimi başa düşülür və bu, doğrudan da belədir. Ümumiyyətlə, qadını həm gözəllik əlamətlərinə, həm də süzgün hərəkətlərinə görə bəzi gözəl heyvanlara: sonaya, marala, tovuza, göyərçinə, kəkliyə, quzuya və s.oxşadırlar [65]. Heç də təsadüfi deyildir ki, hələ XII əsrdə dahi Nizami əsərinin qadın qəhrəmanına “dağ kəkliklərinin” qibtə etməsini dilə gətirir:

Xəcalət çəkirdi ondan müştəri,
Yerişinə heyran dağ *kəklikləri* [138,s.310].

XVIII əsrdə isə Molla Pənah Vaqif şeirində “kəklik” kimi səkən gəlin hamını mat qoyur:

Mat qalıb desinlər: kimindir ola
*Kəklik* kimi səkib, bu süzən gəlin! [3,s.76].

XX əsrdə Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndəsi Aşıq Şəmşir qoçaqlıq, zirəklik timsalı “laçın”, “tərlan”la yanaşı qrasiya yaradan “göyərçin” və “maral”ı da gözəllik tablosuna əlavə edir:

Bir təhrin tərlandı, bir təhrin laçın,
Telinə yaraşır zərdən araqçın.
Dağların *kəkliyi* ağca göyərçin,
Bənzəyir oxşarın marala, Zinyət [3,s.102].

Azərbaycan esteti Hüseyn Əlizadə yazırdı: "Avropa dillərində işlədilən qrasiya termininə Azərbaycan dilində daha çox "süzgünlük" termini uyğun gəlir. Süzgünlük həm qrasiyanın, həm də naz-qəmzənin səciyyəvi cəhətlərini xarakterizə edən bir məfhumdur. Ümumiyyətlə, qadını həm gözəllik əlamətlərinə, həm də süzgün hərəkətlərinə görə bəzi gözəl heyvanlara: sonaya, marala, tovuza, göyərçinə, kəkliyə, quzuya və s. oxşadırlar:

Sinəsi bəyaza, boyu şahbaza,
Qəddi quba qaza, o sərvinaza.
Təzə bahar, yaza, şirin avaza,
Gözəllikdən barat alana qurban [3,s.124].

Ovsunçuyam qoy əlimə mar alım,
Zənbur kimi ləblərindən mar alım.
Bir alagöz, sərxoş baxış maralım,
Qaçıb, Kəlbəcərin obasındadı [3,s.134].

Qrasiyanın poeziyada özünə yer alması Azərbaycan şeirinin başlıca xüsusiyyətlərindəndir. Hələ Nizami [141] qrasiyaya aid "süzgün", "qəmzəli" kimi estetik terminləri zamanında işlətmişdi:

Sanki bir sərv imiş, yetirmiş çəmən
Telləri bənövşə, çöhrəsi səmən.
Camalı parlaq bir Günəşdən təmiz,
O *süzgün* gözləri *qəmzəli* nərgiz!

Aşıq Şəmşir şeirində gözəl hərəkətdə olanda qrasiya yaranır.

Şəmşiri salmısan dağa, arana,
Sənin kimi gözəl çətin yarana.
Tovuz kimi gərdən çəkib durana,
Gözləri yolumda qalana qurban [3,s.124].

Qrasiyanı hərəkətdə olan gözəllik adlandırırlarsa, Aşıq Şəmşir şeirində gözəl hərəkətdə olarkən, iş görərkən qrasiya yaranır:

Mən istərəm gülə, göz-qaş oynada,
Qara xallar nöqtə kimi, boy nida.
Bulaq üstdə samavarı qaynada,
*Ağ barmağa qızıl maşa yaraşır* [3,s.126].

İlahidən insana verilən gözəlliyin qədrini bilməyə, gözəllərimizi gözəlliyin qarşısında təkəbbür etməməyə çağırır:

Can qurban edəsən bu şirin dilə,
Şəmşir gərək, gözəl, qədrini bilə.
Çəmənə, çiçəyə, gülə bükülə,
Büllur bədən al qumaşa yaraşır [3,s.126].

Azərbaycan aşıq şeirində qadın gözəlliyi qrasiyasız təsəvvür olunmur. Şəmşir təsadüfən yazmırdı:

Bir gülyanaq, bir qələmqaş,
Yanımızdan gəldi, getdi.
Ürəyimə saldı atəş
*Gözlərindən güldü***,** getdi [3,s.312].

Aşıq Ələsgər [17] şeirində də əvvəl qrasiyasız gözəllikdən söhbət gedirsə, sonda qrasiyalı gözəllik özünə yer alır:

Gözəl sana məlum olsun,
Həsrətindən yanıram mən.
Ala gözlər süzüləndə,
Canımdan usanıram mən.

Candan usanmaq elə katarsisə çatmaq anlamındadır ki, başqa bir yerdə Aşıq Ələsgər [17] “ala gözün süzülməsi”, “asta-asta qədəm basması” ilə qrasiyalı gözəllik yaradır:

Qədəm qoyub asta-asta,
Sən bu diyara xoş gəldin!
Süzdürüb ala gözləri,
Qaşları qara xoş gəldin.

Gözəlliyi qrasiya ilə verə bilmək Azərbaycan aşıq poeziyasının mühüm xüsusiyyətlərindəndir ki, “Gözəllər” rədifli qoşmada Aşıq Alı [16] gözəlləri estetikcəsinə tərif və təsvir edir:

Mina gərdən, incə beli görməsəm,
Qönçədəhan, şəkər dili görməsəm
Qələmqaşı, siyah teli görməsəm
Tərk eylərdim bu avazı, gözəllər [16].

Çeşmə kənarında gərdən çəkəndə,
Heyran qoyur quba-qazı gözəllər [16].

İtalyan estetiki Anolo Firensuola 1541-ci ildə yazdığı "Qadın gözəllikləri haqqında" əsərində qadın gözəlliyinin əsas əlamətlərini aşağıdakı kimi təsvir edir: "Qoy dodaqlar həddən çox nazik və həddən çox qalın olmasınlar. Dişlər kiçik, kvadrat, düz olmalıdırlar, lakin çox xırda yox, parlaq ağ, ən əsası isə fil sümüyünə oxşar olmalıdırlar. Boyun yumru, düzgün, hamar və ləkəsiz olmalıdır. Daha çox xoş gəlir zərif və oynaq dərisi ilə yanaşı uzun boyun, nəinki qısa. Döş hər şeydən əvvəl ağ olmalıdır. Orada bütün il ərzində bənövşələr çiçək açır, orada qızılgüllər yanvarda gül açır, orada avqustda qar olur. O döş gözəldir ki, sümüyü görünməyəcək qədər dolu olsun... Barmaqlar uzun, oynaq, zərif və uca tərəf getdikcə azca nazikləşən, lakin elə az ki, baxanda güclə hiss olunsun. Dırnaqlar şəffaf və yaquta oxşar olmalıdırlar... Bütün əl isə bütövlükdə zərif bir təmiz ipəyi, yaxud zərif pambığı xatırlatmalıdır" [65]. Gözəllik, onun təsviri estetiklik hələ Nizami [142] şeirlərində zamanında təsvir olunur, qərəzsiz gözəllikdən söhbət açılır:

Gördü bir afətdir xəyaldan uzaq,
Bir nur qaynağıdır Günəşdən parlaq [142]

Dodağı bazara salır fitnələr,
Üstünə tökülmüş xalvarla şəkər.
Açılmış çəməndir onun qucağı,
Güllərə örnəkdi dilbər yanağı [142]

Azərbaycan aşıq şeirində qadın əzaları Allahın biz bəndələrə bəxş etdiyi təbiət ünsürləri ilə müqayisə olunur. Bu müqayisədə qərəzsiz estetika füsunkarlıqla çulğalaşır:

Hüsnü lalə, sinəsi qar,
Qoynu cənnət, məməsi nar.
Qucağında şamama var,
Ətri canım aldı getdi [3,s.312].

Qənd əzilib, bal qatılıb dodağa,
Xallar xətt olunub lalə yanağa,
Nərgizi sinəyə, gülü buxağa
Bəzə bir tərəfdən, düz bir tərəfdən [3,s.57].

Aşıq Şəmşir yaradıcılığında bənövşə xalı, gül və qızılgül buxağı, al rəng və lalə yanağı xatırladır:

Şəmşir söylə tərif ona yaraşır,
Tər bənövşə yanağına yaraşır.
Qızılgüllər buxağına yaraşır,
Bərq vurur üzündə alı Kəkliyin.

Gözəl obyektlərin seyri zamanı onlara qarşı subyektdə maraq, həvəs, istək arzusu yaranarsa, belə gözəllikləri füsunkar gözəllik adlandırırlar və bu, cox təbii haldır. Yəni füsunkarlıqda təmiz estetik hisslə yanaşı, onunla paralel

utilitar (faydalanmaq) maraq da doğurur. Gözəllik insana mənəvi həzz verdiyi halda, füsunkarlıq ona həm də fiziki ləzzət verir. Aşıq Şəmşir poeziyasında yeri gəldikcə füsunkarlıq kateqoriyası işlənsə də, bu aparıcı rola malik deyildir. "Söhbət bir tərəfdən, söz bir tərəfdən" deməklə "gözəllik sözdədir, nitqdədir" müddəasını yaradır:

Al başım qoynuna, bulanım tərə,
Qoy batım, qərq olum müşkə, ənbərə,
Məsləhət-məşvərət gəlsin bir yerə,
Söhbət bir tərəfdən, söz bir tərəfdən [3,s.57].

Molla Pənah Vaqifin isə sırf füsukarlıqla bağlı lətif qoşmaları var ki, onun irsi bu gün də davam etdirilir:

Sinən çəməngüldü, buxağın lala,
Qaymaq dodaqların bələnib bala,
Qonub bənövşələr üzündə xala,
Şamamalar yatıb tağa, Gülbəniz [3,s.224].

Bəzən də Aşıq Şəmşir şeirində qrasiyalı gözəlliklə füsunkar gözəllik qoşalaşır. "Öldür" rədifli qoşmasında olduğu kimi:

Deməndimmi qan eləmək günahdı,
Qız, məni gözünən, qaşınan öldür.
Ya vur, əz başımı ağ məmən ilə,
Ya vur ağacınan, daşınan öldür [3,s.199].

"Gəlin" rədifli gəraylıda gözəlliyin füsunkarlıq baxımından qiymətləndirilməsinin şahidi oluruq:

Şəmşir yanar ocağında,
Pərvanə tək çırağında.
Qoy can verim qucağında,
Əlim dəysin nara gəlin [3,s.302].

Füsunkar gözəllik təkcə insanlara deyil həm də təbiətə yönəlir. Bulaqların "yarpızlı" buz kimi içməli suyu fiziki cəhətdən zövqə səbəb olursa, bulaqların dağların sinəsində "axması, daşması" isə qrasiya yaradır:

*Bəzəklidir* yaylaqları,
*Füsunkardır* oylaqları,
Yarpızlı buz bulaqları
*Axar, daşar* sinəsində [3,s.335].

Folklorşünas alimimiz Qəzənfər Paşayev Ustadın şeirlərinəki təbiət təsvirlərini özünəməxsus bir şirin dillə oxucularına ünvanlaya bilir. Bədii ədəbiyyatın incəsənətin digər növləri ilə müqayisədə güclü təsirini bir daha Aşıq Şəmşir poeziyasında anladır: "Aşıq Şəmşirin təbiət lirikasından söz açmaq istərdim. Mənə belə gəlir ki, ömründə Kəlbəcəri görməyən adamın belə ustadın təbiət lirikası ilə tanışlıqdan sonra gözləri önündə bu füsunkar diyarın təbiəti istedadlı bir rəssamın fırçasından çıxan heyranedici rəsm əsəri kimi canlanacaqdır. Həqiqətən də Aşıq Şəmşirin təbiəti vəsf edən şeirlərini oxuduqca heyran olmaya bilmirsən" [93].

Hissələrin bir-biri ilə və tamla uyğunluq təşkil etməsi harmoniya adlanır ki, bu da hissələr arasındakı incə və dəqiq rabitə ilə şərtlənir. Deməli, gözəlliyin predmetlərdəki

obyektiv əsasını harmoniya təşkil edir. Hegel harmoniyanı "keyfiyyət müxtəlifliklərinin uyğunluğu" kimi təqdim edir. Başqa sözlə, gözəllik təkcə təsvir olunan obyektlərlə məhdudlaşmır. Gözəllik bir də aşığın yaratdığı şeirlərlə özünü biruzə verir. Hər bir şeir özlüyündə estetik dəyərlər daşıyıcısına çevrilir. Bu şeirlərdəki ölçü, harmoniya sonda əsrarəngiz gözəllik yaradır. Harmoniyanın yaranması isə nitq vahidləri arasındakı düzgün, dəqiq, mübahisəsiz rabitə ilə əlaqədardır. Gözəllik yaratma baxımından təcnis şeir forması etalon olmağa layiqdir. Müxtəlif nitq vahidlərinin əsrarəngiz şəkildə Aşıq Şəmşir şeirində rabitəliliyi estetik gözəllik haqda yuxarıda söylənilən fikirləri təsdiq edir. "Yaxala məni" rədifli təcnisində olduğu kimi:

Olmadı qismətim ata-anadan,
Gəzmədi ya bibi *ya xala* məni.
Ürəyimi yaralama, a nadan,
Az yapış sinəmdən, *yaxala* məni.

Qoy işləsin, nə çərximi dayandır,
Əlin saxla, insaf elə, dayan, dur.
Ya rəhmə gəl, yandırırsan da yandır,
Alışdır odlara, *yax ala* məni [3,s.275].

Nə gözəldi bu dağlarda *mənzərə,*
Ver naməni sizin mələk *Mənzərə.*
Sərrafısan, müştəri ol *mən zərə,*
Sal qızıl teştinə *yaxala* məni [3,s.275].

Yollarında var uçurum, yarğanım,
Söylə nədir sənin meylin, yar, qanım.
Müjganınla az axıtsan, yar, qanım,
Həna et ya ələ, *ya xala*, məni [3,s.275].

Başqa bir qoşmada harmoniya canlı və cansız təbiətlə, eləcə də insanla bağlı yaradılır:

Bədənin mərmərdir, ipəkdən gözəl,
Gözü Bülqeyisdən, Göyçəkdən gözəl.
Lalədən, nərgizdən, çiçəkdən gözəl,
Tovuzlarda olan nişana bənzər [3,s.223].

Gözəllik özünün estetik xüsusiyyətləri ilə yanaşı aşıq poeziyasında insana xas olan əxlaqi dəyərlərin qavranılmasından, dərk edilməsindən alınan estetik zövqdür. Bu cür dərk olunan gəzəlliklərə ən çox aşıq poeziyasında rast gəlinir ki, bu da aşıqların dilində hər şeyin sətiraltı ifadələrlə yox, elə xalqın ruhuna uyğun, açıq mövqedən bildirilməsidir:

Namərd olan dostluq edər var gündə,
İgid olan dada yetər hər gündə.
Şəmşir, sən də mərdi çağır dar gündə,
Sığınasan mərd insana, gözəldi [3,s.171].

Professor Mehdi Məmmədov [111; 112] yazırdı: "İnsanın gözəlliyi ağıldan, kamaldan, xeyir və nəcib əməllərdən, həqiqət və ədalət meyllərindən ayrı ola bilməz. Bu keyfiyyətlər olmayan yerdə zahiri göyçəklik, görkəmin qəşəngliyi gözəllik hesab edilə bilməz. Çünki gözəl olmaq,

həm də çirkin əməl tutmaq, gözəl olmaq, həm də insafı, vicdanı, ədaləti ayaqlamaq, nəhayət, gözəl olmaq və eyni zamanda tərbiyədən, əxlaqdan və ismətdən naqis olmaq, yoldaşa və dosta, xalqa və cəmiyyətə, əqidəyə və məsləkə xain çıxmaq, cinayət işlətmək bir araya sığan iş deyil. Belə əməlləri öz təbiətinə sığışdıran adamlar zahirən yaraşıqlı və göyçək olsalar belə, bizi cəlb edə bilməzlər. Belələri bizi aldada bilər, lakin tez ya gec onların gözəl görkəmi ardında gizlənən çirkin mahiyyəti görüncə, biz onlardan üz döndərərik. Əksinə, insanlıq mahiyyəti gözəl olanların zahiri göyçək olmasa da, onları tanıdıqca, təbiətlərinə bələd olduqca, bizi cəlb edirlər. Çünki biz onlarda həyat və insanlıq haqqındakı təsəvvür və ideyalarımızın ayrı-ayrı nişanələrini, bəzən isə bitkin təcəssümünü tapırıq".

Aşıq Şəmşirin "Köynəkləmişdi" rədifli qoşmasında gözəllik və onun modifikasiyası olan ***ülvilik*** ciddi bir şəkildə qələmə alınmışdır.

Bu qoca təbiət uca dağları,
Ağ qara bürüyüb, köynəkləmişdi.

Bulaqlar buz tutub, çaylar qarqara,
Külək gədikləri bağladıb tara.
Yer donub, bərkiyib, dönüb mismara
Zimistan qəhrini gerçəkləmişdi [3,s.169].

Burada bu gün dünya estetləri arasında mövcud olan fikir ayrılıqlarına cavab vermək şansı yaradan elmi mənbələr mövcuddur. Belə ki, yuxarıda təsvir olunan, "zimistan" kimi təsvir olunan qışda bir faciə gizlənir, bir qış amansızlığı gizlənir. Bu fikirlər Aşıq yaradıcılığında mü-

hüm yer almışdır. Heç kim yuxarıda təsvir olunan gözəlliyin içində olmaq istəmir. Amma uzaqdan bu gözəlliyin seyrinə dalmaq hər kəsə zövq verir.

Aşığın poeziyasında ülvilikdən gözəlliyə keçidlər mövcuddur. Üst-üstə buz layları – qarqaradan nazik buz təbəqəsi – aynaya, sonra ağ yağışa keçid buna parlaq misaldır:

Dumandan ağ yağış yerə çiləndi,
Tamam göy yaylaqlar nura bələndi.
Buludlar kişnədi, yer silkələndi,
Suların aynası çiliklənmişdi [3,s.169].

Zimistandan sonra ilk baharın təsviri gəlir. Artıq qışın qorxu qarışıq ülvi gözəlliyi yerini behişti xatırladan yaza, əsil gözəlliyə vermışdir:

Qımışanda ilk baharın dodağı,
Behiştə döndərdi aranı, dağı.
Şeh tutanda bənövşəni, yarpağı,
Qərənfil, nərgiz də çiçəkləmişdi [3,s.169].

Bahar fəslində çöllər Ustada görə gəlin timsallı bir gözələ bənzəyir, bu gözəlsə cuna təkin ağ gərdək arxasındadır. Bu məqamda yenə də ekoloji ünsürlərin insanlaşmasının, insan – təbiət dialektik vəhdətinin sehrinə düşürük:

Dağların qucağı ana misalı,
Arif gərək bilə, qana misalı.
Kalağay təhəri, cuna misalı,
Çən yatıb çölləri gərdəkləmişdi [3,s.169].

Dağların yaratdığı estetik zövq aşığın dilində ata-ana qədər əzizdir. Dağların seyrindən alınan zövq "bir tikə ürəyi dağa döndərir" misalındadır:

Bir tikə ürəyim döndü bir dağa
Gözümə göründü gözü Kəpəzin.
Məhəbbətli ana kimi görkəmi,
Bir ata oxşarlı özü Kəpəzin [3,s.193].

Estetikada haqqında söhbət açdığımız katarsis hadisəsi aışq yaradıcılığında "eşqin", "vüqarın" artması kimi anlaşılır:

Baxanda Murova, Çilgəzə sarı,
Şəmşirin çoxalır eşqi, vüqarı,
Qoy qalsın sözlərim yadigar barı,
Yazılsın köksünə yazı, Kəpəzin [3,s.194].

Əzəmət timsalı dağlar Aşıq Şəmşir şeirlərində "insanlaşır", doğmalaşır:

Mənim atam, anam, qardaşım, bacım,
Cənnətim, behiştim, şöhrətim, tacım,
Əgər oxşatmasam yoxdu əlacım,
Ağ buludlu papağına Murovun [3,s.231].

Növbəti misrada dağların "insanlaşması" fikri açılır. Məlum olur ki, Murov dağı aşığın yaxınlarının, doğmalarının son məkanı, son mənzili, qəbir evidir:

Qoy səndən düşməsin kənar məzarım,
Düşsə Vətənini anar məzarım,
Alışar məzarım, yanar məzarım,
Qarışmasa torpağına Murovun [3,s.232].

Vüqar, əzəmət, məğrurluq, müqəddəslik timsalı dağlar Dədənin "Murovun" rədifli qoşmasında gözələ bənzədilir. Təkcə aşağıdakı bənddə ilin bahar fəsli (zaman), gözəlin (dağların) bəzək əşyaları-sırğaları (bənövşə, nərgiz) harmonik bir şəkildə, üzvi vəhdət halında verilmişdir:

Bağlıdı varlığım, ürəyim dağa,
Salmasın nəzərdən məni irağa,
Bənövşə, nərgizi eyləyib sırğa,
Bahar asır qulağına Murovun [3,s.232].

Dədə Şəmşirin zimistan deyə müraciət etdiyi qış fəslində dağların estetikcəsinə təsviri ülvi gözəlliyə bariz nümunədir. Gümüşə bənzədilən qarlı dağların, amansızlıq içərisində dağlarda yaşayan və o dağları tərk etməyən vəfalı canlıların (qartal, kəklik, maral) uzaqdan seyri gözəlliyin ülvilik kateqoriyasına bariz nümunə olur:

Zimistan bürünür ağ libaslara –
Xalis xam gümüşdü – baxırsan hara.
Hörmətli tutmuşam ata-anadan,
Olub məhəbbətim yüz bu dağlara [3,s.96].

***

Beş ay qucağında qış qalır qonaq,
Qartal küskün olur, kəklik bidamaq,

Boran yağır, aman vermir boğanaq,
Maral sala bilmir iz bu dağlara [3,s.96].

Ülviliklə bağlı dünya estetlərinin fikirləri ilə üst-üstə düşən məqamlar olsa da Aşıq Şəmşir şeirlərində ülvi gözəllikdən qorxma yox, ülvilik yaradan təbiətə münasibətdə sevgi notları üstünlük təşkil edir:

Köçüb payız, düşəndə qış,
Gəzməyə aran yaxşıdı.
Qayaları üşütməsə –
Dağda qar, boran yaxşıdı [3,s.348].

"Dağda qar, boran yaxşıdı" ifadəsi ülviliyə verilən təriflərin, estetik gözəlliklə bağlı fikirlərin hələ də ziddiyyətli olduğunu göstərir:

"Yazaq" rədifli qoşmada qadın gözəlliyi bütün modifikasiyaları ilə – qrasiyası ilə, ülviliyi ilə, estetik şüurun bütün komponentləri ilə üzə çıxır. Qoşmanın elə ilk bəndində Ustad estetik şüurun formalaşmasında, onun təsvirində sözün rolunu önə çəkir. "Könül açan şirin sözlər"lə gözəllik, estetiklik öz əksini tapır:

Salma xəyalının qəm dəryasına,
*Könül açan şirin sözlərdən* yazaq.
Lalə yanaqlıdan, bal dodaqlıdan,
Qələm qaşlı ala gözlərdən yazaq [2,s.286].

Söz adamı, söz sənətkarı Aşıq Şəmşir üçün gözəllərin əsas gözəlliyi yenə də sözə söykənir. "Lalə yanaq", "bal dodaq", "qələm qaş", "ala göz", "mina gərdən", "nazik bə-

dən, incə bel", "müjganları kaman", "kəsmə tel" kimi estetik zövq elementləri "tuti ləhcə, şəkər dil"lə sonuclanır.

Mina gərdən, nazik, incə bellidən,
Müjganları kaman, kəsmə tellidən,
*Tuti ləhcəlidən, şəkər dillidən,*
Növrəstə, gülbuxaq qızlardan yazaq [2,s.286].

Qoşmanın digər bəndində füsunkar gəzəlliyə keçid edir. Belə ki, Ustad "Tuti ləhcə" və "şəkər dildən" "siyah zülfə", "dəhandakı əsələ", "ləblərdəki qəndə" keçir.

Siyah zülfü hər yanında bir kəmənd,
Arif, kamal həmi olsun dərdi bənd,
Dəhanında əsəl, ləblərində qənd,
Alma tək qırmızı üzlərdən yazaq [2,s.286].

Qoşmanın dördüncü bəndində Dədə gözəlliyin qrasiya adlı modifikasiyasına (duruşda, baxışda maral), estetik komponentlərə estetik həzzə (xəstəhal olmaq) yer ayırır:

Duruşda, baxışda bir maral olsun,
Qoy onu görənlər *xəstəhal* olsun,
Gözdə sürmə, ağ üzündə xal olsun,
Ovçu salsa, belə izlərdən yazaq [2,s.286].

Nəhayət, gözəlliyin bütövlüyü, tamlığı sözlə, etik dəyərlərlə (etibar, ilqar) sonuclanır:

Qəlbində sədaqət, gözdə məhəbbət,
Söhbətdə məhəbbət, *sözdə* məhəbbət,

Şəmşir deyir: çoxdur bizdə məhəbbət,
*Etibar, ilqardan,* bizlərdən yazaq [2,s.286].

Gözəllərin estetik təsviri Aşıq Şəmşirin həm gənc yaşında, həm də qocalıq dövründəki şeirlərində öz şuxluğunu itirmir. "Aşıq" qoşmasındakı kimi:

Gözəllərə nəzər etmə uzaqdan,
Meylini kəs zərif, incə buxaqdan,
Pay istəmə şərbət süzən dodaqdan,
De küsmüşəm, istəmirəm bal, aşıq [2,s.224].

Aşıq Şəmşir qoşmalarında gözəllərə bəxt, tale arzu olunur. Gözəllik olan yerdə iblisin sakit dayanıb durmadığını bilən ustad gözəllərimizə taleyi, bəxti Yaradanin özündən diləyir:

Görüm kəskin olsun talehi, baxtı,
Əminəm, iqbalı hər an oyaqdı.
Tərlan qaynaqlıdı, cəlddi, qoçaqdı,
Cəsarətdə, məharətdə Həqiqət! [2,s.357].

"Yay Sənəm" təcnisində gözəlliklə nitqin estetik tutumu dialektik vəhdət təşkil edir:

Şəmşir, yerdən qalxar eşqin bir pəri,
İşləməsə, düşər topun bir pəri,
Bir mələkdir, bir hürüdür, bir pəri,
Gözəlliyin yerə-göyə yay, Sənəm! [1,s.438].

Təbiət ünsürləri, ekoloji ünsürlər utilitar gözəlliklə yanaşı estetik gözəlliyə də malikdir. “Ürək sirrinin” dağlara açılması burada estetiklikdən xəbər verirsə, “axşam-səhər” şərbət təkin içilən sular bilavasitə utilitarlığa işarədir:

*Ürəyimin* hər *sirrini,*
Dağlar, sənə açıram mən.
*Şərbət kimi sularından,*
Axşam-səhər içirəm mən [2,s.493].

“Mən” rədifli gəraylının növbəti bəndində “göy yarpızlı bulaq” utilitarlıq anlamındadırsa, “quşlar kimi uçmaq” isə estetik zövq yaradır:

Şəmşir doymur yaylağından,
*Göy yarpızlı* bulağından.
Quşlar kimi budağından,
Hansı yana *uçuram* mən [2,s.493].

Estetik tablolar bayatı janrında da özünə yer alır:

Yazda yer ala gözlər,
İstər can ala gözlər.
Görsün məni önündə,
Qoy hər gün ala gözlər [2,s.514].

“Gözəllik” Aşıq Şəmşir şeirlərində əsasən estetik, bəzən də utilitar (fayda gətirən) həzzli olur. Bulaqların suyu ana südü təkin şirin şərbətə bənzədilir:

Həsrətiyəm bu dağların,
Şirin, şərbət bulaqların.
Ağ sürülü ovlaqların,
Binəsindən ayrılıram [2,s.478].

Müalicəvi əhəmiyyətli İstisu anaya bənzədilir. Bulaqların suyu utilitar gözəlliyə işarədir:

Sözü yana-yana dedim,
Qalacaq, nişana dedim.
İstisuya ana dedim,
Məməsindən ayrılıram [2,s.478].

“Ayrılıram” gəraylısında musiqinin estetik həzz yaratması öndədir. Burada əsil gözəlliyə səbəb olan “kəkliklərin xoş nəğməsi” utilitar gözəlliyi qabaqlayır:

Daşqın təbim olub sərin,
Şəmşir sözdə məna dərin,
Xoş nəğməli kəkliklərin
Ney səsindən ayrılıram [2,s.478].

“Bir bax” rədifli qoşmada Ustad “boğanaqlı külək”, “çovğun”, “tufan” kimi təhlükəli təbiət ünsürlərini ülvi gözəllikdə birləşdirə bilir:

Çəmənli, çiçəkli dağlar başında,
Yağışlı buluda, dumana bir bax.
Boğanaqlı külək at oynadanda –
Yağmura, çovğuna, tufana bir bax [2,s.66].

“Bir bax” rədifli qoşmada qrasiya özünü bariz şəkildə göstərir. “Qartalın baxışı”, “Söyüdün çaylarda saç darası” qrasiya yaratmaq baxımından yeni poetik ifadələrdir.

Kəklik nəğmə deyir, dövr edir laçın,
Qartal elə baxır, diksinir avçın,
Çaylarda söyüdlər darayır saçın,
Sonalar çalxanan ümmana bir bax [2,s.66].

Sözlə estetik tablolar yaratmaq hər sənətkara qismət olmur. Aşıq Şəmşir öz qoşmalarında oxucunun gözləri qarşısında “cənnət bağı”nı xatırladan dağları canlandırır.

Səhər ikən baxdım – duman açıldı,
Gözlü bulaq, El yaylağı göründü.
Dağlara günəşin nuru saçıldı,
Elə bil cənnətin bağı göründü [2,s.110].

Elə həmən “Göründü” qoşmasında növbəti bənddə gözəllik qrasiya ilə təqdim olunur. Qaranquşun bala bəsləməyi – hərəkətdə olan gözəllik yeni bir tərzdə oxucuya çatdırır:

Qaranquş qayada bəsləyir bala,
Görən heyran qalır bu gözəl hala,
Bürüyüb yaylağı çəməngül, lala,
Behiştin işrətli çağı göründü [2,s.110].

Gözəlliyin mühüm modifikasiyalarından biri olan qrasiya cinaslı bayatılarda da Ustadın şeirlərini tərk etmir. Yay

kimi çəkili, türk qılıncını xatırladan qaşlar, “can alan” gözlər qrasiyaya tipik misaldır.

Mən aşıq, can alandı,
Ömürdən can alandı.
Qaşların yağı cəllad,
Gözlərin can alandı [1,s.511].

Başqa bir cinaslı bayatıda “baxışdan doymamaq” elə özlüyündə estetik həzzin sinonimidir:

Mən aşıq yüz il ömrüm,
Nə candan yüz il ömrüm.
Doymaram baxışından,
Olsaydı yül il ömrüm [1,s.511].

Aşıq Şəmşir yaradıcılığında qadın gözəlliyi – estetiklik etik dəyərlərlə birgədir.

Əslin axtar, cannisar ol birinə,
Yaxşı yetiş əməlinə, sirrinə,
Gözünü dikmirsə o özgəsinə
Nə gözəldi belə ismət arvada [2,s.127].

“Sənəm al” təcnisində gözəllər gah səma cismi Aya, gah da dağ döşündə bitən laləyə bənzədilməklə estetik bir tablo yaradılır.

Hüsnün günəş, qaşın bənzər hilala,
Ətrin güldü, istər bir də hil ala,
Yanaqların dağ döşündə hi lala,
Geyinibsən al üstündən Sənəm, al [1,s.457].

Aşıq üçün qış fəslində dağların gözəlliyi ülvi gözəllik, baharda, yazda isə "şərbət" təkin suları ilə dağlar əsil gözəllik timsalına çevrilir:

Qışda bəd olsa da boranı, qarı,
Yazda şərbət olur buz bulaqları.
Ömür dirəyidi fəsli baharı,
Bu adı kim çəkir bədə, bilmirəm [2,s.130].

Estetik gözəlliyin dərki ilk öncə estetik seyrdən başlayır. Estetik seyr nə qədər əhatəli olarsa, estetik zövqün də dərinliyi onunla ölçülər. Aşıq Şəmşir üçün "doyunca baxmaq" elə estetik seyrin dərinliyinin sinonimidir. "Yaylaqlar" qoşmasında Ustad vüqarlı dağların quruluşuna, dağlardakı cəlala doyunca baxır:

Ver dostluq xınanı dəstimə yaxım,
Təlatümə gəlib sellənib axım,
Vüqarlı dağlara *doyunca baxım*,
Bu qurğuya, bu cəlala, yaylaqlar [2,s.179].

"Bu qurğuya, bu cəlala" deməklə gözəlliyin ilahi yaradılışından danışır. Aşağıdakı misralarda da Nizaminin" [140,s.70] Allahın yaratdığı yeddi iqlimdən danışılan aşağıdakı misraları ilə müqayisəsi yerinə düşər:

“Rəsm etmişdi gözəl yeddi şux pəri,
Hər biri bir elin parlaq ülkəri”

Bütün bunlar gözəlliklə bağlı Azərbaycan estetik dünyagörüşünün formalaşmasında poeziyamızın aşıq yaradıcılığı bölməsinin hələ öyrənilməmiş, tədqiqata az cəlb olunmuş qatlarının mövcudluğuna işarədir.

## 3.2. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA FACİƏ

Dəyərli Azərbaycan oxucusu, sözü sözdən seçməyi bacaran fəhmli Azərbaycan oxucusu estetikadakı faciə elementlərinin Aşıq Şəmşir yaradıcılığı ilə əlaqəsi haqqında yəqin ki, sual verəcəkdir. Bu tip suallara cavab Aşıq Şəmşir itkisi ilə çətin barışan sənətkarların [154] duyğulu yazılarıdır. Sadıq Məmmədov Şəmşir itkisi ilə bağlı yazırdı:

O elin obanın yaraşığıydı,
Sevimli, istəkli el aşığıydı,
Zirvəsi qartallı Murov dağıydı,
Yad əllərdə boyun bükür, danışmır.

Əlqəmə Əmrahoğlu [46 A] Kəlbəcər itkisi ilə Dədə Şəmşir itkisini yanaşı təqdim edərək kövrək, estetik bir zövq yaradır:

Çiçəkli dağları gəzir doymayır,
Məhəbbət aşiqi, qüdrətli şair,
Xaraba kəndlərə baxıb ağlayır
Buz bulaqlar göz yaşıdı Şəmşirin!

Faciə – sonda itki ilə, ölümlə nəticələnən bir anlayış. Estetikada bu anlayış bədii sənət əsərlərinin, ədəbiyyatın vasitəsilə insanlarda katarsis yarada bilmək, insanları kövrəldə bilmək, ağlada (Mövlana Cəlaləddin demiş [120] “buludlar ağlayanda yer üzündə, insanlar ağlayanda qəlblərində güllər açar) bilmək anlamındadır. Sənətkarın da cəmiyyəti, gərəkli olduğu cəmiyyəti tərk etməsi elə cəmiyyət üçün faciədir.

Niyə yatır birdən sellənib daşan?
Olmasın dostların halı pərişan.
Şəmşir hanı, lentadırmı danışan?
Qorxuram deyələr yalandı birdən.

Xalq şairi Zəlimxan Yaqubun [179] "Şəmşirli, Şəmşirsiz keçən günlərim" məqaləsində Aşıq Şəmşir sənətinə olan ümumxalq məhəbbətini dilə gətirir, lətif kəlmələrlə Ustad itkisini bir faciə əsəri kimi təqdim edə bilir: "Kəlbəcər və Şəmşir sözləri mənim üçün suyla torpaq kimi, közlə ocaq kimi, sözlə dodaq kimi, köklə budaq kimi bir-birinə yaxın və doğma sözlərdi. Çünki, Allah taala Kəlbəcəri xəlq edəndən bu günə kimi Kəlbəcər heç bir aşığın, şairin, alimin, ziyalının dilində Aşıq Şəmşir dilində olan qədər poetik yüksəkliyə, mənəvi ucalığa qalxıb, poeziyanın mənəvi sərvətinə çevrilməyib.

Fikri, xəyalı həmişə zirvələrdə dolaşan bir ustadın məzarı da zirvələrə qismət oldu. Torpağın şöhrətinə, elin-obanın səcdəgahına çevrildi. Allahın işinə baxın ki, Dədə Şəmşirin dəfn günündə qar dizə çıxsa da, Günəş bütün varlığını Kəlbəcərə həsr eləmişdi. Yerin nuru, göyün nuru bir-birinə qarışıb ustadı haqq evinə gur işıqlar içində yola salırdı. O gün Kəlbəcərin ən işıqlı günü idi. Dədə Şəmşirin poeziyası kimi! O gün Kəlbəcərin ən qaynar günü idi, Dədə Şəmşirin ürəyi kimi! O gün Kəlbəcərin ən izdihamlı günü idi. Dədə Şəmşlirin məclisləri kimi!".

Bu məqamda Zəlimxan fəryadı Nizami [138,s.401] babamızın aşağıdakı misraları ilə həmahəng səslənir:

Onun elmi əzəldən dəryadır, necə dərya!
Onun əbədiyyəti səhradır, necə səhra!

Son məkan sayılan torpaq – həm bizim anamız, qida mənbəyimiz, həm də "işıqlı gözlərin", "şirin dillərin" üstünə tökülən qara torpaq anlamındadır. "A qara torpaq" qoşmasında olduğu kimi:

Sən bizə anasan, həm qəmxanasan,
Dilimdə şəkərsən, a qara torpaq.
Yoxluğa əl atan, varlığa səbəb,
Çəkilməz fikirsən, a qara torpaq.

***

Ümidisən, dayağısan ellərin,
Düşmənisən vuran, tutan əllərin,
İşıqlı gözlərin, şirin dillərin,
Üstünə çökərsən, a qara torpaq [2,s.404].

Aşıq Şəmşir fəlsəfəsi reallığa söykənən bir fəlsəfədir. "Bir də" rədifli gəraylıda Allah aşiqlərinin getdiyi yolun onun üçün də var olacağını dilə gətirir, ayrılığın ağırlığını, labüdlüyünü poetikcəsinə qələmə alır:

Fərhad hanı? Şirin ağlar,
Leyli-Məcnun dərin ağlar,
Şəmşir hansı birin ağlar?!
Gəlməz Əsli-Kərəm, bir də [2,s.454].

İnsanın mənəvi ömrü onun yaradıcılığının xalq tərəfindən sevilməsi ilə, xalqın yaddaşında qalması ilə ölçülür.

Ustadı vaxtilə Səməd Vurğun üçün deyilmiş "özü getdi, sözü sağdı" ifadəsi bu gün özünə də aiddir:

Özü getdi, adı sağdı,
Dərdi-qəmi mənə dağdı,
Hava ayaz, dolu yağdı,
Yayda düşdü qışım mənim [2,s.456].

"Ziyanmış" rədifli gəraylıda Allaha tapınmaq, qədəri qəbul etmək lazım gəlir. "Dərd insana ziyanmış" deməklə dərdə sinə gərməyi, dərdə tablaşmağı məsləhət görür:

Dərdikləndim, şeir yazdım,
Dərd insana ziyanımış.
Yıxıb könül sarayını,
Axır, veran qoyanımış [2,s.457].

Ömər Xəyyamın [148] dünyanın faniliyi barədə söylədiyi rübailərə uyğunlaşır. Aşıq Şəmşir bu tip qoşma və gəraylılarında "insan undu, dünya ələk" deməklə dünyaya vurulmamağı, əbədi olana vurulmağı məsləhət bilir:

İnsan undu, dünya ələk,
Onda gördüm min bir kələk.
Dost dediyim qoca fələk,
Demə, adam soyanımış [2,s.457].

Həmin gəraylının başqa bir bəndində dünyanın vəfasızlığı Şəhriyar üslubunda qınağa çəkilir:

Hanı, dünya kimə qalar?!
Verdiyini əldən alar.
Saniyələr, dəqiqələr,
Ömrü, günü soyanımış [2,s.457].

Dünyadan doymayan gözün az bir miqdarla (bir ovucla) torpaqla doyması Nizami Gəncəvinin "İsgəndərnamə"sinə, dünya fatehi İsgəndərin bu dünyadan apardığı bir ovuc qara torpağa işarədir:

Şəmşir, yazdın təsirli söz,
Kəlmə lətif, mənası düz,
Bu dünyadan doymayan göz,
Az torpaqla doyanımış [2,s.457].

Sənətkar ölümü, alim ölümü, lider ölümü, qəhrəman ölümü, bir sözlə, xalqına gərək olan hər bir ömürün sona çatması həmin xalq üçün faciə hesab olunur. Bu sonluğu poetik bir dillə təsvir etmək özlüyündə faciə əsəri yaratmaqdır:

Ürəyiniz döyünməsin,
Dostlar, dərdim açıram mən.
Əcəlin qəm şərbətini,
İnciməyin, içirəm mən [2,s.458].

"Mən" rədifli gəraylısında "ucuz ağdan" bədəninə "qəmli don", yəni kəfən biçir:

Bu beş dərdim olubdu on,
Şirin ömrə kim deyər son?!
Bədənimə bir qəmli don
Ucuz ağdan biçirəm mən [2,s.458].

Müvəqqətidən əbədiyə köç hesab edilən ölüm öz təsvirini müxtəlif cür alır. Biri rəsm əsəri ilə, biri musiqi dili ilə, Aşıq Şəmşir kimi sənətkarlar da şeir dilində təsvir edərək oxucuda kədərli olsa belə estetik həzz – “katarsis” yarada bilir:

Şəmşir, nəyin dəsdindəyəm,
Çərxi-fələk qəsdindəyəm.
Elə bil yol üstündəyəm,
Karvançıyam, köçürəm mən [2,s.458].

“Qaralanmamış” rədifli qoşma reallığı qəbul etməyə bir çağırışdır. Bu çağırış Nizami Gəncəvinin “İsgəndərnamə” əsərində İsgəndərin anasına məktubu ilə həmahəngdir. Dünən də, bu gün də, sabah da doğmalarını itirənlərə bir təskinlikdir.

Tapılarmı dərd qəddini əyməyən?!
Görübsənmi qəm köynəyi geyməyən?!
O kimin bağıdı dolu döyməyən,
Pozulub bostanı – uralanmamış?

***

Kimi atlı gəzər, kimi piyada,
Şəmşir, de mətləbin bu təmənnada.
Axtarın, arayın – varmı dünyada
Sinəsi dağlanıb, yaralanmamış? [2,s.65].

Aşıq Şəmşirin "Baxdım, ağladım" gəraylısında Səməd Vurğunun həyatdan getməsi estetik bir formada çatdırılır:

Vurğun gəzən yaylaqlara,
Çöllərə baxdım, ağladım.
Qayıtmadı bu dağlara,
Yollara baxdım, ağladım [2,s.492].

"Dillərdə qalan" Səməd Vurğun üçün ağlayır. Bu ağlamaq Aşıq Şəmşir yazısında xalqın şair oğluna ağlamasıdır, yas tutmasıdır:

Tanıyır səni bəhri-bər,
Yerdə, göydə axşam-səhər,
Şəmşir səni ananda hər
Dillərə baxdım, ağladım [2,s.492].

Qaçqın ədəbiyyatımızın görkəmli nümayəndələrindən Bəhmən Vətənoğlu [26; 27] Aşıq Şəmşir ayrılığına Ustadın ata-ana adlandırdığı dağların da yas tutmasını, bu faciəni "Bülbüllü Şəmşir" qoşmasında qələmə alır:

Bələndi çiçəyə, büründü gülə,
Belə ölüm görməmişdik biz hələ,
Təkcə bizi ağlatmadı, ay lələ,
Ağlatdı Murovu, Məndili Şəmşir.

AYB-nin Qarabağ bölməsinin sədri, şair Ənvər Əhməd [47] Aşıq Şəmşir itkisini Qarabağ dərdi ilə uzlaşdırır: "Dədə Şəmşir! Qəbrinin çiyinləri üstündə Qarabağ boyda

dünya sızım-sızım sızlayır! Başının altında sazlı-sözlü, çaylı-bulaqlı, əzəli və əbədi müqəddəs vətən torpağı uyuyur! Bu torpağın qoynunda sən bir ölməz saz və söz ustadı kimi çırtdaq-çırtdaq yanırsan! Yaran nə ağırdır, Şəmşir adlı ulu ozan!

Dur, sən Allah, köklə sazı,
Köksüm oldu oyum-oyum.
Qoy çıxarıb ürəyimi
Məzarının üstə qoyum".

Füzuli Ramazanoğlu [55] hələ 1994-cü ildə "İki sahil" qəzetində yazırdı: "Dədə Şəmşir "Mənim dərdim" gəraylısını elə bil bu günlərin baş verən olaylarına həsr edib. Qürbət eldə qalan ruhunun, məzarının, müqəddəs ellərinin harayını çəkir, dərdlərini göynəyə-göynəyə dünyaya söyləyir. Ancaq neyləməli?! Səsi, ünü hara çatasıdır ki, özündən başqa, bu qəbri nurla dolmuşun:

Qaysımış yarama toxunma qanar,
Hanı ay işıqlı verdiyin fanar?!
Nədən uzaqlaşıb durubsan kənar,
Qohumu ağladıb şad olan fələk?!

Səyavuş Sərxanlı [162] isə "Anam İstisudur, atam Dəlidağ" məqaləsində katarsis yaradan kövrək notları işə salır:

"Şairlər ordusu, aşıqlar dəsti,
Siz yazın, yaradın, deməyin bəsdi.
Şəmşirin bağına bir tufan əsdi,
Soluxdu güllərim, salamat qalın!.."

Aşıq Şəmşir itkisi ilə barışa bilməyən Ələmdar Keştəkli [44] “Dədə Şəmşir” rədifli qoşmasında kövrəkliklə dolu bir poetiklik yaradır:

Gəlişi göylərin bağrın dəlibdi,
Dağları özünə bir dost bilibdi,
Səməd Vurğun Kəlbəcərə gəlibdi,
Qonağın gəlibdi dur Dədə Şəmşir!

Aristotelin [15] “Poetikasın”da önəmli yer tutan problemlərdən biri də “katarsis”dir. Bir çox mənalarda işlənən bu terminə Aristotel çox güman ki, etik mənada yanaşaraq onu insanların faciə əsərləri vasitəsilə mənəvi təmizlənməsi kimi nəzərdən keçirmişdir. Faciənin yaratdığı qorxu və mərhəmət insanı əxlaqi cəhətdən saflaşdırır [164]

Ölümü faciə kimi anlasaq, faciədə estetik hiss yoxdur deyən estetlərin əksinə olaraq Aşıq Şəmşir ana itkisini, ana ölümünü faciə şəklində təqdim edə, katarsis effekti yarada bilir. Bu katarsis estetik tabloların köməyilə ünvanına çatdırılır:

Gəldi xəyalıma analı çağlar,
Anasız sinəmə çəkilib dağlar.
Gördüm ki, dalaşır dəcəl uşaqlar,
Dilləşəndə, anam yadıma düşdü [3,s.59].

***

Balasın çağırır meşədə əlik,
Şəmşir də dinləyir əlində çəlik.
Qartal qıy vuranda, qayada kəklik
Ötüşəndə anam yadıma düşdü [3,s.59].

Ustad "Şəmşiri" rədifli gəraylıda faciə estetik kateqoriyasına qayıdır. Təbiətdən ayrı düşmək də, təbiətin – "dağların" qoynunda məskən salmış o ağır ellərdən aralı düşmək də Aşıq Şəmşir üçün ağırdır və bu ayrılıq uca dağlar üçün də ağırdır poetik ifadəsini yerindəcə işlədir:

Bu bülbüllü, güllü bağlar,
Səndən ayrı gözüm ağlar.
Ağır ellər, uca dağlar,
Unudar necə Şəmşiri?! [2,s.464].

Aşığın doğulub boya-başa çatdığı, sənət zirvəsinə çatdığı məkan – Kəlbəcərin ərazisidir. Bu məkanın ona verdiyi estetik zövqün, təbin qarşısında Ustad da tərifini qədərindən də çox yaza bilib. O "tərif yazana" dağların yas tutması oxucuda estetik zövqə səbəb olur:

Mən nə xəyaldayam, fələk nə sayır,
Dərman bilməyirəm dərdimə dair,
İstisu, Dəlidağ, Keyti, Çalbayır:
"Tərif yazan hanı?!" – deyib yüz ağlar [2,s.136].

Sənət, sənətkar, şeir, söz qocalmır. Görkəmli Azərbaycan şairi Əliağa Vahidin anadan olmasının 100 illik yubiley gecəsi başa çatdıqdan sonra mədəniyyət və incəsənət xadimləri ilə görüşdəki çıxışda (Respublika Sarayı, 30 avqust 1996-cı il) Heydər Əliyev incəsənətin bədii ədəbiyyat, musiqi, bədii qiraət növlərinin insana estetik zövq verməsini, "məni həyəcanlandırdınız" ifadəsi ilə əvəz edir. Elə buradaca yubiley gecəsinin milyonlara

çatdırılmasında televiziyanın rolunu (bu yubiley gecəsi televiziya vasitəsilə respublikanın hər yerinə yayıldı) aydınca göstərir: "Vahidin nə qədər gözəl qəzəlləri, şeirləri, sözləri varmış. Yenə də deyirəm, Vahidin əsərlərini hər birimiz oxumuşuq. Birimiz bir dəfə bir qəzəlini oxumuşuq, bir muğamı eşitmişik. Amma bu gün siz bunları bir yerə yığdınız. Həm ifa etdiyiniz musiqi, həm də oxuduğunuz şeirlərdə, mən hesab edirəm ki, hamını, o cümlədən də *məni həyacanlandırdınız. Bu yubiley gecəsi televiziya vasitəsilə respublikanın hər yerində yayıldı*. Ola bilər, gələcəkdə bunu təkrar etmək lazımdır. Çünki bu, çox məzmunlu, gözəl gecə oldu".

"İnsanın xoşbəxtliyi nədir?" ritorik sualla auditoriyanı səfərbər edən Heydər Əliyev elə özü də sualı cavablandırır. Cavab Əliaga Vahidin misraları ilə həmahəng səslənir. Əliağa Vahiddə:

Vətən diyarında, Vahid, nə xidmət eylərsək,
Bu şanlı iş gələcək nəslə yadigar olacaq!

Heydər Əliyevdə: "Xoşbəxlik odur ki, insan 70 yaşında vəfat edib, amma 30 il də ondan sonra yaşayır. Özü də necə yaşayır!" Vahidin çətin həyat tərzi, ona olan diqqətsizlik "nə qədər" ədatı ilə auditoriyanın diqqətinə çatdırılır. Elə buradaca əsil şairin, yazıçının, elm adamının bütün çətinliklərə baxmayaraq xalq yolunda, Vətən yolunda "çox nikbin adam olması gərəkdir" müddəasını ünvanlayır: "Mən bu gün sizi dinləyərkən özüm üçün bir nəticə çıxardım ki, Vahid nə qədər çətin həyat tərzi keçiribsə, ağır yaşayıbsa, ona nə qədər diqqətsizlik olubsa, qayğı göstərilməyibsə də, o, çox nikbin adam olubdur. Vahid xalqı-

mızın, respublikamızın xoşbəxt gələcəyini nə qədər gözəl tərənnüm edib, bunları açıqca deyib. Deyəsən sən oxuyurdun ki, ölkəmiz laləzar olacaq, bunu bir də təkrar et.

Aktyor Ramiz Əzizbəyli:

Vətən diyarında, Vahid, nə xidmət eylərsək,
Bu şanlı iş gələcək nəslə yadigar olacaq!

*İnsanın xoşbəxtliyi nədir?* Xoşbəxtlik təkcə o demək deyil ki, o necə yaşayıb. *Xoşbəxtlik odur ki, insan 70 yaşında vəfat edib, amma 30 il də ondan sonra yaşayır. Özü də necə yaşayır!* O, xalqına necə gözəl xidmət edib. Xalqını bu ağır vəziyyətdən çıxarmaq üçün görün nə qədər gözəl töhfələr, irs qoyub gedir". Bax, elə bu paralellər Azərbaycan xalqının siyasi liderləri ilə haqq aşıqlarının, ədəbiyyat xadimlərinin düşüncə eyniliyinin sehrinə düşür, "xalq övladları ilə tanınar" müddəasına uyğun olaraq bu gün də, sabah da xalqın var olacağı inamını özümüzə qaytarır.

Aqibət ölümdü – yaşasaq yüz də,
Həm saç da, saqqal da, ağarır üz də.
Qocalıq tapılmaz şeirdə, sözdə,
Sənətkar qocalmır, sənət qocalmır [1,s.245].

Aşıq Şəmşirə görə sənət ölmür, sənətkar ölmür. Bu anda Mövlana Cəlaləddin Ruminin [120] ölümlə bağlı misilsiz misralarının mənaları gündəmə gəlir: "Ölüm cismin ortadan qalxması deyil, Allaha doğru ucalmasıdır. Ölümdə ədalətli və din adamları üçün həyat vardır. Ölümdən təmiz

ruhlara hüzur və sükunət gələr. Ölüm Haqqa qovuşmaqdır, cəfa çəkmək və kin bəsləmək deyildir”.

Böyük sənətkarların, xalq qəhrəmanlarının, peyğəmbərlərin, vəlilərin həyatdan köçməsi bu gün qəlbimizdə ağlayarkən güllər yaradan faciədir.

Sənətkarların da ölümü digər bəndələrin ölümündən heç bir şeylə fərqlənmir. Sadəcə sənətkarları xalq bir qərinədə, bir əsrdə tək-tək yetişdirir. Xalq öz varlığını üzərində yaşadığımız bu Yer kürəsində sənətkar övladları ilə göstərir, təsdiq edir. Məhz, ona görə də, sənətkarın həyatla vidalaşmasını xalq faciə kimi qəbul edir, sonra bu faciəsini gələcək nəsillərə estetik bir hadisə kimi ötürür.

“Bu bulaqda” gəraylısında bulaqla danışa, oxucuların qəlbini riqqətə gətirə bilir:

Bir dərindən yetirin huş,
Bəzən ölüb, qalıb xamuş.
Tel daramış, əl-üz yumuş,
Min gözəllər, bu bulaqda [2,s.484].

Gəraylının son bəndində Aşıq Şəmşir ziddiyyətli bir məqamı dilə gətirir (insanlar unutqan olur) və bu ziddiyyətdən özünü də, oxucusunu da çıxarır: (sənətkarın qiymətini bilənlər tapılacaq, Şəmşiri soruşan şirin dillər olub və olacaq)

Tamam olar ömrün sanı,
Bivəfa bildim insanı.
Deyən olar: Şəmşir hanı?
Şirin dillər, bu bulaqda [2,s.484].

Faciə əsərləri qarşısında ruhumuz arınırsa, paklanırsa, saflaşırsa bu estetik zövqə çevrilir. Ustadın şeirlərində onun bu dünyadan köçməsi bir ümumxalq faciəsi yaradır. Bu "Peyğəmbər" kinosuna baxanda yaşadığımız faciədir. Bu faciə "Leyli və Məcnun" operasında yaşadığımız faciədir. Aşıq Şəmşir şeirlərində də bizi təsirləndirən faciə onun şeir dili ilə yaratdığı şəxsi olmaqdan çox ümumxalq məhəbbəti qazanan faciədir:

Lalə, nərgiz, gül-çiçəkli sinələr,
Qoca könül sizi anar, ün eylər.
Saz çaldığım çiyələkli güneylər
Gəzər məni, buz bulaqlı düz ağlar [2,s.136].

***

Yol üstündə bir qonağam cahanda,
Aşıq oldum, ellər gəzdim hər yanda.
Hər yada düşəndə toyda, nişanda,
Qarılar dil deyər, gəlin-qız ağlar.

***

Əcəl can almağa çəkəndə əzan,
Solub ömür bağım olacaq xəzan.
Tapılmaz bir gün də bu şeiri yazan,
Dağlar nalə çəkər, Şəmşirsiz ağlar [2,s.137].

"Dağlar nalə çəkər, Şəmşirsiz ağlar"...misralarının təsiri ilə Ustadın ölümünə – xalqın faciəsinə etibarlı dostlar ürək sözlərini, ürəkləri titrədən ürək sözlərini yazdılar: "Şəmşirin gözəllik idealı büsbütün milli səciyyə daşıyır. O, həyalı, namuslu və həm də mehriban, yanımlı gözələ can

qurban etməyi aşığın bəxtəvərliyi sayır. Klassik aşıq sənəti ilə müasir aşıq sənəti arasında möhkəm özüllü bir körpü təsəvvürü yaradan Dədə Şəmşirin bədii irsi olduqca zəngin və əhatəlidir" [70].

Aşıq Şəmşir şeirlərində ustadın bu dünyadan köçməsi labüdlüyünü dərk edən oxucu mütəəssir olur, kövrəlir, maddi dünyadan ayrılan sənətkarın qəlb çırpıntılarına şərik olaraq xalqın qəlbində özü demiş "əbədi sərgi kimi yadigar" qalan Aşıq Şəmşirin həyatdan getməsini faciə kimi qarşılayır:

Şəmşirəm, sənətim niyə tərgiyəm,
Çəməngahda bir əbədi sərgiyəm.
Sən daim qalarqı, mən köçərgiyəm,
Şeirim yadigar qala, yaylaq [2,s.180].

1978-ci ildə yazdığı başqa bir "Deyərlər" rədifli qoşmasında Ustad labüd ölümü yox, son nəfəsdə Murovun sinəsində uyuyan əzizlərindən uzaqda ölməyi faciə hesab edir:

Rəhmə, mürvətə gəl, yaxşı ad elə,
Dərdi, qəmi ayır, məndən yad elə.
Şəmşiri ağlatma, güldür, şad elə,
"Qərib öldü Ağdabanlı", – deyərlər [2,s.181].

Bu yerdə mərhum şairimizin, Aşıq Şəmşirin dostu Səməd Vurğunun [160] Çində müalicə olunarkən söylədiyi misralarla uyğunluğun şahidi oluruq, hər iki sənətkarda eyni taleyin yaşanmasını müşahidə edirik:

Vaxtsız əcəl məndən uzaq dayan, dur,
Qürbət eldə can vermərəm ölümə.

Estetikada faciə kateqoriyasının Aşıq Şəmşir yaradıcılığında öyrənilməsi gələcəkdə Azərbaycan ədəbiyyatında bu sahəyə ciddi diqqət yetirilməsini diqtə edir.

## 3.3. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA KOMİZM

Yunanca "komikos" sözündən olan komiklik "şən", "gülməli" mənalarını bildirir. Estetik kateqoriya kimi o, gerçəkliyin ictimai əhəmiyyətli ziddiyyətlərini emosional-tənqidi cəhətdən əks etdirir. Komiklik həmişə gülüşlə müşayiət edildiyi halda, hər bir gülüş heç də həmişə komik sayılmır[164]. Professor Mehdi Məmmədov [112] yazırdı: "Diqqət etsəniz görərsiniz ki, hamı eyni şeyə eyni tərzdə və bərabər gülmür. Birinə gülməli görünən əhvalat o birində gülüş doğurmur. Yaxud bir vaxtlar gülməli görünən şey artıq gülməli deyil, yaxud tərsinə, keçmişdə qətiyyən gülməli olmayan bir hərəkət, indi bizdə gülüş, qəhqəhə doğurur. Gülüş real səbəblərdən doğduğu, gerçəklikdəki hadisələrin məna və məzmunu ilə əlaqədar olduğu və nəhayət zaman və şəraitlə hökmən bağlandığı üçün müxtəlif tərzdə doğur".

Aşıq Şəmşirin yaradıcılığında komizm estetik kateqoriyası Adil Cəmilin araşdırmalarında xüsusi maraq doğurur: İstər klassik, istərsə də müasir aşıq poeziyasında yumoristik, bəzən də satirik planda yazılmış şeir nümunələrinə tez-tez rast gəlirik. Belə qoşquları Tufarqanlı Abbasın, Aşıq Hüseyn Şəmkirlinin, Xəstə Qasımın, Aşıq Ələsgərin yaradıcılığında izləmək çətin deyil. Aşıq Şəmşir də klassik aşıq sülaləsinin dəyərli davamçılarından olaraq yeri gəldikcə yumordan, xalq gülüşündən istifadə etməklə sözünün dadını-duzunu artırmışdır [6]. Daha sonra müəllif "Xoruzun dastanı" müxəmməsi haqqında danışır:

Oğurlayıb bir it oğlu bizim bircə tək xoruzu,
Pipikləri qan-qırmızı, gözləri şimşək xoruzu,

Qanadları abı-yaşıl, quyruğu gödək xoruzu,
*Bir minək, iki yaşar, lap yekə, nəhəng* xoruzu,
Filmisal bir *nər* imiş kişinin gerçək xoruzu.

Aşıq Şəmşir öncə xoruzun portretini cızır. "Bir minək, iki yaşar", "yekə", "nəhəng", "nər" kimi mübaliğəli epitetlərin xoruza müncər edilməsi gülməli bir əhval yaradır. Burada folklordan, xüsusən şifahi ədəbiyyatın qaravəlli, təkərləmə, lətifə qatından gələn ənənəvi gülüş modelinin izlərini görürük. Müxəmməsin məzmununa gülüş qatan məhz mübaliğəli ifadələr, qeyri-adi təşbehlərdir:

"Onu bizə nəvə payı göndərmişdi fağır nənəm,
Mənim üçün *at əvəzi,* elə bil ki, *böyük ənam*".

Baxın, xoruzu ata bərabər tutmaq, onu "böyük ənam" hesab etmək inandırıcı olmadığına görə gülüş doğurur. Oğurlanmış xoruzun üstündə kənd-kəsəyə, qohum-qonşuya, tanış-bilişə "nifrin yağdırmaq", el-obaya "qalmaqal salmaq" şifahi ənənədən gələn, dinləyici auditoriyasına hesablanmış bədii metoddur [6].

Satira qüsurları, zərərli və təhlükəli nöqsanları, siyasi, estetik və əxlaqi ideallara uyğun gəlməyən hər bir şeyi ifşa və tənqid edir. Satirik gülüş – öldürücü gülüşdür. Çernışevskiyə görə: "Satira kütləni yalnız güldürmür, onu həm də ayıldaraq onda qəzəb və ikrah oyadır" [201].

Satiranın ifadə vasitəsi kimi hiperbolanı (qeyri-adi ölçülərədək şişirtmə) Aşıq Şəmşirin "Eşitmədi" qoşmasında görmək olur

Öküz yorğa bilməz, dəvə oynamaq,
Qoca camış şıllaq ata, yaraşmaz.
Şığıyan ulduzu olarmı tutmaq,
Əllərin ülkərə çata, yaraşmaz [1,s.53].

Komizm öz işini dürüst bilməyən sənətkarlara da yönəlir. Onun radio düzəldən ustaya yönələn "Olur" gəraylısı bu qəbildəndir:

Bu zalımı yola gətir,
Bəxtəvərə məni yetir.
Səni görür, dil-dil ötür,
Məni görür, kar-lal olur [2,s.490].

Gülüş həmişəmi estetik həzz yaradır? Gülüşün də bəyənilməyəni var ki, bu ustad dilində "milçəyin bala", "nadanın əhli pürkamala" gülməsidir.

Hər yaranmış bilsin öz hünərini,
İnsaf deyil, milçək bala gülməsin.
Ətlas geyib, "mənəm", – deyən Mehdi bəy,
Axır girər qıl çuvala, gülməsin [2,s.347].

"Gülməsin" rədifli qoşmada gül-çiçək timsalında insanların mənasız gülüşləri, məntiqə söykənməyən gülüşləri tənqid obyekti olur:

Aldanıb inanma çərxi-gərdişə,
Bivəfadı, ilqarsızdı həmişə.
Öyünməsin çəmən-çiçək, bənövşə,
Saralıb-solacaq lala, gülməsin [2,s.347].

Qoşmanın dördüncü bəndində səy (anlaqsız, məntiqsiz, rabitəsiz) adamların elm adamlarına gülməsi satirik bir dillə qınağa çəkilir:

Taxtası yüngüldə az olar beyin,
Səy adama aqil olmamış təyin.
Nadana, namərdə görəndə deyin:
Arif-əhli pürkamala gülməsin [2,s.347].

Qoşmanın son bəndində ağıllı, lakin iblisə uymuş "xain ağıla" malik insanların gülməsi gündəmə gəlir:

Mən də yaranmışam sənin tək bəşər,
Bir kəsin haqqında danışmaram şər,
Şəmşir bir gün tərəqqiyə yetişər,
Xain çatar min zavala, gülməsin [2,s.347].

"Bilmir" rədifli qoşmada komizmin sərt satirik üslubu işə düşür, iş bacarmayan, savaddan kəm, yalançı xislətlilər "iki qazı otara bilməyən"lər, "bir qotur daylağı suvara bilməyənlər" kinayə obyektinə, Şəmşir gülüşünün hədəfinə çevrilirlər:

Tərbiyə görməyib ata-anadan,
Xilqəti napakdı əzəl binadan.
Mənə yol göstərir bu alçaq nadan,
Versən, iki qazı otara bilmir.

Sənətdə yarımçıq olanları, xalqı öz savadsızlığı ilə incidənləri Ustad tənqid atəşinə tutur:

Şəmşir, ürəyində qalsa bu dağlar,
Məzarımda bitən çəmənlər ağlar.
Yalandan adını qoyubdu baytar,
Bir qotur daylağı suvara bilmir [2,s.426].

Həmin qoşmanın növbəti bəndində hiperbola (meymun sifətinə döndü sifəti) yumorla (etdi zənən kimi naz) çulğalaşıb komik mənzərə yaradır.

Bilmir insanlığı, xətir-hörməti,
Meymun sifətinə döndü sifəti.
Bu qədər etdiyim dərin minnəti
Etdi zənən kimi naz, eşitmədi [2,s.432].

“Eşitmədi” qoşmasının dördüncü bəndində alman esteti Şiller satirası (ideala zidd olan qeyri-kamil gerçəklik – şeytana inanmaq) işə düşür:

Bir başa düşmədi qəsəmi, andı,
Bu alçaq, şeytana qəlbdən inandı.
Mərifətsiz heyvan oğlu heyvandı,
Ötdü nəsihətdən vaz, eşitmədi [2,s.432].

Və yenidən “beynamus”lara hiperbola ilə müşayiət olunan (muşa oxşar yarasa) satirik ayıldıcı zərbələr endirilir:

Şəmşirin sözünü arif arasa,
Çatdırsın məktubu – mənzil harasa.
Bu beynamus, muşa oxşar yarasa,
Qış keçdi, sözümü yaz eşitmədi [2,s.432].

Komizm Ustadın müxtəlif növ şeirlərində, o cümlədən bayatılarında da səslənir:

Dolandın gəldin, dağı,
Saldın elə sorağı.
Qorxudarmı dəvəni,
Qurbağanın şıllağı?! [2,s.517].

Estetik həzzi gülüşlə yaratmaq mümkündür ki, komiklik – tənqidin özünəməxsus forması olub, gerçəkliyə tənqidi surətdə yanaşma ilə əlaqədardır. Komikliyin özünəməxsusluğu onun həmişə gülüşlə bağlı olmasıdır. Aşıq Şəmşir şeirlərində komizmin ən başlıca xüsusiyyəti odur ki, tənqid olunan tərəfdə də estetik zövq yaradır. Komizmi faciə kimi qiymətləndirən Aristotel bunu "göz yaşları axıtmaqla mənəvi cəhətdən təmizlənmə" adlandırırdı. Tərbiyə prosesində müsbət rol oynayan komediya katarsis funksiyasına malikdir [164] Çoxarvadlılara ithaf etdiyi "Ləzzəti" rədifli qoşmanın birinci bəndində "əzəli şirindi, axırda ağı" deyimi faciəni açır:

Əzəli şirindi, axırda ağı,
Var bu işin harasında ləzzəti?!
Mən ki, görməmişəm, görənlər desin,
İlanın ağ-qarasında ləzzəti [2,s.300].

Sonrakı bəndlərdə gülüşün köməyi ilə həm təkarvadlılarda, həm də çoxarvadlılarda katarsis effekti yaradılır:

Çalışma arvadın çox olmasına,
Döndərərlər səni ət dolmasına.
Birdən ki, durarlar saç yolmasına,
Çox çəkərsən burasında ləzzəti.

Çoxarvadlılıq ailə münaqişələrinə rəvac verir, "Olar evin dava-dalaş səhnəsi" fikrini ortaya qoymaqla monoqamiyaya – təkarvadlılığa çağırır:

Kötək vurar təzəsinə köhnəsi,
Qırılar sac, ələk, xəmir təknəsi.
Olar evin dava-dalaş səhnəsi,
Apararsan orasında ləzzəti [2,s.300].

Qoşma sonda "öyüdlə", "nəsihətlə" yekunlaşır. Bu məqamda cəmiyyətin və dövlətin quruluş vahidi sayılan ailənin axıradək qorunmasını və onun həqiqi mənada ləzzətini anladır:

Yaşa bir arvadla, əhli-dil olsun,
Ətri sənə sanki qızılgül olsun,
Şəmşir, məhəbbətin ilbəil olsun,
Biləcəksən sonrasında ləzzəti [2,s.300].

Aşıq Şəmşir komik bir dildə özünə gülməyi bacarmaqla böyüklük göstərən sənətkarlardandır:

Məndən düşgün məni barı, bəyənmir,
Göz yaşım olubdur carı, bəyənmir.
Şəmşiri qız, gəlin, qarı bəyənmir,
Aşıq qocalanda nə pis olarmış [2,s.322]

Akademik Muxtar İmanovun gülüş haqqındakı fikirləri də maraqdoğurandır: “Gülüşün magik mahiyyəti ilə onun estetik mahiyyəti arasında qırılmaz əlaqə var. Doğuluş və dirçəlişə nail olmaq üçün gülüşü magik təsir vasitəsi sayan xalq komik folklor mətnlərini də həyatvericilik ideyası əsasında qurur” [124].

Komizm aşıq ədəbiyyatında tez-tez təsadüf olunan mövzudur ki, burada iti, kəskin satirik üslubun köməyi ilə cəmiyyətdəki eybəcərliklər tənqid olunur. Təbii ki, bu tənqid digər fəlsəfi dəyərlərlə, öyüd və nəsihətlərlə müşayiət olunur. Bu gün aşıqların ifasında sevilə-sevilə səslənən “Bir də gül” rədifli qoşma da bu sıradandır:

Bir vaxt cavan idim mən də sizin tək,
Deyirdim açılıb çəmən, gül-çiçək.
Bəyənməzdim çirkin, gəzirdim mələk,
Etibarsız bu dünyaya bir də gül [2,s.323].

Qoşmanın bu bəndində yaş ziddiyyətini ortaya qoymaqla gənclik illərində buraxılmış səhvlərin düzəlməsi üçün “qocalığa” – zamana ehtiyac duyulduğunu anladır. Növbəti bənddə qarşı tərəfdən hörmət gözləyən ağsaqqal təkin çıxış edir:

İşiniz mənimlə nədir, ay balam?
Qüvvədən düşmüşəm, bir yornux halam.
Atanlz yerində mən ağsaqqalam,
Xoşun gəlir, gül babaya, bir də gül [2,s.323].

Qoşmanın digər bəndində "etdiyim bu təmənnaya bir də gül" deməklə komizm ovqatını təzədən gücləndirir:

Qocaya lazımdır – verəsən quymaq,
Axşam ballı qaymaq, səhər qayqanaq.
Öpəsən gül yanaq, olarmı doymaq?!
Etdiyim bu təmənnaya bir də gül [2,s.324].

Aşıq Ələsgərin Həcər xanımla deyişməsindəki "təmənna" ilə gözəl bir uyğunluq, incə bir paralel yaradır. Sonda komizmdən aşıq-döyüşçü xəttinə keçid edir, şeir dilində hücuma keçir:

Eşq ucundan oda yandı pərvanam,
Zəhmətdən incimən, mərd doğub anam.
Şikarda ov alan qoca tərlanam,
Şəmşir kimi Qarçıqaya bir də gül [2,s.324].

M.F.Axundov [10] yazırdı ki, insanların təbiətində olan pis və yaramaz əməlləri tənqid, istehza və məsxərədən başqa heç bir vasitə ilə məhv etmək olmaz. Komikliyin mühüm növü kimi kinayəli münasibətin birbaşa tərifi Aşıq Şəmşir qoşmalarında daha qabarıqdır. Bu da aşığın xarakterindən, bütövlükdə ozan-aşıq sənətinin aşkarlığa meylindən, sözü üzə şax deməyindən irəli gəlir. Aşığın qocalmasına gülən qız-gəlin "Sənin" rədifli qoşmada kinayə forması ilə düzgün yola dəvət olunurlar:

Dişlərin tökülər – qalmaz birisi,
Nəşələnər sözlərinin gerisi,
Alt çənənin qırışanda dərisi,
Dönər ağzın köhnə çuvala sənin [2,s.281].

***

İndidən rəhm eylə, bax iltimasa,
Aşıqlar qəlbini döndərmə yasa.
Vaxt olar, əlində gəzərsən əsa,
Qamətin donqala-donqala sənin [2,s.282].

Kinayə ilə tərbiyə edən aşıq sonda aqsaqqal öyüdünə üstünlük verir. Bu bir daha Aşıq Şəmşir böyüklüyünün sübutu kimi səslənir. Gənclik və gözəlliyin insana verdiyi üstünlüklərdən təkəbbür etməmək (İtirmə özünü, yola düzəl sən) tövsiyə olunur:

Şəmşirin xətrinə dəymə əzəl sən,
İtirmə özünü, yola düzəl sən.
Həmi növrəstəsən, həmi gözəlsən,
Sığmır başın elə, mahala sənin [ 2,s.282].

İçərisindən çıxdığı cəmiyyəti bəyənməyən ədabazları "tərəqqinin tənəzzülü də var" fəlsəfi müddəasının köməyi ilə tənqid edir. "Ədabazlığı" rədifli qoşmasındakı kimi:

Kökəlib danışır indi yuxardan,
Çox çəkməz qılıncı düşər ovxardan,
Bilməz onu kimdi dardan çıxardan,
Gəlmir xəyalına yoldan azdığı [2,s.249].

Oxucuda komizm estetik hissini cilalandıran, bu komizmin vasitəsilə etik dəyərləri aşılamaq Aşıq Şəmşir şeirlərinə xas olan xüsusiyyətlərdəndir:

Canım dərd oduna hədər qalandı,
*Ədəbsizə* insan desəm yalandı.
Belindəki libas torba, palandı,
*Vursan yanbızına biz qana bilməz* [2,s.121].

Estetik kateqoriya kimi komikliyin istifadə etdiyi vasitələr, ifadə formaları rəngarəng olsa da, onlardan mühüm olanlar satira, yumor, mübaliğə, qrotesk, kinayə, sarkazm və s.-dir. "Unutma" rədifli qoşmada Aşıq Şəmşir saz düzəldən ustaların yalanını satirik bir üslubda ifşa edir:

Çox görürəm: "Usta mənəm", – deyəni,
Dəhrə ilə yonub taxta əyəni.
Kamandarın işin görən bəyəni,
Qafil olub, sazandarı unutma [2,s.275].

Həmin qoşmanın başqa bir bəndində yalançılar, sənətdə naşılar komizmin kinayə forması ilə tənqidə tutulur:

Şor əsələ dönüb, qurud qənd olub,
Ələk quvçuları sazıbənd olub.
Qol əyri, üz batıx-irişxənd olub,
Belə gülünc hesabdarı unutma.

***

Şəmşirə demişdin baxşeyiş, sazı,
Qış başa gəlmədi – gözlədim yazı.
Göndərmədin, səndən qaldım irazı,
Özgələrlə etibarı unutma [2,s.275].

"Pəndov" danaların nəri bəyənməməsi "tısbağa qınından çıxdı qınını bəyənmədi" xalq məsəlini yada salmaqla, cəmiyyətə sayğısızlıq göstərənləri satirik bir dildə, komizm estetik kateqoriyası ilə qınağa çəkir.

Zəhmət ilə yuva salıb analar,
Al-əlvan tikilir təzə binalar.
Alışıb yanıram, pəndov danalar
Durmur öz yerində, nəri bəyənmir.

***

Misaldı: çanaqdan çıxsa tısbağa,
Gülər libasına – qaçar uzağa.
Ona deyən olmayıbdı: ay ağa,
Eybin salıb bil içəri, bəyənmir [2,s.246].

Ustad keçmişini bəyənməmək, keçmişinə güllə atmaq kimi xəstəliklərə tutulanları düz yola çağırır. Bu gün də Azərbaycan şeirini bölənlərə, aşıq yaradıcılığına xor baxanlara yerindəcə dürüst, sərrast cavab verilir:

Şəmşir kimi sən də təmiz ad qazan,
Düzəlsə yaxşıdı yolundan azan.
Köpür tuluq kimi on şeir yazan,
Nə Qurbanı, Ələsgəri bəyənmir [2,s.247].

Komizm Aşıq Şəmşir yaradıcılığında müxtəlif səpkilərdə özünü biruzə verir. Ustadın gülüş doğuran səhnələr yaradan şeirləri kinayə ilə birgə müşaiyət olunur:

Bir az qırmızı var yanaqlarında,
Mən ölüm, gözələ de, qazdanmasın.

Bu məqamda Əliağa Vahidin [42] aşağıdakı misraları Aşıq Şəmşir misraları ilə həmahəng səslənərək təkəbbür satanlara, lovğalara qulaqburması verir:

Öyünmə çox gözəlim çox da gözlərin qarədir,
Təbiətin işidir gündə min gözəl yaradır

Bütün qələm əhli olan şairlər yeri gəldikcə surət gözəlliyi ilə qürurlanan, təkəbbürlülük satan gözəlləri qınağa çəkmiş, onları necə deyərlər kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişilməsinə keçməsi qanunu ilə doğru yola, düz yola dəvət etmişlər.

Dahi Füzulidə “ey məhluqə” deyimi “ey yaradılmış” mənasında incə bir eyhamla gözəllərə ünvanlanır:

Üzün gördükdə yüz min zahid bütpərəst oldu,
Yüz min də brəhmən büt sındırar ey məhluqə, gördüm!

Aşıq Şəmşirdə isə “aşıq-döyüşçü” xətti ilə bu özünü daha ciddi görsədir

Unudub dostunu yad olan zalım,
Bəs mən necə çəkim belə fərağı?!
Mürvətdirmi möhnətində qocalım,
Bir sənin dərdindən nəinsaf yağı?

***

Şəmşirin sözlərin gəl eşit, barı,
Bir bax Süleymanın mülkünə sarı.
Sən kimi gözəllər çox olub qarı,
Əyilib çənəsi, əsir dodağı [1,s.305].

Satirik əhval yaratmaq məqsədilə xalq məsəllərini şeirdə verə bilmək Aşıq Şəmşir kimi ustadlara xasdır Komizmin köməyilə oxucuda estetik həzz yaratmaq Aşıq Şəmşir kimi Ustadlara nəsib olur:

Bir qotur danadan puç olur naxır,
Qalay sürtüləndə görünür paxır.
Dəvələr nalbəndə necə ki, baxır
Nadan da Şəmşirə eləcə baxdı [1,s.60].

Komiklik də estetikanın mühüm kateqoriyalarından hesab olunur. Komiklik çox geniş şəkildə ancaq ədəbiyyatda, teatrda və kinoda öz təzahürünü və inkişafını tapır. Azərbaycan ədəbiyyatının mühüm bir qolu kimi aşıq şeirində də yumor və satira güclüdür. Aşıq şeirində də ailə-məişətin və insanın müxtəlif qüsurları tənqid hədəfi olmuşdur. Komikliyi estetik kateqoriya edən, onu gözəlliklə yaxınlaşdıran başqa bir mühüm amil də vardır. Bu da ondan ibarətdir ki, komik hadisələr də gözəl və başqa estetik hadisələr kimi insanda qərəzsiz sevinc hissi doğurur, insana həzz verir və bunun da sayəsində katarsis əmələ gətirirlər. Komikliklə qərəzsiz sevinc hissi gülüş vasitəsilə ifadə olunur və gülüşdə təzahür tapır. Gülüş isə çox yüksək katarsis əmələ gətirir.

Tısbağa özünə maral deyəndə
Ölməyən maralın öləsi tutur.
Tülkü şirə dönüb özün öyəndə
Göy uçub yerlərə gələsi tutur [1,s.77].

Yarpaq düşməlidi vaxtı çatanda,
Xunxar yıxılacaq baxtı yatanda.
Dovşan kərgədana şıllaq atanda,
Şəmşir ağlasa da güləsi tutur [1,s.77].

Aşıq Şəmşir yaradıcılığına xas olan komizm ictimai-siyasi xarakterdə olan komizmdir. Bu komizmdə dialektik əksliklər düzgün tapılaraq gülüş doğura bilmişdir. Sosial qrup halında yaşayan arı və qarışqa ailələrini himar milçəyinə qarşı qoyur. "Payız çiçəyi" ifadəsi ilə cəmiyyətdə yerini bilməyənlərin sonunun faciəvi olacağını komik tərzdə təqdim edir:

Şəmşir, söylə sən doğrunu, gerçəyi.
Solar şaxtalarda payız çiçəyi.
Desə bal çəkirəm himar milçəyi,
Qarışqalar ağlar, arılar gülər [3,s.61).

Həyatda komiklik heç də gözəllik, ülvilik və faciəvilikdən az deyil. Lakin insan onu həmişə qavramağı bacarmır. Bunun üçün həyata yaxın olmaq, gerçəkliyi bütün rəngarəngliyi ilə görməyi bacarmaq lazımdır. Məhz Aşıq Şəmşir bu cür sənətkarlardandır:

Nərvan, söyüd, ulğun desə barım var,
Alma gülər, heyva gülər, nar gülər.
Buzlu çillə yazı qonaq çağırsa,
Boran gülər, tufan gülər, qar gülər [3,s.61].

"Görünmür" rədifli gəraylıda sənətkarı tanımayan ədəbazlar Ustadın satirik qələminə tuş gəlir:

Ədabazın olmaz adı,
Ucalmaz şeytan övladı.
Sənətkarı tanımadı,
Boynunda qotaz görünür [2,s.466].

Komikliyin təbiətini tədqiq edənlərin əksəriyyəti onu ziddiyyətlərlə bağlayırlar. Borevə görə [172] əsl komikliyə, gülüşə ziddiyyətləri kəskinləşdirən və onların sosial təbiətini açmağa kömək edən vəziyyətlər gətirir. Komizm-eybəcərliyin gözəlliklə (Aristotel), dəyərsizliyin ülviliklə (Kant), cəfəngliyin ağıllılıqla (Jan Pol, Şopenhauer), yalan, saxta mahiyyətin böyüklük, sabitlik və həqiqiliklə (Hegel) "toqqaşması"nın nəticəsidir. [172] Komizm Aşıq Şəmşir poeziyasında təvazökarlıqla təkəbbürün və şişirtmənin, yalanla doğrunun, mahiyyətdə mövcud olanın formada öz əksini tapa bilməməyin toqquşmasıdır.

Qanqal desə, reyhanam mən gül gülər,
Damcı özün Araz saysa sel gülər,
Sağsağana laçın desəm el gülər,
Hədər yerə bu bəzəkdən nə yazım [1,s.274]

***

Yaranandan elə bil ki, gəlib səylik tək sənə,
Hərcayılıq qoşa gedər, yaşın çatsa səksənə,
Daqqa-daqqa el içində az özünü çəksənə,
Naşı gəmin çətin keçər daşqın Arazdan, gəda [3,s.403]

Cəmiyyətin qüsurlarını, çatışmazlıqlarını estetik kateqoriya olan komizmin köməyilə ifşa edən ustad aşıqlar üçün bu kateqoriya, həm də məclislərdə auditoriyaları səfərbər etmək baxımından, öz çıxışlarının yaddaqalan olunması baxımından öyrənilməyə layiqdir.

## 3.4. AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA SÖZÜN ESTETİK TUTUMU

Hələ dahi Füzuli deyirdi ki, nə qədər çalışdımsa da yeni bir söz yarada bilmədim. Yaratsam belə onu insanlar başa düşməyəcəkdilər. Deməк, söz sənətkarlarına qalır Allaha məxsus söz adlı kərpicləri Allah razılığı ilə düzə bilmək, bu düzümü estetikcəsinə təqdim edə bilmək, nəhayətdə oxucuda estetik həzzə nail olmağı bacarmaq. Akademik Muxtar İmanov estetik zövqün formalaşmasında bədii ədəbiyyatla (sözlə) musiqinin birgə təsirindən bəhs edir: “Və vurğulamaq istəyirik ki, ozan şeirində olduğu kimi, aşıq şeirində də ortaya çıxan bir çox sualların cavabı məhz musiqidədir. Bizdə sazın sözdən, sözün sazdan ayrı öyrənilməsi, aşıq şeirinin aşıq musiqisindən nə dərəcədə asılı olmasına diqqət yetirilməməsi bu sahəyə aid tədqiqatların lazımi istiqamətdə getməsinə maneçilik törədir [125].

İncəsənət fəlsəfə ilə də əlaqədardır. Fəlsəfə və bədiiliyin sintezi, bir tərəfdən, bir çox bədii əsərlərin fəlsəfi məzmun daşıması, digər tərəfdən, bəzi fəlsəfi əsərlərin bədii əsər şəklində yazılması ilə əlaqədardır. Sənətkar öz əsərində həyatın ən müxtəlif tərəflərini əks etdirirkən bunların mənası və inkişaf yolları haqqında da düşünür. Gerçəkliyin qanunauyğunluqları barədəki təsəvvürlərini obrazlı şəkildə həyata keçirən sənətkar istər istəməz fəlsəfi nəticələrə gəlib çıxır. Personajların dili ilə fəlsəfi fikirlər səslənir. Bəzən hətta rənglər və ya musiqi də dünyəvilik, möhtəşəmlik, əzəmət, sonsuzluq, məhəbbət və s. ifadə edərək dərin fəlsəfi ideyaları tərənnüm edir. Sırf fəlsəfi əsərlərə gəlincə isə, onların gözəl fikir ifadə etməsi artıq estetikliklə qovuşmaqdır. Əvvəllər həm tarixi (məsələn, Herodotun,

Fukididin əsərləri) həm də fəlsəfi əsərlər, adətən, bədii nəsr və ya şeir formasında yazılırdı. Fəlsəfə ilə bədiiliyin sintezinin ən yüksək forması Platonun yaradıcılığında öz əksini tapır. Onun fəlsəfi dialoqları bədii forma ilə dərin düşüncənin sintezidir. Antik filosofların fikrincə, fəlsəfi-poetik təcəssüm ən böyük ümumiləşdirici qüvvəyə malikdir və yalnız ümumiləşdirici fikir əqli təzələyən, əxlaqi təmizləyən gözəllik yarada bilər. Belə əsərlər daha çox bədii əsəri xatırladır. Platonun, Didronun, M.F.Axundovun və digər filosofların fəlsəfi əsərləri bu qəbildəndir. Bir sıra qoşmalarından, ustadnamə və divanilərindən də göründüyü kimi, bədii tablolar yaratmağı daha çox sevən Aşıq Şəmşir də "Gördüm" qoşmasında dünənlə bugün arasındakı fərqi canlandırmağa çalışır, öz yaşına, təfəkkür və təxəyyül səviyyəsinə, qələm təcrübəsinə görə müvəffəq də olurdu:

Dünən bu Şəmşirdən qan alan dəllək,
Bu gün dövranını döndərib fələk.
Dünən məzlumlara quran min kələk
Bu gün bəd işinə baxılan gördüm [167; 168,s.110].

Məlum olduğu kimi, aşıqlar, əsasən, iki cür olur: yaradıcı aşıqlar, ifaçı aşıqlar. Bunların hər birinin həm ümumi, həm də özünəxas məziyyətləri vardır. Yaradıcı aşıqlar (ifaçı aşıqlara nisbətən) xüsusən şeirə, sənətə aid daha çox bilik, məlumat və təcrübə sahibi olmalıdır. Böyük fitri istedada malik yaradıcı aşıqlar yeni söz (şeir), yeni havacat yaradan, həm də yazdıqlarını, yaratdıqlarını məclislərdə, camaat qarşısında məharətlə ifa edə bilən ustad aşıqlardır. Əlbəttə, bu sifətlərin hamısı eyni zamanda eyni sənətkarın simasında toplana, cəmlənə bilmir. Ustad aşıq-

ların sözləri dildən-dilə gəzə-gəzə, yaratdıqları havacat sazların simlərində ötə-ötə nəsildən-nəslə keçir [146; 147].

Azərbaycan nitq mədəniyyətinin təşəkkül tapmasında, dilimizin bugünkü müasir səviyyəyə gəlib çatmasında söz sənətkarlarının, söz xiridarlarının rolunu qiymətləndirərkən Dədə Şəmşirin özünəməxsus yerinin tədqiqinə ehtiyac duyulur.

XX əsr Azərbaycan sözünün formalaşmasında Aşıq Şəmşir yaradıcılığının tədqiqi ədəbiyyatşünaslarımız tərəfindən öz gələcək həllini gözləməkdədir. Nitqin əsas vahidinin söz olduğunu qəbul ediriksə Dədə Şəmşirin söz haqqında duyğularını, düşüncələrini, fikirlərini sizlərlə bölüşmək qərarına gəldik.

Sözün qədrini bilən, sözü sevən, sözlə nəfəs alan Dədə Şəmşir şeir üşün, söz üşün sələflərini yada salır, ustadlarını təvazökarlıqla gələcək nəsillərə nişan verir:

Firdovsi varmı gəl görək,
Şəmşir, onlardan öyrənək.
Nizami tək, Füzuli tək
Yazan varmı şəkər şeir?! [I,s.326].

Aşıq Şəmşirin özünün söz ustası, söz nəhəngi olması fikirləri Azərbaycan yazarlarının şeirlərində kifayət qədər öz əksini tapmışdır. Rasim Kərimlinin [151] miralarında olduğu kimi:

Bu dağların öz nəğməsi,
Öz oxuyub çalanı var.
Şəmşir kimi söz nəhəngi,
Şair Məmməd Aslanı var [151].

Aşıq Şəmşir yaradıcılığında söz müqəddəsdir. Söz Quran ayə və surələri təkin müqəddəsdir. Sözün, şeirin satıla bilmədiyni tamahkarlara anladır. Söz satıla bilməz. O da ola Şəmşir sözü, o da ola Allaha məxsus halal söz:

*Halal* sözə qatma haram,
*Haram* ilə yoxdu aram.
Oğruya şeir satmaram
A tamahkar pul oğrusu [I,s.344].

Sözünə möhkəm olmayan, vədinə xilaf çıxan elə Allah əmrindən çıxan bəndədir. Allah əmrindən çıxmaq şeytana qovuşmaqdır ki, Dədə onları "şeytanın anası" adlandırır, sözə xəyanət edənləri lənətləyir, qamçılayır:

Şeytanın öz anasıdı,
Sözünə möhkəm olmayan [1,s.346].

Dədə Şəmşir nadan insanlardan uzaq durmağı, söz anlamayanlardan kənar gəzməyi sanki bizlərə vəsiyyət edir:

Nadan sözü almaz kimi
Kəsdi məni, yaralandım [1,s.372].

Sözə qiymət verilməyəndə, Şəmşirin "tərlan" sözü "sar"a tay tutulanda sözünə yazığı gəlir, sözünün halına yanır. "Yazığım gəlir" rədifli qoşmasında sənətkarın gah özünə, gah üzünə, gah dizinə, gah da gözünə yazığı gəlir. Söz sonda şairin sanki bədən üzvünə çevrilir və sözünə yazığı gəlir:

Dərdə giriftaram mən bəxtiqara,
Alıcı tərlanım tay oldu sara.
Yorulmaz təbimlə ağ varaqlara,
Yazılan sözümə yazığım gəlir [1,s.24].

İnsan və söz! Dədə Şəmşir üçün insanın varlığı, mövcudluğu sözdədir. "İnsanın digər canlılardan fərqinin mühüm əlaməti elə sözdən ibarətdir" fəlsəfəsini meydana gətirir:

Bir nadan qəlbimə toxundu toyda,
Anlamadı əyri nədi, düz nədi.
İnsan görməmişəm hələ bu boyda,
Başa düşmür mətləb nədi, söz nədi [1,s.47].

"Qılınc yarası sağalar, söz yarası sağalmaz" xalq deyimini estetikcəsinə aşıq yaradıcılığına gətirir:

Müxənnətin gəlişindən
Meylin məndən aralandı.
Bir zəhərli acı sözdən
Qəlbim şan-şan yaralandı [3,s.338].

Təfəkkürün məhsulu olan söz müdriklik çağı sayılan qocalıqda daha qiymətlidir. Ahıl yaşdakı təfəkkürün məhsulu olan söz həmişə təzədir. Təzədir bahar təkin:

Şəmşir qocalsa da sözü təzədi,
Bahar gəldi dünyamızı bəzədi.

Bu gün düzəni pozulmuş, müvazinətini itirmiş, Azərbaycanımızın haqq səsinin az eşidildiyi, bəzən də eşidilmədiyi cağımızda Dədənin şeirləri bizləri bir olmağa, möhtərəm prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməyə sövq edir. "Hərəkətdən də, fəaliyyətdən də öncə söz birliyinin dayanması" fəlsəfəsini ortaya qoyur. Hətta əzəmət, güc, məğlubedilməzlik simvolu sayılan dağlar belə elin sözü bir olarsa, bu söz birliyi qarşısında qopub gedər. Bu misraların daha dərin qatı onunla səciyyələnir ki, Uca Allah dağdan da öncə sözü yaratmışdır. "Ol" əmrindən sonra dağlar yaranmışdır. Bu bir daha Dədənin islam elminin dərin qatlarına bələdliyindən xəbər verir:

Düzdü əhli-dilin sözü,
Şəmşir sevir bilin, sözü.
Bir olarsa elin sözü
Uca dağlar qopar gedər [1,s.299].

Sözün ifadəsi, təsirli olması sözlərin mövzuya uyğun düzgün seçilməsində, nitq vahidlərinin yerli-yerində işlənməsindən asılıdır. Analitik təfəkkürə əsaslanan məna və məzmun olmadan söz quru bir şeyə çevrilər, canlılıqdan məhrum olar. Təkcə aşağıdakı iki sətir nitq mədəniyyətimizə, nitqimizin inkişafında sözə verilən böyük qiymətdir:

Şəmşir, yazdın təsirli söz,
Kəlmə lətif, məna da düz.

Aşıq Şəmşir dilimizin bugünkü müasir, yüksək səviyyəyə çatmasında, inkişafında yeri olan sənətkarlardandır. Şəmşir şeirləri zamanından asılı olmayaraq həmişə müa-

sirdir. Böyük sənətkar sözlə ehtiyatlı davranmağı bizlərə anladır. Söz silahından alınan yaraların sağalmaz olduğunu öz şeir dilində bir daha izah edir. Bir millət olaraq, bir ümmət olaraq, bir xalq olaraq bir-birimizin xətrinə dəyməməyi tövsiyə edir:

Şəmşirin var öz yarası, qurtarmaz,
Acı dilin yüz yarası qurtarmaz,
Belə xoryat söz yarası qurtarmaz,
Bu dərdə yox çara, xətrimə dəydin.

Bu musralar Dədə Ələsgərin [17]:

Can deməklə candan can əskik olmaz,
Məhəbbət artırar, mehriban eylər...

misraları ilə həmahəng səslənir.

Hər şeyi bir nizamda yaradan Böyük Yaradan nitqi də bir canlı orqanizm kimi yaratmışdır. Orqanizmin gücü, onun normal fəaliyyəti orqanlar arasındakı qarşılıqlı əlaqədə, harmoniyadadırsa, nitqin də gücü nitq elementləri arasındakı harmoniyadan asılıdır. Bu harmoniya pozulanda orqanizm xəstələnirsə, nitq də "xəstələnmiş" olur. Məhz, bu qaydaları pozulan nitqi Dədə qəbul edə bilmir. Şam kimi alışıb yanmağa başlayır. Allahın bəndələrə ərmağanı olan sözə Şəmşir sevgisi bir daha öz təzahürünü göstərir. Dədə bir daha bizləri Azərbaycan dilinə, Azərbaycan nitq mədəniyyətinə hörmətə, sevgiyə çağırır:

Az qaldı şam kimi alışıb yanım
Haçan deyilmədi söz qaydasında [1,s.261].

Uzaqgörən ustad, nikbin sənətkar sözlərinin qədirbilən xalqına qaldığını qabaqcadan duyur və dilə gətirir:

Aşıq xeyli gün keçirdi, qocaldı
Sözlərim qədrini bilənə qaldı.

Dədə Şəmşir təvazökarlığı burada da özünü göstərir. “Gün keçirmək” frazeoloji söz birləşməsi bizi zamana – bu qısa ömrün sığdığı zamana, vaxta hörmət etməyə səsləyir. Real həyatda yazıb-yaradan sənətkar, “gün keçirməyən” sənətkar, “zər qədrini zərgər bilər” misalına uyğun olaraq sözlərinini söz qədrini bilənlərə, bu gün ziyalı övladlarına, sözə qiymət verən nəvə-nəticələrinə çatacağına işarə edir.

Aşıq Şəmşir yaradıcılığında söz və gözəllik anlayışları dialektik vəhdətdə, xalq deyimi kimi sadə bir dildə çatdırılır:

Söz gözələ, gözəl sözə layiqdi,
Dastan desəm qaşa, gözə layiqdi,
Şəmşirin tərifi sizə layiqdi,
Deyirəm mərdanə, Bakı qızları [3,s.236].

Aşıq Şəmşir sözlə ehtiyatlı davranmağı hər birimizdən tələb edir,

Tikə şişə çəkiləndə
Kabab yanar köz vuranda.
Oda yanar canım mənim,
Sən tənəli söz vuranda [ 3,s.378].

Eləcə də sözlə ehtiyatlı olmağa, sözlə düzgün rəftar etməyə çağırır bizi. Yenə də xalq fəlsəfi deyimi işə düşür, sadəcə xaq dilində, şeir dilində, anlaqlı formada:

Şan-şan olar göz yarası,
Heç sönərmi köz yarası.
Sağalarmı söz yarası,
Şəmşir ahu-zar etməzmi?! [1,s.410].

Ulu Şəhriyarın [100] şeirlə halallıq arasında olan əlaqəsi aşağıdakı misralarda öz əksini tapır:

Nədir istədiyim? Bir həsir, bir şam,
Bir balınc, bir kuzə arzulamışam.
Bir az ay işığı, bir cam təmiz su,
Bir yaşıl söyüdün bahar qoxusu.
Bir parça çörəyin ağız ləzzəti,
Fəqət dünya boyda ilham qüvvəti

Aşağıda verilən Şəmşir misraları ilə Şəhriyar üslubundakı uyğunluq oxucunu dil varisliyimizin necə qorunmasına inandırır. Oxucu aza qane olan Şəhriyar və Şəmşir kimi sənətkarların düşüncə tərzlərinin eyniliyinə heyran qalırlar:

Bir otaq, bir çarpayı,
Bir cüt təzə yorğan-döşək.
Yavan**lığın olmasa da**
Ola yavan, halal çörək.
Səxasız qızıl-gümüş,
Əbrü-atlaz nəyə gərək? [1,s.526].

"Yara qalmadı" rədifli təcnisdə estetikcəsinə qadın gözəlliyi təsvir olunur:

Şəmşir qulluğunda bir lala bənzər,
Ləblərin mərcana, bir lələ bənzər.
Hüsnünə bir çiçək, bir lala bənzər,
Sənin yanaqların yar, ağ almadı [1,s.432].

Yuxarıdakı misralarda aşıq özünü "lala" bənzətməklə mərifət haqqında təlim yaradır. Lal dedikdə söz qaytarmayan, Allah əmrinə sözsüz tabe olan bir mərifət əhli başa düşülür. Sonrakı misralarda yarın ləbləri qiymətli daşa-lələ, hüsnü-laləyə, yanaqlar ağ almaya bənzədilməklə estetik bir lövhə, tablo yaradılır.

Sözün estetik tutumu eləcə də sözdəki məntiqi ardıcıllıqdan asılıdır. Oxucu, necə deyərlər, sənətkardan həmişə məntiqi ardıcıllıq tələb edir. "Yarpaq" rədifli qoşma məntiqi ardıcıllığa səlis bir nümunədir. Tumurcuq – qönçə – yaşıl yarpaq – tufanlara sinə gərən – dolu ilə sınan, qırılan – sonda saralan yarpaq ardıcıllığı dialektik və təsəvvüf qanunlarını özündə əks etdirir. Sonrakı bənddə insan ömrü ilə yarpaq ömrü arasındakı paralel, müqayisə aparılır.

"Mövlana dünyadan möhkəm yapışanları yetişməmiş meyvəyə bənzədir:- yetişməmiş meyvə budağa möhkəm yapışır. Meyvə yetişəndə isə budağa olan bağlılığı zəifləyər və nəhayət, budaqdan ayrılmaq ona heç də çətin olmaz. Kamilləşmiş insanlar da bu dünya ayrılığından qorxmamış, əksinə, sevinmişlər. Sən bundan ibrət al və "Ölmədən əvvəl ölün!" hədisinə tabe ol". Tabe ol ki, qəlbin fani sifətlərdən təmizlənərək təslimiyyət sirrinə çatsın və bir ömür içində yaşadığın hikmət və sirlər dənizi səni başı üstündə gəz-

dirsin. Çünki dənizlər ona təslim olanı başları üstündə daşıyarlar. Ancaq boş çırpıntılarla təslim olmaqda tərəddüd edənləri nəfəs kəsən qaranlıq diblərə çəkərək boğar" [120].

Bir zaman burc olur, bir zaman qönçə,
Yaşıl budaqlara bitişən yarpaq.
Tufandan qırılıb, doludan sınıb –
Vədəsi saralıb bu düşən yarpaq [1,s.300].

***

Qaytarmaq olarmı əldən gedəni,
İnsan da çürüyər, tapsa zədəni,
Bütün yaranmışlar gözlər vədəni,
Adətdir, tökülər yetişən yarpaq.

***

Şəmşir bu dünyaya baxdı gələndə,
Yəqin bildi: ölüm haqdı – gələndə.
Dayanmaz ağacda vaxtı gələndə,
Sanlı günlərindən ötüşən yarpaq.

Aşıq Şəmşir yaradıcılığında antiestetik və antietik dəyərlərin birgə ortaya çıxdığı məqamlar üçün şeirlər mövcuddur. "Bəyənmir" rədifli qoşma bu qəbildəndir. Qoşmada xudpəsənd adamlarda mövcud olan, cəmiyyətin ziddinə gedən xüsusiyyətlər satirik bir qələmlə qamçılanır. Öncə bu nadanlıq Haqqla bağlı mərifətsizlikdən qaynaqlanır:

Atəşimi Araz axsa, keçirtməz,
Tülkü şiri, eşşək atı bəyənmir.
Nadan həqiqətdən la kəlmə bilmir,
Haqq göndərən salavatı bəyənmir [2,s.204].

Haqqla bağlı mərifəti olmayan xudpəsəndlərin estetik siması qələmə alınır. Gözəlliyin əksi kimi eybəcərlik estetik kateqoriyası işə düşür:

Burnu çərə, dodaq çərmək, qabandiş,
Çox gəlir əlindən yaramaz hər iş.
Görən eşidirmi yetirən gərdiş,
Bu eybəcər, hazaratı bəyənmir [2,s.204].

Ustad belə eybəcərliyə malik olanı bağışlaya bilir, hətta "yüz adam"a belə lağ etsə dözür. Amma bütün "eli", "camaatı" bəyənməməyi o bağışlamır:

Atbuğlunun böyüyünə oxşardı,
Nadandı, qanmazdı, həm dilazardı.
Yüzünə lağ etsə, yenə nə vardı,
Bütün eli, camaatı bəyənmir [2,s.204].

"Müqəddəs möminləri" lotuların tanımaması məqamında bəyənilən "qəzəb", cəsarət etik kateqoriyası işə düşür. Belə lotular aşığın sərt, sərrast təpkisinə tuş gəlir:

Eşidənlər, bilmə məni günahkar,
Şəmşir ha əlindən çəkir dad-hazar.
Tanımır, murdardı – nə qeyrət, nə ar,
Müqəddəs mömünü lotu bəyənmir [2,s.204].

Sözə qiymət, sözə qayğı, yalana nifrət, yalan sözə yer ayırmamaq, cəmiyyət üzvləri arasında yalan sözün yaşamasına imkan verməmək Ustadın əsas etik kredosudur:

Gəl yaxşı bağ salaq, gülü solmasın,
Şirəsinə məkəs-milçək dolmasın,
Tək bircə kəlmə də xilaf olmasın,
Aramızada yalan söz, əmim oğlu! [2,s.205].

Sözün oxucuda yaradacağı estetik həzz məsələləri bu gün ədəbiyyatımızın qarşısında dayanan mühüm problemlərdəndir. Qlobalizasiya dediyimiz çağımızda milli mədəniyyətlərin qorunub saxlanmasında çətinliklərin ortaya çıxdığı məqamlarda estetik həzz yaradan əsərlərə ehtiyac göz qabağındadır. Bugünkü gəncliyin estetik tələbatının ödənilməsinə xidmət edən əsərlər, necə deyərlər kənar sözlərə olan ehtiyacı heçə endirə bilər.

# ƏDƏBİYYAT

**Quran** (Tərcümə edənlər Z.Bünyadov, Y. Məmmədəliyev) Bakı: Azərnəşr, 1982.
**1. Aşıq Şəmşir.** Dədə öyüdləri. İki cilddə, I cild. Şeirlər. Bakı, "Elm və təhsil", 2013, 560 səh.
**2. Aşıq Şəmşir**. Dədə öyüdləri. İki cilddə, II cild. Şeirlər. Bakı, "Elm və təhsil", 2014, 560 səh.
**3. Aşıq Şəmşir**. Şeirləri. Bakı, 1973, 420 səh.
**4. Ağdabanlı Şair Qurban**. "Qumrutək ləhcəli, xoşxandı Qurban" (şeirlər), Bakı, "Elm və təhsil", 2012. 480 səh.
**5. Abbasov Əbülhəsən**. Milli maraqlar və milli ideologiya. Bakı: "Təknur". 2012, 240 səh.
**6. Adil Cəmil.** Aşıq Şəmşir poeziyasında xalq gülüşünün izləri // Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, "Nurlan", 2013, 408 səh. – s.24-33
**7. Ağalar Mirzə**. Şirvan aşıq yaradıcılığı. Bakı, "Elm" nəçriyyatı, 2007, 300 səh.
**8. Ağayar Şükürov.** Fəlsəfə. Bakı, "Çıraq",2008, 568 səh.
**9. Ağaverdi Xəlil**. Aşıq şeirinin sufi əsasları və müasirlik. // Sazımız ağlayır dağlar başında (məqalələr toplusu). Bakı, "Azərnəşr", 2014, 624 səh. – s.388-395
**10. Axundov M.F.** Əsərləri 3 cilddə, Bakı, 2005.
**11. Alışanov Ş**. Sözün estetik yaddaşı. Bakı: Elm, 1994, 228 səh.
**12. Araslı H**. Nizaminin poetikası. Bakı: Elm, 2004
**13. Arif Məmmədli.** "Ürəksiz çalma", Laçın yurdu № 4, 2017-ci il

**14. Aristotel.** Nikomax Etikası (Tərcümə edəni F.Təbibi). Bakı, Qanun, 2007, 340 səh.
**15. Aristotel.** Poetika. Bakı, 1974
**16. Aşıq Alı.** Əsərləri. Bakı, "Avrasiya press", 2006, 192 səh.
**17. Aşıq Ələsgər.** Bakı, "Elm və təhsil", 2012, 280 səh.
**18. Aşıq Hüseyn Saraclı**. "Dədə Şəmşir". Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. s.279
**19. Aşıq Qardaşxan**. "Şəmşir" // Sazımız ağlayır dağlar başında məqalələr toplusu). Bakı, "Azərnəşr", 2014, 624 səh. – s.586-587
**20. Aşıq Şəmşir**. Bir də gəl. "Ədəbiyyat qəzeti", 11 may 1956-cı il. Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. – s.6-7.
**21. Aşıq Şəmşir**. Seçilmiş əsərləri. Bakı, Avrasiya press, 2006, 400 səh.
**22. Aşıq Şəmşir**. Şəmşirin naləsi, – Səməd, gəl, – deyir. Dədə Şəmşir yaddaşlarda. Bakı, Gənclik, 2000, 360 səh.- s.217-224
**23. Aynur Babək**. Türk mifologiyasında kosmoqonik su stixiyası. // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (otuzuncu kitab). Bakı, "Nurlan", 2009, 170 səh. - s.131-146
**24. Aytac Abbasova**. Aşıq Şəmşir və Kəlbəcər mühiti. // Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, "Nurlan", 2013, 408 səh.-s.133-147.
**25. Azad Nəbiyev**. Azərbaycan aşıq məktəbləri. Bakı, "Nurlan", 2004, – 312 səh.

**26. Bəhmən Vətənoğlu**. "Allahsız dünya". Bakı, Gənclik, 1992. səh.228
**27. Bəhmən Vətənoğlu**. "Bülbülü Şəmşir". Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. s.164
**28. Bülbül**. Seçilmiş məqalə və məruzələr, Bakı, 1968, 197 səh.
**29. Bünyadov Teymur**. Əsrlərdən gələn səslər. Bakı: Azərnəşr. 1993. 264 səh.
**30. Cabir Ələsgəroğlu.** Kəlbəcərtək elim var. Bakı, "Elm və təhsil", 185 səh
**31. Cavad Heyət**. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda. Bakı, "Elm və təhsil", 2011.
**32. Cavid Qənbəroğlu.** Dünya qəmli nağıl imiş (şeirlər), Bakı, "Adiloğlu" nəşriyyatı, 2010-cu il, 144 səh.
**33. Cəfərov Nizami**. Qədim türk ədəbiyyatı. Bakı. "Elm və təhsil", 2013.
**34. Dədə Şəmşir yaddaşlarda** (Xatirələr), Bakı, Gənclik, 2000, 360 səh.
**35. Dil Mədəniyyəti.** Bakı, "Elm" 1972, 40 səh.
**36. Elbrus Şahmar.** "Şəmşir yadigarı". // Dədə Şəmşir yaddaşlarda (Xatirələr). B., Gənclik, 2000, 360 səh. s.237-238
**37. Elçin**. "Təşrif buyur gedək bağa". Aşıq Ələsgər. Bakı, "Elm və təhsil", 2012, 280 səh. kitabında s.3-7
**38. Engels Fridrix**. Ailənin və dövlətin mənşəyi. Bakı, "Azərnəşr", 1974, 108 səh.
**39. Etikanın aktual problemləri** (IV) Bakı, Təknur-2013,s.28-29.
**40. Əbu Hamid Əl-Qəzali**. "Əməllərin mizanı" və başqa əsərləri. Bakı, "Adiloğlu", 2007, 212 səh.

**41. Əfəndiyev P**. Azərbaycan folklorşünaslığının problemləri. Bakı. “Elm və təhsil”, 2010.
**42. Əlağa Vahid**. Seçilmiş əsərləri. Bakı. “Lider nəşriyyatı” 2005, 472 səh.
**43. Ələmdar Cabbarlı**. “Qurban bulağı”. // Sazımız ağlayır dağlar başında (məqalələr toplusu). Bakı, “Azərnəşr”, 2014, 624 səh. – s.469-474.
**44. Ələmdar Keştəkli**. “Dağlarda izim qalıb”. “Elm və təhsil”. Bakı, 2012, s.184-185
**45. Əliyev İlham**. AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda nitq. Xalq qəzeti, 11 noyabr 2015-ci il.
**46A. Əlqəmə Əmrahoğlu.** Murov yolu. Bakı, “Təknur” MMC mətbəəsi, 2007, 137 səh.
**46. Əlləzova Sevinc**. Növrəs İmanın həyat və yaradıcılığı. F.ü.f.d. almaq üçün yazılmış disser... avtoreferatı. Bakı-2013, 32 səh.
**47. Ənvər Əhməd**. Dədə Şəmşir köç eylədi dünyadan. S.53-55.
**48. Ənvər Rza.** Bəxtəvər dustaq. Bakı. Azərnəşr, 1994, 172 səh.
**49. Əskər Nailə**. Aşıq Nəsibin dövrü, mühiti, yaradıcılıq yolu. Fil.üz.fəlsəfə d. elmi dərəcəsi almaq üçün yazılmış dissertasiyanın avtoreferatı, Bakı. 2012, 32 səh.
**50. Fatih Kasım**. Azərbaycan və Türkiyə yazılı aşıq ədəbiyyatında dini motivlər, Bakı-2016, 26 səh.
**51. Flora Xəlilzadə**. “Poetik karvanın söz yükü” // Sazımız ağlayır dağlar başında (məqalələr toplusu). Bakı, “Azərnəşr”, 2014, 624 səh. – s.330-336.

**52. Füzuli Bayat**. "Aşıqlığın olmazsa-olmazlarından biri də ədəbdir". Sazımız ağlayır dağlar başında. Məqalələr toplusu Bakı, "Azərnəşr", 2014, 624 səh. s. 38-43.
**53. Füzuli Bayat**. Təsəvvüfün ontoloji və episetemoloji sistemi. // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (otuzuncu kitab). Bakı, "Nurlan", 2009, 170 səh. S.13g-30.
**54. Füzuli Bayat**. Aşıqlıq sənətinin ötürülməsində usta-şagird ənənəsinin funksional rolu. // Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, "Nurlan", 2013, 408 səh.-s.172-185.
**55. Füzuli Ramazanoğlu**. "Üşüdü məzarın, ay Dədə Şəmşir". Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. s.45
**56. Gülxani Pənah**. Saz-söz sənətkarları – Dədə Şəmşir. (tədqiqlər, tədqiqatlar). Bakı, "UP" nəşrlər evi, 2013
**57. Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. I-XLIV cildlər. Bakı, Azərnəşr, 2005
**58. Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili.** (Akademik Ağamusa Axundovun redaktəsi ilə). Bakı, "Elm", 1998. 196 s.
**59. Həbibbəyli İsa.** "Fitri istedadla bədii təfəkkürün vəhdəti". // Sazımız ağlayır dağlar başında (məqalələr toplusu). Bakı, "Azərnəşr", 2014, 624 səh.
**60. Həkimov M.İ.** Azərbaycan aşıq ədəbiyyatı. Bakı. Yazıçı, 1983, 239 səh.
**61. Həkimov M.İ.** Aşıq sənətinin poetikası, Bakı, "Səda", 2004, 610 səh.

**62. Həkimov M.** Azərbaycan aşıq şeir şəkilləri və qaynaqları. Bakı: Maarif, 1999

**63. Həsənova S.** "Nitq mədəniyyəti və üslubiyyat". Bakı, 2005. 192 s.

**64. Həsənova Sədaqət**. "Azərbaycan dilinin nitq mədəniyyəti prblemləri". "Azərbaycan multikulturalizmi: Din və Dil siyasətinin inkişaf perspektivləri" beynəlxalq konfransın materiallar toplusu, Bakı, 8-9 sentyabr 2016-cı il. səh.43-47.

**65. Hüseyn Əlizadə.** Estetika. Bakı: "Elm", 2007, 380 səh.

**66. Hüseyn İsmayılov**. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı, "Elm" nəşriyyatı, 2002, 311 səh.

**67. Hüseyn İsmayılov**. Novruz bayramı: Tarixi-mədəni mahiyyəti və semantik strukturu. // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (otuz birinci kitab). Bakı, "Nurlan", 2009, 158 səh. S.3-14

**68. Hüseyn İsmayılov**. "Ön söz". Aşıq Alı. Əsərləri. Bakı, "Avrasiya press", 2006, 192 səh.

**69. Hüseyn Kürdöğlu**. "Ağdabanda qonağam". "Yenilik" qəzeti, 17 avqust 1968-ci il. Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. s.16

**70. Hüseyn Kürdoğlu**. Dağlar nalə çəkib Şəmşirsiz ağlar... "Xalq qəzeti" 28 mart 1996-cı il

**71. Hüseynov S.** "Nitq mədəniyyəti" (Dərslik). Bakı, "Yazıçı", 2010. 238 s.

**72. Hüseynov Rafail.** Giriş sözü // Məclis (Ədəbi mərasimlər, ildönümlər, görüşlər). Bakı: Nurlan, 2006,s.93-101

**73. Xəlil Yusifli**. Nağıllar aləmi və həyat həqiqətləri. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, "Lider nəşriyyatı", 2004, 336 səh. – səh.4-11

**74. İbrahimov Mirzə**. Aşıq poeziyasında realizm. Bakı, 1966
**75. İdris Səmədov**. Aşıq Şəmşirin qoşmaları. Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. – səh.21-22
**76. İlhamə Qəsəbova**. XX əsr Qazax aşıq mühiti. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2015, 196 səh.
**77. İlyas Tapdıq**. "Aşıq Şəmşir". "Azərbaycan gəncləri" qəzeti, 1960-cı il. Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. – səh.8-10
**78. İsbəndiyarova Cəmilə.** Sazımız ağlayır dağlar başında. Məqalələr toplusu. Bakı, "Azərnəşr", 2014, 624 səh.
**79. İsmayılov H**. Aşıq yaradıcılığının mənşəyi və inkişaf mərhələləri. Bakı. Elm, 2012
**80. İsmayıl Məmmədli**. Aşıq Şəmşirin dil sənətkarlığı // Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, "Nurlan", 2013, 408 səh.-s.192-206
**81. Kazımov A.** Həyat və ölüm problemi elmlərarası tədqiqat obyekti kimi: qısa xülasə // Etikanın aktual problemləri (IV), Bakı – "Təknur" – 2013 s.65-76
**82. Kazımov Q**. Qurbani və poetikası. Bakı, 1996
**83. Köprülü M. F.** Türk saz şairləri. Ankara, Güven, 1962, 130 səh
**84. Köçəri Cəfərli**. Sədnik Paşa Pirsultanlının təqdimatında, melodik musiqi çeşməsi və Aşıq Şəmşir. Bakı, Azərnəşr, 2011, 126 səh.
**85. Qalib Sayılov**. Azərbaycan aşıq sənətində dini və irfani görüşlər // Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi Konf-

ransın materialları. Bakı, “Nurlan”, 2013, 408 səh. – s.207-220.
**86. Qalib Sayılov**. “Aşıq-zirvə”. // Sazımız ağlayır dağlar başında (məqalələr toplusu). Bakı, “Azərnəşr”, 2014, 624 səh. – s.451-453.
**87. Qara Namazov**. Aşıqlar. Bakı, “Səda” nəşriyyatı, 2004
**88. Qənbər Şəmşiroğlu.** “Alışar məzarım, yanar məzarım...”. Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. s.214-216
**89. Qənbər Şəmşiroğlu.** Kəlbəcər: ömrüm, həyatım (I kitab). Bakı, “Təknur” mətbəəsi, 2012-ci il, 400 səh.
**90. Qənbər Şəmşiroğlu.** Kəlbəcər: ömrüm, həyatım (II kitab). Bakı, “Elm və təhsil”, – 2015-ci il, 392 səh.
**91. Qənbər Şəmşiroğlu.** Oğul gərək oğul olsun (şeirlər). Bakı, “Səda” nəşriyyatı, 2006-cı il, 300 səh.
**92. Qənbər Şəmşiroğlu.** Tale oxşarlığı (povestlər və hekayələr). Bakı, “Təknur” mətbəəsi, 2009-cu il, 352 səh.
**93. Qəzənfər Paşayev**. Aşıq sənətinin memarlarından biri. S.44-52. Yenə orada.
**94**. **Qulu Xəlilov.** El sənətkarı. Dədə Şəmşir yaddaşlarda. “Yenilik” qəzeti, 19 yanvar 1974-cü il, 22 yanvar 1974-cü il
**95. Qurbanov Afat.** Dil və üslub 1992, Bakı, səh 46
**96. Qurbanova M.Ə.** Azərbaycan dilində bəzi bədən üzvləri adlarının polisemantikliyinə dair // Bakı Universitetinin xəbərləri, № 2, 2009. səh. 5-12.
**97. Mahmud Allahmanlı**. Aşıq yaradıcılığının inkişaf mərhələləri. Bakı, “Elm və təhsil”, 2011, 292 səh.
**98. Mehdiyev R.Ə**. Fəlsəfə. Dərs vəsaiti. Bakı, “Şərq-Qərb”, 2010, 360 səh.

**99. Məhəmməd Füzuli** Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 1992, 384 səh.
**100. Məhəmmədhüseyn Şəhriyar**. Yalan dünya. “Azərbaycan Ensiklopediyası”. Nəşrtyyat-Poliqrafiya Birliyi, Bakı, 1993, – 496 səh.
**101. Məhərrəm Qasımlı** Ozan-Aşıq sənəti-Bakı- “Uğur” nəşriyyatı, 2004
**102. Məhərrəm Qasımlı.** Aşıq sənətinin memarlarındn biri. Folklor və etnoqrafiya jurnalı. Bakı, 2013, №1,s.49-59
**103. Məhərrəm Qasımlı**. Sözü ucaldan ustad. s. 433-435.
**104. Məhərrəm Paşa oğlu Qasımlı.** Folklor və ədəbiyyat araşdırmaları. Bakı, “Elm və təhsil”, 2017, 628 səh.
**105. Məmməd Aslan.** El aşığı – elin yaraşığışı. “Sovet kəndi” qəzeti, 17 mart 1973-cü il.
**106. Məmməd Aslan.** Elin sevimli sənətkarı. Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. – s.54-57
**107. Məmməd Aslan.** Saxla izimi, dünya. Bakı, Qismət, 2013, 424səh.
**108. Məmməd Aslan.** Saxla izimi, dünya. Bakı, Qismət, 2013, Yüz ilin başıdı. Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. – s.132-135
**109. Məmmədov Qərib, Sara Məmmədova, Eldar Hüseynov, Ağamir Həşimov.** Sosial ekologiya (Sosioekologiya). Ali məktəblər üçün dərslik. OKA Ofset, Bakı-2015, 670 səh.
**110. Məmmədov Q, Məmmədova S, Hüseynov E, Həşimov A.** İnsan ekologiyası (Antropoekologiya). Ali məktəblər üçün dərslik. OKA Ofset, Bakı-2015, 734 səh.
**111. Məmmədov Mehdi**. Estetika haqqında söhbətlər. Gənclik. Bakı, 1968. 80 səh.

**112. Məmmədov Mehdi**. Estetika haqqında söhbətlər. B. 1975, 67 səh.
**113. Məmmədli E.** Təcnis sənətkarlığı. Bakı. Yazıçı, 1998
**114. Məmmədli İlham**. XX əsr Kəlbəcər ədəbi mühiti. Bakı, "Elm", 2010, 180 səh.
**115. Məmmədli İlham**. "İrfan əhli, söz xiridarı". Sazımız ağlayır dağlar başında (məqalələr toplusu). Bakı, "Azərnəşr", 2014, 624 səh.- s. 454-463.
**116. Məmmədhüseyn Təhmasib**. "Özü də Şəmşir, sözü də Şəmşir". Sazımız ağlayır dağlar başında. Məqalələr toplusu. Bakı, "Azərnəşr", 2014, 624 səh.-S.103-126.
**117. Məsimov N., Nuriyev Ş.** Ekoloji tərbiyənin aktual məsələləri. Bakı, "Bilik", 1991.
**118. Mikayıl Müşfiq.** Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 384 səh.
**119. Molla Pənah Vaqif**. Əsərləri. Azərnəşr. Bakı, 1960, 260 səh.
**120. Muxtar Cəfərov.** Eşq pərvanəsi Mövlana Cəlaləddin Rumi. Bakı, "Nurlan" Nəşriyyat-Poliqrafiya Mərkəzi-2009. 264 səh.
**121. Muxtar Kazımoğlu-İmanov**. Ustad aşıq və tarixi ənənə // Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, "Nurlan", 2013, 408 səh. – səh.16
**122. Muxtar Kazımoğlu-İmanov**. Sazın doğuşu – sözün doğuşu. // Sazımız ağlayır dağlar başında (məqalələr toplusu). Bakı, "Azərnəşr", 2014, səh. 22-37.
**123. Muxtar Kazımoğlu-İmanov**. Xalq dilinin poetikası, Bakı, "Elm", 200 səh.

**124. Muxtar Kazımoğlu-İmanov**. "Xalq gülüşünün poetikası" (monoqrafiya) Bakı: "Elm", 2006. 268 səh.
**125. Muxtar Kazımoğlu-İmanov.** Folklor həm keçmiş, həm də bu gündür. Məqalələr. Bakı: "Elm və təhsil", 2014. 194 səh.
**126. Muradov B., Bayramov H.** "Nitq mədəniyyəti". Bakı, 2008. 157 s.
**127. Müasir Azərbaycanda təhsil sosiologiyası**. Bakı, "Təknur"-2014, 154 səh.
**128. Mürsəl Həkimov**. Aşıq Şəmşirin dini dünyagörüşü. s.208-213.
**129. Nağısoylu Möhsün.** "Füzulinin "Hədiqətüs-süəda" əsəri". Bakı, "Nurlan", 2002, 142 s.
**130. Namazov Q**. Azərbaycan aşıq sənəti. Yazıçı. Bakı, 1983, 192 səh. s124-126
**131. Namazov Q**. Ozan-aşıq sənətinin tarixi. Bakı. Elm və təhsil, 2013
**132. Nəbiyeva Almara**. Müasir dövr aşıq yaradıcılığı Fil.üz.fəlsəfə d. Elmi dərəcəsi almaq disser. avtoreferatı, Bakı. 2012, 24 səh.
**133. Nigar Həsənova**. Aşıq Şəmşir şeirlərinin dili və üslubu // Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, "Nurlan", 2013, 408 səh. – s.293-304
**134. Nitq mədəniyyəti məsələləri.** II buraxılış. Bakı, "Elm", 1981. 111 s.
**135. Nitq mədəniyyəti məsələləri.** I buraxılış. Bakı, "Elm", 1992. 204 s.
**136. Nizami Xəlilov**. Aşıq yaradıcılığı və yazılı poeziya. Bakı-Elm-2012, 325 səh.

**137. Nizami Gəncəvi**. Sirlər xəzinəsi. “Lider nəşriyyat”, Bakı, 2004, 264 səh.
**138. Nizami Gəncəvi**. Xosrov və Şirin. “Lider nəşriyyat”, Bakı, 2004, 392 səh.
**139. Nizami Gəncəvi**. Leyli və Məcnun. “Lider nəşriyyat”, Bakı, 2004, 288 səh.
**140. Nizami Gəncəvi**. Yeddi gözəl. “Lider nəşriyyat”, Bakı, 2004, 336 səh.
**141. Nizami Gəncəvi**. İsgəndərnamə. Şərəfnamə. “Lider nəşriyyat”, Bakı, 2004, 432 səh.
**142. Nizami Gəncəvi**. İsgəndərnamə. İqbalnamə. “Lider nəşriyyat”, Bakı, 2004, 256 səh.
**143. Növrəs İman**. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, 200 səh.
**144. Osman Əfəndiyev.** Aşıq poeziyasının estetik problemləri. Bakı, Azərnəşr, 1983, 115 səh.
**145. Osman Nuri Topbaş**. İmandan Ehsana TƏSƏVVÜF, Bakı, “İpəkyolu” nəşriyyatı – 2009, 576 səh.
**146. Osman Sarıvəlli**. Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir. Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. – s.97-121
**147. Osman Sarıvəlli**. “Özü də Şəmşir, sözü də Şəmşir” Yenilik” qəzeti, 12 fevral 1981-ci il.
**148. Ömər Xəyyam**. Rübailər. Əli Polad. Bakı, “Səda”, 2008, 376 səh.
**149. Pirsultan P.S**. Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi. Gəncə: Pirsultan, 2010
**150. Pirsultanlı Paşa Sədnik**. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar. II hissə. Gəncə, 2002
**151. Rasim Kərimli**. “İntizarda qoyma məni”. Şeirlər. B.,Yazıçı, 1991, 288səh. -s.82

**152. Sahibə Paşayeva**. Aşıq Şəmşirin poetik aləminə səyahət. Sazımız ağlayır dağlar başında (məqalələr toplusu). Bakı, "Azərnəşr", 2014, 624 səh. – s.379-384.
**153. Sadıqov Qədəmşah,** Etika, "Maarif" nəşriyyatı. Bakı-1971. 183 səh.
**154. Sadıq Məmmədov**. Zirvəsi qartallı Murov dağıydı. s. Sazımız ağlayır dağlar başında. Məqalələr toplusu. Bakı, "Azərnəşr", 2014, 624 səh. – s. 280-288.
**155. Sadıq Şükürov** Nəriman Həsənzadənin yaradıcılığında estetika məsələləri. Bakı, 2009, 120 səh.
**156. Salman Mümtaz**. El şairləri. Bakı, 1935,s.123
**157. Səbinə İsayeva**. Aşıq Şəmşir yaradıcılığında təsəvvüf ənənəsi ilə bağlı obrazlar // Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, "Nurlan", 2013, 408 səh.-s.313-333
**158. Səbinə İsayeva.** Aşıq Şəmşirin poetikası. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2012, 256 səh.
**159. Sədnik Paşa Pirsultanlı**. Ağdabanlı Qurbanın nəsil-soyunun şair-aşıq şəcərəsi və onun "Qurban bulağı" məclisi. Sazımız ağlayır dağlar başında (məqalələr toplusu). Bakı, "Azərnəşr", 2014, 624 səh. – s. 436-443.
**160. Səməd Vurğun**. Seçilmiş əsərləri. V cild. Bakı, "Şərq-Qərb", 2005, 384 səh.
**161. Sərraf Şiruyə**. Susma ürək... (şeirlər), Bakı, "SkyG", 2015, 272 səh.
**162. Səyavuş Sərxanlı**. "Anam İstisudur, atam Dəlidağ"... Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. s.183-189

**163. Sultanov Ş.Z., Sultanov K.Z**. Ömər Xəyyam. Bakı, Gənclik, 1991. 296 səh.
**164. Şahhüseynova S. A.** Estetika: İncəsənət təmayüllü ali məktəb tələbələri üçün dərslik. Bakı, "Zərdabi LTD" MMC, 2015, 344 səh.
**165. Şükrü E**. Halk Edebiyatına Giriş, Ankara, 1981
**166. Tacir Qurbanov**. Ağbaba aşıq mühiti. Bakı, "Elm və təhsil", 2014, 196 səh.
**167. Təhmasib M.H**. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972. 46 səh.
**168. Təhmasib M.H.** El sənətkarı. Dədə Şəmşir yad-daşlarda. B., Gənclik, 2000, 360 səh. – s.65-68
**169. Təhmasib M. H.** "Qocaman nəğməkar". "Ədəbiyyat və inəcəsənət" qəzeti, 18 yanvar 1964-cü il. Dədə Şəmşir yaddaşlarda. B., Gənclik, 2000, 360 səh. – s.11-15
**170. Vəliyəddin Misiroğlu**. Sərpdəki Vətən – Kəlbəcər. Sazımız ağlayır dağlar başında. Məqalələr toplusu. Bakı, "Azərnəşr", 2014, 624 səh. – s.399-403
**171. Yunis İmrə**. Güldəstə. Ankara, 1990
**172. Yuri Borev**. Estetika. Bakı, "Təhsil", 2010, 256 səh.
**173. Yusif Hüseyn**. "Ömür nağıl imiş". Bakı, Orxan NPN, 2017, 192 səh. s.98
**174. Zamanov Nağdəli**. "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" (I kitab), Bakı, "Elm və təhsil", 2013, 480 səh.
**175. Zamanov Nağdəli**. "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" (II kitab), Bakı, "Elm və təhsil", 2014, 496 səh.
**176. Zamanov Nağdəli**. "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" (III kitab) Bakı, "Elm və təhsil", 2018, 520 səh.

**177. Zamanov Nağdəli**. Aşıq Şəmşir yaradıcılığında insan fəlsəfəsi // "Dünya" qəzeti, 2015-ci il
**178. Zamanov Nağdəli.** Aşıq Şəmşir yaradıcılığında etik və estetik fikirlər. // "Dünya" qəzeti, 2016-cı il
**179. Zəlimxan Yaqub.** Şəmşirli, Şəmşirsiz keçən günlərim. Dədə Şəmşir yaddaşlarda. Bakı, Gənclik, 2000, 360 səh. s.243-255.
**180. Zərdabi Həsən bəy**. Seçilmiş əsərləri, Bakı, 1960
**181. Zərraf Təhməzoğlu**. "Gorumuza sarı gedək...". Orxan NPM, Bakı, 2017. 240 səh. – s.183-184.

## *Xarici dillərdə*

**182. Айер А. Д.** Язык, истина и логика // Аналитическая философия: избранные тексты. М., 1993. С.50-66
**183. Беккер В**. Религия и мораль // СПб, 1999. С.263-281)
**184. Белик А**. Эстетика и современность. Изд.второе. М, 1967. стр.12
**185. Гарбузов В.И**. Человек-жизнь-здоровье. 2-е изд. СПб., 1995.
**186. Головин В.Н.** "Основы культуры речи". Москва,1980. 260 с.
**187. Голуб И.Б., Розентал Д.Э.** "Книга о хорошей речи". Москва, Кулътуро и спорт, юнити, 1997. 268 с.
**188. Канке В.А., Кузьмин Г.Г**. Философия здоровья. Обнинск, 2000
**189. Канке, Виктор Андреевич**. Современная этика: учебник М. : Издательство «Омега-Л», 2011,-394 с.
**190. Кант И**. Критика чистого разума // Кант И. Соч.в 6т. Т.3. М.,1964.

**191. Краностанов Э., Средний Д**. Основные эстетические категории. М., 1976
**192. Лекторский В.А**. Деятельностный подход: смерть и возрождение? Вопросы философии, 2001, №2, с.60
**193. Ленк Х**. Размышления о современной технике. М., 1996.
**194. Мамедзаде Ильхам.** Глобализация и мораль. В кн: Опыт интерпретации морали. "Муаллим нешриййаты". Баку-2006-168с.
**195. Мамедзаде Ильхам**. Мултикультурализм или о новых подходов в философии. Etikanın və estetikanın aktual problemləri (III), "Müəllim" nəşriyyatı. Bakı-2005 səh.3-7.
**196. Новиков Ю.В.** Экология, окружающая среда и человек. М., "Гранд Фаур", 2003
**197. Платон.** Соч., в трех томах, т.1.М., 1968, стр.158-166.
**198. Розин В.М.** Здоровье как философская и социально-психологическая проблема // Кентавр. Методологический и игротехнический альманах. 2000, №2. С.36-46.
**199. Толстых В.И.** Искусство и мораль. М., 1973
**200. Хёсле В**. Философия и экология. М., 2000
**201. Чернышевский Н. Г**. Эстетические отношения искусства к действительности. Соч.в 2-х т. Т.1, М., 1986
**202. Шестаков В.П.** Очерки по истории эстетики от Сократа до Гегеля. М., 1979.
**203. Шестаков В.П.** Эстетические категории. Опыт систематического и исторического исследования. М., 1983

**204. Bauman Z.** Postmodern Ethics. Oxford (UK), Cambridge, 1993.
**205. Beauchamp T., Childress J**. Principles of Biomedical Ethics. N.Y., 1979
**206. Downs A**. An Economic Theory of Democracy. N.Y., 1957.ethik
**207. Gottschalk N**. Diskursethik // elib.uni-stuttgart.de /opus/ volltexte/pdf/ de. Pdf/
**208. Habermas J**. Moralbewusstsein und kommunikatives Handeln. Frankfurt-am-Mein, 1993.
**209. Hare R.M.** Moral Thinking. Its Level, Method, and Point. Oxford, 1981
**210. Jonsen A. R**. The Birth of Bioethics.N. Y., 1998
**211. Kinne O.** Eco-ethics Consepts and Theses // Ethics in Science and
**212. Mason H.** E / Moral Dilemmas and Moral Theory. N.Y.,1974.
**213. Nozick R.** Anarchy, State and Utopia. N. Y., 1974
**214. Posner R.A** Economic Analysis of Law. Boston, 1972
**215. Sen A. K**. On Ethics and Economics. Oxford, 1987
**216. Sen A. K**. Utilitarism and Beyond. Cambridge, 1999.
**217**. **Stevenson C.** Ethics and Language. New Haven and London, 1944
**218. Strong C**. Ethics in Reproductive and Prenatal Medicine A new Framework. New haven etc. 1997.

**NAĞDƏLİ ZAMANOV**
**Aşıq Şəmşir yaradıcılığında fəlsəfi fikirlər**

**Bakı, "Elm və təhsil", 2018. – 512 səh.**

**“Elm və təhsil”** nəşriyyatının direktoru:
*professor* **Nadir MƏMMƏDLİ**

Kompyuter və dizayn: **Araz Yaquboğlu**
Texniki redaktor: **Arif Məmmədli**
Korrektor: **Elnur Mehdiyev**
Operator: **Hürü Zamanlı**

Yığılmağa verilmişdir: 10.05.2018
Çapa imzalanmışdır: 19.09.2018
Şərti çap vərəqi: 32 ç.v., Sifariş №321
Kağız formatı: 60x84, 1/16. Tiraj: 1000

Kitab **“Elm və təhsil”** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** elm_ve_tehsil@box.az
**Tel:** (+99412) 497-16-32, (+99450) 311-41-89
**Ünvan:** Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4